XƏLİYƏDDİN XƏLİLLİ

Kitabı Azərbaycan tarixi elminin inkişafında və tarix elminə yiyələnməyimdə əməyi olmuş Əli Ş.Haqverdiyevin unudulmaz xatirəsinə ithaf edirəm

SOVET TARİXŞÜNASLIĞI – MİLLİ ÖLÜM ELMİ

Bakı – 2010

Rəyçilər: **Əli Abbasov, fəlsəfə e.d., prof.;**
Aydın Balayev, tarix e.d.

Redaktoru: **Qərib Ə.-R. Qarannı**

Xəliyəddin Xəlilli «Sovet tarixşünaslığı – milli ölüm elmi». Bakı, «MBM» MMC, 2010, 400 səh.

Monoqrafiyada 1920-ci il 27 aprel tarixindən - Azərbaycanı işğal günündən sonra Sovet imperiyasının tarix elmini, o cümlədən onun xüsusi sahəsi olan etnologiyanı anti-elmə çevirib, ondan Azərbaycan xalqına qarşı sistemli etnosid siyasəti yeritməsi, uydurma konsepsiya, nəzəriyyə, hadisə və inqilablar (oktyabr, aprel) vasitəsi ilə xalqı ardıcıl olaraq milli ideya və ideologiyadan məhrum etməyə çalışmasının səbəb və nəticələri şərh olunur. Burada, ilk dəfə olaraq etnososial mənəvi varlığın formalaşması, inkişafı və tənəzzülünün qanun və kateqoriyaları, həmçinin etnososial mənəvi inkişafda tarix elminin rolu və vəzifələrindən bəhs edilir.

Nəşr tarixçilər, filosoflar, sosioloqlar, psixoloqlar üçün nəzərdə tutulub, geniş oxucu kütləsi üçün də maraqlıdır.

ISBN 978-9952-29-018-9

© **X.D. Xəlilli**

M ü n d ə r i c a t

Giriş 4

I Fəsil. Tarix özü, tarıx (etnologıya) elminin yaranması və inkişafı 10

II fəsil. Marksizmin Rus imperiyasında tarix, o cümlədən, etnologiya elmini milli ölüm elminə çevirməsi 29

III fəsil. İslam şərq dünyasında, həmçinin Azərbaycanda etnoloji fikir və etnologiya elmi tarixindən 72

IV fəsil. Kommunist Rus imperiyasının Azərbaycanda tarix elmini milli ölüm elminə çevirməsi... 170

V fəsil. Azərbaycanda etnologiya elminin milli ölüm elminə çevrilməsi..... 247

VI fəsil. Milli inkişafın hərəkətverici qüvvəsi haqqında tarixi-etnoloji elmi müddəalar 324

Nəticə 377

Ədəbiyyat siyahısı 390

GİRİŞ

1968-ci ildə tarix fakultəsinə qəbul olub, dərsə başladığım ilk günlərdən Sovet tarixşünaslığının saxtakarlığını, üçcildlik "Azərbaycan tarixi"nin milli ruhu təhqir etdiyini öz hissiyyatımda duydum. Xüsusən "Azərbaycan tarixi"nin birinci cildini soyuqqanlı oxuya bilmirdim. Etirazımı ifadə etmək üçün yazılanların üstündən qələmlə xətt çəkirdim. Qələmlə pozduğum "Azərbaycan tarixi" kitabını dərsə gətirib müəllim Əsgər Süleymaniyə göstərib, səhv yazıldığını iddia edirdim. Tələbə yoldaşlarımın çoxu məni anlamırdı, kitabda nəyinsə səhv yazılmasını mümkün hesab etmirdilər. Ümumiyyətlə, bu fikir XX əsrin 50-60-cı illərində bütün əhali arasında mövcud idi. Müəllim Əsgər Süleymani təmkinlə kitabın düz yazıldığını, mənim onu anlamadığımı çox mülayimcəsinə izah etməyə çalışırdı. Lakin dərslər davam etdikcə, yeni mövzuları oxuduqca bu kitabda yazılanlara nifrətim günü-gündən artırdı. Hətta bir dəfə özümdən asılı olmayaraq müəllim Ə. Süleymaninin sözünü kəsib düz danışmadığını bildirdim. Azərbaycan tarixini düzgün izah etməsini tələb etdim. Ədalət naminə Əsgər Süleymani bizə dərs deyən müəllimlər arasında ən savadlı və dünyagörüşlü pedaqoqlardan idi. O, bir qədər əsəbi vəziyyət alsa da, təmkinini pozmadı. Məni sakitləşdirdi; tənəffüsdə - onun yanına gəlməyimi tövsiyə etdi. Dərsdən sonra onunla görüşdüm. Bildirdi ki, bilməməzlikdən düz danışan adamları həyat təcrübəsi satqın, söz oğurlayan, hiyləgər adamlardan fərqləndirməyə imkan verir. "İnanıram ki, səni heç kim öyrətməyib, təfəkkürlü, milli düşüncəli gənc olduğun üçün "Azərbaycan tarixi"ndə yazılanları məntiqi cəhətdən qəbul edə bilmirsən, hisslərinə toxunur. Nəzərə al ki, 30-40-cı illər olsaydı, sən deyən sözləri deyən və eşidən adamlar elə həmin gün yoxa çıxardı. Heç indi də nə olacağını bilmirəm. Məni və özünü hansı cəhənnəmlik etdin, Allah bilir.

Dərsə gələndə mənə sual verərsən, ancaq nə izah etsəm razılaşarsan, əvvəllər səhv düşündüyünü etiraf edərsən. Ondan sonra bir daha mənə sual verməzsən, baxaq, görək cəhənnəmdən yaxa qurtara biləcəyik, yoxsa, yox?" Beləcə ayrıldıq, mən bir neçə dəfə onun dərsinə girmədim və sual da vermədim. Rastlaşanda çox soyuq salamlaşırdıq, daha doğrusu o, mənə salam verməyə və ya salamımı almağa qorxurdu.

Beləliklə, mən tariximizin saxtalaşdırıldığı, milli mənliyimizin tapdalanması haqqında düşüncələrimin düzgün olduğuna inandım. Bəzi müəllimlər belə sualları verəndə məni institutdan qovduracağı ilə hədələyir, bəziləri isə belə sualları auditoriyada yox, ikilikdə verməyi tövsiyə edir, doğru düşündüyümü bildirir və mənə rəğbətlə yanaşırdılar.

Tələbə vaxtı və sonralar aspirant yoldaşlarımla münasibətdə həmişə məni bir sual çaşdırır və mülahizələrimdə tərəddüd yaradırdı. Müəllimin məsələni düz izah etməməsi və ya kitabda problemin səhv yazılması məsələlərini irəli sürəndə yaxşı oxuyan yoldaşlarım belə mexaniki surətdə müəllimin düz izah etdiyini, kitabda yazılanların düz olması fikrində dururdular ki, bu vəziyyət məni fikrimdən döndərə bilməsə də, tərəddüdə məcbur edirdi. Müəyyən müddət gözləməli olurdum. Kommunizm quruculuğuna inanan, onun yolunu gözləyən "tarixçi" tələbə yoldaşlarım eyni inamla "yetkin sosializm"i tərifladilər və yolunu gözlədilər. Lakin yetkin sosializm yetişmədi ki, yetişmədi, için-için çürüyüb birdən məhv oldu, yoxa çıxdı.

Fikirləşirdim ki, SSRİ dağılanda kommunizm quruculuğunu vəsfə, Azərbaycanın tarixi coğrafiyasını, xalqın milli-mənəvi mədəniyyətini, qürur və mənliyini danmağa məcbur edilmiş "tarixçi"lər vətən və millət qarşısında günahlarını yumaq üçün xalqının milli-mənəvi tarixini yazmağa girişəcək, onların əli ilə qırılmış, pozulmuş milli-mənəvi varisliyin bərpa olunmasında tezliklə fəal iştirak

edəcəklər. Fəqət! Yalnız bir nəfər - akademik Tofiq Köçərli istisna olmaqla XX əsr Azərbaycan tarixini, arxivlərini, mənbələrini saxtalaşdırmış tarixçilərdən heç kim həqiqi milli tarixmizi yazmaqda iştirak etmədi. Milli mədəniyyəti, mənəviyyatı saxtalaşdırma elmi kimi istifadə etdikləri tarix elminin Azərbaycanda milli bərpa və quruculuq elminə çevirmədilər, yeni elmi və milli tarixi nəslin yetişdirilməsinə yardımçı olmadılar.

Mən xeyli sonra Kommunist Sovet imperiyasının qadağan etdiyi elmi ədəbiyyatları oxuduqdan sonra kütlə psixologiyası və alimin kütlələşməsinin səbəblərini öyrəndim. Azərbaycanda anadangəlmə elmi-nəzəri təfəkkürə malik nəsillərin genefondunun məhv edildiyini, hərdənbir üzə çıxan nəzəri təfəkkürlü yaradıcı şəxslərin reessiv genlərdən yarandığını başa düşdüm.

Təsadüfi deyil ki, fəlsəfə elmləri doktoru, professor, MEA-nın müxbir üzvü S. Xəlilov bir neçə əsərində tarixin elm olmaması haqqında mülahizələrlə çıxış etmiş, nəhayət, "Fəlsəfə: tarix və müasirlik" (B., 2006) adlı irihəcmli monoqrafiya yazmışdır. Azərbaycanda kifayət qədər tarix elmi müəssisələri, ali məktəblərdə onlarla tarix kafedraları, akademik, akademiyanın müxbir üzvü, elmlər doktoru, professor, tarixçi olduğu halda bir nəfər də olsun bu məsələyə münasibət bildirməmiş, nə elmi vəzifə borcunu, nə də daşıdığı elmi rütbənin şərəfini qorumağa təşəbbüs etmişdir.

Digər fəlsəfə tədqiqatçısı Mahir İsrafilov obyektiv olaraq qanun və kateqoriyası olmayan hər hansı tədqiqat sahəsinin, o cümlədən Azərbaycan tarixşünaslığının elm adlandırılmasına etiraz edir. Mülahizəsinin sübutu üçün yetərincə əlavə dəlillər də gətirir. Onun bu müddəası ali məktəblərdə tədris olunan "Məntiq" (B., 2005) dərsliyinə salınmışdır. Şəxsən özü Bakı Dövlət Universitetinin Tarix fakultəsində "Məntiq" fənnini tədris edir. Maraqlıdır, tarix fakültəsində tarixin müxtəlif sahəsinə aid ona qədər kafedra, ta-

rix elmləri namizədi və tarix elmləri doktoru elmi dərəcəsi verən elmi şura var, onlarla tarix elmləri doktoru, professor, dosent və elmlər namizədi çalışır. Mahir İsrafilovun haqlı olaraq göstərdiyi, iddia etdiyi kimi, tarix elminin müxtəlif sahələrinə aid dərsliklərin heç birində tarix elminin qanun və kateqoriyalarından bəhs olunmur, heç bir məlumat verilmir.

Tarixin elm olmaması haqqında mülahizələrin "Məntiq" dərsliyi vasitəsi ilə tədris olunması birinci növbədə Azərbaycanda tarix elminin doğurduğu fikirdir. Bu fikrə tarix elmi müəssisələrinin və tarixçilərin elmi münasibət bildirməməsi, adi bir polemika açmaması tarixi tədqiqatların aşağı səviyyəsinin, bu sahədə nəzəriyyənin olmamasının göstəricisindən başqa bir şey deyildir.

Bu yaxınlarda iki tarix elmləri doktoru, albanşünas adlandırılan tarixçilərin şahidi olduğum bir söhbətində alimlərdən biri dedi ki: "tay bəsdir, mən birmənalı yazacam ki, albanlar türkdür". İkinci alim isə canfəşanlıqla onu fikrindən döndərmək üçün "Sən belə etmə, canına yazığın gəlsin, elə yazsan, bir həftəyə səni ermənilər, gürcülər, ruslar öldürəcək" - dedi. Bu alimlərin hər ikisi təxminən 50 ilə yaxındır ki, Azərbaycan tarixinin qədim dövrünü tədqiq edir. Hər ikisi xeyli kitab müəllifidir. Bu kitabın üzərində işlədiyim günlərin birində "İctimai" televiziyanın "Ovqat" verilişinə baxırdım. Verilişin qonağı öz həyatı, baxışları nümunəsində insanlara həyat fəaliyyəti tövsiyə etməyə başladı. Aparıcı jurnalistlə qonağın söhbəti ədəbiyyatdan tarixə keçdi. Qonaq yaranmış şəraitdən istifadə edərək dinləyicilərə bildirdi ki, bəzi əks-təbliğatçıların təsirindən yeddicildlik "Azərbaycan tarixi"ni xalq almır. Məsləhət gördü ki, camaat bu kitabları alıb oxusun: "Nə edək, indi belə yazılıb, gələcəkdə də başqaları başqa cür yazarlar, onu alıb oxuyarsınız".

Tarix elminə belə – son dərəcə bəsit yanaşma əslində tarix elminin heç bir funksiyaya malik olmaması deməkdir.

Hər bir xalqın tarixi onun tarixi təfəkkür formalarının, elmi və milli şüur səviyyəsinin, əxlaqının, inam və etiqadının, hiss və duyğularının, adət-ənənəsinin, həyat tərzinin, milli simasının məcmusundan ibarət mənəvi qida və yaddaş xəzinəsidir. Azərbaycan Sovet tarixşünaslığının Azərbaycan xalqını bütün bunlardan məhrum edərək, onu bir "kor siçan" vəziyyətinə salaraq doğma tarixi torpaqlarını onun yaddaşına Ermənistan, Gürcüstan, Rusiya torpaqları kimi yerləşdirmiş, onu rusların mədəni təsiri altında oxumağı-yazmağı öyrənən əhaliyə çevirmiş, rusun himayəsi olmadan müstəqil yaşamağa qabil olmayan toplum olduğunu şüuruna, yaddaşına yeritmişdir. Bu tarixşünaslığı yaradan şəxslər açıq və gizli üsullarla Azərbaycan tarixşünaslığında bu ideyanı, ideologiyanı qoruyub saxlayır, tarixi tədqiqatların elmi səviyyəyə qalxmasına, elmi məzmun kəsb etməsinə imkan vermirlər. Bu sahədə etnoqrafiya öndə gedir.

Müstəqilliyimizi nə dərəcədə qorumağımız, ərazi bütövlüyümüzü nə dərəcədə bərpa etməyimiz, bütün milli mənəvi-mədəni, iqtisadi, siyasi, ideoloji quruculuğumuz tarix elmimizin inkişaf səviyyəsindən asılı olacaq. Dünyanın heç bir xalqının həyatında sosial-iqtisadi, mənəvi-ideoloji sahədə yaradıcılıq işi tarix elminin inkişafını qabaqlaya bilməyib. Azərbaycanda da qabaqlaya bilməyəcək. Çünki toplumun, millətin-etnosun sosial-mənəvi, ideoloji, iqtisadi-siyasi, elmi-nəzəri, intellektual inkişafının başlıca mənbəyi tarixi yaddaş, burada toplanmış mənəvi dəyərlər sistemi, mənəvi qidadır.

Hər bir bitki, ağac qidasının bir hissəsini fasiləsiz olaraq torpağın dərinliklərindən kökləri vasitəsi ilə aldığı kimi, hər bir xalqın (sosial-mənəvi varlığın) əsas milli qida bazası onun keçmişdə zaman-zaman yaratdığı maddiləşən, milli enerji kimi, yaradıcılıq qüvvəsi kimi çıxış edən mənəvi-mədəni dəyərlər sistemi, tarixi yaddaşıdır. Bitkinin kökləri torpaqdan qoparılanda yaşamaq qabiliyyətini itirdiyi kimi, hər bir etnos da tarixən yaratmış olduğu mənəvi dəyərlər sistemindən, tarixi yaddaşdan, mənəvi qida mənbəyindən ayrıldıqda məhv olur.

Bütün bunlar dünya xalqlarının həyatında, tarixində çoxdan elmi və praktiki cəhətdən sübut olunmuş həqiqətlərdir.

Biz əgər bir millət olaraq yaşamaq, varlığımızı davam etdirmək istəyiriksə, birinci növbədə tarixi mənəvi dəyərlər sistemimizlə Sovet tarixşünaslığının qırılmaq səviyyəsində zəiflətdiyi əlaqəni, tarixi yaddaşımızı tam bərpa etməliyik. Bunun isə bircə yolu var, o da tariximizə elmi və milli münasibətimizdən keçir. Azərbaycan tarixşünaslığında elmin qanun və kateqoriyaları elan edilməli, tarixə aid yazılan bütün əsərlər bu qanun və kateqoriyaların xəlbirindən keçirilməli, onlara bu tələbkarlıqla yanaşılmalıdır.

Azərbaycanın elmi və milli tarixini yazacaq, yaradacaq gənc tədqiqatçılara mən Kommunist Rus Sovet tarixşünaslığının elmi və milli tarixşünaslığımızı saxtalaşdırmasının ümumi prinsiplərindən bəhs edirəm. Nəzərə almaq lazımdır ki, mənim gördüyüm iş başlanğıc səviyyəsindədir. Odur ki, gənc milli tarixçilərimiz Azərbaycan Sovet tarixşünaslığının hər bir əsərinin hər səhifəsi, cümləsi üzərində xüsusi tədqiqat aparmalı, tarix elmi vasitəsi ilə xalqımızı milli-mənəvi dəyərlərdən qoparmaq üçün öz tarixi əsərləri ilə mənəviyyatımıza yeridilən yad dəyərlərin nədən ibarət olmasını və onun dərəcəsini müəyyən etməli, xalqımızı tarixlə müalicə edib sağlamlaşdıraraq, onun tarixi mövqeyi bərpa edilməlidir.

Hörmətli oxucu, əsərdə rastlaşacağınız müəyyən nöqsanlar, qoyulan məsələlərin izahında bütün elmi arqumentlərdən istifadə edilmədiyi təbii və obyektiv hesab edilməlidir. Axı, iki əsr ərzində Rus imperiyasının qurduğu ideoloji-siyasi tarix müstəmləkə piramidasının bir nəfər tərəfindən bir dəfəyə izah edilməsi mümkün olan iş deyil. Vətən və elmi tariximizin yaradılması naminə obyektiv elmi-tənqidi fikirlərini bildirəcək şəxslərə əvvəlcədən minnətdarlığımı bildirirəm.

I Fəsil.

TARIX ÖZÜ, TARIX (ETNOLOGIYA) ELMININ YARANMASI VƏ İNKİŞAFI

Sovet tarix və etnoqrafiya məktəbi haqqında aydın təsəvvürə malik olmaq üçün ilk öncə etnoqrafiyanın da tərkib hissəsi olduğu tarix elmi və sosializm haqqında dünya elmi və fəlsəfəsinin korifeylərinin dediklərinə, proqnozlarına zamanın təsdiq etdiyi mülahizə və mövqelərinə yenidən nəzər salmağa xüsusi ehtiyac var. Odur ki, bu sahədə bəzi ən mühüm fikirləri yenidən diqqət mərkəzinə çəkirik.

Zaman xəttində iqlim dəyişmələri, havaların istiləşməsi və soyuması, yeraltı qabarmalar və çəkilmələr prosesində yerin relyefi, bitki və heyvanat aləmi ardıcıl olaraq dəyişir, yeni forma və məzmun alır. Baş verən bu dəyişikliyə uyğunlaşa bilməyən bitki və heyvanlar aləmi, struktur bütövlüyünü, sistemini saxlaya bilməyən maddələr, canlılar varlığın, təbiətin bu dəyişmələri prosesində yeni keyfiyyət qazanır və ya bütövlükdə dəyişir, bir haldan başqa hala keçir. Bu prosesdə şüura yiyələnməklə insan əcdadı heyvanlar aləmindən ayrılır. Bu dövrdən o, təbiətin hazır məhsulları ilə qidalansa da, təbiətə təsir göstərməyə başlayır, əmək aləti, silahlar, yaşayış üçün mənzil-koma və s. düzəldir. Beləliklə irsi, reflektiv bilgilərlə bərabər, insan şüurlu bilik istehsal etməyə başlayır. Elə həmin vaxtdan da istehsal olunan biliyin yaddaşda qorunması və yeni nəsillərə ötürülməsi, yaşadılması qayğısına qalınır. Bu məqsədlə ilkin olaraq işarəli dili, bunun ardınca nitqi yaradır, qazanılmış təcrübəni gələcək nəsilə ötürməyin yeni formalarını və üsullarını da yaradır (1, 9-22; 2, 14-17). Bu proses piktoqrafik, ideoqrafik, sillaboqra-

fik, qrafik, fonoqrafik yazı növlərinin nitqdə bütün səsləri ifadə edən yazının, əlifbanın yaranmasından keçir (3, 9-12). Təsadüfi deyil ki, bu yazı növləri və ilk əlifba bəşəri sivilizasiyanın ilkin beşiklərində yaranmış, sosial təcrübənin, qazanılmış biliklərin yazı vasitəsi ilə yeni nəsillərə ötürülməsi, bu ölkələrdə sürətli sosial-mənəvi inkişafla nəticələnmişdir. **Mesopotomiya mixi yazıları, Misir heroqlifləri və Finikiya əlifbası ilə burada yaranmış dini biliklər, əfsanələr, ədəbiyyatın müxtəlif növləri, qəhrəmanlıq dastanları, əxlaq qanunlarını ifadə edən zərb misallar, məktəb, xüsusi təhsil sistemi, dərsliklər, elmi biliklər, riyaziyyat, astronomiya, tibb, günəş və su saatları, təqvim, hüquq qanunları, nəhayət, ölkənin sosial mənəvi, iqtisadi-siyasi həyatını, dövlət idarəçiliyi üsullarını dövrün mövcudluq haqqında biliklərini özündə əks etdirən, gələcək nəsillərə ötürən tarixi əsərlər yazıldı, tarixçi peşəsi formalaşdı, tarix elminin yaranmasının təməli qoyuldu** (3, 12; 4; 248; 249; 250). Bu hazır təcrübədən istifadə etmək dünyanın digər etnoslarının sosial-iqtisadi, mənəvi-siyasi inkişafının sürətlənməsinə imkan verdi. Beləliklə, dünya xalqları qazanılmış bilikləri qoruyub saxlamaq və gələcək nəsillərə ötürülməsinin müxtəlif, fərqli üsul və vasitələrini yaratdılar.

Yazının meydana çıxması ilə dövlətlər, ölkədəki vergi və mükəlləfiyyətləri, qonşu ölkələrlə əlaqələri yazdırmağa başladılar. Ölkələr və xalqlar, onların peşə və məşğuliyyətləri, adət-ənənələri haqqında bilgilərin toplanması və yaddaşda mühafizəsi qaydaları yarandı. Dövlətlər məmurlar vasitəsilə öz ölkələrinin, qonşu ölkələrin təbiətini, təsərrüfatını, əhalisinin məşğuliyyətini və s. təsvir etməyə başladılar. Bu bilgi toplanması dünyanın müxtəlif xalqlarında onların dillərinə məxsus söz və terminlərlə ifadə olunurdu. Bəzi xalqlar bu termin və sözləri qonşu xalqlardan hazır alırdı. Nəhayət, təbiət və cəmiyyət, xalqlar, istehsal haqqında toplanmış bilgilər

termin və sözlərlə ifadə olundu. E.ə. V əsrdə yaşamış yunan yazarı Herodotun ellin və qonşu xalqları təsviri "istoriya", o isə "istoriyanın atası" adlandırıldı. Dünya xalqlarının dillərinə "istoriya" sözü yunanlardan keçdi. Qədim yunanca "istoriya" – nəql etmə, bilinənlər, tədqiq olunanlar haqqında nəql mənalarında işlədilmişdir (12, 24). Azərbaycan türkcəsində işlədilən "tarix" sözü ərəb dilindən alınmadır, müəyyən bir işin görüldüyü vaxt – gün, ay və il; görülən işin vaxtını, gününü, ilini göstərən rəqəm; cəmiyyətin inkişafından bəhs edən elm (5, 582-583; 6, 390) mənalarında işlənməkdədir. Beləliklə, hələ antik dövrdən xalqlar haqqında səyyahların, digər yazarların məlumatları haqqında bəhs olunan xalqın, ölkənin tarixi hesab olunmuşdur. Qədim yazarların ayrı-ayrı tayfalar, xalqlar haqqında məlumatlardan aydın oldu ki, onlar bir-birindən fərqli adət-ənənəyə malikdir. Tayfalar və xalqlar arasında çox zaman eyni formaya malik adətlər tam fərqli məzmun kəsb edir. Hər-hansı bir tayfa onun adətinə sayğı ilə yanaşmayan tayfa və xalqa qarşı mənfi, barışmaz, hətta düşmən münasibət göstərir. Müəyyən olundu ki, tayfalar, xalqlar arasında xoş münasibət qurmağın ən mühüm yolu adət-ənənəsini öyrənib, onlara hörmətlə yanaşmaqdan ibarətdir. Beləliklə, tayfa və xalqlar özlərinin və münasibətə girmək istədikləri xalqların adət-ənənəsini, tarixini öyrənməyə başladılar. Tarix ilkin olaraq xalqların məişətinin müxtəlif sahələri haqqında məlumat, onlar arasında əlaqə və münasibət qurmağın bilgi vasitəsi kimi məzmun qazandı (7; 8). Bəşəriyyət inkişaf etdikcə xalqlar bir-birini daha çox öyrənməyə can atdı.

Bir çox hallarda bir xalqın nümayəndəsinin digər xalqın adət-ənənəsini, mədəniyyətini, iqtisadiyyatını öyrənməsi xoş niyyətlə deyil, ona qarşı bədxah istəyinin həyata keçirilməsi məqsədi ilə edilirdi. İnsanlıq inkişaf etdikcə, şüur, idrak yüksəldikcə tarix anlayışına münasibət dəyişir, insanlar "ta-

rix" məfhumu altında təbiət və cəmiyyətin vəhdətdə olan, dəyişən və inkişaf edən daha böyük hadisə və prosesini anlamağa, şərh etməyə cəhd göstərdilər. Təbiət və cəmiyyətdə gedən prosesin, hadisələrin sadə təsviri və qeydə alınmasından ibarət olan tarix anlayışı getdikcə zənginləşirdi. Daha əhatəli hadisə və proseslər məcmusu hesab olunurdu.

Özlərini və başqa xalqları təsvir etməyə Avropada yunan və romalılar, Şərqdə Şumerlər, çinlilər, daha çox maraq göstərirdilər. Hələ eramızdan əvvəl Şumerlərdə, Çində, Yunanıstanda, Romada tarix sənət, peşə sahəsi kimi formalaşdı, tarixçilər yarandı. Antik dövrün yunan və roma tarixçiləri "yunan və roma dünyasını bütün yerdə qalan dünyadan ayırır və bu vəhşi dünyaya qarşı qoyurdular" (9, 529). Avropada tarixə antik dövr baxışını xristian ideologiyası əvəz etdi. "Onların baxışına görə, tarix ilahi qüvvənin niyyətinin həyata keçməsi və insanın fövqündə duran xüsusi layihənin reallaşmasıdır...tarix yalnız xristian xalqlarına aiddir. Bütün qalan bəşəriyyət tarixdən kənardır" (9, 529). Beləliklə, xristian dini yarandığı gündən özünü bütün ondan olmayanlara qarşı qoydu və xristian fundamentalizmi yaratdı. Xristian dünyasını ardıcıl olaraq başqa dinlərə, sonradan müsəlmanlara qarşı təcavüzə səfərbər etdi, irqçi ideologiya kimi fəaliyyət göstərdi.

Qeyd edək ki, İslam dini xristian və digər dünyəvi dinlərlə ümumi ideoloji əsaslara malikdir. Odur ki, İslam dininin təməl kitabı "Qurani-Kərim" hər cür dini, milli-irqi ayrıseçkiliyi qadağan edir. Təbiət və cəmiyyətin qədim dövrü haqqında bilgilər göstərir ki, Xristian və İslam dini, digər səmavi dinlər, tayfa və xalqların ibtidai inam və etiqadlarının ideoloji təsiri altında olmuşdur.

Göründüyü kimi, "tarix" termini ilkin yaranışda sadəcə olaraq müəyyən informasiyanı tayfa, xalq və ölkə haqqında məlumatı ifadə edən termin və ya anlayış idi. Zaman keç-

dikcə tarix daha geniş məfhumu – insanlığın, bütövlükdə varlığın yaranması haqqında bilgi məcmusu kimi başa düşülməyə başlanır. Tarix anlayışı altında ən çox hakim sülalələrin, görkəmli şəxsiyyətlərin tərcümeyi-halları yazılırdı. Qədim və ilk orta əsrlər tarixşünaslığında cəmiyyətin inkişaf qanunlarından bəhs olunsa da, bu hələ tam elmi bilgilər deyildi.

Orta əsrlərdə dünya xalqları tarixində, qismən İslam Şərq tarixşünaslığında elmiləşmə prosesi gedir. Nəhayət, **XIII əsrdə N.Tusi "Əxlaqi-Nasiri" əsəri ilə elmin yeni bir sahəsini "ictimaiyyat elmi"ni (etnologiya) elmini yaradır. Ümumiyyətlə, N.Tusi bu əsərində bütövlükdə varlığa, sosial həyata, fərdə sistemli yanaşma nəzəriyyəsini yaradır. Onun ardınca İbn Xəldun (1332-1406) tarix fəlsəfəsini yaradır. O, yazırdı: "Tarix elminin mahiyyətinə baxaq. Bu, əsas həqiqətləri araşdırmaq və onların doğruluğunu təsdiq etməkdən ibarətdir. Onun doğurduğu səbəblərini aydınlaşdırmaq eyni olanların keyfiyyətini və başvermə səbəblərini dərin bir şəkildə anlamaqdır. Bunun üçün fəlsəfənin ən mühüm bölmələrindən biri kimi yazılır və onun hissələrindən biri sayılmalıdır"** (247, 52-54). Bununla da Şərq tarixşünaslığı xronoloji tarixçilikdən elmi tarixə keçirir. Azərbaycan tarixşünaslığında elmi tarixçilik xronoloji tarixçiliyi üstələyir (103; 166, 219-220).

Avropada tarix təbiətin və cəmiyyətin, bütötlükdə varlığın dəyişmə və inkişaf prosesi, bu dəyişmə və inkişafın gedişi, səbəblərini öyrənən elmə yalnız yeni dövrdə çevrildi. İlk dəfə İtalya mütəfəkkiri C. Viko (1668-1774) tarixin mənasını təbii zərurət anlayışı ilə əlaqələndirdi. Bu ideyanı fransız maarifçiləri inkişaf etdirdi. Avropada ilk dəfə Volter 1765-ci ildə "tarix fəlsəfəsi" anlayışını işlətdi. Bununla da tarix elmini mənalandırmaqda səfərbəredici iş gördü. Ümumiyyətlə, maarifçilər tarixin mənası və istiqamətini insan zəkasının tərəqqisi ilə əlaqələndirirdilər. Onlar bəşəriyyətin tarixinə zəka-

nın tərəqqisi mərhələsi kimi yanaşırdılar (9, 530).

Kant alman fəlsəfəsində tarix fəlsəfəsinin əsasını qoydu. XVIII əsr alman mütəfəkkiri İ. Herder tarixi prosesin izahında irəliyə doğru yeni bir addım atdı. O, ümumdünya tarixi konsepsiyasını işləyib hazırladı. Herder təkamülçü idi. Buna görə də ümumdünya tarixi anlayışına canlı təbiətin və üzvi aləmin təkamülünü də daxil edirdi. Onun fikrincə bu təkamül rəvan şəkildə bəşəriyyətin tarixinə keçir. Sonuncunun məqsədi isə mücərrəd şəkildə götürülən humanizm və rifah əldə etməkdir (9, 531).

Herder tarixi prosesin əbədi məqsədə (insanın tərbiyəsinə və təkmilləşməsinə) istiqamətləndiyi haqqında maarifçilik ideyasını müdafiə edirdi. O, əsas diqqəti mədəniyyətin tarixi formalarının rəngarəngliyinə, onların özəhəmiyyətliliyinə yetirdi. Herderə görə, "mədəniyyətlərin rəngarəngliyi ümumdünya tarixinin, hərəkətinin ahəngdarlığı, onun vahid mütənasib tamlığını yaradır. Bu tamlıq isə bəşəriyyətin birliyinin inkişafının vahid zənciri və ənənəsi kimi çıxış edir. Bu zəncirin hər bir halqası özündən əvvəlki və sonrakı halqalarla sıx bağlıdır. Beləliklə, Herder tarixin mənasını anlamağa yeni baxışın – tarixizmin bünövrəsini qoymuşdur" (9, 532).

Klassik alman fəlsəfəsinin nümayəndələrindən Hegel tarix anlayışının məzmununa, onun dərk edilməsinə xüsusi əhəmiyyət vermiş, bu mövzunu kifayət qədər şərh etmişdir. O yazırdı ki, ümumdünya tarixi "dünya ruhunun ağıllı, zəruri təzahürü" kimi çıxış edir. Dünya ruhu öz inkişafında bir neçə mərhələdən keçir. Hegelin fikrincə, ümumdünya tarixinin son məqsədi ruhun öz azadlığını başa düşməsi və həyata keçirməsidir. Bu məqsəd tarixi hadisələrin hər cür dəyişkənliyində daim mövcud olur. Çünki o, bütün bu dəyişikliklərin fəal əsası kimi çıxış edir. Hegelə görə, "ayrı-ayrı xalqların ruhu" zamanda və mövcud varlıqda inkişaf edən

dünya ruhunun momentləri və mərhələləridir" (9, 532). Hegel tarixi inkişaf prosesində insan fəaliyyətinin roluna əhəmiyyətli yer verərək göstərirdi ki, tələbatlardan və mənafelərdən irəli gələn fəaliyyət dünya ruhunun aləti və vasitəsidir. Artıq bu dövrdə tarixə tədqiqat sahəsi kimi ciddi münasibət o dərəcəyə çatmışdı ki, tarix fəlsəfə ilə müqayisə olunurdu. Tarixin fəlsəfədən doğması, fəlsəfənin tarixdən doğması fikrinə aydınlıq gətirmək dövrün aktual, zəruri probleminə çevrilmişdi. Bu diskussiyaya münasibət göstərən Hegel yazırdı: "Fəlsəfə fəlsəfə tarixidir" (10, 98). Fəlsəfəsini Hegel sistemi əsasında quran Kroçe belə qənaətə gəlir ki, "nəticədə tarix fəlsəfi olur, fəlsəfə də tarixi" (10, 99). Ümumiyyətlə, fəlsəfə tarixində "Fəlsəfə tarixi həm fəlsəfi, həm də tarix elmidir" mülahizəsi ümumən qəbul olunmuş fikridir (11, 23).

Beləliklə, Hegelin tarix fəlsəfəsində insan zəkasının rəhbər rolu haqqındakı fikirlər insandan yüksəkdə duran zəka ("dünya ruhu") ilə əvəz olunurdu. Ruhun və zəkanın bu cür mistikləşdirilməsi prosesində Hegel fəlsəfi fikrin inkişafı üçün yeni və son dərəcə mühüm bir məsələ irəli sürdü. Söhbət tarixi prosesin obyektiv qanunauyğun xarakterinin aşkar edilməsindən gedir. Hegel tarixin gedişini istiqamətləndirən "Zəka"nı həm bu prosesin iştirakçılarının şüurlu məqsədlərindən asılı olmayan zərurət kimi təsəvvür edir, həm də onun mənbəyini Allahda və təbiətdə görmürdü. Onu müstəsna dərəcədə insanın fəaliyyəti ilə əlaqələndirirdi (9, 533). XIX əsrin sonları XX əsrin əvvəllərində neohegelizmin yaradıcılarından biri B. Kroçeyə görə, tarix fəlsəfədən deyil, fəlsəfə tarixdən gəlir, fəlsəfənin məntiqi tarixin məntiqidir (10, 96).

XVIII əsrdən başlayaraq bəşəriyyət dahilərinin müzakirəsinə cəlb olunan tarix anlayışı XIX-XX əsrlərdə məhz Avropada da xronist bilgi mənbəyi kimi qalmayaraq, dünyanın

inkişaf prosesini insana açan elmə çevrildi. Yəni yalnız hadisələri, görüntüləri deyil, onların mahiyyətini, doğuran səbəbləri, həqiqəti ifadə edən bilgilər sisteminə çevrildi. XVIII əsrə qədər Avropada tarix adlanan bilgilər ölkələr və xalqlar haqqında fraqmental təsvirlər, bilgilər idi. Hər hansı bir xalqın inkişafını, dəyişilməsi səbəblərini və digər xalqlarla əlaqələrini, yəni obyektiv tarixi prosesləri ifadə etmirdi.

Avropada tarixin xronist bilgilərdən elmə çevrilməsində yalnız yuxarıda adlarını çəkdiyimiz mütəfəkkirlər deyil, alim və filosoflarının böyük bir nəsli iştirak etmişdir. Onlar tarixi müxtəlif cür izah etsələr də, bir həqiqəti müəyyən etdilər ki, tarix fəlsəfədən deyil, fəlsəfə tarixdən doğur. Artıq **XIX əsrin birinci yarısında Avropada xronist tarixçilik elmə çevrilmişdi. Tarix təbiət və cəmiyyətin vəhdətdə, dinamik inkişaf və dəyişmədə olan prosesi, tarix elmi bu proses və dəyişmənin səbəbləri, gedişi və nəticələrindən bəhs edən elm kimi dəyərləndirilirdi.** Beləliklə, insanlıq təbiət və cəmiyyətdən şüurlu, məqsədyönlü istifadə etmək imkanı qazandı.

Alim və filosoflar tarixin təbii-sosial proses olması ideyasını yekdilliklə qəbul etmişdilər, lakin ayrı-ayrı tədqiqatçılar tarixi proseslərdəki səbəblərin bəzilərini aparıcı, törədici, yaradıcı kimi dəyərləndirirdilər. Elə bu səbəbdən də tarixi proses və inkişafın qanunauyğunluğu haqqında müxtəlif nəzəriyyələr yarandı.

Avropanın görkəmli filosofları – Kant, Herder, Hegel, Feyerbax, Volter, Russo, Kant, Şopenhauer, E. Dürkheym və başqalarının nəzəriyyələri yarandı. Alman filosofu Kant tarix fəlsəfəsinin əsasını qoydu. Bu nəzəriyyələr bütövlükdə metafizik-idealist nəzəriyyələr idi. Varlığa, tarixə yanaşmada onları birləşdirən cəhət varlığın – tarixin təşəkküründə ruhun – mənəvinin rolu məsələsi idi. Onların təsəvvür etdikləri mütləq ideya, ruh müxtəlif, onun varlığa təsiri prosesi fərqli idi, lakin tarixi inkişaf prosesində əsas hesab edilirdi.

Bu müxtəlifliyi görkəmli filosof F. İsmayılov belə ümumiləşdirmişdir: "Tarixə məhəbbət baxımından Kroçenin Hegeldən irəli getməsi mübahisəsiz qəbul olunan faktdır. Tarix Kroçe üçün mütləq - əbədi dəyişməz Absolyutdur; Bredelinin Absolyutunu Kroçe tarixdə tapırdı. Onun tarix anlayışı Hegelin "Mütləq ruh"u, Şopenhauerin "iradə"si, Berqsonun "intuisiya"sı ilə sinonimdir (10, 99).

Yuxarıda deyiləni **B. Kroçenin tarix anlayışına verdiyi şərh aydın ifadə edir. O, "Varlığı öz tarixi olan obrazlar aləmi kimi düşünürdü". Obrazlar aləminin mahiyyəti tarixin həmin mərhələsinin xarakterinə mütabiq olur; tarix necədirsə, obrazlar aləmi – reallıq da elədir. Başqa cür ola da bilməz, ona görə ki, insanın bütün mahiyyətli qüvvələrini – dili, təfəkkürü, duyğuları, intuisiyanı, zövqləri və s. tarix yetişdirir. Tarixin məhsulu olan bu qüvvələr sonralar tarixin özünün dərki və prosesin irəliləməsi üçün şərtdir. Tarix nəyi əkirsə, onu da biçir, yəni insanı, onun mahiyyətli qüvvələrini necə yetişdirirsə, sonradan həmin qüvvələr də tarixi o cür inkişaf etdirir – ona o cür də xidmət edir. Tarix ali qanunvericidir; o, insanın hərəkət və rəftar modelinin, təfəkkür və ifadə tərzinin mənalılıq və ağlasığanlılıq normalarını və meyarlarını hazırlayır. Tarix həyatın və idrakın güzgüsüdür. Tarixin mövcudluq forması azadlıq, fəaliyyət prinsipi müstəqillikdir. Tarix yeganə yaradıcı qüvvə, daim təşəkkületmə və inkişaf vəziyyətində olan reallıqdır; o problemlərin yaradıcısı və həlli üsuludur"** (10, 99). Metafizik baxışa görə, tarixi prosesi ruh yaradır, ruhu isə tarix (10, 100 – 101; 15).

Yeni dövrdə Avropada tarixin elmə çevrilməsindən sonra ona maraq daha da artdı. Yuxarıda gördüyümüz kimi, dünyanın ən zəkalı mütəfəkkirləri tarixi şərh etməklə bəşəriyyəti insanın dərk edəcəyi obyektə çevirməyə cəhd göstərdilər. Beləliklə, "tarix vahid və bütöv prosesdir", "təşəkkül və inkişafdır" müddəası tarixi müxtəlif cür izah edən bütün

mütəfəkkirlər, fəlsəfi cərəyanlar tərəfindən qəbul olundu və bu gündə bu mənada işlənməkdədir. Tarixin belə mənalandırılması onu varlıq termininin sinomininə çevirir.

Bununla bərabər, əsasən tarixçi adlanan şəxslərin ayrı-ayrı ölkələrin xalqları, sosial-siyasi, mədəni-mənəvi həyatı haqqında subyektiv yazıları tarix, tarix elmi adlandırılmaqdadır. Tarix terminindəki bu dolaşıqlıq, qeyri-müəyyənlik bu gün də davam etməkdədir. Ümumbəşəri proses və təşəkkülün tarix adlandırılması tarix elmi qarşısında bunların səbəbləri və gedişini açmaq vəzifəsi qoyurdu. Yeni formalaşan kapitalizm cəmiyyətinin liderlərinə, sahibkarlarına insan psixologiyasından tutmuş bütün təbiət qanunlarına – iqlim, geologiya, kimya, biologiya, tarix, riyaziyyat, mexanika və s. qanunlarının bilinməsinin işlərin səmərəli qurulmasına imkan verdiyi diqqəti aydın cəlb edirdi. **Odur ki, təbiət və cəmiyyət qanunlarından bəhs edən elmlər tarixi təşəkkül prosesinin tərkib hissəsi kimi öyrənilir.**

Beləliklə, bütünlükdə kainatın öyrənilməsinə başlandı. Geologiya, bitkilər və heyvanlar aləmi, varlığın ən kiçik hissəcikləri atomlara qədər tədqiq olundu. Hətta bitkilərin tarixi öyrənilməyə başlandı. Beləliklə, kimya, fizika, riyaziyyat, incəsənət və s. tarixləri yarandı. Həmin dövrə qədər Avropada ölkələr və xalqlar haqqında məlumatlardan ibarət olan sosial-siyasi tarixin etnoqrafiya (etnologiya) adlanan yeni bir sahəsi meydana çıxdı.

Avropanın istər ayrı-ayrı şəxsləri, istər mütəxəssisləri, istərsə də dövlətləri dünyanı qlobal dərk etmək, yaxud ondan faydalanmaq istəyəndə bu nəzəriyyələrin nəticələrindən və ya konkret məqamlara uyğun elmi müddəalardan, etnososial duruma uyğun davranış prinsiplərindən istifadə edirdilər. Beləliklə, tarix elmi praktiki elmə – siyasəti, milli münasibətləri, xalqlar arasında xeyirxah ünsiyyətin və ziddiyyətin qurulmarında istifadə edilən faydalı vasitəyə çevrilmişdir. Ta-

rix elminə praktiki faydalılıq prinsipi ilə yanaşma Qərbi Avropada onun sürətli inkişafına təkan verməklə bərabər yeni bir sahəsi – etnologiya elminin yaranması ilə nəticələndi. Tarix elminin bu yeni sahənin "etnologiya" adlanması təsadüfi deyildi. Hələ antik dövrdə yunanlar özlərindən başqa onlarda olmayan adəti, etiqadları, həyat tərzi, dəyərləri ilə fərqlənən digər xalqları "etnos" adlandırırdılar. Yunanca "etnos" "xalq" deməkdir. Odur ki, bu termin Avropada xalqı müxtəlif cəhətdən dəyərləndirmək mənasında fasiləsiz işlənmiş, tarix elminin xalqa kompleks yanaşan yeni sahəsinə də bu ad verilmişdir.

Hələ qədim dövrdə və orta əsrlərdə səyyah və yazarlar ayrı-ayrı ölkə xalqlarının bədən quruluşlarının, dəri, göz və saçlarının rəngi, adət-ənənələri, rəftar və davranış normalarının bir-birindən fərqlənməsi haqqında bəhs etmiş, həmçinin bir tayfa, yaxud xalqda mövcud olan adət-ənənənin digəri üçün qəbuledilməz hesab olunması, biri üçün müqəddəs tottem olan bitki və ya heyvanın digəri üçün adi bir canlı, bəzən də mənfi qarşılanması haqqında məlumat vermişlər. Mənbə və tədqiqatlardan aydın olur ki, hələ qədim dövrlərdən dövlətlərarası münasibətlərdə digər dövlətlərin, xüsusən müharibələr zamanı işğal olunmuş ölkələrin əhalisinin adət-ənənəsinə aldadıcı hörmətlə yanaşır, əsarət altına alınmış xalqların rəğbətlərini qazanıb, müvəqqəti də olsa, tabe vəziyyətə salırdılar. Tarixdə tabe edilmiş xalqların adət-ənənəsinə etinasızlığa qarşı müxtəlif formalı mübarizələr və həyatını qurban vermək dərəcəsində çoxsaylı üsyanlar məlumdur. Qədim dövr və orta əsrlərdə müharibələr zamanı tayfa və xalqların adət-ənənəsindən, inanclarından istifadə edilmiş, lakin bu, sistemli bir üsula çevrilməmişdi. Çünki hələ insan və xalqlar haqqında bilgilər elmi səviyyəyə yüksəlmədiyindən milli xarakterin xüsusiyyətlərindən sistemli şəkildə, məqsədli istifadə olunması mümkün deyildi.

Böyük coğrafi kəşflərlə tayfa və xalqların özünəməxsus fərqli xüsusiyyətləri haqqında qısa müddətdə əvvəlki dövrlərdəki ilə müqayisəyəgəlməz zəngin olan məlumat toplandı. Bu məlumatlar göstərirdi ki, hər bir toplum ona məxsus adət-ənənə, inam və etiqadlar, bütövlükdə mənəvi dəyərlər zəminində yaranır, onun mövcudluğunu şərtləndirən bu dəyərlər müqəddəsləşdirilir, pozulmaz qanunlar kimi əməl olunub qorunaraq yaşadılır və özləri də bir toplum kimi bu mənəvi dəyərlər zəminində yaşayır və varlıqlarını davam etdirir.

Beləliklə, Avropada kapitalizmin inkişafı təbiət resurslarından daha çox faydalanmaq istəyi təbiət qanunlarının dərk edilməsinə imkan verən elmlərin yaradılması zərurətini ortaya qoyduğu kimi, özünü bütün dünyaya qarşı qoyan, dünya xalqları üzərində hökmranlıq iddiasına düşən Avropa kapitalizminin yer kürəsinin ayrı-ayrı ərazilərində məskunlaşmış, bu əraziləri müqəddəsləşdirərək vətənə çevirən, yadları müqəddəs vətənə buraxmayan, onu bütün varlığı ilə qoruyan xalqların ruhundakı müqəddəsliklərin səbəblərini, onların adət-ənənələrini, inam və etiqadlarını, bütövlükdə mənəvi dünyalarını öyrənməsini də zərurətə çevirmişdi. Çünki XVI əsr Avropası Nizami Gəncəvinin XII əsrdə dediyi o həqiqəti dərk edirdi ki:

> "Qüvvət elmdədir, başqa cür heç kəs
> Heç kəsə üstünlük eyləyə bilməz."

Beləliklə, XVI əsrdə Avropada insanın, xalqların emprik səviyyədə öyrənilməsindən elmi səviyyədə öyrənilməsi istiqamətində araşdırılmasına başlandı. Hələ antik dövrdə Aristotelin yunanca "insan haqqında elm" mənasında işlətdiyi "antropologiya" anlayışı yenidən elmi dövriyyəyə gətirildi. Maqnus Xundtın "İnsanın ləyaqət, təbiət və xüsusiyyətlərinin antropologiyası və insan bədəni elementlərinin hissələri

və üzvləri haqqında" (1501), Qaleatso Kapellanın "Antropologiya, yaxud insanın təbiəti haqqında fikirlər" (1533), Kosmanın "Antropoloji psixologiya və ya insanın ruhu haqqında təlim" (1594) və s. kimi əsərlər nəşr olunmağa başladı (27, 3). Beləliklə, böyük coğrafi kəşflərlə dünya xalqlarının mülki, siyasi və iqtisadi cəhətdən öyrənilməsi ilə bərabər fiziki və psixi, mənəvi cəhətdən də öyrənilməsinə başlandı. Xalqların bu cür öyrənilməsi ingilisdilli xalqlarda "antropologiya" termini altında aparıldı. Bu dövrdən Qərbi Avropada "etnoqrafiya" termini altında Avropa xalqlarının və başqa xalqların xüsusilə mənəvi cəhətdən öyrənilməsinə göstərilən cəhdlər artırdı. Avropanın bəzi xalqları "etnoqrafiya" anlayışını doğma dildə "xalqşünaslıq" mənasını ifadə edən termindən istifadə edirdilər. (29, 21-23).

1830-cu ildə fransız naturalist fiziki Jan-Jak Amper elmlərin təsnifatını verərkən tarix elminin bu yeni sahəsini "etnologiya" adlandırdı (29, 22; 30, 10). Tarix elminin yeni sahəsinin etnologiya adlandırılması sürətlə Avropa ölkələrində qəbul edilirdi. 1839-cu ildə Parisdə "Etnologiya cəmiyyəti" fəaliyyətə başladı və müstəqil elm sahəsi kimi formalaşdı (30, 10). Ancaq bu tarixdən sonra da xeyli müddət "etnologiya" və "etnoqrafiya" terminləri sinonim kimi işləndi. Lakin "etnoqrafiya" və "etnologiya" terminlərinin lüğəti mənasının müqayisəsi zamanı etnoqrafiya termininin elmi mahiyyət kəsb etməməsi tarix elminin bu yeni sahəsinin etnologiya adlandırılmasının obyektivliyinə əsas verirdi və onun etnologiya adı altında tanınması ardıcıl üstünlük qazandı. Lakin İngiltərə və ABŞ-da əvvəlcə antropologiya, sonra ABŞ-da kulturoloji antropologiya, İngiltərədə isə sosial antropologiya adlandırılaraq etnologiya termininin sinonimi kimi işləndi. Lakin alimlər arasında gedən diskussiyalarda tarix elminin bu yeni sahəsinin insanı və bəşəriyyəti öyrənməni, dərk etmə faktını əhatə etməsi və etno-

logiya adlandırılması ardıcıl qəbul olunmada idi.

Rusiyadan cənubda və şərqdə tarixinin hərbi qüdrət zirvəsini yaşamış, tənəzzül dövrünü keçirən türk xalqları, qərbdə isə gənc, əksər məsələlərdə elmə söykənən, elmi təfəkkürə malik, dünyada hegemonluq siyasəti yeridən Qərbi Avropa xalqları yaşayırdı. Avropa və Asiya tayfalarının sintezindən yaranan, hər iki qitə mədəniyyətinin daşıyıcısı, bir çox hallarda mənfi daşıyıcısı olan gənc ruslar isə say çoxluğundan istifadə edərək xarici siyasətdə Qərbi Avropa xalqları kimi hegemonluq iddiasına düşmüşdülər.

Hələ etnologiya elmi yaranmazdan çox-çox əvvəl emprik şəkildə fəhm edilmişdir ki, hər bir xalqın mövcudluğu, milli iddiası onun özünəməxsus milli xarakteri və intellektual səviyyəsi ilə müəyyənləşir. Bu iki keyfiyyətin vəhdəti xalqlara milli yaradıcılıq imkanı verir. İntellektual səviyyənin çatışmaması xalqları yaradıcılıq və milli iddiadan məhrum edir. Xarakterin itirilməsi isə intellektual səviyyədən asılı olmayaraq toplumun parçalanıb məhv olması ilə nəticələnir.

Milli xarakteri ancaq xalq özü yarada - istehsal edə bilər. Onu başqasından ancaq minimum dozalarda qəbul etmək olar. Çünki o, təbiətlə vəhdətdə etnosun mənəvi-ruhi özünəməxsusluqlarını yaratmaqla ancaq onu yaradan xalqın xarakter xüsusiyyəti kimi çıxış edir. Başqa bir xalqda bu keyfiyyət eyni məzmun və formada heç vaxt təkrarlana bilməz. Mənəvi dəyərlərdən fərqli olaraq, elmi kəşflər, onların mənimsənilməsi, onlardan istifadə bütünlüklə bunun əksini təşkil edir.

Elmin həm xüsusi, həm də ümumi qanunları təbiətdə və cəmiyyətdə ümumi olduğundan, onu kimin kəşf etməsindən asılı olmayaraq, hamıya eyni dərəcədə xidmət edir. Onu hansı toplum daha çox mənimsəyərsə, o daha güclü olur, daha geniş yaradıcılıq imkanı qazanır. **Elm həmişə mənəvi dəyərlərin, mənəvi varlığın enerjisi kimi çıxış edir. Elə bu sə-**

bəbdən tarixdə kifayət qədər fakt vardır ki, bəzi xalqlar hər hansı bir elmi kəşf edən xalqlardan əvvəl həmin kəşfi mənimsəyir, istifadə və tətbiq etməklə intellektual səviyyəsinə görə elmi kəşfin sahibini ötüb keçir. Hətta onun üstündə ağalıq da edir, onu köləyə də çevirir. Məsələn, bunun ümumi bariz nümunəsi Avropanın Şərqin elmi dəyərlərini mənimsəmək və təkrar istehsalda ondan yüksəyə qalxıb bütün Şərqi, xüsusilə müsəlman xalqları əsarətdə saxlaması. Konkret fakta istinad etsək, farslar və ruslar yaranışdan elmi və intellekt oğurluğu ilə yaşayır, əmlakını oğurladıqları xalqları əsarət altında saxlayır. Dövlət quruculuğunda heç bir yaradıcılıq göstərməmiş farslar üç dəfə türk (e.ə. 550-də Midiya, 224-cü ildə Parfiya – türkmən və 1925-ci ildə Qacarlar) sarayına yol tapıb dövlət çevrilişi ilə hakimiyyətə gəlib, bu xalqları əsarətə salıb, onların bütün tarixi nailiyyətlərini öz adlarına çıxıb, özlərinə süni dövlətçilik tarixi uydururdular.

Digər fakt, ədalət naminə farslardan fərqli olaraq ruslar özləri bunu etiraf edirlər. Sonralar Rus adlanan şərqi slavyanlar Çingiz xanın yasasını mənimsəməklə adət-ənənə, kilsə idarəçiliyi yaratmaqla XV əsrin sonunda xalq kimi ilkin təşəkkül tapdı. XVII əsrin sonunda xalq kimi formalaşa bildi. Gəmiçiliyini Avropadan, xüsusilə Hollandiyadan, ümumən elmi almanlardan əxz etdilər, davranış qaydaları: əl-üz yumaq, hamamda çimmək, üzü qırxmaq kimi adətləri I Pyotr ruslara zorla qəbul etdirdi (34, 50; 52, 53). Başqa xalqlardan qəbul edilmiş elmin və mədəniyyətin bir qrup əhaliyə, bir sosial təbəqəyə zorla qəbul etdirilməsi ümumi rus xalqının mədəni-intellektual səviyyəsini dəyişə bilmədi. İbtidai icma quruluşundan feodalizmə keçən və bütün bu tarixi mərhələni amansız təhkimçilik hüququ ilə yaşayan Rus xalqının yaradıcılıq qabiliyyətini öldürmüşdü. Say-kütlə gücü hesabına rus hakimiyyəti hegemonluq iddiasına düşsə də, milli intellektual səviyyəsinin aşağılığı bu iddianın real-

laşdırılmasına imkan vermirdi.

Rus xalqının istər özü üçün və istər Avropa, dünya ictimai fikri üçün yaradıcılıq impulsu verən heç bir iş görmədiyi onların özləri tərəfindən etiraf olunurdu. **P.Y.Çadeyevin, N.O.Losskinin sözləri ilə desək "dünyaya heç nə verməmiş", "fəlsəfi fikrin inkişafı üçün heç bir əhəmiyyətli" iş görməmiş ruslar təbiət və cəmiyyət elmlərini natamam və təhrif olunmuş şəkildə Avropadan əxz etməyə başladılar. Bu elmlərdən biri də etnologiya idi** (32, 55, 105-106; 33, 20-22; 34; 11, 382-446; 31, 186-191). Bu dövrdə Rusiyada tarixi əsərlər xronoloji təsvirlərdən ibarət idi, hələ elmə çevrilməmişdi. 1845-ci ildə yaradılan Rusiya Coğrafiya Cəmiyyəti tərkibində təşkil olunan "Etnoqrafiya" bölməsi qarşısına çox böyük elmi praktik vəzifələr qoyulsa da, tarixin bu sahəsinin tədqiqat metodunun mənimsənilməsi və elmə çevrilməsi müəyyən vaxt tələb edirdi. Odur ki, Rusiyada etnologiya elmə çevrilməzdən əvvəl onun Avropada yaradılmış metodlarından, əldə olunmuş nəticələrindən mexaniki surətdə istifadə edilirdi. Elə bu səbəbdən də Rusiyada elmi-nəzəri əsaslarla tədqiqata cəlb olunmuş xalqların mənəvi dəyərləri, maddi mədəniyyəti, iqtisadi həyatı, təbii-coğrafi şəraiti təsvir olunurdu. Bilgisi emprik səviyyəni aşmayan bu tədqiqat, onun nəticələri elm hesab edilmirdi. Rusiyada etnoqrafik tədqiqatların etnoloji səviyyəyə yüksəlmədiyini Avropa alimləri kimi Rusiyanın bu sahədə çalışan araşdırmaçıları da etiraf edirdilər. Xalqları öyrənmənin bu səviyyəsini etnologiya deyil, etnoqrafiya adlandırırdılar.

Etnologiya elminin Avropada sürətlə inkişaf edib müxtəlif elmi-nəzəri cərəyanlarının yaranması onun gələcəyin fəlsəfəsi adlandırılması, Rusiyada inkişafına xüsusi qayğı göstərilməsi heç də bu dövlətlərin, onların ideoloq və nəzəriyyəçilərinin etnologiyaya məhəbbətindən, humanizmindən irəli gəlmirdi. Etnologiya işğalçıların birinci dərəcəli gözəgörünməz silahı idi.

Etnologiya praktiki elm olmaqla, onun hər-hansı xalq haqqında obyektiv məlumatları bu ölkələrin işğalını, onların əsarət altında saxlanmasını asanlaşdırırdı. Çünki etnologiya xalqların, etnik və etnoqrafik qrupların formalaşma prosesini, onun etnomədəni elementlərinin inkişaf səviyyəsini, özünəməxsusluqlarını, mədəni-mənəvi özünütəşkilini, konkret şəraitə uyğun kollektiv davranış qayda və formalarını, qanunauyğunluqlarını, etnik-milli psixologiyasını, fərdlər və qruplar arasında qarşılıqlı təsir və qarşılıqlı əlaqələri öyrənir, müəyyən edirdi.

Beləliklə, işğalçı Avropa dövlətləri, Asiyanın cəlladına çevrilmiş Rus imperiyası etnologiya elmi və etnoqrafiya vasitəsilə əvvəlcədən işğalını planlaşdırdığı xalqın kompleks mənəvi dəyərlərini, ideoloji sistemini, adət-ənənəsini, əxlaq normalarını, davranış stereotiplərini, meyl və istəklərini öyrənir, əvvəlcədən özləri ilə onlar arasında süni rəftar normaları, ideyaları, hazırlayır, dost, qardaş, demokrat donuna girərək aldadıcı üsullarla xalqların işğalçılara qarşı təşkilatlandırılmasına imkan vermir, onları mənəvi, psixoloji, ideoloji cəhətdən öz təsirinə salır, tədricən xalqları əsarətə salıb imperiya yaratmağa nail olurdu. Beləliklə, Rusiya özünü qat-qat ondan yüksək elmi-fəlsəfi dəyərlər qazanmış Avropaya qarşı qoydu, dünyanın bölüşdürülməsində onunla rəqabətə girdi. Milli şüura və fəlsəfəyə malik olmayan ruslar əsarət altına aldıqları xalqların hərbi-fiziki gücü ilə Avropa ilə rəqabətə girsə də, elmi və fəlsəfi fikiri ondan əxz etməyə məcbur idi. Odur ki, Rus xalqında milli şüur və milli fəlsəfə yarana bilmirdi. Milli ideologiyanın və fəlsəfənin ilk rüşeymləri güclü Avropa fəlsəfəsinin və ictimai fikrinin təsiri altında qalır, müstəqil ideya və fəlsəfi səviyyəyə yüksələ bilmirdi. İmperiya siyasətinin təsirində Rusiyada "slavyanofil" cərəyanı yaratmaq iddiasına düşən fəlsəfi cərəyana görə "dünyagörüşün fundamenti – pravoslavyan ideal idarəçilik

forması – monarxiya, ideal iqtisadi struktur kəndli icması olmalıdır" (31, 187). Birbaşa Avropa fəlsəfəsinin təsiri altında yaranan "qərbçilik", "fərdiyyətçilik" fəlsəfəsi isə Qərbi Avropa sivilizasiyasına istiqamət götürmüşdü. Onlar pravoslavlığı və kilsəni tənqid edir, Feyerbaxın materializmi və ateizminə, eləcə də Hegelin dialektikasına rəğbət bəsləyirdilər (31, 187). Göründüyü kimi, rus fəlsəfi cərəyanları nə bəşəriyyətin, nə də rus xalqının milli probleminin həlli üçün yeni bir fikir söyləyə bilirdi. Mənəviyyat məsələlərində humanist ideyaları ilə şöhrət qazanmış L. Tolstoy özünün sosial konsepsiyasını dini anarxososializm adlandırırdı. Onun da mərkəzi ideyası bütün zorakılıq formalarından, dövlət strukturlarından imtina edilməsi, cəmiyyətin bünövrəsi kimi xeyir və məhəbbət prinsipləri əsasında yaradılan kənd icmalarının müdafiə edilməsi və s. idi (31, 189).

Göründüyü kimi, istər varlıq, bəşəriyyət haqqında, istərsə də milli məsələdə rus fəlsəfi fikiri cəmiyyətə yeni heç nə demirdi. Avropadan mexaniki əxz edilmiş sistemsiz, rus xalqı üçün anlaşılmaz, mücərrəd ideyalardan ibarət idi. Rus elmi və fəlsəfəsi rus xalqının problemlərini həll edəcək ideyaları yarada bilmirdi. Hələ elmi səviyyəyə yüksəlməmiş tarixşünaslıq və etnologiya yuxarıda bəhs olunan fəlsəfi cərəyanın təsiri altında idi. Avropadan fərqli olaraq, Rusiyada hakimiyyətin istəklərinə baxmayaraq, etnologiyanın elmi səviyyəyə çata bilməməsinin başlıca səbəbi bu ölkədə tarix elmi – insanlığı təbiətlə vəhdətdə etnososial proses kimi öyrənilməsi elə bir səviyyəyə gəlib çatmamışdı ki, insanın sosial-mənəvi varlıq kimi öyrənilməsi tələbatı meydana gəlsin, ondan doğsun. Təsadüfi deyil ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Rusiyada ictimai elmlərin ən parlaq simalarının çoxu hələ etnologiya (etnoqrafiya) terminindən istifadə etmirdi. Etnologiyanın (etnoqrafiya) praktiki əhəmiyyəti hakimiyyət tərəfindən qəbul olunub, ondan istifadə edilsə də,

onun inkişafı arzu olunsa da, Rusiyada elmi səviyyəyə yüksələ, vətəndaşlıq hüququ qazana bilmir, Avropa fəlsəfə və etnoloji cərəyanlarının təsiri altında qalırdı.

Kommunist Rus imperiyasının etnoqrafiya mütəxəssisləri XIX əsrin 70-90-cı illərində marksizmin Avropada, o cümlədən Rusiyada etnologiya (etnoqrafiya) elminə təsirindən, etnoqrafiyanın marksist cərəyanından söhbət açsalar da, məlum olduğu kimi K.Marks, F.Engels, V.İ.Lenin heç vaxt, heç bir əsərində etnologiya elmindən bəhs etməmiş, bu termini işlətməmişlər (29, 35-38; 30, 12-14; 11, 382-445; 31, 187-191; 35, 446-466; 22, 24, 34-38). Azərbaycan etnoqraflarından H.Həvilovun "Marksizm-leninizm klassikləri də öz əsərlərində bu terminologiyadan (etnoqrafiya nəzərdə tutulur – X.X.) geniş istifadə etmişlər" yazmasının əsası yoxdur (55, 5). O, K.Marks və F.Engels əsərlərinin ikinci nəşri 13-cü cild, səh. 604 və 45-ci cild səh. 229-u mənbə kimi göstərmişdir. Onun göstərdiyi mənbələrlə tanışlıq göstərir ki, o, Marks və Engelsin həmin əsərini şəxsən görməmiş, isnad etdiyi fikri haradansa iqtibas etmişdir. Həmin cildlərdə və göstərilən səhifədə etnoqrafiya terminindən deyil, etnos terminindən istifadə olunmuşdur.

II fəsil.

MARKSİZMİN RUS İMPERİYASINDA TARİX, O CÜMLƏDƏN, ETNOLOGİYA ELMİNİ MİLLİ ÖLÜM ELMİNƏ ÇEVİRMƏSİ

Tarixin yenicə elmə çevrilib təbiət və cəmiyyət, onun dialektik vəhdəti şəraitində gedən prosesləri elmi səviyyədə öyrənməyə başladığı bir vaxtda – XIX əsrin 40-cı illərində Avropada yaradıcısı K.Marksın adı ilə adlanan yeni bir nəzəriyyə - marksizm meydana gəldi. Marksizm özündən əvvəlki fəlsəfi təlimlərdən istifadə etdiyini etiraf etsə də, onları qeyri-elmi elan etdi (16; 17). **Marksizmin fəlsəfi fikir tarixində yeniliyi cəmiyyətin materialistcəsinə izahı, tarixin materializm nəzəriyyəsi idi** (11, 458-477; 17). Cəmiyyətə və onun inkişafına real təbii-tarixi proses kimi baxan marksizm onun müxtəlif pillələrini səciyyələndirmək və bir-birindən fərqləndirmək üçün ictimai-iqtisadi formasiya anlayışını yaratdı. O, kapitalizm cəmiyyətinin materialistcəsinə təhlilini verərək belə nəticəyə gəlirdi ki, proletariat kapitalizmin qəbirqazanıdır, o, kapitalizmi devirib öz diktaturasını yaradacaq. Bu isə nəticə etibarı ilə bütün dünyada kommunizm formasiyasının qələbəsinə gətirib çıxaracaq (9; 11; 16; 17). Marks materializminə görə, iqtisadiyyatdan törənən bütün ictimai münasibətlər və bu münasibətlər bazis üzərində üstqurum olan ideoloji münasibətlərə bölünmüşdür. Bütün maddi münasibətlər üçün ümumi cəhət ondan ibarətdir ki, bunlar əvvəlcədən insanların şüurundan keçmədən formalaşır, ictimai münasibətlərin digər növlərinə nisbətən ilkindir (17, 235).

Tarixi materialist metodologiya bazisin üstquruma nisbətən birinciliyini və müəyyənedici rolunu əsas tutur, buna əsaslanır ki, hər bir ictimai-iqtisadi formasiyanın öz bazisi və ona müvafiq üstqurumu var.

Müəyyən cəmiyyətin iqtisadi bazisi necədirsə, orada hökm sürən siyasi, hüquqi, dini, fəlsəfi baxışlar sistemləri, həmin bu cəmiyyətin müvafiq münasibətləri və idarələri də elədir. Bütün antoqonist formasiyaların iqtisadi strukturunun ümumi cəhəti cəmiyyətin bir hissəsinə - istismarçı azlığa digər hissəsinin - cəmiyyətin istismar edilən zəhmətkeş əksəriyyətinin əməyini mənimsəmək imkanı verən münasibətlərə malik olmalarıdır (17, 236).

Özünün də etiraf etdiyi kimi, Marksa qədər materialist ideyanın qədim tarixi vardı. Marksın materializmi özünə qədərki materializmdən ifratçılığı, nəzəri əsaslandırmaları ilə fərqlənirdi. Bütün fəlsəfi, ideoloji cərəyanlarda tarixi inkişafın səbəbləri arasında hər hansı bir amilin mütləqləşdirilməsi mövcud olmuşdur. Marksda isə maddilik, iqtisadi səbəblər mütləqləşdirilirdi. Burada da bəşəriyyət üçün qorxulu heç bir şey yox idi. Bu ideya dünyanın özəl bir cəmiyyətində meydana gətirilirdi. Ondan maksimum bəhrələnmək istəyənlər isə istehsalı elmi əsaslarla quran kapitalistlər oldu. **K.Marksın iqtisadi nəzəriyyəsi özünü doğrultmasa da, kütlə üçün kifayət qədər cazibədar idi. K.Marksın sinfi mübarizə nəzəriyyəsi bütün dünyanın düşünmək, dərk etmək, tarixi qanunauyğunluqdan baş çıxarmaq səviyyəsində olan insanlarını atom təhlükəsinin bəşəriyyəti təhdid etməsi qədər qorxuya saldı, həyəcanlandırdı.**

K.Marks və F.Engels "Kommunist Partiyasının Manifesti" əsərində yazırlar: "Azad insanla qul, patrisi ilə plebey, mülkədarla təhkimli, usta ilə şagird, müxtəsər, zalımla məzlum arasında əbədi bir antoqonizm olmuş, onlar gah gizli şəkildə, gah da açıq şəkildə daim bir-birləri ilə mübarizə

aparmışlar və bu mübarizə nəticəsində həmişə bütün cəmiyyət binası inqilab yolu ilə yenidən qurulmuş və ya mübarizə edən siniflərin hamısı məhv olmuşdur...

Lakin bizim dövrün, burjuaziya dövrünün fərqi ondadır ki, o, sinfi ziddiyyətləri sadələşdirmişdir. Cəmiyyət getdikcə daha artıq parçalanaraq, bir-birinə qarşı duran iki böyük sinfə: burjuaziya ilə proletariata ayrılır" (18, 9). Kapitalizm dövründə sinfi mübarizə daha da kəskinləşmiş, bunun sonu sosialist inqilabı, proletariatın diktaturası, sinifsiz kommunizm cəmiyyəti olacaq (18; 17, 248-276). Marksizmin yeni şəraitdə davamçısı V.İ.Leninin "Tarix siniflərin sinfi mübarizəsi tarixidir" ideyası ilə çıxış edir, məsələyə daha inqilabi yanaşırdı. "Hər bir müasir millətdə iki millət vardır. Hər bir milli mədəniyyətdə iki milli mədəniyyət vardır. Bir Puruşkeviçlərin, Quçkovların və Struvelərin velikorus mədəniyyəti vardır, - bir də Çernışevskinin və Plexanovun adları ilə səciyyələndirilən velikorus mədəniyyəti vardır. Almaniyada, Fransada, İngiltərədə yəhudilər arasında və i. a. olduğu kimi, ukraynalılarda da eyni ilə iki mədəniyyət vardır" (20, 17) ideyası ilə çıxış edirdi. Məsələyə daha aqressiv yanaşırdı.

V.İ.Lenin xalqların ali zadəgan silkini, ziyalısını, irsi elitasını burjua ziyalısı, zümrəsi kimi dəyərləndirərək proletariatın digər zəhmətkeş siniflərlə, başlıca olaraq kəndlilərlə müttəfiq olaraq kapitalizmlə, burjuaziya ilə birlikdə məhv etməyin zəruriliyini əsaslandırırdı. Ümumiyyətlə, marksizmin tarixi cinayətlərindən biri fəhlə və kəndliləri zəhmətkeş sinif adlandırmaqla onları xalqların, bütövlükdə dünyanın elmini və texnikasını, incəsənətini kəşf etmiş, mədəniyyətini yaratmış ziyalıya qarşı qoyması idi. V.İ.Lenin cəmiyyətdə burjuaziyanın müsbət rolunu, siyasi elitasını, zadəgan zümrəni, yaradıcı ziyalını etiraf edən ziyalını burjua ziyalısı və onu etiraf etməyənləri zəhmətkeş siniflərin, proletariat və kəndli siniflərinin ziyalısı hesab edirdi. Birinci ziyalı təbəqə-

sini burjuaziya ilə birlikdə məhv etməyi proletariat və kəndlilərin vəzifəsi hesab edirdi. Marksizmə qədər Avropada çoxlu fəlsəfi cərəyanlar yaransa da, onun heç biri insanlığı narahat etməmiş, onlar, əksinə, mübahisələr doğuraraq təbiətin və cəmiyyətin, bütövlükdə varlığın – tarixin qanunlarının dərk edilməsini irəlilətməklə insanlığa fayda gətirmişdir.

Təəccüblü və ziddiyyətli cəhət bundan ibarətdir ki, marksizm Avropanın fəlsəfə beşiyi Almaniyada yaranmışdı. Avropada, o cümlədən Almaniyada heç bir ideyaya qadağa qoyulmur, iqrar və inkar edilməsi vətəndaşların şəxsi radəsinə buraxılırdı. Lakin marksizm Almaniyada bu ənənəni pozdu. Marksizmin "Bütün ölkələrin proletarları, birləşin!" şüarı Avropada bir qorxu, vahimə yaratdı. V.İ.Lenin "Kommunist Partiyasının Manifesti" haqqında yazdığı "... sinfi mübarizə nəzəriyyəsi və yeni cəmiyyətin, kommunizm cəmiyyətinin yaradıcısı olan proletariatın bütün dünya tarixində oynayacağı rol haqqındakı nəzəriyyə dahiyanə bir aydınlıqla şərh edilmişdir" (21, 36) mülahizəsi, göründüyü kimi, dünya proletariatı dünyanın bütün qalan digər sinif, zümrə və silkinə qarşı qoyurdu. **Marksizm Avropada qorxu və vahimə yaratsa da, burada kütləviləşə bilmədi. Almaniyanın kansleri O.Bismark sahibkar və ziyalıları sakitləşdirərək bildirdi ki, kommunist ideologiyası, kommunizm ancaq Allahın qarğış etdiyi ölkədə bərqərar ola bilər.** Marks və Engels xüsusi bir təqibə məruz qalmasalar da, Almaniyanı tərk edib İngiltərədə yaşamağa məcbur oldular. Marksizm Avropada zəif də olsa yayılır, bu ideologiyanın həyata keçmə mümkünlüyü və törədəcəyi fəsadlar ayrı-ayrı mütəfəkkirlər tərəfindən təhlil olunurdu. Z.Freyd Marksı dərindən təhlil edərək yazırdı ki, "iqtisadi amillərin insanların psixologiyasına, onların dünyagörüşlərinə təsir etməsi haqqında marksizmin fundamental müddəası təkzibedilməzdir. Bu

müddəa ilə bir sıra qarşılıqlı asılılıqlar və asılılıqların mənası açılır ki, bunlar da indiyədək tamamilə anlaşılmaz qalırdı". Bununla bərabər **Z.Freyd yazırdı: "İqtisadi motivlərin cəmiyyətdə insanların rəftarı üçün yeganə olduğunu güman etmək olmaz. Marksizmin dünyanı gözəlləşdirmək – onu dəyişdirmək haqqında baxışı "romantik illüziyadan başqa bir şey deyildir" (22, 12). Rus filosoflarından Xomyakov bütün sosialist və kommunist təlimləri Qərb ruhunun xəstəliyi hesab edirdi (11, 393). Bulqakov isə yazırdı ki, Marks "utanmaz", "demokratik diktator"dur. Sosializm kosmologiya və ilahiyyat dilindən siyasi iqtisad dilinə, sonra isə yəhudi xiliazmına çevrilmiş rasionalizmdir"** (11, 433).

Marksizm Avropada özünə dayaq tapa bilmirdi. Lakin nəzəriyyəçilər onun hər hansı bir ölkədə müvəqqəti reallaşacağına inanırdılar. Görkəmli Fransız mütəfəkkiri **Qustav le Bon yazırdı: "Avropa sosializmi sərt respublika mühitində aşılana bilməz. Hökumətin iqtisadi üsul-idarəsinin son ifadəçisi olaraq sosializm yalnız qocaman irqlərdə (etnoslarda) çiçəklənə bilər, - bu qocaman irqlər əsrlər boyu onların özözlərini idarəetmə qabiliyyətini əllərindən alan rejimə tabe olmuşlar"** (24, 67). **Nitşe sosializmə "xristianlığın müasir forması" kimi baxırdı. Sosializm bərabərlik, demokratiya ideyaları üzərində qururlur, elə buna görə də o, həyatı bütünlüklə təhlükə altına alır. Mütəfəkkir sosializmi "ölüm demokratiyası" adlandırırdı** (10, 183). **O, sözünə davam edərək yazırdı: "Bərabərlik haqqında təlim. Bundan daha zəhərli zəhər yoxdur". Nitşe sosializmi təbiətə zidd bir quruluş hesab edirdi. O, yazırdı: "Təbiətin bərabər yaratmadığı insanları o, bərabərləşdirmək istəyir. Bu, axmaqlıqdır"** (10, 183). Mexaniki vərdişlərlə işləyən və düşünən mədən, zavod, fabrik fəhlələrində sosializmin gətirəcəyi bərabərlik və demokratiya, hakimiyyət ideyaları coşqun illüziyalar yaradırdı.

Marksizmin bu illüziya doğuran təlim və təbliğini şərh

edərək Qustav le Bon yazdı: "sosializm monarxiya ideyasının ifrat ifadəsindən başqa bir şey deyildir, inqilab isə, sadəcə, onun sürətləndirici fazasıdır" (24, 60). Artıq XIX əsrin sonlarında marksizm-sosializm üçün dayaq olacaq icma psixologiyasına istinad edən siyasətçilər belə bir ölkənin ancaq Rusiya olacağını proqnozlaşdırırdılar. **Rus filosoflarından Berdyayev marksizmdən qorunmağı Rusiyanın "məhvinin qarşısının alınması" hesab edirdi** (11, 440).

Avropa mütəfəkkirlərinin, K.Marks və F.Engelsin özlərinin marksizmin Rusiyada yayılması və həyata keçə bilməsi haqqında mülahizələri bəşəriyyətin məhvedici bir təhlükə ilə üzləşəcəyi fikrini doğurdu. Gözlənilən hadisə tezliklə baş verdi. Marksizm Avropada rusun "keçmişə nifrət" mentalitetinə (11, 475; 25, 38-43) uyğunlaşaraq Rus xalqı tərəfindən qəbul olundu və milli ideologiyaya çevrildi. Çünki Rus xalqı Avropada sənaye inkişafı mərhələsinə yenicə çatan yeganə xalq idi ki, milli fəlsəfəyə və ideologiyaya malik deyildi. Avropanın müxtəlif fəlsəfi cərəyanlarının təsiri altında idi (11, 382-477).

Marksizmi yeni şəraitdə davam və inkişaf etdirən İ.V.Leninin başçılığı ilə yaradılan Rusiya bolşevik fəhlə partiyası (RSDFP) marksizmin sinfi mübarizə nəzəriyyəsi əsasında fəhlə sinfini və digər aşağı sinif və təbəqələri birləşdirərək 1917-ci ilin oktyabr ayında hərbi çevrilişlə hakimiyyəti ələ aldı. Proletariat diktaturası dövlətini qurdu. Rəftar və davranış normalarına, ideologiyaya, mətbuata, bütün nəşrlərə, hətta riyaziyyat və texnika sahəsində nəşrlərə də senzura qoyuldu. Dövlət quruculuğu, iqtisadi-sosial, siyasi və mənəvi həyatın bütün sahələrinin marksist-kommunist nəzəriyyəsi əsasında qurulması prosesi başladı. Marksizm nəzəriyyəsindən başqa bütün fəlsəfi, ideoloji, iqtisadi, siyasi cərəyanlar, baxışlar və təşkilatlar qadağan edildi. Ölkədə marksizmdən başqa mövcud olan fəlsəfi və siyasi baxışlara

aid ədəbiyyatlar məhv edildi, onların dövriyyəyə gətirilməsi qadağan edildi. Ölkədə marksizmdən başqa hər hansı ideoloji-siyasi baxışı təbliğ edən şəxslər həbs, sürgün və ölüm hökmünə qədər cəzalarla məhv edildi və ya susduruldu. Proletariat və kəndli sinifindən başqa, bütün sinif və təbəqələr sürgün və ölümlə yox edildi. Ziqmund Freyd yazırdı: "Ancaq həyəcan içərisində soruşmaq olar ki, Sovetlər öz burjuaziyalarını ləğv edəndən sonra nə edəcəklər?" (23, 239). Marksist-rus bolşevikləri ilkin olaraq imperiyanı və proletar monarxiyasını bərpa etdilər.

Marksizm nəzəriyyəsi meydana çıxanda artıq Avropada ictimai inkişafın proses və qanunlarını müəyyənləşdirən tarix elminin formalaşması başa çatmışdı. Elmi tədqiqatlarla sübut olunmuşdu ki, hər bir xalqın dini, fəlsəfəsi, inam və etiqadları, inanclar sistemi vəhdətdə onların milli ideologiyasını təşkil edir. Xalqların tarixi inkişafının hərəkətverici qüvvəsi ideyadır (24; 157; 158; 159; 10; 167, 86-102, 502-526). Müəyyən dövrlərdə xalqların tarixi, mənəvi və maddi dünyası haqqında yazılan əsərlərin də bu fəlsəfi və ideoloji baxışın təsiri altında olduğu da özünü tarixi bir qanunauyğunluq kimi göstərir. Odur ki, Avropada yaranan tarix elmi burada mövcud olan fəlsəfi baxış və cərəyanların, milli ideyaların təsiri altında idi. Avropadakı fəlsəfi baxış və cərəyanların hamısı bəşəri və milli inkişafın ümumi prinsiplərini qəbul edirdi. Bu baxış və cərəyanlar arasında yalnız fərq onda idi ki, onların hər biri öz mülahizəsini əsas hesab edirdi.

Tarixdən faydalanmaq istəyən hər bir Avropa oxucusu, mütəxəssisi, siyasətçisi öz həqiqətini (istəyini) bu nəzəri baxışlar arasından müəyyən etməli, seçməli olurdu. Beləliklə, tarixi müxtəlif nəzəri və fəlsəfi baxışlarla müqayisəli təhlil şəraitində mənimsəyən Avropa mütəxəssisləri, həmçinin xalqları zəkalı, təfəkkürlü, məntiqli inkişaf edirdi. Avropada mövcud olan təkamül, pozivitizm, praqmatizm, həyat fəlsə-

fəsi, eksiztensalizm və s. nəzəriyyə və cərəyanlar tarixə, etnososial inkişafa müxtəlif aspektli baxışlar idi. Bu nəzəriyyələrin hər biri etnososial inkişafın ümumi prinsiplərini qəbul etməklə bərabər, inkişafda müxtəlif səbəbləri başlıca əsas hesab edirdilər. Müddəalarında da konkret fakt və arqumentlərə söykənirdilər. Tarixə obyektiv yanaşma və ümumi nəzəri müqayisələr göstərir ki, bu baxışların hər biri etnososial-mənəvi inkişafın müəyyən məqamlarına uyğun gəlir, bu məqamlarda özünü təsdiq edə, əsaslandıra bilir.

K.Marksın "Kapital" əsərində kapitalist istehsalının anatomiyasının açılması, iqtisadi mexanizminin çox incəliklə təhlil olunması iqtisadiyyatın elmi əsaslarla qurulmasında Avropa kapitalist istehsalçılarına yetərincə kömək etdi, praktiki fayda verdi. K.Marksın nəzəriyyəsinin bu cəhəti rəğbətlə qarşılansa da, onun sinfi mübarizə nəzəriyyəsi cəmiyyətin intellektual səviyyəcə aşağı pilləsində duran proletariat və kəndli sinfini zəhmətkeş sinif adlandırır, əmlaka və intellektual mülkiyyətə malik sənayeçi, maliyyəçi, elm və təhsil, incəsənət və idarəçiliklə məşğul olan zümrələri istismarçı, mədəniyyətin düşməni kimi təqdim edilirdi. Savadsız fəhlə və kəndlini belə bir ideologiya ilə yükləmək fəlakətlə nəticələnəcəkdi. Zəka sahibləri bunu görürdü. Beynəlxalq və beynəlmiləl sinif olan proletariat bütün dünyada burjuaziyanı, bütün mülkiyyət sahiblərini, burjua ziyalılarını (istismarçı sinifləri) hakimiyyətdən devirib, məhv edib, özü hakimiyyətini qurmalı, xüsusi mülkiyyəti məhv edib hər bir ölkənin bütün sərvətini ictimai mülkiyyətə çevirib, təşkil edib, ölkənin bütün vətəndaşlarının əmlakına çevirməli, bu əmlakdan hər kəsin tələbatına görə istifadə etməsini, hamının bərabər olduğu sosializm-komminizm cəmiyyəti qurmasını proletariatın tarixi vəzifəsi kimi irəli sürürdü.

Marksizm Avropa zadəgan və burjuaziyasını vahiməyə salsa da, bu ölkələrin fəhlə sinifi arasında yayılsa da, möh-

kəmlənə bilmədi. Çünki Avropada sənaye çevrilişi başa çatmış, fəhlə sinifi müəyyən intellektual səviyyə qazanmışdı. Hətta fəhlə sinifi daxilində gedən təbəqələşmədən fəhlə aristokratiyası yaranmışdı. Sosial araşdırmalar göstərirdi ki, Avropa fəhlə sinfi özlərinin intellektual hüdudlarını əsasən qiymətləndirə bilir, marksizmin fəhlənin nazir, bank müdiri, general ola bilməsi kimi şüar və təbliğatları onlarda illuziya yaratmırdı.

Odur ki, K.Marks və F.Engels nəzəriyyələrinin qabaqcıl Qərbi Avropada qalib gələcəyi ideyasından imtina etdilər. Nəzəriyyələrinin ilkin olaraq Rusiyada yayıla, qəbul edilə biləcəyi fikrini söylədilər. Marksizmin yayıla bilməsinin etnososial, mənəvi, siyasi şəraiti haqqında dahi fransız psixoloqu və mütəfəkkiri Qustav le Bon yazırdı: "şübhəsiz ki, sivilizasiya tərəqqinin yaradıcısıdır, amma o, sosializmin və anarxiyanın da yaradıcısıdır. Bu isə artıq heç bir dinin müdafiə etmədiyi kütlələrin ümidsizliyinin qorxunc ifadəsidir" (24, 129). **Qustav le Bonun dərin tədqiqatları sübut etdi ki, sosializm ideologiyasının fəhlələr arasında yayılması, K.Marks və V.İ.Leninin söylədiyinin əksinə olaraq onların şüurluluğuna deyil, əksinə, şüursuzluğuna dəlalət edir. O yazırdı: "Sosializm kimi doktrinalara aid məsələlər yalnız fabrik və mədən fəhlələri kimi savadsız kütlənin içərisində əqidəli müdafiəçilər tapır"** (24, 274).

Zaman Avropa mütəfəkkirlərinin marksizm sosialist ideyalarının hansı şəraitdə yayılması mümkünlüyü haqqında proqnozlarının doğruluğunu təsdiq etdi. Marksizm təhkimçilik şəraitində dünyaya göz açmış və həyatı təhkimçilik şəraitində keçdiyindən özünü dərk etmək, idarə etmək qabiliyyəti qazana bilməmiş, heç bir yaradıcılıq göstərməmiş, sənayesi tam formalaşmamış və fəhlə sinfi təhkimçilik psixologiyasından hələ tam azad olmamış, yaradıcılıq ruhu, qabiliyyəti öldürülmüş, ölkəsini səfalət bürümüş, hakimiyyə-

tinə qarşı nifrətlə köklənmiş, milli ideologiya və şüurdan məhrum edilmiş rus xalqı üçün cənnət vəd edirdi. Odur ki, heç bir müqavimətə rast gəlmədən qəbul edildi və eyni zamanda milli ideologiya oldu.

Marksizm rus milli əlavələr ilə bolşevizmə, yəni marksizm-leninizmə çevrildi (22, 12-13; 23, 171-172). Marksizmin yeni forması bolşevizmin rus milli təbiətinin məhsulu olduğunu görkəmli Azərbaycan mütəfəkkiri **Y.V.Çəmənzəminli çox incəliklə fəhm edərək yazırdı: "Bolşeviklik rus təbiətindən çıxan bir vulkandır. Bizi maraqlandıran bir şey var: əcəba, bu rus vulkanı başqa millətlərin də malı ola bilərmi, yoxsa ola bilməz?" Macarıstan hadisələri bu suala müsbət cavab verir: "Bolşevik qorxusu başqa ölkələrə də sirayət edə bilər" – deyir. Bunun səbəbi də aşkardır: əsrlərcə yığılıb qalan acıqlar və intiqamlar dalğalanır. Deməli, bolşeviklik əsrlərin illəti, keçmiş səhvlərin məntiqi nəticəsidir. Bunun üçün bolşeviklikdə tikicilikdən çox yıxıcılığa əhəmiyyət verilir: "Yıxmaq, yıxmaq və öldürmək!" şüarı hər yerdə hökmfərmandır. Bu gün etiraf edəriksə, Şərq dəxi bolşevikliyə alışmadadır...**

Burada da əsri intiqamlar və acıqlar görünür. Intiqam hissi dindar və millətpərvər Şərqi dinsiz və millət tanımayan bolşeviklik qucağına atmaq istəyir" (25, 39-43).

K.Marksın sinfi mübarizə nəzəriyyəsinə, "hər bir milli mədəniyyətdə iki mədəniyyət vardır" müddəasını əlavə edən Lenin Rus mədəniyyətini istismarçı "velikorus və burjua", "velikorus fəhləsi" mədəniyyətlərinə ayırır, onları "barışmaz düşmən" (20, 11, 17) elan edir. Düşmən "burjua və keşiş mədəniyyətini" məhv edib, proletariat diktaturasından ibarət sosializm – kommunizm cəmiyyəti qurmağı Rus fəhlə sinifinin tarixi vəzifəsi elan edirdi.

Rusiyada sosialist ideyalarının qəbul edilməsinin, bolşevizmi doğuran sosial-siyasi və mənəvi səbəblər haqqında Qustav le Bon və Y.V.Çəmənzəminlinin proqnozları özünü

birmənalı təsdiq etdi. Leninin siyasi yaradıcılığının təsiri altında hipnoza salınmış, sosialist illuziyasına qapılmış, hakimiyyətinə qarşı nifrətlə alışıb yanan Rus fəhləsi, xüsusilə onun müstəmləkələrdə məskunlaşdırılmış hissəsi RSD(b)FP-nın rəhbərliyi altında birləşdi. Tələbləri ödənilməyəcəyi təqdirdə hər şeyi məhv edəcəyi ilə hakimiyyəti hədələdi. Tarixdən məlum olduğu kimi 1905-ci ildən onlar tələblərinin ödənilmədiyi təqdirdə hər şeyi məhv etməyə qadir olduqlarını sübut etdilər.

V.İ.Leninin yaratdığı təbliğati ədəbiyyatın təsiri altında Rusiya fəhlə sinfi "qəzəbli kütlə" halında birləşdirildi. İnqilabi çevrilişlə Romanovlar sülaləsini, onun ardınca burjua-demokratik hökumətini devirib proletariat diktaturası – sosializm qurdular. Böyük mütəfəkkir Qustav le Bonun əvvəlcədən proqnozlaşdırdığı kimi, "Sosializm monarxiya ideyasının ifrat ifadəsindən başqa bir şey deyildir, inqilab isə sadəcə onun sürətləndirici fazasıdır" (24, 60) mülahizəsi doğruluğunu təsdiq etdi. Bolşeviklər hakimiyyət başına gələn kimi Rus imperiyasını bərpa edib bolşevik partiyasının diktaturasını, mütləq monarxiyasını yaratmağa başladılar. Çünki Rusiya üçün başqa dövlət təsisatı mümkün deyildi, rus xalqı demokratik təsisatlar yaradacaq sosial-siyasi təkamül yolunu keçməmiş, təhkimçilik islahatı hələ tam başa çatmamış, təhkimçilik psixologiyasından heç qismən də ayrılmamışdı. Nəinki rus xalqı, onun cəmiyyəti xeyir və məhəbbət prinsipləri əsasında qurmağı arzu edən humanisti L. Tolstoy da ədalətli ictimai quruluş kimi Rusiyanın təcrübəsində mövcud olan kənd icmasını görürdü (31, 189).

Biz K.Marksın materializminin, ictimai mülkiyyət və sosializm haqqında nəzəriyyəsinin yəhudi milli mənafeyi baxımından yaradılması, V.İ.Leninin bu nəzəriyyəni inqilabi şəkildə Rusiya şəraitinə uyğunlaşdırmasının onun Romanovlar sülaləsinə qarşı şəxsi düşmənçilik, qisasçılıq hissin-

dən doğması fikirləri ilə razılaşmaq məcburiyyətindəyik. Çünki onlar çox yüksək dərketmə qabiliyyətinə malik olmuşlar. Marksa qədər və onun dövründə Avropada elmi əsaslarla sübut edilmişdi ki, hər bir xalqın etnososial inkişafının əsasını milli ruh (psixologiya), milli ideyalar, bütövlükdə özünəməxsus mənəvi dəyərlər sistemi təşkil edir. Tarixin hərəkətverici qüvvəsi ideyalardır. Iqtisadiyyat bu varlığın bir qida elementindən artıq funksiyaya malik deyildir (10; 22; 23; 24). Qustav le Bonun "Sosializmin psixologiyası", "Kütlə psixologiyası" və b. əsərləri V.İ.Leninin stolüstü kitabları idi. "Kütlə psixologiyası əsəri Oktyabr çevrilişi zamanı Leninin tez-tez baxdığı, istifadə etdiyi kitab idi. Qustav le Bonun adını çəkdiyimiz və digər əsərləri dünyada bütün mütərəqqi – xalqlara xeyirxahlıq göstərmək istəyən, mürtəce – xalqlara bədxahlıq edəcək dövlət başçılarının, siyasətçilərin stolüstü kitabı, əsas aləti olmuşdur. Çünki bu əsərlərdə xalqlara məxsus etnopsixoloji xüsusiyyətlər, mənəvi dəyərlər kompleksi, mənəvi dəyərlərin yüksəliş və tənəzzül səbəbləri, onların məqsədli inkişaf etdirilməsi və məhv etdirilməsi üsulları çox incəliklə aşkar edilmişdir.

V.İ.Lenin başda olmaqla bolşeviklər hakimiyyət başına gələn kimi, marksizm istisna olmaqla, cəmiyyətin inkişaf qanunları haqqında bütün elmi, fəlsəfi nəzəriyyələri ölkədə qadağan etdilər. Marksizmdən savayı başqa düşüncə doğura biləcək bütün elmi nəzəri ədəbiyyat yığılıb xüsusi nəzarətdə saxlandı. Bu siyasət Kommunist Rus imperiyasının bütün mövcudluğu dövründə davam etdirildi.

Əgər V.İ.Lenin marksizmin cəmiyyətin inkişaf qanunları haqqında yeganə obyektiv elmi nəzəriyyə olduğuna inansaydı, ölkədə başqa nəzəriyyələri qadağan etməzdi. Xalq heç vaxt praktiki surətdə onun tələbatını, istəklərini ödəyən bir ideyanı kənara qoyub mücərrəd vədlər verən nəzəriyyənin ardınca getməz. V.İ.Lenin bu qadağalarla əsarət altına

alınmış xalqları cəmiyyətin inkişaf qanunları haqqında elmi bilgilərdən məhrum etməklə qeyri-elmi nəzəriyyəsini ifşa olunmaqdan, tənəzzüldən qoruyurdu. V.İ.Lenin savadsız, asanlıqla aldadılan fəhlə və kəndlilər vasitəsilə bəşəriyyətin min illərlə yaratdığı irsi elitanı, zadəgan zümrələrini, mədəniyyəti məhv etmək ideologiyası – bəşəri cinayət ideologiyası yaratdı. Bu ideologiyaya görə fəhlə sinfi burjuaziyanı, ali zadəgan zümrələri məhv etdikdən sonra proletariat diktaturası quracaq, bu sinfin rəhbərliyi altında sel kimi axacaq maddi nemətlər istehsal olunacaq, hamının ondan bərabər istifadə edəcəyi sosializm – kommunizm cəmiyyəti quracaq. Bütün insanların bərabər olduğu bu cəmiyyətdə hamı təhsil vasitəsilə ən yüksək intellektual səviyyəyə çatıb nazir, alim, həkim, rəssam, musiqiçi və s. istənilən sənət və səviyyəni fəth edə biləcək.

Tarix elminin şərhindən bir az uzaqlaşıb bolşeviklərin yaratdığı Oktyabr çevrilişi haqqında kiçicik bir təsvirimiz və etnososial tarixi ideyaların yaratdığı hərəkətdən ibarət olmasını bir daha təsdiq edir. Elə bu səbəbdən də Qustav le Bon yazırdı: "Şübhəsiz, xalqların tarixi ən müxtəlif amillərlə müəyyən olunur. Tarix əlahiddə hadisələrlə, təsadüflərlə doludur, onların hamısı olmuşdur, lakin olmaya da bilərdi". Sözünə davam edən mütəfəkkir yazır: "Tarixə öz əsas cizgilərində irqlərin (xalqların – X.X.) psixoloji xüsusiyyətlərindən törəyən nəticələrin sadə ifadəsi kimi baxıla bilər" (24, 15, 57). Y.V.Çəmənzəminlinin sözləri ilə desək "Deməli, bolşeviklik rus təbiətindən çıxan bir vulkan" idi (25, 42). Göründüyü kimi, marksizmi-leninizmi Avropanın heç bir xalqı qəbul etmədi, ruslar bu ideyanı heç bir müqavimət göstərmədən qəbul etdilər. Yuxarıda göstərdiyimiz kimi, V.İ.Lenin yaratdığı ideologiyanın uzunmüddətli, dayanıqlı olmayacağını bilirdi. O, Qustav le Bon və digər Avropa mütəfəkkirlərinin tarix, ideya, ideologiya haqqında prakti-

kada özünü doğrultmuş müddəaları vasitəsilə məqsədlərini həyata keçirirdi. Avropa etnologiyasında tarix elmi, onun qanunauyğunluqları elə bir səviyyədə öyrənilmişdir ki, tarix elmindən onun faktlarından milli psixologiyanın xüsusiyyətləri, əksinə milli psixologiya vasitəsilə xalqların tarixi öyrənilirdi (24, 57).

Avropada tarix elminin yetərincə inkişaf etməsinə baxmayaraq, Avropa mütəfəkkirləri, o cümlədən əsərindən istifadə etdiyimiz Qustav le Bon tarix elmini subyektivliyinə görə tənqid edirdilər. K.Marks və F.Engels isə bütün elmi, fəlsəfi və tarixi cərəyanların əksinə olaraq, tarix elmini bütün elmlərin fövqündə duran elm kimi qiymətləndirərək yazırdılar: "Biz ancaq bir yeganə elm tanıyırıq. O da tarix elmidir" (37, 5). V.İ.Lenin K.Marksın və F.Engelsin tarix elmi haqqında bu müddəasını dönə-dönə təkrarlayırdı. Təəssüf ki, biz Qustav le Bon və b. Avropa mütəfəkkirlərinin əsərlərinin orijinalından deyil, tərcümələrdən istifadə etdiyimizdən tərcümələrdə onların müddəalarının nə dərəcədə qorunub saxlandığını deyə bilmirik. Yazarlar çox zaman tarix, tarixi məlumat (xronoloji əsərlər) və tarix elmi anlayışını eyniləşdirirlər. Bu da çox ciddi yanlış fikir və mülahizələr doğurur.

Tarixin, yəni varlığın fasiləsiz təşəkkületmə prosesi, sosial-mənəvi varlığın təbiətlə vəhdətdə təşəkkül etməsi prosesi, etnososial prosesin, inkişafın müxtəlif sahələrindən bəhs edən sosial, mədəni-mənəvi, siyasi, iqtisadi və s. tarix sahələri fərqli anlayışlardır. Sosial və siyasi hadisələr haqqında verilən məlumatlara həmişə mənafe baxımından yanaşıldığından burada subyektivlik özünü göstərir, hər kəsin onu başa düşdüyü kimi, mənafe baxımından ifadə etməsi, gələcəyə ötürməsi də subyektivlik doğurur. Belə subyektiv məlumatlarla obyektiv tarixi proses, obyektiv fakt və məntiqə əsaslanan elmi tarix eyniləşdirilə bilməz. Etnososial inkişa-

fın qanunlarının təbiət qanunları kimi obyektiv olmasına nümunə olaraq göstərilə biləcək yetərincə hadisə, fakt məlumdur.

Alimlər təbiət qanunlarından istifadə edib mikro mühit yaradaraq ilin bütün fəsillərində bitkilərin inkişafını və məhsul verməsini, gen köçürmə ilə bitki və heyvan növləri yaratdığı, böyük səhralarda mikro iqlimi dəyişib məhsuldar ərazilərə çevirdikləri kimi sosial həyatın mənəvi, idoloji, sosiobioloji, siyasi, iqtisadi mühitinin səviyyəsini dəyişməklə etnosların durumuna təsir göstərib onun forma və məzmununu dəyişib əcdadından, varisi olduğu mədəniyyətdən ayırırlar. Lakin bu işin də xüsusi şəraiti var. Tarix elminin bu sahəsi ilə etnologiya məşğul olur. Marksizm banilərinin tarixi "yeganə elm" adlandırması təsadüfi işlədilmiş bir ifadə deyildir. Bu ifadə tarixi qanunauyğunluq dəqiqliklə nəzərə alınaraq seçilmişdir. Belə ki, marksizm kütlə nəzəriyyəsidir, kütlə heç bir məsələdə izahat tələb etmir, inandırmaq istədiyin məsələdə şübhəyə zərrə qədər yer verilməməlidir. Ona görə də marksizmin baniləri birinci növbədə tarix məfhumuna mənafe baxımından subyektivləşdirmə mümkünlüyünə şübhəni aradan qaldıraraq tarixin qanunlarını belə izah edirdilər: "Tarixin qanunları. Birinci qanun onu göstərir ki, məzlum və zalım siniflər olan cəmiyyətdə (məsələn kapitalizm zamanında), daima mübarizə davam edir. Bu mübarizəni yatırmaq olmaz. Sinfi mübarizə zalım və məzlumlardan, mülkiyyətçi və yoxsullardan, azad və qullardan ibarət olaraq iki hissəyə bölünmüş hər bir cəmiyyətin qanunudur.

Başqa bir qanun göstərir ki, sinfi mübarizə labüd olaraq inqilaba doğru, bir quruluşun başqa bir quruluşla əvəz edilməsinə doğru aparıb çıxarır. Siniflər durduqca,, inqilablar və ya çevrilişlər də davam edir. İnqilaba – düşmən siniflərdən ibarət olan cəmiyyət üçün tarixin qanunudur.

Hazırda kapitalist ölkələrində zülm altında olanlar öz za-

lımlarına – kapitalistlərə qarşı mübarizə edirlər. Sinfi mübarizə və inqilab orada da, bizim ölkəmizdə olduğu kimi kapitalizmin məhv edilməsinə səbəb olmalıdır. Kapitalizm, yəni əsarət quruluşunun sosializmlə, yəni bərabərlik və azadlıq quruluşu ilə əvəz edilməsi habelə tarixin qanunudur.

Bu surətlə tarix və onun qanunlarını bilmək bizi daha yaxşı həyat uğrunda mübarizə üçün silahlandırır. Biz bu bilikdən sosializm quruluşunda istifadə edirik. Bu biliklər bizi kommunizm uğrunda mübarizəyə çağırır" (39, 4-5).

Beləliklə, tarix elminin qanunauyğunluqlarından kütlə psixologiyasına uyğun məqsədyönlü istifadə edilirdi. Savadsız proletariatın öz xalqının burjuaziyasını, irsi elitasını, ziyalısını, onların yaratdıqları mədəniyyət nümunələrini, xüsusi mülkiyyəti inqilabi yolla məhv etməyə sövq edilməsi bəşəri bir cinayət idi və onun həyata keçirilməsində birinci növbədə gizli üsullarla tarix elminin nəticələrindən istifadə edirdilər.

Marksizm-leninizmə görə, "varlıq kateqoriyası materiya, təbiət anlayışı ilə eyni kimi götürülür. Buna uyğun olaraq, marksistlər ictimai varlıq deyərkən cəmiyyətin maddi həyatını, bu maddi həyatın istehsalını və təkrar istehsalını nəzərdə tuturlar. İnsanlar maddi nemətlər istehsal etməklə öz ictimai münasibətlərini də istehsal və təkrar istehsal edirlər" (17, 195, 203). İnsanların istehsal prosesində yaratdığı əşya və predmetlər obyektiv varlıqla eyniləşdirilir (17, 187-471; 41, 120-121). Cəmiyyətin inkişafının əsasında bütünlüklə iqtisadiyyatın, maddi nemətlər istehsalının dayanması, fəhlə və kəndlilərin bu nemətlərin əsas yaradıcısı olması haqqında marksist nəzəriyyəsi hər hansı elmi nəzəriyyəni dərk etmək imkanı və intellektual səviyyəsi olmayan fəhlə sinfi və ona yaxın sinif və təbəqələri illuziyaya salır və çaşdırırdı.

Fəhlə sinfi Marksın izafi dəyər nəzəriyyəsi və iqtisadi qanunları haqqında müddəalarının düzgün olması haqqında

fikirləri burjua nümayəndələri və ziyalılarından eşitmişdilər. Proletariata görə, Marksın birinci müddəası düzgündürsə, deməli onun 3-cü müddəası da düzgündür. Burjuaziya və ziyalılar tarixi mövqelərini itirməmək üçün Marksın fəhlə sinfinin tarixi rolu haqqında müddəalarının düzgün olmadığını söyləyirlər. Elmi təfəkkürünü inkişaf etdirməyə imkanı olmayan proletariat başa düşmürdü ki, Marks 1-ci müddəasına inandırmaqla fəhlə sinfini öz subyektiv ideyalarına tabe edir, proletariatın tarixi rolu haqqında uydurmaları ilə onu illuziyaya salaraq, süni inqilablara təhrik edir, cəmiyyətin təbii-obyektiv inkişafını pozurdu.

K.Marksın sinfi mübarizə nəzəriyyəsini müxtəlif formalara salan V.İ.Leninin proletariatı aldatmalarını da dərk etmək mümkün idi. Lakin onun dedikləri birbaşa dünya fəhlə sinfinin ən küt, hələ yetişməmiş nümayəndəsi, ruhu keçmişə nifrət hissləri ilə yüklənmiş, öz burjuaziyasına, zadəganına, ziyalısına qarşı nifrətdən alışıb yanan rus proletariatına ünvünlandığı üçün onların rus fəhlə sinfi tərəfindən təhlil olunacağı haqqında düşünmürdü. Elə bunun nəticəsi idi ki, V.İ.Lenin proletariatın quracağı sosializmin "Fiziki əmək işçiləri ilə əqli əmək işçiləri arasındakı fərqi yox edəcək" cəmiyyət kimi rus fəhlə sinfinin beyninə yeridirdi. Elə bir bu şüardan onun avantürist olmasını dərk etmək kifayət idi. Rus proletariatı nəinki Romanovları devirəndə, hətta qurduğu sosializmi 73 ildən sonra devirəndə də bu şüarı təhlil etmədi.

Bolşeviklər bu ideyalara hər hansı şübhə yaranmaması, illuziyanın, hipnozun dağılmaması üçün, marksizmdən başqa, bütün elmi-nəzəri, bədii-publisistik ədəbiyyatın oxunmasını qadağan etdilər, toplayıb məhv etdilər, müəyyən nüsxələri RK(b)P-nin və Dövlət Təhlükəsizlik Komitəsinin arxivlərində saxladılar. Elmi-nəzəri, tarixi-fəlsəfi fikirə nəzarət (senzura) qoyuldu. Başqa cür düşünənlər burjua agenti,

xalq düşməni damğası ilə məhv edildi. Rus imperiyasının qapısı bütünlüklə dünyaya bağlandı, başqa ölkələrə gediş-gəliş qadağan edildi. Xalqın bütün dünya ilə informasiya əlaqələri kəsildi, hətta imperiya sərhədlərini keçən radio dalğalarına qulaq asmaq qadağan edildi, belə adamlar müəyyən edilərsə, burjua təsirinə düşmüş səbatsız ünsür kimi həbs və sürgünlə, işsizliklə cəzalandırıldı. Bu siyasət Sovet imperiyasının bütün varlığı dövründə davam etdirildi.

Lakin məlumdur ki, Rus Sovet Kommunist imperiyasının varlığı dövründə bütün dünya ölkələrində cəmiyyətin inkişaf qanunları haqqında yaradılan elmi-nəzəri ədəbiyyat və onun nəticələri gizli olaraq əldə edilir, öyrənilib istifadə olunurdu. Ancaq əsarət altında saxladığı xalqlara dünya elmində tarixin inkişaf qanunları haqqında kəşf olunan qanun və kateqoriyalarla, elmi-nəzəri müddəalarla tanış olmağa imkan verilmirdi. Lakin xaricdə təhsil almış, Avropa elmi, fəlsəfəsi və tarixşünaslığı ilə tanış ziyalılar tərəfindən proletariat diktaturası – kommunizm illuziyasının pozula biləcəyi V.İ.Lenin başda olmaqla bolşevikləri daima qorxudurdu. Ölkədə marksizmin ideoloji diktatura kimi qəbul etdirilməsi, ondan başqa hər hansı bir fəlsəfi fikir cərəyanının qalmaması üçün partiya və dövlət strukturlarında xüsusi təsisatlar yaradılmalı idi. Bu istiqamətdə ciddi axtarışlar aparılır, ilkin təsisatlar yaradılırdı. Dövlət içində dövlət olan RK(b)P marksizmi, onun tarixi materializm nəzəriyyəsini cəmiyyətin inkişafı haqqında yeganə elmi metod elan edildi. Əslində Rus Kommunist Sovet impariyasında sosial elmlərin inkişaf tarixi göstərir ki, marksizm, tarixi materializm belə imperiyanın bütün xalqlarının tarix və fəlsəfəsinə nə eyni səviyyədə, nə də eyni zorakılıqla tətbiq olunmuşdur. Sov. İKP Siyasi Bürosu və onun dayağı DTK tərəfindən imperiyanın hər bir xalqa necə yanaşması əvvəlcədən planlaşdırılır, işlənib-hazırlanan, yaradılan süni konsepsiya əsa-

sında həmin xalqın tarixinin yazılması müvafiq tarix institutlarına sifariş edilirdi. Sov. İKP Siyasi Bürosu və DTK imperiyanın əsarətdə saxladığı xalqlar üçün süni tarix yazılmasının ideoloji mərkəzləri idi. Beləliklə, elmi-tədqiqat müəssisələri, tarix institutları xalqların tarixinin necə yazılması haqqında DTK direktivlərini icra edirdi.

Sov. İKP Siyasi Bürosu və DTK imperiyanın əsarət altına aldığı xalqları assimilyasiya edib ruslaşdırma siyasətini xalqların inkişafının əsasında ideyaların, mənəvi dəyərlərin dayanması haqqında nəzəriyyəyə uyğun yeridir və onu gizli saxlayırdı. Beləliklə, bolşeviklərin, Rus Sovet imperiyasının milli siyasətinin, başlıca vasitəsi xalqdan gizlətdiyi Avropa filosoflarının, tarixçilərinin, etnoloqlarının, etnopsixoloqlarının tarix elmi və onun müxtəlif sahələri haqqında müəyyən etdiyi qanunauyğunluqlar və elmi müddəalar idi. Qarşıya qoyulan bütün milli, sosial-siyasi, geopolitik məqsədlər uydurulan tarixi konsepsiyalar vasitəsilə xalqlara aşılanır, onlar ideoloji-siyasi cəhətdən bu istiqamətə yönəldilirdi. Odur ki, tarix elmi nüvə silahı cəviyyəsində dövlətin ciddi nəzarətində idi. Onun kadrlarının seçilməsi və yetişdirilməsinə xüsusi həssaslıqla yanaşırdı (36, 9).

Tarixi obyektiv elm hesab edən Avropa mütəfəkkirlərinin əvvəlcədən proqnozlaşdırdığı kimi, sosializm monarxiya ideologiyası idi. Bolşeviklər hakimiyyət başına gələn kimi Rusiyada burjua-demokratik inqilabının nəticələrini aradan qaldırıb imperiyanı bərpa etmələri Avropa mütəfəkkirlərinin mülahizələrinin düzgünlüyünü təsdiq etdi. Bolşeviklər rus proletariatının ölkədə və dünyada tarixi missiyası haqqında ideoloji mifi yaratdılar. Rus proletariatı əsarət altına alınmış xalqlara "böyük qardaş" elan edildi. İmperiyada bütün siyasət, sosializm-kommunizm quruculuğu guya onun rəhbərliyi altında həyata keçirilirdi. Beləliklə, Romanovlar monarxiyası bolşeviklərin monarxiyasına çevrildi.

Romanovların dünya imperiyası iddiası kommunist Rus imperiyasının rus proletariatının dünyəvi missiyası haqqında ideyada aydınlıqla ifadə olundu.

Dünyanın burjua və feodal siniflərini, xüsusi mülkiyyətin mövcud olduğu bütün ölkələrin istismarçı siniflərini məhv edib, ictimai mülkiyyətə əsaslanan sinifsiz sosializm-kommunizm cəmiyyəti qurmaq rus proletariatının tarixi missiyası elan edildi. Rus proletariatı nəinki ölkə, bütün dünya xalqları proletariatının böyük qardaşı missiyasına malik oldu. Beləliklə, ictimai inkişafın aşağı pilləsində olan xalqlara marksist ideologiya ixrac olunmaqla savadsız, siyasi şüurdan məhrum proletariat və ona yaxın siniflər vasitəsilə Kommunist Rus imperiyası inqilabi üsullarla dövlət çevrilişləri edir, imperiyanın sərhədlərini və təsir dairəsini ardıcıl genişləndirirdi. Kommunist Rus imperiyasının bu siyasəti də Avropa tarix elminin ideya və ideologiyanın kütləyə təsiri haqqında elmi nəzəriyyə və məlumatlarına əsaslanırdı. Rus xalqının əsarət altına alınmış xalqlar içərisində hegemonluğunun yaradılması da Avropa tarix elminin ideyalar və ideologiyalar haqqında elmi müddəaları əsasında yaradılırdı. Rus xalqı ilə əsarət altına alınmış xalqlar arasında "biz" və "onlar" arasındakı fərqi yaddaşdan çıxarmaq üçün onların ruslarla eynimənşəli olması, mədəni cəhətdən onlardan üstün olması, adət-ənənələrinin düzgünlüyü, mütərəqqiliyi, mədəniləşdiriciliyi haqqında ideyaları tarix dərsliklərinə daxil edir, xüsusi psixoloji üsullarla yaddaşlara yeridilirdi.

Beləliklə, Kommunist Rus imperiyası dünya elmi tarixşünaslığını tarixçi kimi yetişəcək yeni nəsildən, xalqdan gizlədirdi, bolşevizmin ideoloqları Rus xalqına, onun əsarət altına aldığı hər bir xalqa onu assimilyasiya etmək və geopolitik məqsədlərlə istifadə etmək siyasətinə müvafiq süni konsepsiyalarla tarix uydururdular. Sovet İttifaqı Kommunist Partiyasının və DTK-nın analitik mərkəzinin xüsusi

qrupu tərəfindən xalqlara uydurulan bu tarixlər, görünən tarix institutları, onu icra edəcək "tarixçilər" tərəfindən müxtəlif variantlarda yazılır, nəşr edilir, şüurlara yeridilirdi. Rus kommunist imperiyasının tarix elmi sahəsində bu konsepsiyaları Oktyabr çevrilişinə qədər yetişən tarixçi-ziyalı nəsli bütünlüklə qəbul edə bilmirdi. Odur ki, imperiya onları tək-tək həbsə, sürgünə, güllələnməyə məruz qoymaqla kifayətlənmədi və 1937-ci ildə onları bir zümrə kimi güllələyib məhv etdi.

Elə həmin ildə Moskvada üçcildlik "SSRİ tarixi" dərsliyi, onun orta məktəblər üçün qısaldılmış "Vətən tarixi" adlı variantı nəşr olundu. Adının əksinə olaraq dərslikdə ancaq rus xalqının tarixindən irqçilik, hakim millətçilik mövqeyindən bəhs olunurdu. Rus xalqı yaranışdan fövqəlbəşər, işğalları da mədəni nəticələr doğuran bir xalq kimi əsarət altına alınmış xalqların yeni nəslinin şüuruna yeridilirdi. Dərslikdə rusların hər bir xalqın işğal günü həmin xalqın bəşəriyyətə mədəniyyət yayan mütərəqqi rus xalqına qovuşduğu bayram kimi yadda saxlanılmalı tarixi bir gün kimi izah olunurdu. Oktyabr çevrilişi ilə rus proletariatı guya bütün milli-sosial ədalətsizliyin mənbəyini məhv etmişdir. Rus proletariatının hakimiyyəti illərində rus işğalı rusların bu ölkələrə gətirdiyi xoşbəxtlik, sosial-milli ədalət, mədəni inkişaf mərhələsi kimi şərh olunurdu. Ruslar istisna olmaqla Oktyabr çevrilişinə qədər bütün xalqların tarixi cəhalət dövrü, quldur-qaçaq, vəhşi, mədəniyyət düşməni, ən müsbət halda mədəniyyətə biganə bir ünsürün tarixi kimi şərh olunurdu. Sovet imperiyasının varlığı dövründə "SSRİ tarixi" adlı dərsliyin bütün nəşrlərində bu konsepsiya davam etdi (34; 35).

Kommunist Rus imperiyasının tarixinə nəzər saldıqda aydın görünür ki, bolşeviklər ölkədə qısamüddətli iqtisadi sistemlər yarada bilsələr də, tarixşünaslıqda bu mümkün

olmamışdır. Sovet tarixşünaslığında elmdən danışsalar da, o, heç vaxt elmi baxış səviyyəsinə yüksələ bilmədi. Çünki o, tarixə obyektiv elmi baxışla deyil, subyektiv siyasi məqsədlər güdən baxışla yanaşırdı. Odur ki, imperiyanın varlığı dövründə bu ölkədə tarix elmi tarixşünaslıq deyil, tez-tez dəyişən subyektiv ideoloji konsepsiyalar yığını oldu. Bu konsepsiyaların doğuluşu ilə ölümü çox qısa zaman kəsiyində baş verirdi. Bəzən də doğulmamış ölürdü.

Azərbaycan oxucusu üçün daha maraqlı olduğu üçün misalı Azərbaycan tarixindən gətirək. Üçcildlik "Azərbaycan tarixi"nin III cildinin 3-cü hissəsi bir neçə dəfə "yazılsa da", nəşri mümkün olmadı. Yazılışı başa çatana qədər konsepsiya ölürdü. Belə ki, birinci yazılışı başa çatana qədər kommunizm quruculuğu proqramı öldü. Sovet tarixşünaslığı XX əsrin 60-80-ci illərini "inkişaf etmiş sosializm" dövrü adlandırmaq istəyirdi ki, imperiyada ideoloji və iqtisadi tənəzzül, böhran başlandı. İmperiya ideoloqları onu "yenidənqurma" adı altında təmir edib ömrünü uzatmaq istəyirdilər ki, ölkədə başlayan milli-azadlıq hərəkatları onu tarixin arxivinə göndərdi. Avropa elmi tarixşünaslığının hələ XIX əsrin sonlarında müəyyən etdiyi kimi, elə ki, ideologiyaya şübhə yarandı, kütlə ondan inqilabi şəkildə üz döndərir.

Tarix elmi etnosun bütün hiss, emosiya, əhvali-ruhiyyəsini hərəkətə gətirməklə onun yaddaşından doğan fəaliyyət impulsu, milli əxlaqa söykənən qəhrəmanlıq səhifələrindən doğan mənəvi qida mənbəyi, toplumun mənlik, əxlaq, qürur hissləri ilə intellektual fəaliyyətini birləşdirməklə milləti bütünlüklə məqsədyönlü fəaliyyətə səfərbər edən idrak prosesi və bundan doğan yaradıcılıq mənbəyidir.

Hər hansı bir ölkədə başqa xalqların tarixinin yazılması onların tarixi və mədəniyyətinə məhəbbətdən irəli gəlmir. Bu xalqlara qarşı güdülən məqsəddən doğur. Imperialist dövlətlərin xüsusi məqsədlərlə digər xalqların mülki, siyasi-

hərbi, mənəvi, iqtisadi və s. tarixlərini yaradan zaman güddüyü məqsədləri həmin xalqların mülki, iqtisadi, siyasi, mənəvi həyatını ifadə edən ideoloji formalar verməklə qayğıkeş, beynəlmiləlçi, demokrat xalqların tarixinə və bu gününə hörmət etmə fonunda yazdırdığı "tarix kitabları" vasitəsilə işğalı nəzərdə tutulan və əsarət altında saxlanan xalqların şüuruna ötürür, yerləşdirir. Bütün bu prosesi – xalqlara yanaşma, ünsiyyət qurma, psixoloji, ideoloji, iqtisadi, siyasi və s. təsir etmə üsullarını etnologiya elmi işləyib hazırlayır. Onun detallarını xüsusi mütəxəssislər istisna olmaqla hər kəsin duya bilmədiyi, dərk edə bilmədiyi sosial-siyasi, ideoloji-mənəvi məqamlara yerləşdirir. Təsadüfi deyil ki, etnologiya elmi Avropa imperializminin müstəmləkəçilik prosesində xalqları duymaq, dərk etmək, onlara yanaşmaq üsulunu müəyyən edən elm kimi sürətlə inkişaf etdi, gələcəyin fəlsəfəsi adlandırıldı. Belə ki, etnologiya xalqları ruhuna qədər kompleks öyrənən yeganə elmdir. Təsadüfi deyil ki, etnologiya fəlsəfənin, psixologiyanın tədqiqat predmeti olan ruhu öyrənməklə fəaliyyətə başladı. Onlarla müqayisədə daha tez uğur qazandı. Əgər fəlsəfə mənəvi sisteminin son nəticəsi olan ruhla məşğul olur, onu öyrənirsə, etnologiya ruhun yaranması, mövcudluğu, ölümü prosesini öyrənir. Beləliklə, etnologiya tezliklə bütün humanitar elmlərin fövqündə duran bir elmə çevrildi.

Beləliklə, ictimai elmlərin, hətta təbiətşünaslığın, xüsusilə biologiyanın genetika sahəsində elmi müddəalarını xalqa, sevimli proletariata və kəndli sinfinə qadağan edən Sov. İKP özü bu müddəalar əsasında məqsədli ideyalar üstündə süni tarixlər uydurmaqla rus xalqına və əsarət altına alınmış xalqlara mənəvi, ideoloji yönüm verirdi. Rus Sovet imperiyası cəmiyyətin inkişaf qanunauyğunluqları haqqında marksizm-leninizmi yeganə elmi metod, elmi fəlsəfə, iqtisadi-sosial və siyasi nəzəriyyə elan etsə də, Sovet imperiyasının

sosial-iqtisadi həyatına, imperiya dövründə yaranmış ictimai-siyasi ədəbiyyata nəzər saldıqda aydın görünür ki, burada əslində heç marksizm də olmamışdır. Bu ölkənin sosial həyatında və ictimai elmlərində sadəcə olaraq marksizmin adından istifadə olunmuş, imperiyanın müstəmləkəçi məqsədləri onunla pərdələnmişdi.

Etnososial inkişafdan bəhs edən bütün nəzəriyyələr inkişafı doğuran səbəblərdən birini əsas hesab etmişlər. K.Marks isə iqtisadiyyatı əsas götürmüşdür. Bütün nəzəriyyələrdə ifratçılıq özünü göstərir. Ifratçılığa varmanın obyektiv və subyektiv səbəbləri vardır. Təbii-tarixi inkişaf prosesinin müəyyən dövrlərində, bəzən də müxtəlif xalqlar həyatının müəyyən tənəzzül məqamlarından çıxanda, fərqli mənəvi, ideoloji, sosial-iqtisadi səbəblər aparıcı kimi görünür. Etnososial inkişafın səbəblərindən bəhs edən nəzəriyyə yaratmış alimlər bəzən inkişafın kiçik məqamlarını, müəyyən dövrlərdə müxtəlif xalqların həyatında inkişafın əsas səbəbi kimi özünü göstərmiş səbəbləri bütün hallarda xalqların inkişafının əsas səbəbi kimi izah etmişlər. Lakin xalqların həyatında tənəzzüllər müxtəlif səbəblərdən – mənəvi, ideoloji, intellektual, sosial, siyasi-iqtisadi və s. məzmunlu səbəblər çoxluğundan yaranır. Bir səbəb əsas, aparıcı olur, etnosun bütövlüyünü təmin edən sistemi pozur. Etnik sistemi pozan səbəb düzgün müəyyən edilib aradan qaldırılanda etnos tədricən digər çatışmazlıqları da aradan qaldırır və öz bütövlüyünü bərpa edir. Tarixin müəyyən məqamlarında etnosun inkişafında əsas səbəblər fərqli olur. Etnososial inkişafın səbəbləri haqqında müxtəlif nəzəriyyələr də elə bu səbəbdən yaranır.

Təbiət kimi, cəmiyyət də bir haldan başqa vəziyyətə keçmək üçün onun bütün komponentləri – mənəvi, ideoloji, əxlaqi, dini, psixoloji, hərbi, iqtisadi-siyasi və s. dəyərlərlə təmin olunmalı, doymuş hala gəlməlidir. Əks təqdirdə cə-

miyyət nə öz təkamülünün yeni halını ala, nə də özünü yeni məzmun və formaya sala bilir.

Etnososial varlığı qidalandıran, yaşadan, inkişaf etdirən, yetişdirib bir səviyyədən digərinə keçirən əsas qida mənəvi qida komponentləridir. Iqtisadiyyat etnososial varlığın bioloji tərəfini qidalandırıb inkişaf etdirən bir komponentdir. Etnososial inkişafın bir səviyyədən digərinə keçidini təmin edən əsas və başlıca səbəblər mənəvi səbəblərdir. Müəyyən nəzəriyyələr mənəvi tərəflərin bu və ya digər komponentlərini şişirtdiyi kimi, K.Marksın nəzəriyyəsi də iqtisadi səbəbləri son dərəcə şişirtmişdir. Iqtisadiyyat etnososial varlığın yaranması və inkişaf etməsinin başlıca tərəfi olsa idi, təbii resurslarla, enerji mənbələri ilə ən zəngin, K.Marksın iqtisadi nəzəriyyəsini rəhbər tutan Rusiya və Azərbaycan inkişaf səviyyəsinə görə dünyanın lider ölkələri, xalqları, Yaponiya isə ən zəif, inkişaf etməmiş axırıncı ölkəsi olmalı idi. Amma hər şey əksinədir.

Etnososial inkişafda iqtisadiyyatın, istehsalın aparıcı olması müddəası K.Marksın və F.Engelsin əmək nəzəriyyəsinin doğurduğu yanlışlıqdan başqa bir şey deyildir (42, 54-88; 43;). Nəzərə almaq lazımdır ki, K.Marksın bu müddəası Ç.Darvinin təkamül nəzəriyyəsindən doğmuşdur. Meymunun əmək prosesində şüura yiyələnib sosial varlığa – insana çevrilməsi K.Marksdan əvvəl Ç. Darvinə məxsusudur. Avropa mütəfəkkirlərindən **K.Yaspers düzgün olaraq yazır ki, insanın meymundan əmələ gəlməsindən daha çox meymunun insandan yarandığını demək ağlabatandır** (9, 261). K.Marks və F.Engelsin zamanından keçən dövr ərzində, elmin ən yüksək inkişaf səviyyəsində aparılan tədqiqatlarda insanabənzər meymundan insana keçid mərhələsi haqqında hər hansı fakt qeydə alınmamışdır. Bu müddəa heç bir dəlilə əsaslanmır, əksinə, elmi tədqiqatlar K.Marks və F.Engelsin əmək nəzəriyyələrini təkzib edir (9, 263-264).

Əmək prosesi işin texniki vərdişlərinə uyğun təcrübə və təşkilatlanma kimi səmərəli qurulması ilə istehsal prosesini sürətləndirir və məhsuldarlığı yüksəldir ki, bu da şüurun hamı tərəfindən görünən ən adi keyfiyyətidir. Əmək heç cür şüurun mənbəyi ola bilməz. Əgər əmək, K.Marks və F.Engelsin dediyi kimi, şüurun mənbəyi olsaydı, onda bütün fabrik və zavod fəhlələri, bağbanlar, çobanlar bir neçə il ərzində inkişaf edib mükəmməl ixtiraçı və alimlər olmalı idi. Göründüyü kimi, 25-30-40 il dəzgah arxasında işləyən fəhlə, bağban, çobanın heç biri alim ola bilmir. Hətta minlərlə ali təhsillilər içərisindən həyatın, təbiətin-cəmiyyətin sirlərini dərk etməklə alim səviyyəsinə yüksələn insanlar xalqlar arasında faiz təşkil etməyəcək sayda az olur. Bütün ixtiralar, elmi kəşflər, bütövlükdə cəmiyyəti hərəkətə gətirə biləcək ədəbiyyat və incəsənət əsərləri yarada bilənlər çoxmilyonlu xalqlar arasında bir neçə nəfər olur. Bütün insanlarda şüurun fərqli səviyyəsi beyinin təbii xassəsidir. Təhsil, tərbiyə və ictimai mühit vasitəsi ilə şüurun səviyyəsinə təsir göstərilə bilər, çünki beyində, genində inkişaf etdirilməsi mümkün olan keyfiyyətlərin müəyyən təməl səviyyəsi var. Beyində hər hansı bir sahənin, məsələn, riyaziyyatın, musiqinin hər bir insanda anadangəlmə kodlaşmış imkanı mövcuddur. Həyat göstərir ki, heç bir vasitə, üsulla bu hüdudu aşmaq olmur. Məhz buna görə demişlər: "Hər oxuyandan alim olmaz", "Diplom insanı alim, əmmamə mömin edə bilməz".

K.Marks və F.Engels əmək nəzəriyyəsini proletariatda onların sinfi mübarizə nəzəriyyəsinə şübhə yaranmaması üçün uydurmuşlar. Onlar proletariatı birmənalı inandırmaq istəyirdilər ki, guya əmək prosesi insan şüurunu sonsuz inkişaf etdirmək imkanına malikdir. Fəhlə sinfi sosializmdə əmək prosesində alimə, nazirə, nə isə idarə edici hakim bir zümrəyə çevriləcəklər. Rus bolşevikləri K.Marks və F.Engelsin əmək və iqtisad nəzəriyyəsinin əsasında insanın

şüurlu yaradıcı fəaliyyətinin nəticələrini, antik filosofların "ikinci təbiət" adlandırdığı mədəniyyətin yaradıcılıq keyfiyyətlərini fəhlənin fiziki əməyinə aid edirdilər. F.Engels yazırdı: "Əmək bütün insan həyatının birinci şərtidir, həm də o dərəcədə belə bir əsas şərtdir ki, biz müəyyən mənada deməliyik: insanın özünü əmək yaratmışdır" (42, 74). "Əlin inkişafı il birlikdə, əməklə birlikdə başlanmış olan təbiət üzərində hökmranlıq irəli atılan hər bir yeni addımda insanın görüş dairəsini genişləndirmişdir" (42, 77). **Göründüyü kimi, marksizm baniləri proletariatda nəzəriyyələrinə hər hansı şübhə yeri qoymamaq üçün əllə beyinin, yaradıcı təfəkkürlə - şüurla fiziki iş qüvvəsinin yerini dəyişmişlər.** Bunu K.Marksın əmək haqqında aşağıdakı sözləri aydın ifadə edir. "Əslində əməyin dəyəri, iş qüvvəsinin dəyərindən başqa bir şey deyildir" (37, 413).

Beləliklə, bolşevik Rusiyası, onun ideoloji təşkilatı Kommunist Partiyası, bu təşkilatın icra aləti olan marksist tarix elmi marksizmin əmək nəzəriyyəsinə müvafiq mifik bir "həyat tərzi" uydurdu.

Marksist Sovet tarix "elmi" sinifli cəmiyyətlərdə fəhlə və kəndlilərin əməyinin feodal, mülkədar, bəy, xan, burjuaziya tərəfindən istismar olunması təbliğatı ilə keçmişə fasiləsiz nifrət ideologiyası aşılayır, sosializmin əməyi azad etməsi, bunun sayəsində zəhmətkeşlərin - fəhlə və kəndlilərin yaradıcılıq qabiliyyətinin sonsuz yüksəltməsi haqqında manipulyasiya edərək, savadsız, kütləşdirilmiş fəhlə və kəndliləri, onların iş qabiliyyətlərini mifoloji səviyyədə şişirdir, məsələn gündə 10 nəfər fəhlənin iş normasını icra edən Staxanov, 10 nəfər pambıqçının iş normasını aşan Sürəyya Kərimova, ildə hər qoyundan 4 quzu doğuzduran, 10 kiloqram yun qırxan Çoban Həsən və s. "qəhrəmanlar" yaradaraq "kommunizm" uğrunda mübarizələrə qoşurdular. Kommunizm qurucusu bu fəhlə və kəndlilərin balaları tarixçiləri isə

Sovet kommunist, kommunizm quruculuğu tarixşünaslığını yaradırdılar. Məhz bu uydurmaları nəzərdə tutan Qustav le Bon yazırdı: "Bütün bunlardan bir nəticə hasil olurdu ki, tarixi əsərlərə sırf fantaziya əsərləri, pis müşahidə olunmuş və sonradan verilən izahatlarla müşayiət olunan faktlar haqqında fantastik söhbətlər kimi yanaşılmalıdır. Gil qarışdırmaq belə kitablar yazmaqdan qat-qat faydalı məşğuliyyətdir". Sözünə davam edən mütəfəkkir yazır: "Keçmiş bizə özünün əbədi və bədii əsər və abidələrini vəsiyyət etməsəydi, biz keçmiş haqqında həqiqəti bilməzdik". "Əgər xalqlar özlərindən qabaq işlənmiş mənbələrdən faydalana bilməsəydilər, sivilizasiyalarının inkişafı çox yavaş gedərdi və müxtəlif xalqların tarixi yalnız təkrardan ibarət olardı" ((24, 93, 185). Bu fikirlər böyük dahiyanəlikdən xəbər verir, tarixin təsdiq etdiyi sosial-mənəvi, siyasi uzaqgörənlikdir. Heç bir şərh tələb etmir.

Kommunist Rus imperiyası əsarətində olan xalqların 70 ildən sonra kapitalizmə yenidən keçidi, Azərbaycan xalqının erməni probleminə təkrar qayıtması utopik sosializm ideyalarının, Sovet tarixşünaslığının kütləni yoluxdurmasının nəticəsi oldu. Sovet tarixşünaslığının bütün sahələri kütlə psixologiyasına uyğun süni, yeganə davamlı maddi tələbata söykənən ideyalardan ibarət idi. O, dinləşdirilmiş, cənnəti – kommunizmi o dünyadan bu dünyaya gətirmiş, quruculuğu Allahdan alıb, fəhlə sinfi və onun müttəfiqi kəndlilərin vəzifəsi elan etmiş, ona əxlaq kodeksi də qoşmuşdu (46; 47). Lakin elan olunmuş zaman yaxınlaşdıqca ideya alt-üst olurdu. Rus milli psixologiyasına uyğun yeni rəhbərlərin dilindən isə keçmiş rəhbərlərin səhlənkarlığı, volyuntarizmi və s. kimi eşidilirdi.

Nəhayət, kommunizm quruculuğunun çiçəklənəcəyi çağ, "maddi nemətlərin sel kimi axacağı" kimi elan edilmiş bir dövrdə kiçik qardaşlar "Oktyabr inqilabı" coşqunluğu ilə

Rus kommunist imperiyasını, onunla birlikdə dünya sosializm sistemini tarixin arxivinə tulladı. Rusiyada və dünyanın digər sosializm ölkələrində kommunizmin ideoloqu kimi çıxış edən bir nəfər də olsun "tarixçi alim" "elmi adından" rütbəsindən imtina edib "dahi proletariatdan" onu aldatığı üçün üzr istəmədi. Heç "dahi proletariatın" özü də "alicənablıq" edərək bunu tələb etmədi. Əksinə, bir çox xalqların proletariatı kapitalizmə getmək üçün də kommunizm quruculuğu liderlərinin ətəyindən yapışdı. Ədalət naminə deyək ki, bunu Rus proletariatı tövsiyə etməmişdi, onu Rus proletariatının himayəsində yetişən öz psevdo alimləri tövsiyə etdilər. Bu isə həmin xalqların alimlərinin bir hissəsinin kütlələşməsinin nəticəsi idi. Hər hansı bir xalqın aliminin kütlələşməsi etnosun yaradıcılıq qabiliyyətini itirməsinin göstəricisidir (24). Dahilərin neçə əsr öncə dediyi, tarixin təsdiq etdiyi kimi, kütlə qorxduğunu, itaəti sevir, ona tabe olur. Kütlə yaradıcılıq deyil, dağıdıcılıq qabiliyyətinə malikdir (23, 250; 24, 153-321).

Marksizmin Rusiyada müvəqqəti qələbəsi yalnız rus xalqının yaradıcılıq qabiliyyətini itirməsinin nəticəsi deyildi. Birinci olaraq bəşəriyyətin onu düzgün qiymətləndirməməsinin nəticəsi idi. Avropanın qabaqcıl ölkələri və ABŞ özlərini bu təhlükədən xilas etmək üçün onun yanından salamat keçməyi özü üçün qələbə hesab edərək, təhlükənin Rusiyaya keçməsinə şərait yaratdı. Bir Azərbaycan xalq misalında deyildiyi kimi: "Məndən ötdü, qardaşıma dəydi. Elə bildim saman çuvalına dəydi". Dünyanın 1/6-i 70 il bolşevizmin, kütlə hakimiyyətinin, psixologiyasının məngənəsində qaldı, qalan dünya bu dəhşətin ölkəsinə keçəcəyi səksəkəsi ilə yaşadı. Bütün bəşəriyyət bu təhlükə qarşısında birləşmək zərurətini dərk etdikdən sonra, o, qabaqcıl bəşəriyyətin birliyi sayəsində məğlub edildi. Bu səhvin bir daha təkrar olmaması üçün Y.V.Çəmənzəminlinin sözləri ilə desək, bəşəriyyət

kommunizm ideologiyasını doğuran və yaşadan səbəbləri, birinci növbədə kommunistlərin mənəviyyat və ideologiya sahəsində həyata keçirdiyi tədbirləri açmalı və onu hərtərəfli araşdırmalı, gələcək nəsillərə çatdırmalıdır. Biz isə burada kommunist etnoqrafların etnologiya milli və bəşəri həyat elmini 70 il milli ölüm elminə çevirmək üçün üzərində apardıqları rekonstruksiya haqqında kiçicik məlumatla kifayətlənəcəyik.

Etnologiya elminin predmetini dəyişmək, onu başqa cür yozmaq, bu predmetləri süni təbliğat vasitəsinə çevirmək mümkün olmadığından, Rus kommunist imperiyası sosial-siyasi, iqtisadi və ideoloji tarix sahəsindəki süni don geydirməni, elmi kosmetikaya çevirməni etnologiyaya tezliklə, asanlıqla tətbiq edə bilmədi, digər tərəfdən rus etnoqrafı da əslində bolşeviklərə mane olmur, əksinə onların imperiyanı bərpa etmək siyasətinə yardım edirdilər. Belə ki, Avropa mərkəzçilik ideologiyası zəminində yetişmiş rus etnoqrafları bolşeviklərin təkrar əsarətə almaq istədikləri xalqların işğalı və üzərində hakimiyyətlərini qurmaq üçün yetərli metodlar toplayır və bu xalqlara yanaşma üsullarını hazırlayırdılar. Özlərinin xüsusi məktəblərini yaratmış "Ştrenberq məktəbi", "Anuçin məktəbi", "Preobojonski məktəbi" və nüfuz qazanmış etnoqraflar Kommunist Rus imperiyasında yeni etnoqrafik müəssisələrin yaradılmasına və əsarət altına alınmış xalqların öyrənilməsinə cəlb edildi. D.N.Anuçin, V.Q.Boqoraz, V.İ.İoxelson, L.Y.Ştrenberq və b. müxtəlif Avropa fəlsəfi və etnoloji cərəyanlarının üzvü olmalarına baxmayaraq, yuxarıda göstərilənlər "praktiki yerinə yetirilməli vəzifələr" kimi onların qarşısına qoyuldu və onlar bu vəzifəni layiqincə yerinə yetirdilər (29, 114-118; 51, 25-26; 54, 17-20).

Sovet etnoqrafları və xarici ölkə etnoloqları Sovet etnoqrafiyasının yaranması və inkişaf tarixini dörd mərhələyə

bölürlər. Dövrləşdirilmələrdə il fərqləri olsa da, ümumən bu bölgü qəbul olunmuşdur (29, 114-115). 1917-ci il Oktyabr çevrilişindən 20-ci illərin sonuna kimi olan illər birinci dövr kimi qiymətləndirilir və bu mərhələnin xarakter xüsusiyyəti aşağıdakı kimi göstərilir: "Sovet etnoqrafiya məktəbinin tarixinin ilk dövrünün əsas xüsusiyyəti ondan ibarət oldu ki, bu inqilab etnoqrafların yaradıcılıq fəaliyyətlərini oyatdı və artıq Sovet hakimiyyətinin ilk illərində həm mərkəzlərdə, həm də ucqarlarda kifayət qədər tədqiqatlar aparıldı, toplanmış materiallar nəşr olundu, çoxsaylı etnoqrafik müəssisələr yaradıldı (29, 114-116). Həqiqətən də bu illərdə etnoqrafiya elmi tədqiqat müəssisələrinin yaradılması, universitetlərdə etnoqrafiya fənninin tədrisi və metropoliyalarda etnoqrafik tədqiqatlar (material toplanması) inqilabi vüsət almışdı. Bu illərdə Azərbaycan xalqlarının öyrənilməsinə imperiyanın ən görkəmli – dünyada tanınmış alimləri V.V.Bartold, N.Y.Marr, İ.İ.Meşaninov və b. alimləri cəlb olundu. Azərbaycanın milli etnik mənzərəsi incəliyinə qədər öyrənildi (58; 55, 12-14; 56; 57, 9-12).

Etnoqrafik tədqiqatlara və etnoqrafik müəssisələrin açılmasına göstərilən qayğı, onlara verilən meydan heç də bolşeviklərin ölkəni obyektiv elmi prinsiplərlə idarə etmək arzusundan doğmurdu. Bolşeviklərin kompası – uzaqgörənliyi kütlə psixologiyasına istinadən yenicə Rusiya əsarətdən çıxıb dövlətçiliyini qurmaqda olan xalqların hakimiyyətlərini dağıtmaqdan o tərəfə keçə bilmirdi. Avropa mütəfəkkirlərinə istinadən göstərdiyimiz kimi, bolşevizm və kütlə psixologiyası (yaradıcılığı) dağıtmaqdan başqa heç nəyə qadir deyil. Dünyanın 1/6-nin dövlətçiliyini dağıtmış bolşeviklər yeni iqtisadi, siyasi, mənəvi quruculuğu təsəvvür etmirdilər.

Tarixin göstərdiyi, Sovet imperiyasında etnoqrafiya elminin fəaliyyətinin birinci mərhələsində aparılmış tədqiqatları da təsdiq etdiyi kimi, milliliyin yaradıcısı, nümunə ve-

ricisi, təəssübkeşi və iddiaçısı, enerji mənbəyi ziyalı, zadəgan, bəy və burjua sosial təbəqəsidir. Kollektiv mənəvi dəyərlər nümunəsi verən, milli şüuru yaradan sosial təbəqənin nümyəndələri istehsalda da xüsusiyyətçi idilər. Onlar həmişə ümumi dəyərlərdə də özünəməxsusluqlar yaradırdılar. Onlar kollektivin zövqü ilə yaradılan istehsalda milli, parlaq, nümunəvi, alıcı rəğbəti yaradacaq məhsul istehsalına inanmırdılar. Odur ki, bolşeviklərin arzu etdiyi kollektiv təsərrüfata keçidə mane olurdular. Metropoliyalarda bolşeviklər tərəfindən milli hakimiyyətlər devrilsə də, zadəgan və burjua nümayəndələri bolşevik hakimiyyətinə qarşı mübarizə aparırdı. 1917-ci ildən 1929-cu ilə qədər Rus imperiyasında aparılan etnoqrafik tədqiqatlar ölkədə milli durumun, onun istək və arzularının mənzərəsini yaratmışdı. Bolşeviklərə də elə bu lazım idi.

Rusiyada eyni funksiyalı bəzi müəssisələr etnoqrafiya, bəziləri isə etnologiya adlandırıldı (29, 114-116). Artıq Kommunist Rus imperiyasında aparılmış etnoqrafik tədqiqatlar, yazılmış bəzi əsərlər, xüsusilə S.M.Şirokoqorovun "Etnos" haqqında yazdığı əsər və irəli sürdüyü mülahizələr (29, 42) və digər tədqiqatlar bu elmin adının və predmetinin dəqiqləşdirilməsi məsələsini tələb edirdi və bu dəqiqləşdirmə üçün material da verirdi. Lakin bu dəqiqləşdirmə, həqiqətin elan olunması və bu istiqamətdə fəaliyyət proqramı Rus imperiyasına sərf etmirdi. Bu onun milli varlığına zidd idi. Bolşeviklərə lazım olan etnoqrafiya-etnologiya vasitəsi ilə obyektiv reallığı müəyyən etmək və onu öz xeyrinə dəyişmək idi. Odur ki, Kommunist Rus imperiyası həqiqət müəyyən olunan kimi 1929-cu ildən etnoqrafik tədqiqatları dayandırdılar, mövcud etnoqrafiya elminin metod və predmetinin düzgün olmadığını elan etdilər (29, 116).

Göründüyü kimi, kommunistlərin Rus imperiyasında 1-ci dövr Sovet etnoqrafiya məktəbi adlandırdığı etnoqrafiya

elmi-nəzəri və metodoloji cəhətdən marksist etnoqrafiya deyildi. Oktyabr çevrilişinə qədər Avropanın müxtəlif etnoloji cərəyanlarının təsiri altında yetişən etnoqraflar nəsli idi. Bolşeviklər "inqilabi yaradıcılıqla" işləmək imkanını onlara ölkəni və etnik durumu tam öyrənmək məqsədi ilə vermişdilər. 1917-1929-cu illərdə imperiyada etnoqraflara tədqiqatlarında ideoloji və metodoloji müstəqilliyi başqa üsuldan istifadə edə bilinməsinin nəticəsi idi. Elə ki, etnoqrafların tədqiqatları ölkədə etnik durum haqqında tam təsəvvür yaratdı, bolşeviklər bu etnoqraflar nəslindən onlara lazım olanı əldə etdilər, 30-cu illərdən ardıcıl olaraq hamısı məhv edildi. Azərbaycanda "Tədqiq və Tətəbbö" cəmiyyətiinin də fəaliyyəti, 1926-cı ildən nəşr olunan "Etnoqrafiya" jurnalının da çapı 1930-cu ildən dayandırıldı. Onun əvəzindən "Sovetskaya etnoqrafiya" jurnalı nəşrə başladı.

1929-cu ildə Mərkəzi Xalqşünaslıq muzeyində "Marksist etnologiya seminarı" və Kommunist akademiyası Tarix İnstitutunun sosiologiya seksiyası etnologiyaya marksist metodun tətbiq edilməsi geniş müzakirə olundu. Bu müzakirə və diskussiyalar 1929-1932-ci illər müddətində davam etdi.

1929-cu ildə Moskva və Leninqrad etnoqraflarının müzakirələrində qərara alınmış bəyannamədə göstərilir ki, sovet etnoqrafiyası hər cür yalançı, saxta burjua ideologiyasından uzaq olmalı, konkret toplumu tədqiq etməli və hal-hazırda ilkin inkişaf mərhələsində olan sosial-iqtisadi formasiya və onun konkret variantlarını öyrənməlidir (29, 117). Bu fikir 1932-ci ildə arxeoloq və etnoqrafların ümumrusiya müşavirəsində konkret, daha aydın ifadə olundu: **"Mövcud etnoqrafiya xüsusi predmeti və öyrənmə metodu olan, eləcə də müstəqil, tarixə zidd və ya bərabər hüquqla, marksist-leninçi təlimin dialektik tarixi proses nəzəriyyəsinə ziddir"** (29, 117). **Bundan belə nəticə hasil olundu ki, "etnos" burjua elminin kateqoriyasıdır. Bu qərar qəbul edildiyi vaxtdan Rus Kom-**

munist imperiyasında etnosun nəzəri cəhətinin tədqiqi dayandırıldı (29, 118). Bununla da Kommunist Rus imperiyasında etnoqrafik tədqiqatların elmi inkişaf istiqaməti, yəni etnologiyaya çevrilməsi istiqamətində inkişafına, az-çox obyektiv tədqiqatlara son qoyuldu.

Sovet etnoqrafiyasının ikinci dövrü 30-cu illərdən SSRİ-nin İkinci Dünya müharibəsinə qoşulmasına qədər davam etdi. Bu dövrdə Sovet etnoqrafiyasının birinci dövründə mövcud olmuş nəzəriyyələr, xüsusilə N.Y.Marın Yafəs nəzəriyyəsi, etnogenizm tədqiqat metodu və s. tənqid olunaraq tədqiqat dövriyyəsindən çıxarıldı. Bu dövrün idarəçilikdə, "elmdə", "quruculuqda" zorakılığını Stalinin şəxsi despotizmi ilə bağlamaq savadsızlıqdan başqa bir şey deyil. Hakimiyyətin, idarəçiliyin, "elmin" ziyalıdan, zadəgandan kütləyə keçməsinin nəticəsi idi. Dəzgah arxasından ideoloqluğa, elmə gəlmiş proletariat və muzdurun tutuquşu kimi deyiləni təkrar etməkdən başqa düşüncə imkanı yox idi. Odur ki, deyiləni təkrar etməyən mexaniki olaraq kənara tullanır, bioloji varlıq kimi məhv edilirdi.

Etnoqrafik tədqiqatları marksizm-leninizm metodu əsasında qurmaq, onu çoxmillətli SSRİ xalqlarının sosializm quruculuğu ilə əlaqələndirilmək etnoqrafiya elminin qarşısında duran başlıca vəzifə kimi irəli sürüldü. İbtidai icma cəmiyyətinin ümumi məsələləri bu dövr sovet etnoqrafiyasının predmeti idi. Odur ki, bu dövrdə ibtidai icma cəmiyyətinin bir sıra məsələləri haqqında dünya etnologiyasının elmi nəzəri müddəaları tətbiq edilmədən, marksizm-leninizm mövqeyindən əsərlər yazıldı. Rus imperiyası əsarətində olan evinik, xantı, koryak, nivxi, ket, Sibir, Orta Asiya, Qafqaz xalqlarında icma-qəbilə, feodal və kapital ukladları daxilində qəbilə-icma qalıqlarının üzə çıxarılması bu dövr tədqiqatlarının əsas məsələsi idi (29, 118).

Tarixdən məlumdur ki, XIX əsrin sonu – XX əsrin əvvəl-

lərində qəbilə-icma ukladlarının ən güclü olduğu xalq ruslar idi. Düzdür yuxarıda adını çəkdiyimiz şimal xalqları, bir sıra Sibir və Uzaq Şərq xalqları ictimai inkişafın aşağı pilləsində yaşayırdılar. Əslində bu dövrün istər etnoqrafik ədəbiyyatı və istərsə də mülki, sosial-siyasi tarixi tam irqçilik, hakim millətçilik siyasəti yeridir, rus proletariatının simasında, rus xalqı kimi idealizə olunurdu. Rus fəhlə və kəndlisinin şüurunda kök salan monarxiya, icma münasibətləri Oktyabr çevrilişi ilə fevral burjua inqilabının nailiyyətlərini aradan qaldırdı. Sosialist-ictimai mülkiyyəti formasında, onun dövlət forması olan proletariat diktaturası, monarxiya formasında bərpa olunan Rusiya ictimai həyatında qısa müddətli demokratiya məhv edilir. İctimai inkişafın Ruslardan yüksək pilləsində yaşayan Ukrayna, Azərbaycan, Gürcüstan, Pribaltika respublikaları, Tatarıstanın ictimai inkişaf nailiyyətləri məhv edilərək, Rus təhkimçiliyinin yeni forması sosialist təsərrüfat ukladına uyğunlaşdırılırdı. Təbii iqlim şəraiti ilə əlaqədar uzun müddət ictimai inkişafın arxaik formasında yaşasa da, rəzil, mənəviyyatsız Rus təhkimçiliyini görməmiş kiçik xalqlar etnoqrafik tədqiqatlarla və başqa vasitələrlə zorakı surətdə gözdən salınır və assimilyasiya olunurdu.

SSRİ-nin İkinci dünya müharibəsinə qoşulması ilə etnoqrafiyanın yuxarıda göstərilən səviyyədə fəaliyyəti də dayandı. İkinci dünya müharibəsinin qurtarması ilə sovet etnoqrafiya məktəbinin inkişafının 3-cü mərhələsi başlanır. Çöl materiallarının uzunmüddətli toplanmasına başlanır. D.N.Anuçinin triadası – etnoqrafik, arxeoloji və antropoloji materialın vəhdətdə toplanması ideyası əsas götürülür. Sovet etnoqrafiyasının SSRİ miqyasında S.Q.Tolstoy rəhbərlik edirdi.

Sovet etnoqrafları beynəlxalq səhnəyə 50-ci illərdə çıxmağa başladılar. Əsasən mədəni təsərrüfat tipi və ibtidai

icma quruluşu haqqında mövzularda məruzələr edirdilər. Artıq etnoqrafiyanın predmet sferasında da dəyişiklik gedirdi. Etnogenez probleminin tədqiqinə maraq artırdı (bu maraq hələ 30-cu illərin sonunda vardı). 30-cu illərdən fərqli olaraq, bu illərdə artıq etnoqrafiyanı "tarix elminin müxtəlif dünya xalqlarının məişət mədəniyyətini, onların inkişaf səviyyəsini, mənşəyini, tarixi-mədəni əlaqələrini öyrənməklə onların tarixlərini bərpa edən, onların məskunlaşması və hərəkətini öyrənən bir sahəsi" hesab edənlər çoxluqda idilər, lakin bu ideya hələ hamılıqla qəbul olunmamışdı (29, 19-20).

Sovet hakimiyyətinin ilk illərində, İkinci dünya müharibəsi illərində ali təhsilli etnoqrafların hazırlanmasına xüsusi diqqət yetirildiyi halda bu iş 50-ci illərin başlanğıcında ixtisar olundu. Bütün etnoqrafik fəaliyyət akademiya müəssisələrində birləşdirildi. Moskva və Tiflis universitetlərinin əməkdaşları etnoqrafik fəaliyyətlərini akademiya müəssisələri ilə əlaqələndirdilər (54, 20). Həmçinin 50-ci illərdə N.Y.Marın nəzəriyyəsi "burjua mahiyyətli" elan olundu. Bu illərdə antropologiyanı irəlilətmiş V.V.Bunak, folklorçu P.Q.Boqatırev, etnoqraf N.A.Butinov antimarksizmdə ittiham olundular (29, 121). Etnoqrafiyanın predmeti haqqında əhatəli fikir söylənilsə də, tədqiqatlar zamanı alınan nəticələri proletar ideoloqları qəbul edə bilmirdilər. Odur ki, onun nəticələri əsarət altında olan xalqların keçmişinin mənfi obrazı kimi təsvirindən ibarət olurdu.

Sovet etnoqrafiyasının 4-cü və son mərhələsi 60-cı illərin ortalarından başlayır. Bu dövrün xarakterik cəhəti qətiyyətlə yolunu dəyişib (təsvirçilikdən – X.X.) etnoqrafiya elminin problemini nəzəri əsaslarla işlənilməsi, hər şeydən əvvəl etnos haqqında nəzəriyyənin onun başlıca tədqiqat obyektinə çevrilməsi idi (29, 121).

Hələ müharibədən sonrakı ilk illərdə P.İ.Kuşner "etnos"

anlayışına "bəraət" verilməsinin ilk təşəbbüskarı kimi çıxış etdi. Həmçinin bu illərdə P.İ.Kuşnerin mühüm xidmətlərindən biri etnik özünüdərkin etnosun varlığının əsas əlaməti olmasını əsaslandırması, Sovet imperiyasında elmi dövriyyəyə gətirməsi idi. (P.İ.Kuşnerdən əvvəl bu ideyanı D.S.Lixaçov və V.V.Mavrodini irəli sürmüşdü, lakin qəbul olunmamşdı. Əslində bu müddəa dünya etnologiyasında çoxdan mövcud idi, sadəcə olaraq P.İ.Kuşner onu Sovet etnoqrafiyasına gətirirdi) (29, 121).

1951-ci ildə Sovet etnoqrafiyasında "etnos" anlayışının mahiyyətinin dərk olunması zərurətinin irəli sürüldüyü bir vaxtda İ.A.Tokaryev və N.N.Çeboksarov bu anlayış haqqında böhtancasna yazırdılar: "Əlbəttə heç bir xüsusi "etnos" mövcud olmayıb, ancaq burjua elminin incə daimi, dəyişməz kateqoriyasıdır, insanlığın bütün tarixi boyu sanki özünün mücərrəd "xüsusiyyətini" saxlayır". Bu sözlərdə "etnos" anlayışının üzərinə 20-ci illərdə qadağa qoyulduğu səsləndirilirdi (29, 121). **Nəhayət, 1957-ci ildə M.Q.Levin və N.N.Çeboksarov "etnos" anlayışının elmi dövriyəyə gətirilməsinin vacibliyini əsaslandırdılar, o vaxtdan başlayaraq bu anlayış Sovet etnoqrafiyasında vətəndaşlıq hüququ qazanmağa başladı** (29, 122).

1967-ci ildə A.İ.Perşits və N.N.Çeboksarov etnoqrafiyanın etnogenez, etnik tarix, etnik coğrafiya, etnososiologiya, mədəniyyət tarixi, ibtidai icma quruluşunun problemlərini xatırladır, ancaq etnos haqqında yeni bir nəzəriyyə irəli sürmədilər. Sovet imperiyasında bu aspektdə olan bütün tədqiqatlarda təsvirilik nəzəriliyi üstələyir (29, 122). Bunun ardınca Y.V.Bromleyin əsərləri sovet "təsviri etnoqrafiya"sının nəzəri cəhətdən inkişafına kifayət qədər təsir etdi (29, 122).

Göründüyü kimi Sovet tarixçiləri tarixin siyasi, mülki, iqtisadi və s. sahələrindəki saxtakarlıqları söz oyunları iləört-

basdır edib saxtakarlığı diqqətdən yayındırır, bunu etnoqrafiyada (etnologiya) bütünlüklə edə bilmirdilər. Çünki etnoqrafiyanın (etnologiya) predmeti konkret, terminləri məxsusidir. "Təsviri etnoqrafiya" termin söz birləşməsinin ifadə etdiyi anlayışın özü qeyri-elmidir. Çünki təsvir predmet yaxud hadisənin zahiri görüntüsünü ifadə edir və ən müsbət halda elm üçün material ola bilir (65, 46-53).

"Elm çoxtərəfli, daimi dəyişilmə və inkişafda olan dinamik sistemdir. O, mürəkkəb daxili struktura malikdir. Elmi biliyin strukturunda iki pilləni – emprik və nəzəriyyəyə ayırmaq olar. Bu bölgünün əsasında emprik və idraki fəallığın dərinlik səviyyəsi və üsulları, habelə əldə edilən elmi nəticələrin xarakteri durur. Birinci pillədə praktiki materialların qeydə alınması və qruplaşdırılması, emprik təhlil əsas yer tutur. İkincidə mücərrəd nəzəri təfəkkür fəaliyyəti əsasında hadisə və prosesin mahiyyətinə dərindən nüfuz edir, onun yeni xassə, əlaqə və münasibətləri aşkara çıxarılır (9, 333; 65, 46-53).

Emprik tədqiqat əsas etibarilə ətraf aləmdəki hadisələri və onlar arasında nisbətən üzdə olan asılılığı aşkara çıxarmağa yönəlir. Nəzəri tədqiqat isə obyektlərin mahiyyət əlaqələrini xalis şəkildə götürüb araşdırır. İdrakın emprik və nəzəri səviyyələri tədqiqat materiallarına görə də birbirindən fərqlənir. Emprik tədqiqatın əsas metodları: eksperiment, müşahidə, təsviretmə və sairdir. Nəzəri səviyyədə isə idellaşdırma, fikrin mücərrəddən konkretə yüksəlməsi, aksiomatik və hipotetik-deduktiv metodlar, habelə tarixi və məntiqinin vəhdəti metodu əsas yer tutur (9, 333). (Ətraflı bax: 9, 326-346; 59, 85-87).

Məntiq dərsliyində haqlı olaraq yazılır: **"Hər bir elmin öz xüsusi qanunlarının olduğuna heç kim şübhə etmir, hər bir elm öyrəndiyi sahənin qanunlarını aşkara çıxarır. Əgər elmdə qanunlar yoxdursa, onda o elm deyil, yaxud elm səviyyəsinə hələ yüksəlməyib"** (59, 28).

Sovet etnoqrafiyasından yuxarıda iqtibas etdiyimiz fikirlər, istinad etdiyimiz elmi-nəzəri ədəbiyyat və materiallar, həmin dövrdə SSRİ-də yazılmış etnoqrafik əsərlər onu deməyə əsas verir ki, hələ XX əsrin 60-cı illərində Kommunist Rus imperiyasında etnoqrafik tədqiqatlar, əsərlər elmi səviyyəyə yüksəlməmişdi. Etnoqrafiya (etnologiya) elmi yaranmamışdı.

Bunu deməklə yuxarıda adlarını çəkdiyimiz rus tədqiqatçılarının kütbeyin, elmi təfəkkürdən məhrum insanlar olduğunu demək fikrindən çox-çox uzağıq. Repressiyaya məruz qalmış bütün sovet imperiyası etnoloqlarının ruhu qarşısında baş əyirəm. Rus imperiyasında etnologiya elminin yaranmasına imkan verməyən sərsəm marksizm-leninizm ideologiyası, onun dövlət forması proletariat diktaturası idi. Proletariata uyğunlaşa bilməyən, kütbeyin proletariat səviyyəsinə enə bilməyən, yedəkdə gedə bilməyən, ağa qara deyə bilməyən bütün ziyalılar, o cümlədən etnoloqlar məhv edildiyindən etnologiya elmi yarana bilmirdi.

Sovet etnoqrafiyasında göstərilir ki, guya Y.B.Bromley XX əsrin 60-70-ci illərində öz əsərləri ilə Sovet etnoqrafiyasının inkişafına stimul vermiş, "etnos" anlayışının dərk olunmasında etnoqrafiyanın rolu və mexanizminin, etnik toplumun tarixi mərhələlərdəki tipologiyası (formaları) etnosun strukturunda ierarxiya (sosial təbəqə) problemi, etnosun müxtəlif komponentləri arasında etnik funksiyanı müəyyənləşdirmiş, etnoqrafiya ilə digər elmlərin qarşılıqlı tədqiqinə önəm vermişdir.

Bu tamamilə yanlış fikirdir. Y.V.Bromley kommunist Rus imperiyasının artıq gizlədə bilmədiyi dünya etnologiya nəzəriyyələrini saxta, uydurma terminlərlə pərdələyərək, özünü müstəqil nəzəriyyə yaradan alim kimi göstərirdi. Əslində bu görüntünün özü də Sov. İKP-nin icazəsi ilə edilirdi.

Hər halda nəzəriyyənin dövriyyəyə gətirilməsi özü müsbət

hadisə idi. Hər bir fikir mənafelər baxımından yeni fikrin doğmasına imkan verirdi.

Guya bu dövrdə Sovet etnoqrafiya məktəbinin yeni sahələri meydana gəlmiş – S.İ.Burk, V.İ.Kozlov etnodemoqrafiya və etnocoğrafiyanı, Y.V.Artunyan və L.M.Drobijev etnososiologiyanı, V.A.Nikinov etnik onomastikanı yaratmışdılar (29, 122-123).

Tamamilə yanlış fikirdir. İstər Y.V.Bromleyin Sovet etnoqrafiyasına gətirdiyi yeniliklər, terminlər, istərsə də adları çəkilən alimlərin Sovet etnoqrafiyasında yaratdıqları yeni sahələr Avropa və ABŞ etnologiyasında artıq XIX əsrin sonlarından yaranıb, XX əsrin əvvəllərindən inkişaf edib yeni cərəyanlara ayrılmışdı, cəmiyyətin inkişafında və idarə olunmasında, proqnozlaşdırılmasında istifadə olunurdu (30; 60).

Sovet dövləti bu sahədə nəşr olunan bütün kitab, jurnal, qəzet, hətta radio və televiziya verilişlərində olan çıxışları DTK vasitəsilə əldə edib xüsusi tədqiqatçılar qrupunun əli ilə mənimsəyir və öz gizli məqsədləri üçün istifadə edirdi. Artıq 60-cı illərdə Sov. İKP liderləri etnoqrafiyanın yeni yaranmış kimi göstərilən sahələrindən gizli deyil, açıq istifadə etməyin əhəmiyyətini dərk etdi. Avropa və ABŞ etnologiya elminin bütün sahələrini SSRİ-yə gətirib onları marksist-leninçi ideologiya və tədqiqat metodu əsasında qurmağa qərar verdilər.

Beləliklə, Y.V.Bromleyin 1973-cü ildə nəşr olunan "Etnos və etnoqrafiya" kitabındakı bütün nəzəri müddəa və terminlər, etnoqrafiyanın yuxarıda göstərilən sahələri Avropa və ABŞ etnologiyasından götürülərək marksizm donuna salındı (60). Bu dövrdə "Sovetskaya etnoqrafiya" jurnalında mədəniyyətin nəzəri məsələləri, etnik psixologiya, sosial-iqtisadi sahələrin terminologiyası və s. haqqında gedən diskussiyalar Avropa və ABŞ-da qəbul edilmiş etnologiya elminə marksizm məzmunu vermək, ölkədə etnoqrafiyanın

inkişafını kommunist ideologiyasına uyğunlaşdırmaqla təkmilləşdirmək məqsədi güdürdü (ətraflı bax 60).

Y.V.Bromley direktoru olduğu N.N.Mikluxo-Maklay adına SSRİ EA Etnoqrafiya İnstitutu tərəfindən nəşr olunan "Xarici ölkələrin etnoqrafiyası" (1979) adlı monoqrafiyasında "Sosial antropologiya və etnoqrafiyanın predmetinin ingilis-amerikan və sovet etnoqrafiyasında təfsiri" adlı məqaləsində etnoqrafiyanın etnologiya elminin ilkin materialları toplayan və onlar əsasında tədqiqat obyektinin təsviri verən mərhələsi olduğunu etiraf etsə də (guya o, nəzəri fəaliyyəti ilə SSRİ-də etnoqrafiyanı təsvirçilikdən nəzəri elmə çevirmişdi), nə o, nə də onun "etnoqrafiyanın yeni sahələrini yaradan ətrafı" etnoqrafiyadan etnologiyaya keçməyə təşəbbüs göstərdilər (60, 7-23).

Sovet etnoqrafiyasının ikinci inkişaf mərhələsindən başlayaraq (1930), etnosu etnos edən, yəni hər bir xalqı özünəməxsus toplum kimi formalaşdıran və yaşadan adət-ənənələr keçmişin nifrətəlayiq qalığı kimi tənqid və təhqir olunurdu. "Keçmişin qalıqlarına qarşı mübarizə" sovet etnoqrafiyasının və tarixi-ideoloji ədəbiyyatının başlıca şüarı və mövzusu olaraq qalırdı.

N.N.Mikluxo-Maklay adına Etnoqrafiya İnstitutunun direktoru Y.V.Bromley və Almaniya Demokratik Respublikası Mərkəzi Tarix İnstitutunun direktoru Q. Ştrobaxın rəhbərliyi ilə yazılan və 1988-ci ildə nəşr olunan "Etnoqrafiya anlayış və terminlərinin toplusu" adlı kitabda nəhayət ki, yazıldı: "Hal-hazırda ölkə həyatının hər bir sahəsində köklü dəyişikliklər getdiyi zaman ictimai elmlər sahəsində olan natamamlıqların aradan qaldırılmasına çox böyük ehtiyac yarandı. Bunlar arasında keçmişin qalıqlarına qarşı mübarizə ehkamı, tələbatdan doğan fundamental tədqiqatlardan uzaqlaşma. Etnoqrafiya elmində bu natamamlıqların aradan qaldırılması tarixinin yeni mərhələsində SE-nin, so-

vet alimlərinin mühüm vəzifəsidir" (29, 123).

Hələ elmi inkişaf səviyyəsinə çatmadığı üçün Sovet etnoqrafiyası və bütövlükdə tarixşünaslığı bütövlükdə tarixi inkişaf prosesini dərk etmək səviyyəsində deyildi, ancaq kütlə psixologiyasının manipulyasiyası ilə məşğul idi. Rus imperiyasının yetişdirdiyi "tarixçi alimlər" yazdıqlarının imperiyanın xeyrinə göstərdiyi ideoloji təsirin öldüyünü, artıq xalqların psixikasına, ruhuna, mənliyinə mənfi təsir etdiyini, təhqiramiz hisslər yaratdığını dərk edəndə artıq gec idi. Sovet Rus Kommunist imperiyasının əsarəti altına aldığı xalqların keçmişi – ruhu baş qaldırıb onu tarixə çevirməkdə idi.

Rus etnoloqu A.Q.Sadoxin Sovet etnoqrafiyasını belə xarakterizə edir: "Sovet dönəmində ölkə etnologiyasının (etnoqrafiyasının - X.X.) inkişafında əsas yeri millətlərarası münasibətlərin tədqiqi tuturdu. Bir qayda olaraq onlar konkret insanların gündəlik hərəkətləri və davranışlarının statistik məlumatları əsasında öyrənilirdi. Belə ki, xalqların dostluğu iri ümumittifaq tikintilərində təmsil olunan müxtəlif millət nümayəndələrinin, yaxud onların qarışıq nikahlarının sayı ilə qiymətləndirilirdi. Bu dönəmin etnik problemlərinin tədqiqi siyasi sifariş xarakteri daşıyırdı və etnik inkişafın bütün proseslərini üzə çıxarmırdı. Odur ki, etnik özünəməxsusluq, etnik dərketmə, etnoslararası konfliktlər kimi kordinal problemlər etnoloqların (etnoqrafların - X.X.) nəzərindən hələ də uzaq idi" (30, 14).

Yuxarıda Kommunist Rus Sovet imperiyası etnoqraflarının əsərlərinin və istərsə də Rusiya Federasiyası etnoloqlarının əsərlərindən gətirdiyimiz dəlillər və onların etirafları, birinci növbədə Sovet imperiyasında etnoqrafik tədqiqatların səviyyəsi göstərir ki, bu ölkədə etnoqrafiya (etnologiya) elmi inkişaf səviyyəsinə çatmamışdır.

Bu deyilənlər Kommunist Rus Sovet imperiyasında etnoqrafiyanı (etnologiyanı) elmi səviyyədə bilən şəxslərin

olmaması demək deyildir. Yuxarıda göstərdiyimiz kimi, Kommunist Rus imperiyasında dünyada tarix elminin bütün sahələrinə, o cümlədən etnologiyaya nəzarət edən qrup var idi. Sadəcə olaraq bu şəxslərə tarixi obyektiv yazmağa icazə, imkan verilmirdi.

Kommunist Sovet rejiminin bütün əzabları yolundan döndərə bilmədiyi, barışmaz mübariz şairlər N.S.Qumiyov və A.A.Axmatovanın oğlu L.N.Qumilyov yaradıcı həyatının 14 ilini həbsxana həyatına məhkum edilsə də, Sovet etnoqrafiyasını elm hesab etməyərək, öz elmi konsepsiyası əsasında müstəqil etnoloji nəzəriyyə yaratdı. Avrasiya düzü xalqlarının tarixini, etnologiyasını dahiyanəliklə elmi dövriyyəyə gətirdi, yeni nəsillərə çatdırdı. Kommunist Rus imperiyası tərəfindən öz tarixini bütünlüklə unutdurmaq üzrə olan türk xalqlarına yenidən həyati yaradıcılıq ruhu verdi.

Kommunist rejiminin çöküşü, imperiyanın süqutu ilə L.N.Qumilyovun etnoloji nəzəriyyəsinə söykənən Rusiyanın yaradıcı təfəkkürə malik yeni nəsli qısa müddətdə ölkədə etnologiya sahəsində böyük uğurlar qazandı.

III fəsil.

İSLAM ŞƏRQ DÜNYASINDA, HƏMÇİNİN AZƏRBAYCANDA ETNOLOJİ FİKİR VƏ ETNOLOGİYA ELMİ TARİXİNDƏN

Avropada etnologiya elminin formalaşıb inkişaf etdiyi dövr müddətində, 23 ay Azərbaycan Cumhuriyyəti dövrü və son 19 il istisna olmaqla, Azərbaycan Rus imperiyasının əsarəti altında olmuşdur. Bu səbəbdən də yeni və ən yeni dövr Azərbaycan etnoqrafiyası (etnologiyası) Rusiyanın elmi və ideoloji siyasi təsiri altında olmuşdur. Bundan əlavə Rus imperiyası əsarət altına aldığı xalqların hamısına eyni münasibətdə olmur, onların hər birinə fərqli yanaşır, öz məqsədinə müvafiq olaraq hər birinə müxtəlif intellektual, mənəvi, siyasi-ideoloji inkişaf imkan verirdi. Hətta tətbiq etdiyi assimilyasiya üsulu da fərqli idi. Odur ki, Azərbaycan xalqının etnoloji fikir tarixi, burada etnologiya elminin yaranması və inkişaf tarixinə ayrıca nəzər salmağa ehtiyac vardır.

Problemin oxucuya aydın olması üçün Sovet etnoqrafiyasında etnoqrafiyanın son dövr təriflərini oxucunun diqqətinə çatdırırıq. S.Tokaryev 1968-ci ildə nəşr olunan "Etnoqrafiyanın əsasları" dərsliyində yazırdı: "Etnoqrafiya dünya xalqlarının məişət və mədəniyyətini öyrənən tarix elmidir" (62). Y.V.Bromley 1973-cü ildə nəşr olunan "Etnos və etnoqrafiya" adlı kitabındakı tərifini 1981-ci ildə nəşr olunan "Etnoqrafiyanın müasir problemləri"əsərində təkrar edərək etnoqrafiyanı "etnik faktlar haqqında elm" kimi dəyərləndirirdi (61). R.İts isə "Etnoqrafiya xalqların məişətindən və

etnik tarixindən, dünya mədəniyyətinin tərkib hissəsi kimi, onların məişət və mədəniyyətindəki spesifik cəhətlərin formalaşmasından bəhs edən tarix elmidir" kimi tərif vermişdir (54). Göründüyü kimi, tərifl ərin heç biri etnoqrafiyanın predmetini, mövzusunu aydın, dəqiq ifadə etmir. Halbuki elmin tərifi onun predmetini aydın və dəqiq ifadə etməlidir (59, 88-123). Etnoqrafiya elminin tərifinin belə mücərrədləşdirilməsi heç də müəlliflərin savadsızlığından irəli gəlmirdi, onun xalqı, mənəvi dünyası haqqında elmi bilgi vermək deyil, metropoliyaların əhalisinə yönüm vermək, kütləyə hər an məqsədyönlü təsir etmək imkanı yaratmaq məqsədindən doğurdu.

1991-ci ildə Rus imperiyasının çöküşü zamanı ilkin olaraq Rusiya Federasiyasında etnoqrafiya müəssisələrinin adı dəyişdirilib etnologiya adlandırıldı. Etnoqrafiya müəssisələrinin yalnız adı deyil, mahiyyəti, funksiyası, vasitəsi də dəyişdirildi. Onlar qısa müddətdə elmi səviyəyə qalxdı, çünki Rusiyada bu baza var idi. Siyasi sistem bu elmi bazanın elmi funksiya göstərməsinə imkan vermirdi. Yeni etnoqrafiyanın elmi səviyyə alıb etnologiyaya çevrildi və bu elmə belə bir tərif verildi: "Etnologiya müxtəlif etnik qrupların formalaşması və inkişaf prosesini, onların özəlliklərini, mədəni-özünü təşkil formalarını, onların kollektiv davranışlarını və qarşılıqlı təsirinin qanunauyğunluqlarını, şəxsiyyətin və sosial mühitin qarşılıqlı əlaqələrini öyrənən elmdir" (30, 20).

Imperiyalar həmişə birinci növbədə öz xalqlarını aldadırlar. Etnologiyaya verilən tərifdən görünür ki, hələlik Rus dövləti rus xalqını aldatmaqdan çəkinmişdir.

XX əsrin 90-cı illərində Rus xalqı böhran keçirdiyi illərdə 70 il marksizm-leninizm-kommunist ideologiyasının "humanist" siyasətinin təbliğatı adı altında doğma xalqını və əsarət altına alınmış xalqları aldatmaqla məşğul olan rus etnoqrafları vətəni və xalqının obyektiv mənəvi-ideoloji, so-

sial-siyasi durumunu, vəziyyətdən obyektiv elmi çıxış yolunu müəyyənləşdirdi, mənəvi-ideoloji, sosial-siyasi böhrandan çıxmaq yolunu göstərib, xalqın normal, sağlam inkişaf yolu tutmasını təmin etdilər.

Azərbaycan sovet etnoqrafları ölkədə etnoqrafiya elminin yaranmasının "1920-ci il aprel inqilabından" başlandığını iddia edirdilərsə də (55, 11-22; 56; 66), A. Sadıqov və H.Həvilovun S.A.Tokaryevin 1968-ci ildə nəşr olunan "Etnoqrafiyanın əsasları" dərsliyi əsasında hazırladıqları və 1974-cü ildə nəşr etdirdikləri eyni adlı vəsaitdə etnoqrafiyanın predmeti haqqında fikirlərinin təkrar olunması istisna olmaqla, 1988-ci ildə nəşr olunan "Azərbaycan etnoqrafiyası"nın birinci cildinə qədər onun predmetindən - əhatə etdiyi tədqiqat sahəsindən konkret olaraq bəhs olunmamışdır. Bu sahədə əsər yazan hər kəs bəhs etdiyi sahəni etnoqrafiyanın bir sahəsi hesab etmişdir.

İlk dəfə 1988-ci ildə nəşr olunan "Azərbaycan etnoqrafiya"sının birinci cildində etnoqrafiyanın predmetindən bəhs olunaraq yazılır: **"Etnoqrafiya yunan sözü olub, "etnos" – xalq, "qrafis" – təsvir etmək deməkdir. Deməli, etnoqrafiya xalqı öyrənən, təsvir edən, xalqa daha yaxın olan, onun arzu və istəklərinə daha çox bələd olan elmdir. Etnoqrafiya elminin başlıca vəzifəsi xalqı öyrənmək, tarix yaratmaq, onu daha da zənginləşdirmək, əhatəli etməkdir. Etnoqrafiya, arxeologiya elmi kimi, tarix elminin tərkib hissəsidir, onun bütövlüyünün təsdiqidir. Etnoqrafiya tarix elminin üfüq dairəsini genişləndirərək, onun tədqiqat imkanlarını xeyli artırmışdır. Etnoqrafiya arxeologiya elmi ilə birlikdə əsrləri minilliklərə qovuşduran tarix yazdı, tarix yaratdı. İnsanlığın tarixini, xalqın tarixini. Arxeologiya tarix elminin ixtiraçısı, etnoqrafiya onun bərpaçısı rolunu oynadı. Bu birlik, müştərəklik dərin məzmun və dolğunluğu ilə seçilən əsl tarixin yaranmasına səbəb oldu"** (64, 5).

Əlbəttə, bu iqtibasın içində etnoqrafiyanın predmetində işlənən bəzi anlayışlar var, lakin şərhin gedişindən aydın olur ki, **müəllif bu termin və anlayışları sadəcə əzbərləmişdir. Onun mahiyyətini, elmi mənasını anlamır. Tarix elmi ilə tarixi prosesi anlamaqdan çox uzaqdır. İstər iqtibası və istərsə də əsəri oxuyub nəticə çıxarmağı oxucunun ixtiyarına buraxırıq. Kommunist Rus imperiyasının Azərbaycan xalqına yetişdirdiyi etnoqrafın və elmin səviyyəsini dərk etmək üçün yetərlidir.**

Etnoqrafiyanın predmetindən bəhs edən ikinci müəllif H.Həvilov olmuşdur. O, 1991-ci ildə nəşr olunan "Azərbaycan etnoqrafiyası" kitabında yazır: "Etnoqrafiya dünya xalqlarının məişət və mədəniyyətindən, onların adət-ənənlərindən, etnik birliklərin yaranması və inkişafından, onların yayılması və qarşılıqlı mədəni əlaqələrindən bəhs edən tarix elmidir. Xalqların etnik simasını yaradan səciyyəvi, ənənəvi mədəniyyət və məişət xüsusiyyətlərinin öyrənilməsi etnoqrafiya elminin başlıca predmetidir. Müasir dövrdə etnoqrafiyanın qarşısında duran başlıca problemlər: ayrı-ayrı ölkələrin, habelə dünya əhalisinin etnik tərkibinin öyrənilməsi; xalqların etnik tarixi və etnogenezi; nəsil-qəbilə quruluşunun, yəni sinifsiz cəmiyyətin öyrənilməsi; müasir sosialist məişətinin öyrənilməsi; müasir etnik proseslərin tədqiqi və s. problemlərdir" (55, 5).

Əgər H.Həvilov "Azərbaycan etnoqrafiyası" (1991) əsərində ümumən etnoqrafiya elminin tərifi və predmetindən məlumat verib Azərbaycan etnoqrafiya elmi qarşısında duran vəzifələri, elmi-nəzəri məsələləri müəyyənləşdirib, praktiki elm kimi, müstəqilliyin qorunması və sosializmdən kapitalizmə keçid dövründə itirilmiş milli dəyərlərin bərpası, sosial-iqtisadi, siyasi-ideoloji, bütövlükdə milli-mənəvi dəyərlərin inkişafı və təkrar istehsalı və b. problemlərini diqqətə çatdırsaydı, çox yaxşı olardı. Lakin, göründüyü kimi, o,

bunların heç birindən bəhs etməmişdir.

S.Tokaryevin redaktəsi ilə 1968-ci ildə nəşr olunan "Etnoqrafiyanın əsasları", Y.V.Bromley və İ.Q.Markovun redaktəsi ilə 1982-ci ildə nəşr olunan "Etnoqrafiya" dərsliklərində etnoqrafiyanın predmet və vəzifələri haqqında yazılanları olduğu kimi təkrar etmiş, müasir Azərbaycan etnoqrafiyasının vəzifəsi kimi irəli sürmüşdü. Hətta sosializmin, sosialist məişətinin dağıldığını unutmuşdur. Bu deyilənləri və adları çəkilən dərslikləri 1999-cu ildə nəşr olunan "Dünya xalqlarının etnoqrafiyası" "dərsliyində" təkrar etmişdir (51; 62; 67).

H.Həvilovun yaradıcılığı haqqında dediklərimizin sübutu üçün geniş nəzəri təhlil və arqumentlər gətirməyə ehtiyac yoxdur. Onun yaradıcılığından gətirəcəyimiz bir neçə misal dediklərimizin doğruluğunun təsdiqi üçün yetərlidir. H.Həvilov yazır: "Etnoqrafiya dünya xalqlarının həyat və məişətindən bəhs edən tarix elmidir. O, yunan sözü olan "etnos" və "qrafos" sözlərindən əmələ gəlməklə "xalqın təsviri" mənasını verir. Bu elmi bəzən etnologiya da adlandırırlar" (67, 3). Yuxarıda istifadə etdiyimiz tarixi ədəbiyyat və bu elmlə tanış olan hər kəs bilir ki, bu elm bəzən qısa müddətdə Avropanın ayrı-ayrı ölkələrində etnoqrafiya adlanıb. Tarix elminin bu sahəsi başlıca olaraq etnologiya adlanmışdır. Rusiyanın özündə bu elmi etnologiya adlandıranlar etnoqrafiya adlandıranlardan çox olmuşdur. Elmin etnologiya adlandırılması onun predmetinə və tədqiqat metoduna tam elmi yanaşma tələb etdiyindən, Rus Kommunist imperiyası, yuxarıda gördüyümüz kimi, elmin etnologiya adlandırılmasından qəti imtina edib etnoqrafiya terminini rəvac verirdi.

H.Həvilovun elmi və həqiqəti ifadə etməyən müddəalarından biri Rus Sovet etnoqrafiyası haqqındakı mülahizəsidir. O yazır: **"Rus etnoqrafiyasının (sovet etnoqrafiyasının – X.X.) xarakter əlamətləri, onun hər cür irqçiliyə qarşı qəti mübarizliyi və həm də materialist istiqamətliliyi idi"** (67, 38).

Yuxarıda tədqiqata cəlb etdiyimiz mənbə və elmi araşdırmalardan birmənalı görünür ki, **Rusiya etnoqrafiya elmini Qərbi Avropadan bir işğalçılıq aləti kimi qəbul və tətbiq etmişdi.** Rusiyada etnoqrafiya cəmiyyəti yarandığı gündən işğalı planlaşdırılan ölkələrin xalqlarının əsarətə salınmasının psixoloji üsullarını və sonradan onları məğlub vəziyyətdə saxlamağın üsul və vasitələrini işləyib hazırlamaqla məşğul idi. Bu siyasət Çar Rusiyası imperiyası illərində bütünlüklə tətbiq olundu, Kommunist Rus imperiyası hakimiyyəti illərində isə əsarət altına alınmış xalqlara qarşı daha amansızlıqlar göstərildi. **Rus Kommunist Sovet imperiyası gizli Sovet etnologiyasının nəzəri müddəaları ilə 1926-cı ildə əhalinin siyahıya alınması zaman qeydə alınan 195 xalqdan 67-ni məhv etdi. SSRİ-də əhalinin sonuncu 1989-cu il siyahıya alınması zaman 128 xalq qalmışdı ki, onun da hamısı mənəvi cəhətdən deqradasiya olunmuş vəziyyətdə idi** (68; 69).

Rus etnoqraflarının hamısının materialist olması fikri də yanlışdır. Materializmə qarşı barışmaz olduğu üçün kifayət qədər etnoqraf və tarixçi kommunist repressiyasına məruz qaldı, bir çoxları isə Rusiyanı tərk etməyə məcbur oldular. Zorakı surətdə milli adı dəyişdirilən, milli adət-ənənəsi, dili az qala assimilyasiya olunan Azərbaycan xalqını simasızlaşdırmaqda, milli xarakterini məhv etməkdə Rus Kommunist imperiyasının aləti olan etnoqrafiyanı "hər cür irqçiliyə qarşı mübarizə" elmi adlandırmağın nə qədər doğru olduğunu dəyərləndirməyi oxucunun ixtiyarına buraxırıq.

Lakin nəzərə almaq lazımdır ki, dərsliyə daxil edilən elmi material və müddəalar elm və tədris müəssisələrində, nazirlik aparatında bir neçə mərhələdə müzakirə olunur. H.Həvilovun da göstərilən dərsliyi elmi müəssisələrdə, Azərbaycan Respublikası Təhsil Nazirliyində bir neçə mərhələdə "mütəxəssis"lər tərəfindən müzakirə olunmuş, müsbət rəy verilmişdir. Odur ki, haqqında bəhs olunan müddəa yalnız H.Həvilovun deyil,

bütövlükdə Azərbaycan etnoqrafiya müəssisələrinin, Təhsil Nazirliyinin elmi səviyyəsini və milli-mənəvi simasını əks etdirir. Tək-tək müəlliflərin əsərləri istisna olmaqla bütövlükdə Azərbaycan etnoqrafiyası göstərilən səviyyədədir.

Bu kimi misalların sayını istənilən qədər artırmaq da olar, lakin onların bəzilərinə, yeri gəldikcə ötəri toxunmaqla kifayətlənəcəyik. Azərbaycanda etnoqrafiya elminin yaranması və inkişaf tarixi bir çox tədqiqatçının, o cümlədən vətənpərvər milli alimlər İ.M.Cəfərzadə və Q.T.Qaraqaşlının diqqətini çəkmişdi. Onlar Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda etnoqrafiya elminə qayğı və onun ilkin nailiyyətindən bəhs etmişlər (71; 72; 73). Hər ikisi təqib olunmuş, repressiyaya məruz qalmış şəxslər idi, onlardan bundan artıq nə isə gözləməyə, tələb etməyə dəyməzdi. Rus mənbələrində və elmində Azərbaycan etnoqrafiyasının öyrənilməsi sahəsində E.Kərimovun tədqiqatının qiymətli cəhəti ondan ibarətdir ki, Azərbaycanın tarixi etnoqrafiyasının öyrənilməsinə yetərincə material və istiqamət verir (74). Bəhmən Əliyevin "XX əsrin ikinci yarısında Azərbaycanda etnoqrafiya elminin inkişafı" (B., 2007) namizədlik dissertasiyasını nəzərə almasaq (çünki biz müstəqillik ilinə qədər olan dövrü tədqiqat obyekti seçmişik), Azərbaycanda etnoqrafiya elminin yaranması və inkişafına xüsusi əsər həsr edən müəlliflər H.Quliyev, T.Bünyadov və "Azərbaycan etnoqrafiyası" (1991) kitabında bu mövzuya xüsusi yer ayıran üçüncü müəllif H.Həvilovdur.

H.Quliyev yuxarıda E.Kərimovun əsərində rus çar məmur və digər sahə mütəxəssislərinin əsərlərini Azərbaycan etnoqrafiyasının mənbəyi kimi göstərərk yazır: "Sosialist inqilabının qələbəsi nəticəsində Azərbaycan xalqı özünün çoxəsrlik tarixində özünün əsl müstəqilliyini qazandı, iqtisadi və mədəni dirçəliş yoluna çıxdı. 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin qurulması respublika xalqlarının

etnoqrafik öyrənilməsi üçün geniş inkişaf yolu açdı.

Oktyabr inqilabına qədər Azərbaycanda sistemli etnoqrafik tədqiqat aparılmamışdı. Azərbaycanda sistemli etnoqrafik tədqiqat və etnoqrafiya elmi Sovet hakimiyyətinin ilk illərində formalaşmışdı" (56, 166). T.Bünyadov Həsən Quliyevin dediklərini bütün sahələrdə bir qədər də genişləndirib dərinləşdirərək, arxeoloji materialların, antik yunan və Roma müəllifləri əsərlərinin, Azərbaycan şifahi xalq yaradıcılığının, qədim və orta əsrdə Azərbaycan tarixinə dair yazılmış əsərlərin də Azərbaycan etnoqrafiyası üçün mənbə olduğunu göstərərək yazır: "İnqilabdan əvvəlki ədəbiyyatda xalqın çoxəsrlik təsərrüfat həyatına dair xeyli material verilsə də, Azərbaycanın etnoqrafik cəhətdən planlı surətdə öyrənilməsi işinə yalnız Sovet hakimiyyəti illərində başlanmışdır. Sovet hakimiyyətinin qələbəsi Azərbaycan xalqının maddi-mənəvi mədəniyyəti ilə yanaşı, onun təsərrüfatının da hərtərəfli inkişafına şərait yaratdı" (66, 7-8).

T.Bünyadov bu fikirlərini Azərbaycan Sovet tarixşünaslığının banilərindən İ.Əliyevlə birlikdə daha da inkişaf etdirərək "Azərbaycan etnoqrafiyası"nın birinci cildində yazır: "1917-ci il oktyabr ayının 25-də "Avrora"dan yaylım atəşi guruldadı. Petroqradda bolşevik partiyasının rəhbərliyi ilə silahlı üsyan qələbə çaldı. Rusiyada Böyük Oktyabr Sosialist inqilabı qalib gəldi. Bu cahanşümul qələbə xalqların xoşbəxt gələcəyinin parlaq təməli oldu. Böyük rus xalqının qayğısı və yaxından köməyilə başqa xalqlar kimi Azərbaycan xalqı da silaha sarıldı və öz azadlığı uğrunda qəti mübarizəyə başladı. Mübarizə oktyabr ayının 31-də Bakıda Sovet hakimiyyətinin qələbəsi ilə nəticələndi. Yaranan Bakı Xalq Komissarları Soveti bir sıra əsaslı inqilabi tədbirlər həyata keçirdi. Bu tədbirlər Azərbaycanda Sovet hakimiyyətinin böyük qələbəsi sayılırdı. 1918-ci ilin iyul ayında Sovet Bakısı xarici imperialist dövlətlərin müdaxiləsi və da-

xili əks-inqilabın qurbanı oldu. Bakıda Sovet hakimiyyəti süquta uğradı. Lakin Azərbaycan zəhmətkeşləri bolşeviklər partiyasının rəhbərliyi altında öz mübarizəsini davam etdirərək düşmənə qarşı daha da amansız oldular.

1920-ci il fevral ayının 11-də Bakıda gizli şəraitdə Azərbaycan Kommunist təşkilatlarının birinci qurultayı çağırıldı. Qurultay silahlı üsyan yolu ilə hakimiyyəti ələ almaq kimi mühüm vəzifəni qarşıya qoydu. **1920-ci il aprel ayının 27-dən 28-nə keçən gecə başda Böyük rus xalqı olmaqla və başqa qardaş xalqların köməyi ilə Azərbaycanda Sovet hakimiyyəti qələbə çaldı. Bu böyük qələbədən sonra Azərbaycan xalqının arzusu kama yetdi, xoşbəxt güzəranı başladı. Bu qələbə qurub-yaratmaq əzmilə çalışan zəhmətkeş xalqın iqtisadi, sosial və mədəni həyatında əsaslı dönüş yaratdı. Qələbə, qələbəyə qovuşdu"** (64, 31-32).

Azərbaycanda sistemli etnoqrafik tədqiqatın başlanması və etnoqrafiyanın elmə çevrilməsi haqqında H.Həvilovun da "elmi mülahizələri" maraqlıdır. O, "Azərbaycan etnoqrafiyası" (B., 1991) dərsliyinin girişində rus məmurlarının və ayrı-ayrı təsərrüfat və istehsal sahə mütəxəssislərinin Azərbaycan haqqında məqalə və böyük həcmli müxtəlif janrlı əsərlərini, kitabın "Mənəvi mədəniyyət" adlanan fəslində isə folkloru, qədim, orta əsrlər və yeni dövr Azərbaycan və Şərq alim və yazarlarının əsərlərini Azərbaycan etnoqrafiyasının mənbəyi (55, 6-11, 223-246) kimi qiymətləndirərək yazır: "Ümumiyyətlə, inqilaba qədərki Azərbaycan etnoqrafiyasından danışarkən qeyd etməliyik ki, Azərbaycanda Sovet hakimiyyətinin qələbəsinədək, demək olar ki, müntəzəm və planauyğun qaydada heç bir iş aparılmamışdı. Mətbuat səhifələrində rast gəlinən ayrı-ayrı məqalələr Azərbaycan etnoqrafiyasını bu və ya başqa tərəfdən əks etdirsə də, bunlar bir növ ötəri xarakterli məlumatlar və ya qeydləri idi. Azərbaycanla bağlı irihəcmli əsərlərə gəldik-

də isə bunlar əksər halda burjua məhdudluğu çərçivəsindən kənara çıxmayan sosial-iqtisadi məsələlərin şərhindən uzaq olan əsərlər idi. Ən nöqsanlı cəhətlərdən biri o idi ki, Azərbaycanda etnoqrafiya ilə məşğul olan heç bir elmi müəssisə yox idi.

Sovet hakimiyyətinin qələbəsi Azərbaycan xalqının təsərrüfat həyatının dirçəlməsinə, maddi və mənəvi mədəniyyətin, ailə-nigah münasibətlərinin inkişafına böyük bir inqilabi təkan vermiş oldu. Yeni təşəkkül tapmağa başlayan digər elm sahələri kimi etnoqrafiya da Sovet hakimiyyətinin ilk illərindən başlayaraq həqiqətən nəzəri və təcrübi bir elm sahəsinə çevrildi. Sovet Azərbaycanı etnoqrafiyasının qarşısında geniş perspektivlər açmış oldu. Etnoqrafiyanın bir elm sahəsi kimi burada yenicə təşəkkül tapması Respublika etnoqrafları qarşısında çətin, lakin həll edilməsi zəruri olan bir sıra problemləri qoyulmuşdu. **Bunlar başlıca olaraq aşağıdakılardan ibarətdir: 1) Sosializm quruculuğu ilə əlaqədar olaraq köhnəliyin qalıqlarına qarşı qəti mübarizə aparmaq; 2) Elmi-ateizm təbliğatını gücləndirmək; 3) Sosializm quruculuğuna mane olan mənfi adət-ənənələrə qarşı barışmaz mübarizə aparmaqla, mütərəqqi adətləri qoruyub saxlamaq və inkişaf etdirmək; 4) Xalqın təsərrüfat məişətini və maddi mədəniyyətini öyrənmək və nəhayət 5) Qadın azadlığı problemi"** (55, 11-12).

Etnoqrafiyadan, tarixdən az-çox anlayışı olan adam bilir ki, H.Həvilovun Azərbaycan Sovet etnoqrafiyasının qarşısında duran "vacib", "başlıca" vəzifə kimi yuxarıda göstərilən 5 vəzifədən 4 açıq şəkildə, biri isə müxtəlif üsul və formalarla milli mədəniyyəti dağıtmaq, xalqı varisi olduğu mənəvi dəyərlərdən ayırmaq məqsədi güdürdü. Müstəqilliyini yenicə qazanmış bir ölkədə nəşr edilmiş ilk etnoqrafiya dərsliyində Rus imperiyasının Azərbaycanda həyata keçirdiyi milli simasızlaşdırma siyasətinin mütərəqqi hadisə kimi şərh və

təbliğ olunmasının, buna icazə verilib şərait yaradılmamasının bir çox qaranlıq məqamları var. Amma açıq görünən səbəb respublikamızda tarixi tədqiqatların elmi səviyyədə olmaması, elmin bu sahəsinin başında duranların məsuliyyətsizliyidir.

Bu deyilənləri XX əsrin 60-70-ci illərində gənc bir aspirant yazsaydı, adam təəccüblənməzdi. Mühakimə yürütmək olardı ki, Sovet imperiyasının obyektiv yaranma tarixi və inkişaf prosesini, DTK arxivlərini bilmədiyindən Sovet imperiyasının iqtisadi inkişafının kulminasiyası nöqtəsində kommunist ideologiyasının təsirinə düşüb.

Yuxarıda adları çəkilən H.Quliyev, T.Bünyadov və H.Həvilov Sovet imperiyasının yaranması dövrünün canlı şahidləri, tarixşünaslığını yaradanlardan idilər. DTK arxivlərini səhifələrinə qədər bilirdilər. Onlar yuxarıda göstərilənləri yazanda artıq Azərbaycan mətbuatında XKS sədri Stepan Şaumyanın Azərbaycan ərazisində erməni dövləti yaratması haqqında V.İ.Leninlə xüsusi müqavilə imzalaması, bu razılaşmaya söykənərək Azərbaycan xalqının cəlladı olmaqla ona genosid tətbiq olunmasına rəvac verilməsinin müəllifi, dövlətçiliyinin yaranmasına qarşı barışmaz düşmən olması haqqında Azərbaycan mətbuatında yetərincə məqalə yazılmış, meydanlarda şifahi bəhs olunmuşdu.

İmperiyanın N.Nərimanovun 70 ilə yaxın gizli saxladığı "Ucaqlarda inqilabımızın tarixinə dair" İ.V.Stalinə məktubu artıq nəşr olunmuşdu, qəzetlər onu hissə-hissə nəşr etdi, meydanlarda oxunurdu. N.Nərimanovun məktubundan bir neçə kiçik hissəni oxucunun diqqətinə çatdırmağı lazım bilirəm.

N.Nərimanov yazır: **"Bakıya gedən zaman hələ yolda ikən öyrəndim ki, Bakı bizim qoşunlarımız tərəfindən alınmışdır...** Biləcəridə məni bəzi yoldaşlar qarşıladılar və görünür mənim gəlişimə çox sevinmişdilər.

"Bəlkə Sizə qədər olan biabırçılıqlara son qoyulacaqdır.

Onlar belə dedilər".

Mən onları sakitləşdirdim və gələcək çətin işdə mənə kömək etməyi xahiş etdim.

İnqilab Komitəsinin Rəyasət Heyəti o zaman məndən (sədrdən), Mirzə Davud Hüseynovdan (müavindən) və bir nəfər üzv Qarayevdən (Əliheydər Qarayev – X.X.) ibarət idi. **"Azərbaycanı başdan-başa qarət edirdilər, sağa və sola güllələyirdilər".**

Bəzi yoldaşlar məni (onlar arasında nə Qarayev, nə Hüseynov var idi) bu sözlərlə qarşılayırdılar.

İşlərlə tanış olduqdan sonra, mən İnqilab Komitəsinin Rəyasət Heyətinin iclasını təyin etdim və o zaman faktiki olaraq hər şeyi idarə edən Pankratovu dəvət etdim.

Mən belə bir məsələ qoydum ki, İnqilab Komitəsinin sanksiyası olmadan heç kim güllələnməsin.

M.D.Hüseynov və Qarayev bunun əleyhinə çıxdılar.

Beləliklə, hər şey əvvəlki kimi davam edirdi..." (78, 16-17).

Azərbaycan Birinci Sovetlər qurultayında "hazırlıqlı marksist" **Lominadze təklif irəli sürdü ki, Azərbaycan kəndində inqilab baş verməmişdir, bu inqilabı etmək zəruridir, yəni bütün bəy malikanələrini yandırmaq və bununla da kəndlilərə inqilabın baş verdiyini hiss etmək imkanı vermək".**

N.Nərimanov yazır ki, mən təəccüblə suala elə sualla da cavab verdim: "Nə üçün yoldaş Lominadze məhz bu yolla Azərbaycan kəndində inqilab etmək istəyir?"

O mənə eyni ilə belə cavab verdi:

"Çünki Rusiyada belə edilmişdir".

Mən buna etiraz etdim ki, Rusiyada bu, mülkədarları yuvalarından qovmaq üçün edilmişdi, lakin Azərbaycanda bəy və mülkədarların yuvaları çoxdan boşdur..." (78, 21-22).

N.Nərimanovun etirazına baxmayaraq, talan və qarətlər davam edir. Azərbaycanın şəhər və kəndlərində talanlar nəinki varlıları, bütünlüklə yoxsulları da əhatə edirdi (78, 22-26).

"...Lap əvvəldən bu günə kimi, BEKA elə bil qəsdən, Mikoyan, Sərkisyan və Mirzoyan tərəfindən tutulur. Axırıncı, yəni Mirzoyan artıq daha cəsarətli fəaliyyət göstərir.

Mən təkrar edirəm – bu eyni ilə göstərildiyi kimi, müəyyən edilmiş plandır" (78, 33).

"Sovet Azərbaycanı özü könüllü olaraq neftinin Sovet Rusiyası zəhmətkeşlərinə mənsub olduğunu elan etmişdi, lakin Sovet Respublikasında başda "kral" Serebrovski olmaqla "monarxiya" yaratmaq nəyə lazım idi, o, indiyə qədər elə bilir ki, azərbaycanlıları aypara və ulduzla aldadır... Serebrovskinin Sovet Azərbaycanını tanımaq istəməməsi barəsində çoxlu söz-söhbət olmuş və indi də vardır" (78, 35-36). **"Azərbaycan kəndlisi ağ neft olmadığı üçün talaşa yandıranda, azərbaycanlı vətəndaş Tiflisdə ağ neftin Gəncədəkindən ucuz satıldığını görəndə, istər-istəməz bütün bunları törədənlərin ünvanına tənə, müstəmləkəçilikdə ittiham və s. eşitməyə məcbur olursan"** (78, 36).

"Hətta iş o yerə gəlib çatmışdı ki, məktəblərdə rus dilinin sayının türk dili dərslərinin azaldılması hesabına artırmaq haqqında mətbuatda açıq çıxışlar edilir" (78, 40).

"Mən bilirəm ki, Dövlət Duması olanda, türk əhalisi belə sıxıntıya məruz qalmırdı" (76, 49).

"Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir. Mənim zərrə qədər şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır... **Maraqlı odur ki, bu şəxslər elə fikirləşirlər ki, türklər o qədər axmaqdırlar ki, bütün bunları başa düşmürlər"** (78, 60).

Ardıcıl olaraq hakimiyyətə "oğurluq etmiş, rüşvət almış, bakirə kəndli qızlarını, arvadları zorlamış" adamları vəzifəyə irəli çəkməklə ardıcıl simasızlaşdırma siyasəti aparırlar..."Azərbaycanı simasızlaşdırmaq, öz miskin məqsədləri üçün onu gücdən salmaq istəyirlər" (78, 56).

"Mən bildirirəm ki, bir il bundan əvvəl Azərbaycanda hakimiyyət azərbaycanlı kütlələrin Sovet hakimiyyətinə ümumi rəğbəti ilə müdafiə edirdisə, lakin hal-hazırda hakimiyyət yalnız süngü gücünə müdafiə edilir" (78, 49).

Başa düşürəm, "ilan vuran ala çatıdan qorxar" Azərbaycan xalq misalında deyildiyi kimi, Azərbaycan mətbuatında, Sovet rejiminin mahiyyəti haqqında yazılanlar T.Bünyadov, H.Quliyev, H.Həvilovun canından qorxunu çıxarmaya bilərdi. Ancaq onların əlinin altında yuxarıda haqqında bəhs etdiyimiz SSRİ EA N.N.Mikluxo-Maklay adına Etnoqrafiya İnstitutu, onun direktoru Y.V.Bromleyin rəhbərliyi və müəllifliyi ilə Sovet etnoqrafiya elminin inkişaf yolu haqqında yazılmış əsər var idi. Bu əsərdə Sovet etnoqrafiyasında keçmişin qalığı adı altında adət-ənənələrə mübarizə kampaniyasına son vermək tələb olunurdu (29).

Onların bütün bunları nəzərə almadan Azərbaycan etnoqraflarının məruz qaldığı faciəvi taleyə münasibət bildirmədən, saxtakarlığı, xalqın, ziyalıların, elmin başına gətirilən müsibəti alqışlayıb tərənnüm etmələrinin hansı təfəkkürün məhsulu olduğunu söyləməkdə çətinlik çəkirəm. Dönməz mübariz, milliyyətçi, vətənpərvər, bütün həyatı Sovet imperiyasının təzyiqləri altında keçsə də, milli ideallarından zərrəcə geri çəkilməyən, görkəmli alim, şəxsiyyəti milli yaradıcılıq və tərbiyə nümunəsi olan Rəmzi Yüzbaşovun həyatı ilə bağlı bir hadisə nəzəri əsasları etnologiya elmi tərəfindən hazırlanan, Kommunist Rus imperiyasının həyata keçirdiyi simasızlaşdırma siyasətinin Azərbaycan ziyalısı arasında səviyyəsini qiymətləndirmək üçün çox aydın və dəqiq nümunədir.

O yazır: "1956-cı ildə Azərbaycan dilinin dövlət dili kimi tətbiq edilməsi haqqında ali orqanlarımıza məktub yazmışdım. Mənim bu təşəbbüsüm respublika rəhbərlərinin xoşuna gəlməmişdi. Onlar özləri bir qərar çıxarmaq imkanından

məhrum olduqları üçün, mənə dedilər ki, yazdığım məktub işlədiyim Ədəbiyyat İnstitutunun ümumi iclasında müzakirə edilsin. Məktubum yuxarıda oturan yoldaşlara xoş gəlmədiyindən, bəzi adamlar mənə salam da vermək istəmirdilər. Adamlar, ay adamlar, qəribə adamlar... İnstitutun ümumi iclası çağırıldı. İclas salonuna mən axırda gəldim. Gördüm İnstitutun partiya təşkilatı katibinin yanında bir boş yer var. Mən gedib orada oturan kimi, o yazıq düz qalxıb başqa bir yerdə bir-iki adamı sıxışdırıb özünə yer elədi. Bu yazıq ana dilinin hörmətini qaldırmaq istəyən bir adamın yanında oturmaqdan qorxurdu" (79, 80).

Ardıcıl simasızlaşdırılan, dili sıxışdırılan, mənəviyyatı məhv edilən, dini ibadət evləri bomba ilə partladılan, dini mərasimi rus əsgərinin atəşi ilə qana boyanan bir xalqın (78) başına gətirilən milli müsibətlərin böyük əksəriyyəti onun gözləri qarşısında baş vermişdi. Rus imperiyasının yeni avantüraları başlamışdı, Qərbi Azərbaycanda (indiki Ermənistan) ermənilər azərbaycanlıları vəhşicəsinə məhv edir, talayır, tarixi vətənlərindən kütləvi qovulmasını başa çatdırırdılar. Hər gün Qərbi Azərbaycandan kütləvi qaçqınlar gəlirdi. Azərbaycan rəhbərliyini ermənilər DQMV-nə buraxmırdılar. Azərbaycanlılar milli mədəniyyətlərinin ilkin beşiyindən qovulurdu. Artıq kommunist ideologiyası çoxdan ölmüşdü. Əhali Sov. İKP üzvlüyü biletini küçəyə, zibilxanaya atırdı. Sovet imperiyasının ölüm ərəfəsində olması intellekti minimum olanlarda da şübhə doğurmurdu.

H.Həvilovun "Azərbaycan etnoqrafiyası" (B., 1991) nəşr edildiyi günlərdə artıq Azərbaycan xalqının bir əsrə yaxın müddətdə apardığı istiqlal mübarizəsi qələbə ilə başa çatmış, dövlət müstəqilliyinin bərpa olunduğunu elan etmiş, istiqlalı beynəlxalq səviyyədə tanınmışdı. Azərbaycan xalqı hər cümə günü, milli və dini bayram günləri Azadlıq yolunda sovet rus tanklarının tırtılları altında məhv edilmiş Şə-

hidlər Xiyabanında uyuyan istiqlal şəhidlərini qürurla ziyarət edərək tarixi milli mədəniyyətinə, mənəvi dəyərlərinə can atır, milli sosial-iqtisadi quruculuğa başlayırdı. Belə bir tarixi məqamda bütün xalqı, xüsusilə gənc nəsli yeni milli quruculuğa səfərbər edən etnopsixoloji, mənəvi-ideoloji, sosial-siyasi və s. dəyərləri müəyyən edib xalqa çatdırmaq, tədrisə daxil etmək əvəzinə Kommunist Rus imperiyasının Azərbaycan xalqının milli iqtisadi, sosial-siyasi və mənəvi sistemini dağıtma üsullarını alqışlayaraq onları müstəqilliyini qurmaq, təmin etmək uğrunda mübarizə aparan xalqın gənc nəslinə ((“Azərbaycan etnoqrafiyası” B., 1991) “həll edilməsi zəruri olan” problem kimi, (55, 11-12), sovet etnoqrafiyasını “hər cür irqçiliyə qarşı” çıxan (67, 38) elm kimi tətbiq etməyi (“Dünya xalqları etnoqrafiyası”), akademikin 1920-ci il aprel işğalını “Azərbaycan xalqının arzusu kama yetişdi”, “qurub yaratmaq əzmi” verdi, “mədəni həyatında əsaslı dönüş yaratdı, qələbə qələbəyə qovuşdu” (64, 32) fikirlərini dəyərləndirməkdə çətinlik çəkərək, məsələnin bu cəhətini oxucunun ixtiyarına buraxıram. Xalq müstəqillik uğrunda mübarizədə şəhidlər verildiyi bir çağda, müstəqilliyin ilk sevincini yaşadığı elə ilk günlərdə özlərini “milli etnoqraf” adlandırılanların akademik nəşr və dərslik vasitəsi ilə milli tarixi saxtalaşdırması, keçmişə nifrət, imperiyaya məhəbbət təbliğ etməsi nəyin nəticəsi ola bilərmiş? Bu suala cavab tapmağı da oxucunun ixtiyarına buraxıram.

Yuxarıda göstərilən müəlliflərin Sovet hakimiyyəti illərinə qədər Azərbaycanda etnoqrafik müəssisələrin olmaması və sistemli etnoqrafik tədqiqatın aparılmaması fikirləri həqiqətdir. Bu böyük sovet professorları, alimləri bilmirlərmi, Rus imperiyasının XIX əsrdə açdığı elmi müəssisələri Azərbaycan xalqı IX-XIV əsrlərdə açmışdı. Rus imperiyası Azərbaycanda bir qəzetin, adi bir məktəbin açılmasına imkan vermirdi. Bir qız məktəbi açmaq üçün H.Z.Tağıyev

II Nikolay ailəsinə nə qədər hədiyyə verdi. Lakin Azərbaycanda etnoqrafik müəssisənin olmaması və sistemli elmi tədqiqatın aparılmaması burada etnologiya elminin olmaması demək deyildir.Yuxarıda deyilənlərin əksinə olaraq aşağıda görəcəyimiz kimi, Azərbaycan dünyada etnologiya elminin ilkin vətənlərindəndir, XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycanda etnologiya elmi dünya etnoloji fikirinin öncüllərindən idi. Azərbaycan türklərinin müstəqillik ruhunu və qələbəsini də o təmin etdi.

Heç bir ölkədə etnoloji fikirin meydana çıxması, həmin vaxtdan etnoloji müəssisələrin yaranması və etnoloji tədqiqatlarla müşiyyət olunmayıb. Bəhs olunan elm heç də bu gün də dünyanın bütün ölkələrində etnologiya adlanmır. Məsələn, anqlosaks xalqlarında – İngiltərə və ABŞ-da bu elm sosial antropologiya və ya mədəni antropologiya, Almaniyada Volksrkunde, Völkerkunde adlanır və etnologiya termininin sinonimi kimi işlədilir (29; 30; 60).

Etnologiya elminin predmetində etnosun etnogenezi, özünüadlandırması, milli kimlik şüuru, onu başqalarından fərqləndirən özünəməxsus xarakter xüsusiyyətlər, milli sima, inanclar sistemi, adət-ənənə, əxlaqi dəyərlər, milli tərbiyə sistemi, milli-mənəvi dəyərlərin təkrar istehsalı birinci yerdə durur, mədəniyyətin maddiləşməsi mühüm yer tutur (30; 81). Artıq XX əsrin 70-80-ci illərində Sovet etnoqrafiyasında kommunist ideologiyasının uyğunlaşdırılmış forması olsa da, etnoqrafiyanın bu aspektlərindən bəhs olunurdu (29; 51; 61; 63). Artıq bu dövrdə L.N.Qumilyov Sovet etnoqrafiyasının etnosu tam əhatə etmədiyini sübut etdi və etnos haqqında özünün XX əsrin ən inqilabi nəzəriyyəsini yaratdı.

Sovet etnoqrafiyasında etnos haqqında iki təlim olduğu etiraf edilirdi. Bu təlimin birincisi Y.V.Bromley başda olmaqla Sovet imperiyasında zorakı ruslaşdırma assimilyasiyasını pərdələyən, xalqları aldadan etnoqrafiya ilə məşğul

olan bütün etnoqraflara, ikinci isə L.N.Qumilyova məxsus idi (80). Bu illərdə, antimarksizm və antikommunizm istisna olmaqla, etnoqrafiyanın (etnologiya) bütün sahələrində geniş tədqiqatlar aparılırdı. Mənəvi mədəniyyət və etnopsixologiya sahəsində çoxsaylı əsərlər yaranmışdı. Mənəvi mədəniyyətin formalaşması və təkrar istehsalı haqqında yazılan və marksist materializmə öldürücü zərbə vuran kifayət qədər əsərlər yaranmışdı. Artıq Sovet etnoqrafları arasında kifayət qədər zəka sahibi yetişmişdi ki, onların sayəsində belə əsərlər bolşevik təfəkkürü ilə qarşılanmır, onlara obyektiv elmi münasibət göstərilirdi. XX əsrin 80-ci illərinin əvvəllərinə qədər yazılmış əsərlərdə Azərbaycanda etnoqrafiya (etnologiya) elminin Sovet hakimiyyəti illərindən başladığının iddia edilməsini imperiyanın təzyiqi ilə izah etmək olar, amma bunun artıq 80-ci illərdə, müstəqillik illərində yazılması səbəbləri bizcə intellektual səviyyənin elmi mahiyyət kəsb etməməsi, yaradıcılıq ruhunun olmaması, müstəqilliyə inamsızlıqdan doğmuşdur..

Tarixçi alim hamının bilmədiyi, lakin bilməli olduğu faktları müəyyən edib, kəşf edib xalqına çatdıran kimsədir. Xüsusən xalqın özünün yaratdığı, həmişə onun üçün mənəvi qida olan, gələcəyi proqnozlaşdırmağa imkan verən, müəyyən səbəblərdən unudulmuş və ya, Sovet imperiyasındakı kimi, gizli üsullarla unutdurulmuş həqiqətləri aşkar edib xalqa çatdırmaq hər ziyalının borcu isə, xüsusən həmin sahənin tədqiqatçısının ikiqat, üçqat vətəndaş borcudur. Alim üçün elmi vicdan, həqiqəti ifadə edən vicdan milli və siyasi vicdandan üstün olmalıdır. Xalqa mənsub tarixçi alimin, elmi və milli həqiqəti xalqdan gizlətməsinin dəyərini müəyyən etməyi oxucunun ixtiyarına buraxıram.

Bütün dünya xalqlarında, o cümlədən Azərbaycan xalqında etnoqrafik (etnoloji) fikir folklorun, fəlsəfənin, tarixin və xalq təbabətinin, poeziya və nəsrin müxtəlif sahələrinin

tərkibində zaman-zaman inkişaf etmişdir. İdrakın özünəməxsus forması kimi, mənəvi istehsal və sosial inkişaf kimi, elm Avropada yeni dövrdə - XVI-XVII əsrlərdə kapitalist istehsalının formalaşması dövründə vahid bilikdən parçalanaraq fəlsəfə və müxtəlif elmlər kimi inkişaf etdi (84, 46). Kapitalizmin sonrakı inkişafı prosesində, yuxarıda bəhs edildiyi kimi, Avropa kapitalist dövlətlərinin apardığı müstəmləkəçilik müharibələrinin gedişində XVIII əsrin sonu XIX əsrdə fərqli adlarla, xalqları öyrənən elm - etnoqrafiya (etnologiya) elmi yarandı. Şərqdə isə, o cümlədən Azərbaycanda elmi fikrin tarixi çox qədimdir. Manna, Midiya Atropatena və Alban dövründə Azərbaycanda elmi fikri artıq müəyyən səviyyədə inkişaf etmişdi (82, 148; 4).

Azərbaycan türklərinin Azərbaycanda dövlətçiliyə qədərki etnososial inkişaf mərhələsi – etnogenez prosesi, yəni xalq kimi təşəkkülünün ilkin mərhələsi və ilkin siyasi dövlət təşkilatlarının formalaşması folklor yaradıcılıq məhsulu "Dədə Qorqud kitabı"nda bütün incəliyi ilə təsvir olunmuşdur.

"Dədə Qorqud kitabı" Azərbaycan oğuznamələrindən Azərbaycan etnoqrafları – milli etnoqrafiyamızın mənbəyi kimi bəhs etsələr də, ona məqalələr həsr etsələr də, Q.Rəcəbli istisna olmaqla heç bir tarixçi - etnoqraf bu əsərlərin həqiqi mahiyyiətini, əhatə sahəsini obyektiv dəyərləndirə bilməmiş, əsasən əsərin üz qatlarındakı, orta əsrlər oxunuşu zamanı mexaniki əlavələrdən həqiqət kimi bəhs etmişlər. "Dədə Qorqud kitabı" oğuznamələri folklor əsəri olsa da, sanki XXI əsrin elmi tələbləri baxımından yazılmış etnoqrafik tarixi sənəddir. Əsərdə Arərbaycan türklərinin etnogenezi, bu prosesdə yaranan milli sima, inam və etiqad, adət-ənənə, milli tərbiyə üsulu, mənəvi dəyərlərin sistemi və onun təkrar istehsalı, əxlaqi münasibətlər, ali hisslər, ailənin məzmun və forması, ictimai quruluş – ordı (hərbi demokra-

tiya), etnososial-siyasi və iqtisadi struktur, maddi mədəniyyət bütün incəliyi ilə təsvir olunmuşdur (86; 87; 89; 90; 91).

Şumerlərdə ibtidai icmadan sinifli cəmiyyətə keçid mərhələsini "Bilqamıs dastanı" (98) incəliyinə qədər aydınlıqla təsvir edib, "Bilqamıs dastanı"nın bir çox xüsusiyyətlərini özündə əks etdirən (86) "Dədə Qorqud" oğuznamələrinin Azərbaycanda yaranmasının təbii sosial-mənəvi səbəbləri var. Belə ki, Azərbaycan Şimali Afrika və Kiçik Asiya ilə vəhdətdə insan əcdadının bioloji varlıqdan sosial varlığa çevrildiyi ərazi - bəşəriyyətin ilkin sivilizasiya beşiyidir. Şimali Afrika, Kiçik Asiya və Azərbaycanda hələ qədim daş dövründən insanın bioloji varlıqdan sosial varlığa keçməsi prosesində qarşılıqlı əlaqə və təmaslar olmuş, mustye – orta daş dövründə Azərbaycan paleoliti İkiçayarası (Mesopotomiya), Mərkəzi Asiya və bütün Yaxın Şərq mədəniyyətinə təsir göstərmişdir. Bu proses mezeloit, neolit, eneolit və tunc dövründə də davam etmişdir. Azərbaycandan İkiçayarasına, Yaxın Şərqdə, Xəzərsahili vilayətlərə güclü miqrasiyalar olmuşdur. Bir çox Avropa arxeoloqları şumerlərin İkiçayarasına Azərbaycandan miqrasiya etdiyini yazırlar (92; 93, 22, 47-49, 130; 94, 64-65; 95, 31-44; 96, 64-125).

Elə bu qarşılıqlı təsir və əlaqədə də Yaxın Şərq, İkiçayarası və Azərbaycanda etnososial-mənəvi, siyasi-iqtisadi proseslər vəhdətdə getmişdir. Şumerlərdə və Arattada (Azərbaycanda) sinifli cəmiyyət və erkən şəhər dövlətləri e.ə. IV minilliyin sonu III minillikdə yaranmışdı. İlk öncə bu ölkələr arasında iqtisadi, mədəni əməkdaşlıqlar olmuşdur. Nəhayət, e.ə. III minilliyin sonunda Azərbaycan Kuti sülaləsi və tayfa ittifaqı şumerləri bir əsrə yaxın öz hakimiyyəti altında saxlamışdı (97, 72-87). "En-merkar və Aratta hökmdarı" adlı şumer dastanında e.ə. III minilliyin birinci yarısında Şumerlərlə Aratta arasında baş vermiş hadisələrdən,

əlaqə və münasibətlərdən bəhs olunur (97, 125-130). Odur ki, Azərbaycanda ilkin dövlətlərin yaranması öncəsi ordının (hərbi demokratiyanın), mədəni, mənəvi dəyərlərinin "Dədə Qorqud" oğuznamələrində çox incə və aydın idealizə edilməsi şumerlərlə olan əlaqə və münasibətlərin təsiri idi.

Q. Rəcəbli düzgün olaraq yazır ki, "Dədə Qorqud kitabı"nın bəzi boylarında "Bilqamıs" dastanının motivlərinin təsiri hiss edilir. "Ehtimal ki, Şumerlər ilk vətənləri Azərbaycana qayıdarkən özləri ilə xatirələrində "Bilqamıs" dastanının ruhunu da gətirmişlər. Əks halda heç bir xalq birdən-birə "Kitabi-Dədə Qorqud" kimi kamil epos yarada bilməzdi. Şumer kimi nəsli olan Azərbaycan oğuzlarının xalq yaradıcılığı formasında belə bir dastanı yaratması üçün ən əlverişli tarixi şərait Manna, Midiya, Alban dövlətinin yaranması ərəfəsində, Skif dövləti zamanı mövcud idi (86, 29-30; 88; 89; 90; 91).

Ictimai inkişafın hər bir mərhələsi ona məxsus təfəkkür forması ilə müşayiət olunur. Əgər ibtidai-icma mərhələsində tam hissi, seyrçi təfəkkür hökm sürürdüsə, tayfa ittifaqlarının xalq kimi təşəkkülü prosesi nəzəri-elmi təfəkkürün təşəkkülü ilə müşayiət olunurdu. Etnosun xalq kimi təşəkkülü və onun yaratdığı siyasi idarəetmə təşkilatı -dövlət əvvəlki kimi yalnız tam adət-ənənə və əxlaq normalarından yox, onlarla bərabər nəzəri proqnozlaşdırma və s. elmi biliklərdən istifadə edir. Hər bir ölkədə xalqın, dövlətin, elmin təşəkkülü paralel gedir.

Yuxarıda gördüyümüz kimi, Azərbaycanda ilkin dövlət qurumunun yaranması e.ə. IV minilliyin sonu III minillikdə şumerlərlə həmsərhəd ərazilərdə eyni zamanda paralel getmişdi. Onlar arasında fasiləsiz iqtisadi, mədəni-mənəvi, siyasi əlaqə mövcud olmuş, üçüncü minilliyin sonunda azərbaycanlılar (arattalılar) 100 ilə yaxın Şumerlərin üzərində hökmranlıq etmişdilər. Şumerlərdə xalqın və dövlətin tə-

şəkkülü elmi fikirin təşəkkülü ilə paralel gedirdi. Burada riyaziyyat, astronomiya, təbabət, memarlıq və incəsənət elm kimi formalaşmış, ilin təqvimi hazırlanmış, günəş və su saatından istifadə edilmiş, hələ III minilliyin birinci yarısında ayın tutulmasının cədvəli yaradılmşdı, məktəblər, sistemli tədris üsulu mövcud olmuşdu. Əkinçilik təqvimi tərtib olunmuş, bağçılığa aid kitablar yazılmışdı. Hüquq qanunları yaradılmışdı (97, 121-145; 99, 33).

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycanda elmi biliklərin yaranma tarixi də Şumerlərlə paralel getmişdi. Elə bunun nəticəsi idi ki, e.ə. I minilliyin əvvəllərində Azərbaycanda emprik təfəkkür məhsulu olan ordını (hərbi demokratiya) tərənnüm edən "Dədə Qorqud" oğuznamələrinin yaranmasının ardınca, e.ə VII-VI əsrlərdə Azərbaycanda təbiət və cəmiyyətin elmi dərk edilməsi və idarə edilməsi təlimi olan Şərqin ən güclü fəlsəfi təlimi - Zərdüşt fəlsəfəsi və onun əsasları "Avesta" kitabı yarandı. Zərdüşt fəlsəfəsi yarandığı gündən bütün Şərq fəlsəfəsinin, qədim yunan fəlsəfəsindən başlamış orta əsr, yeni və ən yeni dövr Alman fəlsəfəsinin də daxil olduğu bütün Avropa fəlsəfəsinin mənbəyinə çevrildi, yaradıcı ruhu oldu (100; 99).

Zərdüşt fəlsəfəsinin yarandığı gündən dünya ictimai fikirinə fasiləsiz yaradıcı təsirinin əsas səbəbi bu təlimin özünə qədər Azərbaycanda mövcud olan bütün təlimlərin müsbət cəhətlərini ehtiva edib sistemləşdirməklə bərabər, Yaxın Şərq elmi və mənəvi dəyərlərindən də yetərincə faydalanması idi (99). Elə bu səbəbdən də Zərdüştlük tarixdə ilk dəfə subyektiv istəkləri deyil, obyektiv qanunları ifadə edən elmi-fəlsəfə baxışlar sistemi kimi meydana çıxdı.

Zərdüşt fəlsəfəsinin, təliminin əsası dualizmdir. Bu ideologiyaya görə, bütün dünyada - hər yerdə, hər şeydə iki əsas qüvvə arasında əbədi barışmaz mübarizə gedir. Fiziki dünyada işıq və qarannlıq, üzvi aləmdə həyat və ölüm ara-

sında, insanların ictimai həyatında ədalət və ədalətsizlik arasında, dini həyatda Hörmüzlə Əhriman, xeyirlə şər arasında mövcud olan mübarizə əbədidir. Bu, təbiətdə qayda və qanunauyğunluqlar ideyası, təbiətdə və insanların həyatında əksliklərin mübarizəsi ideyasıdır, qanunudur (99, 70-72).

Zərdüşt təliminin böyüklüyü ondan ibarətdir ki, ona qədər olan allahların hamısını inkar edərək Hörmüzü yeganə xeyirxah allah kimi kainatın və bütün canlı varlıqların, ruhların, insanların, heyvanların, bitkilərin yaradıcısı hesab edir. Hörmüz özü özlüyündə xeyir və şər, həqiqət və yalan arasındakı yolu sərbəst seçmək imkanı yaradır. "Avesta"da ideologiya tarixində ilk dəfə sosial şər problemi qoyulmuşdur, onu doğuran səbəblər aşkarlanmışdır (99, 69).

Zərdüşt təlimində dünyanın iki başlanğıcı xeyir və şər və eləcə də həmin adlara qulluq edən allahlar arasında mübarizədə Hörmüz ən fəal mövqedə dayanır. İnsan özünün xeyir işləri ilə Hörmüzün qələbəsinə kömək edirsə, bəd əməlləri ilə Əhrimənin gücünü artırır. Xeyirxahlıq ruhu – yaradıcı, bədxahlıq, şər ruhu isə dağıdıcıdır (101).

Beləliklə, varlığın mövcudluğunda əksliklərin mübarizəsini, Xeyirlə Şərin mübarizəsinin əbədiliyini görən, Xeyirin qələbəsini təmin etməklə bütün varlığı – təbiəti və cəmiyyəti xoşbəxt görməyk istəyən Zərdüşt xeyir fikir, xeyir söz, xeyir əməl triadasını yaradır. Təsadüfi deyil ki, Hegel zərdüştlüyü azadlıq dininə keçidi təsdiq edən təbiət dini adlandırmışdı. Bu din, Hegelə görə, işıq və xeyir dinidir. Allahın varlığı burada dünya qüdrəti və bununla yanaşı, dünyanın məqsədi, fəaliyyət göstərən kimi arzu edilən kimi, substansiya kimi, subyekt kimidir (99, 72).

Azərbaycanın fəlsəfə tədqiqatçıları, fəlsəfə elmlər doktorları A. Şükürov və G.Abdullazadə yazırlar ki, "Avesta" dini, fəlsəfi, etnoqrafik - ədəbi abidələr toplusudur" (99, 60). Onların burada etnologiya termini əvəzinə etnoqrafiya iş-

lətməsi yanlışlığı Azərbaycanda bu sahədəki tədqiqatların etnoqrafiya adlandırılması təsirindən doğmuşdur. Yuxarıda bəhs etdiyimiz və digər tədqiqatlarda da göstərildiyi kimi, etnoqrafiya hissi idrak səviyyəsində predmet və hadisələrin təsviri, etnologiya isə nəzəri idrak səviyyəsində varlığın dərki, onun tənzimlənməsi və istiqamətləndirilməsidir.

"Avesta"dakı "xeyir fikir, xeyir söz və xeyir əməl" altı sözdən ibarət bir triadada XIX-XX əsr Avropa və ABŞ etnologiyasında bütün mahiyyəti ifadə olunmuşdur. Alti sözdən ibarət bu triadanın ifadə etdiyi ideyanın məzmun və mahiyyətinin tətbiqi ilə etnosa normal, azad inkişaf yolu göstərmək və yaratmaq da olar, onun əksini tətbiq etməklə etnosun bütövlüyünü parçalayıb onu məhv etmək də olar.

Göründüyü kimi, hələ XIX əsrin sonunda Avropada gələcəyin fəlsəfəsi olacağı düşünülən etnologiya yaranışdan Azərbaycanda, o cümlədən Şərqdə fəlsəfə idi, fəlsəfənin bir sahəsi idi.

Hörmətli oxucu, Şərqdə, o cümlədən Azərbaycanda etnologiya elminin tarixini yazmaq onlarla institutun on illərlə vaxt aparacaq araşdırmalarını tələb edən işdir. Bu bizim imkanımız xaricindədir. Mən yalnız Azərbaycan sovet "tarixçilərinin" zorakı surətdə danılan elmi fikir tariximizə (əgər belə olmasaydı, edilməsəydi, sovet yazarlarınının saxta uydurmalarını elm və tarix adlandırmaq mümkün olmazdı) qısa nəzər salmaqla kifayətlənəcəm. Bu sahədə mənbələr üzrə sistemli tədqiqatlar aparılmasını alim diplomu almaq deyil, alimlik iddiasında olacaq vətənsevər və millətsevər gənclərimizin ixtiyarına buraxıram.

Bir də onu nəzərə almaq lazımdır ki, özündən yüksək səviyyədə olan, müstəmləkə əsarətinə salınmış xalqın elmi və mədəniyyətinin danılması, məhv edilməsi, oğurlanması, saxtalaşdırılması, müstəmləkəçinin öz adına çıxması heç də kommunist sovet imperiyasının tətbiq etdiyi üsul deyil,

özünün "mədəni" olduqlarını sübut etmək üçün ilk dəfə Makedoniyalı İsgəndər "Avesta"nı yunan dilinə tərcümə etdirib, türkcə əslini məhv etdi, onun şifahi yaddaşlarda qalan, toplanıb bərpa edilən hissələrini isə ərəblər məhv etdi. Mütəfəkkir yazıçı Y.V.Çəmənzəminlinin sözləri ilə desək, "ərəb istilası Zərdüştün atəşi ilə bərabər ölkəmizin mədəniyyət işığını da söndürdü".

Azərbaycanın siyasi hakimiyyətini oğurlamış farslar "Avesta"ya ideoloji ruhuna uyğunlaşmayan, əxlaqsızlıqlar, simasızlıqlar ideyası calaq - əlavələr edərək onu özününkü elan etdi, amma mənimsəyə bilmədi. Lakin bütün bunlar Zərdüşt – "Avesta" Azərbaycan fəlsəfəsinin bəşəri böyüklüyünə kölgə sala bilmədi. Göründüyü kimi, bəşər tarixində işğalçı siyasi qələbələr müvəqqəti, keçici, mədəniyyətin, ideologiyanın ömrü, yaradıcılıq gücü nə məğlub ediləndir, nə də tükənən.

Burada geniş şərhə imkanımız yoxdur, lakin qətiyyətlə demək olar ki, Zərdüşt təliminin tərkibində cəmiyyətin yetərli etnoloji dəyərləndirməsi mövcud idi.

Manna, Midiya və Albaniya özünün yazısı və məktəbləri olan ölkələr idi. İşğalçı farsların əlifba və yazını midiyalılardan qəbul etdiyi məlumdur. Belə olan təqdirdə ölkədə "Avesta"dan başqa dini, tarixi və fəlsəfi əsərlərin yazılmaması mümkün deyildi. Bu dövrün müharibələrində yerli milli yazılı abidələrin məhv edilməsi sanki qanuni hal olmuşdu. Farslar, Makedoniyalı İsgəndər, onun ardınca ərəblər, ərəblərin himayəsində ermənilər Azərbaycanın bütün yazılı abidələrini məhv etdilər (99, 37-45; 85, 177; 105, 94-95).

Farslar, yunanlar və ərəblər kimi, ermənilər də milli yazılı abidələri məhv edərkən onlar üçün lazım olan ədəbiyyatları seçib öz dillərinə çevirir, doğma dildə olan əslini məhv edirdilər. Ərəb işğalı zamanı hayların erməni dilinə çevirib, əslini məhv etdikləri Azərbaycan yazılı abidələrindən biri

Moisey Kalankatlunun "Albaniya tarixi"dir. Erməni əlavələri və saxtalaşdırmaları istisna edilərsə, bu kitabın Azərbaycan Sovet tarixşünaslığı tərəfindən elmi əsər hesab edilməməsinin heç bir məntiqi əsası yoxdur. Əsərdə dünya xalqları haqqında verilən məlumatlar, ölkənin təbii-coğrafi şəraiti, iqtisadi-siyasi həyatı, ibtidai inam və etiqadları, dini ideologiyası, məktəb və elmi müəssisələri, etnik proseslər və sosial təbəqələr, qonşu xalqlarla etnomədəni, ideoloji və siyasi əlaqələr sistemli elmi ümumiləşdirmələrlə şərh olunmuşdur. Əsərdə mülki, iqtisadi-siyasi problemlərdən çox etnoloji məsələlər daha dolğun əks olunmuş və elmi həllini tapmışdır.

Bu baxımdan, bizcə, "Albaniya tarixi" əsərinin etnoloji əsər adlandırılması daha məqsədə müvafiqdir. M.Kalankatyuklunun "Alban tarixi" əsəri yüksək nəzəri əsaslara və ümumiləşdirmələrə malik elmi əsərdir. Cəsarətlə demək olar ki, Sovet Albanşünaslığında və etnoqrafiyasında (etnologiyasında) Albaniya haqqında bu səviyyədə əhatəli elmi məntiqə söykənən ikinci əsər yaranmamışdır. Təbii-coğrafi şərait və digər səbəblər Şərqi, birinci olaraq Mesopotamiya, Azərbaycan və Misiri sivilizasiya beşiyinə çevirdi. Bəşəriyyətin bütün dini və elmi ideologiyaları, nəhayət, fəlsəfəsi burada meydana gəldi. Tədricən buradan ətraf ölkələrə və bütün dünyaya yayılmağa başladı.

E.ə. IV əsrdə Asiyanı Hindistana qədər işğal edən Makedoniyalı İsgəndər sivilizasiyanın bütün elmi və fəlsəfi inciləri toplanan Persopol kitabxanasını, sonra Hindistan kitabxanalarını yandırıb onlarda toplanan elmi və elmi ideologiya mənbələrini məhv etdi. On dörd min inək gönünə qızıl suyu ilə yazılmış "Avesta"nı məhv etdi. "Avesta"nın yunan dilinə tərcümə olunub Yunanıstana göndərilən hissələri və şərqdən əxz edilən elmi ideologiya üzərində Yunan və Roma fəlsəfəsi, elmi və incəsənəti yarandı (106, 94, 98, 100, 156; 99; 101, 76-77).

Yunanların Şərqdən əxz etdikləri mədəniyyətə qarşı göstərdikləri sayğısız münasibəti Avropa mütəfəkkiri Volter tənqid edib "vəhşilik" adlandırmışdı. Yunanların Şərqdən əxz etdikləri fəlsəfənin çox xəsisliklə etirafı onların "fəlsəfənin və mədəniyyətin başlanğıcı" deyil, "əksinə tarixi saxtalaşdırmanın və plagiatçılığın başlanğıcı" olmalarını izah edir" (101, 76-78).

VII əsrdə Şərqdə tarix səhnəsinə çıxan üçüncü dünyəvi din - İslam "elm dini" kimi dünyaya gəlmişdir (108; 107, 52). Məhəmməd Peyğəmbər buyururdu: "Ömrünü elmə sərf edən adam heç vaxt ölmür", "Alimlərə hörmət edən, elə bil mənə hörmət edib", "Elm öyrənmək üçün dünyanın ən uzaq guşəsinə qədər get", "Elm axtarmaq xatirinə evini tərk edən adam Allaha sarı yol gedər", "Elm öyrənmək hər bir müsəlman üçün vacibdir", "Elm öyrənmək izzətli və cəlallı Allahın yanında namaz, Oruc, Həcc və cihaddan üstündür" (109, 42-45). Odur ki, (elmə yiyələnmək, İslam ideologiyasının ana xətti, nüvəsi kimi "Qurani-Kərim"də özünü göstərir.

Ərəb birliyinin yaranması, qədim Misir, Assuriya, Yunanıstan, Çin və s. ölkələrin elmi və fəlsəfi əsərlərinin ərəb dilinə tərcüməsi və mənimsənilməsi paralel gedirdi. Dünya elmi acgözlüklə mənimsənilirdi. Vahid yaradan Allaha etiqad, elmə yiyələnmə zərurəti "Qurani-Kərim"in ana xətti kimi özünü göstərir və cəmiyyətə təlqin olunaraq yazılır: "Yeddi (qat) göyü və bir o qədər də yeri yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu, Allahın hər şeyi öz elmi ilə ehtiva etdiyini biləsiniz deyə, Allahın əmri onların arasında (môvcud olan bütün (məxluqata) nazil olar". "(Ya Məhəmməd!) Yadına sal ki, bir zaman Sənə: "Rəbbin (öz elmi və qüdrəti ilə) insanları ehtiva etmişdir". "Sizin Tanrınız ancaq o Allahdır ki, Ondan başqa heç bir Tanrı yoxdur. O, elmi ilə hər şeyi ehtiva etmişdir". Hətta Peyğəmbərə tövsiyə olunur ki, Quran ona tamam-kamil çatana qədər onu oxu-

mağa tələsməsin. "Mənim elmimi artır!" – deyə Pərvərdigara dua etsin. Qurani-Kərimdə deyilir ki, "Elmdə qüvvətli olanlar isə: "Biz onlara inandıq, onların hamısı Rəbbimiz tərəfindədir", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər" (108, 43, 206, 294, 296, 578).

Beləliklə, Quran çoxallahlığı – bütpərəstliyi qadağan edir, bütün kainatı, bəşəriyyəti, insanı gözəgörünməz tək Allahın "öz elmi ilə yaratdığı təlqin olunur. Xoşbəxt həyat qazanmağın yeganə mümkün yolunun Quranda göstərilən əxlaq qaydaları ilə elmə yiyələnmədən ibarət olduğu izah olunurdu. Qurani-Kərimdə Allahın mahiyyəti az qala onun elmi yaradıcı sistemi ilə izah olunur və 73 ayədə elm tövsiyə olunur. Quranda elm İslam ideologiyasının nüvəsi kimi yer tutdu. "Qurani-Kərim"in tələbləri və Məhəmməd peyğəmbərin buyurduğuna rəğmən Ərəb Xilafəti antik yunan-roma, Kiçik Asiya, İraq, Azərbaycan, Hindistan və s. xalqların yaratmış olduqları elmi və fəlsəfi əsərləri ərəb dilinə tərcümə etdirib İslam dünyasınını istifadəsinə verdilər. Şərqdə isə İslam dininin elmə söykənməsi və fəlsəfəyə mülayim münasibəti elmin və mədəniyyətin inkişafına ardıcıl müsbət təsir göstərdi (9, 69). Digər tərəfdən İslam dininin "bu mövqeyi bir tərəfdən onun daxilində dini-fəlsəfi istiqamətlərin fəaliyyətinə qida vermiş, digər tərəfdən isə İslam dinindən kənarda (və müəyyən qədər ona qarşı çıxan) müstəqil elmi - fəlsəfi təlimlərin mövcudluğuna şərait yaratmışdı" (9, 69).

Az vaxt ərzində Kiçik Asiyanı, Suriyanı, İraqı, Azərbaycanı, Farsı, Mərkəzi Asiyanı əhatə edən ərəbdilli fəlsəfə təşəkkül tapıb inkişaf etdi. Digər tərəfdən, İslamın müqəddəs kitabı olan "Qurani-Kərim" öz məzmununa görə təkcə dinlə məhdudlaşmırdı. Burada hüququn, şəriətin, bütövlükdə müsəlman mədəniyyətinin və ideologiyasının əsasları ifadə olunmuşdur. Buna görə də orta əsrlər Şərqinin fəlsəfi, etik, ictimai-siyasi və bədii fikri onunla sıx bağlı olmuşdur. Qu-

ranın təfsirinə aid çoxlu kitablar yazılırdı. Bunların əsasında hədis, fiqh (müsəlman hüququ), (sxolostika) və s. şəriət elmləri inkişaf edirdi. Bununla yanaşı "əql elmləri" adlandırılan dünyəvi elmlər – fəlsəfə, məntiq, təbiət elmləri, riyaziyyat və kosmoqrafiya inkişaf etməkdə idi (9, 69-70).

Müxtəlif fəlsəfi cərəyanlar arasındakı polemika təbiət və cəmiyyətin qanunlarının obyektiv dərk edilməsinə yol açırdı. Bu cərəyanlar arasında zəkanın dini ənənələrdən üstün olması, iradə azadlığı, varlığın mövcudluğunda kəmiyyət və keyfiyyət dəyişməsi prosesi elmi əsaslarla şərh edilirdi ki, bu da idrak prosesində rasionalizmin müdafiəsi idi. Artıq VIII əsrdə İslam dünyasında varlığın rasional dərki mövcud idi (9, 71-72). Avropada rasionalizm ideyasının ilk nümayəndəsi XVII əsr filosofu R. Dekart (1596-1650) idi. Rasionalizm Avropada hələ XVII əsrdə tam qalib gəlməmişdi. XVIII əsr Avropa elmi-nəzəri, fəlsəfi təfəkkürü İslam dünyasının VIII əsr elmi-tarixi təfəkkürü səviyyəsinə çatmamışdı.

IX əsr Şərq İslam fəlsəfi fikrinin mərkəzini təşkil etmiş peripatetizm, özündə bir sıra dünyəvi elmləri əhatə edən bu təlim, müsəlman ölkələrində, o cümlədən Azərbaycanda böyük inkişaf yolu keçmişdi. Onun banilərindən biri Yaqub əl-Kindi (801-872) Bağdadda tibb, fəlsəfə, məntiq, hesab, həndəsə, astronomiya və musiqi təhsili almışdı. Antik yunan fəlsəfəsi nümunələrini tərcümə və tədqiq etmişdi. O, fəlsəfənin əsas vəzifəsini həqiqəti əldə etməkdə görürdü, rasionalist idi (69, 74).

IX əsrdə artıq ərəbdilli sosial fəlsəfə cəmiyyət haqqında ümumi fikir söyləməklə kifayətlənmir, topluma məxsus inam və etiqadlar, adət-ənənə, etnopsixoloji xüsusiyyətlərdən, bütövlükdə həyat tərzindən, davranış stereotiplərindən bəhs edirdi.

Ərəbdilli fəlsəfənin belə bir sahəsinin yaranması obyektiv zərurətdən doğmuşdu. Belə ki, ilk dörd xəlifədən sonra,

Əməvilərin hakimiyyətə gəlməsi ilə "müsəlman müsəlmanın qardaşıdır" şüarı unuduldu. Ərəblərin işğalçı olduğu onun öz hakimiyyəti altına saldığı heç bir xalqın diqqətindən yayınmır, heç ərəblərin özü də bunu danmırdı. Odur ki, Abbasilər sülaləsinin hakimiyyəti dövründə milli-azadlıq hərəkatları bütün imperiyanı bürümüşdü. Xilafət əsarəti altına saldığı hər bir xalqın adət-ənənəsini, etnopsixoloji xüsusiyyətlərini, bütövlükdə etnik simasını öyrənib ona müvafiq tədbirlər həyata keçirmək istəyirdi. Beləliklə, **ərəbdilli fəlsəfənin əsarət altına alınmış xalqların adət-ənənəsindən, etnopsixoloji xüsusiyyətindən bəhs edən yeni sahəsi yarandı. Ərəbdilli fəlsəfədə belə ilk klassik əsər Cahizin (775-868) "Türklərin fəzilətləri..." əsəridir. Avropa fəlsəfənin sonralar Şərqdən hazır əxz etdikləri bu sahəsini etnologiya adlandırdılar. Cəsarət və məsuliyyət hissi ilə demək olar ki, Cahizin "Türklərin fəzilətləri..." əsəri XXI əsr Avropa etnoloji tələbləri səviyyəsində yazılmış sırf etnoloji əsərdir, enopsixologiya elmi nümunəsidir.**

Ümumi fəlsəfə tarixində, o cümlədən ərəblərin yazdığı fəlsəfə tarixində, IX əsrdə ərəbdilli fəlsəfənin yeni tədqiqat sahəsi – xalqın adət-ənənə, davranış stereotipi, etnopsixologiyadan bəhs edən sahəsinin necə adlandırıldığını bilmirik. Azərbaycan fəlsəfə tarixçiləri də bu haqda fikir söyləməyiblər. Tədqiqatçılardan yalnız Ə.Elçibəy ilk dəfə Cahiz yaradıcılığında başqa xalqların yaşayış tərzindən, adət-ənənəsindən, inamlarından müqayisəli şəkildə bəhs olunduğunu yazmış, "Türklərin fəzilətləri" əsərinin bir çox dillərə tərcümə olunması haqqında məlumat verilmişdir (111, 239-240) Cahizin "Türklərin fəzilətləri..." əsərini Azərbaycan türkcəsinə çevirən M. Qəmbərli tərcüməyə yazdığı dəyərli ön sözdə əsərin müsbət məziyyətləri və yazılması səbəbindən bəhs etsə də, onun hansı elmi janrda yazılmasına toxunmamışdır (110, 3-4).

X əsrin ərəbdilli türk filosofu əl-Fərabi əl-Türki (870-950) Şərq İslam fəlsəfəsini yeni mərhələyə qaldırdı. Fəlsəfəni "elmlər elmi" adlandıran əl-Fərabi Buxara şəhərində ilk İslam fəlsəfəsi ensiklopediyasını (əl-Təlmus-sani) yazmışdı. Fərabi Aristoteldən sonrakı fəlsəfənin inkişafını nəzərdən keçirib onu ikinci dəfə təsnif etmiş, sistemə salmışdı. Bu əsərə görə "ikinci müəllim" yəni filosofların ikinci müəllimi adını qazanmışdı. (Filosofların birinci müəllimi adını Aristotel qazanmışdı.) Dərin zəkası, bildiyi 70-ə qədər dilin sayəsində bir çox xalqın yaratdığı elmi-fəlsəfi biliklərdən istifadə etməklə 300-dən çox əsər yazan əl-Fərabi fəlsəfənin bütün sahələrini inkişaf etdirir, varlığın dərk edilməsi haqqında öz müddəalarını irəli sürür. Biliyin üç əsas mənbəyini göstərir: 1) bilavasitə və doğru bilik; o, duyğulardan və əqldən yaranır; 2) nəzəriyyə yürütməsi yolu ilə vasitəli bilik (bu, əql vasitəsilə əldə edilir); 3) müşahidə nəticəsində qazanılan bilikdir. O, məntiqin üç bölümünü – anlayış, mühakimə (hökm) və əqli nəticəni aşkar etmişdir. Fərabi belə hesab edirdi ki, məntiq elmi insanı fikir xətalarından qoruyur (9, 75). Beləliklə, biliyin düzgün istifadə edilməsinin nəzəri əsaslarını yaradan əl-Fərabi fəlsəfənin ənənəvi sahələrini inkişaf etdirməklə bərabər yeni sahələrini də yaradır və ya sistemləşdirir (111, 252). Fərabinin etdiyi böyük yeniliklərdən biri Şərqdə siyasi fəlsəfəni, toplum haqqında fəlsəfəni yaratmasıdır. Onun bu sahədəki nəzəriyyələri əsasən "Siyasət kitabı", "Yetkin toplum" haqqında və b. əsərlərində əks olunmuşdur.

Yuxarıda gördüyümüz kimi, əgər Cahiz toplumları adət-ənənəsinə, əxlaqi dəyərlərinə, davranış stereotiplərinə və b. xarakter cəhətlərinə görə müqayisə edirdisə, **Fərabi toplumların yaranması və yaşaması qanunlarının təməl prinsiplərini aşkar edirdi. Bunlar XIX-XX əsr Avropa ictimai fikrində etnologiya və ya mədəni (sosial) antropologiyanın nəzəri əsasla-**

rı hesab edildi. Fərabinin Şərqdə etnologiyanın elmi-nəzəri əsasları hesab etdiyimiz "Yetkin toplum" əsəri haqqında əlimizdə Əbülfəz Elçibəyin 3 səhifəlik şərhindən başqa əlavə material olmadığından onun materialını olduğu kimi əsərimizə daxil edirik. Əbülfəz Elçibəy yazır: "Bu əsərin ərəbcə adı "Mədinətu-l-fazilə" və yaxud "Əra"u əhli-l-mədinəti-l-fazilə"dir. Hərfi tərcüməsi "fazil şəhər" və ya "Fazil şəhər əhlinin (dünya) görüşləri" kimi alınır. Əslində bu əsərdə qoyulan əsas məqsəd yetkin cəmiyyətin necə olmasını, hansı etik, əxlaqi, siyasi qayda və qayəsində dayandığını, hansı ictimai prinsiplərlə yaşadığını, onun sosial quruluşunu bu cəmiyyətdə fərdin yeri və vəzifələrini dərin fəlsəfi və məntiqi əsaslarla işıqlandırmaq və bəşəriyyətə yeni cəmiyyətin, yəni gələcək ideal cəmiyyətin necə qurulmasını göstərməkdir.

Farabi ictimai birliklərin inkişaf etmiş forması kimi öz dövrünün şəhərini götürür. Bu, heç də təsadüfi deyil. X yüzillikdə, daha doğrusu Farabinin yaşadığı dövrdə şəhərlər birgə yaşayışın ən inkişaf etmiş forması idi və ayrı-ayrı mərkəzi şəhərlər onu əhatə edən, əyalət, nahiyə, qəsəbə, kənd, köçəbə, yurd və sairənin istər ictimai-siyasi həyatında və istərsə də iqtisadi-təsərrüfat həyatında başcıl yer tutur, şəhər təsərrüfatı başqa təsərrüfat növlərini öz ətrafında toplayır, onlara güclü nüfuz edirdi. Bütün bunlar müxtəlif yollarla, xüsusən geniş ticarət bağları ilə mərkəzi bazarlara bağlanırdı. Farabi bunları filosof-sosioloq gözü ilə araşdırmış və həmin ictimai-şəhər tiplərini ümumiləşdirmişdir. Müəllif burada müxtəlif ictimai birliklərdən danışaraq, onların ən yetgininin, daha doğrusu ideal olanını əsas götürüb, qalanlar haqqında bu birinci ilə tutuşdururaraq danışır. Elə ona görə də əsərini "fazil şəhər" adlandırır ki, bu da müəllifin qarşıda hansı məqsəd qoyduğunu açıq göstərir. Əsərdəki məsələləri düzgün başa düşmək üçün və dilimizin xüsusiyyətlərini göz önünə almaqla bu əsərin "Yetkin toplum" kimi adlanmasını

daha doğru saymalıyıq. Toplum dedikdə ümumiyyətlə insanların toplanmış birlikləri düşünülməlidir.

Farabi yazır ki, müxtəlif insanların bir yerə yığılmalarından cəmiyyət yaranır ki, bunlar da ya bütöv, ya da yarımçıq olurlar. Bütöv cəmiyyətlər üç görkəmdə olur: böyük toplum, orta toplum və kiçik toplum. Böyük toplum bütün yer üzərindəki insanlardan, bugünkü anlayışımızla bəşəriyyətdən ibarətdir. Orta toplum ayrı-ayrı millətlərdir. Bir xalqın yaşadığı ərazidə olan şəhərlər onun kiçik toplumlarıdır. Farabi bu üçüncü toplumları əsas götürüb, onlardan danışır.

Bütöv toplumlarla yanaşı, yarımçıq toplumlar da vardır ki, bunlar da kənd, məhəllə, küçə və evə görə toplum sayılırlar. Farabi göstərir ki, ev küçəyə, küçə məhəlləyə, məhəllə kəndə, kənd də şəhərə bağlanaraq bir-birindən düzüm halında asılıdırlar. Bu o deməkdir ki, yarımçıq toplumlar bütöv toplumlara bağlıdırlar.

Farabi yetkin toplum haqqında belə yazır ki, şəhər əhalisi yalnız səadətə çatmaq üçün bir-birinə yardım edirsə, bu yetkin toplumdur. Bütün şəhərləri əl-ələ verib hamılıqla səadətə çalışan bir millət də yetkin millətdir. Bütün millətləri səadətə qovuşmaq üçün iş birliyi yaradan, birgə çalışan bəşəriyyət də yetkin bəşəriyyətdir.

Farabi yetkin topluma (şəhərə) qarşı başqa toplumları qoyur, onların yarıtmaz olduğunu göstərir və bu üsulla da o, oxucu üçün mücərrəd olan yetkin toplum haqqında aydın təsəvvür yaradır. Bu cür toplumları o, dörd yerə bölür: 1) Avam (cahil) toplum). 2) Azğın (fasıq) toplum. 3) Dəyişkən toplum. 4) Çaşqın toplum.

Avam toplumun da bir neçə növünü göstərir və onları təsvir edir. Zəruriyyətçi toplum, dəyiş-düyüşçü toplum, alçaq toplum, şöhrətsevər toplum, ağalıqsevər toplum, kefcil toplum, birlikçi toplumlar avam toplum sayılır. Farabi şöhrətsevər və birlikçi toplumların nisbətən üstün olduğunu gö-

stərir. O, bildirir ki, əgər şöhrətsevər toplum şöhrət qazanmağa həddən artıq aludə olub, başqa toplumları hərbi yolla əzməyə çalışmırsa, yalnız öz şöhrətini başqasına zərər vermədən yüksəltmək üçün fəaliyyət göstərirsə, o, xeyirxahlığa yaxınlaşır.

Böyük filosof birlikçi toplumu bir çox baxımdan yetkin topluma yaxın sayır və göstərir ki, birlikçi toplumun əhalisi açıq fikirli olub, yetkin toplumun əhalisi kimi düşünür, xeyirxah işlər görür və görməyi gərəkli bilir. Farabiyə görə, birlikçi toplumda hər cür məfkurəli fərdlər və icmalar olur, onlar fikirlərində azaddırlar. Düşüncələri müxtəlif olsa da, işləri birgədir.

Yetkin toplumdan danışarkən, Farabi yazır ki, hər hansı yetkin millətin tutduğu yol, başqa bir millətin tutduğu yoldan fərqli, hər ikisinin məqsədi isə eyni ola bilər.

Farabi yetkin toplumun başçısında hansı məziyyətlərin olmasının vacibliyini göstərərək yazır:

Bədəni sağlam və bütün üzvləri yerli-yerində normal olmalıdır ki, üzərinə qoyulan vəzifəni asanlıqla görə bilsin.

Ona deyilən hər bir sözü yaxşı başa düşüb qavramalıdır ki, həm söyləyənin məqsədini, həm də deyilən sözün mahiyyətini olduğu kimi anlasın.

Hafizəsi güclü olmalıdır ki, başa düşdüyü, eşitdiyi, gördüyü, sezdiyi hər nə varsa yadda saxlasın və unutmasın.

Ayıq və iti düşüncəli olmalıdır ki, gördüyü ən adi bir şeyi bir anda fərqləndirib, yerindəcə həll edə bilsin.

Gözəl danışmağı bacarmalıdır ki, düşündüyünü açıq çatdıra bilsin.

Öyrətməyi və öyrənməyi sevməli, özünü buna uyğunlaşdırmalı, hər şeyi asanlıqla öyrətməyi bacarmalıdır ki, öyrətmə və öyrənmə ona yorğunluq, iztirab verməsin, vücudunu əzginləşdirməsin.

Yemək, içmək və qadın düşgünü olmamalıdır.

Düzgünlüyü və doğru danışanları sevməli, yalana və yalançılara nifrət etməlidir.

Alicənab olmalı və alicənablığı sevməlidir ki, xəcalətli vəziyyətə düşməsin, bütün varlığı ilə yüksək şeyləri axtarsın, arasın, qızıl və gümüşə, başqa dünya malına göz dikməsin.

Ədaləti və ədalət tərəfdarlarını sevməli, istibdada, zülmə və zalımlara nifrət etməlidir ki, özündən, öz qohumlarından və başqalarından haqqı tələb etsin, onları haqq yoluna çağırsın, istibdad qurbanlarının köməyinə çatsın, yaxşı bildiyi nə varsa ona yardım etsin, onu həyata keçirsin.

Mötədil xasiyyətli olmalıdır ki, onun özündən haqq-ədalət tələb edəndə acıqlanmasın, zor göstərməsin, ancaq istibdada və yamanlığa sövq ediləndə buna qəzəbi tutsun və qarşı çıxsın.

Böyük əzm və iradə sahibi olmalıdır ki, zəruri bildiyi nə varsa, onu həyata keçirmək üçün cəsarətlə hərəkət etsin, qorxaqlıq və yumşaqlıq göstərməsin" (111, 252-255).

Göründüyü kimi, əl-Farabinin "Yetkin toplum" əsəri yüksək elmi-nəzəri səviyyədə yazılmış etnoloji əsərdir. Şərqdə fəlsəfənin tərkibində etnik proses, onun psixoloji, yaradıcı, tənzimləyici və s. xüsusiyyətlərini öyrənən sosial fəlsəfənin xüsusi sahəsinin yaranıb inkişafda olduğu özünü bütün aydınlığı ilə göstərir.

Farabidən sonra bütövlükdə Dünya elmi fikrinin inkişafına təsir göstərmiş ərəbdilli İslam filosofu Orta Asiya türkü İbn-Sina (980-1037) Farabinin dünyasını dəyişməsindən 30 il sonra Buxara şəhəri yaxınlığında Atşana kəndində həyata göz açmış, Farabinin əsərləri vasitəsilə onun şagirdi olmuşdur.

Orta əsr qaynaqları göstərir ki, elmi öyrənmək üçün Farabinin "Biliklərin bölgüsü" əsəri əvəzsiz dəyərə malik olmuşdur. Onun xüsusi təhsil metodu bütün elmlər üçün bir örnək idi. İbn-Sinanın da elmdə ilk müəllimi bu kitab və Farabinin Aristotelin "Metafizika"sına yazdığı şərh olmuşdur

(111, 257). İbn-Sinanın dünyasını dəyişməsindən sonra keçən 1000 ilə yaxın müddətdə elmi mübahisələrdə bəzilərinin həkim, bəzilərinin filosof kimi qiymətləndirdiyi İbn-Sinanın qarşısında dünya tibbinin sonralar "müsəlmanların təbibi", "müsəlmanların Qaleni" adlandırdığı Zəkəriyyə Razinin (864-924) tibbə dair əsərləri və Farabinin "Nəzəri və təcrübi tibb" əsəri var idi. İbn-Sina artıq 18 yaşında bu elmi zirvələri mənimsəmişdi (111, 258). İbn-Sina elmi fəaliyyətə başlayarkən İslam Şərqində mövcud olan məntiqdən başlama ənənəvi yolu ilə getdi. Çoxsaylı məntiq əsərlərini öyrənməyə çalışıb, hətta əzbərləsə də dərk etmədiyi üçün bu yoldan uzaqlaşmaq fikirinə düşərkən, təsadüfən Farabinin Aristotel "Metafizika"sına yazdığı şərhi oxuyarkən məntiqi dərk etdikdən sonra elmi fəaliyyətinə dönməzlik verdi (111, 257). İbn-Sina məntiqi bütün elmlərin "açarı", "ölçüsü", "tərəzisi" sayır, onu biliklərin bölgüsünə salmayaraq, ilk öncə ondan danışır, onu öyrənir, sonra o birilərinə keçir. Böyük alim bildirdi ki, insan bu elmləri öyrənəndən sonra dünyanı dərk etmək onun üzünə açılır (111, 270).

Beləliklə, İbn-Sina fəlsəfənin ona qədər olan bütün sahələrində orijinal fikirlər irəli sürür. Yaradıcılığında əxlaqi məsələlər xüsusi yer tutur. "Onun fikrincə, Allah insanlara xeyir və şəri seçməkdə iradə azadlığı verir və xeyiri seçənlərə kömək edir... iman əqli tamamlayır, o, əqlin kəmalidir" (9, 76).

İbn-Sina 150-dən artıq əsərin müəllifidir ki, bunlardan bəzilərinin ümumi həcmi 20 cilddən artıqdır. "Əs-şəfa" və "Nicat" əsərləri ona böyük şöhrət qazandırmışdır. "İbn-Sinanın tibb əsərlərini fəlsəfə və məntiq əsərləri hər yerdə müşayiət etmiş, bu dahi sanki insanları fiziki müalicə etdikdən sonra, mənəvi müalicə etməyi də qarşısına məqsəd qoymuşdu. Heç də təsadüfi deyil ki, o, ən böyük fəlsəfə əsərini "Şəfa" adlandırmışdır. Bu da insanlara mənəvi, əqli, ruhi şəfa verməyi ön plana çəkmək idi" (111, 285). İbn-Sina

insanın fiziki varlığını ruhi varlığı ilə vəhdətdə götürür, hətta fiziki və ruhi xəstəliyə vəhdətdə yanaşırdı. Ağlın, ruhun bəzi keyfiyyətlərinin anadagəlmə olduğunu yazsa da, ağlın azad, sərbəst yaradıcılıq qabiliyyətini yüksək qiymətləndirirdi. Fərddə və istərsə də toplumda bu xüsusiyyətlərin eyni qanunauyğunluğa malik olması qənaətində idi. Iradə azadlığı sayəsində fərdin və toplumun inkişafında ruhi-mənəvi dəyərlərin, idari qabiliyyətin, onun sistemliliyinin başlıca, aparıcı mövqeyə malik olması qənaətindədir.

Yuxarıda bəhs etdiyimiz elmi-tarixi ədəbiyyatlardan göründüyü kimi Şərqdə, o cümlədən Azərbaycanda fəlsəfə elm kimi formalaşandan (Avesta) xalq təbabəti onun predmetində xüsusi yer tutmuşdur. İbn-Sinanın yaradıcılığında özünün yüksək zirvəsinə çatmaqla Avropa və Dünyada orta əsrlərdə, yeni və ən yeni dövrlərdə tibb elminin əsası olmuşdur.

İbn-Sinanın sırf elmi üslub və metodla yazdığı tibbi əsərləri ilə bərabər "Urcüzə" poeması da vardır. Bu xüsusi bir poema idi. İbn-Sinanın özü ön sözdə belə yazmışdı: "Poema sadə şərhlərlə, aydın şerlərlə elə yazılmışdır ki, onu oxumaq çətin olmasın". Həmin poemaya əsasən hətta məktəbli də təbabəti öyrənə bilərdi.

Çox çəkmədən "Urcüzə" latın dilinə tərcümə olundu. Sonra o, bir neçə ölkələrdə də çap edildi. Poemanı 600 il müxtəlif tibb məktəblərində öyrənmişlər (113, 153-154). "Bu poema bütün nəzəri və praktiki təbabəti özündə əks etdirir. Və mən həmin poemada bu elm sahəsindəki bütün biliklərimi şerlə izah edirəm" (113, 156).

İbn-Sinanın tədqiqatçısı V. Voskoboynikovun bir neçə fikrini diqqətə çatdırmağa lüzum görürük. O, yazır: "İbn-Sina bilmirdi ki, onun "Qanun"u çox çəkmədən dünyanın bütün ölkələrində tibbin ensiklopediyasına çevriləcəkdir. Avropada həkimlər həmin ensiklopediyaya əsasən hazırlanacaqdır. Eləcə də qədim Rusiyada buraxılmış müalicə

kurslarında müntəzəm olaraq onun adı – "Avitsen" xatırladılır və reseptləri verilir".

"İbn-Sina bilmirdi ki, daha səkkiz yüz il keçəcək və yalnız onda Paster, viruslar – xəstəliklərin gözlə görünməyən, həm də təkcə suda deyil, havada da yaşayan törədiciləri haqqında onun hipotizini təsdiq edəcəkdir".

"İbn-Sina dünyada birinci olaraq göz əzələlərinin quruluşunu təsvir etmişdir. İbn-Sinayadək çoxları, hətta dahi alimlərin özləri də elə hesab edirdilər ki, göz fənər kimi şüalar buraxır. Bu xüsusi şüalar predmetindən əks olunaraq geri qayıdır və şəkil verir" (113, 153-154).

Şərqdə yaranışdan fəlsəfənin predmetinə daxil olan xalq təbabəti XVIII əsrin sonu XIX əsrdə Avropada yaranan etnologiya (etnoqrafiya) elminin də predmetinə daxil oldu. Lakin xalq təbabətinin tədqiqi öz uca zirvəsinə İbn-Sinanın yaradıcılığında çatmışdı. Bu zirvəyə nəinki Avropa, hətta bütün Dünyada ikincici dəfə yaxınlaşa bilmədilər.

İbn-Sina Şərqin cahil "din" adamlarının, qaçaraq alimlərin, xudpəsənd hakimiyyət nümayəndələrinin təzyiqindən, təqibindən uzaqlaşıb Şərqin bir neçə mədəniyyət mərkəzlərində yaşayıb-yaratmışdır. Həyatının son və ən məhsuldar illərini Azərbaycanda – Qəzvin və Həmədan şəhərində yaşayarkən bəzi əsərlərini şagirdi və yaradıcı davamçısı Bəhmənyarın suallarına cavab olaraq yazmışdır (111, 270; 113, 147; 114, 41-45, 56-62).

Fəlsəfə elmləri doktoru, MEA-nın müxbir üzvü Z.Məmmədovun şərhinə görə, İbn-Sinanın şagirdi Əbu-Reyhan Biruninin (973-1043) zəngin fəlsəfi yaradıcılığı daxilində tarix və etnoqrafiya xüsusi yer tuturdu. Onun "Keçmiş əsrlərdən qalan izlər" kitabı Yaxın və Orta Şərq xalqlarının müqayisəli təsvirindən bəhs edir, ayrı-ayrı xalqların məişəti, adət-ənənəsindən dəyərli məlumatlar verir (114, 37).

XI əsrdə İbn-Sinanın hələ tələbəsi olduğu günlərdə haq-

qında "onun axırı gəlib mənim yerimdə olmasına bir şey qalmayıb" (114, 62) yazdığı sevimli şagirdi Ə. Bəhmənyar (993-1066) Fərabi və İbn-Sina məktəbinin sadə davamçısı deyildi, onların elmi-fəlsəfi sistemini yaradıcılıqla yeni fakt və arqumentlərlə, yeni məzmun və formada zənginləşdirir və inkişaf etdirirdi. Varlığı zəruri və mümkün olan varlıq kimi iki növə ayırır, müstəqil izahını verir, substansiyadan ətraflı bəhs edirdi. İdrak nəzəriyyəsi Bəhmənyar fəlsəfəsində xüsusi yer tutur, Fərabi – İbn-Sina sistemi yaradıcılıqla inkişaf etdirilir və yüksək səviyyədə həll olunurdu. Fəlsəfənin kəmiyyət və keyfiyyət dəyişmələri qanunu incəliyinə qədər açılırdı ki, bu da bütövlükdə materiyanın maddi, mənəvi və sosial formalarının dərki üçün xüsusi əhəmiyyət kəsb edirdi.

Bəhmənyar yaradıcılığında idrak nəzəriyyəsində sosial-mənəvi varlığın məzmun və formalarının dərk edilməsi yüksək səviyyədə həll olunurdu ki, bu da etnoloji nəzəriyyənin inkişafı üçün geniş zəmin hazırlayırdı (114).

Azərbaycanın Şərqdə mifoloji və empirik biliklərin elmə və fəlsəfəyə çevrildiyi ilk ocaqlardan olmasının, elmin ardıcıl inkişafının, Fərabi və İbn-Sina təliminin dərindən mənimsənilməsinin nəticəsi idi ki, XIII əsrdə bütün Yaxın və Orta Şərqdə məntiq elmi sahəsində Azərbaycan türk alimləri birinci yerdə dururdu (111, 64-65). Bunların nəticəsi idi ki, Azərbaycan bütün Yaxın Şərqdə elm və mədəniyyət mərkəzinə çevrilmişdi**. Marağa Akademiyasının yaranması yalnız Azərbaycan elmində deyil, orta əsrlər tarixində, dünya elmində bir zirvə idi. Ərəb tarixçisi İbn-Xəldunun sözləri ilə desək, Marağa "elmin Mərkəzi" olmuşdur.**

Nəsirəddin Tusinin başçılıq etdiyi bu Akademiya dünya elminin gələcək inkişafına böyük təsir göstərmişdi (111, 69-70). XIII əsr Yaxın və Orta Şərq fəlsəfəsinin ən böyük nümayəndələrindən biri, ensiklopedist Nəsirəddin Tusi (1201-1274) fəlsəfənin bütün sahələrinə münasibət bildirmiş,

yeni elmi və fəlsəfi münasibətlər irəli sürmüşdü. Dünya elmi və fəlsəfi fikir tarixində özünəməxsus yer tutan alimin, elmi mülahizələri gələcək nəsillər tərəfindən zaman-zaman fəhm edilmiş, mənimsənilmiş və praktikaya tətbiq edilmişdi.

N.Tusi elm və fəlsəfə tarixində bir sıra kəşflərin və yeniliklərin müəllifi olmaqla bərabər etnologiyanı müstəqil elm kimi formalaşdıran bəşəri dahidir. İstedadlı alimimiz Baloğlan Şərifzadənin, sonralar Əhməd Qəşəmoğlunun antik yunan filosoflarından başlamış intibah və yeni dövr Avropa filosof və alimlərini Şərqi insafsızcasına plagiatda tənqidi bir qədər radikal görünür, lakin fakt faktdır (101, 76; 161, 35). **XVI-XVII əsr Avropa alim və filosoflarının adını çəkmədən elmi kəşflərini, əsərini köçürüb adlarına çıxdıqları dahilərimizdən biri N.Tusidir. N.Tusi fəlsəfədə hissə, bütöv haqqında mövcud olan mülahizələri elmi müddəaya çevirib sistem nəzəriyyəsini yaratdı. Yaratdığı sistem nəzəriyyəsi ilə insan toplumunu araşdırmaqla onun yaranma səbəblərini aşkar etdi. Toplumu "icma", onu yaradan, yaşadan səbəblərdən bəhs edən elmi isə "ictimaiyyət elmi" adlandırdı** (103, 174-178).

N.Tusinin "Əxlaqi-Nasiri" əsəri üç hissədən ibarətdir. Əsərin üçüncü hissəsini "Ölkə (şəhərləri) idarəetmə qaydaları" adlandırır. Və bu hissənin başlanğıcında bu sahədə yeni bir elm yaratdığını bildirərək yazır ki, "ictimaiyyət hikməti haman bu məqalənin mövzusunu təşkil edən bir elmdir. Bu elm hamının xeyrinə olan birgə əməyin həqiqi və ümumi inkişaf qanunları nəzəriyyəsidir. Bu elmin mövzusu obyekti ictimai əməklə birləşən və beləliklə, istehsalın ən kamil təşkil edən insanlar münasibəti sistemidir" (103, 177). Sözünə davam edən N.Tusi yazır: "Ünsiyyət və əlaqə yalnız o zaman baş tutar ki, nəyin nizama aparıb çıxardığını, nəyin pozğunluğa səbəb olacağını, hər kəslə tək-tək necə davranmaq lazım olduğunu öyrədən elmi yaxşı biləsən, bu, ictimaiyyat elmidir. Deməli, hamı bu elmi öyrənməyə səy etməlidir ki,

fəzilət sahibi olmağı bacarsın: əks halda rəftar, müaşirət və davranışda səhvə yol verər, dünyada qanunsuzluqlara səbəb olar, öz mərtəbə və dərəcəsinə çatmaz" (103, 177-178).

N.Tusi yaratdığı bu elmin bəşər həyatında rolunu gələcək nəsillərə aydınlıqla çatdırmaq üçün onu tibb elmi ilə müqayisə edərək yazır: "Tibb elmi sahibi öz sənətində mahir olduqda, insan sağlamlığını mühafizə edib xəstəlikləri aradan qaldırmağı bacardığı kimi, bu elm sahibi də öz sənətində mahir olduqda həqiqi ədalət və müvazinət adlanan dünya vəziyyətinin sağlamlığını mühafizə edib ictimai xəstəlikləri aradan qaldırmağa qadir olar; o, əsl mənada dünya təbibi sayılar. Bu elm dünyaya xoşbəxtlik şüası saçar, insan qüdrəti daxilində şərin qarşısını alar. Dediyimiz kimi, bu elmin mövzusu insan cəmiyyətində olan münasibətlər sistemidir, insan cəmiyyətində isə, istər ümumi, istərsə xüsusi ictimai münasibətlər müxtəlif olur" (103, 178).

N.Tusi yaratdığı "ictimaiyyat elmi"nin – "insan cəmiyyətində olan münasibətlər sistemi" elminin anlayışlarında müəyyənləşdirir. Bu elmin anlayışlar sistemində adət aparıcı yer tutur. İnsanın məişətində, mənəviyyatında, tərbiyə olunmasında, istehsalda və idarəçilikdə mədəniyyətinin özülünü qoruyub saxlamasında, inkişafı, yeniləşməsi, tənəzzülü və məhv olmasında adət-ənənənin hakim mövqeyinin incəliyinə qədər praktiki və nəzəri cəhətdən izah edir, açır. Beləliklə, N.Tusi Şərq fəlsəfəsində sosial fəlsəfə tərkibində toplumun adət-ənənəsi, inam və etiqadı, davranış stereotipi, əxlaqı, psixologiyası, ruhu, elmi və onun funksiyası, irsiyyəti, mənəvi-mədəni sistemini ümumiləşdirərək, ictimaiyyat elmini, müasir anlayışla etnologiya elmini tam formalaşdırdı. XVII-XIX əsrlərdə Avropa elminin etnos haqqında elmi-nəzəri, praktiki fikirlərinin əsasında yaranan etnologiya elminin bütün prinsipləri Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" əsərində hələ XIII əsrdə əsaslandırılmışdır. XII-XIII

yüzillər Azərbaycan elmində tarixi bir yüksəliş dövrüdür. Bu dövrdə Azərbaycan elmi özünü sırf elmi qaynaqlarda təcəssüm etdirmişdir (111, 69).

Azərbaycan mədəniyyət və elminin orta əsr tarixinə baxsaq, onun ən yüksək mərhələsi XII-XV yüzillərə təsadüf edir. Bu dövrdə Marağa Akademiyası (kitabxanasında 400 min cild əlyazma kitabı toplanmışdı), Təbrizdə "Şəfa evi" adlı elmi mərkəz bütün dünyada ən yüksək elm ocaqları idi. Dünyanın ədəbiyyat, elm, musiqi, korifeylərindən olan Nizami Gəncəvi, Xaqani Şirvani, Nəsirəddin Tusi, Səfiəddin Urməvi, Əbdülqadir Maraği, Mahmud Şəbüstəri, Yəhya Sührəvərdi, Mirali Təbrizi, İmaməddin Nəsimi, Şeyx Səfiəddin, Şeyx Seyid Yəhya Bakıvi və başqaları yalnız Azərbaycan mədəniyyətini deyil, dünya mədəniyyətinin ölməz incilərini yaratmış, onun sonrakı inkişafına yüz illər boyu təsir göstərmişdir (111, 61-71).

Orta əsrlərdə ərəbdilli fəlsəfə təkcə Yaxın Şərq ölkələri ilə məhdudlaşmayıb, qərbdə Əndəlüsə (İspaniya) qədər yayılmışdı. Bu münasibətdə İbn-Rüşdün (Averroesin) (1126-1193) fəlsəfi görüşləri diqqəti cəlb edir. O, Əlcəzairdə və Kordovada yaşamışdır. Onun yaradıcılığı Şərq-Qərb fəlsəfəsi arasında körpü rolunu oynamışdır (9, 76-77). **XII yüzillikdən etibarən Şərq elmi və mədəniyyəti, çox çətinliklə də olsa, Avropaya yol açmağa başlayır. XIV-XVI əsrlərdə daha geniş ölçüdə yayılır. Bu dövrlərdə Bolon, Paris, Oksford, Kembric, Praqa, Vyana, Leypsiq, Bazel və b. şəhərlərdə universitetlər açılması onlarda dini, humanitar, fəlsəfə və təbiyyat elmlərinin tədrisi Şərqdə yaranmış elmlərin Avropaya keçməsinə böyük tərpəniş verir. Bu universitetlərin çoxunda Neyrizi, İbn-Heysəm və Nəsirəddin Tusinin əsərləri əsasında fəlsəfə, riyaziyyat, həndəsə, triqonometriya və optikadan mühazirələr oxunur, yeni-yeni əsərlər yaranmağa başlayır.**

Bu əsərlərin təsirindən Avropada bütöv bir alimlər nəsli

yaranır. Bekon, Vitelo, Hersonid, Alfonso, Orisoqono, Kommandino, Kataledi, Bradvardin, Peyerbax, Regiomontan və başqa yüzlərlə alim Şərq elmini dərindən mənimsəmiş, bəziləri hətta ərəb dilini öyrənib, mənbələrdən birbaşa istifadə etmişdir. **XVII yüzildə, xüsusən İngiltərədəki burjua inqilablarından sonra bütün Avropada böyük fikir dirçəlişi, həyatın bütün sahələrində olduğu kimi, elmdə özünü daha qabarıq göstərir: Alfonso, Borelli, Vitale, Cordono, Con Vallis, Cirolamo Sakkeri kimi məşhur alimlər Nəsirəddin Tusinin birbaşa təsiri altında fikirlər söyləyirdilər** (111, 57).

Sovet rus tarixçisi S. Smirnov yazır ki, XV yüzildə Asiya və Avropada yeni ictimai qüvvələrin təsir və təzyiqindən həyat coşub qaynayırdı. Hər yerdən qaynar olan və Avropa ilə qovuşuqda dayanan Türkiyədə isə "Osmanlı möcüzəsi" çiçəkləyirdi. Qərb "Osmanlı nizamından" özünə lazım olandan nəyi götürəcəyini böyük bir fəallıqla öyrənirdi. Başqa bir yandan da əsasən Şərq dini, ictimai-fəlsəfi, ədəbi-bədii fikri, hərbi-siyasi ruhu, Avropaya daxil olmuş, bunun təsirindən XV-XVI yüzillərdə Avropada bütün cəmiyyəti köküdən çalxalayan bir qüvvə yaranmışdır. Bir yandan Şərq Avropaya girib özünü tanıtdırır, digər tərəfdən Şərqin təsir və təzyiqindən çalxalanıb oyanan Avropa Şərqi ya həvəslə, ya da məcburiyyətdə qalaraq öyrənirdi. Avropada Şərqin əsas "təmsilçisi" Osmanlı imperiyası Avropadan elə bir şey öyrənmir (öyrənməli bir şey yox idi), ara-sıra Venetsiya, Florensiya, ümumiyyətlə, İtaliya və Macar sənətkarlarından muzdla istifadə edir, türk sultan, vəzir və əmirləri avropalı rəssam, zərgər, sənətkar, arada hətta şair və alimləri öz saraylarında himayə altına alırdılar. Osmanlı nizam-intizamı, qayda-qanunu, **"orta əsr adamının anlayışı ilə o vaxtadək görünməmiş sərbəstlik avropalıları heyrətə gətirir, hətta Avropa xristianları "Osmanlı imperiyasında yaşayan dindaşlarına həsəd aparırdı"** (111, 151-152).

Azərbaycan türkü, Şərq və İslam dünyası milli-azadlıq hərəkatının lideri, bəşəriyyətin ən böyük mütəfəkkirlərindən biri Ş.C.Əfqani Avropa mərkəzçilik nəzəriyyəsinin banilərindən biri, fransız filosofu Renanla Paris klublarının birində apardığı diskussiya zamanı onu və tərəfdarlarını razılaşmağa, etirafa məcbur etdiyi həqiqət belədir: "...fransızlar, almanlar və ingilislər mərkəzi Bağdad olan ərəblər kimi Roma və Bizansdan çox uzaqda deyildilər. Onlar üçün bu iki böyük şəhərdə yaranmış olan elmi xəzinələrdən faydalanmaq daha asan idi. Ərəb mədəniyyəti (müsəlman İslam mədəniyyəti – X.X.) Priney təpələrinə və Qərbə öz parlaq işıqlarını və zənginliklərini saçan günə qədər Avropa millətləri (yəni fransızlar, almanlar və ingilislər "çevrənin notu") mədəniyyət sahəsində heç bir fəaliyyət göstərməmişdilər.

Avropalılar Aristoteli ərəb paltarında çox yaxşı qarşıladılar. Halbuki onlar yunanlarla qonşu olduqları zaman heç Aristotel yadlarına da düşmürdü" (115, 51-52).

Dünya xalqlarının təfəkkür tarixi, elmi idrakın və ideyaların tarixi birmənalı göstərir və təsdiq edir ki, müasir Avropa elmi və fəlsəfi sistemi VIII-XVII əsrlər Şərq İslam rasionalizmi əsasında təşəkkül tapmışdır.

Avropa Şərq İslam fəlsəfəsini mənimsəməsini başa çatdıran kimi, yəni XVII əsrin sonu – XVIII əsrdə sosial fəlsəfə tərkibindəki etnosun adət-ənnənəsi, əxlaqi-davranış stereotipi, etnik psixologiyası və s., yəni etnosun özünün özünü yaradan mənəvi dəyərlər sistemini xüsusi tədqiqat obyektinə çevirdilər, ilk öncə müxtəlif adlar versələr də, son nəticədə etnologiya adlandırdılar.

Avropa elmlərə ona görə bu qədər tez, praktiki əhəmiyyət verirdi ki, Osmanlı və Rus imperiyası onun dünyaya çıxış yolunu kəsmişdi. O, ancaq dünyaya naməlum okeanlardan keçməklə yol aça bilərdi. Bu da ancaq elmin sayəsində mümkün idi. Avropa ilk öncə Nəsirəddin Tusi və b. Şərq

alimlərinin riyaziyyat və astronomiyasını mənimsəyib gəmiçiliyini təkmilləşdirməklə dünya okeanlarından keçməklə yeni xalqlarla əlaqə və münasibətlər qurmağa başladı. Lakin ingilis, fransız, ispan, portuqal işğalçıları üzləşdikləri xalqlarla ünsiyyət qura bilmirdilər. Avropa işğalçıları bu sualın da cavabını İslam Şərq fəlsəfəsinin toplumların özünəməxsusluqlarından bəhs edən sahəsindən tapdılar. Şərqdə sosial fəlsəfənin toplumun xarakter xüsusiyyətlərindən bəhs edən bölməsini Avropada praktiki istifadə prosesində etnologiya (xalq haqqında elm) adlandırdılar. **Avropa kapitalistləri, hərbi-sənaye kompleksləri işğalı planlaşdırılan, hakimiyyət altına salınan xalqların idarə olunması, əsarət altında saxlanması, assimilyasiya edilib məhv edilməsi, simasızlaşdırılması üçün onların adət-ənənəsinin, davranış stereotiplənini, inam və etiqadlarının öyrənilməsi üçün xüsusi kapital ayırır, bu işin öyrənilməsinə gənc, istedadlı alimləri cəlb edirdi. Beləliklə, Şərqdə toplumun humanistcəsinə alim marağından öyrənmək nəticəsində yaranan sosial fəlsəfənin bir sahəsi Avropa imperializminin müstəmləkəçilik, işğalçılıq prosesində əsarət aləti etnologiya adlanan müstəqil sahəsi yaradıldı.**

Hörmətli oxucu, indi isə Azərbaycanda etnoqrafiya elminin 1920-ci il 27 aprel inqilabından sonra yarandığını iddia edən muzdur-proletar "alimi" ilə XIII əsr Azərbaycan və Şərq İslam mütəfəkkiri Nəsirəddin Tusinin etnologiyanın baş hərfi, əlifbası olan adətə verdiyi tərifi sizə təqdim edirəm:"Adət ona deyilir ki, əvvəlcə düşünülmüş, ixtiyari bir iş görülsün, uzun təcrübələr, çoxlu təkrarlar nəticəsində vərdişə keçsin, tam vərdiş əldə edildikdən sonra iradənin iştirakı olmadan qeyri-ixtiyari icra edilsin və xasiyyətə çevrilsin" (103, 77).

Azərbaycanda Sovet etnoqrafiya elminin yaradıcılarından olan və Azərbaycanda etnoqrafiya elminin "1920-ci il 27 aprel inqilabından" sonra yarandığını iddia edən Həsən

Quliyevin adətə verdiyi tərifi müqayisə üçün oxuculara təqdim edirik (əgər tərif demək mümkünsə): "Adət müəyyən mərasimləri və qaydaları icra etmək üsulu kimi başa düşülür. "Adət etmək" məfhumu altında isə bir şeyi çox təkrar edərək, ona alışmaq, vərdiş etmək, öyrəşmək nəzərdə tutulur, məsələn: "Çox danışmağı adət etmisən ha!" Adət hamı tərəfindən qəbul edilmiş ümumi birgəyaşayış qaydalarının, insan davranışının, hərəkətlərinin, qarşılıqlı münasibətlərinin təzahür forması olub, sabitləşmiş ənənəvi qaydalara əsaslanır" (117, 12).

Hörmətli oxucu, tərifi və burada işlədilən etnologiya (etnoqrafiya) terminlərini şərh etməyi öz ixtiyarınıza buraxıram. Bunların obyektiv izahı XX əsrdə Azərbaycan Sovet etnologiyasının mahiyyətini anlamağa imkan yaradacaq. Azərbaycanda "1920-ci il 27 Aprel inqilabına qədər, alim məfhumu – elm, mərifət və əməl – üç məfhumu birlikdə özündə ehtiva edirdi. Odur ki, bu haqda Nəsirəddin Tusinin tərifləri Sizə təqdim etməyə ehtiyac görürəm. Nəsirəddin Tusi yazır: "Mərifət sahibləri arasında hər şeyi olduğu kimi yerinə yetirməyə dərk, hər işi lazımi kimi yerinə yetirməyə hikmət deyilir; bunun nəticəsində insanın mənəviyyatı mümkün qədər təkmilləşməli, arzu edilən səviyyəyə yüksəlməlidir. Belə olduqda hikmət iki yerə bölünməlidir: biri – elm, - o biri - əməl (iş).

Elm – varlıqların həqiqətən necə olduqlarını düzgün təsəvvür etmək, insanın yaradıcı ağılı (nəfse-əmr) və sağlam düşüncəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir.

Əməl – gizli qüvvələri ortaya çıxarmaq, müxtəlif sənət və peşələrdən fayda götürmək, müxtəlif iş vərdişləri əldə etmək üçün göstərilən fəaliyyətə deyilir, bu şərtlə ki, o, bəşəriyyətin qüdrətinin artmasına, onun təkmilləşməsinə səbəb olsun" (103, 35).

Yuxarıda gördüyümüz kimi bu sifətlər və məzmun təktək fərdlər istisna olmaq sovet tarixçilərində və tarixşünaslığında olmamış, hər şey əksinə başa düşülməyə istiqamətləndirilmişdi.

"XVII yüzillikdə, xüsusən İngiltərədəki burjua inqilabından sonra bütün Avropada böyük fikir dirçəlişi, həyatın bütün sahələrində olduğu kimi, elmdə də özünü daha qabarıq göstərirdi. Alfonso, Borelli, Vitale Cordano, Con Vallis, Cirolamo Sakkeri kimi məşhur alimlər Nəsirəddin Tusinin elmi ideyalarının birbaşa təsiri altında paralel xətlər nəzəriyyəsinə aid yeni fikirlər söyləyirdilər (111, 57).

Nəsirəddin Tusinin riyaziyyat və astronomiya sahəsində kəşfləri kapitalist inkişafı yoluna düşmüş Avropada dərhal istehsalatda və hərbdə, xüsusən donanmada istifadə və tətbiq olundu. Onun tarix-etnologiya sahəsində elmi-nəzəri müddəalarından da istifadə olunmağa başlandı. Təəssüf ki, bu prosesi dünya tarixşünaslığı səviyyəsində izləmək imkanımız xaricindədir. Odur ki, məsələnin bu tərəfini tarix elminə milli qürur və elmi-nəzəri təfəkkürlə gələcək tarixçilərimizin ixtiyarına buraxır, yalnız Azərbaycan hadisəsini diqqət mərkəzinə çəkməklə kifayətlənməli oluruq.

Nəsirəddin Tusi "Əxlaqi-Nasiri" əsərində dünyada ilk dəfə adət-ənənəyə, inam və etiqada, dinə, etnik psixologiyaya, etnik tərbiyəyə, irsiyyətə, intellektual səviyyəyə, fərdə və kollektivlərarası ünsiyyətə, etnosun özünün yaratdığı mənəvi, ideoloji, siyasi və b. təsisatlara vahid sistem halında yanaşmış, etnosu yaradan, inkişaf etdirib yaşadan mənəvi dəyərləri sistemi kimi qiymətləndirmişdir. Nəsirəddin Tusinin toplumu yaradan və yaşadan səbəblər kimi kəşf etdiyi bu sistem bu gün də etnologiyanın predmetini əhatə etməkdədir. Nəsirəddin Tusidən sonra etnologiyanın tədqiqat metodunda yeniliklər yaransa da, predmetində əsaslı dəyişiklik baş verməmişdir.

Nəsirəddin Tusinin etnologiya sahəsində elmə gətirdiyi bu nəzəriyyəni ilk dəfə onunla birlikdə Marağa Akademiyasında, Hülakülər sarayında çalışan Fəzlullah Rəşidəddin (1247-1318) tarix elmində tətbiq etdi. F. Rəşidəddin əfsanə, rəvayət, nağıl, tarixi mənbələr əsasında yazdığı "Oğuznamə" (120) əsərini N.Tusinin nəzəriyyəsi əsasında oğuzların tarixini sadəcə olaraq sosial-siyasi hadisələr toplusu kimi deyil, etnososial proses kimi şərh və izah etdi. Xalqın tarixinin etnososial proses kimi yazılması üsulu tarix elminin ən böyük uğuru idi. Tarix elmində bundan böyük kəşf yoxdur.

Təəssüf ki, F.Rəşidəddinin təfəkküründə mistika ilə elmi-fəlsəfi təfəkkür çulğaşıq idi və bu özünü onun oğuzların etnososial inkişaf prosesinin təsviri və şərhində də bu özünü göstərirdi. Etnososial prosesin hər hansı məzmun və forma-da şərhindən asılı olmayaraq, etnosun təşəkkületmə, etnososial proses kimi şərh olunması tarix elminin ən böyük uğurlu kəşfi idi. F. Rəşidəddinin "Oğuznaməsi"ndən sonra Azərbaycan tarixşünaslığında milli tarixin etnososial proses kimi izlənməsində ən uğurlu əsər Azərbaycan hökmdarı Uzun Həsənin sarayında fəaliyyət göstərmiş Əbubəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" əsəridir (121). Hər iki əsəri farscadan Azərbaycan türkcəsinə çevirib, yazdığı ətraflı ön sözlə birlikdə nəşr edən vətənpərvər və istedadlı tarixçi xanım Rahilə Şükürovadır. O, Azərbaycan tarixşünaslığında baş verən bu yeniliyi birinci əsərdə tutmasa da, ikinci əsərdə sezmişdir (121, 15-31).

Nəsirəddin Tusinin cəmiyyəti təşkil edən təbii sistemi açması, onun dərk edilməsinin ümumi prinsipləri, xüsusi riyazi, astronomik, etnoloji elmi yaratması elmdə bir inqilab idi. Bunun elmdə və həyatda Nəsirəddin Tusi inqilabı adlandırılması düzgün olardı.

Nəsirəddin Tusinin ölümündən 5 il sonra (1275-76) Zəkəriyyə əl-Qəzvininin (1203-1283) tərtib etdiyi "Ölkələr, abidə-

lər və Allah bəndələri haqqında xəbərlər" əsəri dünyanın ilk coğrafi ensiklopediyalarından biri hesab olunur. Adından göründüyü kimi, əsəri coğrafi əsər adlandırmaq düz deyil, etnoloji əsərdir.

XIV əsrin sonu XV əsrin əvvəllərində əslən Bakılı olub, Misirdə yaşayıb-yaratmış, orada dünyasını dəyişmiş Əbdürrəşid əl-Bakuvinin "Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri" (B., 1992) əsəri Azərbaycan və İslam Şərq dünyasında, Avropada etnologiya elminin inkişafında mühüm yer tutur. Ə.Bakuvinin əsərində Yerin kürə şəklində olması inandırıcı surətdə sübut olunur. Həm də bu sübut X. Kolumbun, F.Magellanın və Vasko de-Qamanın Yerin kürə şəklində olmasını təcrübi şəkildə isbata yetirilən səyahətlərdən əvvəl olmuşdu. Yer kürəsinin 7 iqlim qurşağına bölünməsini əsaslandırmışdır (adətən yunan coğrafiya məktəbində Yer kürəsi 20, ərəb İslam coğrafiya məktəbində 7 iqlimə bölünür) (123, 8). Ə.Bakuvi Yer kürəsinin 7 iqlim qurşağının hər birinin coğrafi koordinatlarını göstərir, hər bir iqlim qurşağındakı əyalətlərin, yaşayış məntəqələrinin iqlimini, relyefini, yerüstü və yeraltı sərvətlərini, xalqlarını, onların məişətini, adət-ənənəsini, xasiyyətini təsvir edir.

Z.Qəzvinidən fərqli olaraq, Ə.Bakuvi Azərbaycana onun mədəniyyət mərkəzi şəhərlərinə geniş yer verir. O, insanın, cəmiyyətin mövcudluğunun həmişə təbiətlə vəhdətdə olmasını əsaslandıraraq yazır: "Hər bir yeri digərindən insanların məşğuliyyət növləri fərqləndirir. İnsan ona görə tək deyil ki, o, ünsiyyət etməyə məcburdur, qida və geyim şeylərinin əldə edilməsi çoxlu hazır etmə (istehsal) mərhələsindən asılı olduğundan tək adam heç vaxt bu əməliyyatı yerinə yetirə bilməz. Adamlar biri digərindən fayda əldə etməlidir, çünki sənətkarlığın inkişafı, əsasən, adamların bir-birinə ünsiyyətindən asılıdır. Ünsiyyət isə adamları bir-birinə yaxınlaşdıran, əslində insanların bir cəmiyyət halında mövcudluğunu

təmin edən əsas sosial fenomendir. Deməli, adamlar öz aralarında bir-biri üçün "psixoloji-ümid" olub, özlərinin tələbatını ödəyir, bu proses insanın bütün yaşayış sferalarını əhatə edir" (122).

Ə.Bakuvinin "Abidələrin" xülasəsi və qüdrətli hökmdarların möcüzələri" əsərinin elmi dəyəri çox yüksək qiymətləndirilərək 1789-cu ildə fransız dilinə tərcümə olunmuşdur (122, 5).

Ə.Bakuvinin "Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri" əsəri məzmunca mülki, sosial-iqtisadi tarixdən daha çox etnoloji əsərdir. Bu əsərlə Azərbaycanda tarix elmi kifayət qədər irəliləmiş, etnoloji aspekti xeyli genişlənmişdi.

Təəssüf ki, Səfəvi sülaləsinin hakimiyyəti illərində şiə ideologiyası və onun fövqündə təbliğ olunan hökmdarların fəaliyyətinin işıqlandırılması ön plana çıxdı. Azərbaycan tarixşünaslığında salnaməçi, mədhiyyəçi tarixşünaslıq elmi tarixşünaslığı üstələdi. Odur ki, sosial-siyasi tarixlə vəhdətdə etnoloji ideyaların, bu mövzuda əsərlərin yazılması da ləngidi. Etnologiya (etnoqrafiya) müstəqil inkişafını əsasən xalq təbabəti sahəsində davam etdirdi.

Etnologiyanın (etnoqrafiya) predmetinə daxil olan xalq təbabəti haqqında Azərbaycan Respublikası MEA Əlyazmalar İnstitutunda orta əsrlərin, hətta XVIII-XIX yüzilləində yazılmış onlarla əlyazma toplanmışdır. Onlar arasında Azərbaycan türk müəllifləri yetərincədir. Məhəmməd Yusif Şirvaninin 14 çap vərəqi həcmində nəşr olunmuş "Tibbnamə" (B., 1990) da var. Burada cəmlənmiş xalq təbabətinə aid kitabların əksəriyyəti XV-XVIII əsrlərdə Avropada müasir tibb elminin yaranması üçün əsas elmi baza olmuşdur. XIX əsrin sonu XX əsrin birinci yarısında dünyada sənayeyə - kimyaya söykənən tibb elminin yaranması Şərqin qədim və orta əsrlər xalq təbabətinə biganəlik yaratsa da,

dünyada baş verən ekoloji vəziyyətin təbii vasitələrlə müalicəni zərurətə çevirməsindən sonra Şərq xalqlarının tarixən yaratmış olduğu tibbi əsərlər XX əsrin ikinci yarısından başlayaraq Avropada yenidən nəşr olunmaqdadır (118, 3-16; 119).

Tərəqqi və tənəzzül, onun təbiət və cəmiyyətdə, mədəniyyətdə yerdəyişməsi varlığın əbədi qanunudur. Sosial-mənəvi varlıq olan etnos bu qanunu dəyişdirmək iqtidarında olmasa da, ona istiqamət verməklə, ondan səmərəli istifadə etməklə bəzi ziddiyyətlərdən yan keçmək, özünü müalicə etmək, ən azı ömrünü qismən uzatmaq imkanına malikdir.

E.ə. IV-III minillikdən bəşəriyyətə yaradıcılıq ruhu verən Şərq e.ə. I minilliyin ortalarında estafeti elmi ondan mənimsəyən, özünü elm acı kimi aparan yunan – roma xalqlarına verdi. Eramızın VII əsrinin əvvəllərində Şərqdə meydana gələn İslam dini cihad edib, elmi Asiyaya qaytardı. İslam dininə, ideologiyasına mənsub Kiçik və Mərkəzi Asiya xalqları elmi-mənəvi, hərbi-siyasi hegemonluğa nail oldu və bu üstünlüyü XVIII əsrin ortalarınacan qoruyub saxladı.

İslam dini meydana çıxanda qəbilə və tayfaları, xalqları birləşdirən dini-milli, elmi ideologiya kimi böyük yaradıcılıq funksiyası yerinə yetirsə də, artıq müəyyən dövrdən sonra əhatə etdiyi xalqların etnik-milli şüurunun, milli-mənəvi inkişafının qarşısını aldı. Xilafətin varlığı dövründə elmi əsərlərin ərəb dilində yazılmasının ənənəyə çevrilməsi müsəlman xalqlarında elmi şüurun kütləviləşməsinə imkan vermədi. Elmi əsərlər ana dilində deyil, ərəb dilində yazıldığından bu dili bilən tək-tək fərdlərin malı oldu. Ərəblərin özü də mədəni cəhətdən yetkin olmadığından bu dildə olan elmi ədəbiyyatı mənimsəyə bilmədilər. Beləliklə, İslam Şərqində İslam dini milli ideologiyanın yaranmasına, milliləşməyə imkan vermədiyindən milli inkişaf getmədi, elm kütləviləşə

bilmədi. Xalqlar mədəni-mənəvi, elmi və siyasi cəhətdən tənəzzül etdi. Elə bu səbəbdən də XVII-XVIII əsrlərdə milliləşmə prosesini keçirən Avropa xalqları Şərqdən elmi hazır almaqla, dünyada elmi-mədəni, hərbi-siyasi üstünlüyü ələ keçirdilər. Beləliklə, İslam Şərq xalqları milli varlığın yaşadılması, rəqabəti üçün əsas olan 3 keyfiyyətin 2-dən - milli ideologiyadan və elmi-intellektual imkandan məhrum oldular, yalnız milli xarakterin hesabına varlıqlarını davam etdirdilər. Məlum olduğu kimi məğlubiyyət hissi milli xarakteri məhv edən əsas gücdür, vasitədir.

Beləliklə, XVIII əsrdə milli ideologiyadan məhrum olub və elmi intellektual səviyyəsi rəqabətə imkan verməmiyindən hərbi-siyasi cəhətdən məğlub olub əsarətə düşən xalqlardan biri Azərbaycan türkləri oldu.

Görkəmli Azərbaycan ziyalısı A.A.Bakıxanov siyasi əsarətə düşmüş xalqına məğlubiyyət hissini aşılanmasına yol verməməmk üçün varisi olduğu Azərbaycan və İslam Şərq fəlsəfəsini, etnologiyasını, elmi və bədii ədəbiyyatını canlandırmağı başlıca vəzifə olaraq meydana qoydu.

XIX əsrin birinci yarısında A.A.Bakıxanovun bədii-dini-fəlsəfi və tarixi əsərlərində etnoloji aspekt yenidən dövrəyə gətirildi, canlandırıldı. A.A.Bakıxanov yaradıcılığının, xüsusən ilk ümumiləşdirilmiş "Azərbaycan tarixi" əsəri olan "Gülüstani-İrəm"dəki, elmi uğurlarına onun rus ziyalıları və tarixşünaslığı ilə əlaqələri yetərincə təsir göstərmişdir. Lakin bu təsir elmi-nəzəri deyil, "biz" və "onlar" fərqləndirməsinə göstərilən milli-mənəvi, psixoloji təsir idi. Tarixdən məlum ki, Rus imperiyası Azərbaycanı işğalı prosesində Azərbaycan xalqını siyasi hakimiyyətdən məhrum etməklə bərabər, milli zadəganlığı ləğv etməklə onu mənəvi cəhətdən də məğlub, məhv etmək istəyirdi. Rus imperiyası Azərbaycan xalqı üçün milli zadəganlığın əvəzində xalqını satıb onun tərəfinə keçmiş şəxslərdən ibarət oyuncaq bir yedək zadəg-

anlığı yaratmaq istəyirdi.

Azərbaycan xalqı milli zadəganlığın itirilməsini özünün mənəvi məhvi kimi qiymətləndirirdi. Milli zadəganların, zadəganlığın qorunması Azərbaycanın bütün zümrəsini, sosial təbəqələrini birləşdirən yeganə ideal idi. Rus ordusunun polkovniki rütbəsinə yüksəlmiş A.A.Bakıxanov milli zadəganlığın müdafiəsinin təşkilatçılarından idi. O, Tiflisdə yaradılan "Müsəlman cəmiyyətləri hüquqlarının araşdırılması və təhqiqi" adlı Qafqaz Komitəsində Bakı bəyləri və Quba qəzası zadəganlarının nümayəndəsi kimi onların hüquqlarını müdafiə edirdi. Artıq Quba üsyanından sonra Qafqaz canişininin ona etimadsızlığı yaranmışdı (124, 32; 125, 632-635, 642-668). A.A.Bakıxanov bütün varlığı ilə Azərbaycan zadəganlarının rus zadəganları ilə eyni səviyyəli, "Gülüstani-İrəm" əsəri ilə isə hətta ondan yüksək olduğunu əsaslandırmağa çalışırdı. A.A.Bakıxanov mədəni-mənəvi, intellektual səviyyəsi ilə I Nikolay da daxil olmaqla rəqibi bütün Rus imperiyası zadəganlarının rəğbətini qazanmışdı, yüksək zadəganlıq, milli mədəniyyət, şəxsiyyət nümunəsi idi. Aşağıda gətirəcəyimiz faktlar deməyə əsas verir ki, A.A.Bakıxanovun elmi-nəzəri səviyyəsi rus tarixçilərininkindən qat-qat yüksək idi. O, Rus imperiyası tarixçiləri hələ etnoqrafik tədqiqatlara başlamamışdan, bu elmi sahəni istifadə üçün planlaşdırmamışdan xeyli əvvəl rus tarixçiləri üçün nümunə olacaq, parlaq, milli şüur mənbəyi, etnoloji "Gülüstani-İrəm" əsərini yazdı.

Mənbələrdə həmçinin A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinin yazılma səbəbi barədə məlumat verən şərində əsərin Dağıstan hərbi dairəsinin rəisi erməni Moisey Zaxaroviç Arqutinski-Dolqorukovun arzusuna görə yazıldığı göstərilir (127, 330; 128, 300). Lakin general Neydqartın imperator I Nikolaya yazdığı "Məndən əvvəlki canişinin (general Polovinin) tapşırığına əsasən süvari dəstəsində

xidmət edən polkovnik Abbasqulu Ağa Bakıxanov "Qafqazın şərq hissəsinin tarixi" adlı əsərini yazmışdır və hazırda onu mənə verərək Sizə çatdırmağı xahiş edir" (127, 332) məlumatlarından aydın olur ki, A.A.Bakıxanov bu əsəri yazmaq üçün daha yüksək səviyyədə tapşırıq almışdı.

Yuxarıda göstərildiyi kimi, A.A.Bakıxanov Qafqaz canişininin etimadını itirmişdi, Qafqaz müsəlman zadəganlarının müdafiəçisi kimi çıxış edirdi. Artıq A.A.Bakıxanovun erməni generalı V. Mədətovla kifayət qədər konflikti yaranmışdı. Zaxar Moiseyeviç A.A.Bakıxanova Qafqaz müsəlmanlarının tarixini yazdırmaqla onun millətçi əhvalruhiyyəsini sübut etdiyi səviyyədə üzə çıxarıb aradan götürmək üçün Qafqaz canişinini A.A.Bakıxanova Qafqaz müsəlmanları tarixini yazmaq sifarişinin məsləhətçisi və təşkilatçısı idi. Qafqaz canişini və erməni məsləhətçisi Zaxar Moiseyeviç yazılacaq əsərdə A.A.Bakıxanovu tora salıb aradan götürmək istəyirdilər, lakin A.A.Bakıxanov "vaxtının az olduğuna" "halının pərişanlığına və vəsaitin azlığına" (129, 11) baxmayaraq, qısa müddətdə əsəri 1841-1842-ci illərdə yazıb başa çatdıraraq onu "Qafqazın Şərq hissəsinin tarixi" adlandırmışdır.

Əsər 1843-cü ildə M.Z.Arqutski-Dolqorukovun tapşırığı ilə milliyyətcə polyak şairi, tərcüməçi T. Zabolotski tərəfindən rus dilinə tərcümə olunur. A.A.Bakıxanovla dostluq edən müəllifə T.Zabolotski əsərin şöhrət gətirəcəyinə qısqanclıqla yanaşsa da, sonda kitabı polyak dilinə də tərcümə etmək fikrinə düşür (127, 132). "Gülüstani-İrəm"in rusca tərcüməsi başa çatan kimi, A.A.Bakıxanovun I Nikolaya yazdığı müraciətnamə, general Neydarqatın müşayiətedici məktubu ilə I Nikolaya göndərilir. 1845-ci il martın 8-də hərbi nazir Çernışev "Gülüstani-İrəm" əsəri haqqında I Nikolaya özü şəxsən məlumat verir (124, 29-30; 127, 332). Məlumatlardan aydın olur ki, əsər rus dilinə tərcümə olunan

kimi hərbi nazir də daxil olmaqla Rus imperiyası ali rəhbərliyin nümayəndələri "Gülüstani-İrəm" əsərinin tərcüməsini oxumuşlar. I Nikolay da "Gülüstani-İrəm" əsərini yüksək qiymətləndirir. A.A.Bakıxanova dəyəri 800 manat gümüş pul olan briliyant qaşlı üzük vermək əsəri isə baxılıb öyrənilmək üçün Elmlər Akademiyasına göndərmək barədə sərəncam verir (127, 332).

Rusiya Elmlər Akademiyası tarix-filologiya bölməsinin akademikləri Brosse və Dorn 1845-ci il may ayının sonlarında "Gülüstani–İrəm" əsərinə verdikləri rəydə yazılır: "Biz Abbasqulu Ağa Bakıxanovun əsərini böyük maraqla oxuduq və fərəhləndik ki, müəllifin özünün yazdığı kimi, müharibələr və çaxnaşmalar içərisində ömrünü keçirən bir şəxs öz asudə vaxtını tarixi məşğuliyyətə və elmi irəli aparan, Rusiya imperiyası tərəfindən Zaqafqaziya vilayətlərinin dərk edilməsində az əhəmiyyəti olmayan tədqiqatlara həsr edir.

Abbasqulu Ağanın əsəri Şərq mənbələrindən götürülmüş məlumat və xəbərlərlə zəngindir. **Avropa alimləri tərəfindən bu vaxta qədər əlçatmaz hesab edilən və yeni faktlarla zənginləşdirilən, müxtəlif coğrafi yerlər haqqında maraqlı fikirlər yürüdülən bu əsərdə qədimlərdən başlayıb indiki dövrədək Dağıstan və Şirvan tarixlərinin elə ibrətamiz icmalı verilir ki, biz onu həqiqi mənada Qafqaz xalqlarının təsviri coğrafiya tarixinə dair olduqca faydalı və vacib bir əlavə kimi qiymətləndirir və müəllifə hörmətimizi izhar etməkdən imtina edə bilmirik"** (124, 65; 127, 333).

Göründüyü kimi, Rusiya Elmlər Akademiyasının akademikləri "Gülüstani-İrəm" əsərini mülki, siyasi, hərbi tarix deyil, janr etibarı ilə "Qafqaz ölkəsinin təsviri coğrafiya tarixi" adlandırırlar. Bu tarix elminin hansı sahəsidir, nə vaxtdan yaranmışdır?

Yuxarıda bəhs olunduğu kimi, Rus imperiyası XVIII əsrdə yaranan kimi Qafqaz, Orta Asiya və Sibirin işğalı iddia-

sına düşür, bu məqsədlə bu ölkələrin təbi-coğrafi şəraitinin, təbii sərvətlərinin, əhalisinin adət-ənənsinin xarakterini öyrənmək, onu bütövlükdə təsvir etmək üçün səyyahları, tacirləri, hərbçiləri və peşə sahiblərini bu işə cəlb edirdi. Onların "kəşfiyyata" getdiyi ölkələrin təsvirində birinci yeri onların coğrafi təsviri tutur, lakin, təbii sərvətlərindən, əhalisinin adət-ənənəsindən bəhs edilir və onlar coğrafi əsər sayılırdı. Rus imperiyası I Pyotrun hakimiyyəti dövründən Qafqaz, Orta Asiya və Sibiri müxtəlif ixtisas sahibləri tərəfindən pərakəndə öyrənməkdə idi. Nəhayət, bu işi planlı həyata keçirmək məqsədilə **Rusiya EA-nın akademiki Brosse və Dorun A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinə müsbət rəy verdikdən 4 ay sonra 19 sentyabr 1845-ci ildə Rusiya Coğrafiya Cəmiyyətini yaratmaq üçün təsis konfransı keçirildi, onun fəaliyyət planını yaratmaq məqsədilə 7 oktyabr 1945-ci ildə ikinci iclası toplandı** (126, 5).

Rusiya Coğrafiya Cəmiyyətinin planlı fəaliyyətindən bir qədər sonra coğrafiya mütəxəssislərinin öyrənilən ölkənin təsərrüfatı və sərvətləri haqqında yetərincə material toplaya bilsələr də, əhalinin psixologiyasını, adət-ənənəsini lazımınca öyrənə bilmədiyi qənaətinə gəlindi. Bu məqsədlə xalqların öyrənilməsində Avropa etnologiyasında tətbiq olunan sosial prinsiplərin RCC vasitəcilə həyata keçirilməsi qərara alındı. **RCC-nin 1846-cı ildə keçirilən iclaslarının birində N.İ.Nadejdin "Rus xalqının etnoqrafik öyrənilməsi proqramı" ilə çıxış etdi. Etnoqrafik öyrənmə zamanı xalqın maddi və mənəvi mədəniyyətinin, ənənələrinin, dilinin və milli xarakterinin təsviri əsas prinsip kimi irəli sürülürdü** (30, 13-14).

Göründüyü kimi, Rusiya Elmlər Akademiyasının uzun illər yaratmaq, adlandırmaq istədiyi tarix elminin yeni sahəsi olan etnologiya elmi Azərbaycan tarixşünaslığında 8 əsr əvvəl yaranmışdı. A.A.Bakıxanovun bu janrda (üslubda) yazdığı "Gülüstani-İrəm" əsəri isə İslam Şərqinin, o cümlədən Azərbaycanın tənəzzülü zamanı zəifləmiş bu elmi janrın ye-

nidən canlandırılması və tarix (etnologiya) elmindən milli müdafiə məqsədi ilə istifadə edilməsinin ən parlaq nümunəsi idi.

Rusiya elmində hələ etnologiya (etnoqrafiya) termini, elmin bu terminlə ifadə olunan sahəsi olmadığından, Rus tarixşünaslığı ənənəsinə uyğun olaraq, "Gülüstani-İrəm" əsərini "Qafqaz xalqlarının təsviri coğrafiya tarixi" adlandırdılar. Yalnız 1846-cı ildə RCC-nin daxilində etnoqrafiya şöbəsi yaranandan sonra bu üslubda yazılan əsərləri etnologiyanın ilkin, aşağı pilləsi olan etnoqrafiya adlandırdılar. A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsəri xalqın, ölkənin aşağı, ilkin səviyyədə təsviri deyil, yüksək elmi-nəzəri səviyyədə etnogenezi, etnik tarixi, etnososial prosesi, adət-ənənəsi, adət hüququ və onun təkmilləşdirilməsi qaydaları, etnoslararası qarşılıqlı əlaqə və fasiləsiz təsirin, xüsusilə sistemli mənəvi prosesin müsbət və mənfi nəticələri haqqında faktlar əsasında irəli sürülən elmi-nəzəri, etnoloji əsərdir.

1846-cı ildə RCC-də N. İ. Nadejdinin "Rus xalqının etnoqrafiyasının öyrənilməsi proqramı"nda irəli sürülən öyrənilmə zamanı əsas tutulan, gözlənilməli olan prinsiplə A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərindəki gözlənilən prinsiplər, tədqiqata cəlb olunan mənəvi dəyərlər sistemi müqayisə olunanda A.A.Bakıxanovun Rus tarix elminin çox qabaqladığı özünü aydın göstərir. "Gülüstani-İrəm" əsərinin rəyçiləri "akademik Brosse və Dorn bunu dəqiqliklə ifadə etmişdilər. Dövrünün ən qabaqcıl alimlərindən hesab olunan bu şərqşünas akademiklər "Gülüstani-İrəm" əsərinə rəyin sonunda yazırdılar ki, "Əgər Avropa tənqidçiləri mövqelərindən bu əsərə yanaşsaq, əlbəttə, burada nəyisə tənqid etmək və yada salmaq olardı" (127, 333).

Azərbaycanın proletar-muzdur, yedək alimləri məhz bu tənqidə görə Rus imperiyasının, dövlətin əsərin nəşrinə vəsait ayırmadığını, müəllifin öz hesabına əsərin nəşrinə icazə verdiyini yazırlar. Əslində yuxarıda yazılan tənqid deyil,

əsərin ən yüksək qiyməti, rəyçi alimlərin obyektivliyinin sübutudur. Rus elmi nöqteyi-nəzərindən isə bəhs edən rəyçilər bildirirlər ki, "Avropa alimləri tərəfindən bu vaxta qədər əlçatmaz hesab edilən və yeni faktlarla zənginləşdirilən, müxtəlif coğrafi yerlər haqqında maraqlı fikirlər yürüdülən bu əsərdə qədimlərdən başlayıb indiki dövrədək Dağıstan və Şirvan tarixinin elə ibrətamiz icmalı verilir ki, biz onu həqiqi mənada Qafqaz xalqlarının təsviri coğrafiya tarixinə dair olduqca faydalı və vacib bir əlavə kimi qiymətləndirir və müəllifə hörmətimizi izhar etməkdən imtina edə bilmirik" (124, 65).

Rəyçilər A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsəri ilə Rus elmini qabaqladığını etiraf edirlər. "Avropa tənqidçiləri mövqeyindən bu əsərə yanaşsaq, əlbəttə, burada nəyi isə tənqid etmək və yada salmaq olardı" deyən müəlliflər əsərdə "Avropa alimləri tərəfindən bu vaxta qədər əlçatmaz hesab edilən və yeni faktlarla zənginləşdirilən" elmi keyfiyyət və faktların da olduğu göstərilir (124, 65; 127, 333). Rus elmi nöqteyi-nəzərən əsərə heç bir irad tutulmur.

Həqiqi alim, elmi və zadəgan vicdanı nümayiş etdirən akademik Brosse və Dornun rəyində "Gülüstani-İrəm" əsərinin təsviri əsər sayılmasına kiçicik bir münasibət bildirmək istəyirik. Həqiqətən də əsərdə təsvir kifayət qədərdir. Əsərdə faktların şərhi, müqayisəli təhlil, təsvir, elmi-nəzəri mühakimə xüsusi sistem təşkil edir. Tədqiqat prosesində hadisə və materialdan, tədqiqata cəlb olunan obyektdən istifadə olunan informasiya məlumatından asılı olaraq istifadə olunan nəzəri metod tez-tez dəyişir. "Gülüstani-İrəm" əsərində bu proses özünün bütün aydınlığı ilə göstərir. Təsvir üsulundan ən çox müharibələrdən bəhs olunarkən istifadə olunur.

A.A.Bakıxanov "Gülüstani-İrəm" əsəri ilə Azərbaycan tarixində hələ qədimlərdən mövcud olan milli-mənəvi dəyərlərin, ideyaların tarixin hərəkətverici qüvvəsi olması ideyasını yenidən canlandırdı. Azərbaycan tarixşünaslığında mil-

li-mədəni sistemin tarixin hərəkətverici qüvvəsi kimi dəyərləndirilməsi ideyasını yüksək səviyyədə bərpa etdi.

A.A.Bakıxanov yaratdığı elmi konsepsiya ilə tarix elmi qarşısında aşağıdakı funksiya və vəzifələri irəli sürdü. O, yazırdı: "Təbiətimiz hər şeydən artıq tarixə malikdir. O, hadisələrdən başqa əfsanələrə də talibidir. Bu elm (tarix) insanı gözəl əxlaqlı və bilikli edir, ona dolanacaq və yaşayış işlərini öyrədir. Buna görə, onu mənəvi elmlərin qiymətlilərindən hesab edib demək olar: tarix hökmsüz və zülmsüz elə bir hökmrandır ki, bütün Adəm övladı onun əmrlərinə boyun əyməkdədir. Onun təlim məktəbində dünyanın müəllimləri əlifba oxuyan bir uşaqdırlar... Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəsiyyətlərini bütün təfsilat və təriflərilə xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törəyə bilən əhvalatı keçmişin libasında insanların ibrət nəzərinə çatdırır. Bəli, keçmişdə vaqe olan bir iş gələcək üçün göstərilməldir və elmə əsaslanan bir əməl möhkəm və payıdar olar. Zəmanənin dəyişikliklərindən bixəbər işə başlamaq, yolsuz və qorxulu bir çölə yönəlmək kimidir. Öz qısa ömründə təcrübə əldə edən şəxs, ondan çox böyük mənfəətə çatar. Tarix elmi isə dünyanın təcrübəsini bizə kəşf edir. Bundan daha yaxşı nə ola bilər? Xüsusən hər bir ölkənin tarixi orada yaşayan xalq üçün faydalıdır; çünki tarix ona öz millətinin təbiət və adətlərindəki xüsusiyyətləri bildirər, qonşu tayfaların rəftarından məlumat verər, müxtəlif xalqlarla saxlanan əlaqənin əsas xeyir və zərərin ona məlum edər. Buna görə, mən günahkar bəndə, Qüdsi təxəllüsü ilə məşhur bakılı Abbasqulu Mirzə Məhəmməd xan Saninin oğlu, yol göstərmək məqsədilə, işin çətinliyindən xəbərdar olduğum halda, müxtəlif dövrlərdə Şirvan, Dağıstan vilayətləri və ətrafında baş verən hadisələri toplayaraq bu kitabı yazdım" (129, 10-11).

Göründüyü kimi, A.A.Bakıxanov tarix terminini iki mənada, obyektiv, insan şüurundan asılı olmayan, fasiləsiz tə-

şəkkül etmədə olan varlığın məcmusu mənasında və insanların, toplumun yaratdığı etnososial-mənəvi tarix mənasında işlədir. Hər iki tarixi bilməyi vacib sayır. Obyektiv tarixin (varlığın) inkişaf mənbəyi onun öz daxilində, öz keçmişində hazırlanmış olduğu kimi, etnososial-mənəvi tarixin (varlığın) mənbələri də onun öz keçmişində, daxilində yaradılmış bilgilərdən, mənəvi dəyərlərdən ibarət olub, ondan asılı olduğunu əsaslandırır.

A.A.Bakıxanovun tarixin elmi-nəzəri əsaslarını yüksək səviyyədə bilməsini, milli inkişafı etnososial-mənəvi proses kimi əsaslandıra bilməsinin, "Gülüstani-İrəm" kitabının sırf etnoloji əsər olmasının dəlili kimi, əsərə yazılmış nəticəni olduğu kimi burada verməyə lüzum görürük.

A.A.Bakıxanov yazır: "Hər bir tayfanın kəmalət dərəcəsini, vəziyyət və hallarının gözəlliyini onların təlifatından və sair əsərlərindən gözəlcəsinə anlamaq olar. Bir çox şəhər və kənd xarabaları, həzrət Şəmunun Aran şəhərində və yüksək dərəcəli üç imamzadənin Şamaxı, Gəncə və Bərdə şəhərlərində olan türbələri, Bülbülə kəndindəki imamzadə, imam Museyi-Kazımın qızı Həlimə xatunun Bakıda, Bibiheybətdəki türbəsi, Sufi Həmidin Şirvan Qəbırstanlığındakı məzarı və bir çox başqa yerlərdə olan məşhur seyidlərin, şeyxlərin və hörmətli fazil kimsələrin qəbirləri göstərir ki, bu ölkə həmişə din böyüklərinin məskəni, arif və alimlərin vətəni olmuşdur. Başqa faydaları bir tərəfə dursun, bu ölkə mötədil iqlimli ən yaxşı yerlər sırasına daxildir. Öz dağlarında, çöllərində, meşələrində və vadilərində bütün dünyanın müxtəlif məhsulatını yetişdirməkdədir. Bu ölkədə yaşayanların nəsli bütün insan tayfalarından qarışıqdır. O tayfalardan hər birinin əxlaqı və asarı bunlarda görünməkdədir...

Əgər bu ölkə əhalisinin təbii istedadını inkişaf etdirmək üçün lazım gələn asayiş və tərbiyə üsulları yaradılsaydı, o zaman bunlar nə böyük tərəqqiyə nail olardılar!

Çoxlu qoşunkeşlik və mütəmadi müharibələrin yaratdığı

xarabalıqlara baxmayaraq, onlardan bir çoxu özünün elm və hünəri ilə bütün dünyada şöhrət qazanmışdır. Onlar hər bir əsrdə, hər bir ölkədə hörmətli və inanılmış kimsələr olmuşlar. Lakin təəssüflər olsun ki, onların VI (XII) əsrdən əvvələ aid əsərlərindən bizə heç bir şey məlum deyildir. Həqiqətən böyük xaqan Mənuçöhr və onun xələflərinin 400 illik səltənət dövrü, şirvanşahların ən gözəl əsri və Şirvanın abad zamanı olmuşdur. Səfəvilər dövrünün əvvəllərində olan osmanlı və qızılbaş döyüşləri bir neçə vaxt qarışıqlıq və iğtişaşa səbəb olmuşdu. Şah Abbasın zühurundan sonra bu ölkənin işləri nüfus və mənəviyyatca dəyişikliyə üz tutub, etidal və müvazinət kəsb etdi. Hünər və mərifət bazarı başqa bir rövnəq tapdı. Şah Sultan Hüseyn dövrünün axırlarında isə fitnəkar fəsadçıların istilasından, müxtəlif orduların gediş-gəlişindən və Nadir şahın səfərlərindən tamamilə pərişan bir hala düşdü və bir çox yeri xarabazar oldu. Bundan sonra ölkənin vilayətlərini müstəqil surətdə öz ixtiyarlarına keçirmiş olan xanlar da mütəmadi müharibə nəticəsində maarifi inkişaf etdirməyə və rəiyyətlərinin halını yaxşılaşdırmağa müvəffəq ola bilmədilər. Hər halda bu ölkənin alim və fazillərinin həyatı imkan daxilində hər birinin əsrinə müvafiq olaraq zikr edilir və azacıq da olsa onların əsərlərində və fikirlərinin nəticələrində qeyd olunur" (129, 204-205).

Şərq İslam ictimai inkişaf konsepsiyasına görə hər bir ölkənin, xalqın yetişdirdiyi alim, ziyalı-zadəgan zümrəsi həmin xalqın etnososial-mənəvi sistemində yarımsistem kimi xüsusi yer tutur. Bu elmi-nəzəri konsepsiyaya uyğun olaraq A.A.Bakıxanov Şirvan və ona qonşu vilayətlərin yetişdirdiyi alim, şair, filosof, din xadimləri və görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığı haqqında qısa məlumat verir (129, 204-227).

Bədii, fəlsəfi, elmi, tarixi yaradıcılığı, həyatı ilə bağlı xatirələr A.A.Bakıxanovun son dərəcə təvazökar, sadə, lakin milli iddialı, milli ədalı, milli məsuliyyətli, milli funksiyalı

şəxsiyyət olduğunu göstərir. Elə "Gülüstani-İrəm" əsərini də bu iddialarla yazmışdı.

A.A.Bakıxanov 1833-cü ildə Polşada olarkən A. S. Puşkinin bacısı Olqa ilə tanış olur. Olqa A.A.Bakıxanova təklif edir ki, Peterburqa gedərkən onların ailəsinə baş çəksin və onlara qonaq olsun. Olqa əvvəlcədən məktubla Bakıxanovun onlara gələcəyini ailə üzvlərinə məlumat verir. Puşkinin anası qızı Olqaya məktub yazaraq A.A.Bakıxanovun onlara gəlişini və görüşlərini təsvir edərək yazır: "Abbasqulu ağa sənin məktubunu almağımızdan bir neçə saat sonra gəlib özünü bizə təqdim etdi, nə qədər maraqlı adamdır, özünü necə də gözəl aparır, onun davranışını çox bəyəndim. O, son dərəcə xoşuma gəldi. Onu bizə göndərdiyinə görə sənə minnətdaram".

A.S.Puşkinin atası isə qızına yazırdı: "Abbas o qədər nəzakətli, sevimli, ehtiyatlı adamdır ki, biz onunla köhnə dostlar kimi danışırdıq. Mən onu sabah da evimizə dəvət elədim.

Mən istəyirdim ki, bu gün Aleksandrın ad günündə onu Vyazemski, baronessa Peşerskaya və iki saatdan sonra İtaliyaya yola düşən, madmuazel Sofiya Karamzina ilə tanış edim".

A.A.Bakıxanov bu gəlişi zamanı ay yarımdan çox Peterburqda qalır, bir çox görkəmli şəxsiyyətlərlə tanış olur, hətta I Nikolayın qonaqlıq məclisinə dəvət olunur. "Nikolay və arvadına çatdırırlar ki, Qafqazdan gələn qonağın ömründə dilinə içki dəyməyib. Nikolayın arvadı qürrələnib deyir ki, mən Abbasqulu ağaya şərab içirdərəm. O, bir qədəh şərabı qızıl məcməidə gətirib Bakıxanova təqdim edir. İmperator xanımının şərab təqdim etməsi qonaq üçün ən yüksək hörmət sayılırmış. Abbasqulu ağa ayağa qalxaraq məcməidəki qədəhi götürüb, üzünü çar I Nikolaya tutaraq deyir:

- Ey mənim həşəmətli hökmdarım, Siz deyirsiniz: bu şərabı için, Allah deyir: içmə. Hansınızın sözünə baxım?

Çox dindar olan çar Nikolay bir anın içində:

- Əlbəttə, Allahın! – söyləyənə deyir" (127, 299-302).

A.A.Bakıxanov "Gülüstani-İrəm" əsərini nə qədər çətin şəraitdə yazsa da, gördüyü işin mahiyyətini, böyüklüyünü, məsuliyyətini tam dərk edir, milli iddia ilə çıxış edir, imperiya ideoloqlarına qələbə çalacağına inanırdı. Milli ideallara, milli varlığa söykənmədən, bütün hisslərin, duyğuların, təfəkkürünlə ondan qidalanmadan, həmin şəraitdə, sifarişlə "Gülüstani-İrəm" kimi milli ideya diqtə edən etnoloji bir əsər yazmaq mümkün deyil. A.A.Bakıxanov elmi dildə yazdığı "Gülüstani-İrəm" əsərini təvazökarlıqla Rus imperiyasına təqdim etdi, əsərin yazılmasında imperiya nümayəndəsinin təklifinin bəhanə olduğu, onun xalq üçün yazıldığı, ondan aldığı həzzi incə poetik dillə yazıb arxivində qoydu.

Bir möhtərəm cənab üçün, ələ alıb qələmi
Çox həvəslə yazmışam bu "Gülüstani-İrəm"i.

Qalsın bəlkə bu dünyada məndən ona ydigar,
Hər baxanda fərəh versin qəlbinə bu xoş bahar.

Burada çox əcaib, çox məzəli xəbərlər,
Çox qəribə söhbətlərdən ibarətdir bu əsər.

Hər tamaşa edən zaman ləzzət verər insana,
Necə bəslər uşağını qayğı çəkən bir ana.

Uşaq tutub əllərilə soran zaman məməni,
Şıltaq edib əmə-əmə yoran zaman məməni.

Bu ananın hiss etdiyi ləzzət gəlməz hesaba,
Bənzər ancaq o ləzzət bu təravətli kitaba.

Bunda keçmiş məliklərdən, ruzgardan xəbər var.
Bu kitabda çox hikmətli və qiymətli gövhər var.

Yarandısa xahişilə Moisey Zaxaroviçin,
Yazılmalı oldu lakin bu əsərim xalq üçün (128, 300).

Təəssüf ki, İslam Şərqi, o cümlədən Azərbaycan müstəmləkəyə çevrildiyindən, əksər ölkələrdə, o cümlədən Azərbaycanda ana dili elm dili olmadığından, elmi şüur kütləviləşmədiyindən A.A.Bakıxanovun tarix elmi sahəsində elmi-nəzəri müddəaları kütləviləşə bilməyib, məhdud dairədə yayıldı.

M.F.Axundov (1812-1878) A.A.Bakıxanovun varisi idi. Qafqaz canişinliyində A.A.Bakıxanovun rəsmi və qeyri-rəsmi, milli vəzifəsi, funksiyası M.F.Axundova keçmişdi. **Xalqına milli inkişaf qanunlarını izah etməyi özünü milli cavabdeh hesab edən M.F.Axundov A.A.Bakıxanovun izah üsuluna dramaturgiya və nəsr janrlarında yazılmış əsərlər də əlavə etdi. Varlığa münasibət və coğrafiyaya aid əsərləri istisna olmaqla, onun bədii, fəlsəfi, tarixi əsərlərinin əsas mövzuları adət-ənənə, inam-etiqad, əxlaq, dini və elmi şüur, ideologiya məsələləri idi.**

M.F.Axundov Qafqaz canişinliyi idarəsinə gələndə onun milli təfəkkürü, mənəvi dəyərləri, dünyagörüşü artıq formalaşmışdı, elmi səviyyəsi kifayət qədər idi. Anadangəlmə analitik nəzəri təfəkkürə, iti fəhmetmə qabiliyyətinə malik olub xaraktercə coşqun və inqilabi şəxsiyyət idi.

A.A.Bakıxanovun işlədiyi dövrlə müqayisədə M.F.Axundov Qafqaz canişinliyinə gələndə artıq siyasi vəziyyət xeyli sabitləşmişdi. Tiflisdə yetərincə Avropa təfəkkürlü ziyalı cəmləşmiş, Avropa ictimai-fəlsəfi fikir və tarixinə dair ədəbiyyat toplanmışdı. RCC-nin Qafqaz şöbəsi məhz M.F.Axundovun iştirakı ilə yaradılmış, 1851-ci ilin mart

ayında o, bu cəmiyyətin həqiqi üzvü seçilmişdi (74, 46; 130, 64; 135, 392; 136, 10).

M.F.Axundov RCC-nin, onun etnoqrafiya şöbəsi yaranandan istər çöl materialının toplanılmasında və istərsə də ölkəşünaslıq komissiyasının tərkibində Qafqaz xalqlarının öyrənilməsində fəal iştirak etmişdir ((74, 46). Bu mənada M.F.Axundov Rusiya etnoqrafiya elminin ilk yaradıcılarındandır. **Maraqlıdır ömrünün 30 ildən artıq müddətini Rus imperiyasının rəsmi elmi müəssisəsində etnoqrafiyanın nəzəri praktiki məsələləri ilə məşğul olan, adət-ənənə haqqında cildlərlə elmi-nəzəri əsərlər yazan M.F.Axundov Azərbaycan "Sovet etnoqrafları" tərəfindən etnoloq (etnoqraf) kimi qəbul olunmamış, ondan etnoqraf kimi bəhs edilməmişdir.** Bu məsələyə Kommunist Rus imperiyasının yuxarıdan təşəbbüs göstərməməsi, Azərbaycan "etnoqraf"larının tam biganəliyinin, hətta onun yaradıcılığında etnoqrafiya məsələlərindən belə bəhs olunmasının dilə gətirilməməsi acınacaqlı haldır. Kommunist Rus imperiyası M.F.Axundov yaradıcılığında etnologiya (etnoqrafiya) məsələsindən bəhs etsə idi, Sovet etnoqrafiyası uydurmalarını Azərbaycan xalqına sırımaq mümkün olmayacaqdı. Çünki M.F.Axundov yaradıcılığında etnoloji məsələlər o qədər aydın, dəqiq qoyulmuşdu ki, kommunist ideologiyasını asanlıqla təkzib edəcəkdi.

Maraqlıdır ki, Rusiya etnoqraflarının bir qrupu fəlsəfədən, bir qrupu isə coğrafiya elmindən gəlmişdi. Təsadüfi deyil ki, ilk Avropa və Rusiya etnoqraflarından həm də filosof kimi də bəhs olunur. M.F.Axundov da, Avropa və Rusiyanın bir qrup alimi kimi, yaradıcılığında fəlsəfə ilə etnologiya və ədəbi yaradıcılıq birləşmiş nadir erudisiyalı alimlərdəndir (11; 29; 30). Fəlsəfə xalqların adət-ənənə, inam-etiqad, dini və milli şüurun, ideologiyanın, mənəvi dəyərlərin ümumi qanunlarından, xüsusiyyətlərindən; etnologiya isə adət-ənənə, inam və etiqad, dini və milli şüurun, ideolog-

iyanın, mənəvi dəyərlərin xüsusi etnoslara məxsus vəziyyətlərindən, xüsusiyyətlərindən bəhs edir. Avropa və Şərq filosoflarının çoxunun yaradıcılığında bu iki aspekt paralel getdiyindən onlar həm filosof, həm də etnoloq kimi dəyərləndirilir.

Etnoqrafiya və etnologiya terminlərinin mənası haqqında elmdə qismən razılaşılmış fikrə görə etnoqrafiya etnosun, onun mədəniyyətinin emprik səviyyədə təsviri, etnologiya isə etnosun, onun mədəniyyətinin elmi-nəzəri səviyyədə təhlilidir, öyrənilməsidir. Cəsarətlə deyə bilərik ki, M.F.Axundov etnoqraf deyil, etnoloq idi.

A.A.Bakıxanov kimi, M.F.Axundovda da varlıq təlimi və coğrafiya əsərləri istisna olmaqla bütün əsərlərinin mövzusu adət-ənənə, inam-etiqad, din və əxlaqdır. Şəraitdən və düşdüyü vəziyyətdən asılı olaraq xalqları yaradan və ya məhv edən mənəvi dəyərlər sistemidir. A, A. Bakıxanovdan fərqli olaraq, M.F.Axundov İslam Şərq dünyasına, o cümlədən Azərbaycan türklərinə tarixən yaradıcılıq enerjisi verən dəyərlər sisteminin lazımınca elmi enerji ilə qidalanmaması, uzun müddət, fasiləsiz müstəqil düşüncəni sıxan, əzən, ruhi həyəcan vəziyyətində saxlayan despotik siyasi sistemin təzyiqi altında yaşamağa məcbur edildiyindən İslam şərq xalqları, o cümlədən Azərbaycan türklərinin yaradıcılıq ruhunu, qabiliyyətini itirməsini elmi əsaslarla sübut edir və çıxış yolunu göstərir.

Hörmətli oxucu, biz burada M.F.Axundovun etnologiya sahəsinə aid elmi-nəzəri müddəalardan ətraflı bəhs etməyəcəyik, bu məsələ tədqiqatımızın məqsədi kimi müəyyənləşdirilməmişdir. Etnoloji yaradıcılığını Azərbaycan Sovet etnoqrafiyasının bütün nəsilləri tərəfindən danılan M.F.Axundovun dünyada etnologiya elminin banilərindən biri olduğunu təsdiqləyən bir neçə müddəasını diqqətə çatdırmaqla kifayətlənirəm. M.F.Axundovun etnoloq kimi

müfəssəl tədqiqini Azərbaycanın gələcəyinə sahib olmaq hissi, şüuru, iddiası ilə yaşayan gənclərimizin ixtiyarına buraxıram. Çünki Azərbaycanda sağlam insani münasibətlər, milli-əxlaqi hisslərə söykənən sosial mühitin yaradılması M.F.Axundovun etnoloq kimi tədqiqi və bütün xalq tərəfindən mənimsənilməsindən keçir. Bu müddəanın aksiomluğuna heç bir şübhəm yoxdur.

Əsərlərindən göründüyü kimi, yaradıcılığında adət-ənənələrin öyrənilməsi və onun doğurduğu nəticələrinin aşkarlanması əsas yer tutan M.F.Axundov vaxtilə dünyaya elm və mədəniyyət toxumu yayan İslam Şərq dünyasının yaradıcılıq qabiliyyətini itirib "ölmüş millətlər" halına düşməsinin səbəbini onların həyatında bərqərar olmuş adət-ənənələrdə, inam və etiqadlarda, bütövlükdə mənəvi dəyərlərdə görərək yazırdı ki, Şərq İslam xalqları "azadiyyətdən məhrumdur və padşahı despotdur və despot zülmünün təsiri və ülamə farmatizmin zoru sənin zəif və natavanlığına bais olubdur və sənin qabiliyyətini künd edibdir və cövhəri-əqlini paslandırıbdır və səni fürutənliyə və dənitəbliyə və rəzalətə və zillətə və übudiyyətə və təməllüqə və riyakarlığa və münafiqliyə və məkrə və xüddə və cübnə və təqiyyə xuqər edibdir və cəmi xasaisi-həsənəni: sədaqət və ədalət və vəfadarlıq və cavanmərdlik və şücaət və ülul-tələblik və ali hümmətlik kimi sənin təbiətindən səlib eliyibdir və sənin tinətini bu sifatimədudənin cümləsinin ziddi ilə müxəmmiz qılıbdır..." (132, 13-14).

Hörmətli oxucu, nəzərə alın ki, millətin yaradıcılıq qabiliyyətini itirmə səbəbi haqqında bu fikiri Qustav le Bonun yuxarıda iqtibas etdiyimiz elmi mülahizəsindən ən azı 30-40 il əvvəl deyilmişdir. Qustav le Bondan sonra gələn fransız alim nəsli onun dünyanın birinci kateqoriyalı etnoloqu olması iddiasındadır, Azərbaycan "sovet etnoqrafları" isə M.F.Axundovun etnoloq (etnoqraf) olmaması iddiasındadırlar.

Kütlə psixologiyası, onun doğuracağı nəticələr haqqında M.F.Axundov yazırdı: "Xülasə, həkimanə tədbirsiz min illər keçəcəkdir ki, İran əhli qəflətdən oyanmaz.

Bu sözdən despot xürsənd olmasın ki, İran əhli qəflətdə qalacaq, o da qoyun kimi bu avam xalqın içində bizaval səltənət edəcək. Belə deyil, keçənlərin tarixinə nəzər etsin, görsün ki, hansı despot silsiləsinin İran səltənətində davamı olubdur? Madam ki, etiqadi-puç, xalqın xəyalında cagirdir, ya bir zirək Bab çıxar, ya bir huşiyar sahibi-məzhəb peyda olur, bu elmsiz və cinə və şeytana və firiştəyə və möcüzə və kəramətə və külli-xavəriti-adətə inanan xalqı bir saatda özünə girəvidə elər və despotu aradan götürür.

Ayə, padşaha tapança atan babilər, nə məlumdur ki, dübarə bir belə əməli-qəbihə iqdam etməyələr?" (132, 45).

"...Əfsanə dalınca yüyürmək və əfsanə deyənlərə qul olmaq bizim təbii adətimizdir" (132, 140).

M.F.Axundov yazırdı: "Pəs səltənətin davamlı və silsiləsinin bəqası mövqufdur elmə və millətin puç əqaiddən azad olmağına...

İndi elm lazımdır və sivilizasiyon lazımdır və yəqin bil ki, puç etiqad üstündə bağlanan məzhəb etibarlı bir şey deyil...

Dini-islamın o surətdə mümkündür ki, şüur ilə və mərifət ilə dinin künhünü anlayıb, sonra millət sair millətdən imtiyaz tapmaq üçün müsəlmanlıqda baqi qalasan və onun əməli-xəfiyyəsinə və rüsumi-zahiriyyəsinə və onun həqqünas xüsusunda olan əhkamına bəqeyrəz qətli-nüfus və qəti-əza və bəqeyrəz bəzi təzyiq və təğyir ki, o əhkamda lazımdır, tabe oluf bilkülliyyə təkalifi-şəqqasindən ki, hüququllah adlanır, özünü azad edəsən. Necə ki, İngilis və Yengi-Dünya və sair bir para Firəngistan tənayifi protestantdırlar. Yəni zahirən məsihi məzhəbdirlər, batinən əqlə tabedirlər..." (132, 45, 81).

M.F.Axundov insanlığı kortəbii hisslərdən, etiqadlardan, adət-ənənələrdən, xurafatdan, despotik cəmiyyətlərdən xilas

etməyin yeganə yolunu elmə yiyələnməkdə, hüquqi cəmiyyətlər qurmaqda görürdü və bu fikri bütün İslam Şərqinə, dünyanın despotik rejimlərində yaşayan xalqlarına aid idi. İnsanlığın ümumi qanunlarını ifadə edərək deyirdi: "Ey əhli İran, əgər sən nəşeyi-azadiyyətdən və hüquqi-insaniyyətdən xəbərdar olsaydın, belə übudiyyətə, belə rəzalətə mütəhəmmil olmazdın, kəsb-elmə talib olub fəramuşxanələr açardın, məcmələr yapardın və saili-ittifaqi dəryaft edərdin. Sən ədəbdə və istitaədə despotdan bimaratib artıqsan. Sənə ancaq yekcəhətlik və yekdillik lazımdır ki, revolyusiya edib übudiyyətdən nəcatat tapasan. Əgər bu halət, yəni ittifaq sənə müyəssər olsaydı, özünə bir fikir çəkərdin və özünü puç əqaidin qeydindən və despotun zülmündən nəcat verərdin" (132, 39-40).

"Qəflət yuxusundan oyan və zalımın atasının goruna od vur!" (132, 12) deyə xalqdan inqilab tələb edən M.F.Axundovdan sonra elmi müddəaları ilə Şərqdə milli inkişaf yolunu göstərən, elmi nəzəriyyəsini həyata keçirməklə **Asiya xalqlarının milli-azadlıq mübarizəsinə şəxsən rəhbərlik edən Azərbaycan türk mütəfəkkir etnoloqu Ş.C.Əfqani (1838-1897) idi. O, Əfqanıstanda Baş nazir vəzifəsində olmuş, dövrü mətbuatı təşkil etmiş, Misirdə yaşamış, Misir universitetində professor işləmiş, burada satirik mətbuatı təşkil etmiş, Ərabi paşa üsyanlarının rəhbərlərindən biri olmuşdur. Hindistana köçüb Heydərabadda məskunlaşmış ingilislərin təkidi ilə ölkədən çıxarılmışdı. Tehranda yaşamış, Qacarlar səltənətində milli-azadlıq hərəkatının ideoloquna çevrilmişdi. Ömrünün bir hissəsini Osmanlı imperiyasında "gənc türklər" hərəkatının ideoloqu olub, Londona köçmüş, oradan Parisə getmiş, qəzetçiliklə məşğul olmuşdu. ABŞ və Rusiyada qısa müddətli yaşaması haqqında məlumatlar var. Müasirləri onu "Böyük bir müsəlman", "Müsəlman dünyasının mümtaz siması", avropalılar "Böyük bir şərqli" adlandırırdılar. "Şərq**

və Qərb mədəniyyətinə vaqif bir şəxsiyyət", "ümumi müsəlman aləminin siyasi xadimi, inqilabçı türkçülüyün nəzəriyyəçisi" hesab olunurdu. Ərəb, fars və türk dillərini, Avropa dillərindən fransız, rus və ingilis dilini bilməsi sayəsində Avropa və Şərq dünyasının, onun ictimai elmlərini yaxşı mənimsəmişdi (107, 7-12).

İslam Şərq xalqları istisna olmaqla Avropa xalqları Ş.C.Əfqanini yaxşı mənimsəmişdir. Fransız və ingilis dillərində yazdığı əsərlər bu ölkələrdə nəşr olunub. Onların istifadəsində qalmış ərəb, fars və türk dillərində yazdığı əsərlər avropa dillərinə çevrilib mənimsənilmişdi.

Hörmətli oxucu, dünyanın mütərəqqi dəyişməsi istiqamətində xidməti olmuş və dünyanı dəyişdirmək qüdrətində olan bu böyük fəlsəfi və etnoloji irsdən biz yalnız Şamil Qurbanovun (bu işi üçün ona rəhmət diləyir, ruhu qarşısında baş əyirik) Azərbaycan türkcəsində nəşr etdiyi bir neçə məqaləsi, məktub və müsahibəsi və özünün Ş.C.Əfqani haqqında yazdığı bir kitabla tanışıq. İmperiyalar, xüsusilə Kommunist Rus Sovet imperiyasının yetişdirib alim adlandırdığı proletar-muzdur zümrəsi böyük, yaradıcı mənəvi irsimizə qovuşmağa, ondan bəhrələnməyə Azərbaycan türklərinin ən yeni dövr nəslinə imkan verməmişdir.

A.A.Bakıxanov, M.F.Axundov, Ş.C.Əfqani – bu üç böyük mütəfəkkir, hər biri müəyyən mərhələdə millətin qarşısında duran yeni vəzifəni və həyata keçirilməli tədbirləri müəyyən edib ona yaradıcı, səfərbəredici ruh verdilər.

A.A.Bakıxanov İslam Şərqinin tarixən heç də məğlub xalq olmayıb, yaradıcı adət-ənənələrə, təfəkkürə malik olduğunu, bunun nümunəsi kimi Azərbaycan türklərinin tarixini nümunə göstərdi. M.F.Axundov tarixən yaradıcılıq gücü olan bu xalqların sönmüş ruhunu canlandırmaq üçün onların adət-ənənələrini, təfəkkürünü elmlə qidalandırmağı despotik rejimləri dəyişmək, lazım gələrsə, inqilab edib

"despotun, zalımın atasının goruna od vurmaq" milli vəzifə kimi irəli sürdü. M.F.Axundovun etnoloji ideyalarını yaradıcılıqla inkişaf etdirən Ş.C.Əfqani Şərq İslam dünyasına yaradıcılıq ruhu verməyin yeni yolunu müəyyən etdi, milli vəhdət nəzəriyyəsini yaratdı. Avropada kapitalizmin inkişafı prosesində yaranan millətləşmənin mənəvi-ideoloji strukturunu yenidən qurmaqla İslam dini ideologiyası altında vahid millət təəssüratı yaradan Şərq İslam xalqlarının ayrı-ayrı toplumlar kimi millətləşməsinə nail olmağı bir vəzifə olaraq irəli sürdü. Bu məqsədə çatmaq yolunda inqilab etməklə bərabər, "Zalımı öldürmək gərəkdir... Qansız məqsədə yetmək olmaz. Firəng tarixinə nəzər salın! Böyük məqsədlərə çatmaq üçün nə qədər qan tökdülər" (107, 60-61), deyə lazım gəlsə zalımı öldürməkdən çəkinməməyi belə tövsiyə edirdi.

Ş.C.Əfqani Avropa müstəmləkəçilərinə qarşı Asiya xalqlarının milli-azadlıq hərəkatını təşkil etməyə çalışanda artıq Avropa Asiyanı şirin özündən qat-qat 4 dəfə böyük və qat-qat güclü Turun hülqumunu qırıb astaca-astaca parçaladığı Turu xatırladırdı. Odur ki, Ş.C.Əfqani Şərq xalqlarının mübarizəsinə məhz Avropadan başladı.

Ş.C.Əfqani müəyyən etdi ki, şirə özündən 4 dəfə böyük və güclü Turu məğlub etməyə, imkan verən iti, kəsici dişi olduğu kimi Avropaya özündən dörd dəfə böyük Asiya üzərində hakimiyyətini qurmağa, onu öz yeminə çevirməyə imkan verən elmdir. Dərin elmi araşdırmalarla sübut etdi ki, "elm bir nəfərin gücünü on nəfərə, yüz nəfərə, min və on min nəfərə bərabər edir" (115, 28). Deməli, hər bir fərdin və millətin gücü onun elmindədir.

Yuxarıda istifadə etdiyimiz mənbə və ədəbiyyatlar göstərir ki, hələ qədimlərdən Azərbaycan mütəfəkkirləri elmi yaradıcı qüvvə hesab etmişlər. Ş.C.Əfqani özündən əvvəlki mütəfəkkirlərdən fərqli olaraq, elmin kütləviləşməsi, bütün-

lükdə millətin elmə yiyələnməsi məsələsini və həyata keçirməyi bir vəzifə olaraq irəli sürdü, yolunu da göstərdi. Ş.C.Əfqani müəyyən etdi ki, "alimlər millətin mahiyyətini və ariflər onun məziyyətlərini o zaman yaxşı aşkar və izah edərlər ki, təhsil, təlim, tədris, milli təbəqələrin fənlərindən istifadəsi o millətin öz dilində olsun. Onda millət möhkəm, sabit və əbədi ömür sürə bilər, millətin əsas gözə görünən səadət və xoşbəxtlik kimi əlamətləri isə onun bütün üzvlərinin nəsibi olar.

Bunu daha yaxşı anlamaq üçün istəyirəm başqa ibarələrlə deyim: elmlər, maarif, bütün sənət növləri öz dilində tədris olunarsa və bu şərt həyata keçirilərsə, həmin millətlərin əsasları daha möhkəm, daha sabit olur və uzun müddət zavala uğramaz. Hətta həmin millətin elmi və maarifi müəyyən bir dövrdə zavala uğramış olsa belə, bu millətin övladları və nəvələri öz sələflərinin kitablarından və əsərlərindən faydalanaraq dübarə özünün məhv olmuş millət və qövmünü dirçəldəcək, onu yeni şan-şöhrətə çatdıracaqdır" (115, 13).

Sözünə davam edən Ş.C.Əfqani yazır: "Onu da nəzərə almaq lazımdır ki, elm və maarif əgər millətin öz ana dilində tədris olunarsa, onların öyrənilməsi daha asan olar, beyinlərə daha tez həkk edilər, daha gec unudular, elmlərin dəqiqliyinə daha artıq vaqif olunar, elmin mahiyyəti və mənfəəti daha yaxşı aydınlaşar. Bununla da sənaye sahəsində fəzilətli adamların, alimlərin, fənn sahiblərinin sayı çoxalar, millətin üzünə səadət qapıları açılar" (115, 13-14).

Ş.C.Əfqani yazır: "Elm və maarif o zaman millətin şərəfinə səbəb olar ki, hamı ondan istifadə edə bilsin. Doğma dildə olmayan elm və maarif isə hamının malı ola bilməz" (115, 15).

Ş.C.Əfqani dil nəzəriyyəsi ilə əsrlərlə ərəb dilinin "Quran" dili, peyğəmbər dili, Allah dili deyə İslam xalqlarına

yazı dili ənənəsinə son verməyin zəruriliyini, eynilə fars dilinin süni surətdə poeziya, yazı dili hesab edilməsi ənənəsinin xalqlarda elmlərin kütləviləşməsinə, millətləşməsinə imkan verməyən başlıca səbəb olduğunu əsaslandırdı.

Şərq dünyasının ən böyük iki düşməndən eyni vaxtda qorumaq məcburiyyətində qalmışdı. Bunlardan birinci ən qorxulu, Şərqi rəzil vəziyyətə salmış cahil, "din xadimlərinin" yaratdığı xurafat və despotik rejimlər, digəri isə demokratiya maskası geymiş Avropa imperializmi, müstəmləkəçiliyi idi.

Fransanın tanınmış filosofu Ernest Renan "İslam və din" adlı kitab yazıb. O, antiislam ideoloqları ilə şəxsən görüşmək üçün Parisə gedir, İslam dini və mədəniyyəti haqqında konfrans çağırmağa nail olur. Konfransda birinci olaraq E.Renan və onun tərəfdarları çıxış edirlər. E.Renan çıxışı zamanı bildirir ki, İslam dini elmə, fəlsəfəyə, azadlığa təşviq etmir. Çünki qəzavü-qədərə inam buna mane olur. Buna görə də İslam aləmində fəlsəfə ilə məşğul olanların hamısı məhv edilmiş, kitabları yandırılmışdır. E. Renan yekun olaraq deyir: "Hər halda İslam fəlsəfəsi deyilən şey yunan fəlsəfəsinin tör-töküntüsündən başqa bir şey deyildir və heç kəs onlara müraciət edib faydalanmayıb" (105, 52).

Nəhayət, söz demək növbəsi Ş.C.Əfqaniyə çatır. O, çıxışının ilk cümlələrində iddiaçılara təqdim etdiyi dəlilləri və elmi arqumentləri ilə zalı dərin bir sükuta qərq edib, hamını dinləməyə, düşünməyə məcbur etdi. Bunun ardınca dində və elmdə, Avropa və Asiyanın tarixində olan eyniyyətləri dinləyicilərin diqqətinə çatdıraraq deyir: "Elmə qarşı mühafizəkarlıq bütün dinlərdə olmuşdur. Katolik dinində bu, indi də vardır. Amma nəzərə almaq lazımdır ki, İslam dininin yaranması ilə ərəb dünyası vəhşilikdən xilas oldu. Xüsusən İran və yunan fəlsəfəsini əldə etdikdən sonra ərəb elmləri misli görünməmiş şəkildə inkişaf etdi və bu inkişaf ərəblərin

nüfuzu altında olan bütün məmləkətlərdə hiss olundu. O zaman Rum və Bizans asimani və fəlsəfəsi elmlərin mərkəzi idi. Sonra elə bir zaman gəldi ki, bu iki mədəniyyət alimləri təhqiqat və tədqiqatdan geri qaldılar və elm üçün qaldırdıqları bayraqlar yox oldu. Ərəb ayıldı və mədəni millətlərin əldən verdikləri elmləri əldə etməyə çalışdı. Buna görə də onlar köhnəlmiş elmləri təzədən diriltdilər. Ərəblər həmin köhnəlmiş elmlərə o qədər gözəllik və parlaqlıq bəxş etdilər ki, heç bunlar keçmişdə o elmlərdə yox idi. Belə olduqda aydın deyilmi ki, bu millət elmsevər bir millətdir" (107, 52-53; 115, 50-51).

Sözünə davam edən Ş.C.Əfqani deyir: "Bu doğrudur ki, ərəblər fəlsəfəni yunanlardan almışlar. Ərəblərə məxsus elmlər iranlılardan gəlirdi, bir fərqlə ki, bu elmləri ərəb alimləri genişləndirmiş, ona məntiqi intizam bəxş etmişdilər. Bunun oxşarlığını başqa millətlərdə az tapmaq olar. Fransızlar, almanlar, ingilislər Rumdan və Bizansdan o qədər də uzaq deyillər. Bu iki elm xəzinəsindən istifadə etmək onlar üçün daha asan idi, amma buna baxmayaraq istifadə etməmişlər. O vaxta qədər ki, ərəb məşəli Bizans dağlarının başında nur saçan gün gəlib çatdı və öz işığını Qərbə tərəf saldı. Artıq elə bir vaxt gəldi ki, avropalılar Aristoteldən asanlıqla istifadə etməyə başladılar, halbuki ərəb ictimaiyyətində Aristotel çoxdan dolaşırdı. Aristotel ərəb paltarı geyinənə qədər Avropa ona maraq göstərmir və heç onu xəyalına da gətirmirdi. Aya məgər bu ərəblərin elmə maraqlarının daha parlaq nümunəsi deyilmi?" (107, 53-54; 115, 51-52).

Avropa təfəkkür tarixindən götürdüyü faktlarla Paris fəlsəfə konfransına dinləməyi diqtə edən Ş.C.Əfqani dinə münasibətini bildirərək deyir ki, İslam "elm dinidir, cihad və mübarizə dinidir, yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək dinidir, izzət dini və zilləti qəbul etməmək dinidir, məsuliyyət dinidir" (107, 62; 115, 42-44). "Elm və mədə-

niyyətə ən yaxın və ən doğma din İslam dinidir, elm və maarifin inkişafı ilə İslam qanunları arasında heç bir ziddiyyət yoxdur" (115, 33).

Ş.C.Əfqani çıxışını aşağıdakı sözlərlə yekunlaşdırır: "Din üstün olduğu zaman həmişə fəlsəfəni aradan qaldırmaq istəmişdir. Fəlsəfə üstün olduğu zaman isə bunun əksi mövcud olmuşdur. Bəşəriyyət durduqca məzhəb ilə vicdan azadlığı, din ilə fəlsəfə arasındakı mübarizə bitməyəcəkdir. Bu kəskin mübarizədə vicdan azadlığının qalib gəlməyəcəyindən ehtiyat edirəm. Çünki böyük həqiqət xalqın xoşuna gəlmir və həqiqət haqqındakı biliklər yalnız bir qisim seçilmiş zəkalar tərəfindən anlaşılır. Çünki elm nə qədər faydalı olursa-olsun, insanlığı tamamilə təmin etməməkdədir. İnsanlıq ideala sığınır, filosof və alimlərinin görmədikləri və şərh etmədikləri uzaq və qaranlıq yerlərdə faydalı olmağı sevir" (115, 56).

Ş.C.Əfqani bu konfransda elmin gücü haqqında özünün nəzəri müddəalarını əyani olaraq sübut etdi. Elmdə və fəlsəfədə güclü olaraq Şərqin Avropa fəlsəfə məclisini susudurdu, onu düşünməyə məcbur etdi. Nitqinin sonunda Avropa etnologiyasına və fəlsəfəsinə yaxın 20-30 ilə qəbul ediləcək ideya və müddəalar verdi. Elə bu məclisdə Ş.C.Əfqaninin mənsub olduğu Azərbaycan türklərinin yaratdığı "qanmaz dostun olunca, qanan düşmənin olsun" hikməti ali səviyyədə təsdiqini tapdı. E.Renan Ş.C.Əfqaninin onun təsəvvüründə canlandırdığı Şərqin alim, elmi böyüklüyünü təsvir edərək yazdı: **"Şeyx Cəmaləddin ilə bundan iki ay əvvəl tanış oldum. İndiyə qədər çox az adam üzərimdə bu qədər qüvvətli təsir buraxmışdır. Düşüncələrində sərbəstlik, əsl və mərd xarakterli, özü ilə söhbət etdiyim əsanada İbn-Sina ilə İbn-Rüştdən birinin bilib qarşıma çıxdığı hissini verirdi"** (115, 71). E.Renan yazırdı ki, o gündən Ş.C.Əfqani ilə mənim aramda heç bir anlaşılmazlıq, ixtilaf qalmadı, İslam dininin

fəlsəfi və elmi mahiyyətini ona ən yaxşı izah edən Cəmaləddin Əfqani olmuşdur (107, 54).

Ş.C.Əfqani etnologiyasında milli vəhdət nəzəriyyəsində milli vəhdətin əsası kimi din və dil birliyi vəhdətdə götürülür, o, dərin elmi araşdırmalar və etnososial proses tarixi haqqında faktlara istinad edərək dil birinci əsas kimi göstərərək yazır: "İnsanları bir-birinə bağlayan qüvvə iki vacib şeyi tələb edir, bunlar olmasa birlik də ola bilməz. Bunlardan biri məhz həmin dil birliyidir. Buna milli vəhdət də deyirlər, digəri din birliyidir. Heç şübhə yoxdur ki, dil birliyi, yəni milli birlik dini birlikdən daha möhkəm və sabitdir. Çünki dil az müddət ərzində dəyişməyi və ya başqası ilə əvəz olunmağı qəbul etmir. Din isə belə deyil. Tarix göstərir ki, eyni bir dildə danışan bir millət min il ərzində öz dilinə ciddi xələl gətirmədən dinini dəyişir, başqası ilə əvəz edir. Buna görə də dil birliyindən yaranan əlaqə və ittifaqın təsiri dini əlaqələrin təsirindən daha güclüdür" (115, 10).

Ş.C.Əfqaninin "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti" əsərinin ilk cümlələri belədir: "Millətdən kənarda səadət yoxdur, dilsiz də millət ola bilməz. Əgər bir millətin bütün sənət və peşə sahiblərinin ünsiyyəti və istifadəsi üçün lazımi ehtiyacı təmin etmirsə, onu dil adlandırmaq olmaz" (115, 8). Əsərdən göründüyü kimi, millətə mənsub olmanı fərdin xoşbəxtliyi kimi irəli sürsə də, əsasən fərdlər arasında vəhdət yaradan dil və dindən, harmonik sosial təbəqələrin varlığından, xüsusən ziyalı təbəqədən, milli dil anlayışı əsasında yaranan mədəniyyəti milli vəhdətin təməli kimi əsaslandırmışdı. Milli vəhdətin təməl prinsiplərindən olan milli mənlik (milli kimlik) şüurundan bu əsərdə bəhs etməmişdir. Ş.C.Əfqaninin "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti" əsərini ilk dəfə Azərbaycan türkcəsinə tərcümə edən (1911), onun başqa əsərləri üzərində araşdırma aparan, nəzəri irsini mükəmməl mənimsəyən

Məhəmməd Əmin Rəsulzadə yazır ki, milli vəhdətin yaranması, millətləşmə, milli vəhdətin qorunması və inkişafında milli mənlik şüurunun funksiyası və səviyyəsi məsələsindən də Şərq İslam dünyasında ilk dəfə Ş.C.Əfqani bəhs etmişdir (107, 10, 24; 138, 48-52).

Ş.C.Əfqani bir etnoloq olaraq insanlıq-mənəviyyat qanunlarını mükəmməl mənimsəmişdi, onun "həyat ruhu" (115, 8-22), xüsusi etnososial mənəvi həyatın mövcudluğu onun məzmun və forması haqqında şərhinə diqqətlə nəzər saldıqda (Hegelin ruhda psixi proseslərin rolu məsələsinin izahı nəzərə alınmazsa) etnosda "həyat ruhu" məsələsini daha mükəmməl və obyektiv dərk olunduğu, kəşf olunduğu aydın görünür. Milli varlığın və onun inkişafının əsasında ideyaların dayandığını birmənalı qəbul etdiyini, İslam Şərq xalqları arasında bu ideyanın dərk edilməsi və yaradılmasında özünün də rolunun yetərincə olduğunu həyatının sonunda yazdığı bir məktubunda aydın ifadə etmişdir.

Qanan düşmənlə qanmaz həmcinsin (millətdaşın) fərqi aydın idi ki, o, Hindistanda və Misirdə İngiltərəyə qarşı üsyanların təşkilatçılarından biri olmasına baxmayaraq, Böyük Britaniyada sərbəst yaşayırdı. Lakin nə Qacarlar monarxiyasının hökmdarı Nəsrəddin şah, nə də Osmanlı imperatoru Sultan Həmid onun haqlı tənqidinə qarşı qəzəblərini boğa bilmirdilər. Müxtəlif hiylələrlə Ş.C.Əfqanini İstanbula gətirib əvvəlcə nəzarətdə saxlayır, sonra həbs edib, fiziki cəhətdən öldürüblər.

Ş.C.Əfqani həbsxanadan məsləkdaşlarına son məktubunda yazır: " Əziz iranlı həmməsləklərim! Mən bu məktubu Sizə həbsxanadan yazıram və indi dostlarımla görüşməkdən məhrumam. Artıq nə azadlğa ümidim var, nə də yaşamağa. Amma nə tutulmaqdan kədərlənirəm, nə də ölәcəyimdən qorxuram... **Lakin onlar başa düşmürlər ki, fikir sahibini məhv etmək onun fikirlərəni məhv etmək vasitəsi ola**

bilməz. Həyatın özü haqq sözləri əbədi olaraq öz səhifələrnə həkk etmişdir... Yenilik seli artıq Şərqə doğru axmaqdadır. Mütləqiyyət hakimiyyətinin bünövrəsi məhvə məhkumdur. Bacardığınız qədər bu hakimiyyəti bünövrədən dağıtmağa səy edin. Gücünüz çatdığı qədər İranın səadəti uğrunda çalışın. Gücünüzü başqa işlərə sərf etsəniz, vaxtınız boşa gedər. Köhnə adətlərə alışmış adamları yolundan çəkindirməyə başlasanız, bu sizin işinizi ləngidər. Elə edin ki, sizinlə başqa xalqlar arasında mövcud olan maneələri aradan qaldıra biləsiniz. Mövhumatçılara uymayın" (115 63-64).

Zaman Böyük Azərbaycan türkü, Şərq milli-azadlıq hərəkatının lideri Ş.C.Əfqaninin bu nəzəriyyəsinin bütün dövrlər üçün düzgün olduğunu təsdiq etdi.

Şərq milli-azadlıq hərəkatının görkəmli liderlərindən Cəvahirləl Nehrunun Ş.C.Əfqaninin ideyalarını, zəkasını və şəxsiyyətini yüksək qiymətləndirib, ideyalarının Hindistanın hindli ayinlərində yeniləşdirilməsi üçün faydalılığını nəzərə alsaq (115, 69), Ş.C.Əfqani yalnız İslam dünyasının deyil, bütün Asiya xalqlarının milli-azadlıq ideologiyasının, onu tənzimləyən etnologiya elminin lideri, yaradıcısıdır.

"Millətdən kənarda səadət yoxdur" deyən Ş.C.Əfqani milliyyətcə Azərbaycan türkü idi (107, 7-8; 115, 67-68). Amerika alimi, professor Nikki Keddi öz tədqiqatlarında göstərir: "İran alimləri C. Əfqanini fars kimi qələmə verməyə çalışsalar da, onun ləhcəsinin Azərbaycan türkcəsinə yaxın olduğu faktını gizlədə bilmirlər" (107, 8).

Ş.C.Əfqani milli qüruru, milli varlığın qorunması və yaşadılmasının əsas şərtlərindən biri hesab edərək yazırdı: "Məgər ağıllı bir adam başqalarının iftixar etdiyi şeyi öz fəxri saya bilərmi? Başqa bir millətlə fəxr etmək aqilanə işdirmi? Cahil bir millətlə fəxr etməyi heç bir ağıllı adam özünə rəva bilməz" (115, 15). Təbii ki, belə bir müddəa ilk öncə onun öz şəxsiyyətinə aid idi. O bu ruhu mənsub olduğu

Azərbaycan türklərinə məxsus biososial genlərindən qəbul etmiş, dünyaya göz açdığı ilk Azərbaycan türk mühitindən və tarixindən almış və türklərin Avrasiya materikində tarixi rolundan doğan qürur, xilaskarlıq missiyası onu bəşəri bir şəxsiyyət, istiqlal ideoloqu kimi yetişməsində mühüm rol oynamışdı. Elə bu səbəbdən də ərəblər onu ərəb, hindistanlılar hindli, farslar fars, əfqanlar əfqan türkü, Osmanlılar osmanlı, Azərbaycanlılar Azərbaycan türkü kimi tanıyır və sevirdilər. Ş.C.Əfqani də onların hamısını eyni dərəcədə sevir, savadsızlıqlarını aradan qaldırmaqla cəhalətdən çıxmalarına, azadlıqlarına və istiqlal qazanmalarına çalışırdı.

Ş.C.Əfqaninin yuxarıda göstərdiyimiz xalqların hamısından və başqa xalqlardan şagirdləri, mənəvi varisləri vardı. Onlar Ş.C.Əfqaninin inqilabi və elmi yaradıcılıq konsepsiyasını davam etdirdilər və bu gün də davam etmədədirlər. Tarix göstərir ki, Ş.C.Əfqaninin ideyalarını uğurla həyata keçirməyə nail olan varisləri də elə mənsub olduğu Azərbaycan türkləri arasından çıxmışdı. Elmi şüurun kütləviləşə bilməməsindən dini və milli adət-ənənələrin doğurduğu mühafizəkarlığın mənəviyyata öldürücü təsiri, nəinki elmi, bədii təfəkkürdə də müzakirə və təhlil olunurdu. A.A.Bakıxanov, M.F.Axundov, Ş.C.Əfqani və b. problemin həllini ziyalının həll etməli olduğu milli vəzifə kimi irəli sürürdü.

M.F.Axundov və Ş.C.Əfqani ilə yaxınlıq etmiş M.Ə.Talıbov İslam Şərq dünyasının məhz adət-ənənədən qidalanan həyat tərzinin, xalqların yaradıcılıq ruhunu öldürməsini təsvir edən, etnoloji mühakimələrlə izah edən "Kitab yüklü eşşək" romanını, Z. Maraği "İbrahim bəyin səyahətnaməsi" romanını bilə-bilə zalimə adil, cahilə alim, xəsisə səxavətli deyə tərifləyən arsız və elmsiz adamlardan ibarət toplumun real etnoqrafik mənzərəsini yaratmışdı. Bu əsərlər cəmiyyətə düşündürücü təsir etdi.

Artıq Azərbaycanda İslam və Avropa fəlsəfəsi etnoloji fikrini sintez edən, A.A.Bakıxanov, M.F.Axundov, Ş.C.Əfqani yaradıcılığını mənimsəyən, cəmiyyətdə gedən milli-siyasi, etnososial, iqtisadi-siyasi proseslər üzərində apardığı müşahidələr, mühakimə və təhlillər zəminində Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun, M.Ə.Rəsulzadənin yaradıcılığında etnologiya elmi yüksək səviyyəyə çatmışdı, insanın mənəvi dünyasını təşkil edən elementlərin hər birinin ayrılıqda funksiyasını, sistem halında yaratdığı yeni mahiyyəti dəqiq müəyyən edə bilirdi. Bununla da millətə yaradıcılıq ruhu verən mənəvi dəyərlər, xurafatı və mühafizəkarlığı möhkəmləndirən mənəvi sistemə təsir edib, onu yaradıcı hiss və bilgilərlə qidalandırmaqla xurafatdan təmizləməyin, mühafizəkarlığı yumşaltmaqla topluma yeni dəyərlər aşılamağın üsul və metodları yaradılırdı. Azərbaycanda etnologiya elminin səviyyəsi milləti bütövlükdə hərəkətə gətirəcək elmi ideologiyanın yaradılmasına imkan verirdi.

İlk öncə Ə.Hüseynzadə, Ə.Ağaoğlu, İ.Qaspiralı, M.Ə.Rəsulzadə, Ş.C.Əfqaninin nəzəri irsi əsasında "ümmətçilikdən "millətçiliyə", "islamçılıqdan" "türkçülüyə" keçilməsi ideyasını formulə etdilər (138, 48-49). Bu ideyanın cəmiyyətə aşılanmasının qısa müddətə yaratdığı oyanış milli ideologiyanın yaradılması ideyasını sürətləndirməklə bərabər onun mənəvi əsaslarını müəyyən etməyə imkan verdi. Beləliklə, Azərbaycanın görkəmli etnoloqları Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə Azərbaycan türklərinin milli ideologiyasını "türkləşmək, islamlaşmaq və müasirləşmək" kimi formulə etdilər. Bu ideologiya qısa müddətdə bütün türk xalqlarının milli ideologiyasına, onun yaradıcıları isə türk xalqlarının milli-azadlıq hərəkatının siyasi liderlərinə çevrildilər (138; 95, 191-237).

"Türkləşmək, islamlaşmaq və müasirləşmək" ideologiyası ona görə qısa müddətdə bütün türk xalqlarının milli ideo-

logiyasına çevrilə bildi ki, bu ideologiya yüksək elmi etnoloji araşdırma əsasında türk xalqlarının qarşısında duran, ona yaradıcılıq ruhu verən gələcək mənəvi həyatını təmin edəcək bütün mənəvi dəyərləri, onun elementləri nəzərə alınmış, onların hamısını ehtiva etmişdi. Birinci müddəa türkçülük - milli mənlik şüuruna malik olmağı, soy-kökə, milli mədəniyyətə və əxlaqa, adət-ənənəyə, bütövlükdə mənəvi dəyərlərə, milli qürura bağlılığı, bu dəyərləri milli təməl üzərində yeniləşdirməklə inkişaf etdirilməsini və yaşadılmasını ikinci müddəası islamlaşmaq - xurafatdan, təriqətdən, cəhalətdən təmizlənməyi, "Qurani-Kərim"i ifadə edən İslam dinini, onun mənəvi dəyərlərini, ideya-mənəvi sistemini yaşatmağı, canlandırmağı, üçüncü müddəa - müasirləşmək Avropanın elmini, sənayesini, texnologiyasını mənimsəməyi ifadə edirdi. Sonuncu müddəa ilkin olaraq "avropalaşmaq" kimi formulə edilmişdi. Düzgün anlanılmayıb Avropanın mənəvi dəyərlərinin bütövlükdə qəbul edilməsi kimi dəyərləndirildiyindən, sonda "müasirləşmək" kimi formulə edildi. Bu da "avropalaşmaq" kimi başa düşüldüyündən Ə. Hüseynzadə ona əlavə şərh yazmağa məcbur oldu. O, yazdı: "... biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maarifləri nə, kəşfiyyat və ixtiralarına müraciət etmək istiyoruz, özlərinə deyil! Biz istəriz ki, islam ölkəsinə onların beyinləri, dirmağları girsin, boğazları, mədələri girməsin! Biz istəriz ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın" (141, 17). Avropa elminin mənimsənilməsi məsələsi hələ vaxtilə Ş.C.Əfqani tərəfindən irəli sürülmüşdü, lakin mənfi qarşılanmışdı. Ş.C.Əfqani onlara cavab verərək yazırdı ki, bir vaxtlar avropalılar elmləri Şərqdən əxz etmişlər, indi "biz Avropaya müraciət ediriksə, öz malımızı geri istəmiş oluruq. Burada pis heç nə yoxdur" (107, 23; 95, 192).

Elmi-tədqiqat pərdəsi altında Avropa etnologiyası tarixi

səbəblərdən tənəzzül etmiş Şərq xalqlarını onların adət-ənənəsini, əxlaqını, davranış stereotiplərini, milli psixologiyasını, ümumiyyətlə, mənəvi dəyərlər sistemini öyrənib, onlara milli dəyərlərə zidd ideyalar aşılamaqla, milli dəyərlərə yad həyat tərzi elementləri daxil etməklə, ardıcıl məğlubiyyət hissi aşılamaqla, mənfi emosiyaların fasiləsiz təsirində saxlamaqla, böhtan və şaiyələrlə, liderlərini gözdən salmaqla, özlərinə inamsızlıq yaratmaq kimi üsullarla xalqları kütlə halına salır və bu vəziyyətdə saxlayaraq müstəmləkəçilik siyasəti yeridirdi, irqçilik aləti olmaqda davam edirdi.

Osmanlılar – Anadolu türkləri istisna olmaqla, bütün türk xalqları, o cümlədən Azərbaycan türkləri Avropa etnologiya elminin nəzəri sistemi və tövsiyələri əsasında əsarət altına salınmışdılar. Avropa işğalçıları, etnoloqları Osmanlı imperiyasının tarix səhnəsindən silinməsinin etnomənəvi, siyasi-iqtisadi, hərbi planlarını işləyib-hazırlayırdılar.

Müstəmləkəçi Avropanın etnologiya elminin mənəvi-psixoloji sistemini dəf etməklə türk və müsəlman xalqların Avropa və Rus imperiyasının mənəvi-psixoloji təsirinə düşməsinin qarşısını almaq məqsədi yeni dövr müstəmləkəçilik tarixində ilk dəfə Ş.C.Əfqani, Ə.Hüseynzadə, Ə.Ağaoğlu və M.Ə.Rəsulzadənin yaratdıqları etnoloji nəzəri sistemdə qoyulurdu. Onlar Rus imperiyasının əsarəti altında olan türk və müsəlman xalqlara özünəgüvənc, qürur, təşkilatlandırıcı, idraki ideyalar aşılamaqla onlara yaradıcılıq ruhu, milli-azadlıq ideyaları aşıladılar, həm milli-azadlıq hərəkatlarına, həm də nəhayət müstəqil dövlətçilik ideyalarına yiyələnmələrinə və onu gerçəkləşdirmələrinə rəhbərlik etdilər.

Ə.Hüseynzadə, Ə.Ağaoğlu və M.Ə.Rəsulzadənin ədəbi, fəlsəfi və siyasi yaradıcılıqlarından son illərdə qismən bəhs olunsa da, amma təəssüf ki, onların yaradıcılıqlarında başlıca yer tutan etnoloji nəzəriyyələri haqqında bir kəlmə də olsun danışılmamışdır. Onların əsərləri tam nəşr olunma-

dığından, əlimizdə olan cüzi əsərləri ilə kifayətlənməli oluruq. Məsələn, **Ə.Hüseynzadənin "Türklər kimdir və kimlərdən ibarətdir?", "Qərbin iki dastanında türk", "Qırmızı qaranlıqlar içərisində yaşıl işıqlar" kitabında toplanmış məqalələri. Ə.Ağaoğlunun "Sərbəst insanlar ölkəsində", "Üç mədəniyyət", V.Quliyevin "Ağaoğlular" kitabına daxil edilən məqalələri yüksək elmi-nəzəri səviyyədə yazılmış etnoloji əsərlərdir. Ə.Ağaoğlunun dünya etnologiyasının şah əsərlərindən sayıla bilən "Üç mədəniyyət" əsəri əsarətə, totalitar və avtoritar rejimlərə məruz qalmış batan xalqların özünüdərk, köləlik ruhundan və məğlubiyyət hissindən, mənfi emosiyalardan azad edilməsi üçün psixoloji və mənəvi müalicə vasitəsidir** (162).

M.Ə.Rəsulzadənin iki cilddə nəşr olunmuş əsərləri (145; 146) klassik etnoloji əsərlərdir. "İran türkləri" və "Milli birlik" əsərləri onun etnologiyanı, xüsusən mənəvi mədəniyyətin nəzəriyyəsini mükəmməl bilməsinin göstəricisidir. Bir - mənalı demək olar ki, M.Ə.Rəsulzadənin "İran türkləri" (azərbaycanlıları) əsəri səviyyəsində Cənubi Azərbaycan haqqında ikinci bir əsər yazılmamışdır. Tarixi mənbələri Azərbaycan türklərinin mənəviyyatını dərindən təhlil edib, onun tənəzzül səbəblərini arayan M.Ə.Rəsulzadə müəyyən etdi ki, "əsrlərdən bəri İranın hakim siniflərini türklər təşkil ediyordu.

Azərbaycan xəlqi idarəcə gördüyü ağırlığı başqalarından deyil, öz cinsindən gördüyü üçün həqiqi məhkumiyyətini, mənəviyyatca başqa bir hərsin məhkumu olduğunu dərk etmiyordu. O, get-gedə farslaşıyordu. Xəvvas təhsilini farsca görüyor, fars tərbiyəsi alıyor, fars kibi düşünüyor və kəndisinin doğrudan-doğruya iranlı olduğuna qane oluyordu. Xəlqi həll və əqidini əlində bulunduran bu xəvvas kibi mənəviyyatına hakim olan üləma sinifi dəxi eyni ruhda, eyni tərbiyədə və eyni zehniyyətdə idi... Türkcə, əvvam və köylü lisanı ədd olunmuş, lisani-rəsmi və ədəbi olmaq üzrə farsi

təmin eyləmiş nəticədə tühəf bir millət vücudə gəlmişdi: dili başqa, yazısı başqa bir millət!

Məvarayi-Əras Azərbaycanın halı bu haldır. Orada hər kəs türkcə söylər, fəqət iş yazıya gəlincə farsi kəsilər" (147, 14). M.Ə.Rəsulzadənin aşağıda iqtibas edəcəyimiz fikrindən aydın olur ki, yuxarıda iqtibas etdiyimiz fikir əsasən ziyalı təbəqəsinə aiddir. M.Ə.Rəsulzadə yazır: "Əvət! Rəhləsi üstündən enməyən Füzulisi, Koroğlu ilə bağlı Yanıq Kərəmə ağlayan aşiqləri, bu aşiqlərin ürək dağlayan sazları ilə çobanların ruhə sinən türküləri, cocuqların sevə-sevə oxuduqları maniləri, anaların yavrularını uydurarkən çağırdıqları niniləri – xəvvasinin düşüncəsi ilə kəndisini iranlı bilən bu xəlqin müdhiş bir zəlalətdə olduğunu göstərir:

- Xayır, degil, sən türksən! – diyordu" (147, 13).

M.Ə.Rəsulzadə Azərbaycan türklərinin milli hisslərinin bütün incəliyinə qədər oyanmasının səbəbi haqqında yazır: "Şimali Azərbaycan, Rus təhti-idarəsinə keçdikdən sonra siyasi hüququnu kamilən itirmiş, məhkumiyyətinin acısını tamamilə dadmışdı. Əvvəlki zamanda o, gördüyü hərs məhkumiyyətini müştərək bir din və müştərək mədəniyyət təsiri ilə sezməyirdi. Çünki o zaman milliyyətini – sözün bu günkü mənası ilə - daha müdrik deyildi. Getdikcə farslaşan Azərbaycan türkü bu dəfə ruslaşdırmaq istəyinə məruz qalıyordu. Təbii idi ki, bu hal xalqın həssas əsəblərinə toxunuyor, müdafiəyi-nəfs hisslərini dərindən qıcıqlıyordu. Bunun üçün dəxi xəlq kəndisini düşünməyə məcbur idi" (147, 16).

Göründüyü kimi, M.Ə.Rəsulzadə Azərbaycan türklərinin mənəviyyatında yaranmış bütün təbəddülatların səbəbini nəinki etnoloq, etnososioloq, daha dəqiq desək, psixoterapevt kimi çox incəliklə müəyyən etmişdir. M.Ə.Rəsulzadə Azərbaycan türklərinin mənəvi durumu haqqında yazırdı: "Azərbaycan mənən heç bir zaman rus dövlətinə ram olmadı" (148, 90). Rus imperiyasının işğalı günündən "xalq inti-

qamçıları" adlandırılan silahlı mübarizə Azərbaycanın müstəqilliyinə qədər davam etdi. Azərbaycan zadəganlığının qorunması və yaşadılması uğrunda mübarizə Azərbaycan türklərinin mənəviyyatı üzərində Rus imperiyasının qələbəsinə imkan vermədi" (95, 153-351).

M.Ə.Rəsulzadənin "Milli birlik" əsəri dünya etnologiyasının şah əsərlərindən olmaqla imperializmin işğal ideologiyasını dəf edən, xalqların tarixən itirmiş olduğu mənəvi dəyərləri bərpa etmək üsulu və yollarını göstərən, milli müdafiə, özünü bərpa, milli dövlətçilik etnologiyası olmaqla tarixi müalicə vasitəsidir (134).

Ş.C.Əfqaninin hər bir millətin yaşaması üçün onun harmonik sosial təbəqəyə malik olması nəzəriyyəsi özünü bütün çalarları ilə sübut edirdi (115, 11). Rus imperiyasının bütün cəhdlərinə baxmayaraq, Azərbaycan elitası onun xalqın mənəvi dəyərlər sistemini pozub məişətinə xristianlıq, rus adət-ənənəsi, ünsürləri daxil etməsinə imkan vermədi. Azərbaycan xalqının fitrən elmə və idarəçiliyə qabilliyi kapitalist istehsal üsuluna keçid şəraitində yeni iqtisadi institutların yaradılmasında iştirak edərək cəmiyyətin idarə olunmasında təmsil olunan burjua sosial təbəqəsinin yaranmasına imkan verdi. Milli burjuaziyanın qısa müddətdə həyata keçirdiyi milli, mədəni-mənəvi, sosial-siyasi tədbirlər bəlkə də dünyada heç bir xalqa nəsib olmamış elitanın yaranmasına yol açdı, onu təmin etdi. Yaranan yeni elita təbəqəsi yaradıcılıq qabiliyyətinə malik millətin qarşısında duran problemləri dərk və həll edirdi. Azərbaycan milli burjuaziyasının lideri H.Z.Tağıyev Azərbaycan iqtisadiyyatının bütünlüklə müstəmləkə xarakterində qurulmasının qarşısını alıb, onun milli məqsədləri ödəmək istiqamətində qurulmasına qismən də olsa nail olmuşdu. "Ziyalılar, həm də burjuaziyanın nümayəndələri millət qarşısında öz milli vəzifələrini başa düşür, ona uyğun da fəaliyyət göstərdilər" (149, 13).

Azərbaycan ziyalıları Peterburq Baş Mətbuat İdarəsindən türkcə qəzet açılmasına icazə istədilər. Baş idarənin cavabı belə idi: "Qəzet xalqın nəyinə lazımdır? Ziyalı tatarlar qoy rus dilində oxusunlar, sadə tatarlar isə gedib qoyunlarını otarsınlar" (107, 98). Rus imperiyasının bu yanaşmasına cavab olaraq, "millət atası", "müsəlman dünyasının qürur günəşi", "müsəlmanların qeyri-rəsmi hökmdarı" kimi tanınan H.Z.Tağıyev "Kaspi" qəzetini mətbəəsi ilə birlikdə satın alıb Azərbaycan ziyalılarının sərəncamına verdi. Əyalətə sürgün olunmuş Həsən bəy Zərdabini oradan, Əhməd bəy Ağaoğlunu Tiflisdən, Əli bəy Hüseynzadəni Türkiyədən, Əlimərdan bəy Topçubaşovu Rusiyadan, Haşım bəy Vəzirovu Şuşadan Bakıya dəvət edib, onları bu qəzet ətrafında birləşdirdi. Yaranmış şəraitdən istifadə edən Azərbaycan ziyalıları və burjuaziyası milli mətbuat və məktəblərin yaradılmasında fədakarlıq göstərdilər. 1905-ci ildə H.Z.Tağıyevin vəsaiti ilə müsəlman və türk dünyasının liderləri Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlunun rəhbərliyi ilə nəşrə başlayan "Həyat" qəzeti, İsmayıl bəy Qaspiralının Krımda nəşrə başlayan "Tərcüman" qəzeti, bunun ardınca Əli bəy Hüseynzadənin redaktorluğu ilə nəşrə başlayan "Füyuzat" jurnalı yalnız Azərbaycan türklərinin deyil, türk və müsəlman dünyasına müstəqillik ideologiyasını, milli ruhunu əks etdirirdi. Bunun ardınca "Molla Nəsrəddin", "Dəbistan", "Bəhlul", "Tərəqqi" və "Məktəb" jurnalları nəşr olundu. Bir qədər sonra "Yeni Füyuzat", "Şəlalə", "Açıq söz" və b. jurnal və qəzetləri burjuaziyanın və ziyalıların vəsaiti və fədakarlığı ilə nəşr olunurdu. Bu qəzet və jurnallar milli şüurun oyanması və müstəqillik ideologiyasının canlanmasına xidmət edirdi.

Azərbaycan burjuaziyası maarif müəssisələrinin yaranmasına, türkdilli təhsilin qurulmasına xüsusi əhəmiyyət verirdi. Qadınların təhsilə cəlb olunmasını isə zəruri, ən baş-

lıca vəzifə kimi qiymətləndirirdi. "Anaları, qadınları bisavad olan camaat kor kimidir" deyən H. Z. Tağıyev imperiyanın, cahil mollaların müqavimətini qıraraq, Bakıda, onun ardınca Azərbaycanın əyalətlərində qız məktəbləri açmağa nail oldu. 1906-cı ildə Tiflisdə açılan müsəlman qız məktəbinə 25 min manat toxunulmaz kapital ayırdı ki, bundan gələn gəlir məktəbin ehtiyacına sərf olunmalı idi (149, 46). Milli burjuaziya və ziyalıların təhsilə və maarif işinə sistemli, mütəşəkkil yanaşması, 1905-ci il inqilabının təzyiqi ilə Rus imperiyasının güzəştlərindən sonra başladı. 1906-cı ildən başlayaraq yaradılan "Nicat", "Nəşri-maarif", "Səadət", "Ümid", "Şəfa", "Cəmiyyəti-xeyriyyə" və başqa xeyriyyə cəmiyyətlərinin fəaliyyətində milli məktəblərin açılması, müəllim kadrların hazırlanması, türk dilində dərsliklərin yaradılması başlıca yer tuturdu. H.Z.Tağıyev, M. Muxtarov, Ş.Əsədullayev və b. burjua nümayəndələri bu cəmiyyətlərin fəxri üzvü və maliyyəçiləri idilər. Bu cəmiyyətlərdə birləşən ziyalılar savadsızlığın ləğv olunması uğrunda fədakarcasına mübarizə aparırdılar. H.Z.Tağıyev xarici kapital nümayəndələrinin türk və müsəlman fəhlələrinin əməyindən ucuz işçi qüvvəsi kimi istifadə etmələrinin sənayeyə məqsədli istiqamətlər vermək, milli müəssisələrə təzyiq göstərmələrinin qarşısını almaq məqsədilə texniki və bağçılıq məktəbi açmışdı (95, 205-206).

Ziyalılar, burjuaziya Azərbaycan türklərinin milli mənlik şüurunun, özünüdərkin yaranması üçün lazım olan mənəvi qidanı verib, şəxsi nümunə göstərməklə milli dirçəlişə nail olur, xalqı ardıcıl olaraq müstəqillik uğrunda səfərbər edirdilər. Rus imperiyasının əsarətində olan Azərbaycan türklərinin və Tatar xalqının ziyalı və burjuaziyasının liderləri imperiyaya qarşı mübarizədə fəaliyyət birliyi yaratmağa səy göstərirdilər. Bu məqsədlə Ə.Topçubaşov, A.İbrahimov, Y.Akçuraoğlu, İ. Qaspiralı Ümumrusiya Müsəlmanlar İtti-

faqının yaradılması üçün təşəbbüs göstərərək, 1905-ci ilin martında Kazan şəhərində 80 nəfər təmsilçinin iştirakı ilə müsəlmanların qurultayını keçirmək üçün təşkilati işlər gördülər.

1905-ci ilin 15 avqustunda Ə. Topçubaşov, İ. Qaspiralı və Y. Akçuraoğlunun rəhbərliyi və təşkilatçılığı ilə Nijni-Novqorod şəhərində "Rusiya Müsəlmanlar İttifaqı" təşkilatı yaradıldı. Növbəti qurultaya qədər təşkilatın proqram və nizamnaməsinin hazırlanması qərara alındı. "Ümumrusiya Müsəlmanlar İttifaqı"nın II qurultayı 1906-cı ilin 13 yanvarında Peterburq şəhərində keçirildi. Qurultaya sədrliyi Ə.Topçubaşov edirdi. Qurultay onun yazdığı proqram və nizamnaməni qəbul etdi və I Dövlət Dumasında "Rusiya Müsəlmanlar İttifaqı"nın taktikasını müəyyən etdi. Rusiyanın müsəlman deputatlarının fraksiya yaratması, fəaliyyəti Dumada Kadet partiyası ilə uzlaşdırması qərara alındı. Beləliklə, Azərbaycan ziyalılarının uzun sürən səyi nəticəsində hər gün bir az daha artan bu fəaliyyət xalqı firavan bir gələcəyə və xoşbəxt bir istiqlala aparırdı" (150, 16).

Azərbaycan türklərinin təşkilatlanmasında növbəti və radikal mərhələ rus-erməni təcavüzünə qarşı Ə.Ağaoğlunun rəhbərliyi ilə 1906-cı ildə "Difai" təşkilatının yaradılması oldu. "Difai" təşkilatının yaradılması ilə Azərbaycan türklərin də imperiyanın öldürmək istədiyi hərbi ruhun bərpa edilməsi prosesi başlandı. Ə.Ağaoğlu milli-sosial orqanizmdə hərbçi təbəqənin yaradılmasının ideoloji və təşkilatçısı kimi fəaliyyət göstərdi (95, 212). "Difai" təşkilatının yaranması ilə Rus imperiyası Azərbaycan türklərindən ilk cavab zərbəsi aldı.

Azərbaycan türklərinin təşkilatlanmasında yeni mərhələ 1911-ci ildə "Müsavat" partiyasının yaranması ilə başladı. Bu təşkilatlanma əsasən 1913-cü ildə M.Ə.Rəsulzadənin xaricdən qayıdıb partiyaya başçılıq etməsi ilə daha da canlandı (151). 1917-ci ilin fevral burjua inqilabında iştirak edən

ən fəal qüvvələrdən biri Azərbaycan türkləri, onun ziyalıları və milli təşkilatları idi.

Azərbaycan milli qüvvələri konkret şəraitdə millətin qarşısında duran vəzifələri və müstəqilliyə doğru praktiki hərəkat yolunu müəyyənləşdirmək üçün 1917-ci il aprel ayının 15-20-də Bakı şəhərində Qafqaz müsəlmanlarının qurultayını keçirdilər. Qurultay "Müsavat" və "Türk Ədəmi-mərkəziyyət" partiyalarının rəhbərliyi altında keçirdi. Ə. Topçubaşovun "Müstəqil demokratik qrupu" birmənalı onların mövqeyini müdafiə edir, özü isə qurultaya sədrlik edirdi. Fevral inqilabından sonra yaranmış "islamçı" "İttihad" partiyasının "İttihadi-İslam" və "Rusiyada müsəlmançılıq" adlanan cərəyanları, "Hümmət" – bolşevik partiyasının liderləri N.Nərimanov və M. Əzizbəyov bolşevikləri təmsil etməklə Azərbaycanın bütün siyasi qüvvələri bu qurultayda iştirak edirdi.

M.Ə.Rəsulzadə və digər ziyalıların yaradıcılığında, qarşıya tam müstəqillik vəzifəsi qoyulduğu halda, tarixi şərait nəzərə alınaraq ilkin olaraq Rusiya daxilində federativ demokratik respublika qurulacağına nail olmaq cari vəzifə kimi irəli sürüldü. Ciddi diskussiyalardan sonra M.Ə.Rəsulzadənin irəli sürdüyü ideya məqbul hesab olunaraq "Qafqaziyyə müsəlman qurultayı milli-siyasi məqsədə aid məsələni müzakirə edərək müsəlman qövmlərinin mənafeyini ən ziyadə təmin edən Rusiya şəkili-idarəsinin məhəlli federasion əsası üzərinə qurulu cumhuriyyət müctəmeyi-inam olduğu qəbula qərar verir" (147, 27).

Moskvada Şəmsi Əsədullayevin Moskva müsəlmanlarına hədiyyə etdiyi binada 1917-ci il mayın 1-dən 11-ə kimi Ümumrusiya müsəlmanlarının qurultayı keçirildi. Qurultaya müzakirə üçün tatarların nümayəndəsi Əhməd Salıkovun milli-mədəni muxtariyyət və M.Ə.Rəsulzadənin milli ərazi federasiya prinsipləri əsasında yaradılmış demokratik

respublika layihələri təqdim olunmuşdu (95, 235). Qurultayda M.Ə.Rəsulzadənin irəli sürdüyü Rusiyanın gələcək idarə şəkili məhəlli muxtariyyat ideyası 271 səsə qarşı 446 səs çoxluğu ilə qəbul edildi (152, 39).

Qurultayda iştirak etmiş görkəmli tarixçi Zəki Vəlidi Toğan Azərbaycan nümayəndələrinin qurultaydakı fəaliyyətini xatırlayaraq yazır ki, **Moskvada toplanan Ümumrusiya Müsəlmanları qurultayına azərbaycanlı Əlimərdan bəy Topçubaşov rəyasət ediyordu. Emin bəy qonuşuyordu. Bütün konqreyə azərbaycanlıların hakim olduğu görünür və Azərbaycan liderlik edirdi. Əgər 700 kişi içərisində Emin bəy və arkadaşları olmasaydılar, konfrans istiqlal muxtariyyət tezislərinə rəy verməzdi"** (153, 61).

Müsavat Partiyasının I qurultayının 1917-ci il 26 oktyabrda toplanması təsadüfi deyildi. Rus tarixçisi V. Kozların sözləri ilə desək, 1917-ci il Oktyabr inqilabı rus müstəmləkəçiliyinə son qoymaq əvəzinə, ona yeni təkan verdi. Buna cavab olaraq M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi Müsavat Partiyası müstəqil demokratik dövlət quruculuğu proqramı qəbul etdi. Qurulacaq dövlətin quruluşu isə proqramda "Rusiya dövlətinin şəkili-idarəsi milli-məhəlli muxtariyyət əsası üzərinə qurulu qoşma xalq cumhuriyyətindən ibarət olmalıdır" qərarını verdi (154, 161-186). M.Ə.Rəsulzadə başda olmaqla Müsavat Partiyası, bütün ziyalılar milli gücü müstəqillik məqsədinə yönəldib, 1918-ci ilin 28 Mayında Azərbaycan xalqının dövlət müstəqilliyini elan edib, Azərbaycan Xalq Cumhuriyyətini yaratdılar.

Hörmətli oxucu, mənim konkret olaraq etnologiya elmi və bu haqda yazılmış əsərlərdən danışdığım halda ondan kənara çıxıb milli-dirçəliş prosesi (inqilabi proses) haqqında, bu prosesin liderləri haqqında söhbət açmağım mətləbdən uzaq düşmə kimi görünə bilər. Lakin bu belə deyil. Bu proses bu liderlərin xalqı çoxcəhətli milli-mənəvi qidalan-

dırma ideyalarının kütlələrə aşılanması, onun təsiri idi, bəhrəsi isə müstəqilliklə nəticələnən sonluq oldu. Bu da millimənəvi, etnososial tarixin ideyalardan ibarət olmasının əyani sübutudur. Tədqiqatıma uyğun mən bu proses haqqında qısa məlumat verdim, ideyaların həyata keçirilməsi, (kütlələrə yiyələnməsi) prosesinin müəyyən məqamlarına ötəri toxundum. Azərbaycan cəmiyyətinin tənəzzüldən çıxma, tərəqqiyə nail olma prosesinin mənzərəsi yaradılmalıdır. Bu, xüsusi tədqiqat tələb edir və heç də təşkilatların arxivlərdə toplanmış iclas protokollarının Sovet tarixşünaslığındakı xülasələrindən, iqtibas düzümündən ibarət deyil.

Tənəzzül etmiş cəmiyyətlərin tərəqqi prosesi kütlənin yaradıcı elitanı, ziyalını ideoloji və praktiki mənimsəməklə milli ideallara, vətənində sahiblik iddiasıdır. Bu bir proses etnoqrafik və etnoloji cəhətdən təsvir və təhlil olunmalı, oxucu tərəfindən izlənməlidir. Misal üçün, Rus imperiyasının işğalından sonra qara camaat ardıcıl olaraq Azərbaycan zadəganını müdafiə edirdi. Lakin 1906-cı ildə "Difai" təşkilatının yaradılmasına qədər Azərbaycan zadəganının nə öz xalqını inqilabi müdafiəyə qalxması baş vermiş, nə də H.Z.Tağıyevin inqilabi maarifçilik hərəkatı olmamışdı. H.Z.Tağıyev və Ş.Əsədullayevin oğlanlarını orduya verməsi Azərbaycanda ordu quruculuğunun zəruriliyi və mənəviliyi məsələsini həll etdi. Bütün sosial təbəqələri bu işə qoşdu və fədakarlığa sövq etdi. A.A.Bakıxanov, M.F.Axundov, Ş.C.Əfqani, H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə sadəcə yazar, etnoloq, ideoloq deyil, vətənpərvərlik, vətən yolunda fədakarlıq, milli əxlaq nümunəsi olaraq xalqı səfərbər edirdilər. İnqilabi hərəkat tarixləri göstərir ki, çox zaman kütlə liderin ideyalarını, sözlərini bütünlüklə başa düşmür, onun praktiki nümayiş etdirdiyi hərəkəti təqdir və təlqin edir. Mənbə və tarixi faktlar göstərir ki, yuxarıda adlarını çəkdiyimiz ziyalılar yalnız nəzə-

riyyəçi etnoloq deyil, öz xalqına milli əxlaq, davranış stereotipləri, ideallar nümunəsi verən şəxsiyyət idilər.

Maraqlıdır, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadənin Azərbaycan Xalq Cumhuriyyəti qurulana qədərki yaradıcılığında etnoqrafiya və etnologiya terminlərinə rast gəlməsək də, Azərbaycan türklərinin inqilabi yolla öz müstəqilliyinə nail olub **Azərbaycan Cumhuriyyətini qurması haqqında ilk beynəlxalq sənəd etnoqrafiya və etnologiya termini ilə yazılır.** Paris Sülh Konfransına təqdim edilmək üçün yazılmış 2 sənəd Azərbaycan türklərinin liderlərinin akademik etnoloq olduğunu təsdiqləyir. Bunlardan biri Azərbaycan Parlamentinin sədri Ə.Topçubaşovun 1918-ci ilin noyabrında İstanbulda Paris Sülh Konfransına təqdim etmək üçün yazdığı "Memorandum" (155), 2-ci əsər 1918-ci ildə Azərbaycan Cumhuriyyəti tərəfindən Paris Sülh Konfransına göndərilmək üçün yazılmış "Qafqazın Azərbaycan Respublikası" kitabıdır ki, 1919-cu ildə Parisdə fransızca çap olunub və Cenevrə Sülh Konfransı iştirakçıları, Millətlər Təşkilatına üzv ölkələrin nümayəndələrinə paylanıb (156).

Hər iki sənəd yüksək səviyyədə, dünya etnologiyasının elmi-nəzəri müddəaları əsasında yazılmış akademik əsərdir. Onlarda Azərbaycanın ərazisi, iqlimi, relyrfi, təbii sərvətləri, iqtisadiyyatı, kənd təsərrüfatı və sənayesi, maliyyə vəziyyəti, nəqliyyatı, əhalisinin özünüadlandırılması, etnik mənşəyi, milli inkişaf tarixi, millət kimi formalaşması, milli siması, milli xarakteri, milli tərbiyə üsulu, milli ideologiyası, milli idealı, milli arzusu, bütövlükdə milli-mənəvi gücü, onun nəticəsi olaraq yaratdığı Azərbaycan Xalq Cumhuriyyəti dövləti, sərhəddi, mübahisəli əraziləri, heç bir çətinlik qarşısında müstəqillik idealından imtina etməyəcəkləri bildirilirdi.

Əsərlər məzmun, forma, irəli sürülən müddəalar və onların cavabları, demək olar, eyniyyət təşkil edir. Ə.Topçubaşovun "Memorandum"u ilə müqayisədə "Qafqazın Azər-

baycan Respublikası" kitabında bəzi məsələlər bir qədər geniş şərh olunub. Millətin mənşəyi, formalaşması, mədəniyyət tarixi məsələlərində bəzi əlavələr var. Ə.Topçubaşovun "Memorandum"unda etnoqrafiya və etnos terminləri ilə etnik durumun real mənzərəsi təsvir olunur, "Qafqazın Azərbaycan Respublikası" kitabında real etnik durum təsvir olunanda etnos və etnoqrafiya, milli mədəniyyətlərin tarixi qarşılıqlı təsiri məsələlərindən bəhs olunanda etnologiya terminindən istifadə olunmuşdur (155, 11, 14, 16, 23; 156, 115, 117, 119). Hər iki sənəddə etnoqrafiya termini ilkin mənasında olduğu kimi – xalqın təsviri, etnologiya etnosun məişəti, sosial-mənəvi, siyasi həyatını müəyyənləşdirən nəzəriyyə mənasında işlədilmişdir. Hər iki kitabın tədqiqatımızda istifadə etdiyimiz həmin dövrün klassik Qərbi Avropa etnologiyası hesab olunan əsərlərin elmi-nəzəri səviyyəsi ilə müqayisəsi deməyə əsas verir ki, Azərbaycan Cumhuriyyət liderlərinin etnologiya elminin bütün incəliklərini, elmi-nəzəri müddəalarını yüksək səviyyədə bildiklərini və yaradıcı səviyyədə tətbiq etmək gücünə malik olduqlarını göstərir. Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə və ziyalıların əsərlərində etnologiya və etnoqrafiya terminlərindən istifadə etməmələri Azərbaycan türklərində, o cümlədən İslam Şərqində əhalidə elmi şüurun kütləviləşməsi səbəbindən bu terminlərdən istifadə etmirdilər. Azərbaycan Xalq Cumhuriyyətinin Paris Sülh Konfransına təqdim edilən digər sənədlərində də etoqrafiya və etnologiya terminindən və bu elmi-nəzəri müddəalarından dolğun istifadə edilməsi Azərbaycanda Avropa etnologiya elminin anlayış və terminlərinə, predmetinə yetərincə bələd olunduğunu göstərir (163, MDA, Fond 970, s. 1, sax. Vah. 143, s. 36).

Yuxarıda Paris Sülh Konfransına təqdim olunan əsər və sənədlər istisna olmaqla Azərbaycan Xalq Cumhuriyyəti

dövründə etnoqrafiya anlayışı altında yazılan ilk əsər Məhəmmədhəsən Vəlilinin (Baharlı) "Azərbaycan" kitabıdır.

Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə etnoloji yaradıcılığında mənəvi mədəniyyət, xüsusilə mənəvi-inam-etiqad, arzu, adət-ənənə, milli psixologiya, milli xarakter, milli qürur, milli hissiyyat və heysiyyat, milli əxlaq, həyat tərzi, ideya, ideologiya, siyasət və s. əsas yer tutduğu halda M.Vəlilinin əsərində vahid Azərbaycanın tarixi coğrafiyasından məlumat verilir, yeni dövlət quruculuğu üçün sosial-iqtisadi münasibətlərin mənbələri əsas yer tutur. Şimali Azərbaycanın təbii-coğrafi şəraiti, flora və faunası, iktisadiyyatı – kənd təsərrüfatı, sənayesi, ticarəti, əhalisi, milli tərkibi, etnogenezi və milli etnik tarixi, məişət və mədəniyyətini bütünlüklə əks etdirən etnoloji əsərdir. Əsərin yazılmasında çoxsaylı mənbə və zəngin etnoqrafik materiallardan istifadə olunmuşdur. Bu haqda müəllifin özü məlumat verərək yazır: "Bu kitabı yazmaq üçün köhnə adamların sərgüzəştlərindən, rəvayətlərindən və mütəxəssislərin göstərişlərindən istifadə edilmişdir. Bundan əlavə, bir çox mənbələrə müraciət edilmişdir ki, siyahısı burada göstərilir" (164, 187). Müəllifin "mütəxəssislərin göstərişindən istifadə edilmişdir" ifadəsi göstərir ki, əsər ölkə quruculuğunda (AXC) mənəvi-iqtisadi, siyasi həyatın yenidən qurulması üçün məlumat, tövsiyə xarakterli metodik əsər kimi yazılmışdır.

Göründüyü kimi, "Azərbaycan" əsərinin, təbii-coğrafi şərait, iqtisadiyyat, əhalinin demoqrafik məskunlaşması çox yüksək səviyyədə yazılmışdır. Bu, təsadüfi deyildir. M. Vəlili Kiyev universitetinin iqtisadi coğrafiya fakultəsini bitirmişdi. Etnogenez və milli inkişaf prosesi sahəsinə gəldikdə müəllifin çox yüksək səviyyədə milli məsələni bilməsi, etnososial prosesi düzgün təsvir etməsi özünü aydın göstərir. Nəzərə alsaq ki, etnogenez problemini elmi konsepsiya kimi

dünya tarixşünaslığına Sovet Kommunist tarixşünaslığı gətirmişdir. Onda bu sahədə əsərdə mövcud olan ideya və elmi müddəalar şəxsən müəllifə məxsusdur. Bu da müəllifin dövrünə görə çox yüksək elmi-nəzəri təfəkkür qabiliyyətinə malik olduğunu göstərir. Əlbəttə müasir səviyyədə etnogenez və milli inkişaf tarixi məsələsinə yanaşdıqda əsərdə kifayət qədər çatışmazlıq tapmaq olar. Lakin problemə elmi-nəzəri yanaşma düzgündür. M. Vəlili Azərbaycanın Rus imperiyası tərəfindən ikinci işğalı zamanı ölkəni tərk etməmiş, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparan Azərbaycan İstiqlal Təşkilatının katiblərindən biri olmuşdu. 1926-cı ildə müəyyən müddət həbsdə qaldıqdan sonra azad olsa da, 1937-ci ildə Azərbaycan türklərinin adının dəyişdirilməsi, türk etnoniminin qadağan olunmasına münasibəti ilə bağlı ölkədən sürgün olunmuş, əsərləri qadağan edilmişdir. M. Vəlili 1943-cü ildə sürgündə vəfat etmişdi (164, 3).

M.C.Bağırovun məhkəməsindən sonra millət və vətən sevgisinə malik olan şəxsiyyətlərə, ziyalılara vurulmuş "xalq düşməni" damğası götürüldü, onlar "bəraət" qazandılar. **Belə ziyalılardan biri olan M.Vəlili bəraət aldı, lakin, onun "Azərbaycan" əsərinə qoyulmuş qadağa götürülmədi. Daha doğrusu, milli tariximizi saxtalaşdırmış sovet tarixçiləri, şəxsən İ.Əliyev M.Vəlilinin "Azərbaycan" əsərinin təkrar nəşrinə imkan vermədi (79, 243-244). Ona görə ki, M. Vəlilinin əsərinin nəşri İ. Əliyevin Azərbaycan xalqının tarix elminin yaradıcısı yox, saxtalaşdırıcısı, xalqın simasızlaşdırıcısı, milli etnik proses haqqında süni uydurmaları ilə separatçılıq ideologiyasının yaradıcılarından biri olduğunu birmənalı sübut edirdi.**

Nəhayət, zaman hökmünü verdi, M. Vəlilinin "Azərbaycan" əsəri nəşr olunub xalqının həyatında ideoloji həyatını yaşatmaqda davam edir, onu canlı ruh kimi yaşadır. T.Bünyadovun M.Vəlilinin "Azərbaycan" əsərinin 1921-ci

ildə nəşr olunmasına istinad edərək, onu "Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının ilk illərində yazılan əsər" (66, 8) hesab etməsinin heç bir elmi-məntiqi əsası yoxdur. Əsərdə bəhs olunan problemlər, istifadə olunan material və mənbələr, aparılmış elmi ümumiləşdirmələr, başlıca olaraq əsərdəki obyektiv reallıq göstərir ki, belə əsəri bir ilə, bir neçə aya yazmaq mümkün deyil, digər tərəfdən əsər bütünlüklə marksizm-leninizm-kommunist ideologiyasına ziddir. Əsər AXC quruculuğu, milli ideologiya, milli ideallar zəminində yazılmışdır. Əsərin iqtisadi əhəmiyyətini nəzərə alan bolşeviklər, öncə onun mənəvi-ideoloji təsirinə çox da diqqət yetirməmişdilər. Sonradan əsərin milli, mənəvi-ideoloji təsirini anladıqdan sonra onu yasaqlamış, müəllifini isə həbs etmişdilər.

Maraqlıdır ki, Azərbaycanda etnoqrafiyanın mənbələrindən bəhs edən H.Quliyev, T.Bünyadov və H.Həvilov çoxsaylı bədii əsərlərin, folklor növlərinin, tarixi əsərlərin adını çəksələr də, N.Tusi, A.A.Bakıxanov və M.F.Axundovdan nəinki etnoloq (etnoqraf) kimi bəhs etmir, onların əsərlərindən etnoqrafiyada istifadə olunacaq mənbə kimi də söz açmırlar. Yuxarıda qeyd etdiyimiz kimi, N.Tusi dünya ictimai elmində etnologiya elminin banisi olmaqla onun yaradıcılığından yeddi əsr keçsə də, hələ də dünya etnologiyasında "Əxlaqi-Nasiri" əsərinə bərabər, yaxud ona kölgə sala biləcək ikinci bir əsər yaranmamışdır.

T.Bünyadovun, H.Quliyevin, H.Həvilovun araşdırmaları başlıca olaraq təsərrüfat məişətinə, xüsusən maldarlığa-heyvandarlığa, maddi mədəniyyətə aiddir. Maldarlıq mədəniyyəti üzrə etnoqraf, elmlər doktorudurlar. Dünya heyvandarlığında, ilk sənaye heyvandarlığı – inkubasiya üsulu ilə quşçuluq sənayesi məhz Nəsirəddin Tusinin elmi mülahizəsi əsasında yaradılmışdı. Hələ yeddi əsr əvvəl N.Tusi yazırdı: "İnsanlar quşların yumurtasını onların kökslərində

olan hərarətə bərabər bir istilik olan yerdə bəsləsələr, onların təbiətində olan cücə əməlgətirmə kamalı (istedadı) burada da özünü göstərər və bundan əlavə yeni bir vəzifə də meydana çıxar ki, o da kürtdüşmə vasitəsilə mümkün olmayan, bir dəfədə çoxlu cücə almaqdan ibarətdir" (103, 110). Elmlər doktoru alimlik dərəcəsi, professor, akademik rütbələri aldıqları maldarlıq sahəsində xalqının yaratdığı tarixi, dünyəvi kəşfdən məlumat verməməyin səbəbini mən izah edə bilmirəm.

Yuxarıda qeyd etdiyimiz kimi, ümumən Şərq, o cümlədən Azərbaycanda elm və mədəniyyətin tənəzzülündən sonra A.A.Bakıxanov "Gülüstani-İrəm" əsəri ilə etnologiyanı yenidən dirçəltdi, M.F.Axundov isə Rusiya etnoqrafiya cəmiyyətinin bilavasitə ilkin yaradıcılarından oldu, elmi əsərlərinin səviyyəsi ilə Avropa mütəfəkkirlərindən Qustav le Bondan heç də geri qalmadı, hətta bəzi problemlərdə onu qabaqladı. Hörmətli Azərbaycan alimlərinin, akademik və professorların bu etnologiya dahilərini bütünlüklə danmalarını bütünlüklə kommunist rejiminin təhriki ilə izah etmək düzgün olmazdı.

Hər üç mütəfəkkirin yaradıcılığı müxtəlif alimlər – filosoflar, riyaziyyatçılar, ədəbiyyatşünaslar, astronomlar tərəfindən tədqiqata cəlb olunmuşdu, halbuki onlar birinci növbədə etnoloq olduqlarına görə ilk növbədə etnoloji tədqiqata cəlb olunmalı idilər. Hər üç mütəfəkkir haqqında rus ictimai fikrində müsbət münasibət var idi. Onların etnoloji (etnoqrafik) tədqiqata cəlb olunmasını **kommunist rejimi qadağan etməmişdi. Russo demişkən, deməli, insan bəlanın kökünü "özündə axtarmalıdır"** (165, 12). Tarixşünaslığımızın, o cümlədən etnologiyamızın, mədəniyyət tariximizin bugünkü miskin vəziyyətinin birinci günahkarı özümüzük.

Yuxarıda tarix elmi haqqında mövcud fikirləri, nəzəriyyələri, onun xüsusi sahəsi olan etnologiiya elminin ya-

ranması və inkişafı haqqında qısa məlumat verdik. Azərbaycanda etnologiya (etnoqrafiya) elminin 1920-ci il 27 aprel işğalından sonra yaranması haqqında saxtalaşdırmaya cavab olaraq xalqımızın etnoloji fikir tarixinə, onun elmə çevrilməsinin inkişaf mərhələlərinə ekskurs etdik. Tarix anlayışı haqqında yuxarıda diqqətə çatdırdığımız fikir və mülahizələrin əksəriyyətinin bir-biri ilə ziddiyyət təşkil etdiyini gördük.

IV fəsil.

KOMMUNİST RUS İMPERİYASININ AZƏRBAYCANDA TARİX ELMİNİ MİLLİ ÖLÜM ELMİNƏ ÇEVİRMƏSİ

Tarix elmi sahəsində yazılan kitablarda "tarixin inkişaf mənbəyi, hərəkətverici qüvvəsi nədir?" – sualına birmənalı cavab tapmır, müxtəlif yozumlarla rastlaşırıq. Elə bu səbəbdən də hələ XIX əsrdən bir sıra Avropa mütəfəkkirləri tarixi elm hesab etməmiş, bəziləri onu subyektiv elm, yəni həqiqəti ifadə etməyən elm adlandırmışdılar. Dünyada birmənalı qəbul olunmuş mülahizəyə görə, elm həqiqəti ifadə edən mülahizədir. Odur ki, tarix obyektiv və subyektiv ola bilməz, o, obyektivdirsə, həqiqətdirsə elmdir, həqiqət deyilsə, elm deyil. Respublikamızda bu fikirin tərəfdarlarını daha da artırmış, sayı gün-gündən artmaqdadır. AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Səlahəddin Xəlilov tarixin elm olmaması haqqında kitablar yazmışdır (14, 24-32; 167, 28-32). Məsələni birmənalı qoyaraq özünün qanun və kateqoriyası olmayan hər hansı tədqiqat sahəsinin elm adlandırılmasının düzgün olmadığını yazanlar da var. Məntiqşünas Mahir İsrafilov "Məntiq" dərsliyində yazır: "Hər bir elm öyrəndiyi sahənin qanunlarını aşkara çıxarır. Əgər elmdə qanunlar yoxdursa, onda o elm deyil, yaxud elm səviyyəsinə hələ yüksəlməyib" (59, 28).

Tarix elminə baxışımızın şərhi üçün B. Kroçenin, Qustav le Bonun, K. Yaspersin mülahizələri daha yaxın olduğu üçün, onların tarix və fəlsəfə elmlərinin qarşılıqlı əlaqələri, eynimahiyyətliliyi haqqında mülahizələrini əsas götürür, tə-

krar olsa da, yenidən oxucunun diqqətinə çatdırırıq. B. Kroçe inanırdı ki, tarix fəlsəfədən deyil, fəlsəfə tarixdən gəlir, fəlsəfənin məntiqi tarixin məntiqidir (10, 96). O, varlığı öz tarixi olan obrazlar aləmi kimi düşünürdü. Obrazlar aləminin mahiyyəti tarixin həmin mərhələsinin xarakterinə müvafiq olur; tarix necədirsə, obrazlar aləmi – reallıq da elədir. Başqa cür ola da bilməz, ona görə ki, insanın bütün mahiyyətli qüvvələrinin – dili, təfəkkürü, duyğuları, intuisiyanı, zövqləri və s. tarix yetişdirir. Tarixin məhsulu olan bu qüvvələr sonralar tarixin özünün dərki və prosesi irəlilətməsi üçün şərt olur. Tarix nəyi əkirsə, onu da biçir, yəni insanı, onun mahiyyətli qüvvələrini necə yetişdirirsə, sonradan həmin qüvvələr tarixi də o cür inkişaf etdirir – ona o cür də xidmət edirlər. Tarix ali qanunvericidir, o, insanın hərəkət və rəftar modelini, təfəkkür və ifadə tərzinin mənalılıq və ağlasığanlılıq normalarını və meyarlarını hazırlayır. Tarix həyatın və idrakın güzgüsüdür.

Tarixin mövcudluq forması – azadlıqdır, fəaliyyət prinsipi – müstəqillikdir. Kroçe izah edirdi ki, tarix yeganə yaradıcı qüvvə, daim təşəkkületmə və inkişaf vəziyyətində olan reallıqdır; o, problemlərin yaradıcısı və həll üsuludur. Fəlsəfə özü tarixin yaratdığı əbədi problematikanın həllinə yönələn fəaliyyətdir; o öz problematikasını tarixdən alır və tarix vasitəsilə də onu həll etməyə çalışır. Başqa sözlə, fəlsəfə özü tarixi təfəkkürdür. Bu təfəkkür tarixdə apellyasiya vasitəsilə öz həqiqətini tapır – özünü dərk edir. Nəticədə tarix fəlsəfə olur, fəlsəfə də tarix (10, 99). Kroçeyə görə tarix həm yaradır, həm mübarizə edir və həm də "müalicə" edir (10, 104).

K. Yaspers yazır: **"Obyektiv olaraq tarix öncəsi – müxtəlif dəyişikliklər axınıdır, ancaq mənəvi mənada bu hələ tarix deyil, sanki tarix yalnız o yerdə yaranır ki, orada onun dərki, ənənə, sənədləşmə, öz köklərinin və baş verən hadisələrin mənalandırılması var. Tarixin ənənə varisliyi olmayan yerlərdə**

də olması barədə təsəvvür olmuşdur və ya olmalı idi də, amma bu xurafatdan başqa bir şey deyildi.

Tarix insan üçün həmişə aydın olan keçmiş, bu keçmişin mənimsənilməsi sahəsi, öz mənşəyinin dərkidir" (157, 75).

Qustav le Bon isə tarixi və onun hərəkətverici qüvvəsini belə mülahizə edir: "Beləliklə, başa düşmək asandır ki, nəyə görə xalqların tarixini öyrənəndə ən çox onların ideyalarının zənginliyi və yeniliyi yox, əksinə, bu ideyaların miskinliyi, astagəlliyi və onların gücü heyrət doğurur. **Sivilizasiyalar bəzi əsas ideyaların nəticəsidir, bu ideyalar təsadüfən dəyişəndə onların qida verdiyi sivilizasiyalar da tezliklə dəyişməli olur... tarixin hərəkətverici qüvvəsi mənəvi qüvvədədir"** (24, 116, 163).

Tarixin bir məfhum kimi mahiyyətinin dərk edilməsi varlıq anlayışı haqqında obyektiv elmi təsəvvürə malik olmağı tələb edir. Bütün kainat – görünən və görünməyən, duyulan, dərk olunan və ya hələ duyulmamış, dərk olunmamış tərəfləri ilə birlikdə, təbiət, üzvü və qeyri-üzvü aləm, cəmiyyət insanın mənəvi aləminin vəhdətdə mövcudluğu varlğı təşkil edir (9, 145-146). Fəlsəfi fikir tarixində ən kobud səhvlərdən biri – təbii istehsal yaradıcılığı ilə törəmə varlıqları bir haldan başqa hala keçirən yeni məzmunlu, formalı varlığa çevirən, başqa varlıqların istifadəsinə verən, sisteminə qoşqn torpağın, daşın və s. cansız təbiət adlandırılması, hesab edilməsidir.

Varlığın bizə məlum olan hissəsində, törəmə varlıqlar – bitki, heyvan, insan, müxtəlif istehsalat tullantılarının və s. bir haldan başqa hala keçməsini təmin edən, digər törəmə varlıqların qidasına çevrilən, yeni canlı kimi formalaşdıran, ən böyük tənzimləyici, yaradıcı funksiya yerinə yetirən torpağın, daşın və s. cansız təbiət adlandırılması varlığın düzgün dərk olunmasına, obyektiv izah olunmasına imkan vermir. Böyük Şərq mütəfəkkiri Ömər Xəyyam necə ki deyir:

Torpaq ki olub hər heyvanın tapdağı,
Bir qız saçıdır, ya ki səməndər yarpağı.
Kərpic ki, durur hər sarayın bürcündə,
Şahlar başı olmuş o, vəzirlər ayağı.

Hər çöldə ki, orada laləzar olmuşdur,
Bir şəhriyarın qanilə al olmuşdur.
Yerdə görünən bənövşənin hər vərəqi,
Bir şux gözəlin üzündə xal olmuşdur (168, 28, 32).

Ömər Xəyyamın varlığın mövcudluq təşəkkül etmə haqqında yuxarıda göstərdiyimiz təsvir nümunəsi hər hansı bir varlığın məhv olması fikirini də birmənalı təkzib edir. Varlıqda heç nə məhv olmur. Daimi təşəkkületmə prosesində öz tarazlığını, ona mövcudluq imkanı verən sistemini qoruyub saxlaya bilməyən törəmə varlıqların, ömrünü başa vuran varlıqların sistemi dağılır, onun element və hissələri daha güclü sistemlərin tərkib hissəsinə çevrilir və ya yeni hər hansı elementlər çoxluğuna daxil olaraq yeni predmetin tərkib hissəsinə çevrilir və ya özü yeni elementlər alaraq yeni varlıq kimi formalaşır.

Fəlsəfi fikir tarixində bütün kainat, onun görünən və görünməyən tərəfləri, sosial və mənəvi ruhi formaları vahid varlıq kimi qəbul olunur. Həmçinin fəlsəfə tarixində insanın (kosmobiopsixososial), sosial və mənəvi varlığın təşəkkületmə, inkişafı, yeni formalarının yaranması prosesində törəmə varlıq kimi yarandığını təsdiq edir. Deməli, varlıqlar sisteminin düzgün qiymətləndirilməsi üçün əsas varlıqla törəmə varlıq fərqləndirilməli, asılılıq səviyyəsi müəyyən edilməlidir. Törəmə varlığın əsas varlığın yarımsistemi, hissəsi və ya elementi kimi səviyyəsi, asılılıq və müstəqillik səviyyəsi obyektiv müəyyən olunmalıdır. Törəmə varlığın təşəkkül, dəyişmə, inkişaf prosesində əsas varlıqla əlaqə və münasi-

bətləri, asılılıq səviyyəsi obyektiv müəyyən və dərk edilməlidir.

Kommunist Rus imperiyasının əsarəti illərində ictimai elmlərin anlayış və terminləri emprik səviyyəyə uyğun xalqı aldatmaq üçün məcazi mənalarda o qədər dəyişdirələrək işlədilmişdir ki, indi onun elmi, hüquqi mənasını dəqiqləşdirmək çətinlik doğurur. Belə anlayış və ya terminlərdən biri "tarix"dir. Biz yuxarıda bu terminin müxtəlif mənası haqqında məlumat vermişik. Sovet tarixşünaslığının qeyri-elmliyinin mahiyyətini düzgün təsəvvür etmək üçün "tarix" terminină və bütövlükdə mahiyyətinə aydınlıq gətirməyə ehtiyac duyuruq.

Zaman və məkan çərçivəsində varlığın bütün formalarının dəyişmə, təşəkkül etmə və inkişaf prosesinin xronoloji ardıcıllığı tarix adlanır. Məlum olduğu üzrə predmet və hadisənin mahiyyətini ifadə etməyən hər hansı söz, anlayış, termin və ya informasiya onun haqqında həqiqəti ifadə etmir, təsəvvür yaratmır, sadəcə olaraq görüntü olur. Varlığın bütövlükdə və ya hər hansı formasındakı dəyişmə, təşəkkül etmə, inkişafı doğuran mahiyyəti, xronologiyasını (düzümü) yaradan səbəblərlə birlikdə göstərən, həqiqəti ifadə edən məlumat, informasiya tarix elmidir.

Hələ qədim zamanlardan Şərqdə, o cümlədən Azərbaycanda xalqların həyatını təsvir edən xronist təsviri tarixçilikdən, xalqların həyatında baş verən sosial-iqtisadi, siyasi, ideoloji-mənəvi hadisələrin tərəqqi-tənəzzül səbəblərini, etnososial proseslərin mahiyyətini göstərməklə yazılan elmi-tarixi əsərlər yaranmışdır. Yuxarıda bəhs etdiyimiz İslam Şərq ölkələrində, o cümlədən Azərbaycanda XVII-XVIII əsrlərdə elmi tarixşünaslıq zəiflədi, XVIII əsrin sonu XIX əsrdə Avropada xronist tarixşünaslığı elmi tarixşünaslıq əvəz etdi və çox sürətlə inkişaf etdi. Avropada elmi tarixşünaslığın formalaşması prosesində hakim millətçilik ideolog-

iyası da tarixşünaslıqda müstəqil cərəyan kimi inkişaf edirdi. Əsarət altına alınmış xalqların tarixinə, mənəviyyatına alçaldıcı, təhqiredici münasibət göstərirdi. İslam Şərq ölkələrində, o cümlədən Azərbaycanda müstəmləkəçi hakim millətçilik tarixşünaslığının alçaldıcı münasibətinə cavab olaraq milli zadəgan zümrəsi elmi tarixşünaslığı yenidən canlandırdı, bərpa etdi. Biz yuxarıda Azərbaycan elmi tarixşünaslığını bərpa edən A.A.Bakıxanovu milli-zadəgan tarixşünaslığının parlaq nümayəndəsi kimi gördük.

XIX əsrdə Avropada tarix elminin inkişafı elə bir səviyyəyə çatdı ki, hətta tarixin fəlsəfi anlayışları yarandı. Lakin fəlsəfə elm kimi həmişə tarixdən qüvvətli olmuşdu və XIX əsrdə də özünü güclü, əhatəli elm kimi göstərirdi. Tarixçilərlə müqayisədə filosofların alim kimi cəmiyyətdə nüfuzu yüksək idi. Odur ki, bəzi filosoflar tarixin elm olmaması fikiri ilə çıxış edirdilər. Elm olduğunun sübutu kimi tarix və fəlsəfə qanun və kateqoriyalarını elan etməli oldu. Əksliklərin vəhdəti və mübarizəsi, kəmiyyət dəyişməsinin keyfiyyət dəyişməsinə keçməsi, inkarı inkar qanunları, tək, xüsusi və ümumi, mahiyyət və hadisə, məkan və zaman, məzmun və forma, səbəb və nəticə, azadlıq və zərurət, imkan və gerçəklik, tam və hissə, sistem, struktur və element – varlığın (tarixin) bütün formalarını dəyişmə, təşəkkületmə və inkişafının qanun və kateqoriyaları olduğu təsdiqləndi. Bu həqiqət qarşısında fəlsəfə güzəştə getməli oldu, həm də tarix olduğunu etiraf etdi. Hegelin "Fəlsəfə - fəlsəfə tarixidir" (10, 98) yazdı. O, göstərdi ki, **"yalnız o fəlsəfə tarix elmi adlana bilər ki, o, ideyaların inkişaf sistemi kimi başa düşülsün. Bir-birindən təcrid olunmuş ideyaları elm hesab etmək olmaz"** (11, 19).

Fəlsəfə termini e.ə. VI əsrdən "hikməti sevmək" mənasından müasir dövrümüzdəki təbiətin, cəmiyyətin, təfəkkürün ən ümumi qanununu öyrənən elm mənasına qədər,

adi fikirdən bütün bəşəriyyəti ifadəyə düşüncəyə qədər çoxsaylı mənalar ifadə etmişdir (9, 6-19; 11; 99, 5-9). Fəlsəfənin təşəkkülü tarixin, elmi biliyin ilkin ünsürlərinin rüşeymlərinin yaranması isə nəzəri tədqiqata tələbatın meydana gəlməsi ilə eyni vaxta düşür. Əslində elm nəzəri biliyin ilk tarixi forması kimi yaranmışdı. Adamların müxtəlif məsələlər üzrə baxışlarının tarixi inkişafı fəlsəfə tarixinin predmetini təşkil edir. Fəlsəfə tarixi həm fəlsəfə, həm də tarix elmidir (99, 9).

Fəlsəfə tədqiqatçıları A.Şükürov və S.Abdullazadə yazırlar: "Fəlsəfə tarixi bir daha göstərir ki, nəzəri təfəkkürün kateqoriya və formaları, elmi idrakın metodları necə hazırlanmışdır, dünyanın qanunları nəzəri cəhətdən necə mənimsənilmişdir... Hər dövrün nəzəri təfəkkürü müxtəlif zamanlarda çox müxtəlif formalar və bununla birlikdə çox müxtəlif məzmunu olan tarixi bir məhsuldur. Deməli, hər bir başqa elm kimi, təfəkkür haqqında elm də tarixi elmdir, insan təfəkkürünün inkişafı haqqında elmdir" (59, 15; 99, 9).

Beləliklə, biz yuxarıda iki tarix görürük. Birincisi, varlığın tam fasiləsiz təşəkkül, dəyişmə və inkişafından törəyən obyektiv tarixini. Hələlik tarixi bu bütövlüyü ilə yazmaq mümkün olmamışdır. İkinci tarix isə varlığın müxtəlif aspektli təşəkkületməsi səbəbləri və mahiyyətini izah edən, təsəvvür edən tarix elmi adlanan tarixdir. Misal üçün, tibb tarixi, geologiya tarixi, minereologiya tarixi, riyaziyyat tarixi, kimya tarixi, texnika tarixi, etnososial tarix və s. nəhayət, ümumilikdə elm tarixi. Tarixin bu sahələrinin mövcudluğunu heç də bütün insanlar bilmirlər, onu bilməyə heç maraq da göstərmirlər. Bütövlükdə bütün xalqın bilməyə maraq göstərdiyi sahə də vardır, bu sahə etnososial-mənəvi inkişaf tarixidir. Çünki xalq keçmişi təsəvvür etmədən yaşaya bilmir. Odur ki, keçmiş haqqında bilgiyə malik olmayan etnoslar adi eşitdiyi bir nağılı bəzəyib-düzəyib uzaq və yaxın keçmişi haqqında qəhrəmanlıq tarixi uydurur, yara-

dır. Belə uydurma, subyektiv tarixlər təsəlliverici və zəif də olsa, etnosu səfərbər edə bilir. Lakin həqiqəti ifadə etmədiyindən, biososial gendən, ona məxsus ənənədən məhrum olduğu üçün çətinliklə üzləşən kimi səfərbəredici gücünü itirir, xalqı mənəvi, sosial-siyasi qida ilə təmin edib bütövlüyünü qoruya, yaşada bilmir. Etnos tənəzzül edir, bir çox hallarda parçalanıb dağılır. Elm adlandırılsa da, subyektiv tarixlər etnosun gələcəyə inkişafını təmin, təşkil edə bilmir. Xalqların gələcəyə yolunu, inkişafını təmin edən onun həyatında baş vermiş təşəkkül, dəyişmə, inkişaf, tərəqqi və tənəzzül səbəblərini olduğu kimi yazıb gələcək nəsillərə ötürən obyektiv tarix elmidir.

Əgər tariximizi etnos kimi gələcəyə çatdırmaq üçün onun həyatında mövcud olmuş təşəkkül, dəyişmə və inkişaf prosesini törədən, yaradan mahiyyətlər, onun başqa cür deyil, məhz bu cür yollar keçməsini, son nəticədə məhz belə nəticə verməsini göstərən, həqiqəti ifadə edən mahiyyət və səbəblər göstərilirsə, bu, həqiqi elmi tarixdir. Yazılmış hər hansı tarixdə etnososial-mənəvi inkişafın təşəkkül, dəyişmə və inkişaf prosesinin mahiyyəti açılmırsa, etnosun sosial-mənəvi həyatında əksliklərin bir-birinə keçməsi, bir-birini əvəzləməsi, kəmiyyət və keyfiyyət dəyişməsi, inkarı inkar, nəyin nəyi inkar etməsi aydın görünmürsə, gələcək nəsillərə çatdırılmırsa, bu, tarix elmi deyil, etnosun həyatı, keçmişi haqqında "tarixçi"nin özü səviyyəsində yanlış təsəvvürü və təsvirindən ibarət bir şeydir. Xalqların etnososial-mənəvi həyatının tam, bütöv mənzərəsini yaratmaq çətinlik yaratdığından, daha doğrusu tarixçilər çətinliyə qatlaşmadığından, cəmiyyət həyatının müxtəlif sahələri haqqında xüsusi biliklərə tələbatdan bu sahədə də bölgü yarandı, tarix elminin müxtəlif sahələri formalaşdı. Məsələn, sosial tarix, siyasi tarix, hərbi tarix, iqtisadi tarix, mədəniyyət tarixi, incəsənət tarixi və s.

Tarixin elm olmaması haqqında hələ XIX əsrdən söhbəti gedən sahələrin, xüsusilə etnososial-mənəvi sahəyə aid yazılmış "elmi əsər"lərin elmi olmaması mübahisəlidir. Burada çoxsaylı həqiqətlər vardır. Belə ki, bu əsərlərdə etnosun sosial-mənəvi həyatında gedən əksliklərin vəhdəti və mübarizəsi, kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsi, inkarı inkar prosesi, tərəqqi və tənəzzül, inkişaf və ya məhvolma izlənmir, sadəcə olaraq hadisələrin mexaniki görüntüsündən bəhs olunur. Hadisələrin obyektiv və subyektiv səbəblərindən çox qeyri-obyektiv səbəblər uydurulur. Xüsusən qaliblərin qələbəsinin səbəbləri çox zaman son dərəcə subyektiv göstərilir. Bunun bir səbəbi də qaliblərin əsl həqiqəti bildirməməklə məğlubların tarixi qanunauyğunluqların səbəblərini öyrənmələrinin qarşısını almaq siyasətidir. Bunun ən bariz nümunəsi Sovet tarixşünaslığıdır.

Digər mühüm səbəblərdən biri də tarixçilərin etnosun mənəvi dünyasında gedən təşəkkül prosesində əksliklərin vəhdəti və mübarizəsi, kəmiyyət dəyişməsinin keyfiyyət dəyişməsinə keçməsi və inkarı inkar prosesini dərk edə və izləyə bilməmələridir. Əgər bir tarixçinin yazdığı əsər elmi səviyyəyə yüksəlmirsə, daha böyük nümunə keçmiş SSRİ məkanında tarix əsərləri bəzən 80-90%, bəzən bütövlükdə 100% saxta, qeyri-elmi isə, bu o demək deyil ki, tarix elm deyil. SSRİ-nin tarixinə elmi səviyyədə nəzər saldıqda çox incəliyinə qədər bu dövlətin süqutunun başlıca səbəblərindən biri tarixin etnososial-mənəvi inkişaf qanunlarına məhəl qoyulmaması, onun əksinə gedilməsi olduğu aydın görünür.

Yuxarıda qeyd etdik ki, yaşadığımız günlərdə tarixin elmi olmadığını sübut etməyə çalışan, bu sahədə kitab yazan müəlliflərdən biri fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Səlahəddin Xəlilovdur. Biz təxminən həmyaşıdıq, bir dövrdə tələbə olmuşuq. Onun yazısında tarix elminə bir balaca kin-nifrət duyulması tələbəlik illərin-

də şahidi olduğum bir hadisəni yadıma saldı.

1966-cı ildə orta məktəbi bitirib Bakıya gəldiyim elə ilk günlərdə məndə SSRİ-nin dağılacağı qənaətini doğurdu (səbəblərinin geniş izahatına ehtiyac görmürəm). Nəhayət, 1968-ci ildə ADPU-nun tarix fakultəsinə qəbul olundum. Tələbəliyimin elə ilk günlərindən antisovet, millətçi kimi tanındım. Nəhayət DTK-nın xəbərdarlığını aldım. Təhsil illəri SSRİ-nin dağılacağı haqqında inamımı gündən-günə artırırdı. Bu illərdə SSRİ iqtisadi inkişafının ən yüksək səviyyəsinə çatmışdı, tələbələrin əksəriyyəti fəhlə və kolxozçu balaları idi, dövlətin verdiyi təqaüdlə oxuduqlarından mənim mülahizələrim onlara çox da inandırıcı görünmürdü. Bütün bunlar inamımı öldürə bilməsə də, məndə məyusluq doğurdu. SSR-nin dağılacağı haqqında məndə inam yaradan hadisələrdən biri riyaziyyat, fizika, kimya fakultələrinin tələbələrinin marksist fəlsəfədən, elmi kommunizm, Sov. İKP tarixindən, siyasi iqtisad fənnindən çətinlik çəkmələri, daha doğrusu bu fənləri mənimsəyə bilməmələri idi. Lakin bu arqumentimin də SSRİ-nin dağılacağı ilə əlaqəsi, bu ideyanın mənə haradan gəldiyini özüm üçün də aydın izah edə bilmədiyimdən dilə gətirmir, içimdə saxlayırdım.

1971-ci ilin yanvar ayı qış sessiyası imtahanlarının ən gərgin vaxtı idi. A.A.Bakıxanov küçəsi ilə Orta bulvar küçəsinin kəsişməsində yerləşən tələbə yataqxanasında otaqlarda gecələr işıq sönmür, tələbələr qaynaşırdılar, əla qiymətlərin sevinci, aşağı qiymətlərin təəssüfü, qeyri-məqbul, qeyri-kafi qiymətlərin məyusluğu xəzri, gilavar, qərb küləyi kimi hər an bir-birini əvəz edirdi. Bircə anda sevincinə qoşulduğum tələbə yoldaşına olan şadlıq hissini gizlədib, məyus yoldaşının kədərinə qoşulmaq məcburiyyətində qalırdın. Əlaçı tələbələr həmişə diqqət mərkəzində olduğundan onların imtahandan qayıtmalarını az qala bütün yataqxana gözləyirdi. Üçüncü kursa çatmış tələbələr əlaçılığı qorumağa xüsusi səy

göstərirdilər. Çünki fərqlənmə diplomu almağa şansları yaxınlaşırdı. Yuxarı kurs tələbələri əksərən hamısı bir-birini tanıdığı üçün, onların qarşılanması daha canlı, hay-küylü olurdu. Riyaziyyat, fizika, kimya fakultəsi tələbələrinin fəlsəfə, elmi kommunizm, siyasi iqtisad, Sov.İKP tarixi fənlərindən imtahanları yataqxanada həmişə məyusluq doğururdu. Tələbələr ya aşağı qiymət alır, ya da kəsilirdilər.

Riyaziyyat fakultəsinin 3-cü kurs tələbələrinin əksəriyyəti yataqxanada məskunlaşmışdı, çoxu da əlaçı idi. Növbəti imtahan "siyasi iqtisad" fənnindən idi. Tarix fakultəsinin riyaziyyatçıların qavraya bilmədiyi "siyasi iqtisadı" guya dərk edən savadlı tələbələri riyaziyyatçı tələbə yoldaşlarına "siyasi iqtisadı" öyrənməkdə "kömək" edirdilər ki, onlar da əlaçı ola bilsinlər. Lakin bu il hər şey əksinə oldu, riyaziyyat fakultəsinin 17-18 əlaçı tələbəsinin hamısı "2", "3" qiymət almışdı. Tələbələri məyusluq bürümüşdü. Riyaziyyat fakultəsinin tələbələri tarix, filologiya və ibtidai-metodika fakultəsinin adi tələbələrinin "öyrənə" bildiyi fəlsəfə, elmi kommunizm, siyasi iqtisad və Sov. İKP tarixini mənimsəyə, öyrənə bilməmələrinin səbəbini dərk etmək istəyirdilər. Beləcə qızğın mübahisə edirdilər.

Mübahisə, müzakirə prosesində dəqiq elmlər fakultələrinin marksist fənlərdən həmişə kəsilmələrini SSRİ-nin dağılacağı ilə əlaqələndirmənin səbəbi bir anda təfəkkürümdə canlandı. Marksizm və marksist fənlər elmi olmadığı, həqiqəti ifadə etmədiyi üçün riyazi, elmi təfəkkürlər onu qəbul edib, yaddaşa daxil edə bilmirdilər, çünki bu fənlər riyazi məntiqə sığmırdı. Tələbə yoldaşlarımla müzakirə prosesində riyaziyyatçıların marksist fənləri qavraya bilməməsini SSRİ-nin dağılması ilə əlaqələndirməm haqqında mülahizəmi məntiqi sistemə saldım. Riyaziyyatçılar marksist siyasi iqtisadı qavraya bilmirlərsə, siyasi iqtisad riyazi məntiqlə izah oluna bilmirsə, o, düz deyil, yalandır, bütövlükdə mar-

ksizm riyazi məntiqlə izah oluna bilmədiyi üçün o, yalandır və marksizm ideologiyası üzərində qurulan cəmiyyət mütləq dağılmalıdır.

Müzakirənin qızğın yerində özümdən asılı olmayarq riyaziyyatçı tələbələrə məxsus davranışla, ucadan, qışqırırmış kimi, "tapdım-tapdım, SSRİ dağılacaq" dedim. Hərəkətim və sözlərim hamıya qəribə göründü. Yoldaşlarım bir qədər çaşqın və məyus: "biz nədən söhbət edirik, sən nəyi tapdın, nədən danışırsan, SSRİ-nin bizim siyasi iqtisadı öyrənə bilməməmizə nə dəxli var?" – deyə məyusluqla mənə müraciət etdilər.

Mən tapıntımdan doğan sevincimi yoldaşlarımdan gizlədə bilmirdim. Mənim bu hərəkətlərimdən müvəffəqiyyətsizliklərini unudan yoldaşlarım tapıntımı izah etməyimi rica etdilər. Beləliklə, mən tapıntımı onlara danışdım, hamı məni məyus-məyus dinlədi, izahıma inanmasalar da, etiraz da etmədilər. Bir həftədən sonra "kəşfimin" DTK-ya çatdığı məlum oldu. Yenə ciddi bir son xəbərdarlıq bildirildi. Bu tələbə yoldaşlarımdan "professor" olmuş biri 2005-ci ildə, hadisədən düz 34 il keçəndən sonra bildirdi ki, mən sənin o vaxt dediyin sözləri bu yaxınlarda marksist fənlər yığışdırılanda dərk etdim.

Görünür, Səlahəddin Xəlilov da fizika fakultəsinin tələbəsi kimi tələbəlik və aspirant illərində Sovet tarixşünaslığından, xüsusən onun vətən tarixini baş-ayaq qoymuş Azərbaycan tarixşünaslığından o qədər əziyyət çəkmişdir ki, "tarix" məfhumu" ilə "elm" məfhumunu birlikdə təsəvvür edə bilmir. İndi isə S. Xəlilovun tarixin elmi olmaması haqqında arqumentlərini diqqətə çatdırırıq. O, yazır: "Tarix" anlayışı üç müxtəlif səviyyədə və mənada istifadə olunur. Birincisi: sosial-tarixi proses, ictimai inkişaf kimi; ikincisi: ictimai hadisələrin xronoloji ardıcıllıqla təsviri – "tarix" elmi kimi və nəhayət, üçüncüsü: bu prosesin insan tərəfindən

bütöv və bir fenomen kimi duyulması və dərk olunması mənasında – "tarix fəlsəfəsi" kimi" (14, 24). Əvvəla yuxarıdakı şərhlərimizdən və elm tarixindən gətirdiymiz nümunələrdən göründüyü kimi, "tarix" anlayışı (termini) üç yox, daha çox anlayışda işlədilir. Yuxarıdakı şərhlərimizdə onun 2-ci və 3-cü anlayışda, mənada tarixin elm olmaması haqqında mülahizələri yetərincə cavablandırılmışdır. Əlavə izaha ehtiyac duymuruq. O, tarixçinin tarixi "birinci səviyyədə və mənada", "sosial-tarixi proses, ictimai inkişaf" kimi elmi səviyyədə tədqiqini mümkün hesab etmir (14, 24-25). Onun tarixçinin tarixi etnososial prosesi elmi səviyyədə tədqiq edə bilməməsinin səbəbləri haqqında mülahizələri fakta və elmi əsasa söykənmir. K.Yaspersdən gətirdiyi iqtibas da bütünlüklə onun mülahizələrinin əleyhinə işləyir (14, 24-25). Hegeldən gətirdiyi iqtibas onun mövqeyini abstrakt şəkildə müdafiə etsə də, ümumiyyətlə, ziddiyyətlidir. Onun mülahizəsini birmənalı təsdiq etmir (14, 26). Fəlsəfə tarixçisi Kuno Fişerdən gətirdiyi iqtibas da fəlsəfə və tarix elmi üçün obyektiv hesab edilə bilməz (14, 27).

S.Xəlilov düzgün olaraq göstərir ki, tarixçilər tədqiqatlarında həmişə zaman və məkan çərçivəsində mövcud olmuş hadisələrdən bəhs edir. Ümumiyyətlə, tarixçi üçün zaman və məkan fövqündə hadisə yoxdur. Lakin fəlsəfə üçün zaman və məkan yoxdur. O, zamanın fövqündə durur (14, 25).

Sonra tarix elmi ilə fəlsəfənin münasibəti haqqında yazır: "Tarix elm və fəlsəfə ilə əks qütb təşkil edir. Fəlsəfə ilə tarixin arasında çox geniş bir fikir sahəsi dayanır ki, elmi və bədii təfəkkür də bura daxildir. Aristotelin yuxarıda iqtibas gətirdiyimiz "poeziya fəlsəfəyə daha yaxındır" fikiri də bu kontekstdə daha çox aydın olur" (14, 28). Tamamilə yanlış fikirdir. Fəlsəfə tarixin ruhudur. Sözünə davam edərək, tarixçinin tarixin öyrənilməsindəki xidməti vəzifəsi haqqında yazır: "Əvvəla, tarixçi mahiyyətləri yox, hadisələri təsvir edir.

İkincisi, tarixçi bilavasitə özünün deyil, başqalarının şahidliyi əsasında, müxtəlif mənbələrdən aldığı informasiyaların təhlili əsasında model qurur, şərh verir.

Üçüncüsü, tarixçi hər bir dövrdə hadisələrin mümkün gedişat variantları, imkanlar içərisindən ancaq birinin, gerçəkləşmiş, həyata keçmiş variantın təsvirini verir (İmkan mahiyyətə, gerçəklik isə hadisəyə uyğun gəlir).

Dördüncüsü, tarixçinin düşüncə tərzi, təfəkkür üslubu hadisələr dövründə yaşayan və onları təsvir edən şəxslərin düşüncə tərzi və təfəkkür üslubundan fərqli olduğundan tarix bəzənə-bəzənə, "düzənlənə-düzənlənə" gedir. Başqa sözlə, təfəkkürün inkişafı keçmişdə qalmış hadisələrin özünə təsir edə bilməsə də, təsvirinə, şərhinə təsir göstərir (14, 28-29).

Yuxarıda qeyd etdiyimiz kimi, bütün bunlar süni, uydurulmuş, sovet tarixşünaslığının yaratdığı yanlış təəssüratdır ki, fəlsəfə tədqiqatçısı onu bütün dünya tarixşünaslığına aid edib tarixin elm olmadığı iddiasına düşərək, onu sübut etmək istəyir.

Varlığın qanunları əsasında istifadəsi mümkün olan bütün mənbələrdən istifadə etməklə uzaq və ya yaxın keçmişin, istərsə də yaşadığı dövrün sönmüş-reallaşmış və ya reallaşmış hadisənin mahiyyətini açmaq, onun dolğun, əhatəli modelini yaratmaq, yarımçıq qalmasının, sönməsinin və ya reallaşmasının mahiyyətini açmaqla təşəkkül prosesində, mədəni varislikdə rolunu müəyyən etmək tarixi tədqiqatın, tarixçinin məqsədi və vəzifəsidir. Varlığın qanun, kateqoriyaları və elmi metodlarla aparılan tarixi elmi tədqiqatlar adətən elmi, obyektiv nəticələr verir. Elə ki etnososial hadisələr varlığın qanun, kateqoriyaları, elmi metodla deyil, tədqiqatçının subyektiv təsəvvür və mühakimələri əsasında araşdırıldı, təbii ki, tədqiqata cəlb olunmuş hadisənin mahiyyətini açıb onun tarixi missiyasını müəyyən etmək mümkün olmayacaq.

S. Xəlilov tarix və tarixçi ilə filosof və fəlsəfəni müqayisə edərək yazır: "Fəlsəfə hadisələri deyil, mahiyyəti əks etdirdiyindən onun tədqiqat obyekti zaman-məkan müəyyənliyinə malik deyil. Keçmişdə deyilmiş fəlsəfi bir fikir, həm də müasir dövrə aid olmaq əzmindədir. Başqa sözlə, fəlsəfə klassiklərinin əsərləri bu gün yazıb-yaradan müasir filosofların əsərləri ilə eyni zamandan və eyni məkandan bəhs edir. Yəni, klassiklər müasir filosofların müasirləridir. Platonla, Fərabi ilə, Dekartla tanış olmaq üçün keçmişə - tarixin dərinliyinə yox, fəlsəfəyə - ideya dünyasının dərinliyinə baş vurmaq lazımdır.

Beləliklə, tarixdə müasir insan (tarixçi) keçmişi əks etdirdiyi halda, fəlsəfədə keçmiş insan (filosof) təkcə öz dövrünü yox, həm də müasirliyi əks etdirir" (14, 29).

Göründüyü kimi, müəllif çoxsaylı yanlışlığa yol verir. "İdeya dünyasının dərinliyini" tarixin dərinliyi", təfəkkür tarixi hesab etmir. Varlıqda gedən bütün proses, təşəkkül və dəyişmələr hadisələrdə üzə çıxır. Bütün mahiyyətlər hadisələrin mahiyyətidir, hadisədən kənarda mahiyyət yoxdur, hadisədən bəhs etmədən mahiyyətindən danışmaq olmaz, onu öyrənmək və dərk etmək də mümkün deyil. S. Xəlilov "terminlərin ənənəvi işlədilməsindən yaxa qurtara bilsək və məsələyə konseptual yanaşmağa çalışsaq, görərik ki" (14, 24) deyə terminlərə deyil, mahiyyətə varacağını vəd etsə də, fəlsəfənin mahiyyətindən çox terminoloji məsələlərdən bəhs edir (14, 24-32). Amma bütün bunların əvəzində "fəlsəfi ideyanın zaman və məkan fövqündə olması"nın anlaşıqlı bir dildə şərhi daha yaxşı olardı. Fəlsəfə ona görə zaman və məkan fövqündədir ki, o, varlığın tarixi obyektiv qanunlarıdır. Bu obyektiv qanunlardan bəhs edən filosoflar da o qanunlardan bəhs olunduğu yerdə onlarla birlikdə, zaman və məkan fövqündə anılırlar. Misal üçün Zərdüştün varlıqda – tarixdə kəşf etdiyi əksliklərin vəhdəti və mübarizəsi qanu-

nunun anıldığı bütün zamanda və məkanda onunla birlikdə anılması təbiidir. S. Xəlilovun "Fəlsəfə, tarix və müasirlik" (B., 2006) əsərindəki "Fəlsəfə, tarix, tarix fəlsəfəsi və fəlsəfə tarixi" adlı 9 səhifəlik paraqrafda fəlsəfə qanunları anlayışlarının mücərrədləşmələrindən polemikasız yan keçmək və bu anlayışı düzgün mənalandırmaq üçün fəlsəfə termini yerində varlıq qanunları anlayışı işlətdim. Məsələyə bir qədər diqqətlə yanaşsaq, fəlsəfə müstəqil elm də hesab edilməyə bilinər. Bu anlayış altında anılan qanunlar və kateqoriyalar Mütləqin yaradıcılıq qanunları əsasında varlığın dəyişmə və təşəkkül prosesini təmin edir. Elə bilirəm ki, bu üsulla fəlsəfə anlayışına bir qədər də aydınlıq gətirə bildik.

S.Xəlilov yazır: "Tarix dəyişiklikləri, elm dəyişmənin qanunauyğunluqlarını, fəlsəfə sabit qanunları əks etdirir" (14, 30-31), biz də buna əlavə edirik ki, fəlsəfə-varlıq qanunları həm də olmuş və olacaq təşəkkül etmələri, bütün qabarma və çəkilmələri, vulkan püskürmələrini və qasırğaları, sosial-siyasi və inqilabları törətmiş və törədir. Xoşbəxt o xalq omuş və o xalq olacaq ki, onun filosofu bu qanunları xalqına göstərə bilib, tarixçisi bu qanunlarla cəmiyyəti, onun mənəvi-ideoloji, iqtisadi-siyasi həyatını, adət-ənənəsini, əxlaqını, inam və etiqadını yazıb.

Maraqlıdır, S. Xəlilov tarixçiliyi mənasız, təsvirçi, seyrçi peşə, tarixin elm olmaması haqqında mülahizələrinin sübutu üçün, bircə tarixi əsər, bir tarixçi fəaliyyəti nümunə gətirmədiyi, təhlil etmədiyi halda etnososial-siyasi proseslərdə - cəmiyyətdə, təfəkkür tarixində qırılmalara yol verməmək, onun harmonik inkişafını təmin etmək qaydalarından bəhs edəndə tez-tez tarixə müraciət edir, ondan düzgün səmərəli istifadənin yollarını tövsiyə edərək yazır ki, "ideyaların inkişaf tarixini bilmədən sivilizasiyanın da tarixini mənimsəmək mümkün deyil" (167, 61). Göstərir ki, "Ərazinin tarixi, xalqın tarixi, millətin tarixi, dövlətin tarixi fərqləndirilmədən

məsələyə milli şüur prizmasından baxmaq çətindir. Minilliyin və yüzilliyin əsas səciyyələrini vermək üçün əvvəlcə bütövlükdə tarixi inkişaf prosesi heç olmazsa ən ümumi şəkildə nəzərə alınmalıdır" (167, 144). S. Xəlilovun tarix və tarixçiyə zərurət kimi anlatmaq istədiyi tövsiyəni olduğu kimi oxucuya çatdırmaq üçün həcmi böyük olsa da, belə iqtibas etmə işimiz üçün qüsur olsa da, əhəmiyyətini nəzərə alıb olduğu kimi kitabımıza daxil edirik. O, yazır: "Millimənəvi dəyərlərin, əxlaqın, adət-ənənənin yeni nəslə çatdırılması, davam etdirilməsi üçün mədəni abidələrin, bədii ədəbiyyatın, milli fəlsəfi tarixin rolu böyükdür. Lakin milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də millimənəvi dəyərlərin qorunmasına xidmət edir. Və bu zaman milli ruh həyat tərzinə çevrilir. Dövlətçilik ideologiyası da, milli ideologiya da eyni bir təməl üzərində - milli fəlsəfi fikir zəminində formalaşır.

Bir millət üçün canlı tarix harada qırılanda, onun inkişafının daxili hərəkətverici qüvvələri məhdudlaşdırılanda, inkişaf kənar qüvvələrlə məqsədyönlü şəkildə başqa səmtə istiqamətləndiriləndə milli genin heç olmazsa başqa ampluada, fövqəltarixi formalarda; fikirlərdə, xatirələrdə, ədəbiyyatda, incəsənətdə yaşadılması zərurəti yaranır. Xalq başqa imperiyaların işğalı altında qaldıqda, başqa əlaqələrin rəsmi təsir dairəsinə düşdükdə, həqiqi böyük ziyalılar estafeti öz əllərinə alır və milli ruhu öz şəxsi həyatı bahasına, diri-diri yandırılması, dərisinin soyulması hesabına da olsa yaşadaraq, bir əmanət kimi yeni nəsillərə ötürürlər. Dövlət xadimləri, siyasətçilər, sərkərdələr öz tarixi ziyalılıq missiyasını yerinə yetirə bilməyəndə, milli ruh milli varlığın himayəsindən məhrum olanda, qılınc qələmlə vaxtında birləşməyəndə bütün ağırlıq qələmin, yaradıcı ziyalıların üzərinə

düşür. Milli dövlətçilik kəsilməz bir proses kimi davam etsin deyə, dövlətlərarası dövrdə kəsilməzliyi milli-mənəvi körpüləri təmin etməli olur" (24, 39-40; 167, 88).

S.Xəlilovun tarix haqqında diqqətə çəkdiyimiz bu müddəaları gənc tarixçilərin yetişdirilməsi zamanı əvvəlcədən onlara aşılanmalı mənəvi dəyərlər, milli tariximizin yazılması zamanı rəhbər tutmalı ciddi elmi-nəzəri müddəalardır.

Tarixi tədqiqatın elmi səviyyəyə çatması üçün dialektik metodun bütün prinsiplərinə ciddi əməl olunmalıdır. Predmet və hadisəni daim öz-özünə hərəkətdə, dəyişmədə və inkişafda nəzərdən keçirəsən, başqa sözlə predmetin meydana gəlməsini, bir inkişaf halından digərinə keçməsini, indini öyrənib və gələcək vəziyyətini proqnozlaşdırasan. Predmet və hadisə öyrənilərkən obyektivlik tam təmin olunmalı, heç bir subyektivliyə yol verməməlidir. Tarixi obyekt haqqında fikirlərindən yox, obyektin özündən – sosial-siyasi, mənəvi-ideoloji və s. durumunun konkret səviyyəsindən çıxış edilməlidir. Çünki təfəkkür predmetə tabedir, predmet təfəkkürə yox.

Təfəkkür predmet və hadisələrin tərəflərinin qarşılıqlı daxili əlaqə və asılılıqlarının məntiqini aşkara çıxarmalıdır (59, 83-85).

Sosial idrakda istifadə olunan obyektivlik prinsipi yalnız obyektin özündən, onun fəaliyyət və inkişaf qanunlarından irəli gələn tələbləri deyil, maddi və ideoloji münasibətlərin, o cümlədən obyektiv və subyektiv amillərin də dəqiq fərqləndirilməsi tələblərini özündə birləşdirir. Obyektivlik prinsipindən belə düzgün spesifik istifadə sayəsində subyekt sosial hadisələr düzgün dərk oluna bilər (59, 84). Dialektik metodda tarixilik və məntiqilik mühüm prinsipdir. Tarixi dedikdə, real şeyin özünün, sosial-iqtisadi, ideoloji-mənəvi hadisənin özünün hərəkəti nəzərdə tutulur; məntiqi və tarixinin inikasıdır. Tarixi əvvəl gəlir, onun arxasınca isə məntiqi

gəlir. Məntiqi tarixinin əsas mərhələsini əks etdirir (31, 281).

Tarixilik prinsipi tədqiq olunan obyektin, predmetin gerçəklikdə olduğu kimi təsvir edilməsi demək deyildir, obyektin bir inkişaf mərhələsindən başqasına keçməsinin qanunauyğunluqlarını aşkara çıxarmaqdır. Başqa sözlə, predmetin, obyektin xassə və əlaqələrini elmi şəkildə izah etməklə onun mahiyyətini açmaqdır, gələcək inkişaf yollarını göstərməkdir. Bu fikir tarixiliklə məntiqiliyin üzvi əlaqəsini ifadə edir – fikirin inkişaf məntiqi tarixiliklə üst-üstə düşməlidir (59, 86).

Dialektik məntiqin aşağıdakı prinsiplərinə, tələblərinə cavab verməyən hər hansı tarixi tədqiqat əsəri elm adlandırıla bilməz: 1) Predmet və hadisələrin əlaqə və münasibətlərinin dərindən və hərtərəfli tədqiqi; 2) Onların dəyişmə və inkişafda götürülməsi; 3) Predmetlərin vəhdətdə və əksliklərin mübarizəsi fonunda tədqiqi; 4) Analiz və sintezin tədqiqi; 5) İnsan biliklərinin sonsuz mütərəqqi inkişafı; 6) Hadisə və proseslərin dialektik inkarı; 7) Forma və məzmunun vəhdəti; 8) Kəmiyyət və keyfiyyət dəyişmələrinin qarşılıqlı surətdə bir-birinə keçməsi; 9) Vahidin ikiyə bölünməsi, bir-birinə zidd tərəflərinin dərki və s.(59, 86-87).

Tarix adı altında yazılmış əsərlərin hansının elmi əsər adlandırılması üçün nə kimi tələblərə cavab verməsi, tədqiqat aparmaq, bu işdə elmi səviyyəyə qalxmaq, alim atributu qazanmaq üçün insanın anadangəlmə hansı təfəkkür keyfiyyətlərinə malik olmaqla, tədqiqatında hansı prinsiplərə əməl etməsi, hansı iradi keyfiyyətlərə malik olması, Azərbaycan Sovet tarixşünaslığının xalqımızın mənəvi aləmində, dünyasında, milli simasında yaratdığı faciəviliyi dərk etmək, gələcəyimizi qurmaq naminə milli tariximizi obyektiv elmi səviyyədə yazmaq üçün alman mütəfəkkiri K. Yaspersin mülahizələrini bilməyimiz zəruridir. Odur ki, onun "Dövrün mənəvi durumu" adlı əsərindəki "elm" paraqrafını əsərimi-

zə daxil edirik.

K.Yaspers yazır: "Elm. Elm bu gün də çoxlu diqqətəlayiq şey yaradır. Təbii elmlərdə əsas ideyalar və empirik nəticələrdə həyəcanlandırıcı, sürətli tərəqqi başlanmışdır. Bütün dünya ölkələrinə səpələnmiş tədqiqatçılar dairəsi rasional özarası anlaşma ilə bağlıdırlar. Biri alınmış nəticələri top kimi başqasına atır. Nəticələrinin əlçatanlığı sayəsində bu proses kütlədə cavab reaksiyası doğurur. Humanitar elmlərdə obyektivliyə yaxın görmə mikroskopik dəqiqliyə çatmışdır. Əvvəllər heç vaxt, misli görünməmiş zənginlikdə sənədlər və abidələr əlçatan olmuşlar. Tənqiddə arxayınçılığa nail olunmuşdur.

Amma nə təbii elmlərin coşqun irəliləməsi, nə də humanitar elmlərin materialının genişlənməsi elmə qarşı şübhənin qabağını ala bildi. Təbii elmlər bütövlüyün seyrindən məhrumdurlar, xeyli dərəcədə biliklərinin olmasına baxmayaraq, onların əsas ideyaları bu gün qəti nail olunmuş həqiqətdən çox tətbiqi sınaqdan keçirilən reseptlər kimi təsir göstərir. Humanitar elmlər humanitar təhsil etnosundan məhrumdur; düzdür, hələ də məzmunlu işlər peyda olur, amma onlar tək-tükdür və daha çox ola bilsin, arxasınca heç nə gəlməyəcək imkanın son tükənməsi kimi qəbul edilirlər. Filoloji və tənqidi tədqiqat tərəfindən hansısa bir bütövlük kimi tarix fəlsəfəsinə qarşı aparılan mübarizə tarixi insan imkanlarının bütövlüyü kimi təqdim edə bilməmə ilə başa çatdı. Tarixə məlum olan həcmin miniliklərə qədər genişləndirilməsi, zahiri kəşflərə gətirib çıxarsa da, şərəf insanınını substansional mahiyyətinin mənimsənilməsinə gətirib çıxarmadı. Deyəsən, keçmişin üzərinə ümumi biganəlik boşluğu sərilmişdir.

Deməli, elmin böhranı onların bacarıqlarının sərhədlərində deyil, onların mənasının dərkindədir. Bütövün parçalanmasından sonra bilinənin ölçülməzliyi qarşısında sual

dayandı – onu bilməyə dəyərdimi? Bütöv dünyagörüşündən məhrum biliyin təkcə düzgün olduğu yerdə o, yalnız texniki yararlığına görə qiymətləndirilir. O, doğrusu heç kimi maraqlandırmayan şeyin dibsizliyinə qərq olur.

Bu böhranın səbəbləri elmin özünün inkişafından qismən anlaşılan olur. Aşkar olunan material kütləsi, metodların müxtəlifliyi hər bir yeni nəslin işə başlamazdan əvvəl mənimsəməli olduğu get-gedə daha çox ön şərt yaradır. Deyəsən, elm insanın dərk edə biləcəyinin hüdudlarından kənara çıxır. Ona qədər yaradılmış olanın öhdəsindən gələnədək onu ölüm haqlayacaqdır. Halbuki elmin müəyyən bir mənaya əsaslandığı yerdə bu sonsuzluğa yiyələnən əsas ideyalar və həyata münasibət edirlər. Bilinməsi mümkün olanın həcmi həmişə o qədər olmuşdur ki, heç kəs ona tam yiyələnə bilməmişdir. Amma yiyələnmə vasitələri hər dəfə anlamaya doğru həlledici addımlar kimi atılmışlar. Elm olan nəsnə insan şəxsiyyətində tam olan kimi həyata keçirilmişdir. Ona görə keçmişdən gəlib çatmış önşərtlər bilik və bacarığın verilən pilləsində, ola bilsin, hələ sınanmamış imkanlara malikdir.

Bu gün hər yerdə köklərin axtarılması, cürbəcür imkanlarında nəzəri prinsiplərin yoxlanması və bir-birilə toqquşdurulması faktı diletantlarda şübhə doğurur. Artıq möhkəm nöqtə olmayan yerdə bilinən şey, onların fikrincə, havadan asılı qalır. Ancaq idrakı yalnız onda iştirak etməyən bu cür qəbul edir. **Yeni prinsiplərə doğru yaradıcı addımlar həqiqətən idrak binasını silkələyir, amma dərhal xüsusi elmin bütövü üçün nail olunmuşu sual altına qoyduğunu yeni mənada saxlayan tədqiqat ardıcıllığında yenidən onu bərqərar edirlər.**

Deməli, böhranı kifayət qədər elmin immanent inkişafı yox, yalnız situasiyanın aid olduğu insan izah edir. Özlüyündə elm yox, o özü elmdə böhran halındadır. Bu böh-

ranın tarixi-sosioloji səbəbi kütləvi mövcudluqdadır. Ayrı-ayrı adamların azad tədqiqatının elmi təşəbbüskarlığa çevirilməsi faktı ona gətirib çıxardı ki, dərrakə və çalışqanlığı varsa, hər kəs özünü onda iştiraka qabil sayır. Elm plebeyləri təbəqəsi meydana çıxır; özlərini tədqiqatçı kimi qələmə verərək, onlar öz əsərlərində boş analogiyalar yaradır, hər cür təyinlər, hesablamalar, təsvirlər gətirir və onları empirik elm kimi elan edirlər. Nəticəsində insanların get-gedə daha çox bir-birini başa düşmədikləri qəbul edilmiş nəzər nöqtələrinin sonsuzluğu özü də bir önəm kəsb etsin deyə, hər kəsin məsuliyyətsizcəsinə gücənib çıxardığı fikirini söyləməyə cürət etməsinin nəticəsidir. Hamı ağlına gələn bir şeyi "müzakirəyə çıxarmağa" can atır. Mətbu elmi məhsulun olduqca böyük miqdarı, nəhayət, bir sıra sahələrdə xaotik axın sərgisinə, əslində haçansa kütlə adamlarının başındakı canlı təfəkkürün artıq anlaşılmamış kapita mortua-sına (sovxa fikirlər, lat.) çevirilir. **Elm sadəcə həmin ixtisasa mənsub minlərlə marağı olan şəxsin funksiyasına çevirildiyi yerdə, tədqiqat və ədəbiyyatın mənaları ortabablaşma üzündən bir-birinə keçə bilər. Ona görə bəzi elmlərdə saxta jurnalizm kimi ədəbi sensassiya ani uğur vasitəsinə çevirilmişdir. Bütün bunların nəticəsi mənasızlıq dərketmə olmuşdur.**

Elmdə davam edən kəşfin kotiunumu qalan yerdə o, çox vaxt yalnız öz mühümlüyünün texniki təsdiqi vasitəsilə mümkündür, sanki əzəli bilmə istəyi artıq məqsəd deyil. Onda təkcə elmi kəşflərə görə mükafatla, qüvvələri iflic olmasına baxmayaraq, davam edən elmi tədqiqatı hərəkətə gətirirlər. Bununla da obyektiv böhranı, o yalnız subyektdə olduğu yerdə görən yaradıcılıq mümkün olur. Elmin özözünü viranetmə prosesi kütlələrin, talantlı adamları hətta başqa bir elmi məna olmadan da planauyğun tədqiqatı davam etdirməyə vadar edən mükafatlarla təltif etməyə qabil olan mexanikləşdirilmiş yaşayışının xeyrinədir.

Ali təhsil müəssisələrinin kütləvi mövcudluğunda elm olaraq elmi məhv etmək tendensiyası özünü göstərir. O, yalnız praktiki məqsəddə, imtahanda və onunla bağlı hüquqlarda maraqlı olan kütlənin tələblərinə uyğunlaşmalıdır; tədqiqat yalnız praktiki reallaşdıra bilən nəticələr vəd etdiyi qədər dəstək alır. Bu isə elmin özünü idraka gələn və tədrisdə mənimsənilə bilən obyektiv biliklər səviyyəsinə endirir. "Sapere aude" (müdrik olmağa cürət et, lat.) mənəvi narahatçılığında yaşayan universitet əvəzinə sadəcə məktəb yaranır. Məcburi məşğələlər planı ilə fərd öz yolunu axtarmaq təhlükəsindən azad edilir. **Azadlıqda risk olmadan müstəqil təfəkkür imkanının əsası qoyula bilməz. Nəticədə mahir texniki ixtisaslaşma və bir də ki, çoxlu biliklər qalır; tədqiqatçı yox, alim tipi həlledici olur. Bunu eyni şey saymaqları tənəzzülün əlamətidir.**

Əsl elm, özünü buna həsr edənlərin aristokratik məşğuliyyətidir. Elmin böhranının qarşısını ala biləcək yeganə şey, əzəli bilmək arzusu – ayrıca bir insanın xüsusiyyətidir və öz məsuliyyəti bahasına həyata keçirilir. Düzdür, indi insanın həyatını elmi tədqiqata həsr etməsi ağlasığmaz sayılır. Amma bu heç vaxt kütlənin işi olmamışdır da. **Elmə yalnız, onu peşə kimi praktikada tətbiq edirsə belə, daxili yönümünə görə tədqiqatçı olan şəxsin aidiyyəti var. Elmin böhranı insanların əsl şərtsiz bilmək istəyini itirdikləri zaman onları bürümüş olan böhranıdır.**

Ona görə bu gün dünyada elmin mənasının təhrifi bərqərar olmuşdur. Elmin şöhrəti olduqca böyükdür. Kütləvi qayda yalnız texnika, texnika isə yalnız elm vasitəsilə mümkün olduğundan, dövrümüzdə elmə inam hökm sürür. Amma elmə giriş yalnız metodiki təhsil vasitəsilə mümkün olduğundan, onun nəticələri qarşısındakı heyrət hələ onun mənasından agah olmağı bildirmədiyindən bu inam xurafatdır. **Əsl elm – elə bilikdir ki, ona biliyin sərhədləri və me-**

todları barədə bilik daxildir. Elmin nəticələrinə, vasitəsilə onlara nail olduqları metodla bağlı yox, yalnız bu cür nəticə kimi inanıldığı təqdirdə, xəyali anlamdakı bu xurafat həqiqi inamın bədəlinə çevirilir. Elmi nailiyyətlərin yalançı möhkəmliyinə əminlik yaranır. Bu xurafatın məzmunu belədir: hər şeydə utopik işbilənlik, istənilən çətinliyi yaratmaq və texniki cəhətdən aradan qaldırmaq bacarığı, birgəyaşayış, əksəriyyətin qərarı vasitəsilə hamı üçün azadlğa gedən ədalətli yol kimi demokratiya imkanı kimi rifah, ümumiyyətlə mühakiməli təfəkkür müddəalarına mütləq düzgün ehkamlar kimi inanma. **Bu xurafatın gücünə az qala hamı, o cümlədən alimlər də tabe olurlar. Bəzən o, ayrıca bir halda dəf olunur, amma dərhal yenidən peyda olur; bu xurafat, ona tabe olmuş adamla əsl elmiliyin tənqidi zəkası arasında uçurum açır.**

Elmi xurafat asanlıqla elmə qarşı düşmənçiliyə, elmi inkar edən qüvvələrdən kömək gözləyən xurafata çevirilir. Elmin hər şeyə qadirliyinə öz inamında nəyin düzgün olduğunu bilən və göstərən bilici insan qarşısında öz təfəkkürünü susmağa məcbur etmiş şəxs uğursuzluq zamanı ümidsizcəsinə üz çevirir və şarlatana müraciət edir. **Elmi xurafat dələduzluqla qohumdur.**

Elmə qarşı duran xurafat, öz növbəsində məktəb elmindən fərqli olaraq, əsl elm kimi elm qiyafəsinə girir. Astrologiya, xəstəliklərin ovsunlarla qovulması, teosofiya, spiritizm, baxıcılıq (gələcəyi görmə), okkultizm və s. dövrümüzə dumanlılıq gətirirlər. Bu qüvvəyə bütün partiyalarda və dünyagörüşü kimi ifadə olunmuş nəzər nöqtələrində rast gəlinir; o hər yerdə insanın ağıllı varlığının substansiyasını xırdalayır. Praktiki təfəkkürlərədək çox az adamın əldə etdiyi - əsl elmilik yox olmaqda olan özvarlıq hadisəsidir. Qarışıqlıq gətirən, həm əsl biliyin, həm də həqiqi inamın mümkünlüyünü məhv edən bu xurafat dumanında kommu-

nikasiya mümkünsüz olur" (158, 511-516).

Avropanın inkişaf etmiş ən qabaqcıl ölkələrində, alman mühitində nəzəri təfəkkürü çox da aşağı olmayan şəxslərin daxili istəkdən, elmdə nəyi isə etmək arzusundan bu sahəyə gələ bilmələrindən ölkələrdə, xalqlarda elmi səviyyənin aşağı düşüb, yazılmış əsərlərin, insanların intellektual səviyyəsini yüksəltmək əvəzinə xurafat yaratması ilə, Kommunist Rus Sovet imperiyasında bütün zadəganları, ziyalını, irsi elitanı güllələyib, fiziki cəhətdən məhv edib, elmi işə adamlar ancaq proletar və kəndli-muzdur təbəqəsi içindən, birinci növbədə də ölkənin zadəgan-ziyalı təbəqəsinin, irsi elitasının məhv edilməsində iştirak etmiş şəxslərdən, onların övladlarından, itaətkar irsi nökərdən, qul psixologiyalı, ancaq hakimiyyət tapşırığını yerinə yetirməyə hazır və ya asanlıqla uyğunlaşan fərdlərdən seçilib təşkil olunduğunu nəzərə alsaq, Sovet aliminin xüsusən onun Azərbaycan hissəsinin, birinci növbədə ictimai elmlərin nümayəndələrinin, burada da birinci növbədə "tarixçi" adlandırılanların əsərlərinin aşağı səviyyəliliyi, heç xurafatı da yarada bilməməsinin səbəbləri göz önünə gəlir. Bu ölkədə tarix elmi obyektiv etnososial-mənəvi-ideoloji, iqtisadi-siyasi prosesləri nəinki əks etdirməmiş, bu həqiqətlə heç maraqlanmamış, dövlət ardıcıl milli cinayətlər törətmiş, tarix müəssisələri bura seçilib, toplanmış "tarixçi"lər isə hadisələri S.Xəlilovun dediyi sayaq, dövlətin arzu etdiyi, sifariş etdiyi kimi – "bəzəyə-bəzəyə" (24, 29) yazmış, tədris müəssisələrində uşaqların, yeniyetmələrin və gənclərin şüuruna yeritmiş, radio, televiziya, kitab, qəzet və jurnal, teatr və s. vasitəsi və üsulları ilə fasiləsiz kütlə halına salınmış xalqlara aşılanaraq onun bir daha, bir an da olsun kütlə vəziyyətindən çıxmasına imkan verilməmişdi.

Azərbaycan Sovet tarixçiləri 1920-ci il 27 aprel tarixindən sonra burada hər şeyi 180 dərəcə əksinə izah etmiş, işğal

– top-tüfəng, süngü ilə əsarətə salınma milli inqilab, simasızlaşdırma, simasızlaşma əxlaqi tərəqqi kimi izah olunmuş, şüurlara yeridilməklə manqurtlaşdırma aparmışdır.

Hörmətli oxucu, 1920-ci il 27 aprel inqilabı haqqında Azərbaycanda onlarla adam dissetasiya uydurub "tarix elmləri doktoru" alimlik dərəcəsi, təxminən 100-lərlə şəxs "tarix elmləri namizədi" alimlik dərəcəsinə layiq görülmüşdü. Azərbaycanda süni, uydurma 1920-ci il 27 aprel inqilabının müxtəlif aspektləri haqqında saysız kitab, məqalə, şer, poema, povest, roman, dram və s. yazıldı. Neçə-neçə "tarixçi alim", "əməkdar elm xadimi", dövlət mükafatı laureatı və akademik rütbələri aldı. Olmamış hadisə, hamının da olmadığının bildiyi bir hadisə haqqında dünyanın heç bir ölkəsində olmamış hadisə haqqında süni hadisə uydurub, "elmi əsərlər" yazıb akademik nəşrlər uydurulmamış, belə tarixi saxtakarlıq olmamışdı. SSRİ-də adətən akademik elmi nəşrlər, həqiqiliyinə heç bir şübhə olmayan, mütləq həqiqət kimi qəbul olunan əsərlər hesab olunurdu. Odur ki, Azərbaycan SSR EA Tarix İnstitutunun yazıb nəşr etdirdiyi üçcildlik "Azərbaycan tarixi" kitabının 3-cü cildin birinci hissəsindən 1920-ci il 27 aprel inqilabının necə təşəkkül tapması və baş verməsi haqqında 3 səhifə materialını nümunə kimi verməyə ehtiyac duyuruq. "Azərbaycan tarixi" kitabında yazılır: "**Silahlı üsyanın qələbəsi. XI Qızıl Ordunun Azərbaycan zəhmətkeşlərinə köməyi.** Aprelin 22-də RK (b) P Qafqaz Ölkə Komitəsi Bakı bürosunun müşavirəsi oldu. Müşavirədə XI Qızıl Ordunun Bakıya gəlmiş nümayəndələri iştirak edirdilər. Müşavirə hakimiyyəti təslim etmək haqqında aprelin 27-də Müsavat hökumətinə ultimatum verilməsini və dərhal silahlı üsyana başlamağı qərara aldı.

Bütün Bakı rayonunda fəhlələrin və ətraf kəndlərdəki kəndlilərin döyüşçü dəstələri döyüşə tamamilə hazır vəziyyətdə idi və yalnız siqnal gözləyirdi. Aprelin 24-də Azər-

baycan Kommunist (bolşeviklər) partiyasının Mərkəzi və Bakı komitələri bütün partiya təşkilatlarını hərbi vəziyyətdə elan etdi.

Ölkə partiya komitəsinin Bakı bürosu ilə birlikdə AK(b)P MK-nın aprelin 26-da keçirilmiş təcili iclası hakimiyyətin ələ alınması planını müəyyən etdi. Üsyana rəhbərlik etmək üçün A.Əlimov, D.Bünyadzadə, M.D.Hüseynov, Ə.H.Qarayev, Q.Musabəyov, N.Nərimanov və H.Sultanovdan ibarət Müvəqqəti Azərbaycan İnqilab Komitəsi təşkil edildi.

Azərbaycan İnqilab Komitəsi RSFSR Xalq Komissarları Sovetinin sədri V.İ.Leninə bu teleqramla müraciət etdi: "Xarici və daxili əksinqilabın birləşmiş quldur dəstələrinin təzyiqinə öz qüvvəsi ilə müqavimət göstərməyə imkanı olmayan Müvəqqəti Azərbaycan İnqilab Komitəsi dünya imperializminə qarşı birgə mübarizə apamaq üçün qardaşlıq ittifaqı bağlamağı Rusiya Sovet Respublikası hökumətinə təklif edir və Qızıl Ordu dəstələri göndərmək yolu ilə dərhal həqiqi yardım göstərməyi xahiş edir".

Aprelin 27-də səhər tezdən fəhlələr sürətlə silahlanmağa başladılar. Döyüşçü dəstələrinin əməliyyatına silahlı qüvvələrin Mərkəzi qərargahı rəhbərlik edirdi. Fabrik-zavod və Bibiheybət rayonlarında təşkil edilən inqilab komitələri Sovet hakimiyyətinin təşkilini hazırlamağa başladılar. Bibiheybətdə silahlı fəhlələr küçələrin tinlərində növbə çəkirdilər. Bibiheybət və Liman-Dəniz rayonlarının fəhlə döyüşçü dəstələri və matroslar polis idarələrini tutdular, müsavat zabitlərini və donanmanın rəislərini həbsə aldılar.

Müsavat qoşununun heç bir əsgəri qatarını Bakıdan buraxmamaq və ümumiyyətlə Bakı stansiyasından heç bir qatar yola salmamaq haqqında Mərkəzi qərargahın əmrini alan Zavağzal rayonu döyüş qərargahı əsgərlərlə dolu qatarların yollarda elə yerləşdirilməsinə dair tapşırıq verdi ki, on-

ların birləşdirilməsinə uzun vaxt lazım gəlsin. Bir dəstə silahlı fəhlə müsavatçıların bankları boşaldıb sərvətləri Gəncəyə və oradan da Gürcüstana aparmaq üçün vaqonlara yüklədiklərini öyrəndikdə, sərvətlərin yükləndiyi qatarın parovozunu açdılar və vaqonların ətrafına öz mühafizəçilərini qoydular. Aprelin 27-də günorta zamanı H. Sultanov başda olmaqla kommunistlərin nümayəndə heyəti yaxın 12 saat ərzində hakimiyyəti təslim etmək barəsində AK(b)P MK, RK(b)P Ölkə Komitəsinin Bakı bürosu və Mərkəzi Fəhlə konfransı adından müsavat hökumətinə ultimatum verdi. Hökumət ultimatumu parlamentin müzakirəsinə verdi. Parlament burjua-mülkədar hakimiyyətini xilas etmək üçün çarə axtararaq, gecə yarısına qədər iclas etdi.

Üsyan başlandığı anda Müsavat hökumətinin başçıları Britaniyanın Tiflisdə ali komissarı Lyuka telefonla müraciət edərək, öz qoşunlarını yardıma göndərməyi Gürcüstanın menşevik hökumətinə təklif etməyi, habelə Ermənistanın daşnak hökumətinə təzyiq göstərib, Qarabağda hərbi əməliyyatın dayandırılması haqqında ondan təminat almağı xahiş etdilər. Bununla da müsavatçılar öz qoşunlarını Qarabağdan çəkib gətirərək, üsyan etmiş Bakı proletariatı ilə mübarizəyə cəlb etmək istəyirdilər.

Lyuk həmin məlumatı aldıqda Fransanın və İtaliyanın nümayəndələrinin, Gürcüstanın menşevik hökumətinin nazirlərini və Müsavatın Tiflisdəki diplomatik nümayəndəsini dərhal yanına çağırıb müsavatçılara yardım etmək məsələsini müzakirə etdi. Antanta imperialistləri daha kömək edə bilmədilər. Tamamilə iflic olmuş müsavat üsuli-idarəsinin son saatları idi.

Müsavat hökuməti pozulmağa üz qoymuş öz hərbi birləşmələrini də üsyan etmiş xalqın üzərinə göndərməkdə aciz idi. Bolşevik təşkilatının təsiri altında müsavat ordusunun alaylarından biri olan "Yardım alayı" Bakı fəhlələrinin tərə-

finə keçmiş və Bakının bir sıra məhəllələrini tutmuşdu. Alayın döyüşçüləri Azərbaycan İnqilab Komitəsinin sərəncamına zirehli avtomobil göndərmişdilər. İngilis və polyak missiyalarının, habelə müsavat hökuməti üzvlərindən bir neçəsinin Bakıdan getmək üçün mindilkləri qatarları onlar tutub saxlamışdılar.

Aprelin 27-də axşamçağı müsavat ordusunun yeddinci piyada alayı da üsyançıların tərəfinə keçdi.

Həqiqətdə bolşeviklərin əlində olan Xəzər hərbi donanması üsyanda mühüm rol oynadı. Ç. İldırımın başçılığı ilə bir dəstə dənizçi döyüş qərargahının tapşırığı ilə Bayıl təpələrindən sahil toplarını və radiostansiyanı ələ keçirdi.

Donanmanın hərb gəmiləri dənizə çıxaraq qırmızı bayraqlar qaldırdılar və öz toplarının ağzını müsavat hökumətinin binasına doğru çevirdilər.

Hələ aprelin 27-də səhər Qızıl Ordu hissələri Azərbaycan sərhəddini keçdi. Onların önündə M. Yefremovun komandanlığı ilə dörd zirehli qatardan ibarət hissə gəlirdi. H.Cəbiyev, A. Mikoyan, Q. Musabəyov və başqalarından ibarət bir qrup azərbaycanlı bolşevik "Üçüncü İnternasioanl" adlı baş zirehli qatarda idilər. "Üçüncü İnternasional" zirehli qatarından çıxarılan desant dəstəsi Yalama stansiyasını tutdu. Zirehli qatarlar öz toplarının atəşi ilə müsavat qoşun dəstələrini qaçmağa vadar etdilər. Sovet zirehli qatarlarının yolunu kəsməyə müvəffəqiyyətsiz cəhd edən müsavatçıları dəf edərək XI ordu hissələri Xudat stansiyasında 10 top və başqa qənimətlər ələ keçirdilər. Dəmir yol fəhlələri və qulluqçuları sovet zirehli qatarlarını qırmızı bayraqlarla qarşıladılar. "Yaşasın Qızıl Ordu!", "Yaşasın Sovet hakimiyyəti!" səsləri ucaldı.

Xaçmaz stansiyasında fəhlələr və kəndlilər sovet zirehli qatarlarını duz-çörəklə qarşıladılar. "Üçüncü İnternasional" zirehli qatarı irəliləməkdə davam edərək, axşam saat 10-da

Nasosnu, yarım saatdan sonra da Xırdalan stansiyasına gəlib çatdı. Burada sovet zirehli qatarı ilə müsavatın zirehli qatarı arasında vuruşma oldu. "Üçüncü İnternasional" zirehli qatarının açdığı atəş müsavat zirehli qatarını Bakıya tərəf çəkilməyə məcbur etdi və burada çox keçmədən Zavağzal rayonu fəhlələrinin döyüşçü dəstələri onu ələ keçirdilər.

Aprelin 27-də gecəyarısı "Üçüncü İnternasional" zirehli qatarı Biləcəri stansiyasına gəlib çatdı. Fəhlələr və kəndlilər onu şadyanalıqla qarşıladılar. Qatarın top səsləri Bakıda eşidilməyə başladı.

Qızıl Ordu hissələrinin yaxınlaşması xəbəri müsavatçıları daha artıq çaxnaşmaya saldı. Parlamentin təcili çağırılan iclası çox gurultulu keçdi. Parlamentin demək olar bütün fraksiyalarının nümayəndələri öz vəziyyətlərinin çıxılmaz olduğunu yəqin edərək, hakimiyyəti kommunistlərə təslim etməyə razı olduqlarını bildirdilər. Parlamentin ayırdığı komissiya hakimiyyəti təslim etmək aktını imzalamağa məcbur oldu. Parlament həmin aktı oradaca təsdiq etdi.

Üsyan etmiş fəhlə dəstələri aprelin 27-dən 28-nə keçən gecə saat 2-yə qədər hökumət binalarının demək olar hamısını, o cümlədən parlamenti də kommunistlərin başçılığı ilə tutdular, həbsxanalarda olan bolşevikləri azad etdilər.

Beləliklə, 1920-ci il aprelin 27-dən 28-nə keçən gecə Bakıda heç bir güllə atılmadan proletariatın dinc silahlı üsyanı qalib gəldi və Sovet hakimiyyəti bərpa edildi. Bütün dövlət hakimiyyəti Müvəqqəti Azərbaycan İnqilab Komitəsinin əlinə keçdi və o da Azərbaycanı müstəqil Sovet Sosialist Pespublikası elan etdi.

Azərbaycan İnqilab Komitəsi aprelin 28-də aşağıdakı heyətdə Azərbaycan SSR Xalq Komissarları Sovetini təşkil etdi: XKS sədri və xalq Xarici İşlər Komissarı N.Nərimanov, Daxili İşlər Komissarı H. Sultanov, Ədliyyə

və Əmək Komissarı Ə.H.Qarayev, Torpaq, Sənaye, Ticarət və Ərzaq Komissarı Q.Musabəyov, Maliyyə Komissarı M.D.Hüseynov, Hərbi və Dəniz Komissarı Ç. İldırım, Maarif və Dövlət Nəzarəti Komissarı D.Bünyadzadə, Poçt-Teleqraf və Yollar Komissarı C.Vəzirov, Səhiyyə və Himayə Komissarı A. Əlimov.

Aprelin 28-də səhər saat 4-də "Üçüncü İnternasional" zirehli qatarı, azacıq sonra da qalan zirehli qatarlar Bakı stansiyasına gəlib çatdı.

XI Ordu Hərbi İnqilab Şurasının Moskvaya V.İ.Leninə 1920-ci il 28 aprel tarixli teleqramında deyilirdi: "XI ordunun qəhrəman döyüşçüləri bu günlərdə 200 verstlik yolu başa vuraraq öz sürətli zərbələri ilə burjuaziyanın, çəkilib getməzdən əvvəl neft sərvətlərini məhv etmək kimi alçaq niyyətlərinin qarşısını aldı... Azərbaycanın zəhmətkeşləri Qızıl Ordunu, kapital zülmündən öz xilaskarı kimi alqışladılar".

Q.K.Orconikidze, S.M.Kirov və M.K.Levandovski başda olmaqla XI ordu hissələri aprelin 30-da Bakıya gəldi. Sovet Bakısının zəhmətkeşləri şənlik edirdilər. Şəhərin binaları qızıl bayraqlarla bəzədilmişdi. Q.K.Orconikidze və S. M. Kirov 1920-ci il mayın 4-də V.İ.Leninə yazıb bildirmişdilər: "Azərbaycan kommunistləri komitəsi aprelin 27-dən 28-nə keçən gecəyarısı hakimiyyəti Kommunistlər Komitəsinə təslim etməyi hökumətdən tələb etdi. Qısa müşavirədən sonra hökumət hakimiyyəti kommunistlərə təslim etdi. Kommunistlər yalnız müsəlmanlardan ibarət olan Azərbaycan və Bakı inqilab komitələrini yaratdılar. Müstəqil Azərbaycan Sovet Sosialist Respublikası elan edildi... Əhalinin, xüsusən müsəlman fəhlələrinin ruh yüksəkliyi təsvirə gəlməzdir. Bu, ancaq Petroqradda Oktyabr günlərindəki ruh yüksəkliyi ilə müqayisə edilə bilər".

Kommunist partiyasının rəhbərliyi altında Bakı proleta-

riatının qazandığı şanlı qələbə qəhrəmanı Qızıl Ordunun köməyi ilə bütün Azərbaycanın və Zaqafqaziyanın azad edilməsinin ibtidasını qoydu" (169, 238-243).

1917-ci il oktyabr ayının 22-də Bakı Sovetinə seçkilərdə Müsavat partiyası – 9617, Eserlər – 6305, Daşnaksütyun – 5288, Bolşeviklər – 3823, Menşeviklər – 687 səs almışdılar. Bu tarixdən təxminən bir ay sonra Müəssisələr Məclisinə seçkilərdə "Müsavat" partiyası Azərbaycanda səslərin 90%-ni qazanmışdı. Bolşeviklər 95.581, bolşevik təmayüllü "Hümmət" partiyası isə 84,748 səs almaqla – "İttihad" partiyası istisna olmaqla ən az səs toplayan partiyalardır. 1917-ci ilin sonundan 1918-ci ilin aprelin əvvəlinə qədər daşnak-bolşevik, ümumiyyətlə xristian birliyi Azərbaycanın türk və müsəlman əhalisinə qarşı məhvedici bir cihad etmişdi. 1918-ci ilin mart ayına qədər İrəvan quberniyasının Azərbaycan türklərinə məxsus 197 kəndi məhv edilmişdi, Gəncə quberniyasının 27 yaşayış məntəqəsi dağıdılmış, 35-i ziyan çəkmişdi. Bakı quberniyasının (Lənkəran mahalı istisna olmaqla) 33 yaşayış məntəqəsi bütünlüklə, 126-sı qismən dağıdılmışdı. Mart hadisələri zamanı Bakı şəhərində 13 mindən çox dinc əhali məhv edilmiş, Şamaxı şəhəri yerlə-yeksan edilmişdi, 80 türk-müsəlman kəndi viran qoyulmuş, 7 min əhali məhv edilmiş, 15 min əhali qaçqın düşmüşdü. Xəzər sahillərindən Dağıstanadək bütün Quba kəndləri məhv edildi və 30 mindən artıq adam öldürüldü (36, 237-350; 170, 44; 171, 18-81; 172, 92-145).

1917-1918-ci illərdə beynəlxalq imperializm Azərbaycan türklərini faktiki olaraq fiziki cəhətdən məhvolma vəziyyətinə çatdırmışdı. Vahid milli ideologiyanın səfərbəredici gücü və milli ziyalı, burjua-zadəgan və siyasi liderlərin düzgün yeritdiyi siyasət nəticəsində Azərbaycan türkləri nəinki fiziki məhv olunmaqdan xilas oldular, bu illərdə İslam Şərq dünyasında ilk demokratik dövlət qura bildilər. Tari-

xin heç bir dövründə Azərbaycan türkləri 1917-1920-ci illərdə olduğu qədər yekdil yaradıcı ziyalı təbəqəsinə - milli ideologiyaya, zəkaya malik olmamışdı (36; 171; 172).

Elə bunun nəticəsi idi ki, Azərbaycan dövlətçiliyi tarixində Azərbaycan Xalq Cumhuriyyəti poetik şəkildə ilahi gözəlliklə müqayisədə tərənnüm olunurdu. Azərbaycanın kommunist rəhbərlərindən Ə.Qarayevin etiraf etdiyi kimi: "dükançı və obıvatellər" "bolşevik" sözünü nifrətlə dilə gətirirdilər. Bolşeviklər türk xalqının dönükləri, düşmənləri hesab edilirdi", "Hümmət"çilər ruslara satılmışlar, milli hakimiyyəti devirmək istəyənlər" adlandırılırdı" (170, 239-240).

Belə bir milli-mənəvi durumda Azərbaycan türklərinin yad bolşevik-daşnak ideologiyanın təsirinə düşüb, milli ideologiyadan üz çevirib, sosialist inqilabı edib, keçmişindən üz döndərib, nifrətlə onu dağıtması heç bir qanun və məntiqə sığmır.

Kütlə psixologiyasında illüziya sevinci, nəşəsi doğuran marksizmin Rusiyada sürətlə mənimsənilməsi hələ əvvəlcədən dünyanın zəka sahiblərini və rus milli ziyalılarını narahat edir, bunun bəşəriyyət üçün təhlükə yaradacağını qabaqcadan görürdülər. Lakin artıq gec idi. Əsrlərlə mövcud olmuş təhkimçilik qaydaları və despotik rejim yaradıcılıq ruhundan məhrum edildiyi rus fəhlə və kəndlisi üçün xristianlığın o dünyada vəd etdiyi cənnəti bolşeviklər bu dünyaya gətirmişdilər. Avropa mütəfəkkirlərinin qabaqcadan proqnozlaşdırdığı kimi, marksizmin vəd etdiyi cənnəti – kommunizmi kütlə tapa bilməyəcəkdi. Rusiyada yenicə yaranmaqda olan demokratiyanın cücərtilərini məhv edib monarxiyanı, imperiyanı, diktaturanı dəmir əllə bərpa edəcəkdi. Güclü kişi qucağına düşmüş fahişə qadın kimi onu köksünə sıxacaqdı, elə də etdi. Ancaq Rusiyada bərpa etdiyi monarxiya ona nəinki cənnət yaratdı, səfalətini bir qədər də artır-

dı. Çoxsaylı rus kütləsi qış yemini yeyib qurtarmış, ilkin baharda yuvası ətrafında hər şeyi didib parçalayan ac qarışqalar kimi qaynaşırdı, əlinə düşən hər şeyi buğda dənəsi kimi bircə anda yox edirdi. Proletariatın dahi rəhbəri V.İ.Lenin cənnəti tapmaq üçün növbəti olaraq ona Azərbaycanı göstərdi.

Azərbaycanın təkrar işğalını bolşeviklər heç vaxt gündəlikdən çıxarmamışdılar. Sadəcə olaraq bunun üçün şəraitin yaranmasını gözləyirdilər. Yeni yaranmaqda olan Rus bolşevik imperiyası 1920-ci ilin fevralından Azərbaycanın işğalı üçün təşkilatlanmağa başladı. Rus bolşevik kəşfiyyatı Azərbaycanda dayaq nöqtələrini hərəkətə gətirdi. Azsaylı Azərbaycan bolşeviklərindən türk-müsəlman əhalisini aldatmaq üçün istifadə qaydaları müəyyənləşdirildi. Bakı şəhərində erməni və rus fəhlələrindən ibarət 20-30 min nəfərlik, Lənkəran və Muğanda malakanlardan ibarət 8-10 min nəfərlik gizli silahlı dəstələr yaradıldı. Azərbaycanın Şimal-Şərq sərhədlərində - Dağıstanda rus bolşeviklərinin 72472 nəfərdən ibarət hərbi heyəti cəmləşdirilib döyüş vəziyyətinə gətirildi.

Bolşevik rəhbərliyi Azərbaycan ordusunun, onun zabit heyətinin, xüsusən rəhbərliyin rus zabitləri arasında avtoritetlər olduğunu nəzərə alaraq, az itki vermək üçün Azərbaycan hərbi hissələrini Bakı ətrafından və bütün streteji ərazilərdən çıxarmaq üçün erməni təxribatından istifadə edirdi. Mart ayında erməni orduları ilə birlikdə erməni silahlı dəstələri Qarabağın türk - müsəlman əhalisi üzərinə, yaşayış məntəqələrinə kütləvi hücumu təşkil olundu. Azərbaycan ordusu başlıca olaraq Qarabağ əhalisini xilas etmək üçün oraya göndərildi. Azərbaycanın Şimal-Şərq sərhədlərində, Bakı ətrafında cəmi 2-3 min əsgəri qalmışdı. Qarabağda ağır döyüşlərin getdiyi bir vaxtda 1920-ci il aprelin 26-da axşam 70 min nəfərlik rus sovet ordusu, "III İnternasional" və 4 zirehli qatarla gecə saat 12-də Samur körpü-

sündə sərhədi keçməyə başladılar. Azsaylı Azərbaycan jandarmları atəş açsalar da, bolşevik silahlıları onları mühasirəyə alıb tərksilah etdilər. Az miqdarda olan Azərbaycan süvariləri ciddi müqavimət göstərib, xeyli atışsalar da zirehli qatarların qarşısını saxlaya bilmədilər. Qırmızı ordu Bakı istiqamətində irəliləyirdi. Bir il səkkiz ay əvvəl Bakını həmin bolşevik-daşnak quldurlardan xilas etmək üçün təkcə 1918-ci ilin avqustunda 1300 şəhiddən 30 nəfəri zabit, Bakının alınmasında isə 800-1000 nəfər itki verən Türkiyə ordusu indi tamamilə əks mövqe tutmuşdu. İşğalçı Qırmızı ordunun elə birinci zirehli qatarında gələn Türkiyənin nümayəndəsi general Xəlil paşa yol boyu bütün dayanacaqlarda çıxış edib əhalini Qırmızı ordunu, Sovet hakimiyyətini müdafiə etməyə çağırırdı.

Bolşevik qüvvələrinə qarşı növbəti müqavimət Yalama stansiyasında göstərildi, "III İnternasional" zirehli qatarının ardınca digər üç zirehli qatar da hərəkət edirdi. Bolşeviklər belə güclü bir zərbə qüvvəsi ilə irəliyə yol açmağa çalışsalar da, Yalamada ciddi müqavimətə rast gəldilər. Burada Azərbaycan Ordusunun iki piyada bölüyü, pulemyot komandası, sərhəd jandarm dəstəsi var idi. Bölmələrin yerləşdiyi bina stansiyadan elə də uzaqda deyildi. Qatar stansiyada dayanan kimi bolşevik qüvvələri binanı mühasirəyə aldılar. Arxadan gələn zirehli qatarlar Azərbaycan qoşunlarının yerləşdiyi binanı top atəşinə tutdu. Dörd zirehli qatarın aramsız top və pulemyot atəşlərinə baxmayaraq, azərbaycanlı döyüşçülər təslim olmaq təklifinə güclü müqavimətlə cavab verdilər. Stansiyada olan dəmiryol işçiləri orada dayanmış sərnişin qatarları lokomotivini açıb zirehli qatarların qarşısına gətirdilər və bununla qatarın hərəkətini ləngitməyə çalışdılar. Ancaq bolşevik toplarının atəşləri ilə bu lokomotiv partladıldı və yol açıldı. Uzun çəkən döyüşdən sonra bolşevik qüvvələri say və texniki üstünlüklərindən istifadə edərək

qələbəni təmin edib Bakıya doğru hərəkətlərini davam etdirdilər. Bolşeviklər Ləcət stansiyasında yenidən Azərbaycan ordusunun müqaviməti ilə rastlaşdılar. Qırmızı ordunun zirehli qatarları azsaylı milli qüvvələr üzərində yenə qələbəni təmin etdi. Xudat ətrafında Azərbaycan ordusunun piyada və topçu bölmələrinin müqaviməti uzun çəkmədi. Bolşevik-daşnak ordusu onların 10 ədəd topunu ələ keçirib milli qüvvələr üzərində qələbəni təmin etməklə Bakı istiqamətində irəlilədilər.

Bolşevik orduları sonra kiçik müqavimətləri aradan qaldırmaqla axşama yaxın Sumqayıta çatdılar. Bakıya doğru irəlilədilər. Xırdalan-Biləcəri arasında zirehli qatarlar məftil maneələri, müdafiə mövqelərini atəşlə dağıda-dağıda şəhərə doğru irəliləyirdi. Nəhayət, Biləcəri yolayrıcında zirehli qatarlardan ikisi Heybət-Puta yarımstansiyasına göndərildi ki, Gəncəyə doğru hərəkət nəzarət altında olsun. Göstərilən hərbi əməliyyatla Azərbaycanın paytaxtı Bakı şəhəri tutuldu. Xəlil paşa və Bakıdakı türk zabitləri Bakıdakı "Yardım alayı"na düşmən ordusu ilə döyüşə girməyə imkan vermədilər (170, 248-252; 171, 138-139, 435-442; 173).

1920-ci il aprel ayının 27-də axşam saat 11-də Azərbaycan Parlamenti altı şərt əsasında hakimiyyəti bolşeviklərə verməyə məcbur edildi (147, 67; 174, 157-360). Azərbaycan Sovet tarixşünaslığı bütün varlığı dövründə bir dəfə də olsun bu altı şərtdən bəhs etmədi, olmamış sosialist inqilabından dissertasiyalar yazdırıb, "tarixçi alimlər yetişdirdi", - nifrətlə dilə gətirilən, "türk xalqının dönükləri və düşmənləri"nin ideologiyası olan "bolşevizm" təkcə Azərbaycanın deyil, bütün bəşəriyyətin xoşbəxtlik ideologiyası kimi təbliğ olundu, nəsillərin şüuruna yeridildi.

Aprelin 28-də AXC hökuməti rəhbərliyi və Hərbi nazirliyinin istefaya məcbur edilməsi hakimiyyətin bolşeviklərə keçməsi ilə nəticələndi. Bakıda hakimiyyətin bolşevizmə

keçməsi ilə eyni zamanda xalq və hələlik erməni təcavüzündən ayrılıb rus işğalına qarşı təşkilatlana bilməyən Azərbaycan hərbi hissələri pərakəndə şəkildə işğala müqavimət göstərirdi. Qırmızı ordunun 7-ci süvari diviziyasının hissələri aprelin 29-da Astarxanka kəndini, aprelin 30-da isə Şamaxı şəhərini tutdu. Mayın 1-də 28-ci atıcı diviziyasının dəstələri zirehli qatarlarla birlikdə Gəncəyə daxil oldular. May ayının 3-də dənizdən Lənkərana, mayın 4-də Astaraya desant çıxarıldı. May ayının 11-də 7-ci süvari diviziyasının hissələri Zaqatala və Balakəni tutub Gürcüstan sərhədinə çıxdı. 32-ci atıcı diviziyasının hissələri isə Yevlaxdan Qarabağa doğru irəlilədi (171, 443).

Azərbaycan ordusunun əsgər və zabitləri xidmətində dayandıqları torpaqların işğalı, vətənlərinin yenidən Rusiyanın əsarəti altına düşməsi ilə razılaşa bilmədilər. Azərbaycanı üsyanlar dalğası bürüdü. Bütün bu üsyanların ilhamvericisi və aparıcı qüvvəsi Azərbaycanın əsgər və zabitləri idi. Ordusunun dağıldığını, zabitlərinin, ziyalılarının, dövlət siyasi adamlarının həbs və edam edildiyini, sərvətlərinin yadlar tərəfindən talandığını, bayrağının endirilərək vətəninin Rusiya tərəfindən ilhaq edildiyini görən xalq üsyana qalxdı. İlk üsyan dalğası Tərtərdə başladı. İstiqlalın 2-ci ildönümü Tərtərdə Qırmızı orduya qarşı döyüşlərdə şəhid olanların dəfn mərasimi təntənə ilə keçirildi. Azərbaycan ordusunun 1800 əsgər və zabiti Gəncə şəhərinə toplaşdı.

Şəki süvari alayının komandiri polkovnik Cahangir bəy Kazımbəyov 1-ci Azərbaycan diviziyasının rəisi general Cavad bəy Şıxlinski, Azərbaycan ordusunun baş intendenti general Məhəmməd Mirzə Qacar və süvari diviziyasının rəisi general Teymur bəy Novruzovun təşkilatçılığı ilə hərbçilərin müşavirəsi keçirildi. **May ayının 25-dən 26-na keçən gecə Gəncədə üsyan başladı. Elə həmin gündə Gəncədə bolşeviklərin əlinə keçmiş müəssisələr yenidən vətən övladlarına, öz**

sahiblərinə qaytarıldı. AXC yaranmasının 2-ci ildönümünü - 28 May bayramı Gəncədə milli qüvvələrin qələbəsi ilə keçdi. Gəncə üsyanının əsgər və zabitlərinin vətənpərvərliyi onların ruhundan məşəl kimi vətənə işıq salan istiqlal, azadlıq ruhu bütün respublikanı üsyan dalğasına bürüdü. Bolşevik-daşnak hakimiyyəti bütün qüvvələrini üsyan ocağı Gəncəyə topladı. Şəhər mühasirəyə alınıb, ətrafla əlaqəsi kəsildi. **Buna baxmayaraq mayın 29-30-da döyüş üstünlüyü istiqlalçı-milli qüvvələr tərəfində idi. Mayın 31-də Gəncəni tam mühasirəyə alıb zirehli avtomobil, 57 ədəd top və başqa bütün silahlardan fasiləsiz açılan atəşlər üsyançıların mövqeyini qan çanağına döndərdi. Bolşevik-daşnak işğalçı qoşunu yenə ermənilərin bələdçiliyi ilə üsyançıların meyidi və qan gölməçələri üzərindən keçib Gəncəyə daxil oldular. Şəhər dağılmış, küçələr viran qalmışdı. Min nəfərdən artıq istiqlalçı şəhid olmuşdu. Gəncə şəhərinin küçələrində qan gölməçələri yaranmışdı, külək qan qoxusunu ətrafa yayırdı. Qan iyi istiqlalçılarda qəzəb, işğalçılarda quduzluq hissini coşdururdu. Quduzlar döyüşləri küçələrdən evlərə keçirmişdi.**

Üsyan qan içində boğulan kimi kütləvi həbslər başladı: sovet hökumətinə - işğalçılara sədaqət göstərməyənlərə divan tutuldu. Bolşevik divanının əsas zərbəsi isə Azərbaycan zabitlərinə və hərbçilərinə doğru istiqamətləndirildi. **Azərbaycan Ordusunun 12 generalı, 27 polkovnik və polkovnik-leytenantı, 46 nəfər kapitan, ştabs-kapitan, poruçik və podporuçik, 148 praporşik, 276 nəfər digər azərbaycanlı hərbi qulluqçu güllələndi (171, 444-447). Lakin üsyanlar, qırğınlar, güllələmələr davam edirdi. Pərakəndə düşmüş zabit və əsgərlərin çoxu son nəfəsinə qədər döyüşəcəklərinə and içir, respublikanın müxtəlif ərazilərində işğalçı qırmızı orduya qarşı döyüşü davam etdirirdilər. Belə and içib son nəfərə kimi döyüşmüş 28 əsgər, 4 zabitin şərəfinə Qarabağda "32-lər dastanı" yaranmışdı** (176, 26-99).

Milyonlarla insanın arzusu, istəyi, idealı, bir əsr müddətində mübarizəsi, verdiyi şəhidlər bahasına qazandığı istiqlal, yenicə qurduğu milli dövləti qan içində boğulur, milli dövlətçilik vəd edilir, milli simasızlaşdırma aparatı - Rus - sovet imperiyasının dövlət və hökumət aparatının yerli orqanları yaradılırdı. Sovet dövlət quruculuğu o qədər qeyriinsani idi ki, hətta Azərbaycan kommunistlərinin xaç atası N.Nərimanovun vicdanını oyatmışdı. O həyəcanla yazırdı: "Özlərinin bütün taktikası ilə Azərbaycanı simasızlaşdırmaq istəyirdilər. Bunun üçün "oğurluq etmiş, rüşvət almış, bakirə kəndli qızlarını, arvadlarını zorlamış adamlardan ibarət hakimiyyət orqanı yaradırlar. Bu məlum proqram üzrə məlum şəxslər tərəfindən həyata keçirilirdi ki, onları nəyin bahasına olursa-olsun, Azərbaycanı simasızlaşdırmaq, öz miskin məqsədləri üçün onu gücdən salmaq istəyirlər. Bu məqsədə nail olmaq üçün onlar özləri çıxış etməyib, Azərbaycandan olan türkləri (türk fəhlə və kəndli kommunistlər – X.X.) Azərbaycanın mənafeyini müdafiə edənlərə qarşı çıxış etməyə məcbur edirlər. İş "parçala və hökm et" şüarı altında getmiş və gedir". Orconikidzenin nəzəriyyəsinə görə, əlbəttə, kiçik Azərbaycanın əhalisini müntəzəm olaraq məhv etmək olar, lakin onda respublika kimdən ibarət olacaqdır?" Odur ki, Azərbaycan əhalisini kütləvi məhv edilmir. Kommunist partiyasının fəaliyyəti isə məhz Azərbaycanın simasizlaşdırılmasına yönəldilmişdir. Bir tərəfdən kommunist bayrağı altında daşnaklar öz işlərini görür, digər tərəfdən keçmiş eserlər" (175).

Azərbaycan Sovet tarixşünaslığında bu dövrə aid yazılmış kitablar, o cümlədən V.Y.Səmədovun "Azərbaycanda marksizm-leninizmin yayılması" (B., 1962), M.Ağəmirovun "Azərbaycanda marksizm-leninizm təliminin yayılması" (B., 1971), A.E.Tokarjevskinin "Azərbaycan fəhlə və kəndliləri Sovet hakimiyyətini fəth etdi" (B., 1942),

Z.İ.İbrahimovun "1917-1918-ci illərdə Azərbaycanda Sovet hakimiyyətinin qurulması uğrunda mübarizə" (B., 1948), Ə. Quliyevin "Bakı proletariatı yeni inqilabi yüksəliş illərində" (B., 1963), onun "Bakı proletariatı Azərbaycanda Sovet hakimiyyəti uğrunda mübarizənin avanqardıdır" (B., 1960), Q. Əliyevin "Bolşeviklərin Qarabağda Sovet hakimiyyəti uğrunda mübarizəsi" (B., 1963) və s. Azərbaycanda sosialist inqilabı, Sovet hakimiyyəti uğrunda mübarizəsi haqqında elmlər namizədi, elmlər doktoru "alimlik dərəcələri", monoqrafiya və kitablar sadəcə zəif əsərlər, təsviri, elmi səviyyəyə yüksəlməyən əsərlər deyil, Azərbaycan xalqının mənəviyyatını, əxlaqını, milli özünəməxsusluğunu, xarakterini, ideya və ideologiyasını, milli mənlik şüurunu, milli yaradıcılıq gücünü, dövlətçilik və müstəqillik ruhunu, bütövlükdə milli idealını yaddaşdan silən əsərlərdir.

Göstərilən və digər "tarixçi"lər mücərrəd kommunist ideologiyası ilə illüziya yaradılaraq Azərbaycan xalqına, onun keçmişinə nifrət hissi aşılamaqla onu varisi olduğu mədəniyyətdən qoparma siyasətini həyata keçirirdi. Azərbaycan tarixçiləri heç bir reallığı, milli-mədəni, sosial-iqtisadi, siyasi-ideoloji prosesi deyil, Moskvanın hazırladığı süni konsepsiyaları icra edirdi. Bu konsepsiyaları mahiyyəti Azərbaycan etnosunu millət olaraq özünə güvənc hissindən məhrum etmək, biz və onlar fərqləndirilməsində özünü ikinci dərəcəli xalq hesab etməklə rusun böyüklüyünü, hakimiyyətini, bütövlükdə əsarətini qəbul etdirmək, tabeçilikdə saxlamaq ideologiyası idi.

Kommunist Rus imperiyasının bütün varlığı dövründə Azərbaycan "tarixçisi" Moskvanın direktivlərini icra etdi. Tək-tək tarixçilər həyatları bahasına, müxtəlif üsullarla direktivlərdən yan keçir, milli tarixi canlandırmağa can atdı. Azərbaycan Sovet tarixşünaslığının qeyri-elmiliyi, Sovet hakimiyyəti illərində milli mənafeyə qarşı yönəlmiş olması

haqqında akad. Z.Bünyadovun fikirləri xüsusi maraq doğurur. O, yazır: "Ölkəmizdə ictimai elmlər, xüsusən tarix elmi "yuxarıdan" istiqamətləndirilirdi və hər şeyi həqiqətdə olduğu kimi yazmaq üçün ən kiçik cəhd belə kökündən vurulurdu. Nəticədə sənədlərə və arxiv materiallarına əsaslanan həqiqi elmi axtarışlar əvəzinə...nomenklatur xadimlərin "əsasını qoyduğu" araşdırmalara əsaslanan onlarca, yüzlərlə elməbənzər, standart cızma-qaralardan dağ qurulurdu. Yaradıcı fikir statologiya və talmudizmin Prokrust yatağına yerləşdirilmiş (düz gəldi-gəlmədi hamını zorla bir əndazəyə yerləşdirmək – qədim yunan qulduru Prokrustun adındandır) və bu da nəticədə ona gətirib çıxarmışdı ki, sovet cəmiyyətinin bütün tarixi prosesi birtərəfli və tarixi həqiqətin ziddinə işıqlandırılırdı. Orta və ali məktəb dərsliklərindən başlayaraq, xüsusi elmi tədqiqat ədəbiyyatına qədər ölkəmizdəki bütün tarixi və sosial-siyasi hadisələrin gedişi təhrif olunmuş şəkildə şərh edilirdi" (173). Akad. Z.Bünyadov sözünə davam edərək yazır: "Tarixi həqiqətin təhrif edilməsi hələ İ.Stalin dövründə başlamışdı. O özü, eləcə də onun əlaltıları özlərini və 1917-ci ilin oktyabrından başlayaraq ölkəmizdə baş verən bütün tarixi hadisələrdə oynadıqları rolu şişirdərək göylərə qaldırmaq üçün hər şeyi edirdilər, hətta mümkün olmayanı belə edirdilər. N. Xruşşov, xüsusən L.Brejnev və K.Çernenkonun dövründə ölkəmizdə tarix elmi, əgər belə bənzətmə mümkündürsə, hər kəsin istədiyi kimi rəftar etdiyi əxlaqsız qadına çevirilmişdi" (173).

1988-ci ildə ermənilər açıq şəkildə Qarabağı Azərbaycandan qoparmaq istəyəndə 500 nəfərdən artıq "tarixçi alimi" olan Azərbaycan SSR EA Tarix institutunun, ali məktəblərin mülki və siyasi tarix kafedraları yüzlərlə "alim", "akademik", tarix elmləri doktoru, tarix elmləri namizədi olduğu halda Qarabağın Azərbaycanın milli mədəniyyət mərkəzi olması faktlarını ortaya qoyacaq bir tarix-

çi yox idi. Milli mövqeyi müdafiə edən tarixçinin sayı heç 10 nəfərə çatmırdı. Bunu doğuran səbəbi akademik Z. Bünyadov aşağıdakı kimi ifadə etmişdir: "Tarix elmində yaradıcı fikir rəhbər xadimlərin "əsərlərindəki", "əsasverici" sitatlarla əvəz olunmuşdu. Tarixdəki bütün normal, həqiqətdə baş vermiş hadisələr qəti şəkildə ləğv edilmiş və dəyişdirilərək, portretləri ölkənin idarələrini bəzəyənlərin istədiyi kimi və onlar üçün zəruri olan resept üzrə istifadə edilmişdir. Həqiqi elmlə məşğul olmaq istəyənlər isə uzaqlaşdırılmış, sonra isə yox edilmişdilər...

Respublikamızda yüzlərlə alim millətçi damğası ilə ağılagəlməz cinayətlərdə günahlandırılıb, fiziki cəhətdən məhv edilmişdir. **Azərbaycanda elm başsız qalmış, ictimai və tarix elmləri sahəsində nəsillərin bir-birini əvəz etməsi ənənəsi pozulmuşdur. Bunun müqabilində isə respublikada ictimai elmlərin yaradıcı inkişafına böyük ziyan və dağıdıcı zərbə vurmağa hazır olan könüllü və yetişdirilmiş apologetlər meydana çıxmışdır.** Tarixi inkişafın gedişini düzgün əks etdirən əsərlər yazmağa və çap etdirməyə cəhd edənlər həm şifahi, həm də mətbuatda təqiblərə məruz qalır, əksər hallarda isə belə tədqiqatçılar təqiblərə dözə bilməyib Heydər Hüseynov kimi həyatlarına qəsd edirdilər".

O, sözünə davam edərək yazır: "Azərbaycanda M. Bağırov rəhbərliyinin elə birinci günündən tarix və sosial-siyasi hadisələrin tədqiqi ilə azca da olsa bağlı olan bütün alimləri fiziki cəhətdən məhv etməyə başladı. Azərbaycan elminin R.Axundov, B.Çobanzadə, A.Qubaydulin, V.Xuluflu, S.Mümtaz və başqa nümayəndələri "xalq düşməni" adı ilə güllələnərək məhv edildilər. **Respublika elmi başsız qaldı və elmdə nəsillərin varislik əlaqəsi pozuldu. Bunun əziyyətini biz indi də çəkirik"** (173).

Azərbaycan Sovet tarixşünaslığı heç də, müasir Azərbaycan tarixçilərinin yazdığı kimi, sadəcə marksizm-kom-

munist ideologiyası əsasında yazlmış əsərlər deyildi. Kommunist ideologiyası bu əsərlərin həyata keçirmək istədiyi məqsədin bir cəhəti idi. Bu əsərlər əsarət altına salınmış xalqları keçmişindən, varisi olduğu mənəvi-mədəni dəyərlərdən, milli mənlik (kimlik) şüurundan, milli arzu və idealdan, inam və etiqaddan, milli güvənc hissindən, iradədən, müstəqil yaşamaq hissi və duyğusundan, düşüncəsindən məhrum etməli, rus xalqının himayəsini itirmənin məhv olmağa bərabər olması və s. uydurulan tarixi əsərlərin müəyyən detallarına yetməklə xalqların ruhuna, hiss və duyğularına, təfəkkürünə aşılanırdı.

Akademik Ə.S.Sumbatzadənin sözləri ilə desək, odur ki, sovet tarixşünaslığı fasiləsiz "konsepsiya axtarışında" idi. Bu konsepsiyalar əsarət altına alınmış xalqların dirçəlişinə yox, milli mənəvi məhvinə xidmət edirdi. Bu konsepsiyaları imperiyanın tarix elminin qanunlarını yetərincə bilən xüsusi gizli analitik qrupları yaradırdı. Milli respublikaların, o cümlədən Azərbaycan "tarixçiləri" milli tarixi bu konsepsiyalara uyğunlaşdırdıqları üçün "alim" dərəcələrinə layiq görülürdülər. Haqqında bəhs olunan Azərbaycan Sovet tarixşünaslığı Ə.S.Sumbatzadənin "XIX-XX əsrlər Azərbaycan tarixşünaslığı" (B., 1987) əsərində yetərincə təqdim olunmuşdur.

Azərbaycanda 1920-ci il 27 aprel işğalı (inqilabı), onun nəzəriyyəsi, həyata keçirilməsi, kolxoz quruculuğu, sosialist mədəniyyətinin quruculuğu haqqında Azərbaycan Sovet tarixşünaslığı və onun yaradıcıları haqqında F.İbişovun "Azərbaycan kəndində sosial-siyasi proseslər" (1920-1930) (B., 1996) adlı monoqrafiyasında yetərincə məlumat verilmişdir. Odur ki, burada bu əsərlər üzərində ayrı-ayrılıqda dayanmağa ehtiyac yoxdur. Eləcə də bu əsərlərin təhlili, onun ayrı-ayrı detallarına yerləşdirilmiş milli mənəviyyatı dağıtma üsulları xüsusi tədqiqat üsul və metodları tələb edir.

Bu kölə psixologiyasından uzaq, yeni nəsil, Azərbaycanın müstəqilliyini qoruyub yaşadacaq tarixçi nəsilinin mühüm vəzifəsidir.

Kommunist Rus Sovet imperiyasının fiziki məhvetmə sistemi mənəvi-ideoloji, siyasi üsullarla milli-mənəvi gücdən məhrumetmə ilə paralel həyata keçirilirdi. Bunun ən başlıca vasitəsi bütün ictimai elmlərlə fəlsəfə, tarix, iqtisadiyyat, ədəbiyyat vasitəsi ilə şüurlara yeridilən tarixi materializm nəzəriyyəsi idi. Marksist materialist fəlsəfə varlığı obyektiv və subyektiv olmaqla iki hissəyə ayırır. İnsan şüurundan kənarda, ondan asılı olmayan bütün kainat, təbiət obyektiv varlıq, insan şüurunun, təfəkküründün məhsulları – ideyalar, fikirlər, hisslər, bir sözlə, insanın daxili dünyası subyektiv varlıq hesab edilir. İnsanın yaratdığı bütün maddi şeylər, evlər, əmək alətləri, geyim və s. hər şey təbii varlıqla eyniləşdirilir, onun tərkib hissəsi kimi izah olunaraq yazılır: "Daha konkret olaraq varlığın növlərini belə qruplaşdırmaq olar: a) təbiət və maddi varlıq. Buraya insanı əhatə edən maddi gerçəklik daxildir ki, onun da iki aspektini qeyd etmək olar: təbii mühit və insan əməyi ilə yaradılmış "süni mühit" və ya "ikinci təbiət". Onu insan şüurundan asılı olmayan təbii-maddi mövcudluq da adlandırmaq olar" (177; 9, 144-147, 151-152; 178, 120-121). Fəlsəfə elmləri doktoru Z. Hacıyev hələ antik dövrdən ilk dəfə Demokrit tərəfindən işlədilən dünya fəlsəfəsində bu gün də həmin ilkin mənada işlədilən "ikinci təbiət" (44, 12; 157, 159) anlayışına tam aydınlıq gətirməsə də, qismən də olsa yaxınlaşmışdır. Z.Hacıyev yazır: "Varlığın birinci formasının digər növü insanların yaratdıqları əşyaların, alətlərin və obyektlərin varlığıdır. Bunları bəzən "ikinci təbiət" də adlandırırlar. İnsanların əməyi ilə yaradılan hər şey (əmək alətləri, məişət cihazları, binalar, yollar, körpülər və s.) buraya daxil edilir. Varlığın bu növü də xeyli dərəcədə özünəməxsus xarakter daşıyır.

Əvvəla, onların əsasını ilkin təbiət materialları (obyektiv reallıq) təşkil edir. Digər tərəfdən, onlar insanın bilikləri və əmək vərdişlərinin maddiləşmiş formalarıdır. Bu, o deməkdir ki, "ikinci təbiət" obyektlərinin mənşəyi və fəaliyyəti maddi ilə insan ruhunun, şüurunun birgə məhsulu kimi çıxış edir. Üçüncüsü, varlığın bu növünə daxil olan əşyalar və predmetlər cəmiyyətdə müəyyən funksiya yerinə yetirirlər. Yəni onların hər birinin müəyyən sosial təyinatı vardır.

Deyilənlərdən aydın olur ki, varlığın bu növü təbiinin (maddinin), mənəvinin və sosialın ayrılmaz vəhdətini ifadə edir.

Varlığın yuxarıda qeyd olunan növlərinin müxtəlif şəkildə birləşmələri mövcuddur. Bunun da nəticəsində yeni-yeni rəngarəng varlıq növləri yaranır. Məsələn, insanların varlığı, onun yaratdığı əşyaların varlığı və cəmiyyətin varlığı bu qəbildəndir" (9, 152-153).

Təəssüf ki, Azərbaycan fəlsəfə tədqiqatçıları rus fəlsəfi fikirinə Avropa fəlsəfəsindən keçmiş, "ikinci təbiət" anlayışını öz əsərlərində işlədərkən rus fəlsəfi ədəbiyyatındakı səhvləri mahiyyətinə varmadan eyni ilə təkrar edərək onu mədəniyyət (kultura), süni təbiət, maddi mənəviyyat kimi mənalarda işlədirlər. İlk dəfə antik yunan filosofu Demokrit "ikinci təbiət" anlayışını mənəvi mədəniyyət, Avropa fəlsəfəsində də həmişə birmənalı mənəvi mədəniyyət mənasında işlətmişdir (44, 12; 157; 159, 16, 226; 15, 99, 193; 179, 16).

Insanın mənşəyi haqqında iki mülahizə mövcuddur. Birinci fikirə görə, Yaradan elə ilk yaranışdan onu insan kimi yaratmışdır; ikinci fikirə görə insanın əcdadı da heyvan (meymun) olmuş, təbii təkamül prosesində onda şüur yaranmış, bu mərhələdə o, ilkin əmək və ov alətləri ixtira etmiş, ovçuluq və yığıcılıq fəaliyyətində əmək məhsuldarlığı bir qədər artsa da, təbiətin bir hissəsi olaraq yaşamışdır. Lakin ilkin əmək alətləri ilə iş prosesində, təbiət üzərində

aparılan müşahidələr prosesində təfəkkür-təhlil qabiliyyəti, təbiəti təqlid etmək və hətta onu dəyişdirməklə öz aralarında heyvandan fərqli davranış normaları, qaydaları yaratmaqla bütünlüklə təbiətdən ayrılmışlar, idraki bir sistem qurmaqla həm təbiətə təsir göstərib onu dəyişmiş, həm də öz kollektivini tənzimləmişdi, bəzi ölkələrdə əkinçiliyə keçilməsi ilə başlanmışdı. İnsanın bu yaradıcı qabiliyyət sistemi latın dilli xalqlarda "kultura" – torpağı becərmək, torpağı hazırlamaq mənasında işlədilirdi. Beləliklə dünyada birinci yaradıcı ilə, təbiət – Allah – mütləq ruhdan sonra insanın yaradıcı ruhu – ikinci təbiət – kultur (mədəniyyət) yarandı (16, 204-228; 44, 7-8; 180, 12). Beləliklə, hələ eramızdan əvvəl antik dövrdə insanın dəyərlər sisteminin yaradıcı məzmunu, "ikinci təbiət" adlandırılmış kultura (mədəniyyət) kimi qiymətləndirilmişdir. Mədəniyyət anlayışının məzmunu zaman-zaman zənginləşmiş, müxtəlif tərifl ər verilmişdir. Bu tərifl ərin sayı ilbəil artmış, XX əsrin 50-ci illərində dünyada mədəniyyətin tərifl ərinin sayı 180, XX əsrin 80-ci illərində isə onların sayı 500-ə çatmışdır. Hazırda mədəniyyətə verilən tərifl ərin sayı dörd rəqəmli ədədlə ifadə olunur (44, 7-18).

Bəşər tarixi göstərir ki, hər bir tarixi dövrdə xalqların inkişaf səviyyəsi, əmək alətlərinin, yaşayış məskənlərinin, texnikanın təkamülü həmişə insanların, etnosun mənəvi intellektual səviyyəsi ilə müəyyənləşmiş, başqa sözlə, onun mənəvi inkişafının meyarı kimi çıxış etmişdir. Sonralar yaranmış maddi mədəniyyət anlayışı, mənəvi mədəniyyətin təcəssümü, təşəkkülü prosesində maddiləşməsindən başqa hər hansı məna kəsb etmir. Maddi mədəniyyətin komponentləri kimi dəyərləndirilən əşya və predmetlər təbiət materiallarından istifadə olunmaqla insan zəkasının, onun mənəvi dünyasının maddiləşməsindən başqa bir şey deyildir. B. S. Erosov haqlı olaraq yazır ki, istehsal maddi elementlər-

dən başqa, mənəvi tərəflə də təmin olunmalıdır. Mənəvi istehsalın mahiyyəti də elə bundadır. Belə ki, mənəvi istehsal sferası mədəniyyəti formalaşdırır. Bunsuz nə təsərrüfat, nə siyasət, nə də sosial münasibətlər öz funksiyalarını icra edə bilməz. Beləliklə, aydın olur ki, mədəniyyət mənəvi istehsalın üzvi tərkib hissəsidir (180, 78).

Tarixin materialist nəzəriyyəsinə uyğun marksist sovet ictimai "elmi" mədəniyyətə "maddi və mənəvi dəyərlərin məcmusu" kimi tərif verir. Əsaslandırır ki, guya maddi mədəniyyət insan əli ilə yaradılan hər şey: əmək aləti, geyimlər, bəzəklər, tikililər, nəqliyyat vasitələri və s.-dən (göründüyü kimi, əl şüuru əvəz etmişdi – X.X.) , mənəvi mədəniyyət isə insan zəkasının yaratdığı bütün mənəvi dəyərlər: ədəbiyyat, incəsənət, elm, din, fəlsəfə, əxlaq, musiqi, adət-ənənə və s.-dən ibarətdir və maddi mədəniyyətin törəməsidir (51, 5; 62, 6). Bu da öz növbəsində sinfi olaraq proletariat və kəndli (zəhmətkeş) siniflərinin istehsalından, bu münasibətlər prosesində formalaşan, yaranan dəyərlər kimi izah olunur və şüurlara yeridilirdi. Beləliklə, mədəniyyətin milli tarixi yaradıcılıq gücü pərdələnir, toplumun intellektual ierarxiyada son pillədə duran təbəqənin, "iş adamı"nın – maddi istehsalla məşğul olanların, proletariat və muzdurların (7, 4) istehsal fəaliyyətinin nəticəsi kimi cəmiyyətə aşılanırdı. Kommunist Rus imperiyasının fövqəladə-mifoloji ideoloji hakimiyyəti Sovet İttifaqı Kommunist Partiyasının beşilliklərinin sənədlərində göstərilən uydurma istehsal rəqəmləri sovet tarixçilərinin əsərlərində zəhmətkeşlərin (fəhlə və kəndlilərin – X.X.) mədəniyyətinin – yaradıcılığının məhsulu kimi tarixləşdirilir, kommunizmə doğru bir addım kimi idealizə olunur, bunun fonunda isə keçmişdə istismarçı siniflərin proletariat və kəndlilərin yaradıcılıq qabiliyyəti göstərməyə imkan vermədiyi psixikaya hopdurulurdu. Beləliklə, cəmiyyətdə kommunizmə aparan yeganə maddi istehsal ideo-

logiyası vardı, keçmişin bütün milli-dini, əxlaqi, ideya və ideologiyaları qadağan olunmuşdu. Yeninin yaradılması proletariat və onun zəhmətkeş müttəfiqi kəndlilərin təfəkküründən çox uzaq idi. Odur ki, əsarət altına alınmış xalqlar ideologiyasızlaşdırılır, simasızlaşdırılır və manqurtlaşdırılırdı. Sovet İttifaqı Kommunist Partiyasının yeritdiyi bu milli ideologiyadan məhrumetmə siyasətinin daxilində rus xalqına əlahiddə, fövqəl xalq – İsa Məsih funksiyası da şüurlara yeridilirdi. Maddi elementlər istehsalının kommunizmə apardığı ideyalar kompleksi ilə əsarət altına alınmış xalqları sinfi zülmdən azad etmiş böyük qardaş rus xalqının bütün dünyanın fəhlə və kəndlilərini sinfi zülmdən və istismardan xilas edəcək İsa Məsih missiyası da müxtəlif üsullarla kütlələrin şüuruna yeridilirdi.

Bütün sovet mətbuat orqanlarının, elm və tədris müəssisələrinin, fənlərin birinci və başlıca vəzifəsi Rus xalqının "bəşəri xilaskar" missiyasını əsarət altına alınmış, zadəgan və ziyalı zümrəsi, elitası fiziki cəhətdən məhv edilmiş adi "iş adamı" kimi saxlanmış fəhlə və kəndlilərə, onların övladlarına aşılanırdı. Sovet tarixşünaslığında, birinci növbədə də onun Azərbaycan bölməsində mədh olunan məsələlərdən biri metropoliyalarda kütləvi təhsili həyata keçirməklə savadsızlığı aradan qaldırmanın əsas məqsədi bu idi. Rus imperiyasının kütləvi təhsil sistemi heç vaxt xalqların elmi-mədəni səviyyəsinin yüksəldilməsi olmamışdır. Bu siyasətdə əsas məqsəd milli-mənəvi köklərdən, milli inam və etiqaddan, adət-ənənədən, əxlaqdan və s. mənəvi dəyərlər sistemindən ayrılmaqla, keçmişdən qoparmaqla pərdələnmiş kommunist ideologiyası ilə onu assimilyasiya etmək, ruslaşdırmaq məqsədi güdürdü.

Marksizmin baniləri də, onların davamçıları da mənəvi mədəniyyətin hər bir xalqın yaradıcı sistemi, tarixin hərəkətverici qüvvəsi olduğunu çox gözəl bilirdilər. Maddi isteh-

sal cəmiyyətin, hətta mənəvi varlığın hərəkətverici qüvvəsi, onun mənbəyinin fəhlə və kəndlilər olması ideologiyası ziyalısı fiziki cəhətdən məhv edilmiş xalqları kütlələşdirmək, manqurtlaşdırmaq, assimilyasiya etmək, primitiv ideyalarla istədiyi oyuncaq halına gətirmək, bu vəziyyətdə saxlamaq məqsədi güdürdü. Əgər belə olmasaydı, Sovet imperiyası kommunist ideologiyasından başqa, bütün ideyalara qadağa qoymaz, başqa cür düşünənləri məhv etməzdi.

Sovet tarixşünaslığı, onun Azərbaycan bölməsi bu üsulla Azərbaycan xalqının tarixini etnososial, mədəni, mənəvi, milli ideya və ideologiyaların təşəkkül, inkişaf və yaranış prosesi təqdim etməmiş onu coğrafi ərazi, tarixi, mexaniki hadisələr yığınına çevirmişdir ki, bu da heç vaxt xalqda milli qürur, ləyaqət, tarixi təfəkkür, yaradıcı ruh imkanı oyatmamışdır. Hər şey baş-ayaq qoyulmuş, tərsinə yazılmışdı.

S.Xəlilov düzgün olaraq yazır: "Ərazinin tarixi, xalqın tarixi, millətin tarixi, dövlətin tarixi fərqləndirilmədən məsələyə milli şüur prizmasından baxmaq çətindir. Minilliyin və yüzilliyin əsas səciyyələrini vermək üçün əvvəlcə bütövlükdə tarixi inkişaf prosesi heç olmasa ən ümumi şəkildə nəzərə alınmalıdır" (15, 239). Böyük alman mütəfəkkiri K. Yaspers isə bu məsələ haqqında yazır: "Gələcəksə keçmiş və indidə gizlənmişdir, biz onu real imkanlarda düşünüb tamamlayırıq. Əslində, dünyagörüşümüzün əsasında həmişə gələcəyin dərki durur. Gələcəyin bu dərkini ümid və qorxularımızı əks etdirən xəyali mənzərələrdə konkretləşdirmək lazım deyil: **gələcəyə baxışımızın əsasında keçmişə elmi nüfuzetmə, habelə indinin qərəzsiz dərki dayanmalıdır"** (157, 215-216). O, sözünə davam edərək yazır: **"Baş verənlər xəbərdarlıqdır. Unutmaq günahı öz üzərinə götürmək deməkdir. Daim keçmişi xatırlamaq gərəkdir. O, olmuş, mümkün olmuşdur və bu mümkünlük qalır. Onun qarşısını yalnız bilik ala bilər"** (157, 227).

XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan milli-azadlıq hərəkatı liderləri milli varlığın qorunması və inkişafında tarixi yaddaşın və tarix elminin əvəzedilməz rolunu dərk etmiş, xalqın mənəvi dəyərlər sistemində yaranmış boşluğu doldurmaq məqsədilə çox çalışmışdır. Milli-azadlıq hərəkatının lideri M.Ə.Rəsulzadə Azərbaycan türklərinin düşdüyü ağır mənəvi, ideoloji, siyasi durumun əsas səbəblərindən bəhs edərkən göstərmişdir ki, Azərbaycan türkləri **"öz tarixlərini bilmədiyinə görə cəhalətdə qalmış, öz yolunu müəyyən edə bilməmişdir"** (231, 162).

Azərbaycan Cumhuriyyətinin qurucularından biri, AXC-nin müdafiə naziri, general S. Mehmandarov milli tarixin yazılmasını dövlət və ordu quruculuğunun tərkib hissəsi kimi qiymətləndirərək, təcili olaraq Azərbaycan türklərinin tarixinin yazılması üçün ziyalılara müraciət etdi (232, 55-57). Azərbaycan Cumhuriyyətinin varlığı illərində milli tarixin yazılmasına xüsusi qayğı göstərildi. M.Vəlilinin (Baharlının) "Azərbaycan", Rəşid bəy İsmayılovun "Azərbaycan tarixi", C.Zeynalovun "Müxtəsər Azərbaycan tarixi" əsərləri yazıldı. M.Vəlilinin (Baharlının) əsəri 1921-ci ildə, Rəşid bəy İsmayılovun əsəri 1923-cü ildə Bakıda, C.Zeynaloğlunun əsəri 1924-cü ildə İstanbulda nəşr olundu.

Bu əsərlər A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərindən sonra Azərbaycan tarixşünaslığında elmi və milli mövqedən yazılan ilk və son əsərlər oldu. Bu əsərlərin oxunması qadağan edildiyindən xalq arasında yayıla və mənimsənilə bilmədi. Bununla da Azərbaycan tarixinin milli mövqedən öyrənilməsi ideyası beşiyindəcə boğuldu. Azərbaycanın qədim sivilizasiyanın ilkin beşiklərindən olması folklorda, dini ədəbiyyatda, M. Kalankatyuklunun "Albaniya tarixi" əsərində ifadə olunmuşdu. Bu ideya hələ orta əsrlərdən burada olmuş Avropa səyyah və elmi fikir adamlarının diqqətini cəlb etmiş, onlar bu mədəniyyət ocağı haqqında xatirə və

hesabatlarında məlumat vermişlər. Lakin XIX əsrdə Azərbaycanın Rus imperiyası tərəfindən işğalından sonra Azərbaycanda olmuş isveç, fransız, alman, qismən rus elmi düşüncə sahibləri buradakı zəngin arxeoloji abidələrə istinadən Azərbaycanı sivilizasiya beşiyi hesab etmiş, pərakəndə də olsa, arxeoloji qazıntılar aparmaqla onun qədim tarixini öyrənməyə təşəbbüs etmişlər.

Lakin 1920-ci il 27 apreldə Azərbaycanın kommunist rus imperiyası tərəfindən ikinci işğalı ilə Azərbaycan tarixinin dünya və milli fikir adamları tərəfindən öyrənilməsi də dayandırıldı. Bolşevik inkviziyası hər şeyin, birinci növbədə tarixin marksizm-leninizm metodologiyası ilə öyrənilməsinə, kommunist ideologiyası əsasında izah və şərh olunmasına qərar verdi. Azərbaycanın bolşevik hökuməti Azərbaycan tarixinin öyrənilməsini nəzarətə götürmək üçün 1923-cü ildə Azərbaycan Arxeoloji Komitəsini və Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətlərini yaratdı. Bu cəmiyyətlərin tərkibinə Rusiyadan dünya şöhrətli alimlər – V.V.Bartold, N.Y.Marr, İ.İ.Meşşaninov və b. daxil edilməsi bolşeviklərin də Azərbaycanı qədim və güclü sivilizasiya beşiyi kimi dəyərləndiklərini göstərir. Odur ki, kommunist Rus imperiyası bu sivilizasiyanı yaradıcı gücündən məhrum etmək məqsədilə onu güclü alimlər vasitəsilə nəzarətə götürmək, ona öz məqsədinə müvafiq forma və məzmun vermək istəyirdi.

Azərbaycandan milli ziyalı mühitində yetişmiş istedadlı gənclər – Ə.Ələkbərov, Q.T.Qaraqaşlı, M.V.Quliyev, İ.M.Cəfərzadə, M. Vəlili (Baharlı və b. bu cəmiyyətlərin tərkibinə daxil edilmişdilər. Bu cəmiyyətlərin orqanı kimi "Xəbərlər" məcmuəsi nəşr olunurdu. Lakin bu cəmiyyətlərə daxil edilmiş alimlərin dünyagörüşü onlara kommunistlərin arzu etdiyi Azərbaycan tarixini uydurmaq imkanı vermirdi. Çünki onların hamısı dünyanın qabaqcıl təhsil ocaqlarında yetişmiş, zadəgan silkindən çıxmış alimlər idi. Onların ya-

radıcılığında Avropa mərkəzçilik, velikorus şovinizmi olsa da, tarixi Rus imperiyasının geopolitik mənafeyinə uyğun yazsalar da, milli və tarixi həqiqətləri danmırdılar. Xalqlara yanaşma tərzində imperiyaya məsləhətçi olurdular. Bu cəmiyyətlərə daxil olmuş Azərbaycan gəncləri ölümlə olum arasındakı təhlükəli bir şəraitdə milli tarixdə hifz olunan ləyaqət, mənlik və qüruru tarix elmi vasitəsilə yeni nəsillərə ötürməyə çalışırdılar.

Marksizm-leninizm-kommunist ideologiyasını ancaq elmi şüurdan məhrum proletar, muzdur və dünyagörüşcə onlar səviyyədə olan sosial təbəqələr, simasızlaşmış, faktı və həqiqəti danmağı bacaran qruplar və fərdlər qəbul edə bilərlər. Kommunist ideologiyası mühitində dünyaya göz açmış insanların elmi şüura yiyələnənə qədər bu ideologiyanın təsirinə düşməsi də mümkündür. Yüksək elmi şüura, bəşəri dəyərlərə malik insanların kommunist ideologiyasını qəbul etməsi və bu ideoloji qəbildə xalqlara tarix uydurması mümkün deyil. Odur ki, kommunist Rus imperiyasının istəyinin əksinə olaraq V.V.Bartold, N.Y.Marr, İ.İ.Meşşaninov və başqalarının rəhbərliyi ilə Azərbaycan mühitində elmi və milli şüura yiyələnmiş Ə.Ələkbərov, Q.T.Qaraqaşlı, M.V.Quliyev, İ.M.Cəfərzadə, M.Vəlili (Baharlı) kimi ziyalılar vasitəsi ilə yaradılan Azərbaycan tarixşünaslığı başqa cür deyil, məhz elmi və milli mövqedən yaranırdı. Oktyabr çevrilişindən sonra bütünlükdə Rus imperiyasında yaranan tarixşünaslığın elmi-ideoloji səviyyəsi uyğun idi. Kommunist liderləri aydın görür və dərk edirdilər ki, həbs və güllələmə qorxusu Oktyabr çevrilişindən əvvəl təhsil almış alimlərin dünyagörüşünü və siyasi baxışlarını dəyişə bilmir. Odur ki, bu nəsil ziyalılarını kütləvi surətdə güllələnmə, həbs və sürgünlə məhv etməyə başladılar. Kommunist liderlər aydın görürdülər ki, kommunist ideologiyası mühitində, SSRİ imperiyasında doğulmuş, dünyadan təcrid olunmuş adamlar elmi şüura yiyələnənə qə-

dər bu ideologiyanın təsirində qala bilərlər.

Odur ki, Rus kommunist imperiyası 1937-ci ildə bolşevik ehkamını qəbul edə bilməyən bütün alim və ziyalıları, elmi və milli şüurun daşıyıcılarını, müstəqil düşünmək və düşündüklərini açıq ifadə etmək qabiliyyətində olan insanların hamısını məhv etdilər. Rus kommunistlərinin imperiyalar tarixinə gətirdiyi birinci yenilik metropoliyalarla bərabər özünün də irsi elitasını və ziyalısını məhv etmək oldu. Ikinci yenilik isə metropoliyalarda milli şüurun daşıyıcılarını fiziki cəhətdən məhv etməklə onun bir daha meydana çıxmasına yol verməmək idi.

Kommunist Rus imperiyası varlığı dövründə assimilyasiyanın – ideologiya, dil, mədəniyyət, metisləşdirmə və s. bütün üsul və vasitələrindən istifadə edirdi. **Lakin assimilyasiyanın başlıca aləti, vasitəsi tarix elmi idi. Kommunist sovet imperiyası tarix elmindən assimilyasiya etməyi planlaşdırdığı xalqlara qarşı müharibə zamanı döyüş zonasında rəqibin yaddaşını və şüurunu süstləşdirib iradəsini qırmaq üçün istifadə etdiyi zəhərli maddə, vasitə kimi milli şüuru öldürən, keçmişə nifrət yaratmaqla milli iradənin bərpa olunmasına imkan verməyən başlıca vasitə, alət kimi istifadə edirdi.**

Özünə qədər olan imperiyalarla müqayisədə, kommunist Rus imperiyası xalqları assimilyasiya etməkdə geniş imkanlara – kütləvi təhsil, mətbuat, radio, televiziya kimi informasiya və təbliğat vasitələrinə malik idi. Ən başlıcası isə Rus imperiyası əsarət altına aldıqları xalqların dünya ilə əlaqəsini kəsmişdi. İmperiya əhalisi dünya haqqında ancaq ölkə informasiya mərkəzlərinin verdiyi forma və məzmunda məlumat ala bilirdi. Verilən informasiyaya görə, guya dünya kapitalist dövlətlərində aclıq və səfalət hökm sürür, bundan çıxış yolu kimi dünya xalqları sovet həyat tərzi, sosializm uğrunda mübarizə aparırlar. Kapitalizmin birinci dünya böhranı sosializmi doğdu, ikinci böhranı sosializmi sistemə çevirdi, kapitalizmin başlayan son böhranı sosializmin

dünyada qələbəsi ilə nəticələnəcək. "Böyük rus xalqı" bütün dünya xalqlarını onunla birgə yaşayan xalqlar kimi milli və sosial ədalətsizlikdən xilas edəcək. Rus imperiyasının informasiya vasitələri əsarəti altına salıb, kütləyə çevirdiyi xalqların beyinlərini beləcə iflic edirdi. Beyinlərinin iflic edilməsi mümkün olmayan, məntiq gücü ilə fərqli düşünən tək-tək fərdlər antikommunist, burjua təxribatına uymuş düşmən kimi fiziki cəhətdən məhv edildi. Sovet adamı manqurtlaşmış, proqramlaşmış standart düşüncəyə malik kütləyə çevirilirdi.

Bütün mənəvi, ideoloji, iqtisadi, sosial-siyasi tədbirlərin məqsədi xalqları ilk öncə manqurtlaşdırmaq, növbəti mərhələdə rus təfəkkürü əsasında qidalandırmaqla onları assimilyasiya etmək məqsədi güdürdü. Xalqların hamısı Rus imperiya maşınının bu təcavüzü qarşısında davam gətirə bilmir, kiçik xalqların etnik, mənəvi strukturu, sistemi pozulub dağılır, onlar ruslar içərisində əriyib yox olurdu. Qədim, möhkəm etnik-mənəvi sistemlərə malik xalqlar imperiyanın bu təcavüzündən varlıqlarını qoruya bilsələr də, onların da mənəvi dünyasında deformasiya, parçalanma, manqurtlaşma, kosmopolitizm, simasızlaşma ardıcıl artmaqda idi.

Etnik proseslərin zorakı istiqamətləndirilməsi velikorus şovinizminin arzusunun əksinə olaraq, rus xalqının özünü də zəiflədir, imperiyanın mənəvi dayaqlarını ardıcıl çökdürürdü. Çünki imperiyada hakim, hegemon millət olan ruslar mədəni-əxlaqi səviyyəsinə görə imperiyanın əksər xalqlarından aşağı səviyyədə olmaqla, mentalitetcə onlarla ziddiyyət təşkil edirdi. Rus imperiyası qadın azadlığı, hüquq bərabərliyi pərdəsi altında rus qadınları vasitəsilə fahişəliyi yaymaqla, xalqların mənəvi sistemini pozur, fahişə qadınlar vasitəsilə yaratdığı metislərlə xalqları konsolidasiya etmək istəyirdi. Artıq 70-ci illərin əvvəllərində Rus imperiyasının

bu siyasəti də xalqlar arasında əks reaksiya doğurdu. İmperiyanın assimilyasiya siyasəti rus xalqının mədəni-mənəvi gücü, rassionarlığı hesabına deyil, hakimiyyətin zorakılığı hesabına həyata keçirilirdi.

Kommunist Rus imperiyasının assimilyasiya siyasəti müəyyən uğurlar qazansa da, onun işinin həmişə müvəffəqiyyətlə getdiyini demək mümkün deyil. SSRİ nə qədər qapalı ölkə olsa da, dünyada baş verənlər onun daxili həyatına təsir edirdi, etnik proseslərdə onun üçün gözlənilməz situasiyalar meydana çıxırdı. Ümumən əsarət altına aldığı xalqları assimilyasiya kommunist Rus imperiyasının siyasəti olsa da, bütün xalqlara münasibət eyni deyildi. Məsələn, Qafqazın türk və müsəlman xalqlarını bütünlüklə assimilyasiyaya planlaşdırıldığı halda, gürcü və ermənіləri bir qədər ruslaşdırmaqla onlardan türk-müsəlman düşməni - bufer dövləti yaratmaq siyasəti həyata keçirilirdi. Odur ki, onlara milli şüurlarını və mədəniyyətlərini inkişaf etdirməyə planlı şərait yaradılırdı. Ermənilərə münasibət gürcülərə münasibətdən qismən fərqli və üstün idi. Ermənilərin dünyada yayılması və onlara Azərbaycan ərazisində dövlət yaratmaq məqsədilə Moskva erməni tarixçilərinə geniş imkan yaratmışdı. Azərbaycan ərazisində erməni dövlətinin tarixən mövcudluğu haqqında yazılmış əsərlər vasitəsilə ermənilər Qafqazın yerli əhalisi kimi insanların şüuruna yeridilməsi, sonra isə bu konsepsiyaya uyğun süni Azərbaycan tarixinin "yazılması" həyata keçirilirdi. Məsələ bununla bitmirdi. Azərbaycan ərazisinin böyük bir hissəsi, milli özünü adlandırmanın ilkin ocaqlarından biri – Borçalı bütünlüklə Gürcüstana, ilkin mədəniyyət mərkəzlərindən biri Dərbənd şəhəri Dərbnd vilayəti ilə birlikdə RSFSR-ə verilmişdi. Beləliklə, kommunist ruslarının yenidən işğal etdiyi ölkələrin, 190-a qədər xalqın tarixi planlı surətdə rus imperiyasının mənafeyinə uyğunlaşdırılırdı.

Rus imperiyasının işğal etdiyi ölkələrdə hakimiyyətə gəti-

rilən şəhər proletariatı, kənd muzdur və nökərləri vasitəsilə milli şüurun fəal daşıyıcıları zadəgan və ziyalılar fiziki cəhətdən ardıcıl məhv edildi. İşğal olunmuş ölkələrin proletariat və muzdurlarının ruslarla asan qaynayıb-qarışması - ruslaşması Moskvanı eyforiyaya gətirmişdi. Onların rəhbərliyi ilə bütün dünyada proletariat diktaturası dövlətlərinin qurulacağı xülyası ilə sovet "tarixçiləri"nin uydurmaları dünyanı dolaşırdı. SSRİ-nin eyforiyaya qapılmış kommunist rəhbərliyi **1936-cı ildə "SSRİ Konstitusiyası"nı qəbul etdi. Bu sənəd impariyanın türk və müsəlman xalqları, birinci növbədə Azərbaycan türkləri üçün ölüm hökmü idi. Azərbaycan türklərinin etnik-mənəvi dəyərlər sistemində tarixi yaddaşı, qürur, ləyaqət və s. yaşadan milli özünüadlandırma – türk etnonimi qadağan olundu.** Azərbaycan türklərinə Azərbaycanda yaşayan əhali mənasını verən "azərbaycanlı" adı verildi. "Azərbaycan türkcəsi" "Azərbaycan dili" adlandırıldı. Imperiyanın bu addımının Azərbaycan türklərinin yeni nəslini uydurma bir tarixlə milli köklərindən ayıracağı aydın idi.

Yuxarıda göstərdiyimiz kimi, 1937-1938-ci illərdə zadəgan təbəqəsindən yetişmiş tarixçi, ziyalı nəsli məhv edilmiş, proletar-muzdur təbəqəsindən hələ tarixçi yetişməmişdi. Odur ki, tarixşünaslıqda bir boşluq yarandı. 1937-ci ildə Moskvada nəşr olunan "SSRİ tarixi" adlı 3 cildlik əsər ali məktəblərdə, onun qısaldılmış və sadələşdirilmiş variantı orta məktəblərdə "Vətən tarixi" kimi tədris olunurdu. Adının əksinə olaraq, dərslikdə ancaq rus xalqının tarixindən irqçilik, hakim millətçilik mövqeyindən bəhs olunurdu.

Sovet məktəbi, mətbuat və təbliğat maşını sosial-mənəvi, iqtisadi-siyasi, milli-ideoloji strukturları dağıdılmış Azərbaycan xalqının sağ qalmış savadsız fəhlə və muzdur hissəsində keçmişinə ikrah, nifrət hissi aşılayırdı. Sanki Azərbaycan tarixində yeni nəsillər üçün nümunə olacaq, qürur

doğuracaq, fəxr olunacaq bir şəxsiyyət, sosial-mədəni hadisə olmamışdır. Azərbaycan xalqı 27 aprel işğalından sonra böyük qardaşı rus xalqının köməyi, mədəniləşdirici təsiri ilə mədəni, sosialist bir xalqa çevrilmişdi. Lenin dilini, böyük rus xalqının dilini öyrənməklə rus mədəniyyətinə və xalqına qovuşmaqla əbədi xoşbəxtliyini təmin etmişdir. Bu qoşulma gün-gündən sürətlənir, imperiyanın bütün xalqları rus dili vasitəsilə rus mədəniyyətinə qovuşur, "xoşbəxt sovet xalqı"nın yaranması prosesi gedirdi. Yaranan sovet xalqı böyük rus mədəniyyətinin daşıyıcısına çevriliridi. Sovet xalqı – rus xalqının sinonimi kimi şüurlara yeridilirdi. Hər beş ildən bir əhalinin siyahıya alınmasında əyalətlərdə insanların ana dilindən imtina edib rus dilini ana dili, milli özünüadlandırmadan imtina edib özünü rus adlandırması sosializmin böyük qələbəsi, mahiyyəti kimi qiymətləndirlir və təbliğ olunurdu.

Etnik mənşəyindən imtina edib rus etnik mənsubluğunu qəbul edən etnik qrupların nümayəndələri yüksək rəhbər vəzifələrə irəli çəkilir, sosializmin milli mahiyyəti kimi təqdim edilir və təbliğ olunurdu. Artıq kommunist Rus imperiyası, əsarət altına aldığı xalqların ziyalı, zadəganlarını milli şüurun daşıyıcıları nümunəsini verənləri məhv etdiyindən milli ucqarların proletariat və muzdurları ruslaşmaya can atır, rus və rus dilli xristian qadınları ilə evlənməklə asanlıqla hakimiyyətdə təmsil olunurdular. Beləliklə, xalqın milli, sosial-mənəvi, siyasi-iqtisadi strukturları ilə bərabər biososial gen bazası da dağıdılırdı. Biososial assimilyasiyanın ilk uğurları Moskvanın öz milli siyasətində tezliklə qələbə çalacağına inam yaratdı. Kommunist Rus imperiyasının bu qələbələri hazırlanmaqda olan İkinci Dünya müharibəsində iştirak etməklə yeni ərazilər işğalına sövq etdi. Rus kommunistlərinin proletariat və kəndli sinifinin hakim və dövlət idarəçiliyinə layiq siniflər olması haqqında təbliğatı dünyanın bir çox ölkələrində bu siniflərlə dövlət və irsi elita ara-

sında mənfi münasibət yaratmışdı. Odur ki, Avropa kapitalist dövlətləri rus qoşunlarını ərazilərinə buraxmamaq üçün təxminən eyni ideoloji qəlibli rus kommunistləri ilə alman faşistlərini toqquşdurmağa qərar verdilər və məqsədlərinə də nail oldular. Sanki kommunistlərə elə bu lazlm imiş. O, faşist təhlükəsi haqqında elə qorxulu, həyəcanlandırıcı təbliğata başladı ki, ölkədə hər kəsi faşizmi, alman xalqını məhv etməyə psixoloji cəhətdən hazırladı.

SSRİ ilə Almaniya arasında müharibə başlayanda Staxanov hərəkatı kimi bəzi uydurmalar istisna olmaqla, SSRİ-də nümunə göstəriləcək elə bir fəxri qəhrəmanlıq, igidlik nümunəsi yox idi. Odur ki, kommunistlər xalqlara uydurmaq istədiyi tarixi konsepsiyalarına dəyişiklik etməyə məcbur oldular. İdeoloji təbliğatlarının dayanıqlı olması üçün xalqların tarixinə söykənməyə məcbur oldular. Əsarət altına alınmış xalqların qəhrəman sərkərdələrin, böyük şəxsiyyətlərin varisləri olması haqqında əsərlər yazıldı və təbliğ olundu. Bu hadisə keçmişi qəhrəmanlıqlarla zəngin, dünyaya böyük sərkərdə, alim və mütəfəkkirlər vermiş Azərbaycan türklərinin yaradıcı tarixini üzə çıxarıb xalqına təqdim etməklə onun milli ruhunu yenidən canlandırmağa imkan verdi. Azərbaycanın qəhrımanlıqlarla zəngin tarixi, dünya şöhrətli sərkərdələri, alim və mütəfəkkirləri haqqında əsərlər yazıldı, nəşr olunub təbliğ olundu. Azərbaycan xalqının böyük, əzəmətli bir mədəniyyətin varisi olmasının imperiya tərəfindən etiraf olunması təqib və həqarət altında yaşayan xalqın mənəvi cəhətdən rahatlanmasına, özünəqayıdışına imkan verdi.

Müharibənin ağır iqtisadi-sosial, mənəvi nəticələrinə baxmayaraq, 1920-ci ildən gözümçıxdıya salınmış, hər dəqiqə təhqir olunan, adı dəyişdirilən Azərbaycan türklərinin şərəfli keçmişi haqqında azərbaycanlı adı altında yazılan və təbliğ olunan tarixi əsərlər onun milli ruhunu canlandırdı,

ona yaradıcılıq enerjisi verdi. Bununla bərabər, döyüş cəbhələrindən azərbaycanlıların qəhrəmanlığı haqqında xəbərlər onları qəhrəmanlıq tarixi ilə qovuşdurur, milli ruha təkanverici güc verirdi. Bütün bunlar müharibə şəraitində Azərbaycan türkləri arasında böyük elmi kəşflərin müəllifi, alimlər və sərkərdələr çıxması ilə nəticələndi. Müharibənin ağır inqilabi-soaial, mənəvi nəticələrinə baxmayaraq, elə müharibə illərində milli təzyiqdən azad olması Azərbaycan türklərinə onun mənəvi tələbatını ödəyəcək yeni milli ziyalı nəsli yetişdirməsinə imkan verdi.

Bu hadisə Azərbaycan türklərinin güclü biososial genlərindən məlumat verir. Azərbaycan xalqının ən ağır şəraitdə yetişən bu ziyalı nəsli milli mənafe naminə fədakarlıq göstərdi. Moskva ilə hesablaşmadan 1956-cı il avqustun 25-də Azərbaycan SSR Ali Sovetinin Sessiyası Azərbaycan SSR-in Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil etdi. Bununla da milli varlığın qorunması və yaşadılmasının başlıca mənbəyi dilini qorumaq, ona yaradıcılıq imkanı vermək üçün hüquqi baza, dayaq yaratdı. Bu hadisə həmin dövr üçün həqiqi mənada inqilab idi. Hərəkatın lideri İ. Mustafayev milli ideallar naminə ölümün gözünə dik baxdı. Bu hadisə Azərbaycan türklərinə qarşı amansız olan imperiyanı daha da quduzlaşdırdı. Rus imperiyası Azərbaycan xalqını assimilyasiya etmək üçün kompleks biososial, etnik, iqtisadi-sosial, siyasi-ideoloji tədbirlər həyata keçirdi. Milli ruhun köklərinin əsasən tarixi yaddaşda olduğunu nəzərə alan kommunist ideoloqlar bu dövrdə yazılan tarixi əsərlərdən aydın görünür ki, bu işdə az baş sındırmamışdılar.

Sovet tarixşünaslığı imperiya xalqlarının tarixində diqqəti daha çox Oktyabr çevrilişindən sonrakı sosializm mərhələsinə cəlb edirdi. Almaniya üzərində qələbə kommunizm ideoloqlarına rus xalqının böyük tarixi rolu, sosializmin

dünya iqtisadi sistemində üstünlükləri, sovet beynəlmiləlçiliyinin yaradıcı gücü haqqında zəngin tarixi ədəbiyyat yaratmasına imkan verdi. Ölkədə müharibədən sonrakı kiçik iqtisadi tərəqqi də buna zəmin yaratdı. Tərəqqi, mənəvi yüksəliş xalqın mədəni irsə, keçmişə marağını gücləndirdi. Müharibədən sonra ruslarla bərabər əsarət altına alınmış xalqların da mənəvi dirçəlişi, tarixi-mədəni irsə münasibəti canlanmışdı. Bu canlanmanın qarşısını almaq üçün kommunist ideoloqlar əsarət altına alınmış xalqların mənşəyi haqqında tələsik tarixlər uydurmaqla onları milli köklərindən ayırır, onların da ruslar kimi hind-avropa mənşəli olmaqla ruslarla eyni mənşəli olmasını şüurlara yeridir, milli tarixi yaddaşdan məhrum edirdi ki, əsarət altına alınmış xalqlar "biz" və "onlar" fərqləndirilməsində özlərini ruslarla müqayisə edib onlardan fərqləndirməyə can atmasın, özlərini ona qarşı qoymasın, əksinə, ruslarla bir kökdən olması ideyasına yiyələnib, ona qovuşmağa can atsın.

Əsarət altına alınmış xalqların ruslarla eyni mənşəli xalq olması, "Sovet xalqı məzmunca sosialist, formaca milli mədəniyyətdir" formulası ilə pərdələnərək şüurlara yeridilirdi. Fəlsəfi kateqoriya olmaq etibarilə məzmunla formanın vəhdəti haqqında deyilir: "Məzmun ilə forma arasında dinamik və çevik münasibətlər mövcuddur. Çünki məzmunun inkişafı formanın dəyişməsi və yeniləşməsini şərtləndirir. Bu prosesdə köhnəlmiş formalar tədricən aradan çıxır. (17, 132-135, 276-287). Nəzərə alsaq ki, sosialist mədəniyyətinin müəllifi rus xalqı idi, "məzmunca sosialist, formaca milli mədəniyyət" formulasında rus imperiyasının əsarət altına aldıqları bütün xalqları assimilyasiya etmək məqsədi çox aydın və aşkar şəkildə ifadə olunmuşdu.

Özlərinin etiraf etdiyi kimi, sovet tarixşünaslığı tez-tez özünü inkar edən, dəyişən, ayrı-ayrı şəxslərin fikirlərini ifadə edən süni konsepsiyalar yığını idi, elmi tarixşünaslıq dey-

ildi. Bu, Azərbaycan Sovet tarixşünaslığının yaradıcılarından biri – akademik Ə. S. Sumbatzadənin "XIX-XX əsrlər Azərbaycan tarixşünaslığı" (B., 1987) adlı monoqrafiyasında aydın ifadə olunmuşdur. Hətta əsərin 3-cü, 4-cü və 5-ci fəsillərinin adında da aydın görünür. Üçüncü fəsil "Böyük Oktyabr və Azərbaycan sovet tarixşünaslığının formalaşması", IV fəsil "Azərbaycan tarixşünaslığı 40-50-ci illərin birinci yarısında. Konsepsiya axtarışlarında", V fəsil isə "Azərbaycan tarixinin konsepsiyasının yaradılması" və 3-cildlik "Azərbaycan tarixinin yazılması" adlanır. Fəsillərin adı ilə bərabər məzmunu ilə tanışlıqdan aydın görünür ki, Azərbaycan xalqının keçmişi, tarixi inkişafı haqqında fikir, mülahizə və çıxarılan nəticələr faktlara deyil, subyektiv fikir və ideyalara söykənir.

Kommunist Rus imperiyasında ən sərt, amansız münasibət türk və müsəlman xalqlara, onlar arasında isə Azərbaycan türklərinə qarşı olmuşdur. Çünki Azərbaycan bəşəri sivilizasiyanın beşiklərindən biri, türklər onun avtoxton əhalisi idi. Qafqazın – Azərbaycanın türk ocağı kimi etiraf olunması Rus imperiyasının geopolitik siyasətinə zərbə vurdu. Odur ki, sovet tarixşünaslığı Azərbaycana tarix uydurmaq üçün akademik Ə. S. Sumbatzadənin sözləri ilə desək, uzun müddət "konsepsiya axtarışından" sonra, 1954-cü ildə "Azərbaycan tarixi"nin iki cilddə maketi hazırlandı. Lakin bu maket nəşr olunmadı. Onun islah olunub, 1961-ci ildə nəşr olunan birinci cildinin girişində 1954-cü il maketinin nəşr olunmama səbəbi haqqında yazılır ki, "həmin maket ölkəmizin elmi ictimaiyyəti tərəfindən əsasən müsbət qiymətləndirilsə də, bir sıra problem və məsələlərin işıqlandırılmasında ciddi nöqsanlara malik idi" (225, 8). "Azərbaycan tarixi"nin maketi Kremlin yerli təbəələri tərəfindən Bakıda rusca hazırlanır, Moskvada süzgəcdən keçirildikdən sonra öncə rusca, sonra isə Azərbaycan türkcəsinə çevrilib çap olundu.

"Azərbaycan tarixi"nin 1954-cü il maketi Azərbaycan SSR EA-nın müvafiq elmi müəssisələrindəki müzakirələrdən sonra SSRİ EA Tarix İnstitutu, SSRİ EA Şərqşünaslıq İnstitutu, SSRİ EA Maddi-Mədəniyyət Tarixi İnstitutu, SSRİ EA N.N.Mikluxo-Maklay adına Etnoqrafiya İnstitutu, Ukrayna SSR EA Tarix İnstitutu, Gürcüstan SSR EA İ.D.Cavahaşvili adına Tarix İnstitutu, Ermənistan SSR EA Tarix İnstitutu, SSRİ EA Dağıstan Filialının Tarix, Dil və Ədəbiyyat İnstitutunda müzakirə edilmişdir. SSRİ EA-nın akademikləri İ.İ.Mints və A.M.Pankratova, SSRİ EA-nın müxbir üzvləri G.V.Xaçapuridze, A.A.Arzumanyan, K.A.Pajitnov, K.V.Trever, Ermənistan SSR EA-nın müxbir üzvü B.B.Piotrovski, Tacikistan SSR EA-nın müxbir üzvü İ.S.Brakinski, tarix elmləri doktorları V.İ.Avdiyev, B.N.Zaxoder, B.B.Kafenqauz, M.O.Kosven, P.B.Mosesov, İ.İ.Petruşevski, N.A.Simirnov, S.İ.Utçenko, A.V.Fadeyev, O.N.Çaadayeva və başqa imperiya səlahiyyətlərinin nəzarəti və redaktəsi altında 1956-1957-ci illərdə təkmilləşdirilib Azərbaycan türkcəsinə tərcümə ediləndən sonra – 1961-ci ildə nəşr olundu.

Yazılan "Azərbaycan tarixi" 1936-cı ildə türk adı qadağan olunub, azərbaycanlı adlandırılan xalqın etnogenezində türk qəbilə və tayfalarının iştirak etmədiyini, türk olmadığını "əsaslandırmalı" idi. Odur ki, rus, erməni və gürcü tarixçilərinin sərəncamına verilmiş "Azərbaycan tarixi"nin 1954-cü il maketindən Azərbaycan xalqının etnogenez mərhələsindəki türk elementləri maketdən təmizləndi, aşağıda iqtibas edəcəyimiz fikir tamamilə çıxarıldı. Maketdə deyilirdi: "Midiyalıların tayfalararası dillərindən birini azəri dili kimi məşhur olmuş qədim azərbaycanlıların dili təşkil edirdi... Azərbaycan xalqının yaranması digər etnik qruplardan izolə olunmuş halda baş vermirdi. Azərbaycandakı tarixi proseslərin gedişində yerli əhali tərəfindən assimilyasiya

olunmuş və oturaqlaşmış müxtəlif etnik qruplar yarandı. Bunların içərisində e.ə. I minilliyin sonlarında Azərbaycana daxil olmuş türkdilli tayfalar da çox idi" (226, 33-34).

"Azərbaycan tarixi"nin 1961-ci ildə nəşr olunan I cildində mənbələrin ziddinə olaraq eradan əvvəlki dövrə aid Azərbaycanda türk qəbilə və tayfalarından bəhs olunmur. Midiyanın etnik tərkibi və dili haqda isə 1954-cü il maketindən tamamilə fərqli olaraq yazılır: "Miladdan əvvəl V əsrdə yaşamış Herodot yazır ki, Midiyalılar vaxtı ilə 6 tayfaya bölünmüşdülər. Bunlar buslardan, paretakenlərdən, struxatlardan, arizontlardan, budilərdən və maqlardan ibarət idi... Midiya tayfaları iran dilli tayfalar deyildilər, yalnız sonralar onlar iranlaşdırılmağa məruz qalmışdılar... Sonralar Midiyalılar farsların sakin olduqları vilayətə - İrana da hakim oldular.

Kiakslar (miladdan əvvəl 625-584-cü illər) və onun oğlu Fraortin hakimiyyəti dövründə Midiyalılar Mannanı özlərinə tabe etdilər. Manna dövləti süqut etdi. Bundan sonra ümumi "Midiyalılar" məfhumu Azərbaycanın cənub hissəsində yaşayan mannalıları və başqa tayfaları da əhatə etdilər" (225, 50). Kitabda Midiya dövlətinin ərazisi, sərhədləri haqqında yazılır: "Midiya qədim Şərqin ən qüdrətli dövlət oldu. Onun sərhədləri qərbdə - Kiçik Asiyada Qalis (Qızıl İrmak) çayına, şərqdə Gilmənd çayına, cənubda – İran körfəzinə və şimalda – Araz çayına qədər uzanırdı. Bu ərazidə müxtəlif dillərdə danışan çoxlu tayfa və xalq yaşayırdı (225, 51). Midiya dövləti e.ə. 612-ci ildə yeni Babilistan çarlığı ilə ittifaqda Assuriyanın paytaxtı Ninevanı, e.ə. 605-ci ildə Assuriyanın son istinadgahı olan Karexmiş qalasını tutdular. Bunun ardınca Urartunun paytaxtı Tuşpanı tutmaqla süqut etdirdi. Skif çarlığını e.ə. 585-ci ildə, bunun ardınca Lidiyanı tutaraq böyük imperiyaya çevirdi (104, 121-122).

E.ə. 550-ci ildə saray çevrilişi ilə fars Əhəməni sülaləsi

Midiyada hakimiyyəti ələ keçirir. E.ə. 331-ci ilə kimi Midiya fars Əhəməni sülaləsinin hakimiyyəti altında qalır. E.ə. 331-ci ildə Əhəməni sülaləsinin Qavqamel döyüşündə Makedoniyalı İsgəndərə məğlub olub Əhəməni dövləti süqut etdiyi ildə "Azərbaycan tarixi"nin I cildində Midiyalıların etnik tərkibi haqqında məlumatda deyilir: "Döyüş zamanı Midiyalılar Əhəməni qoşunlarının sağ cinahında dururdular. Miladın II əsrində yaşamış yunan tarixçisi Flavi Arrianın yazdığına görə, "Midiyalılarla birlikdə kadusilər, albanlar və sakezinlər var idi". Döyüş zamanı albanlar başqaları ilə birlikdə "İsgəndərin özünün və çar dəstəsinin qarşısına" çıxarılmışdılar. Kadusilər gözəl dağ qoşunları kimi şöhrət qazanmışdılar. Miladın XII əsrində yaşamış yunan tarixçisi Evsatfi, antik müəlliflərin məlumatlarına əsaslanaraq yazır ki, kadusilər "qayalar üzərində böyük çevikliklə gəzən, yaylardan əla ox atırdılar... döyüşlərdə piyadalar süvarilərdən geri qalmırdılar". Miladdan əvvəl I əsrdə və miladın I əsrində yaşamış yunan coğrafiyaşünası Strabon, onları ən yaxşı nizə atan adlandırır. Həmin döyüşdə Əhəmənilərin ordusunda kaspilər də iştirak edirdilər (225, 56-57).

Bütün mənbə və tədqiqatlar Midiyalıların maddi və mənəvi mədəniyyətinin bütün çalarları ilə farslardan fərqləndiyini və mədəni cəhətdən onlardan üstün olduğunu, farsların Midiyalılardan mədəniyyət əxz etməsi haqqında məlumat verir. Əhəməni əsarəti dövründə Midiyalıların etnik özünəməxsusluqlarını, adət-ənənələrini yaşadıb inkişaf etdirdiklərini yuxarıdakı məlumatlar, digər mənbə və tədqiqatlar da təsdiq edir. Midiyalıların mədəni üstünlüyünün nəticəsi idi ki, Əhəməni sülaləsinin süqutu ilə farslar müstəmləkəyə çevrildiyi halda, Midiyalılar müstəqilliyə nail olub dövlətlərini qurur, azad milli inkişaf yolu keçiriblər. Etnomədəni inkişaf prosesində ölkənin və etnosun adında dəyişiklik yaranır. Midiya adından Atropatena adına keçi-

lir. Burada etnomədəni proses haqqında "Azərbaycan tarixi"nin I cildi yazılır: "Ölkənin daxili inkişafının qanunauyğunluğu nəticəsi olaraq meydana çıxmış və iki yüz ildən artıq yaşamış Atropatena dövləti Azərbaycan ərazisində xalqın təşəkkülünü sürətləndirmişdi. Miladdan əvvəl VII-VI əsrlərdə bir sıra qeyri-midiyalı tayfaları və Şərq xalqlarını öz hakimiyyəti altında birləşdirən Midiya dövlətindən fərqli olaraq, Atropatena dövləti, əsasən, müasir azərbaycanlıların əsl əcdadlarından birini təşkil edən yerli əhalinin sakin olduğu ərazini əhatə edirdi. Yeni dövlət həm də Atropaten xalqının təşəkkülü üçün əlverişli zəmin yaradan siyasi vəhdətə və hələ zəif iqtisadi əlaqələrə malik idi.

Atropaten xalqının yaranması prosesində onun dili də formalaşırdı. Bu dil çox güman ki, sonralar azəri adlanan dildir. O, fars dilindən çox fərqlənirdi və talışların dilinə daha yaxın idi.

Beləliklə, hələ miladdan çox əvvəl Azərbaycanda gələcək Azərbaycan xalqının özəyi – tarixən daimi ərazisi, öz dili, müəyyən mədəniyyət vəhdəti və nisbətən zəif iqtisadi əlaqələri olan Atropaten xalqı təşəkkül tapmışdı. Hər bir xalqın vacib nişanəsi olan ümumi cəmləşdirici ad – "atropatenlilər" adı da mövcud idi ki, qonşuları da onları bu adla tanıyırdılar" (225, 63).

"Azərbaycan tarixi"nin 1954-cü il tarixli I cildinin maketindəki e.ə. I minillikdə Midiyada çoxlu türkdilli tayfaların yaşaması və "Midiyalıların tayfalararası dillərindən birinin əsasını azəri dili kimi məşhur olmuş qədim azərbaycanlıların dili təşkil edirdi" fikirləri "Azərbaycan tarixi"nin I cildi 1961-ci il nəşrinə daxil edilməmişdir. Bu nəşrdə atropaten xalqının və dövlətinin irandilli olmayan "yerli əhalidən" formalaşdığı və dilinin də azəri adlandığı göstərilir (225, 50-63).

Maraqlıdır, "Azərbaycan tarixi"nin 1954-cü il maketində azəri dili yerli Midiya tayfalarından birinin ümumünsiyyət

vasitəsi kimi məşhur olan dili olduğu göstərildiyi halda, Midiyalıların birbaşa varisləri, hələ ikili – Midiya və Atropatena etnonimi ilə tanınan, yaşayan azəri adlanan dili haqqında deyilir: "Bu dil çox güman ki, sonralar azəri adlanan dildir. O, fars dilindən çox fərqlənirdi və talışların dilinə çox yaxın idi". "Azərbaycan tarixi"nin I cildi 1961-ci il nəşrində Midiyalıların irandilli olmadığı xüsusi vurğulanır (225, 50). Atropatenalıların məhz yerli irandilli olmayan Midiya tayfalarının etnokonsolidasiyası prosesində formalaşdığı göstərildiyi halda, Midiyalıların atropatenalı kimi etnokonsolidasiyasında ümumünsiyyət vasitəsi olan azəri dilinin İran sistemli dil olması "çox güman" edilir. Başlanğıcda bütünlüklə gümana əsaslanan bu fikir sonda heç bir dəlil, sübut gətirmədən azəri dili "fars dilindən çox fərqlənirdi və talışların dilinə daha yaxın idi" hökmü verilir (225, 63). Sosial-siyasi inkişafın ilk dövlət quruculuğu mərhələsində, natural təsərrüfatın hökmranlığı, kütləvi təhsilin olmadığı şəraitdə çox böyük say üstünlüyünə malik olmadan bir etnosun digərini assimilyasiya etməsi mümkün deyil.

"Azərbaycan tarixi"nin I cildinin 1961-ci il nəşrinin və bu dövrə aid digər mənbə və təqdimatlardan göründüyü kimi, Midiyalılar Əhəməni əsarəti dövründə etnomədəni, ideoloji və dil assimilyasiyasına məruz qalmadı, özünün bütün milli xüsusiyyətlərini qoruyub saxladı və inkişaf etdirdi. Onun ümumünsiyyət vasitəsi azəri adlanan dili vardı. Bunu "Azərbaycan tarixi"nin I cildi 1954-cü il maketindən əlavə çoxsaylı mənbə və tədqiqatlar da təsdiq edir. Yerli azəri dili varisliyi itirmədən, assimilyasiya olunmadan burada ikinci İran sistemli azəri dilinin yaranması mümkün deyil. Mənbə və tədqiqatlardan göründüyü kimi, azəri dili qeyri-iran dilli yerli türk dilidir.

Yuxarıda "Azərbaycan tarixi"nin I cild 1961-ci il nəşrində etnik tərkib, dil, mədəniyyət və etnik proseslər haqqında

verilən məlumatlarla nəticələr ziddiyyət təşkil edir. Azərbaycan xalqının Midiyanın əsasını təşkil edən, aborigen qeyri-irandilli yerli tayfaların konsolidasiyasından yarandığı göstərildiyi halda, dillərinin İran sistemli olduğu yazılır.

"Azərbaycan tarixi"nin I cild 1961-ci il nəşrinin konsepsiya yaradıcılarının ixtirasına görə Atropatena dövlətinin varlığı dövründə Atropatenanın yerli qeyri-iran- dilli tayfalarının birləşməsindən yaranan atropatena xalqının dili iran sistemli azəri dili yarandı. Bu dil "XIII əsrdə türk dilində danışan köçəri tayfanın buraya gələn güclü dalğası azəri, aran və başqa dillərin sıxışdırılması və Azərbaycan dilinin tamamilə qələbə çalması üçün şərait yaratdı. Bütün Azərbaycan əhalisi üçün anlaşılan və ümumi danışıq dili olan Azərbaycan dili türk dilləri sisteminə daxildir. Bu zamandan azəri dili öz əhəmiyyətini itirməyə başlayır və monqol hakimiyyətinin sonlarına yaxın bu termin özü belə aradan çıxır" (225, 188). "Konsepsiya" müəllifləri daha sonra yazırlar: "Beləliklə, bir çox başqa xalqların tarixində olmuş hadisə - yerli əhalinin dilinin gəlmələrin dili ilə əvəz olunması Azərbaycanda da baş vermişdi. Bir çox müasir Şərq xalqları öz əcdadlarının danışdıqları dildə danışmırlar. Orta Asiyada xarəzmilər, soqodiyalılar, baktiryalılar və parfiyalıların İran dilləri türk dilləri ilə əvəz olunduğu kimi, Azərbaycanda da yerli dilləri Azərbaycan dili əvəz etmişdi" (225, 188-189). Maraqlı məntiqdir: "Azərbaycanda da yerli dilləri Azərbaycan dili əvəz etmişdi".

Lakin dillərin dəyişməsi heç də yerli əhalinin sıxışdırılması demək deyildi. Buna görə də müasir xalqlar öz ölkələrinin qədim əhalisinin bilavasitə nəsilləri olub, onların mədəni, tarixi və antropoloji xüsusiyyətlərini indiyədək saxlamaqdadırlar" (225, 189). Dünya xalqlarının tarixində çoxsaylı faktlar göstərir ki, xalqların mədəniyyət dəyişməsi və ya əksinə dil dəyişməsi mədəniyyət dəyişməsi ilə paralel ge-

dir yuxarıda göstərildiyi kimi, Azərbaycan xalqı ilkin "mədəni, tarixi və antropoloji xüsusiyyətlərini indiyədək saxlamışdırsa", deməli, onun həyatında heç bir dil dəyişməsi baş verməmişdir, azəri dili yerli türk dili olaraq ən qədimdən Azərbaycan türklərinin doğma ümumünsiyyət dili olmuşdur. Tarixi faktların müqayisəli təhlili göstərir ki, Azərbaycan xalqının etnik tarixi bilərəkdən, qəsdən saxtalaşdırılır. Rus imperiyasının geopolitik siyasətinə xidmət etməsi və etnik proseslərə təsir imkanı yaratmaq məqsədilə subyektiv konsepsiyalarla yazılır və şüurlara yeridilirdi.

Tarix elmi Rus imperiyasının başlıca assimilyasiya silahı olduğu kimi, həm də əsarət altına alınmış xalqların başlıca milli müqavimət silahı idi. Moskva əsarət altına alınmış xalqlara nə qədər tarixi konsepsiya istehsal etsə də, onlar qısaömürlü olurdu. Rus imperiyasında və xaricdə aşkarlanan və nəşr olunan mənbə və arxiv materialları, yeni tədqiqatlar dil tarixi ilə bağlı araşdırmalar xalqların etnogenezi və etnik tarixi haqqında Moskvanın uydurduğu konsepsiyalara şübhə yaradır və ona öldürücü zərbə vururdu.

Sovet mətbuata nəzarət idarəsi imperiyanın Oktyabr çevrilişindən sonrakı tarixinin standart konsepsiyada aparılmasına nəzarət edə bilsə də, ondan əvvəlki dövrün tarixini standart qəlibə sala bilmirdi. Çünki əvvəlcədən, nəyin qadağan olunmasını, nəyin nəşr olunmasına icazə verilməsini müəyyən etmək mümkün deyildi. Imperiyanın ideoloq tarixçiləri dil tarixinə hökm edə bilmirdilər. Onlar epiqrafik abidələri müvəqqəti uydursalar da, qısa müddətdə ölkə və dünya dilçiləri qarşısında məğlub olurdular. Sovet tarixşünaslığı və dilçiliyində ardıcıl gedən bu proses Azərbaycanı da əhatə etmişdi.

"Azərbaycan tarixi"nin 1961-ci il akademik nəşrində "etnogenez" terminindən bircə dəfə də olsun istifadə olunmaması imperiyanın planlı məqsədi idi. Çünki, termin icti-

mai şüurda problemlə bağlı ardıcıl reaksiya doğuracaqdı. Azərbaycan tarixşünaslığında etnogenez terminindən ilk dəfə 1960-cı ildə R. Qasımova Mingəçevir qazıntıları zamanı aşkar olunan insan qalıqlarının tədqiqi zamanı, istifadə etmişdir. Onun bundan sonrakı məqalə və kitablarında etnogenez problemindən bəhs olunsa da, aztirajlı idi və xüsusi mütəxəssis qrupu üçün nəşr olunduğundan geniş oxucu kütləsini əhatə etmir və ictimai fikirdə kütləviləşə bilmirdi.

"Azərbaycan tarixi"nin I cildinin akademik nəşrindən bir neçə il sonra, 1965-ci ildə akademik Z. Bünyadovun nəşr olunan "Azərbaycan VII-IX əsrlərdə" (rusca) monoqrafiyası Azərbaycan türklərinin tarixinə elmi, obyektiv baxışın bərpa olunmasında inqilabi hadisə oldu. Əsərdə Azərbaycan xalqının etnogenezinə xüsusi paraqraf ayrılmış, Azərbaycan xalqının alban etnik birliyinə daxil olan "türk aborigenləri" ilə digər türk qəbilə və tayfalarının etnokonsolidasiyası prosesində formalaşması, yaranması antropoloji, arxeoloji, etnoqrafik materiallar və yazılı mənbələr əsasında sübut edilirdi. Problem birmənalı, qəti, "Azərbaycan – qədimdən türklərin yaşadığı ölkədir" – kimi cavabını tapdı (105, 162-174). Z.Bünyadovun bu elmi müddəası Azərbaycan Sovet Ensiklodediyasının 1970-ci ildə nəşr olunan I cildində dilçilərdən Ə. Dəmirçizadə və tarixçi Y.Yusifov tərəfindən daha ətraflı əsaslandırıldı və inkişaf etdirildi (229, 111-135, 176-178).

İkinci dünya müharibəsinə qədər sovet imperiyasında Sovet İttifaqı qəhrəmanları güllələnsə də, müharibədən sonra belə hadisə baş verməmişdi. Odur ki, Z.Bünyadov ciddi təqib olundu, əsəri müsadirə edilib məhv edildi. AKP MK-nın 1971-ci il oktyabr plenumunun qərarı ilə ASE-nin I cildi məhv edildi, Baş redaktoru R.Rza vəzifəsindən azad edilib, təqiblərə məruz qaldı. AKP MK-nın 1971-ci il oktyabr plenumu türk etnonimi və milli adət-ənənədən bəhs edilməsini

"millətçilik", "milli məhdudluq" adlandırıb "millətçiliyin və milli məhdudluğun hər hansı təzahürünə qarşı hücumçu mübarizə aparılmasını" bir vəzifə olaraq irəli sürdü. Yaradıcılığında millilik duyulan bir qrup yazıçı, şair, musiqiçi, tarixçi, alim, jurnalist təqiblərə məruz qaldı (230). Milli tarixin obyektiv yazılması istiqamətindəki bu ilk təşəbbüslər məhv edildi. Z.Bünyadovun adıçəkilən əsəri yalnız 1989-cu ildə Azərbaycan türkcəsinə çevrilib nəşr oluna bildi. Qazax şairi və siyasi xadimi O. Süleymanovun 1975-ci ildə nəşr olunan "Az-Ya" əsəri türk xalqlarının tarixinə qarşı kommunist Rus imperiyasının monopoliyasına, təxribatlarına ağır zərbə vurdu. Elə bu illərdə Çinin SSRİ-yə ərazi iddiaları Rus imperiyasını türkoloji tədqiqatları məhdudlaşdırmaq, türk tarixinə hind-avropa calağı vurmaq siyasətində güzəştə getməyə məcbur etdi. 1972-ci ildə "Sovetskaə törkoloqiə» jurnalının türk ocağı Bakıda nəşrə başlaması bu sahədə geniş elmi polemikaya meydan verdi. Kommunist qəddarlığı ilə pozulmuş milli türk şüurunun bərpası və yenidən canlanmasına, türk xalqlarının etnogenezi və etnik tarixi haqqında tarixi qaynaqların, obyektiv bilgilərin aşkarlanmasına imkan yaratdı.

Ə.Dəmirçizadənin "Azəri ədəbi dili tarixi" (B., 1967), "Azərbaycan ədəbi dilinin tarixi" (I cild, B., 1979) adlı dərsliklərində Azərbaycan türkcəsinin aborigen türk qəbilə və tayfalarının dili ilə sakların dilinin konsolidasiyasından yarandığı elmi dəlillərlə əsaslandırılırdı. XX əsrin 70-ci illərində elmdə ilk sözlərini deyən Tofiq Hacıyevin "Azərbaycan ədəbi dil tarixi" (B., 1976) Azərbaycanda türk ruhunun canlandırılmasında əhəmiyyətli rol oynadı. Bu illərdə milli ruhun canlanması bədii ədəbiyyatda, incəsənətdə, jurnalistikada da hiss olunurdu. Artıq bu dövrdə zəif də olsa, Azərbaycan sovet tarixçiləri arasında milli tarixçilər nəsili yetişməkdə idi. Azərbaycan tarixçilərinin bu nəsilə AMEA-nın

müxbir üzvü Mahmud İsmayılov rəhbərlik edirdi. 1984-cü ilin aprel ayında onun rəhbərliyi ilə Tarix İnstitutunda "Azərbaycan xalqının etnogenezi haqqında" elmi seminar keçirildi. Tarixçilərdən S.Əliyarov, K.Əliyev, antropoloq R.Qasımova, etnoqraf Q.Qeybullayev və arxeoloq R.Göyüşovun Azərbaycan xalqının etnogenezi haqqında məruzələri dinlənildi. R.Qasımovanın məruzəsi istisna olmaqla, digər məruzələrin elmi-nəzəri səviyyəsinin aşağı olması diqqəti dərhal cəlb etdi. Məruzələrin zəif olması obyektiv və təbii idi. Z. Bünyadovun yuxarıda bəhs olunan əsərindəki bir paraqraf istisna olmaqla, Azərbaycan tarixşünaslığında etnogenez anlayışı altında bir dənə də olsun xüsusi tədqiqat aparılmamış, bir dənə də olsun məqalə yazılmamışdı.

Beləliklə, etnogenez problemi 1984-cü ildə milli qüvvələrin səyi nəticəsində Azərbaycan tarixşünaslığının tədqiqat obyektinə çevirildi. Bu zaman Kremlin yerli canişini, Tarix İnstitutunun direktoru İ. Əliyev Moskva mətbuatında çıxış edərək, milli tarixçiləri "pantürkist", "mürtəce burjua millətçi cərəyan tərəfdarları" və s. 1937-ci il möhürləri ilə damğaladı və böhtanladı. İ. Əliyev guya yuxarıda haqqında bəhs olunan "Azərbaycan tarixi"nin I cildinin konsepsiyasını yaradanlardan biri idi. Yaradıcılığı ilə tanışlıqdan aydın olur ki, əslində onun heç bir konsepsiyası olmamışdır. O, yaradıcılığa başlayanda Midiya dilini türk sistemli dil hesab etmiş, sonra bu fikirindən imtina etmişdir. Əvvəllər irandilli tayfaların Azərbaycana Orta Asiyadan gəlməsi fikirini təbliğ etmiş, sonradan bu fikirindən əl çəkib, irandilli tayfaların Azərbaycana Rusiya düzənliyindən gəldiyini yazmışdır. Son əsərlərində bu fikirlərdən də üz döndərib, alban dilinin Qafqaz mənşəli olması, xüsusən Qarabağın yerli əhalisinin qafqazdilli udinlər olması ideyasını canfəşanlıqla təbliğ etməkd idi. Halbuki "... Kür-Araz çaylararası ərazidə bircə dənə də olsa Qafqaz dilləri və o cümlədən udin dili vasitəsilə

izah oluna bilən qədim toponim yoxdur". Onun Azərbaycan xalqının mənşəyi haqqında yazdıqları "praşeklərin, xuzinqlərin, hersfeldlərin, şvarsların, qrantovskilərin, novoseltseklərin, şanidzelərin, yeremyanların və başqalarının təkrarından başqa bir şey deyildir" (231, 12; 230). İ. Əliyevin böhtan kampaniyası sovet şər maşınını təkrar işə sala bilmədi. 1985-ci ildə sovet imperiyası rəhbərliyinin yeni siyasi xətti sovet tarixşünaslığının süni konsepsiyalarını zorakı müdafiədən imtina etdi. Tarixi həqiqətlərin deyilməsinə zaman yol açdı. Elə bu vaxtdan Azərbaycan tarixşünaslığında iki cərəyanın açıq mübarizəsi başladı. Birinci cərəyan sovet imperiyası zamanı yaranmış tarixi konsepsiyaları müdafiə edənlərdən ibarətdir və onun lideri İ. Əliyev idi. İkinci cərəyan isə milli vətənpərvər qüvvələr idi, bu cərəyanın lideri isə M. İsmayılov idi. Onun dünyasını dəyişməsindən sonra bu cərəyana Q. Qeybullayev liderlik etdi.

Bu dövrdə Azərbaycan xalqının etnogenez probleminin elmi müzakirələri milli tarixi yaddaşı bərpa etməklə istiqlal ideologiyasını canlandırır, milli mənlik şüuru, qürur və ləyaqət hissi doğurmaqla problemin müzakirəsinə çoxlu sayda ziyalı və gəncləri cəlb edirdi. Problemə aid yeni-yeni əsərlər yazılırdı. Azərbaycan xalqının etnogenez probleminin elmi ideologiya olaraq hazırlanmasında M. İsmayılov, Q.Qeybullayev, R.Qasımova, T.Hacıyev, Y.Yusifov, S. Əliyarov, M. Seyidov, F.Zeynalov, A. Məmmədov, V. Aslanov, E.Əlibəyzadə, Q. Voroşil, F. Cəlilov, Ə. Haqverdiyev, gənc alim və aspirantlardan Ə.Tahirzadə, A. Rəhimov, R. Əhmədov, A.Balayev, İ.Qəmbər, X. Xəlilli, Ə. Əsgər, M. Kazımoğlu, S.Kərimov, A.Acalov və b., jurnalistlərdən Ə.Fərzəli və başqalarının xüsusi əməyi olmuşdur. Azərbaycanda kiçik bir vətənpərvər qrupu beynəlxalq imperializmin dəstəyi ilə başlamış yeni erməni təcavüzünü dəf etmək üçün tarixə üz tutmuş, milli kimlik şüuru, zamanın ondan üz

döndərdiyi, dövranın amansızlıq göstərdiyi, başçıların, liderlərin xəyanət etdiyi, satıldığı məqamlarda nə etmək, necə hərəkət etmək lazım gəldiyini öyrənməyə çalışırdı. Düşmən təcavüzü o qədər sürətli və amansız oldu ki, bu kiçik qrup axtarışını davam etdirməyə imkan, vaxt tapmadı.

Ermənilər İrəvan, Göycə, Zəngibasar, Zəngəzur və s. bölgələrdən – Azərbaycan türklərinin tarixi vətənlərindən qovulmasını başa çatdırıb Dağlıq Qarabağı Azərbaycan türklərindən təmizləməyə başlamış, onun digər ərazilərinə hücuma keçmişdilər. Varisi olduğu mənəvi-mədəni dəyərlərdən, milli xarakterdən, adət-ənənədən, tarixi yaddaşdan məhrum olmuş Azərbaycan xalqı, "Azərbaycan tarixçiləri", kommunistlərin vətənindən qovduğu, rus filosofu A. F. Losevin dediyi kimi, "kor siçan"a bənzəyirdi (11, 242). Milli varisliyin, ənənələrin pozulmasının doğuracağı təhlükə haqqında böyük alman mütəfəkkiri K. Yaspers yazırdı: **"Tarixöncəsi oluşmanın nəticələri bioloji cəhətdən irs alınan, deməli, tarixin bütün fəlakətlərində tab gətirə biləndir. Tarixi əxzetmələrsə sıx şəkildə ənənə ilə bağlıdırlar, onlar ötürülür və buna görə itirilə bilər. Dünyada insan quruculuğunun yüksəlişlərində bərqərar olan, sonrasa sonrakı nəsillərə ötürülmə yolu ilə insan fenomenini formalaşdıran və dəyişən şey bu ötürülmə ilə o qədər bağlıdır ki, bu ötürülmə bioloji olaraq baş verdiyindən, onsuz tamamilə yox ola bilər və onda yalnız insanın konstruktiv xassələri qalar"** (157, 76-77).

Həmin günlərdə Azərbaycan xalqının köməyinə, canlı qüvvə kimi, Azərbaycan sovet etnoqrafiyasının xalqın dərkinə, hətta eşitməsinə imkan vermədiyi "ikinci təbiət" – tarixi milli mədəniyyət gələ bilərdi. Bu mədəniyyət 1918-1920-ci illərdə Azərbaycan burjuaziyasının, ziyalısının, hərbçisinin, bütövlükdə xalqının zəkası, vətənpərvərlik hissləri, duyğular aləmi əsasında yaranıb, formalaşıb, həm erməni təcavüzünü, həm də beynəlxalq imperializmin, Azərbaycanı

100 il əsarətdə saxlamış Rus imperiyasının təcavüzünü dəf edib Şərq Müsəlman dünyasında ilk demokratik respublikası qurmuşdu. Yeni erməni təcavüzünə məruz qalmış milli kimlik şüurundan, varisi olduğu mədəniyyətdən məhrum edilmiş azərbaycanlılar bu irsə nifrət edirdilər. Tarix isə bu yeni azərbaycanlılarına yaşamaq üçün yeganə çıxış yolu qoymuşdur. Geri qayıdıb varisi olduğu mədəniyyətə, mənəviyyata qovuşmaq. Bu günlərdə AXC-nin xalqın üzünə bağlanmış arxivlərində işləmiş, xalqda bu irsə nifrət aşıladığı üçün akademik, tarix elmləri doktoru, professor, əməkdar elm xadimi kimi elmi dərəcə və fəxri ad almış "tarixçi alimlər" tutuquşucasına xalqı narahat olmamağa çağırır, Sov. İKP-nin lazımi tədbir görəcəyini bildirirdilər. Kütlə halına salınmış, qorxu və vahiməyə salınmış xalqın bu alimlərə "utanın, xəcalət çəkin, bizi bu qədər aldatdınız" deməyə şüuru çatmırdı.

Bu günlərdə ABŞ-da ermənilərin təşkil etdiyi bir "elmi konfransda" milliyyətcə polyak olan Tadeuş Svyatoxovski adlı alimin "Rusiya Azərbaycanı 1905-1920-ci illərdə" adlı əsəri və ermənilərə cavab verməsi haqqında məlumat Azərbaycana gəlib çatdı. Ədəbiyyatçılar bu əsərdən parçaları Azərbaycan dilinə tərcümə edib nəşr etməyə başladılar. Beləliklə, tarixi-milli mədəniyyətə doğru ilk cığır açıldı. Təktək fərdlər istisna olmaqla hələ Azərbaycan sovet tarixçilərinin vicdanı oyanmırdı. Zaman göstərir ki, sönmüş, itirilmiş vicdanın yenidən oyanması, tapılması çətin mümkün olur, bir çox hallarda mümkün olmur.

Böyük fransız mütəfəkkiri Qustav le Bonun təxminən bir əsr öncə dediyi "Yalnız çoxsaylı misallarla sübut edəndə ideyaların yaranma, hökmranlıq, əhəmiyyətini itirmə, habelə kökündən dəyişmə və yoxa çıxma tarixi inandırıcı şərh edə bilər. Əgər biz təfərrüatlara vara bilsəydik, sübut edə bilərdik ki, sivilizasiyanın hər elementi – fəlsəfə, din, incəsə-

nət, ədəbiyyat və s. olduqca yavaş inkişaf edən azsaylı rəhbər ideyaya tabedir. Elmlərin özü belə bu qanunlardan yan keçmir" (24, 116). Sözlər sanki birbaşa XX əsr Azərbaycan xalqı və onun "tarix elmi" haqqında deyilmişdir.

Hələ 1987-ci ildə Moskvada nəşr olunan "Sovet dövlət və hüququnun əsasları" dərsliyində Xankəndi (Stepanakert) Ermənistan şəhəri kimi göstərilir və tədris olunurdu. Azərbaycanın ali siyasi rəhbərliyi – Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və Azərbaycanın siyasi tarix müəssisələri, Azərbaycan Ali Partiya məktəbi, Azərbaycan SSR EA Tarix İnstitutu, Ali məktəblərin Azərbaycan tarixi, Sovet İttifaqı Kommunist Partiyası tarixi və digər tarix kafedraları, bütövlükdə ictimai elm müəssisələri Moskvanın, Sov. İKP MK-nın "bu yanlışlığı" aradan qaldıracağını Azərbaycanın kütlə halına salınmış əhalisinə inandırmağa çalışırdı. Lakin Azərbaycan siyasi rəhbərliyinin və tarixçilərinin Azərbaycan xalqını inandırmasının əksinə olaraq, 1988-ci ildən Moskva "Sovet dövlət və hüququnun əsasları" kitabında yazılanı silahlı üsulla sübut etməyə başladı. Böyük qardaş rus xalqının əsgərlərinin himayəsi ilə erməni silahlıları İrəvan, Göycə, Zəngəzur ərazilərinin türk-müsəlman əhalisini deportasiya edib Dağlıq Qarabağın türk-müsəlman əhslisini deportasiya etməyə başladı. 70 il uşaq bağçasından aspiranturayadək bütün tərbiyə və təhsil müəssisələrində azərbaycanlıların şüuruna yeridilən "böyük rus xalqı"nın xilaskar missiyası üzə çıxmadı, 15 respublikanın qardaş xalqından bu təcavüzün qarşısını almaq üçün heç bir yardımçı reaksiya olmadı. Əksinə, Rusiyada və digər xristian respublikalarda işğala məruz qalan Azərbaycan xalqının əleyhinə, işğalçı olmaları haqqında məqalə, kitablar nəşr olunur, radio və televiziya verilişləri, rəsmi dövlət xəbərləri verilirdi. Azərbaycan Sovet tarixşünaslığı Azərbaycan xalqını aldadıb elə bir uçurumun üstünə çıxarmışdı ki, geriyə yol yox

idi. İrəli getmək üçün milli yaddaşda ona yardımçı olacaq, yol göstərəcək bir fikir və ya ideya belə yox idi. Azərbaycan Sovet tarixşünaslığının "Milli ölüm elmi" olması artıq heç kəsdə şübhə doğurmurdu. Azərbaycan Sovet tarixşünaslığı Azərbaycan xalqının yaddaşında hər şeyi tərsinə yerləşdirmişdi. Vətənin müstəqilliyi, milli dövlətçiliyi uğrunda mübarizləri, şəhidləri millət və vətən xainləri, vətənin işğalına bələdçilik etmiş mili satqınlar və yaltaqlar milli qəhrəman kimi yaddaşlara yeridilmişdi. Azərbaycanı parçalamış, ərazilərinə sahib kimi tarixi əsərlər uydurmuş erməni, gürcü və digər xalqlar qardaş, ərazi bütövlüyünə, dövlət müstəqilliyinə yardımçı olmuş türk və müsəlmanlar işğalçı, talançı və düşmən kimi yaddaşına yeridilmişdi.

Milli ideologiya və ideyalardan, adət-ənənədən, arzu və istəkdən, ideal və inamdan, iradədən məhrum edilib 70 il kommunizm quruculuğu istədiyi qədər yeyib-içəcəyi, K.Marksın sözləri ilə desək "göy noxud tapmış öküz kimi" yaşamaq arzusu ilə neft mədənlərində, pambıq tarlalarında, Sibir şaxtalarında öküz kimi işlədilib, fiziki və mənəvi cəhətdən tükənmiş Azərbaycan əhalisinin həyat yolu gəlib uçurumun üstünə çıxmışdı. Geriyə yol yox idi. İrəliyə getmək üçün yol seçməyə tarixi bilgi, yaddaş imkan vermirdi. Rus əsgəri ilə birləşmiş erməni silahlılarının təcavüzünün davam etdiyi, gücləndiyi şəraitdə Azərbaycan "tarixçi"lərinin Moskvaya, rus xalqına sədaqətli olması tövsiyəsi hələ də davam edirdi. Bu fakt Azərbaycan tarixçisinin şüur səviyyəsinin kütlədən aşağı olduğunu, təbliğ etdikləri ideyalarının elə birinci onların özlərini mənəvi öldürdüyünü, özləri ilə bərabər Azərbaycan tarix elmini "milli ölüm elmi"nə çevirdiklərini göstərir.

Olumla ölüm arasında qalmış Azərbaycan əhalisi milli tarixdən, mədəniyyətdən, mənəviyyatdan kənarda həyat yolu olmadığını dərk edir, üzləşdiyi uçurumu keçmək üçün öz

tarixinə baş vurur, onu mənimsəyirdi. Tarixçilərə qarşı yaranmış etimadsızlıq və inamsızlıqdan jurnalistlər, riyaziyyatçılar, fiziklər, kimyaçılar, mühəndislər və b. ixtisas sahibləri vətəni və xalqı məhv olmaqdan xilas etmək üçün milli tarixi yazmaqla milli dəyərlərin bərpasına yardımçı olurdu, vətənin xilasına xidmət edirdilər.

Tarixçi meyidlərin – sovet tarixçilərinin milli ruhunu, milli mənliyini öldürə bilmədiyi çox az tarixçi xalqının milli qəhrəmanlıq tarixindən xəbər verən əsərləri ilə onu mənən qidalandırıb, millətləşdirib, milli mənlik şüuru ilə bərabər tarixi milli şərəfi, qüruru, ləyaqəti, inamı, etiqadı, əxlaqı, adət-ənənəni bərpa edirdi. Sanki bu mənəvi dəyərlərin bərpa olunması ilə Azərbaycan xalqının yolunun üstündən uçurumlar, sədlər öz-özünə çəkilir, dəf olunurdu. Beləliklə, xalq millət kimi mövcud olmağın, vətəni qorumağın tarix elmindən, tarixi-milli mənəvi dəyərlərdən, yaddaşdan kənarda mümkünsüzlüyünü dərk edirdi.

V fəsil.

AZƏRBAYCANDA ETNOLOGİYA ELMİNİN MİLLİ ÖLÜM ELMİNƏ ÇEVRİLMƏSİ

Yuxarıda Azərbaycan xalqının etnoloji fikir tarixi və etnologiya elminin yaranması və inkişaf tarixi haqqında verilmiş məlumatların oxucularda müəyyən təsəvvür yaradacağını düşünürük. Həmçinin yuxarıda 1920-ci il Kommunist Rus işğalından sonra vətənimizdə tarix elmimizin - mülki, siyasi və s. tariximizin elmi səviyyəsini itirib, süni, saxta, uydurma bir ideoloji sistemin oyuncağına çevrilməklə xalqımızın milli-mənəvi inkişaf prosesində varislik əlaqəsini qırma alətinə çevrildiyinin şahidi olduq.

Indi isə Sovet hakimiyyəti illərində Azərbaycanda etnologiya elminin vəziyyətinə nəzər salaq.

Azərbaycan Sovet tarixşünaslığında Azərbaycan xalqının varisi olduğu milli-mənəvi dəyərlərdən ayrılmasında, mənəviyyatda varisliyin pozulması, qırılması istiqamətində fəaliyyətdə etnoqrafiya heç də mülki və siyasi tarixdən az iş görməmişdi. Baxmayaraq ki, bu dövrdə dünyanın qabaqcıl ölkələrində etnologiya (etnoqrafiya) XX əsrin fəlsəfəsi hesab olunurdu. İnsan, bütövlükdə onun mənəvi dünyası, həyat tərzi, milli psixologiya, adət-ənənə və s. bütövlükdə xalqların yaradıcı mahiyyətini öyrənən, milli inkişafları istiqamətləndirən, xalqları idarə vasitəsinə çevirən elmə çevrilmişdi. **Bu dövrdə Kommunist Rus imperiyasında etnoqrafiyaya nəzarət tarix elminin digər sahələri ilə müqayisədə daha güclü idi. Onun elmi müddəaları əsasında hazırlanmış mənəvi- ideoloji tədbirlər əsarət altına alınmış xalqları idarə etmək, mənəvi sistemini pozub, ruslaşdırmaq üçün gizli və açıq üsullarla**

həyata keçirilirdi. Odur ki, belə bir dövrdə Azərbaycan etnoqrafiyasından Azərbaycan xalqı üçün parlaq bir iş gözləməyi tələb etmək doğru olmazdı. Lakin çörəyini yediyin, damarında qanı axan xalqının mənəvi dəyərlərini qorumaq üçün heç nə etməmək xəyanətdən başqa bir şey deyildir.

Dünya etnologiyasının ən qabaqcıl, yüksək səviyyəsi hesab oluna biləcək Ş.C.Əfqani, Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə və b. klassiklərimizin qadağan olunmuş yaradıcılıqları istisna olunarsa, N.Tusi, A.A.Bakıxanov, M.F.Axundov yaradıcılığını Sovet qadağalarına qarşı bəlgəyə çevirməklə xalqının mənəvi dünyasını yaradan, yaşadan və məhv edən inam, etiqad, əxlaq, adət-ənənə, milli psixologiya, milli həyat tərzi, davranış stereotipi, mənlik şüuru və s. mənəvi dəyərlərin missiya və funksiyasını xalqa obyektiv çatdırmaq, bununla da vicdanlı bir iş görmək olardı. Təəssüf ki, Azərbaycan Sovet etnoqrafiyası milləti yaradan, ona yaradıcılıq ruhu verən bu dəyərlərə keçmişin qalığı kimi birmənalı mübarizə aparır, onun mənəvi dünyasını dağıdacaq, mənəvi varisliyi qıracaq səviyyədə təbliğati iş görürdü. Görkəmli psixoloq Əkbər Bayramovun sözləri ilə desək, xalqın adi bir "iş adamı" (istehsalçı fəhlə, muzdur – X.X.) – qara camaatdan ibarət olmasını "əsaslandırmağa" çalışdı. Yuxarıda xalqımızın keçmişinə etdiyimiz ekskurs vətənimizdə tarixin, etnologiyanın, rasional təfəkkürün, bütövlükdə elmin qədim tarixə malik olduğunu göstərir. Sovet etnoqrafları H.Quliyev, T.Bünyadov, H.Həvilovun Azərbaycanda etnoqrafiya elminin 1920-ci il 27 aprel işğalı ilə başlaması haqqında əsərləri xalqımızın tarix, etnologiya elmi, bütövlükdə təfəkkür tarixini saxtalaşdırmaqdan başqa bir şey deyildir (55, 5-22; 56; 66, 5-17).

H.Quliyevin "Azərbaycan etnoqrafiyası 40 ildə" (56) adlı məqaləsində ancaq təsərrüfat məişəti və maddi mədəniyyətdən bəhs edir. Mənəvi mədəniyyət, sosial məişət haqqında

R.Babayevanın toy adəti haqqında kitabının nəşr olunması və Bakı və Abşeron zonasından folklor materialı toplaması haqqında məlumat verir (56, 169). T.Bünyadov "Azərbaycanda etnoqrafiya elminin inkişafı" adlı məqaləsində məqalənin başlığının altına mötərizə içərisində "təsərrüfat məişəti" sözləri əlavə olunmuşdu (66). Bundan belə nəticə çıxır ki, guya Sovet hakimiyyəti illərində Azərbaycan xalqının mənəvi mədəniyyəti də tədqiq olunmuşdur, tədqiqatçı bu məqalədə ancaq təsərrüfat məişətindən bəhs etmişdir.

Azərbaycanda Sovet etnoqrafiya elminin inkişaf tarixi haqqında namizədlik dissertasiyasının müəllifi B. Əliyev yazır: "XX əsrin ikinci yarısında, etnoqrafiya elmində mənəvi mədəniyyət məsələsi müəyyən qədər öyrənilmişdir", "etnoqrafiya elmində nisbətən az tədqiq edilmiş sahə mənəvi mədəniyyətdir" (75, 13) fikirləri ilə razılaşmaq olmur, sovet hakimiyyəti illərində Azərbaycan xalqının mənəvi mədəniyyəti xüsusi tədqiqata cəlb olunmamışdır. Oyun və əyləncələr istisna olmaqla mənəvi mədəniyyətin etnoqrafik cəhətdən bəhs olunan bütün məsələləri əks təbliğat xarakterində olub, keçmişin zərərli qalığı kimi izah olunmuşdur. H.Həvilovun Bakı Dövlət Universiteti tərəfindən dərs vəsaiti kimi nəşr olunan "Azərbaycan etnoqrafiyası" (B., 1991) kitabında Azərbaycan etnoqrafiya elminin inkişafından bəhs olunan girişdən və "Mənəvi mədəniyyət" adlanan IX fəsil deməyə əsas verir ki, o, etnoqrafiya elminin nəzəriyyəsini bilməmiş, mənəvi mədəniyyət anlayışını anlamaqdan çox uzaq olmuşdur. Onun da **"Azərbaycan etnoqrafiyası" (B., 1991) dərs vəsaitində Azərbaycan xalqı "iş adamı"ndan başqa bir şey deyildir.**

Sovet adamını, xüsusən yeni nəsli "iş adamı" kimi tərbiyə etmək, bu ideya ilə qidalandırmaq Sovet etnoqrafiyasının, bütövlükdə ictimai elmlərin metod və ideologiyası idi. Lakin Sovet imperiyasında heç bir xalqın etnoqrafları bu ideologi-

yaya Azərbaycan etnoqrafları qədər sədaqətli olmamışdır. Bu ideyanın mənbəyi marksizmin maddinin birinci olması, əmək nəzəriyyəsindən, "biz müəyyən mənada deməliyik: insanın özünü əməmk yaratmışdır" (42, 74) müddəasından doğmuşdur. Biz yuxarıda marksizmin əmək nəzəriyyəsində başla (beyinlə) əlin funksiyasının, yerini dəyişməsi haqqında bəhs etmişiK.Marksizmin əməyi məqsədyönlü fəaliyyət, şüurlu surətdə qarşıya müəyyən məqsəd qoymaqla həyata keçirilən fəaliyyət müddəası da əmək nəzəriyyəsi ilə tam ziddiyyət təşkil edir.

Dünya fəlsəfəsinin elmi müddəaları, müşahidə və mülahizələrimiz, həyat təcrübəmiz deməyə əsas verir ki, şüur, planlaşdırıcı nəzəri təfəkkür olan yerdə əmək olur, yaranır, amma şüurun məhsulu kimi yaranır.

İnsan şüuru özünün müəyyən mərhələsində təbiətin sirlərini dərk edib, onun müəyyən hadisələrini uzlaşdırmaqla yeni nəticələr alacağını fəhm edərək müstəqil yaradıcılıq qabiliyyəti göstərir. Bu mənada latınca əkinçiliyin – torpağı qazmağın (çevirməyin), tumu torpaqda müəyyən dərinlikdə basdırmağın, onu suvarmağın, bitən bitkilərə qulluq etməyin, məhsul verənə qədər qorumağın, kulturanın ikinci təbiət adlandırılması düzgün hesab olunmalıdır.

Təsadüfi deyil ki, hələ qədim dövrlərdən filosoflar bütün Varlığı – kainatı yaradanı Mütləq ruh – Allah – təbiət adlandırmışlar. Nəhayət, obyektiv varlıqdan ayrılıb, şüuru ilə obyektiv varlıq materiallarından müxtəlif cür, fərqli məqsədlə istifadə edilən əşyalar istehsal edən təfəkkür qabiliyyəti, təbiətlə özləri arasında münasibət quran, nəhayət toplum üzvləri arasında münasibətləri tənzimləyən norma və qaydalar, topluma məxsus müxtəlif məzmunlu və formalı mənəvi münasibətləri – varlığı – ikinci təbiət – kultura (mədəniyyət) adlandırmışlar. Keçmiş postsovet məkanı istisna olmaqla, bütün dünya xalqları mənəvi mədəniyyəti ikinci təbiət, ya-

radıcı qüvvə, ruh hesab edirlər. Insanların yaratdığı bütün əşya və predmetlərin obyektiv varlıqla eyniləşdirilməsinin heç bir elmi əsası, məntiqi yoxdur. İnsanların yaratdığı əşya və predmetlər mənəvi mədəniyyətin maddiləşməsindən başqa bir şey deyildir. Marksizmin insanın yaratdığı əşyaları obyektiv varlıqla eyniləşdirməsi, ələ məxsus yaradıcılıq məhsulu kimi izah edilməsi proletariatı, kütlə şüurunu qidalandırmaq üçün uydurulan süni qida idi.

"Maddi mədəniyyət" anlayışı XIX əsrdə Avropada meydana çıxmış, marksizmin təsiri altında Almaniya və Rusiyada bir qədər möhkəmlənə bilmişdi. XX əsrin əvvəllərində Amerika etnoloqu F. Qrebner tərəfindən inkişaf etdirilməyə təşəbbüs göstərilsə də, tezliklə bütün dünya etnologiyası, fəlsəfəsi və elmi "maddi mədəniyyət" anlayışından imtina etdi. Tarixi, milli problemləri "maddi mədəniyyət" anlayışı ilə izah edən yeganə ölkə Kommunist Rus imperiyası idi. Təsadüfi deyil ki, V.İ.Leninin 18 aprel 1918-ci ildə imzaladığı dekretə əsasən, Xalq Komissarları Soveti (1926-cı ildən Dövlət) Maddi Mədəniyyət Akademiyası yaratdı, bu müəssisə 1937-ci ildə Maddi Mədəniyyət Tarixi İnstitutu adı ilə SSRİ EA-ya birləşdirildi, nəhayət, 1959-cu ildə SSRİ EA Arxeologiya İnstitutu adlandırıldı (182, 5-14; 29, 149-153).

Beləliklə, biz Sovet etnoqrafiyası və onun Azərbaycan bölməsindən danışanda etnologiya terminindən istifadə etməyəcəyik. Ona görə ki, yuxarıda bəhs etdiyimiz kimi, Rusiyada etnoqrafiya Oktyabr çevrilişinə qədər etnologiya səviyyəsinə yüksəlməmişdi, kommunist rejimi dövründə - 60-cı illərin sonunda bu sahədə nəzəri əsərlər yazılsa da, onlar obyektiv elmi nəzəriyyələr deyildi, xalqların obyektiv etnososial prosesini, etnik durumunu ifadə etmirdi. Yəni əsarət altına alınmış xalqların etnik bütövlüklərini parçalamaq üçün süni uydurmalar idi; Azərbaycanda isə etnoqrafik tədqiqatlara bütün kommunist rejimi dövründə nəzəriyyə tət-

biq olunmadı, tədqiqata cəlb olunmuş təsərrüfat məişəti, maddiləşmiş mədəniyyət – yəni maddi istehsal prosesi, "iş adamı"nın fəaliyyəti təsvir olundu. Yuxarıda bəhs etdiyimiz kimi, belə bir tədqiqat üsulu, ən mükəmməl halda belə emprik səviyyəni aşa bilmir. Emprik səviyyədə bilik isə ancaq hadisələrin zahiri tərəfini ifadə edir, onun mahiyyətini ifadə edə bilmir. Bəla burasındadır ki, Azərbaycan Sovet etnoqrafiyasının bütün tədqiqatları bir neçə tədqiqatçının işi - M.Nəsirlinin, Q.Cavadovun, A.Mustafayevin, T.Kərimovun, Ş.Quliyevin, T.Babayev, S.Ağamalıyevanın, Q.Rəcəblinin əsərləri istisna olmaqla, ya çox sönük, ya da bilərəkdən təhriflərdən ibarət olurdu. Etnosla bağlı nəzəri yaradıcılığa meyilli yeganə tədqiqatçı E. Kərimov idi.

Azərbaycanda Sovet etnoqrafiya elminin tarixindən bəhs edən H. Quliyevin "Azərbaycan etnoqrafiyası 40 ildə" adlı məqaləsində 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə etnoqrafiya elminin inkişafı üçün geniş inkişaf yolu açılması, orqanı jurnallar nəşr olunması fakta və elmə əsaslanmayan saxtakarlıqdan başqa bir şey deyildir (56, 166). Maraqlıdır, T.Bünyadov Azərbaycanda Sovet etnoqrafiya elminin yaranması haqqında məqaləsində H.Quliyevin və H.Həvilovun "Azərbaycan etnoqrafik cəhətdən planlı surətdə öyrənilməsi işinə yalnız Sovet hakimiyyəti illərində başlamışdır" (66, 7), kimi "sakitcə" yazmalarına rəğmən, Sovet imperiyasının ölümü ərəfəsi, onun lap canüstə, canı xırıldaya-xırıldaya ağzından çıxdığı günlərdə, yaralarının irini-çirki sel kimi axıb Azərbaycanı basdığı günlərdə pafosla, ilhamla yazırdı: "1920-ci il aprel ayının 27-dən 28-nə keçən gecə başda böyük rus xalqı olmaqla və başqa qardaş xalqların köməyi ilə Azərbaycanda Sovet hakimiyyəti qələbə çaldı. Bu böyük qələbədən sonra Azərbaycan xalqının arzusu kama yetdi, xoş güzəran başladı. Bu qələbə qurub-yaratmaq əzmilə çalışan zəhmətkeş xalqın iq-

tisadi, sosial və mədəni həyatında əsaslı dönüş yaratdı. Qələbə qələbəyə qovuşdu" (64, 32). Onun sözlərinə görə, bu yaradıcılıq işlərinin biri də Azərbaycan Sovet etnoqrafiyasının yaranması idi. H.Həvilov isə Azərbaycanın BMT-də müstəqilliyinin tanındığı günlərdə, BDU-nun tarix fakultəsinin "elmi şurası"nın dərs vəsaiti kimi təsdiq etdiyi "Azərbaycan etnoqrafiyası"(B., 1991) kitabında yazır: "Sovet hakimiyyətinin qələbəsi Azərbaycan xalqının təsərrüfat həyatının dirçəlməsinə, maddi və mənəvi mədəniyyətinin, ailənikah münasibətlərinin inkişafına böyük bir inqilabi təkan vermiş oldu. Yeni təşəkkül tapmağa başlayan digər elm sahələri kimi, etnoqrafiya da Sovet hakimiyyətinin ilk illərindən başlayaraq həqiqətən nəzəri və təcrübi bir elm sahəsinə çevrildi" (55, 12). "Milli" Azərbaycan Sovet etnoqraflarının alqışladığı 27 aprel 1920-ci il XI Qırmızı ordunun qələbəsi ilə Azərbaycanda başlanan etnososial, ideoloji-mənəvi, iqtisadi-siyasi prosesə kiçicik bir ekskurs edək.

1920-ci il 27 aprel gecəsi XI Qırmızı ordu Azərbaycan sərhədini yarıb, Samur sərhəd körpüsü, Yalama stansiyası və Xırdalandakı azsaylı Azərbaycan qoşunlarının müqavimətini qıraraq, 28 Apreldə sübh tezdən Bakı şəhərinə daxil oldu. Evindən işə gedən, müxtəlif məqsədlərlə həyətə, küçəyə çıxan hər kəs şəhər küçələrində zənginlərin evinə soxulub onu qarət edən, müxtəlif həyətlərə soxulan, qadınların boynundan, qulağından, barmağından qızıl bəzəklərini soyan silahlı rus əsgərləri ilə üzləşdi. Elə bu gün rus qoşunlarının qarət etdiyi binalardan biri, müstəqilliyin, AXC-nin şərəfinə xalqın könüllü hədiyyələri ilə təşkil olunmuş İstiqlal muzeyi idi.

Bakıdan Azərbaycanın müxtəlif istiqamətlərində hərəkət edən Qırmızı ordu 28 iyulda Naxçıvanı tutmaqla Azərbaycanın işğalını başa çatdırdı. İşğal prosesində XI Qırmızı orduya qarşı ən ciddi müqavimət Gəncə və Qarabağda idi.

28 May İstiqlal günü ərəfəsi itirilmiş istiqlalın mənəvi-psixoloji ruhu Gəncədə Azərbaycan zabit və əsgərlərini döyüşə səfərbər etdi. Azərbaycan əsgərləri XI Qırmızı orduya qarşı döyüşə hazırlaşmağa başladılar. Bundan duyuq düşən Qırmızı ordu Gəncədə Azərbaycan diviziyası əsgərləri üzərinə hücuma keçdilər. Hücumu dəf edən Azərbaycan əsgərləri əks hücumla şəhərin müsəlmanlar yaşayan hissəsindəki XI Qırmızı ordu hissələrini tərksilah edib 600 nəfərlik şəxsi heyətini əsir götürdülər. General Cavad Şıxlinski, Məhəmməd Mirzə Qacar, Teymur bəy Novruzov və başqa zabitlərin təşkilatçılığı ilə döyüşən qüvvənin sayı 10 min nəfərə çatdırıldı. Ümumiyyətlə, döyüşçülərlə əsgərlərin birgə sayı 12 minə çatdırıldığı göstərilir (176, 39).

Azərbaycan milli ordusu və üsyançılar 8000-13000 nəfər şəhid verdilər. Üsyan yatırıldıqdan sonra Qırmızı ordu tərəfindən 12 general, 27 polkovnik və ya polkovnik-leytenant, 46 kapitan, 146 praporşik, 266 başqa işçilər qətlə yetirildi (176, 41).

Hələ may ayının 11-də Qarabağda işğalçı Qırmızı ordu ilə Azərbaycan milli ordusu arasında lokal döyüşlər oldu. Qarabağdan Gəncə üsyanına yardıma gələn Ehsan xan Naxçıvanski və onu müşayiət edən alayın bir neçə zabiti yolda tutulub güllələndikdən sonra 28 nəfər əsgər, 4 zabit sona qədər döyüşmək üçün Qarabağa döndülər. Onların qəhrəmanlığı xalq arasında "32-lərin dastanı" kimi xatırlanır. Onlar Bərdədə 1200-1500 nəfərlik partizanlarla birləşdilər. Gəncə ücyanı yatırılapkən polkovnik C.Kazımbəyovun üsyançılarının müəyyən hissəsi (təxminən 2000 nəfər) Qarabağa gələn Nuru Paşanın hərbi birləşmələrinə qoşulmuşdu. Qarabağda ilk kəskin hərbi döyüş 3-cü süvari Şəki alayı ilə Qırmızı ordunun 282-ci alayı arasında olmuşdu. Şəki süvariləri onlara qəfildən xəyanətkarcasına atəş açan bu alayı bütünlüklə məhv etmişdi. Qırmızı ordunun Bərdəyə tərəf

irəliləyən 1-ci süvari alayı Azərbaycan milli ordusunun Tatar süvari alayı ilə qarşılaşdı. Üç gün Qırmızı ordu ilə amansız döyüşdükdən sonra mühasirəyə düşmək təhlükəsi yarandıqda geri çəkilməyə məcbur oldular. Qırmızı ordu bütün cəbhələrdə Qarabağ döyüşçü və partizanlarına aviasiya ilə zərbə endirməyə başladı. Qüvvələr nisbəti işğalçı Qırmızı ordunun xeyrinə dəyişdi, Tərtər və Bərdəni tutan XI Qırmızı ordu iyunun 15-də Şuşanı tutdu. Qarabağa toplanmış, milli ordu və üsyançılar çoxsaylı şəhid verdilər, cəmi 1200 əsgər və zabit döyüşə-döyüşə Cənubi Azərbaycana keçə bildi (171; 176, 42-46). Qarabağda, eyni vaxtda Zaqatalada üsyan başladı, onun ardınca Lənkəranda Qırmızı orduya qarşı üsyan başladı. Hər iki üsyan sonsuz qəddarlıq, amansızlıq, qorxu və vahimə yaradacaq üsulla yatırıldı. 1920-ci ilin Aprelin 27-dən 1921-ci ilin avqustuna qədər Azərbaycanda 48 min adam qırmızı terrorun qurbanı oldu (171; 176, 32).

Azərbaycanda hakimiyyət orqanı kimi yaradılan İnqilab Komitəsi, Fövqəladə Komissiya (ÇK), XI Ordunun Xüsusi şöbəsi şəhər və kəndləri talayır, kəndlinin son toyuğunu, qoşqu heyvanını da əlindən alırdı. Birinci növbədə, marksizmin sinfi mübarizə nəzəriyyəsinə uyğun olaraq, kəndliləri, fəhlələri mülkədar, bəy, xan ailələri üzərinə qaldırıb, yüksək silki və ziyalıları onların əli ilə məhv etməyə çalışdılar. Bu baş tutmadıqda Qırmızı ordu işğal etdiyi ərazilərdə milli hökumətin yerli orqanlarının rəhbərlərinin, bəy, xan, mülkədarların siyahılarını əldə edib onları kütləvi güllələyir, ailə üzvlərini, qadınları da həbs edir, kəndlərdə qorxu-vahimə yaradırdılar. **Qırmızı ordu hissələrinin daxil olduğu kəndlərdə varlıların zəbt olunmuş evlərində xalılar döşənmiş zalda musiqi məclisləri qurulur, sərxoş zabitlər qadınlarla əxlaqsızlıq edir, əsgərlər qapı-pəncərələrdən onlara boylanırdılar.**

Azərbaycan İnqilab Komitəsinə Ağabacı Şəmsi qızının yazdığı ərizədə deyilirdi ki, Fövqəladə Komissiya mənim evimi axtarıb, bütün qiymətli əşyalarımı, qızıl qol saatımı və hətta bir neçə qab pudramı müsadirə etdilər. Buzovna kənd sakini Z.Babayeva N.Nərimanova yazırdı ki, su mühərriklərimizi müsadirə ediblər, başqasını ala bilmirəm, uşaqlarımı dolandıra bilmirəm, xahiş edirəm mənim su mühərrikimi qaytarın. Ərzaq Komitəsi tərəfindən əhalidən müsadirə edilmiş mal-qara elə camaatın gözü qarşısında baxımsızlıqdan qırılıb məhv olurdu. Kəndlilər göz yaşı tökərək soruşurdular ki, deyirdiniz torpaq kəndlilərindir, bəs hanı o?

Kəndlilər talanır, toyuq yumurtaları da əllərindən alınırdı. Kəndlinin 5 yumurtadan artıq saxlamağa hüququ yox idi. Özbaşınalıq o həddə çatmışdı ki, kəndlilərdən arvad da tələb edirlər. Cana doymuş kəndlilər açıq bildirirlər ki, siz ruslar bizi qarət etmək üçün gəlmisiniz. XI Ordunun Xüsusi şöbəsi adamları güllələyir və camaatın gözü qarşısında üstünə neft töküb yandırırdı.

Xalqın birliyini pozmaq üçün əhali arasına süni münaqişələr salınır, ədavət, keçmişdə nəsillər arasında baş vermiş qan davası gizli üsullarla yenidən bərpa edilir, bu üsullarla əhalini bir-birinə qırdırırlar. Savadsız, nadan gənc və yeniyetmələrdən yaradılan komsomol dəstələri, muzdurlardan yaradılmış casus şəbəkəsi və hakimiyyət orqanları vasitəsilə ağsaqqalları, din xadimlərini təhqir edir, məscidlərə it bağlanır, sökülüb dağıdılır, küçələrdə qadınların çadrası başından zorla açılır, kişilərin başlarına qoyduqları namus simvolu olan papaqlar təhqir olunurdu. İslam dininin orucluq, məhərrəmlik kimi mərasimləri zorla qadağan olunur, bəşəriliyi bütün dünya alimləri tərəfindən təsdiqlənən milli Novruz bayramı qadağan olunmuşdu. Mənəviyyatda, iqtisadi-sosial həyatda, hər şey baş-ayaq qoyulmuş, heysiyyatı və ləyaqət hissi olan insanlar stressdən məhv olurdular. Vətənlərindən baş götürüb get-

məyə məcbur olurdular. Təəssüf ki, kommunizm işinə qarşı mübarizədə güllələnən və sürgün olunanların sayı qeydə alınmış, ancaq mənəvi stressdən məhv olanların sayı haqqında heç bir məlumat verilməmişdi (175; 176; 181; 138; 144; 145; 146; 150; 153).

XX əsrin 20-30-cu illərini müstəqillik illərində tədqiq etmiş F.İbrahimlinin "Azərbaycan kəndində sosial-siyasi proseslər" (1920-1930) " (B., 1996) adlı kitabı bu dövrün həqiqətlərini ifadə etmək baxımından yeni olmaqla bərabər, yalnız etnososial-siyasi, ideoloji-mənəvi mahiyyəti ifadə etməyib, hazırda mexaniki hadisələr yığını kimi mövcud olan Azərbaycan tarixşünaslığının elmi tarixə çevrilməsində örnək ola bilər.

Hörmətli oxucu, F.İbrahimlinin əsəri olmamış inqilab haqqında, inqilabın nəzəriyyəsi və praktikası, xalqın işğal olunmasını özü arzu etməsi, işğalın xalqa yaradıcılıq imkanı yaratması, fiziki və mənəvi məhvolma səviyyəsinə çatmanı "kama yetmə" kimi şərh etməklə tariximizi 180 dərəcə başayaq qoyduğuna görə tarix elmləri doktoru, akademik, əməkdar elm xadimi, dövlət mükafatı laureatı mükafatları almış proletar və muzdur alimlərinin əsərlərinin biblioqrafiyası ilə tanış olmaq üçün də dəyərlidir.

1920-ci il 27 aprel işğalı ilə Azərbaycanda başlanan etnososial-siyasi, mənəvi-ideoloji prosesin akademik Z.Bünyadovun "Qırmızı terror" (B., 1993) əsərində təsviri də tədqiqatımız üçün çox qiymətlidir. Odur ki, onun əsərində 1920-ci il 27 aprellə başlanan etnososial-ideoloji prosesin ümumiləşməsini yetərincə əks etdirən girişini kitabımıza daxil edirik.

Akademik Z. Bünyadov yazır: "Oxucum! İndiyədək buna oxşar kitab görüb oxumamısan. Burada ölkədə hökm sürmüş diktator rejiminin bilərəkdən məhv etdiyi həmvətənlərimizin kədərli bioqrafiyaları toplanmışdır. Sən, günahsız

güllələnmiş, Sibirə və müxtəlif həbs düşərgələrinə göndərilmiş yurddaşlarımızın həyatlarının son günlərini və saatlarını ancaq fikrən təsəvvürə gətirə bilərsən.

"Sosializm" illərində saysız-hesabsız azərbaycanlıların həyatlarını buğda dəni kimi üyütmüş dövlət cəza dəyirmanının necə işlədiyini isə ancaq həmin dövrün dəhşətlərini görüb, acısını çəkmiş nənə və babalarımız xatırlaya bilərlər. Təəccüblü deyil ki, 1920-ci il aprelin 27-də Azərbaycan Demokratik Respublikasının əvəzinə hökumət başına gələn Sovet hakimiyyəti Leninin "Yaşasın müstəqil Azərbaycan!" teleqramına əsasən Demokratik hökumət tərəfindən əsası qoyulmuş Azərbaycan xalqının tərəqqisinə və çiçəklənməsinə kömək vəd etdiyi halda, hökmranlığının elə ikinci günündən – 1920-ci il aprelin 29-dan Azərbaycanın çiçəklənməsi naminə işləyə biləcək kəslərin hamısını aradan götürmək xəttini həyata keçirməyə başladı.

Sözün hərfi mənasında XI Qızıl Ordunun İnqilabi Hərbi Şurası və Azərbaycanın yeni Sovet hökuməti öz fəaliyyətinin ikinci günündən "Müsavat" və "İttihad" partiyalarının rəhbərləri, sovet hakimiyyətilə əməkdaşlıq ruhunda bu partiyaların sonradan da fəaliyyət göstərəcəkləri barədə rəsmi müqavilə bağladı. Lakin bu müqavilələr tezliklə Azərbaycan xalqının qəddar düşməni Pankratovun rəhbərlik etdiyi XI Ordunun Xüsusi Şöbəsi tərəfindən pozuldu. Bu xüsusi şöbə, onun ardınca isə ÇEKA kütləvi həbslər aparmağa başladı, Lenin və Trotski tərəfindən yaradılan həbs düşərgələri az vaxtda Azərbaycan ziyalı nümayəndələri hesabına doldurudu. Bu, qanunsuz cəza tədbirlərinə məruz qalan həmvətənlərimizin birinci axını idi.

Repressiyanın ikinci, daha güclü dalğası isə 20-ci illərə düşür və bu dalğa minlərlə azərbaycanlı kəndlisinin həyatını aparmışdır.

Məlumdur ki, bolşeviklər Oktyabr silahlı üsyanını qardaş

qırğınına qoşulan kəndli kütləsi sayəsində həyata keçirə bilmişdilər. Çünki onlar kəndlilərə torpaq vəd etmişdilər. Buna görə də əvvəlcə torpağı kəndlilərə payladılar. Sonra isə onları tezliklə cürbəcür vergi və ərzaq sapalağı ilə boğmağa başladılar. Kəndlilərin müqaviməti əvvəlcə çoxlu kəndli ailələrinin antisovet elementlər kimi Sibirə və Uzaq Şimala – orada hamısı əlbəttə ki, məhv oldular – sürgün etməklə qırılırdı. Sonradan 20-ci illərin sonları, 30-cu illərin əvvəllərində bədnam "kollektivləşmə" və ortabab kəndlilərin bir sinif kimi (qolçomaq adı ilə) ləğv edilməsinə başlandı. Sovet cəza orqanları tərəfindən onların bütün mülkiyyətinin əlindən alınması, daha doğrusu mülkiyyətlərinin həyasızcasına mənimsənilməsi kəndlilərin kütləvi çıxışlarına səbəb oldu. Kənd sakinlərinin öz hüquqları uğrunda bu çıxışları siyasi orqanlar tərəfindən banditizm adlandırıldı və nəticədə orqanlar bu narazılıq və çıxışları silahla yatırmağa başladılar, özü də ən müasir silah və hərbi texnika tətbiq etməklə. Orqanların yaratdığı fövqəladə Üçlüklər Naxçıvan, Qarabağ, Şəki, Zaqatala, Quba, Lənkəran, Abşeron və başqa yerlərin minlərlə sakinini güllələnməyə məhkum edir, sürgünə göndərirdilər. Üçlüklər isə əsasən ermənilərdən ibarət idi.

Azərbaycan xalqının həqiqi faciəsi isə 1936-cı ildən başlandı. Xalq əleyhinə, xüsusilə ziyalılar əleyhinə cəza tədbirləri 1937-1938-ci illərdə daha da amansızlaşdı, hakimiyyətdə oturmuş dövlət quldur dəstəsi görünməmiş vəhşiliklə Sumbatovun, Borşovun, Gerasimovun, Sinmanın, Şerin, Qriqoryanın, Markaryanın, Qalstyanın, Ohanesyanın, Avanesyanın və onların Atakişiyev kimi nökərlərinin və qeyrilərinin əlilə təxminən 70-80 min Azərbaycan ziyalı nümayəndəsi – alim, yazıçı, artist, müəllim, gənc, din xadimi, Sovet və partiya idarəsi əməkdaşı, hərbçi – bir sözlə bütün düşünən beyinlər, qeyriadi təfəkkür sahibləri bir ucdan məhv edildilər. Tək bircə xa-

rici dil bilən şəxsləri də qırırdılar. Ölüm və cəza maşını dayanacaqsız və fasiləsiz işləyirdi. Hər bir "xalq düşməni"nə "məhkəmə" zamanı ancaq 15 dəqiqə vaxt ayrılırdı. (Tək-tək hallarda 20 dəq.). İndi qoy oxucu özü 1936-1937-ci illərdə bir saatda nə qədər adamın güllələnməyə məhkum edildiyini, nə qədər zəka sahiblərinin – azərbaycanlıların güllələndiyini özü hesablasın. Bir gündə 24 saat (96 nəfər), ayda 30 gün (2880 nəfər), 2 il yarımda isə 80 mindən çox. Bakıda bütün bu quldur tribunal iclaslarını Vışinskinin müavini, bəşər övladının qatili Matuleviç öz əlaltıları Zaryanov və Jiqurla birgə aparırdı. Biz ancaq Bakıdan danışırıq! Kim deyə bilər ki, Azərbaycanın kənd rayonlarında bu fövqəladə Üçlüklərin Xüsusi iclaslarının qərarları ilə neçə min günahsız məhv edilmişdir? Xüsusi düşərgələrə sürgün edilmiş "xalq düşmən"lərinin ailə üzvlərinin təxmini sayını kim deyə bilər?

Oxucum, lakin unutma ki, xalqımıza qarşı repressiya 40-50-ci illərdə də davam etmişdir. Bizim Sovet Azərbaycanına başçılıq edənlər tərəfindən neçə yüz min şəxsin həyatının məhv edildiyini hesablamaq çətin və bəlkə də qeyri-mümkündür. **İbrətamizdir ki, öz həmvətənlərimizə qarşı "qırmızı terroru" düşünüb həyata keçirənlərin özləri də cilovsuz qan çanağının qurbanları oldular.** Çünki külək yaradanlar mütləq tufana düşməli idilər. Qoy bu kitabda cəlladların əli ilə qətlə yetirilmiş qohumlarının adlarını tapa bilməyənlər məni bağışlasınlar, axı, hamı haqqında danışmaq mümkün deyil. Onların hamısını bununla təskinlik tapmağa çağırıram ki, əzizlərinin taleyi də burada adı çəkilənlərinkinə oxşar olmuşdur. Dərd bir də ondadır ki, günahsız qurbanların bu gün yaşayan övladları öz ata-babalarının cənazələrinin harada torpağa gömüldüyünü bilmirlər. Allah onların hamısına rəhmət eləsin!" (187, 3-5).

Akademik Z.Bünyadovun təsvir etdiyi bu Qırmızı terroru, akademik T.Bünyadov xalqın "arzusunu kama yetirən", "xoş

güzəranın başlanğıcı", "qurub-yaratmaq əzmi" verən dövr kimi şərh edir (64, 32). Təxminən eyni günlərdə, eyni familiyalı, bir millətə mənsub iki akademikin dünyagörüşündəki bu qədər fərqi yaradan səbəbləri müəyyənləşdirməyi oxucunun ixtiyarına buraxıram.

Xalqın intellektual səviyyəsini, əxlaqi nümunəsini verən təbəqənin fiziki məhv edilməsi xalqın tarixi yaddaşdan məhrum edilməsi, varisi olduğu mənəvi irsdən təcrid edilməsi ilə paralel həyata keçirilirdi.

Milli varlığın bütövlüyünü təmin edən, ona inkişaf dinamikası verən ideoloji-mənəvi, iqtisadi-siyasi, etnososial strukturları, mənəvi tənzimləyici dəyərlər olan inam və etiqadı, milli və dini əxlaq normalarını, davranış stereotiplərini, adət-ənənəni ardıcıl olaraq kompleks məhv edən Kommunist Rus imperiyası paralel olaraq tarixi yaddaşdan və milli qürurun mənbələrindən məhrum etmə tədbirlərini həyata keçirirdi. Bunlardan biri ərəb qrafikasından latın qrafikasına keçmə oldu. İlkin olaraq 1924-cü ildə tədricən ərəb qrafikasından latın qrafikasına keçilməsinə başlandı. 21 iyul 1928-ci ildə 1929-cu ilin yanvarın 1-dən bütünlüklə latın qrafikasına keçilməsinə qəti qərar verildi və həyata keçirildi (188, 73-85).

Latın əlifbası ilə tədris üçün müxtəlif dərs vəsaiti və dərsliklərin yaradılması hələ tam başa çatmamışdı ki, 11 iyul 1939-cu ildə 1 yanvar 1940-cı ildə latın əlifbasından rus-kiril əlifbasına keçilməsinə qərar verildi (188, 87-88). Bununla da Azərbaycan xalqının tarixi-mədəni irsi, Azərbaycanda uzun əsrlər ərzində ərəb əlifbası ilə yazılan bütün tarixi, hüquqi, fəlsəfi və s. əsərlərdən istifadə yeni nəslin üzünə bağlandı. Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər təkcə Bakıda ərəb əlifbası ilə 160-dan artıq qəzet və jurnal nəşr edilir, elmin, mədəniyyətin, incəsənətin, texnikanın və s. bütün sahələri üzrə kitablar çap olunurdu. Əlifbanın məcburi dəy-

işdirilməsinə qarşı çıxanların hamısı burjua millətçiləri kimi fiziki cəhətdən məhv edilmişdilər. Ərəb əlifbasından latın əlifbasına keçilməsini şərti olaraq mütərəqqi hadisə hesab etmək mümkün olsa da, adamların yenicə öyrənməyə başladığı latın əlifbası da 10 ildən sonra dildəki bütün səs qammalarını ifadə etmək üçün hərfi işarələrin kifayət etmədiyi "kirillitsa" (rus əlifbası) ilə əvəz olundu. Beləliklə də, Azərbaycan xalqının ictimai və intellektual şüuruna iki dəfə öldürücü zərbə vuruldu. O, çox kobud şəkildə özünün milli tarixindən, mədəniyyətindən və tarixi keçmişindən uzaqlaşdırıldı (173). Bütün bu prosesdə Azərbaycan türkcəsi dövlət idarələrindən sıxışdırılıb çıxarılmışdı.

Zadəganı, ziyalısı, xan zümrəsi, bəyləri, milli şüurun bütün fəal daşıyıcıları, hətta artistləri belə, fiziki cəhətdən məhv edildikdən sonra, 1936-cı ildə artıq tam, bütünlüklə kütlə vəziyyətinə gətirilmiş xalqın (əgər belə demək mümkündürsə - X.X.) mənəvi varlığına heç bir etina etmədən onun adının dəyişdirilməsi xalqın mənən öldürülməsi idi. Belə ki, 1936-cı ildə Kommunist Rus imperiyası tərəfindən Azərbaycan türklərinin adının dilə gətirilməsi qadağan edilib, onlar "azərbaycanlı", dili "türk dili"nin adı dəyişdirilib "Azərbaycan dili" adı verildi. Beləliklə, türk milli şüurunun, simvollarının məfhum və anlayışlarının, birinci, ilkin təməli milli şüurun elementlərinin yaradıcı strukturunu özündə birləşdirən etnonimin qadağan edilməsi ilə 1920-ci il 27 apreldən başlayan milli-mənəvi məhvetmə tədbirləri bütün sahədə keçmişlə tarixi - mədəni – mənəvi varisliyi qırdı. Milli adət-ənənəyə, bütövlükdə mənəvi-mədəni dəyərlərə qarşı keçmişin qalığı kimi mübarizə daha da gücləndirildi. "Xalqı keçmişin zərərli qalıqlarından xilas etmək" və "sosializm ideyalarını" təbliğ etmək tarixçi və etnoqrafların birinci dərəcəli vəzifəsinə çevrilmişdi. Dinə, milli geyimlərə, xalq musiqisinə, hətta tara və milli bayramlara qarşı müharibə elan

olunmuşdu. Hətta müasir Avropa geyimlərinə də "burjua" damğası vurulmuşdu (68; 69; 181; 189). "Azərbaycan sovet tarixçisi"nin vəzifəsi bütün bu tədbirlərin mütləqliyini alqışlamaq, onu şüurlara yeritmək idi.

Azərbaycan şəhərlərində hakimiyyət orqanları fəhlələrin, başlıca olaraq rus və ermənilərdən, onlara uyğunlaşan müsəlman fəhlələrdən, kənd rayonlarında heç bir yaradıcılıq qabiliyyəti göstərə bilmədiyindən ancaq günəmuzd fəaliyyətlə yaşayan, milli-mənəvi, şəxsi simasını itirmiş muzdurlardan, əsasən bu muzdurların və milli şüurdan məhrum, yaradıcılıq imkanı olmayan tapşırıqların mexaniki icraçıları gənclərdən təşkil olunmuş komsomolçulardan, heç bir inam və etiqada qail olmayan "Allahsızlar cəmiyyəti"nin üzvlərindən ibarət yerli dövlət və siyasi hakimiyyət orqanları yaratdılar (68; 173; 181; 186; 187). Təsadüfi deyil ki, Orconikidze deyirdi: "Kəndlilər burada (Azərbaycanda – X.X.) çox kütdür... bu bizim xoşbəxtliyimizdir. Kim necə istəyir, elə də başa düşsün" (186, 85). Bütün bunlar marksizm bayrağı altında həyata keçirilən "mənəvi genosid" idi (186, 111). Azərbaycan xalqının fiziki və mənəvi cəhətdən məhv edildiyi bir dövrdə, burada birbaşa imperiyanın göstərişi və rəhbərliyi ilə tarix elmi onun xüsusi sahəsi etnoqrafiya elminin yaradılması cəfəngiyyat, proletar və muzdur təfəkküründün illüziyasından başqa bir şey deyildi.

Azərbaycan Sovet etnoqrafiya elminin yaranması haqqında "milli" Azərbaycan "alimlərinin" iqtibas etdiyimiz fikirləri ilə Rusiyada marksist etnoqrafiya elminin formalaşması haqqında yuxarıda göstərdiyimiz fikirləri müqayisə edəndə işğalçı rusların atasına rəhmət oxumalı olursan. Yuxarıda bəhs etdiyimiz kimi, 1918-1929-cu illərdə bolşeviklər etnoqrafiya elmini hələ tam nəzarətə götürməmişdilər. Yalnız 1929-cu ildə bolşeviklər anladı ki, Rus imperiyasında mövcud olan sərbəst etnoqrafiya, onun verdiyi məlumatlar,

çıxardığı nəticələr kommunist ideologiyasının ziddinədir. Beləliklə, etnoqrafik müəssisələrin və tədqiqatçıların fəaliyyəti müzakirə olundu, bu dövrdə yazılmış əsərlər qadağan olundu, rus alimlərinin bir hissəsi mühacirətə imkan tapdı, bir hissəsi həbs olundu. Bu dövrdə Leninqradda aspirantura-da oxuyan Q.Qaraqaşlı da 1929-cu ildə həbs olunanlar arasında idi (29, 114-123).

Maraqlıdır, Azərbaycan Sovet mülki və siyasi tarixşünaslığında sosializm quruculuğu zamanı – kollektivləşmə və "mədəni inqilab" prosesində əyintilərə yol verildiyindən cüzi də olsa bəhs olunduğu halda Azərbaycan Sovet etnoqrafiyasında bu məsələyə bircə kəlmə də olsun belə toxunulmamışdır.

Məsələn, 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə Azərbaycan xalqının iqtisadi mədəni cəhətdən yaradıcılıq yolu tutmaqla, geniş şəkildə etnoqrafik cəhətdən öyrənildiyini, Bakıda muzey yaradıldığını yazan Həsən Quliyev ancaq Azərbaycan Cumhuriyyəti qurulan kimi Azərbaycan aristokratiyasının könüllü olaraq bağışladığı milli mədəniyyəti təmsil edən, milli ruhu oyadan və yaradıcılıq hissi doğuran, xalqın, gələcək nəsillərin estetik tərbiyəsində əhəmiyyətli yer tutacaq əşyalardan ibarət yaradılmış "İstiqlal muzeyi"nin 1920-ci il 27 aprel işğalının elə birinci günü talanıb yox edilməsi haqqında dolayı üsulla da olsa bəhs etmir.

1923-cü ildə Azərbaycan Arxeoloji Komitəsinin və Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyətinin yaradılması zahirən müsbət hadisə kimi görünürdü. V.V.Bartold, N.Y.Marr, İ.İ.Meşşaninov və b. yaradıcı, nüfuzlu alimlərin bu cəmiyyətlərə daxil olması bu görüntünü bir qədər də canlandırırdı.

Lakin bu cəmiyyətlər xoş məramla təşkil olunmamış, göstərilən həqiqi zəka sahibi alimlər də bu təşkilatlara xoş

niyyətlə daxil edilməmişdilər. Bu cəmiyyətlər və ona daxil olan görkəmli alimlər Azərbaycan xalqının tarixindən gələn ruhunu, mövcud ideoloji sistemini, yəni inam və etiqadını, adət-ənənəsini, milli xarakterini, davranış stereotipini, istək və arzularını, bu milli mədəniyyətin təməl prinsiplərini öyrənərək, siyasi cəhətdən fəth edilmiş xalqı mənəvi üsullarla mənən məğlub etməyin qayda və vasitələrini müəyyənləşdirməli idilər. Məhz elə onların kəşf etdiyi Azərbaycan xalqının milli psixologiyasına uyğun 30-cu illərdə xalqın silahlı müqavimətini rus qoşununa itki vermədən qırmaq, məğlub etmək üçün, əhalini tərksilah etmək məqsədilə kommunust əməliyyat rəhbərliyi kənd ağsaqqalları qarşısında Qurana əl basıb zəmanət verərək, ağsaqqallarla qapı-qapı gəzib əhalidə olan silahı yığırdılar. Silahı verməyənlər məhkəməyə çəkildiyi kimi, verənlər də sonra qaçaq və partizanlarla, üsyançılarla əlaqədə ittiham edilib güllələnir və ya həbs edilirdilər (176, 53).

Əli bəy Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə və b. etnoloq ideoloqlar vətəndə olduğu şəraitdə V.V.Bartold, N.Y.Marr, İ.İ.Meşşaniniv və b. göstərilən niyyətlə Azərbaycana gəlməyə cəsarət edə bilməzdilər. 1920-ci il 27 aprel işğalının elə ilk günlərindən ələ keçən, tanınan Azərbaycan ziyalıları bolşevik-daşnak rəhbərliyi tərəfindən güllələnib məhv edildilər, imkan tapan ziyalılar xaricə mühacirət etməyə məcbur oldular. Azərbaycan sovet etnoqrafları milli tərbiyənin nümunəsini verən ziyalı nəslinin bu dövrdə yoxa çıxma səbəbi haqqında bir kəlmə də olsun bəhs etmirlər.

Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyəti 1929-cu ilə qədər fəaliyyət göstərdi. Onun orqanı "Xəbərlər"in 8 sayı nəşr olundu. Rus alimləri ilə bərabər Ə.Ələkbərov, Q.Qaraqaşlı, M.Quliyev, İ.Çobanzadə, M.H.Vəlili (Baharlı) Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyətinin üzvləri idilər. Bu cəmiyyə-

tin ən məşhur üzvləri və elmə yenicə gəlmiş gənc azərbaycanlı etnoqrafların Azərbaycanın ayrı-ayrı etnoqrafik və etnik qruplarının məişət və mədəniyyəti haqqında Tədqiq və Tətəbbö cəmiyyətinin orqanı "Xəbərlər"də və başqa məcmuələrdə çöl etnoqrafik materialları və mənbələrə istinad edən məqalələri nəşr olundu (183).

Tədqiq və Tətəbbö cəmiyyətinin gənc azərbaycanlı üzvlərinin əsərləri istisna edilərsə, V. V. Bartold, N. Y. Marr, İ. İ. Meşşaninov, Q.F.Çursinin və b. əsərlərini Əhməd Ağaoğlunun bu dövrdə yazmış olduğu "Üç mədəniyyət" əsəri ilə müqayisə etsək, onların əsərlərinin elmi-nəzəri cəhətdən Ə.Ağaoğlunun əsərindən çox zəif olması, ümumiyyətlə etnoqrafiyanın bir çox sahələrinə bələd olmadıqları aydın görünər (162; 183; 184).

1920-ci il 27 aprel işğalı ilə başlayan milli-mənəvi repressiya, milli-mədəni varisliyi məhv etmə eyni ilə milli-elmi tarixşünaslıqda varisliyi məhv etməyə də aiddir. Son nəsil Sovet etnoqraflarının Rus Kommunist rejiminin ilk illərində - 20-30-cu illərdə etnoqrafiya ilə məşğul olmuş Ə.Ələkbərovu, M. Vəlilini (Baharlı), M. Quliyevi Azərbaycanın ilk və sovet etnoqrafı hesab edirlər. Bu fikirin heç bir elmi və faktiki əsası yoxdur. Çünki onlar Azərbaycanın ilk etnoqrafı olmadıqları kimi, sovet etnoqrafı da deyillər. Onlar məhz sovet etnoqrafına çevrilə blmədikləri üçün sürgündə və həbsxanada məhv edildilər.

Azərbaycan Sovet etnoqraflarının haqqında ilk Azərbaycan Sovet etnoqrafı kimi bəhs etdikləri M.Quliyevin yaradıcılığı çox da geniş deyil. Onun 1927-ci ildə Qazax rayonu köçmə maldarlarının müvəqqəti yaylaq və qışlaq binaları haqqında bir, 1928-ci ildə din haqqında iki məqaləsi çap olunmuşdur (ola bilsin ki, başqa məqalələri də var). Qazax rayon maldarlarının müvəqqəti yaylaq və qışlaq binaları haqqında yazdığı məqalə müfəssəl bir təsvirdən ibarətdir.

1928-ci ildə latın və ərəb qrafikası ilə çap olunan din haqqında məqalələri bolşevik qaragüruhundan çox uzaq olub, dini pərdəyə bürünmüş xurafat anlaşıqlı bir dil və təfəkkürlə tənqid olunmuşdur. Məqalələrindən göründüyü kimi, nəzəri təfəkkür sahibi, istedadlı şəxsiyyət olmuş, milli ləyaqətdən imtina etməmiş, qarın fəlsəfəsi ilə yaşayıb xalqının mədəniyyətini sifarişlə baş-ayaq qoymamışdır. Görünür, davranış stereotipində millilik qabarıq göründüyündən komsomolçu və muzdurlar tərəfindən çuğullanmış, repressiyaya məruz qalmışdı. Məqalələri Azərbaycan Sovet etnoqrafiyasında akademik, elmlər doktoru, professor elmi rütbəsi qazanmış alimlərin əsərləri ilə müqayisədə qat-qat yüksəkdə dayandığı üçün etnoqraf hesab oluna bilər. Ancaq sovet dövründə yaşasa da, sovet etnoqrafı hesab edilə bilməz, çünki nə kommunist ideologiyasını qəbul etməmiş, nə də xalqının mədəniyyətini baş-ayaq qoyub alim rütbəsi qazanmamışdı. O, tarixi-milli mədəniyyətin varisi olan bir etnoqraf olaraq Azərbaycan etnoloji fikir tarixində şərəflə yaşayacaq, çünki onun buna mənəvi haqqı var.

Sistemli yaradıcılığı ilə Azərbaycan etnoqrafiya elmində mərhələ təşkil edən alimlərdən biri M. Vəlilidir (Baharlı). O, yüksək səviyyəli zadəgan ailəsində dünyaya gəlmiş, milli tərbiyə almış, təbiətlə cəmiyyətin vəhdətinin dərkinə yaxşı imkan verən Kiyev Dövlət Universitetinin iqtisadi-coğrafiya fakultəsini bitirmişdi. Azərbaycan etnoqrafiya elminin tarixindən məqalə yazan H.Quliyev M.Vəlilidən bəhs etməmişdir. T.Bünyadov onun "Azərbaycan" əsərini "Sovet hakimiyyətinin qurulmasının ilk illərində yazılan əsər", H.Həvilov isə "sovet hakimiyyətinin ilk illərində nəşr olunan əsər" adlandırmışdır. Hər ikisi bu əsəri sovet hakimiyyətinin ilk illərində Azərbaycanda mövcud olmuş əsərlər arasında "xüsusi yer tutduğunu" yazmışdır (66, 8; 55, 15). Lakin bu xüsusiliyin nədən ibarət olduğundan bəhs etmə-

mişlər. M. Vəlili (Baharlı) 1924-1925-ci illərdə nəşr olunan "Azərbaycanın əhalisi" əsəri ilə tanışlıq göstərir ki, bu əsər onun "Azərbaycan" kitabındakı "etnoqrafiya" bölməsinin təkmilləşmiş variantıdır. "Azərbaycan" əsərində marksist materialist nəzəriyyənin təsiri qətiyyən duyulmur. Əsərin planı, hadisələrin düzümü və şərhi bütünlüklə idealist metoda əsaslanmışdır. M.Vəlili (Baharlı) "Azərbaycan" əsərini 24-25 yaşlarında yazmışdır. Bu yaşda etnologiya iqtisadiyyat və coğrafiya elmlərinin kəsişməsində, dövlət siyasətini istiqamətləndirəcək yüksək elmi səviyyədə əsər yazmaq tarixdə az adama nəsib olmuşdur.

Əsər AXC-nin sifarişi ilə yazılmışdı. Həmin dövrdə dövlətin istifadəsində Azərbaycanın təbii-coğrafi şəraitini, əhalisinin etnik tərkibini, etnososial inkişafın istiqamətini, iqtisadiyyatı (təsərrüfat, sənaye, nəqliyyat, maliyyə, təbii sərvətlər və s) haqqında ümumiləşmiş istiqamətverici bir sənəd, əsər yox idi. M. Vəlili (Baharlı) istedadının, vətənpərvərliyinin, yaradıcılıq ehtirasının təsiri altında xalqının milli dövlət quruculuğu işlərini istiqamətləndirmək üçün "Azərbaycan – coğrafi – təbii etnoqrafik və iqtisadi mülahizat" adlandırdığı belə bir əsəri yazdı. 1920-cı il 27 aprel işğalı günlərində belə bir əsərin əldə edilməsi bolşeviklər üçün çox qiymətli bir tapıntı idi. Odur ki, əsəri nəşr edib ondan praktiki surətdə faydalandılar. Elə ki, kommunist rus işğalçıları Azərbaycan xalqı üzərində siyasi qələbənin ardınca mənəvi cəhətdən də qalib gəldilər türk etnoniminə qadağa qoyuldu, Azərbaycan türklərinin etnogenezi, milli inkişafı və milli nüvə funksiyasını mənbələr əsasında, elmi əsaslarla əks etdirən "Azərbaycan" kitabı yığılıb məhv edildi, az nüsxəsi arxivlərdə gizlədildi. M.Vəlilinin "Azərbaycan" əsəri Azərbaycan oxucusunun istifadəsində olduğu təqdirdə Azərbaycan Sovet tarixşünaslığının uydurmalarını Azərbaycan tarixi kimi əhaliyə aşılamaq mümkün deyildi, xalqı milli şüurdan məhrum

edib kütlə halına sala bilməzdilər.

M. Vəlilinin (Baharlının) "Azərbaycan" əsərinin məzmununu, milli ideologiyasını təhlil etmədən onu Sovet etnoqrafiya elmi adlandırmaq savadsızlıq olmaqla bərabər həm də, milli mədəniyyətə qarşı edilmiş məsuliyyətsizlikdir. Təsadüfi deyil ki, o, Tədqiq və Tətəbbö cəmiyyətinin üzvü olsa da, yuxarıda adları çəkilən kitablardan başqa əsər yazmadı, yəni kommunist ideologiyası əsasında əsər yazmadı. Kommunistlərin Azərbaycanda tətbiq etdiyi amansızlıq, qorxu və vahimə, onu hər dəqiqə izləyən ölüm təhlükəsi iradəsini qırıb milli idealından qopara bilmədi. 1937-ci ilə qədər gizli surətdə fəaliyyət göstərən Azərbaycan İstiqlal Təşkilatının katiblərindən biri olmuşdu. Əvvəlcə 1926-cı ildə, sonra 1937-ci ildə həbs olunan M.Vəlili (Baharlı) 1943-cü ildə sürgündə vəfat etdi. M. Vəlili "Azərbaycan" əsəri ilə ruhlaşmışdı. "Azərbaycan" əsəri arxivlərdə Dövlət Təhlükəsizlik Komitəsinin nəzarəti altında saxlansa da, özünəməxsus forma və məzmunla xalq arasına yol tapan milli türk ruhunu qidalandırır və canlandırırdı.

20-30-cu illər Azərbaycan Sovet etnoqrafı Ə.Ələkbərov son nəsil Azərbaycan Sovet etnoqrafları tərəfindən bu elmin "banisi" kimi dəyərləndirilir. Təəssüf ki, Ə.Ələkbərovun yaradıcılığından bəhs etmiş Azərbaycan Sovet etnoqraflarının hamısı onun haqqında "görkəmli alim", "Azərbaycanın ilk etnoqrafı" "etnoqrafiya elminin banisi" və s. kimi epitetləri işlətsələr də, onların heç birinin əsərində Ə.Ələkbərovun etnoqraf kimi böyüklüyünü, onun bu elmdə hansı elmi nəzəri müddəanı əsaslandırması, hansı elmi konsepsiyanı verməsini, elmin hansı sahəsindəki pərakəndəliyi sistemə salmasını göstərən bir dənə də olsun fakt, nümunə misal gətirilmir, fəal çöl etnoqrafik materialı toplamasından bəhs edirlər. Ə.Ələkbərovun tədqiqatçıları onun 15-illik elmi fəaliyyəti dövründə "otuzdan artıq böyük elmi əhəmiyyətli əsər (mə-

qalə - X.X.) yazdığını" göstərirlər.

Yuxarıda bəhs etdiyimiz kimi, Sovet tarixşünaslığında, o cümlədən etnoqrafiyasında elmi müddəa tarixçi tərəfindən irəli sürülmürdü, yuxarıdan dövlət, daha doğrusu onun ali siyasi rəhbərliyi tərəfindən verilirdi. Tarixçinin vəzifəsi isə bu "elmi müddəaları sübut etməkdən", onun müxtəlif variantlarda əsaslandırmaqdan ibarət idi. Hətta onun müxtəlif variantlarını da irəli sürmək tarixçi üçün çox təhlükəli idi. Bir çox hallarda tarixçiyə həyatı bahasına başa gəlirdi.

E.Kərimov haqlı olaraq yazır ki, "70-illik totalitar sovet rejimini də bir çox cəhətdən Rus imperiyasının varisi hesab etmək olar. Həmin dövrdə milli siyasətin mahiyyətinə uyğun olaraq etnoqrafiya, bu elmi sovet quruculuğu siyasətinə tabe etmək və ona xidmət etmək istiqamətinə yönəldilmişdi" (191). Azərbaycan Sovet etnoqrafiyası, Kommunist Rus Sovet etnoqrafiyasının tərkib hissəsi olduğu üçün, "elmi müddəa" və milli konsepsiyalarda yuxarıdan verildiyi üçün Azərbaycan Sovet etnoqrafiyasının inkişaf dövrləri də onunla paralel getmişdir.

Sovet etnoqrafiyasının yaranmasının birinci mərhələsində (1917-1929) Kommunist Rus imperiyasında hələ tarix elminin bu sahəsinin etnoqrafiya, etnologiya və xalqşünaslıq adlandırılması haqqında ümumi rəyə gəlinməmişdi. Və 20-ci illərdə etnos haqqında nəzəriyyə N.Y.Marr və S.M.Şirokoqorov tərəfindən bir-birindən xəbərsiz işlənməsidi (29, 114-116). 1929-1932-ci illər etnoqrafiya sahəsində aparılan diskussiya birinci dövrə yekun vurdu. Elan edildi ki, "etnos" burjua etnoqrafiyasının kateqoriyasıdır. Bununla da etnos haqqında nəzəriyyəyə son qoyuldu. Belə bir tarixi dövrdə Azərbaycanda Ə.Ələkbərovun Sovet etnoqrafiya elmini yaratması, yuxarıda göstərdiyimiz kimi, mübaliğədən başqa bir şey deyildir. Təsadüfi deyil ki, Tədqiq və Tətəbbö cəmiyyəti və onun orqanı "Xəbərlər" jurnalı da

1929-cu ildə bağlandı. Ə.Ələkbərov və Q. Qaraqaşlı bu ildə həbs olundular. 1926-cı ildən Moskva Dövlət Universitetində nəşr olunan "Etnoqrafiya" jurnalı 1930-cu ildən "Sovetskaya etnoqrafiya" adı altında nəşr olunmağa başladı. Bu, sadəcə olaraq ad dəyişməsi deyil, etnoqrafiyada olan alim müstəqilliyi, düşüncə sərbəstliyindən doğan elmi nəticələr olan tədqiqatlara son qoyulması idi. Vahid nəzəri ideologiyası və metodologiyası marksist materializmindən ibarət olan "Sovet etnoqrafiya elmi"nin uydurulmasına başlandı.

1932-ci ildən başlayan Sovet etnoqrafiya elminin ikinci mərhələsi marksist-materialist metod əsasında ibtidai-icma cəmiyyətinin, Kommunist Rus imperiyası əsarəti altında olan aşağı inkişaf səviyyəsində olan xalqların öyrənilməsi ölkə etnoqrafiyasının əsas vəzifəsi oldu. Bu dövrdə ibtidai-icma cəmiyyəti, Rus imperiyasının əsarəti altında xalqların adət-ənənəsinə "keçmişin qalığı" adı altında müharibə elan edildi. Sovet tarixşünaslığı, o cümlədən etnoqrafiya elmi bu müharibənin ideoloji əsaslarının həyata keçirilməsi üsullarını yaratdı. Sovet etnoqrafiyası, irtica, milli məhvetmə elmi kimi formalaşdı. Əsarət altına alınmış xalqların, o cümlədən Azərbaycan xalqının varisi olduğu mədəniyyətdən, mənəvi dəyərlərdən, adət-ənənələrdən qoparılmasının nəzəri əsası və praktikası yaradıldı (29, 116-119; 58).

Bu dövrdə elmi və tarixi təfəkkürə, milli şüura malik Ə.Ələkbərovun tədqiqat fəaliyyətini davam etdirməsi olumla ölüm arasında ölümün gözünün içinə baxmaq deməkdi. Ə.Ələkbərovun əsərində bu, marksizmlə mübarizədə daha qabarıq görünür. Təəssüf ki, milli şüura, nəzəri təfəkkürə malik olmayan bəzi Azərbaycan sovet etnoqrafları onun yaradıcılığının bu cəhətlərini diqqət mərkəzinə çəkə bilmir, bəlkə də qəsdən çəkmirlər. Bəlkə də, kommunistlər hakimiyyətə qayıtdılar ümidi bərpa düşüncəsi ilə yaşadıqları üçün məsələnin bu cəhətini diqqətə çəkmirlər.

Yuxarıda sovet etnoqrafiya elminin zirvə çağında (Bax: 29) bu elmin rəhbərlərinin yazdığı kitablarda 1932-ci ilə qədər sovet etnoqrafiya elminin formalaşmadığı etiraf olunur. Bu ildən isə etnoqrafiya elminin predmeti etnos anlayışından, nəzəriyyəsindən bəhs olunması qadağan edilir. Imperiyanın paytaxtında vəziyyət belə olduğu halda, Azərbaycan xalqına mənəvi və fiziki məhv etmə siyasəti tətbiq olunduğu bir dövrdə Ə.Ələkbərovun Azərbaycan sovet etnoqrafiya elmini formalaşdırması fakta əsaslanmayan boş sözdən başqa bir şey deyil. Təəssüf ki, Ə.Ələkbərovu Azərbaycan sovet etnoqrafiya elminin banisi hesab edənlər onun əsərlərində müxtəlif üsullarla, dolayı yolla milli yaddaşın qorunub saxlanması məsələlərinin qoyulmasından danışmır, əksinə, kommunist direktivlərinin diqtəsi ilə əsərinə daxil olmuş ziyanlı anlayışlardan bəhs edirlər. Bunun bir səbəbi ondan ibarətdir ki, həmin etnoqraflar bu ziyanlı anlayışları öz əsərlərində Ə.Ələkbərovla müqayisədə, ehtiyac olmadan belə, 10-15 qat artıq idealizə etmişlər.

Azərbaycan sovet etnoqrafları arasında etnoqrafik fikirin canlandırılması məsələsinə E. Kərimov müəyyən əmək sərf etmişdir. Onun bu cəhətdən gənc etnoqraf Ş. Nurizadə ilə birlikdə yazdığı "Ə. K. Ələkbərovun elmə az məlum olan əsərləri və təşkilati fəaliyyəti haqqında" adlı məqaləsi təqdirəlayiqdir. Onlar yazırlar ki, 20-30-cu illərdə Ə.Ələkbərovun "keçmişin zərərli qalıqları" anlayışı altında xalqın əsrlər boyu formalaşmış, məişətində dərin kök salmış və nəsildən-nəslə keçən ənənəvi maddi və mənəvi mədəniyyəti, təsərrüfat məişəti nəzərdə tutulurdu. Ə.Ələkbərovun demək olr ki, respublikanın bütün tarix-etnoqrafik bölgələrindən "zərərli qalıqlar" adı altında topladığı çöl-etnoqrafik materialları əsasında Azərbaycan xalqının nə qədər yüksək və zəngin ənənəvi mədəniyyətə malik olduğunu sübut edirdi" (193). Ə.Ələkbərovun Azərbaycan etnoqrafiyasının öyrə-

nilməsi, onun elmi nəzəri əsaslarının yaradılmasında xidmətini qiymətləndirmək üçün onun bütün əsərlərini deyil, elmi nəzəri təfəkkürünü, tədqiqat üslubunu, ideyaları diqqətə çatdırmaq üsullarını özündə ehtiva edən 3 məqaləsini – "Azərbaycanlılar", "Ayrımların yanında", "Azərbaycanda etnoqrafiyanın vəzifəsi" məqalələrini tədqiqatımıza cəlb etmişik.

Ə.Ələkbırovun "Azərbaycanda etnoqrafiyanın vəzifələri" məqaləsi yüksək səviyyədə yazılmış etnoloji əsərdir. Azərbaycan Sovet etnoqrafiyasının tarixində bu əsərdən güclü etnoloji səviyyəyə yüksəlmiş ikinci bir əsər yoxdur. Ümumiyyətlə, Azərbaycan Sovet etnoqrafiyasında minimum nəzəri səviyyəyə malik hər hansı bir əsər yazılmamışdır. Ən yaxşı halda, ən yaxşı təsvirdir. A.Balayev və Ə.Məmmədlinin aspirantlığı sovet dövrünə düşsə də, onlar sovet etnoqrafiya məktəbinin yetişdirməsi hesab oluna bilməz. Onlar milli-azadlıq dövrünün, ideologiyasının yetişdirmələridir. Elm birmənalı sübut etmişdir ki, nəzəri təfəkkür anadangəlmə fərdi təfəkkürün keyfiyyətidir. Anadangəlmə bu irsi keyfiyyətə malik olmayan heç bir şəxsi təlim-tərbiyə vasitəsilə nəzəriyyəçilik keyfiyyətinə malik kimsəyə çevirmək mümkün deyil. Azərbaycan sovet etnoqrafiyasında nəzəri əsərlərin olmamasının birinci səbəbi imperiyanın kadr siyasəti ilə bağlıdır. Kommunist Rus imperiyası əsarəti altına aldığı xalqların etnoqraflarının, ümumi tarixçi və humanitar elm sahələrinə kadrları gizli və açıq üsullarla elə seçirdi ki, metropoliyanın humanitar sahə "alimlərinin" məntiqi - nəzəri təfəkkürü mühakimə qabiliyyəti zəif olsun. Yalnız mexaniki yaddaşa malik olmaqla "elm"də təsvir etmə, iqtibas üsulu ilə nəyi isə əzbərləməklə kifayətlənsinlər.

Digər tərəfdən süni surətdə maddi mədəniyyəti birinci elan etməklə metropoliyaların etnoqrafiyasında tədqiqatı bu istiqamətə yönəltmişdi ki, burada nəzəri təfəkkürün inki-

şafı texnologiyasının sirlərini öyrənərək, onun təkmilləşməsinə imkan verilməsin. İmperiya bütün səyi ilə metropoliyalarda mənəvi mədəniyyət, ideologiya ilə bağlı sahələrə istedadlı, mühakiməli, məntiqli, yaradıcı adamların daxil olmasına imkan vermirdi. Tək-tək xəlbirdən keçənləri müxtəlif üsullarla mənəvi - psixoloji cəhətdən sındırır, simasızlaşdırır və başqa üsulllarla milli nəzəri yaradıcılıqdan məhrum edirdi.

Beləliklə, A. Balayev və Ə. Məmmədlini sovet etnoqrafiya məktəbinin yetişdirməsi hesab etməsək, Ə.Ələkbərovdan sonra Azərbaycan etnoqrafiyasında ilkin tədqiqatı mənəvi mədəniyyət olan, sonradan etnoqrafiyanın nəzəri problemlərinə meyil edən yeganə tədqiqatçı E. Kərimovdur. Göründüyü kimi, yaradıcılığı sistemsiz və pərakəndədir. Yaradıcılığında nəzəri təfəkkür qabiliyyəti özünü göstərən ikinci etnoqraf Q. Rəcəblidir. Görünür, ruhuna uyğun gəlmədiyi üçün sovet imperiyasının mövcudluğu illərində yaradıcılığı bir neçə məqalə ilə məhdudlaşdı. Müstəqillik illərində yaşının çox olmasına baxmayaraq milli mədəniyyəti canlandıran əsərlər yazdı. Dədə Qorqud oğuzlarının tarixinin obyektiv qiymətləndirilməsində ən uğurlu, elmi nəzəri mühakimələrin müəllifi olmaqla Azərbaycan türklərinin etnogenezinin obyektiv müəyyənləşdirilməsində dəyərli xidmət göstərdi.

S.Ağamalıyeva "Azərbaycan dulusçuluğu" monoqrafiyası ilə incə və məntiqi təfəkkürə malik olduğunu göstərdi. Digər Azərbaycan sovet etnoqrafları demək olar ki, təsvir sərhəddindən keçə bilmədilər.

Ə.Ələkbərovun yaradıcılığından bəhs edən etnoqrafların onun əsas elmi nəzəri əsəri olan "Azərbaycanda etnoqrafiyanın vəzifələri" məqaləsi üzərində xüsusi dayanmamalarının bir səbəbi, göstərdiyimiz kimi nəzəri təfəkkürdən məhrumluqdur. Onun özlərindən yüksəkdə dayandığını etiraf et-

məyə ləyaqətlərinin çatmamaları, bəzi tədqiqatçıların isə bu həqiqəti deməklə "özlərinə düşmən qazanmaq" istəmələridir.

Ə.Ələkbərov "Azərbaycanda etnoqrafiyanın vəzifələri" adlı məqaləsində mənəvi mədəniyyəti, adət-ənənə və elmi şüur daxilində milli psixologiyanın funksiyası və rolunu incəliyinə qədər qiymətləndirirdi. Etnososial prosesdə mənəvi dəyərlər kompleksinə sistemli yanaşa bilirdi. Bu elmi-nəzəri güc, təfəkkür qabiliyyəti ona irəli sürdüyü elmi mülahizələri ilə xalqına qarşı zorakılığın dayandırılması tələbi ilə çıxış edirdi. Ə.Ələkbərov bütün məsələlərdə sovet etnoqrafiyasının terminologiyası və anlayışları ilə çıxış edirdi. Xristianlıqda olduğu kimi, bütün şifahi və yazılı nitqlər İsa Məsihlə başladığı kimi, Sovet tarixşünaslığında bütün əsərlər "Ali rəhbərin" çıxışından götürülmüş iqtibasla başlayırdı. Ə.Ələkbərov da Sovet tarixşünaslığının bu ənənəsini gözləyirdi. Bütün Sovet etnoqrafları kimi əsərlərini "Ali rəhbərin" sosializm quruculuğu, keçmişin zərərli qalıqlarına qarşı mübarizə, sinfi mübarizə, burjua millətçiliyinə qarşı mübarizə və s. müddəalarından iqtibasla başlayırdı. Məsələn, yazırdı: "hazırda quruculuq işi sosializmin qələbəsi şəraitində böyük irəliləyişlə gedir və keçmişin zəif, davamsız müqavimәti ilə müşayiət olunur" (58, 108).

Keçmişin zərərli qalığından danışarkən o heç də bu dəyərləri bütünlüklə məhv edilməli, ona qarşı inqilab edilməli dəyərlər kimi bəhs etmirdi. Ə.Ələkbərov göstərdi ki, sosializmə qarşı müqavimət göstərən adətlərdən biri ağsaqqallıq institutları və tayfa münasibətlərinin sinfi mahiyyətini klassik burjua etnoqrafiyası ibtidai icma xarakteri ilə izah edirdi. Belə bir yanaşma indi bizim etnoqrafiyada da mövcuddur. Biz belə münasibətlərə sinfi mübarizədən kənar məsələlər kimi yanaşmalıyıq. Bu problem bizim respublikada da mövcuddur. Bəzi etnoqraflar bizdəki bu münasibətləri Orta

Asiya ilə eyniləşdirirdilər, bu da düz deyil. Marksist sovet etnoqrafiyasının vəzifəsi sosializm quruculuğuna mane olan ağsaqqallıq institutlarının tayfa münasibətlərinin müqavimətini qırmaq üsulları sinifli mübarizə üsullarından kənar həll etmə yolunu tapmaqdır.

Ə.Ələkbərov həmçinin göstərir ki, biz dinə sinfi mübarizə aləti kimi yanaşırıq. Lakin faktlar göstərir ki, ziyarətgahlara, pirlərə (müqəddəs yerlərə) müsəlmanlar Azərbaycanın milli ibadətgahlarına ziyarətə getdiyi kimi, xristian ibadətgahlarına da xristianlar gedirlər. Ziyarətgahlara yalnız yoxsullar deyil, qolçomaqlar, ağsaqqallar (tayfa başçısı), sovet işçiləri də gedirlər. Əhali arasında seyid və mollaların nüfuzu böyükdür. Qolçomaqlar sosializmə qarşı mübarizədə onlardan istifadə edirlər. Azərbaycanda dinin gücünü məscidlərin və dindarların sayı ilə ölçmək düz deyil. Göründüyü kimi, dinin nüfuzuna hətta komsomol da (kütlə psixologiyalı savadsız, muzdur və fəhlə övladlarının gənclər təşkilatı – ən dağıdıcı, mənəviyyatsız bir təşkilat – X.X.) təsir edə bilmir. Antidini təbliğatlarda onun yerli xüsusiyyətlərinin, əhalinin inam və etiqadını nəzərə almadan, mübarizənin düzgün yolunu tapmaq məsuliyyətini sovet etnoqrafları öz üzərinə götürüb onu həll etmədən bu mübarizə çox ziyan verəcək.

Ə.Ələkbərov mərkəzin milli məsələnin mexaniki üsullarla həllinə cəhdini kəskin tənqid edərək yazırdı ki, SSRİ-nin mərkəzi rayonlarında milli məsələnin həllinin traferet üsullarının, məişət-mədəniyyətinin özünəməxsusluğu öyrənilməmiş milli rayonlara tətbiqi çox ziyanlıdır.

Sovet etnoqrafiyasının qarşısında duran əsas məsələ xalqların məişət mədəniyyətinin özünəməxsusluqlarını müəyyənləşdirməkdir, onlar məktəblərdə, din əleyhinə mübarizədə nəzərə alınmalıdır. Milli mədəniyyətlərin özünəməxsusluqlarının öyrənilməsi millətçiliyin bütün formalarına – hakimmillətçilik şovinizminə, yerli millətçiliyə qarşı

mübarizənin təşkilinə lazımınca kömək edər.

Ə.Ələkbərov böyük cəsarətlə yazırdı ki, ikinci beşillikdə Azərbaycanı ikinci pambıqçılıq bazasına çevirmək qorxusu kimi hakimmillətçilik şovinizmi "elmi nəzəriyyə" pərdəsi altında köhnə etnoqrafiyanın irqçilik nəzəriyyəsinin həyata keçirilməsini pərdələyirdi. Onlar Azərbaycan maldarlarını hər-hansı torpaqla daimi əlaqəsi olmayan nomad-köçərilərlə eyniləşdirir, Azərbaycan köçərilərini bütünlüklə oturaq həyata keçirməyi partiya və dövlətin əsas vəzifəsi hesab edirdilər. Bununla türk milliyyətçiliyinin yerli özünəməxsusluqlarının doğmasının qarşısı alınacağını düşünürdülər.

Sovet etnoqrafiyasının qarşısında duran mühüm vəzifələrdən biri milli siyasətdə etnik qrupların mədəni quruculuğunu düzgün istiqamətləndirməkdir. Məlumdur ki, Azərbaycan xalqının etnik qrupları türk dilini eyni səviyyədə bilmirdi. Onların varlı təbəqələri, tacirlər və din xadimləri türk dilini yaxşı bilirdilər, qadınlar və yoxsul təbəqə türk dilini pis bilir və ya heç bilmirdilər. Kənd burjuaziyası türk dilindən istifadə edərək zəhmətkeş kütləni istismar edirdi, çoxetnoslu respublikada etnik qruplar arasında proletar mədəniyyəti doğma dildə inkişaf edirdi. Etnik qrupların qolçomaq təbəqəsi üçün doğma dildə açılan məktəblər əlverişli deyildi, mədəni-siyasi inkişaf nəticəsində milli şüur öz təsirini itirirdi. Bu məsələdə Azərbaycan türk millətçiləri onlarla həmrəy idi, onlar belə hesab edirdilər ki, etnik qruplar türk dilini yaxşı bilir (Görünür müəllif burada bilərəkdən müəllif olmayan bir türk millətçiliyi uydurub ki, türk dilinə qarşı təcavüzü tənqid etsin – X.X.). Ə.Ələkbərov burada AXC dövründə yerli azsaylı etnik qrupların ana dilində təhsil hüququnun verilməsi və həyata keçirilməsinin, Azərbaycanın işğalından sonra bir müddət davam etdirilməsi, Azərbaycan xalqının etnik qrupları üçün ayrılan vəsaitin, azsaylı xalqlar adı altında rus, erməni və yəhudilərin təhsili-

nin inkişafına yönəldilməsi, bir qədər keçdikdən sonra Azərbaycan xalqının etnik qruplarını Azərbaycan türkcəsindən qoparıb rusdilli məktəbə cəlb edilməsi, nəhayət, 1938-ci ildə etnik qrupların ana dilində təhsil alması haqqında qanunun ləğvindən söhbət edir (172, 54-85; 194).

Ə.Ələkbərovun əsərindəki məntiqsizlik, sonra əsərə daxil edilən süni əlavələr də ola bilər. Çünki belə süni əlavələrə, hətta klassiklərin əsərlərinə, mənbələrə əlavə və düzəlişlərdə sovet tarixşünaslığı heç vaxt məsuliyyət hiss etməmişdir. Tarixi öz xeyrinə saxtalaşdırmaq sovet tarixşünaslığının, mənbəşünaslığının əsl mahiyyətidir.

Müəllif bu pərakəndə mülahizələrindən sonra Xalq Komissarları Sovetinin Azərbaycanda milli siyasətinin düzgün olmadığını tənqid edir. Ölkədə hakimmillətçilik şovinizminin, milli rayonlarda irqçilik nəzəriyyəsinin inkişaf edəcəyini, hətta bəzi əks - inqilabi professorların Azərbaycan ali məktəblərində türk irqi özünəməxsusluğu ali elmləri qəbul edə bilmədiyinin, bu səbəbdən də ali məktəblərdə türkcə təhsilin dayandırılması ideyasını irəli sürməsini kəskin tənqid etmişdir.

O, ölkədə baş alıb gedən hakimmillətçilik və yerli millətçiliyin yolverilməzliyini millətlərin bərabərhüquqluluğu şəraitinin yaradılması yollarını müəyyən etməyi etnoqrafiya elminin başlıca vəzifəsi hesab etmişdi.

Ə.Ələkbərovun "Azərbaycan etnoqrafiya elminin vəzifələri" əsərindəki bu ideyaların Sovet imperiyasının varlığı dövründə tədqiqata cəlb olunmaması, müzakirəyə çıxarılmaması başa düşüləndir, lakin müstəqillik illərində Ə.Ələkbərovun yaradıcılığından bəhs edib, yuxarıda bəhs olunan məsələlərə toxunmamaq, onlardan bəhs etməmək, görəsən, Azərbaycan etnoloji fikir tarixinə doğma, yoxsa ögey münasibətlərdən, bəlkə, düşmənçilikdən irəli gələ bilər? başqa cür qiymətləndirilə bilməz.

Ə.Ələkbərovun nəzəri yaradıcılığında "Azərbaycanlılar" və "Ayrımların yanında" məqaləsi xüsusi yer tutur. "Ayrımların yanında" məqaləsi elmi axtarış, müstəqil söz deməyin az da olsa mümkün olduğu bir şəraitdə yazılmışdısa, "Azərbaycanlılar" məqaləsi "etnos" termininin "burjua etnoqrafiyasının" tədqiqat predmeti elan edilib, sovet etnoqrafiyasının tədqiqat predmetliyindən çıxarıldığı bir dövrdə, Azərbaycan türklərinin bütün aristokratiyasının, zadəgan və ziyalı zümrəsinin milli dünyagörüşünü yaradan, fiziki məhv edilməsi və deportasiyasının başa çatdırılmasından sonra, şüurla idarə olunmayan, yalnız fiziki varlığını yaşatmaq idealı ilə - kommunizmdə çaylarda su əvəzinə axan süddə çimmək, dünyanın maddi nemətlərindən istədiyi qədər, istədiyi kimi istifadə etmək, Stalin kimi gündə üç dəfə keçi piyi yeyə bilmək arzusu ilə yaşayan kütlə saxlanılmışdı.

Etnosun varlığının – mərkəzi sisteminin, bütövlüyünün nüvəsi onun daşıdığı etnonimdir (adıdır). Etnosun ilkin təşəkkül, tam formalaşma, bir haldan – başqa hala, yeni bir etnonimdən başqa etnonimə, yeni təşəkkül prosesində keçirdiyi bütün hisslər, əxz etdiyi, yaşatdığı bütün dəyərlər həmişə etnonimə (onun daşıdığı, özünü adlandırdığı ada) hopur. Odur ki, bir terminlə ifadə olunan etnonim etnosun tarixində qazandığı, daşıdığı bütün müsbət dəyərləri canlandırmaq, səfərbər etmək gücünə malik olur. Milli adın ifadə olunması ilə etnosa məxsus heysiyyət, mənlik şüuru, qürur, vüqar, şərəf, ləyaqət, namus, ismət, dəyanət, fədakarlıq, özünü fəda etmək və s. onun ruhunda canlanır, onu ona qrşı yönəlmiş hadisəyə qarşı cavab reaksiyasına səfərbər edir.

Azərbaycan türkləri istisna olmaqla tarixdə hər hansı bir xalqa zorla başqa etnonim qəbul etdirmə, adını dəyişdirmə hadisəsi yoxdur. Hər hansı bir xalqın adının dəyişdirilməyə məhkum edilməsi onun mənən öldürülməsi, genosididir. Toplumun adının dəyişdirilməsinə cavab reaksiyası vermə-

məsi, onun mənəviyyatına yönəlmiş bu amansızlıq qarşısında susması onun mənən ölüb tam kütlələşməsi deməkdir. Yəni bütünlüklə milli ideal və arzunu unudub, ondan imtina edib fiziki varlığını yaşatmaqdan başqa qayğısına qalacağı başqa bir şeyi qalmır.

Artıq Kommunist rejimi dövründə yaşamış nəsildə canlı, qürurdoğurucu, xoş təəssürat yaradıcı milli bir xatirə qalmamışdı, bu dövrdə dünyaya göz açan nəsil bütünlüklə keçmişinə qarşı yönəldilmişdi, yəni keçmiş zadəganı, xanı, bəyi, ziyalısı, burjuaziyası, elatı onların təsəvvüründə geridə qalmış, tarixən istismarçı, öz xalqının qanını soran bir zalıma çevrilmişdi, hətta onların tikdiyi binalar belə tarixin mənfur simasının qalığı idi, dininin tiryək, milli bayramının ibtidai insanın primitiv düşüncəsinin qalığı, adət-ənənəsinin inkişafın buxovu, əxlaqının cahillik, hətta geyimi belə o mənfur keçmişin yaramazlıqlarını, nadanlığını əks etdirən, adi bir əşya olduğu şüurlara yeridildiyindən ondan imtina etmək nəinki məsləhət görülür, buna məcbur edilirdi. Odur ki, kütlə halına salınmış əhali milli mənəviyyatdan məhvetmənin son tədbiri olan milli türk adından ayırma tədbirinə heç bir müqavimət göstərə bilmədi. Bu onun bütün milli hiss və arzulardan, istəklərdən, inamdan, idealdan ayrı düşündüyünü göstərən əlamət idi. Arzusuz və idealsız bu kütlədən sovet imperiyasının arzu etdiyi yeni kütləni yaratmaq, sovet adamı - "iş adamı" yaratmaq Sovet tarix elminin, birinci növbədə də etnoqrafiyanın qarşısında duran vəzifə idi. Direktivi isə proletariatın dahi rəhbəri İ.V.Stalin vermişdi. O demişdi: "Azərbaycanın əsas milləti – azərbaycanlılardır" (58, 71).

Bütün bunları İ.P.Pavlovun uzaqgörənliliklə əvvəlcədən gördüyünü Moskva psixoloqu M. Q. Yaroşkeviç belə təsvir edir: "İndi bizə məlum olur ki, İ.P.Pavlov yalnız görkəmli alim olmamış, hətta qeyrətli vətəndaş olmuşdur. O, 30-cu

illərdə yeganə alim idi ki, hökumətə müraciət edərək bildirdi ki, sistem insanı məhv edir, qul mənəviyyatı formalaşdırır, düşüncə qadağan olunur".

İ.P.Pavlov Leninqradda Birinci Tibb İnstitutunda İ.M.Seçenovun anadan olmasının 100 illiyi ilə bağlı çıxışını bu sözlərlə bitirib: "Biz elə bir cəmiyyətdə yaşayırıq ki, dövlət hər şey, insan isə heç nədir. Belə cəmiyyətin isə gələcəyi yoxdur". O, Xalq Komissarları Sovetinə açıq yazırdı ki, "cəhənnəməki, qoy güllələsinlər... bunları yazmağı isə mənim ləyaqətim tələb edir" (216, 89-90). Kommunist ideologiyasına, Sovet dövlətinə kütlə lazım idi. Odur ki, bütün düşünən, gələcəyi proqnozlaşdıran alimləri, insanları məhv edirdi.

Ə.Ələkbərov mənən öldürülmüş Azərbaycan türklərinin milli mənlik şüurunun bir daha canlanmasına imkan verməmək konsepsiyası ilə çıxış edən sovet "tarix elmi" daxilində milli şüuru, ruhu yenidən canlandıracaq bir üslub, metod, konsepsiya ilə işləməyi, milli və elmi vicdan işi kimi qarşısına məqsəd qoyur. Milləti və vətəni qarşısında alim borcunun nümunəsi olacaq, ona həyatı bahasına başa gələn, lakin kütlə halına salınmış xalqının milli ruhunu yenidən canlandıracaq səviyyədə olan elmi xidmət göstərməsidir.

Ə.Ələkbərov Azərbaycan türklərinin türk deyil, "azərbaycanlı" olduğunu sübut etmək" adı altında yazdığı "Azərbaycanlılar" əsəri 1984-cü ildən Azərbaycan türklərinin etnogenizinin müzakirəsinə həsr olunmuş əsərlər də daxil olmaqla süni surətdə "azərbaycanlı" adlandırılan xalqın türk etnogenezinə, fasiləsiz aparıcı türk mədəniyyətinə - mənəviyyatına malik olması haqqında sovet imperiyasının hakimiyyəti illərində yazılmış ən qüvvətli əsərdir. Əsərdə ardıcıl olaraq türk milli şüurunun qırılmasına, varisliyin pozulmasına imkan verməyən, milli şüuru milli zəminə istiqamətləndirən milli hisslərə toxunan, onda özünə qarşı oya-

dıcı qıcıq yaradan psixoloji priyomlardan məharətlə istifadə olunmuşdur. Bütün bunlara Ə.Ələkbərov tədqiqatçı üçün əsas, birinci olan anadangəlmə elmi-nəzəri təfəkkür, ailə və milli tərbiyə üsulundan doğan milli şüur, elmi vicdan, milli arzu və ideal, əcdadları və gələcək nəsillər qarşısında məsul olduğu borc... və s. malik olduğu mənəvi dəyərləri sayəsində nail olmuşdur.

Ə.Ələkbərov "Azərbaycanlılar" adlı elmi əsərində Azərbaycan türkünün mənşəyi məsələsini, təəssüf ki, düzgün işıqlandırmamış, bilərəkdən yanlış izah etmiş və yaxud da bunlardan danışmağa cəsarət etməmişdir" kimi fikirlər tarixşünaslığımızda müxtəlif səbəblərdən davam edir. Bunlardan bir qrupu heç olmasa sağlıqlarında "alim" mövqelərini qoruyub saxlamaq istəyənlərdir, digər qrupu isə etnososial prosesin sistemini, ümumiyyətlə, etnologiya elminin nəzəriyyəsini bilməməyənlərdir. Məsuliyyət hissi ilə bildirirəm ki, "Azərbaycan etnoqrafları ordusunda" bu elmin nəzəriyyəsindən az-çox baş çıxaranların sayı 5-6 nəfərdən artıq deyil. Ə.Ələkbərov xristian ənənəsindən gələn, Kommunist ənənəsinə uyğun "Azərbaycanlılar" məqaləsinin ilk abzasında Azərbaycan Sovet Sosialist Respublikasının Lenin siyasətinin nəticəsində yarandığını deyir, Azərbaycan əhalisinin əsasən azərbaycanlılardan ibarət olması haqqında İ. Stalindən iqtibas verir, yeni inkişaf mərhələsində bu toplumun "azərbaycanlı" adlandırılmasının düzgünlüyünü yazır (58, 71). 1936-cı il Konstitusiyasının qəbuluna qədər də bu toplumun "türk" etnonimi ilə bərabər azərbaycanlı da adlandığını yazır. Sovet tarixşünaslığında olduğu kimi, "türk" etnoniminin əks-inqilabçı, müsavatist, panislamist və b. Azərbaycan xalqının düşmənlərinin şişirtdiyini deyir, elə bu illərin özündə Azərbaycan xalqı, azərbaycanlılar adını müdafiə etdiklərini yazır (58, 71).

"Türk" etnoniminin tarixi haqqında məlumat verən

Ə.Ələkbərov bu etnonimi slavyan etnonimi ilə müqayisə edərək yazır ki, türk etnonimi türkdilli tayfalar arasında həmişə birləşdirici etnonim olmuşdur, slavyan etnonimi slavyan tayfaları arasında birləşdirici etnonim olduğu kimi (58, 72). Kommunist Rus imperiyasının türk düşmənçiliyi ideyasının zirvəsində dayandığı bir zamanda belə bir müqayisə aparmaq tədqiqatçıdan tarixi fakta sədaqət və kişilik, ləyaqət, cəsarət, milli qürur, vüqar tələb edirdi. Müəllif öz fikrini qədim mənbələrə əsaslanaraq söylədiyini deyir və mənbələri göstərir. Sonra, Füzuliyə istinad edərək, bu terminin cəm halında türk deyil, türkün uşaqları, övladları mənasında işləndiyini göstərir. Füzulinin və digər mənbələrin qədimdə Azərbaycanın türkdilli əhalisi və digər ölkələrə yayılmış türkdilli xalqların tayfa adı daşıdığını yazır. Məsələn Qarabağ şairi M.P.Vaqifin bu tayfaları "türk" deyil, "el" adlandırdığını yazır. M.F.Axundovun "azərbaycanlı", qafqazlı", "musurman", "tatar" adlandırdığını yazır. M.Ə.Sabirin azərbaycanlıları "müsəlman" adlandırdığını yazır, onun dövründə türk etnoniminin meydana çıxdığını göstərir (58, 72).

Nəhayət, məsələni konkret qoyaraq bildirir. Azərbaycan xalqı özünü necə adlandırmışdır? Göstərir ki, biz bunun tam yeganə cavabını tapa bilmirik. Özünü adlandırma həmişə ictimai inkişaf səviyyəsi ilə bağlı olur. Məsələn yarımköçərilər həmişə tayfa adlarını qoruyub saxlayırlar, avşar, təklə, kəngərli, ayrım və s.

Məskunlaşma, xüsusən şəhər məskunlaşması prosesi Azərbaycanda şirvanlı, qarabağlı, şəkili, qubalı, bakılı və s. özünüadlandırmalar yaratmışdır. Bunlar feodal inkişaf mərhələsinin nəticəsidir. Həmçinin bu "musurman" və "azərbaycanlı" anlayışları da yaranmışdır ki, bu anlayış altında ləzgi, tat, kürd və talışlar bu etnososial birliyə qovuşurdular. Məsələn bu dövrdə azərbaycanlıları qonşu xalqlar

müxtəlif cür adlandırırdı. Dağıstanlılar azərbaycanlıları "qızılbaş", yəni "səfəvi ordusu" - "Dağıstanı işğal edən ordu", XVI – XVII əsrlərdə həmçinin "qacarlar" monarxiyasının qurucuları ilə bağlı, sülalə ilə bağlı xalq "muğal", "padar" kimi etnonimlərlə adlandırdılar.

XVIII əsr rus işğalçıları Qafqazın azərbaycanlıları ilə digər müsəlman xalqları arasında heç bir fərq tapa bilmirdilər. Odur ki, Qafqaz əhalisini müsəlmanlara və xristianlara bölürdülər. Ə.Ələkbərov sözünə davam edərək yazır ki, XIX əsr sənədlərində işğalçılar (rus işğalçıları – X.X.) Qafqaz müsəlmanlarını ilk öncə "asiyalı", "müsəlman", "tatar", sonra onları Kazan, Krım tatarlarından fərqləndirmək üçün "Azərbaycan tatarı" adlandırdı.

Ə.Ələkbərov təkrar azərbaycanlıların mənşəyinə aydınlıq gətirmək üçün tarixə müraciət edərək, Strabona istinadən yazır ki, yasəf (türk – X.X.) tayfalarından olan tayfalar Alban dövlətini yaratdılar, həmin dövrdə sabir, bulqar, çuvaş tayfaları da Albaniyada məlum idi. Erməni tarixçiləri də bu haqda məlumat verir. Mənbələr hələ qədim dövrdən türk tayfalarının sülh xarakterli miqrasiyası və işğalçılıq məqsədləri ilə gəlmələri, Böyük Qafqaz dağlarından keçərək Azərbaycana ardıcıl axın etməsi haqqında məlumat verir (58, 75). Ə.Ələkbərov yazır ki, gəlmə türklər yerli yasəf (türk – X.X.) tayfaları birləşərək ərəb işğalına qarşı birgə mübarizə apardılar (58, 76).

Nəhayət, Ə.Ələkbərov IX – XIV əsrlərdə də Azərbaycana türk axınları haqqında məlumat verir. Ə.Ələkbərov nəticə olaraq bildirir ki, aborugen, kompakt yaşamış türk tayfaları zaman-zaman buraya axın etmiş türk tayfaları ilə, həmçinin buradan iran və ərəb tayfaları da daxil olmaqla Azərbaycan xalqını yaratdılar. Müsavat tarixçilərinin azərbaycanlıların Altaydan gəlmə türk tayfalarından yaranması haqqında fikirlərinin heç bir əsası yoxdur (53, 76).

Əsərdə "Azərbaycanlı" etnoniminin əsaslandırılmasına cəhd Azərbaycanda türklərin varlığının sübutuna cəhd səviyyəsinə çatmır. Əsərdə türkmənlərin azərbaycanlıları erməni adlandırması, müsavatçıların daşnak, menşeviklə birlikdə düşməni olması və s. fikirlər türk milli varlığının unudulmasına qarşı yönəlmiş fikirləri pərdələmək məqsədi ilə deyilmişdir. Elə E.Kərimov və Ş.Nurizadənin Ə.Ələkbərovun əsərlərində "keçmişin zərərli qalıqları" anlayışı altında xalqın əsrlər boyu formalaşmış, məişətdə dərin kök salmış və nəsildən-nəsilə keçən ənənəvi maddi və mənəvi mədəniyyəti, təsərrüfat məişəti nəzərdə tutulurdu" (193, 204) fikirləri də bu mənada başa düşülməlidir.

Ə.Ələkbərovun xüsusi nəzəri bilik tələb edən və Azərbaycan türklərinin etnogenezinin yerli türk tayfaları əsasında formalaşdığını mənəvi və maddi mədəniyyət abidələri əsasında formalaşmasını əsaslandırmış ən qiymətli əsərlərindən biri "Ayrımların yanında" əsəridir. İlk öncə ayrımların antropoloji cizgilərinin özünəməxsusluqlarını təsvir edən Ə.Ələkbərov göstərir ki, onlar bəzi cizgiləri ilə digər türk tayfalarından fərqlənsələr də, "bu gözəl türklər" Zəngəzur bölgəsinin Sisian türkləri ilə eyniyyət təşkil edirlər (58, 77-78). Bu fərq də təbii idi. Belə ki, dağlıq zona əhalisi düzən zonanın şəhər əhalisi ilə müqayisədə, tarixən qarışığa az məruz qalır. Antropoloji təsvirdən sonra ayrımların məişətini təsvir edən Ə.Ələkbərov qara damların quruluşunun inkişaf təkamülünə əsasən belə bir nəticəyə gəlir ki, Göycə, Gəncəbasar zonasında ayrımların qara damı türk kurqanlarının təkmilləşməsi prosesində formalaşmışdır. Bütün bunlar ayrımların yerli aborigen türklər olduğunu təsdiq edir. Onların daimi qışlaq sahəsi kurqanların təkamülünü təsdiq etdiyi kimi, yaylaq alaçıqlarının da tipik türk alaçıqları olduğunu göstərir. Çoxsaylı maddi və mənəvi mədəniyyət nümunələri əsasında ayrımların təmiz, başqa türk tayfalarının qarışığı-

na çox da məruz qalmamış türk tayfaları olması qənaətinə gəlir. Bu və digər arqumentləri ilə Ə.Ələkbərov M. Vəlilinin (Baharlının) ayrımların Osmanlı ərazilərindən gəlmə olmasını elmi arqumentlərlə təkzib edir.

Ə.Ələkbərov topladığı çöl etnoqrafik materialları və mənbələr əsasında ayrımların aborgen türk tayfaları olmasını elmi arqumentlərlə əsaslandırır. Ayrımların mənəvi və maddi mədəniyyəti, ənənəvi istehsal üsulları haqqında məlumat verdikdən sonra XX əsrin əvvəllərində Göyçə və Gəncəbasarda türk-müsəlman və erməni-ayrım olmaqla iki ayrım mövcud olduğunu yazır. Türk-ayrımlar və erməni-ayrımlar antropoloji cəhətdən, mənəvi mədəniyyət, xüsusilə adət-ənənə cəhətdən eyniyyət təşkil etdiyini göstərir, onları fərqləndirən birinci əlamətin dil və ikincinin isə türk və erməni etnonimləri olduğunu yazır (58, 87-88). Ə.Ələkbərov mənbələrə əsasən erməni-ayrımların yerli türk tayfası ayrımlarının erməni-qriqorian kilsəsi vasitəsi ilə xristianlaşdırılması, ermənileşdirilməsi prosesinin də baş verdiyini yazır.

Qarabağ, Zəngəzur və Göyçədə Tədqiq və Tətəbbö cəmiyyətinin xətti ilə İ.F.Petruşevski və b. tədqiqatçılar tərəfindən aparılmış araşdıpmalar da Ə.Ələkbərovun nəticələri ilə üst-üstə düşür. Həmçinin erməni mənbələri və akademik Z. Bünyadovun tədqiqatları da Qarabağda və Göyçədə ermənilərin türk alban və ayrımları xristian dini vasitəsi ilə assimilyasiya etməsini təsdiq edir (195; 196, 85-100). Bu sahədə apardığımız tədqiqatlar, istifadə etdiyimiz mənbələr deməyə əsas verir ki, Qarabağda və Göyçədə xristian alban-ayrım türklərinin ermənilər tərəfindən assimilyasiya prosesi XVIII əsrin sonlarında başlamış, XIX əsrin 50-60-c1 illərində başa çatmışdır (197).

Ə.Ələkbərovun "Ayrımlarrın yanında" məqaləsində rus mənbələrindən istifadə etsə də, XVIII-XIX əsr erməni siyasətinə tənqidi yanaşmamasının səbəbi şəraitin imkan ver-

məməsi ilə izah oluna bilər. Ə.Ələkbərovun əsərləri ilə ciddi tanışlıq göstərir ki, o, ondan sonra gələn bir çox etnoqraflar kimi elmi dərəcə, vəzifə və mənsəb xatirinə milli tarixə xəyanət etməmişdir. Ən çətin şəraitdə belə dolayı üsullarla məntiqi vasitələrlə milli tarixi həqiqəti gələcək nəsillərə çatdırmağa səy etmişdir.

Ə.Ələkbərovun 1937-ci ildə həbs olunub, 1939-cu ildə həbsdə vəfat etməsi təsadüfi hesab edilə bilməz. Yuxarıda adını çəkdiyimiz üç məqalənin müəllifi, təbii ki, ölümünün üzünə baxmağa həmişə hazır olmuşdur. Alim həyatı və həqiqi alim taleyi yaşamışdır. Təsadüfi deyil ki, onun ölümü ilə Azərbaycan Sovet etnoqrafiyasında nəzəri tədqiqat, etnosun etnososial inkişaf qanunları haqqında araşdırma sona çatdı.

Tarixçilərə-etnoloqlara qarşı repressiya təkcə Azərbaycanda deyil, həm də SSRİ miqyasına aparıldı. Belə ki, 1917-ci il oktyabr çevrilişindən əvvəl doğulub yetişən, əsasən zadəgan mənşəli tarixçilər Kommunist Rus imperiyasının hakim millətçilik siyasətini nə qədər uğurla yerinə yetirsələr də, dünyagörüşü formalaşmış tarixçilər nəsli idi və marksizm-leninizmin materialist nəzəriyyəsinə mexaniki surətdə əməl edə bilmirdilər. 1936-cı il SSRİ Konstitusiyasının qəbul edilməsi və proletariat diktaturasının qurulmasının başa çatmasının ardınca 1937-1938-ci illərdə V.V.Bartold, N.Y.Marr və bu kimi tarixçi, etnoqraf, dilçi nəsli məhv edildi.

Sovet etnoqrafiya elminin üçüncü mərhələsinin İkinci Dünya müharibəsinin sona çatdığı illərdən başlandığını nəzərə alaraq 1937-1938-ci illərdən etnoqrafik tədqiqatın nəzəri istiqamətdə inkişafını stimullaşdıran M. Vəlili (Baharlı) və Ə.Ələkbərovun məhv edilməsi ilə, etnoqrafiya vasitəsilə Azərbaycan türklərinin milli mənlik şüurunun sönməsinin qarşısının alınması istiqamətində cəhdlərə bütünlüklə son

qoyuldu. Etnoqrafiya anlayışının az-çox fəaliyyəti, "iş adamı" yaradılmasına istiqamətləndirildi. Maddi mədəniyyət adı altında ümumiləşdirilən, əsasən istehsal fəaliyyətinin və keçmişin, geriliyin qalığı kimi təbliğatda istifadə olunan geyim və s. əşyaların toplanmasına yönəldildi. T.Bünyadov, H.Quliyev və H.Həvilovdan fərqli olaraq, E.Kərimov Azərbaycan Sovet etnoqrafiyasının birinci və ikinci dövr mərhələsini belə qiymətləndirir: "20-40-cı illərin mühüm elmi hadisələrindən biri də etnoqrafik əşyaların toplanması hesab olunmalıdır. 1930-cu ildə Azərbaycan Dövlət Tarix Muzeyində 829 bu cür əşya qeydə alınmışdır. 1946-cı ildə isə etnoqrafik eksponatların sayı 4,5 minə çatmışdır. Bunların içərisində 90 milli qadın geyimi də var idi. Bədii tikmələr və xalq yaşayış evlərinə həsr olunmuş 5 fotoalbom tərtib olunmuşdu. Azərbaycanı öyrənən cəmiyyətin fotostudiyasında isə 1000-dən artıq etnoqrafik məzmunlu fotoşəkil toplanmışdı. Təəssüf ki, sonralar bu ənənə əvvəllər olduğu kimi, geniş miqyasda davam etdirilmədi (192). O, sözünə davam edərək, 20-30-cu illərin etnik-mənəvi durumu haqqında yazır: "Əsrimizin 20-30-cu illərində yeridilən ziddiyyətli milli siyasət Azərbaycanda mürəkkəb etnik durumun formalaşmasına səbəb olmuşdu. Həmin illərdə bir tərəfdən say tərkibindən asılı olmayaraq bütün xalqların bərabərliyi elan edilir, azsaylı xalqlar (etnik qruplar – X.X.) üçün əlifba və dərs vəsaitləri yazılır, respublika muzeyləri etnoqrafik eksponatlarla zənginləşdirilir, digər tərəfdən isə əsrlər boyu formalaşmış ənənəvi xalq mədəniyyətini inkar etmək meyilləri güclənir və qondarma "yeni sovet adət-ənənələri, bayramları və mərasimləri" kampaniyası, milli ziyalılara qarşı siyasi terror və repressiyalar siyasəti aparılırdı...

Belə bir şəraitdə partiya 1936-cı ildə "SSRİ-də milli məsələnin müvəffəqiyyətlə həll olunduğunu" elan etdi (191). E.Kərimov bu dövrün siyasətini həmin çağa aid rəsmi döv-

lət sənədləri və mənbələr əsasında dərindən təhlil edərək yazır ki, "aparılan milli siyasət birtərəfli və ziddiyyətli xarakter daşıyırdı; bir tərəfdən milli dillərin və mədəniyyətlərin inkişaf etdirilməsi elan edilir, digər tərəfdən xalqların məişəti və mədəniyyətlərində "ümumi cəhətlərin" formalaşması təsdiq edilirdi. Məsələni bu şəkildə həyata keçirmək üçün "beynəlmiləçilik" partiyanın əlində əsas şüarlardan biri idi. Bu tədbirlər və habelə ruslaşdırma siyasəti xalqların özünəməxsus milli xüsusiyyətlərinin sürətlə aradan qalxmasına səbəb olurdu.

Sovet İttifaqı Kommunist Partiyası həmişə maddi və mənəvi həyatda baş verən "böhranı" ört-basdır etməyə çalışmış və bundan yaxa qurtarmaq üçün bütöv etnosları "xalq düşməni" elan edərək uzaqlara sürgün etmişdir (68, 102). Kommunist Sovet imperiyası əsarət altına aldığı xalqların həyatında hər şey milli bütövlüyü parçalamağa xidmət edirdi. Bu cəhətdən Azərbaycanın inzibati rayonlaşdırılması milli gələcəyə qarşı yönəlmiş tarixi bir faciə nümunəsidir.

"İyirminci illərin sonu və 30-cu illərin əvvəllərində aparılan rayonlaşdırma, yeni ərazi-inzibati bölgü (qəzaların ləğvi və Azərbaycanın 60 kənd rayonuna bölünməsi) sahəsində buraxılan bəzi səhvlər əslində (qəsdən həyata keçirilən siyasət – X.X.) sonralar öz acı nəticəsini verdi. Bölgədə iqtisadi, coğrafi, tarixi və b. amillər (qəsdən – X.X.) nəzərə alınmamışdı. 20-30-cu illərdə aparılan milli dövlət quruculuğu işlərində də (1923-cü ildə DQMV-nin təşkili işi və s.) bir sıra kobud siyasi səhvlərə yol verilmişdi. Rayonlaşdırma sahəsində aparılan islahat kimi, bu məsələdə də tələsikliyə və düşünülməmiş tədbirlərə əl atılmışdır" (68, 102).

Dövrü həssaslıqla tədqiq etmiş E.Kərimov XX əsrin 20-30-cu illərində Kommunist Rus imperiyasının Azərbaycanda həyata keçirdiyi milli mənəvi pozuculuq tədbirlərini belə xarakterizə edir: "Dövlət quruculuğu işində milli-məişət

xüsusiyyətlərinin nəzərə alınmasının zəruriliyini o dövrün görkəmli etnoqrafları, o cümlədən Ə.Ələkbərov dəfələrlə qeyd etmişdir. Lakin partiya, hökumət buna əks milli siyasət yeritmək kampaniyasını genişləndirərək, süni surətdə yeni - qondarma, mülki adət və ənənələr formalaşdırırdı. Dinlə bağlı olmayan qədim adət və ənənələrə, mərasim və bayramlara, İslamdan əvvəlki etiqadlara, İslam dininə qarşı mübarizə kampaniyası başladı. Novruz bayramı, milli geyimlər, ənənəvi toy mərasimi, milli mahnıların əksəriyyəti, o cümlədən muğamat, milli musiqi alətləri (tar və s.) qadağan edildi. Muğamat və tarın "fars mədəniyyəti üçün xas olduğu" bildirildi. Bu barədə M. Quliyev yazırdı:

"...tar Azərbaycanın özündə əmələ gəlmiş bir musiqi aləti olmayıb, İrandan gəlmişdir. Musiqi və maarifin ali cəmiyyətlərin zövqünə xidmət etdiyi zamanlarda bu cür musiqi alətlərinə ehtiyac var idi. Tarın heç bir gələcəyi yoxdur və ola da bilməz. Tar dərəbəylik mirasıdır". 1929-cu ildə Azərbaycan XMK-nın xüsusi qərarı ilə Konsevatoriyada tarın tədrisi qadağan olundu. Konservatoriyanın nəzdində fəaliyyət göstərən "Şərq orkestrosu" da ləğv olundu. 30-cu illərdə bu sahədə bir sıra başqa tədbirlər də görüldü.

Rayonlara ezam olunmuş partiya və dövlət xadimləri milli məsələni yerlərdə "həll" edirdilər. Məsələn, onlar öz xidməti vəzifələrindən sui-istifadə edərək azərbaycanlı kişilərin milli papaqlarını "keçmişin qalığı" və "gerilik əlaməti" sayaraq çıxarıb yerə çırpırdılar. "Milli geyimlər" dini qalıqlarla bağlı olan köhnəlik əlaməti" kimi tənqid edilirdi. Hətta Azərbaycan XMK-nın 1929-cu ildə keçirilən kino və teatra milli papaqla getməyi qadağan etməsi, onların yeni Avropa tipli baş geyimləri ilə əvəz olunması haqqında göstəriş vermişdi". Bolşeviklər bu metodlarla bütün SSRİ xalqları üçün "ümumiləşdirilmiş" və yaxud "ümumxalq sosialist mədəniyyəti" formalaşdırmağa çalışırdılar" (68, 102; 181, 12).

Otuzuncu illərin əvvəllərində Novruz, Orucluq və Qurban bayramları qadağan olundu (181, 13). Göstərilənlər həyata keçirilən kompleks etnosid tədbirləri idi. Belə zorakı, qeyri-insani etnosid siyasətini dəstəkləməyən etnoqraflar 1936-cı il SSRİ Konstitusiyasının qəbulundan dərhal sonra, güllələnmə və sürgünlə məhv edildilər.

Sovet imperiyasının ömrünün son illərində (1988) SSRİ EA N.N.Mikluxo-Maklay adına Etnoqrafiya İnstitutunun nəşr etdiyi əsərdə SSRİ-də etnoqrafiyanın bütünlüklə həqiqi mənasında xalq haqqında elmə XX əsrin 50-ci illərində çevrildiyini yazırlar (29, 119). Göründüyü kimi, Sovet etnoqrafiyasının formalaşması haqqında imperiya etnoqrafları, "oktyabr inqilabı", 1920-ci il 27 aprel işğalı ilə Azərbaycanda etnoqrafiya elminin inqilabi surətdə inkişaf etməsi, sistemli elmi tədqiqat sahəsinə çevrilməsi məsələsində Azərbaycan Sovet etnoqrafları ilə müqayisədə az da olsa insaflıdır, ağla batan uydurma imkanından səmərəli istifadə edirlər.

Yuxarıda göstərdiyimiz kimi, Azərbaycanda etnologiya XIII əsrdə klassik mənada yaranmışdı. O, tərəqqili-tənəzzüllü həyat yolu keçmişdi. XX əsrin əvvəllərində bu elm Azərbaycanda inkişafının zirvəsində idi. Dünyanın ən qabaqcıl, milli mənəviyyatı bütövlükdə əhatə edən, onu hərəkətə gətirən, məqsədə doğru irəlilədən, istək və arzuya çatdıran yekdil, bütöv, sistemli elm idi. 1920-ci il 27 aprel işğalından sonra Azərbaycanda yaradılmaqda olan marksist-etnoqrafiya tarixi milli-həqiqi etnologiya elminin məhv edilməsi prosesidir. Apardığımız tədqiqatlar 1937-1938-ci illər milli etnoloqlar nəsli M. Vəlili və Ə.Ələkbərovun məhv edilməsi ilə milli etnoloji fikirə və milli etnologiya elminin yaşadılması işinə son qoyulduğunu deməyə əsas verir.

Rus Sovet etnoqraflarının SSRİ-də etnoqrafiyanın həqiqi mənada xalq haqqında elmə çevirilməsinin 50-ci illərdə başlandığını yazırlar. Lakin bu fikirin də elmi əsası yoxdur. Be-

lə ki, bu dövrdə "etnos"un etnoqrafiyanın predmetinə çevirilməsi təşəbbüsü amansızlıqla dəf olundu (29, 121-122). Nəhayət, 1957-ci ildən başlayaraq "etnos" M.Q.Levin və N.N.Çeboksarovun yaradıcılığında tədricən etnoqrafiyanın predmetinə çevrilməyə, vətəndaşlıq hüququ qazanmağa başladı, 1967-ci ildə A. İ. Perşits və N. N. Çeboksarovun yaradıcılığında başa çatdı.

Nəzərə alsaq ki, bu dövrdən SSRİ-də "etnos" haqqında nəzəriyyə bütövlükdə əsarət altına alınmış xalqlara qarşı etnosid alətinə çevirildi, bu ölkədə həqiqi mənasında etnoqrafiya (etnologiya) yaranmadığı etiraf olunmalıdır. SSRİ etnoqrafiya elminin tərkib hissəsi olan "elmə bənzər" etnoqrafiyanın Azərbaycanda formalaşması Sovet etnoqrafiya elminin 3-cü və 4-cü inkişaf mərhələsinə düşür.

Oktyabr çevrilişindən keçən müddət ərzində bütün sosializm quruculuğu prosesində kommunist ideologiyasından çoxlu insanlar üz döndərdi. Sosializm qiriculuğu prosesi azçox məntiqi təfəkkürə malik insanlarda sosializmin sosial ədalət, insanların bərabər olacağı haqqında illüziyanı alt-üst etdi, belə bir cəmiyyətin qurulmasının mümkünsüzlüyünü göstərdi. Sosializm quruculuğunun mümkünsüzlü ideyasının bütün kütləni əhatə etməməsi üçün bolşevik rəhbərliyi bütün təfəkkür sahələrini, birinci növbədə tarixçi-etnoqrafları məhv etdilər. "Bolşeviklər hakimiyyətə gəldikdən sonra onları dəstəkləyəcək, onun siyasi xəttini həyata keçirməkdə yardımçı ola biləcək sovet ziyalısına ehtiyac yarandı. Yeni "sovet ziyalısı"nı yetişdirmək üçün isə ilk növbədə "yeni ruhda" təşkil edilmiş sovet məktəbi yaradılmalı və gənc müəllim kadrları əsasən fəhlə və kəndli sinifindən hazılanmalı idi" (181, 17).

Kommunistlər genetikanın əleyhinə təbliğat aparmaqla fəhlə və kəndlilərdə özlərinə inam yaratmaq, onlardan alim, dövlət başçısı, bank işçisi, nazir, ümumiyyətlə, ziyalı, zadəg-

an yaranacağına inam yaratmaqla onları fasiləsiz mübarizəyə qoşmaq istəyirdilər. Artıq həmin dövrdə elm birmənalı sübut etmişdi ki, alimliyin, insanda qabiliyyətlərin hamısının anadangəlmə, təbii genetik imkanları var. Heç vaxt genetik imkanı olmayan fəhlə, kəndli və b. mənşəli adamdan yaradıcı alim, siyasi xadim olmayacaq, onlara alim rütbəsi, siyasi xadim vəzifəsi verilsə də, hakimiyyətin nökəri, təbəəsi olaraq qalacaq (24; 157; 158; 159; 216). Odur ki, elmi genetika ölkədə qadağan olundu, zadəgan, ziyalı sülaləsi məhv edilib proletariat və muzdur balaları vəzifəyə, ali məktəblərə, aspiranturalara və s. təhsil müəssisələrinə kütləvi qəbul olundu.

Sovet imperiyası Azərbaycanda da etnoqrafiya ilə məşğul olan sovet mütəxəssislərinin yaradılmasına ardıcıl diqqət yetirirdi. 1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətini (ATTC) ləğv edilib, əvəzində Bakıda Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu yaradıldı ki, onun tərkibində arxeologiya və etnoqrafiya bölmələri var idi.

1933-cü ildə SSRİ EA-nın Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi yarandı. Şöbənin tarix sektoru nəzdində yaradılan Maddi mədəniyyət bölməsi əsasən etnoqrafiya problemləri ilə məşğul olurdu. 1935-ci ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan Şöbəsi SSRİ EA-nın filialına çevrildi. Filialın nəzdində tarix, etnoqrafiya, arxeologiya və ədəbiyyat institutları adlandırılmağa başlandı. 1945-ci ildə Azərb. SSR EA yaradıldı, həmin ildə onun Gəncə (Kirovabad) şəhərində elmi mərkəzi yaradıldı, mərkəzin etnoqrafiya şöbəsi təşkil olundu. Şöbəyə 1929-cu ildə həbs edilib 8 il siyasi məhbus həyatı yaşamış Q.T.Qaraqaşlı rəhbər təyin olundu.

1954-cü ildə Azərbaycan EA Tarix İnstitutunun etnoqrafiya şöbəsi ilə bərabər Azərbaycan Tarix Muzeyində etnoqrafiya şöbəsi təşkil olundu.

1938-ci ildə Azərbaycanda milli etnoqraf, ümumiyyətlə, milli ziyalı nəsli məhv edildikdən sonra, sovet etnoqrafiya elminin inkişafının 3-cü mərhələsində milli mühitdə tərbiyə almış və milli ziyalı mühitində böyümüş 3 nəfər etnoqraf qalmışdı. Bunlardan birincisi zərərsizləşdirilimiş Q.T.Qaraqaşlı, ikincisi yüksək səviyyədə müşahidə və təsvir qabiliyyəti olduğundan, əsərlərində təsvirə geniş yer verdiyindən, "Abşeronda süni suvarma və su təchizatının xalq üsulları" adlı əsərinə və b. məqalələrinə görə etnoqraf da hesab olunan arxeoloq İ.Cəfərzadə, üçüncüsü isə R. Babayeva idi. R. Babayevanın "Abşeronda toy adətləri" (B., 1950) adlı monoqrafiyasını M. C. Bağırov 1951-ci ildə AK(b) XVIII qurultayında istehza ilə "vacib elmi əsər" adlandırmış və bu qurultayın nümayəndələrinin gülüşünə səbəb olmuşdu. Bununla da R. Babayeva fiziki cəhətdən məhv edilməsə də, bu hadisədən sonra yeni bir əsər yaza bilmədi. O, əsərində milli mənəviyyat, milli ideal təsvir etdiyi üçün Kommunist Rus imperiyasının təzyiqinə məruz qalan son etnoqraf oldu.

Təəssüflə qeyd etməyə məcburuq ki, Azərbaycanda Sovet etnoqrafiya elminin tarixinə əsər həsr etmiş H. Quliyev, T.Bünyadov və H.Həvilov heç biri onu dövrləşdirməmişdir. H.Həvilov süni formada olsa da dövrləşdirməyə bənzər bir mülahizə irəli sürmüşdü. O yazır: "XX əsrin 50-60-cı illəri Azərbaycan etnoqrafiyasında xüsusi bir mərhələ təşkil edir. Bu dövrdə bir tərəfdən ixtisaslı etnoqraf kadrlar yetişdirilir, digər tərəfdən də tədqiqat sahələri genişlənir, etnoqrafik tədqiqatlar yeni forma və məzmun alır" (55, 16-17). Lakin bu forma və məzmunun nədən ibarət olmasını şərh etmir. Görünür, o, müstəqillik illərində Azərbaycan etnoqrafiyasının vəzifələri kimi irəli sürdüyü Sovet etnoqrafiyasının milli mənəviyyatı məhvetmə prinsipinin həyata keçirilməsindən yaranan həyat tərzi və bunu alqışlayan forma və məzmunlu əsərlərin yaranmasını Azərbaycan etnoqrafiyasının uğuru

hesab edir (55, 12). Onun nəzərində 70-80-ci illərdə Azərbaycan etnoqrafiyasında yazılmış əsərlər sanki bu ölkəni çiçəkləndirmişdir. Lakin bu əsərlərdən hər hansının elmi yeniliyindən bir kəlmə də bəhs etməmişdir.

Azərbaycanda sovet etnoqrafiya elmini yazan müəlliflərin onu dövrləşdirməmələrinin obyektiv səbəbi var. Belə ki, milli mühitdə yetişmiş birinci nəsil Azərbaycan etnoqraflarının məhv edilməsindən sonra bütün varlığı dövründə Azərbaycan sovet etnoqrafiyasında etnos haqqında elmi-nəzəri cəhətdən keyfiyyət dəyişikliyi olmamışdır. Ə.Ələkbərovun yuxarıda adlarını çəkdiyimiz məqalələrindən sonra Azərbaycan sovet etnoqrafiyasında etnos anlayışı istiqamətində E. Kərimovun "XIX əsrdə Azərbaycanda etnik və etnoqrafik qrupların öyrənilməsi tarixindən" (198, 195-211) adlı məqaləsi istisna olmaqla ikinci bir məqalə yazılmadı. Sovet etnoqrafiyasında yaranan elmə bənzər müddəalardan Azərbaycan sovet etnoqrafiyasında istifadə olunmadı. Sovet etnoqrafiyasının inkişafının üçüncü mərhələsinin nəzəri yeniliyi hesab olunan "təsərrüfat – mədəni tip" və "tarixi etnoqrafik əyalət" (29, 120) anlayışları, nəzəriyyələrinin Azərbaycan sovet etnoqrafiyasına tətbiqi heç bir çətinlik doğurmurdu. Məhz elə bu müddəalarla Azərbaycan xalqının tarixi mədəniyyətini elmi tədqiqat dövriyyəsinə gətirib canlandırmaq mümkün idi. Azərbaycan sovet etnoqrafiyası bütün varlığı dövründə milli mədəniyyəti canlandırmaq istiqamətində heç bir təşəbbüs göstərmədi. Azərbaycan sovet etnoqrafiyasının tədqiqat obyekti "iş adamı"nın fəaliyyət sahəsini, 99% istehsalı əhatə edirdi. Azərbaycan sovet etnoqrafiyası bütün varlığı dövründə iqtibas yığını və təsvirdən ibarət olaraq qaldı.

Bəzi məqamları ilə razılaşmasaq da, Azərbaycan sovet etnoqrafiyasını onda baş verən məzmun dəyişikliyinə görə elmi əsaslarla 20-30cu illər və 40-80-ci illər mərhələləri üzrə

dövrləşdirən tədqiqatçı Emil Kərimovdur (67, 68, 191; 192). O, Azərbaycanın milli həyatında baş verən bütün hadisələri Sov. İKP və Sovet dövlətinin siyasətinin nəticələri kimi izah etsə də, Azərbaycan sovet etnoqrafiyasında baş verən keyfiyyət dəyişikliyini bütövlükdə sovet etnoqrafiyası ilə əlaqəli deyil, məhz Azərbaycan Sovet etnoqrafiyasının hadisəsi kimi izah etmişdir. Əslində bu özü də bir həqiqətdir. Azərbaycan sovet etnoqrafiyasının bir çox naqisliklərı heç də Moskvanın təzyiqi ilə yaranmamışdı, Azərbaycan etnoqraflarının ruhsuzluğundan, milli mənliyə biganəliyindən "malades" almaq, sadiq təbəə olduğunu sübut etməyin nəticəsidir.

E.Kərimovun Azərbaycan sovet etnoqrafiyasını dövrləşdirməsini - birinci mərhələni 20-40-cı illər, 2-ci mərhələni 50-80-ci illərə aid etsə idi, daha dəqiq olardı. Belə ki, 1951-ci ildə AK (b) XVIII qurultayında M.C.Bağırovun R. Babayevanın "Abşeronda toy adətləri" adlı milli etnoqrafik əsərini və "Dədə Qorqud Kitabı"nı "soyğunçuların" və "quldurların" dastanı adlandıraraq deyirdi: "Bəzi ədəbiyyatşünaslar və yazıçılar siyasi sayıqlığını və məsuliyyət hissini itirərək, uzun illər ərazidə bu zərərli, xalqa zidd kitabı Azərbaycan eposu adı ilə təbliğ etmişlər. "Dədə Qorqud" xalq eposu deyildir. Bu kitab başdan-başa soyğunçuluq və qırğın məqsədilə Azərbaycana gələn oğuz köçəri tayfalarının hakim yuxarı təbəqəsini tərifləməyə həsr edilmişdir. Bu kitab tamamilə millətçilik zəhəri ilə doludur" (69, 199; 190). Bu hadisə ilə Sovet hakimiyyəti dövründə milli hiss doğuracaq etnoqrafik əsərin doğulmasına son qoyuldu. Sonrakı dövrdə bəzi Azərbaycan yazıçı, şair və publisisti milli hissi canlandırmaq cəhdlərinə görə AKP-nin tənqidinə və təzyiqinə məruz qalsalar da, bir nəfər də olsun Azərbaycan sovet etnoqrafı belə tənqidə məruz qalmadı. Onlar Sov. İKP-nin tapşırıqlarını respublikamızda "şərəflə" "malades" ala-ala həy-

ata keçirirdilər.

E.Kərimov Azərbaycan etnoqrafiya elminin inkişafının ikinci mərhələsini xarakterizə edərək yazır: "Əsrimizin 60-80-ci illərində, yəni "inkişaf etmiş sosializm cəmiyyəti" və "kommunizm quruculuğu dövründə" keçmiş SSRİ-də milli münasibətlər sahəsində əsas istiqmət xalqların "konsolidasiyası" və "inteqrasiyası"na yönəldilmişdi. Bu isə "xalqların tarixi birliyi – sovet xalqının" formalaşması üçün zəmin yaratmalı idi. Belə bir şəraitdə xalqların, xüsusilə azsaylı xalqların tarix səhnəsindən silinməsi təhlükəsi yaranmışdı.

60-cı illərdən başlayaraq etnoqrafiya elmi sahəsində dövlət səviyyəsində aparılan siyasət müəyyən mənada 20-30-cu illərdə aparılan siyasətin modernləşdirilmiş davamı və bəzi hallarda isə təkrarı idi. "Müasir sovet məişəti", "yeni mülki adət-ənənələrin formalaşması və onların həyata tətbiqi", "Müasir etnik və mədəni məişət prosesləri" etnoqrafiyanın "qlobal" problemləri kimi əldə rəhbər tutulmuşdu. Nəticədə keçmiş SSRİ məkanındakı bütün xalqla haqqında etnoqrafiya elmindən uzaq olan, stereotip, şablon xarakterli əsərlər yazıldı. Bu proses Azərbaycan elmindən də yan keçmədi. Çünki bütün aparıcı problemlər Mərkəzlə bağlı idi" (191). E. Kərimov sözünə davam edərək yazır: "Sovet hakimiyyətinin son onillikləri ərzində, yəni "inkişaf etmiş sosializm quruculuğu şəraitində" başqa sosial elmlərdə olduğu kimi, Azərbaycan etnoqrafiyasında "sovet həyat tərzi", "yeni sovet məişəti", "sovet mülki bayramları və mərasimləri" kimi qondarma mövzular üzərində işləməli və onları həyata tətbiq etməyə çalışılmalı idi. Partiya və hakimiyyətin əsas diqqəti "xalqların yeni tarixi birliyini – sovet xalqının formalaşması", "konsolidasiya prosesləri" kimi qondarma nəzəriyyələri əsaslandırmaq məsələlərinə yönəldilmişdi" (192).

Sovet imperiyasında ictimai elmlər, birinci növbədə etnoqrafiya "elmi" xalqların qardaşlığı, dostluğu, bərabərliyi,

beynəlmiləlçiliyi pərdəsi altında etnosid, simasızlaşdırma, ruslaşdırma siyasəti yeridilir, onunla paralel tətbiq olunan siyasi, ideoloji, mənəvi, psixoloji, iqtisadi, inzibati vasitələrlə xalqlar zorakı assimilyasiya olunur, ruslaşdırılır, mənən sındırılırdı. Elə bu siyasətin nəticəsi idi ki, 1926-cı ildə SSRİ-də əhalinin siyahıyaalma zamanı qeydə alınan 195 xalqdan sonuncu 1989-cu ildə keçirilən siyahıyaalma zamanı 128-i qalmışdı, yəni Rus imperiyası 67 xalqı assimilyasiya edib tarix səhnəsindən silmişdi (68, 201). Əsarət altına alınan bütün xalqlar deqradasiyaya uğradılmışdı. Sovet imperiyasının hakimiyyəti altında ardıcıl mənəvi və fiziki təzyiqə məruz qalan, paralel etnosid və genosid siyasəti tətbiq olunan, gözümçıxdıya salınmış, özünə inamsızlıq yaradılmış, milli mənlik şüurundan məhrum edilmiş, adət-ənənəsi pozulmuş, inam və etiqad, milli arzudan məhrum edilmiş xalqlardan biri Azərbaycan türkləri idi. Elə bunun nəticəsi idi ki, 1988-ci ildə Azərbaycana növbəti erməni təcavüzü başlayanda sayca düşməndən 2 dəfədən çox, iqtisadi cəhətdən ondan qat-qat güclü olan Azərbaycan xalqı həmin təhlükəni dəf edə bilmədi. Ermənilər Dağlıq Qarabağdan əlavə Qarabağın daha 7 rayonunu işğal etməklə Azərbaycanın 20%-ə qədər ərazisinə nəzarəti ələ keçirdilər.

Bu işğalın səbəbləri milli və elmi şüura malik azsaylı ziyalıları dərindən düşündürdü. Etnosun hər bir qələbəsi və məğlubiyyətinin onun mənəviyyatından keçdiyi, mənəviyyatında baş verən tərəqqi və tənəzzülün nəticəsi olması tarixdə və elmdə çoxdan sübut olunmuşdu. Azərbaycan xalqının erməni təcavüzü qarşısında məğlubiyyətinin onun mənəviyyatında baş vermiş deqradasiya ilə bağlı olması haqqında vətənpərvər jurnalist Çingiz Sultansoyun və bu sətirlərin müəllifinin elmi mülahizələri və təklifləri yarandı (197, 3). Bu günlərdə psixologiya elmləri doktoru Ə. Bayramov və Ə. Əlizadə Azərbaycan xalqının tarixi, ənənəvi və profes-

sional-mənəvi durumu ilə real vəziyyəti arasında müqayisəli təhlil apardılar. Məlum oldu ki, Sovet imperiyasının Azərbaycan xalqına qarşı apardığı etnosid siyasəti nəticəsində millətin etnik özgürlüyü məhv edilmiş, sadəcə "iş adamına" çevrilmişdir (45, 4, 96-97, 105). Bu siyasət ardıcıl, sistemli tətbiq edildiyindən onda dezyunktiv (ayırıcı) hisslər, ona təcavüz edən ermənilərdə isə konyuktiv (birləşdirici) hisslər üstünlük təşkil edir (45, 90). Ə. Bayramov və Ə. Əlizadənin Azərbaycan xalqının professional mənəvi mədəniyyəti haqqında araşdırmalarının nəticəsi daha məyusedici olmuşdur. Iqtibas həcmcə böyük olsa da, tədqiqatın xarakteri onu olduğu kimi verməyi tələb edir.

"İstər-istəməz qarşıya sual çıxır: respublikamızda simvolik məntiq necə inkişaf etmişdir? O özünün indiki vəziyyətində respublikamızda etnopsixologiyanın inkişafını şərtləndirə bilərmi? Öz-özlüyündə son dərəcə aktual olan bu suala nisbətən geniş kontekstdə yanaşsaq, yeni problemlə - elmlərin qarşılıqlı əlaqəsi, daha dəqiq desək, etnopsixologiyanın "qohum" elmlərlə qarşılıqlı əlaqəsi problemi ilə rastlaşarıq. Bu problemi aydınlaşdırmadan Azərbaycanda etnopsixologiyanın müasir vəziyyətini və gələcək inkişaf meyillərini təhlil etmək, əslində mümkün deyil.

Etnopsixologiya müxtəlif elmlərlə bilavasitə bağlıdır. Onun inkişafı qanunauyğun surətdə məhz həmin elmlərin özlərinin inkişafı səviyyəsi ilə şərtlənir.

Axı, etnopsixologiyanın problemləri mahiyyətcə fənlərarası problemlərdir. O, öz problemlərini məhz bu elmlərin – sosiologiya, tarix, politologiya, dinşünaslıq, etnologiya, folklorşünaslıq, semiotika, sosial psixologiya və psixolinqvistika, demoqrafiya və s.-nin qovşağında həll edə bilər. Təəssüf ki, respublikamızda bu elmlərin bir çoxu kifayət qədər inkişaf etməmişdir.

Azərbaycan etnoqrafiyası barəsində, görünür, ayrıca da-

nışmaq lazımdır. Kənd təsərrüfatı, ev peşəsi və sənətkarlıq, yaşayış məskənləri və evləri, xalq geyimləri, yeməklər və içkilər, yollar və xalq nəqliyyat vasitələri kimi problemlərin öyrənilməsi sahəsində etnoqraflarımızın uğurları nə qədər fərəhli olsa da, ailə və ailə məişəti, mənəvi mədəniyyət problemləri etnoqrafik səpgidə hələ sistemli şəkildə öyrənilməmişdir. Nitqin etnoqrafiyası nəzəriyyəsi sahəsində tədqiqatlar aparılmamışdır" (45, 52-53). Etnoqraf M.Allahmanlı etnoqrafiya elmindəki bu vəziyyəti, mənəvi mədəniyyətin öyrənilməsinin kölgədə qalmasını "xalqın manqurtlaşdırılması siyasəti" kimi izah edir (200, 5).

Sovet Rus imperiyasının hakimiyyəti illərində Azərbaycan etnoqrafiyasında hökm sürən qeyri-obyektiv, qeyri-elmi, uydurma konsepsiyalarla xalqı yerli, gəlmə, işğalçı, ari, qeyri-ari kimi qruplara bölmüş, hələ eramızın əvvəllərindən vahid mədəniyyətə yiyələnməklə təşəkkül tapan bu xalqın etnik qrupları arasında dağıdıcı əhval-ruhiyyə formalaşdırmışlar. Azərbaycan tarixi etnik milli mədəniyyət tarixi kimi deyil, coğrafi anlayış kimi şərh edilmişdir (197, 5). Beləliklə, mənəvi mədəniyyətin təkrar istehsalında xüsusi əhəmiyyətə və funksiyaya malik tarix, xüsusilə etnoqrafiya elmi (Azərbaycan Sovet tarixşünaslığı, o cümlədən etnoqrafiyası) milli mədəniyyətdə dezyunktiv (parçalayıcı) hisslər doğurmaqla onun inkişafına mane olmuşdur (197, 5).

Maraqlıdır, sovet etnoqrafiyasının inkişafının birinci və ikinci mərhələsində həm Moskvada (mərkəzdə), həm Azərbaycanda etnoqraflar həbsə və güllələnməyə məruz qaldığı halda, sovet etnoqrafiyasının üçüncü inkişaf mərhələsində Moskvada (paytaxtda) bu elmin vəziyyətinə, ondan istifadə məqsədlərinə etiraz edərək həbs olunan etnoqraf (etnoloq) olsa da, sovet etnoqrafiyasının Azərbaycanda tətbiq etdiyi siyasətə qarşı etiraz edən yerli-milli etnoqraf tapılmadı. Deməli Kommunist Rus imperiyası Ş. Nurizadənin düzgün

müəyyənləşdirdiyi kimi, "fəhlə - kəndli sinifi" içərisindən çıxmış ziyalı nəslindən özünə sədaqətli dayaq yaratmışdı (181, 17). Yaradıcılıqlarından göründüyü kimi, onlar etnoqrafiyanın əsas predmeti olan etnosun təşəkkülü, inkişafı, onun özünəməxsusluqları, kollektiv davranış qaydaları, normaları, şəxsiyyət və sosial-siyasi mühitin qarşılıqlı təsiri, etnik psixologiyası, inam və etiqadı, milli mənlik şüuru, istək və arzuları və s. mənəvi dünyasından kənarlaşdırılıb etnoqrafiyanın predmetində son yeri tutan, ümumiyyətlə, etnoloji tədqiqatda xüsusi əhəmiyyətli yer tutmayan marksistlərin – kommunistlərin uydurması olan istehsalı əhatə edən "maddi mədəniyyət" (182, 5-14) sahəsi üzrə "ixtisaslaşdırılmış"lar. Əgər belə demək mümkünsə, aşağıda görəcəyimiz kimi, əslində onlar heç bu sahəni də mənimsəməmişlər. Qəsdən "elmi dərəcə" verib, elmi müəssisələrə rəhbər təyin etməklə xalqın öz nümayəndələrinin əli ilə Azərbaycanda etnologiya elminin inkişafının qarşısını alıblar.

Sovet imperiyasının mövcudluğu dövründə, daha doğrusu, İkinci dünya müharibəsindən sonra, 50-ci illərdən başlayaraq sovet məktəbinə məxsus Azərbaycan etnoqrafları yetişdirilməsinə başlanmışdı. Onları iki qrupa bölmək olar. Birinci qrupa Sovet dövrü sosialist məişətindən dissertasiyalar müdafiə etmiş "alimlər" və 1920-ci il 27 aprel işğalından əvvəlki tarixi dövrə aid dissertasiya işi yazmaqla etnoqraf adı almış alimlər. Aşağıda görəcəyimiz kimi, bu qrupun özü də iki hissəyə bölünür: a) sovet imperiyasının Azərbaycanda etnologiya elminin inkişafının qarşısını almaq üçün tam məqsədli, yetişdirilmiş olduğu, süni elmə dəxli olmayan "alimlər"; b) etnoqrafiyanı müstəqil elmi-tədqiqat səviyyəsi seçmiş, intellektual, aspiranturaya daxil olduqdan sonra elmi nailiyyət uğrunda mübarizə aparıb, sovet etnoqrafiyası metodologiyası çərçivəsində olsa da, milli mədəniyyətin bir sahəsini tədqiq edib, araşdırıb, material toplayıb, tarixi mə-

dəniyyəti gələcəyə ötürməkdə xidməti olan etnoqraflar.

Azərbaycanda sovet məişətindən dissertasiya müdafiə etmiş bütün "tarixçi və etnoqrafların" yazdığı "dissertasiya"lar və "elmi əsərlər" həyatdan uzaq, absurd, uydurma xülyadan başqa bir şey deyil. İstər siyasi, mülki tarixdə və istərsə də etnoqrafiyada mövzular Sovet İttifaqı Kommunist Partiyasının 5-illik planlarının həyata keçirilməsinin təntənəsinə həsr olunurdu. Bir kənd təsərrüfatı rayonunun və ya sənaye rayonunun, zavod və ya fabrikin istehsal fəaliyyətinə, işçilərinin sosial təminatına həsr olunmuş dissertasiya kolxozun, sovxozun, fabrik və ya zavodun real istehsal səviyyəsi, işçilərin gəliri və həyat səviyyəsi nəzərə alınmadan həmin dövrdə partiya sənədlərində ümumi kolxoz və sovxozun, fabrik və ya zavodun iqtisadi səviyyəsi, əhalinin gəliri və digər təminatları haqqında müddəa, fikir bu müəssisələrə şamil olunur, kommunizmin maddi-texniki bazasının möhkəmləndiyi, əhalinin iqtisadi-sosial təminatının yüksəldiyi göstərilir və kommunizmə doğru bir addım irəliləməsi haqqında "nəticə sübut olunurdu". "Böyük qardaş" – "böyük rus xalqı"nın onun proletariatının siyasi rəhbəri Sov. İKP-nin rəhbərliyi ilə 1928-ci ildən başlayan 5-illik planlarla kommunizmə doğru irəliləyən sovet xalqının addım-addım yaxınlaşdığı kommunizm 1988-1991-ci ildə bir anda al-əlvan rəngə boyanmış sabun köpüyü kimi yox oldu. Akademik Teymur Bünyadovun dediyi kimi olmadı, "Azərbaycan xalqının arzusu kama (yetmədi – X.X.) yetdi" (64, 32). Azərbaycan sosialist məişəti haqqında deyilənlərin sabun köpüyü olduğu sübut olundu. Bu hadisədən sonra sosializm-kommunizm quruculuğu haqqında dissertasiya yazıb "alim" adı almış adamlardan bir nəfər də olsun elmi rütbəsindən imtina etməməsi onların proletar mənşəliliyi, Kommunist Sovet imperiyasının simasızlaşdırdığı ünsürdən başqa bir şey olmadığının sübutundan başqa bir şey deyil-

dir.

Azərbaycan sosialist məişətindən bəhs edən, orada milli, ümumiyyətlə, etnoqrafik xüsusiyyət kəsb edən hər-hansı bir əsər mövcud olmadığı üçün bu sahədə nədənsə bəhs edə bilmirik. Belə əsərlər olmamışlar haqqında olmamışlardı. Onlar haqqında danışmaq da onlara bərabər olacaq.

Azərbaycanın ilk sovet etnoqrafları H.Quliyev və T.Bünyadovdur. Onlardan sonra bu sahədə elmi dərəcə almış şəxslərin təxminən 90%-nin elmi rəhbəri bu iki şəxs olmuşdur. Onlar arasında elmi rəhbər üstünlüyü T.Bünyadova məxsusdur. Lakin onların hər ikisinin yaradıcılığını konkret tədqiqata cəlb edəndə normal, adi orta səviyyədə bir elmi məqalələrinin olmadığı ortaya çıxır.

H. Quliyev 1953-cü ildə "Azərbaycanın kolxozçu kəndlilərinin sosialist məişəti və mədəniyyəti (Quba rayonunun materialları əsasında) adda namizədlik dissertasiyası, 1968-ci ildə "Azərbaycanda əkinçilik mədəniyyəti" adlı doktorluq dissertasiyası müdafiə edib, tarix elmləri doktoru, alimlik dərəcəsi almışdı (203; 204). Ehtiyac olmasa da, deməyə məcburuq ki, hər bir tədqiqatçının ən böyük arzusu, elmi müddəalar irəli sürüb, yazıb elmi dərəcə aldığı əsəri nəşr etdirməkdir. Lakin H. Quliyev nə namizədlik dissertasiyasını, nə də doktorluq dissertasiyasını nəşr etdirməmişdir. Səbəb ondan ibarətdir ki, bu əsərlərin heç birində elmi məzmun, müstəqil yaradıcılıq qabiliyyəti olmamışdır.

Təsadüfi deyil ki, onun elmi məqalə kimi iddia etdiyi əsərlərinin, nəşr olunan kitablarının hamısının plagiat olması, material toplamadan özündən uydurduğu adətlərlə keçmişə nifrət aşılayan əsərlər yazdığı dəfələrlə sübut olundu (205, 308-317; 206, 6-21; 207). Maraqlıdır, onun plagiat əsərlər yazdığı, hətta başqalarına elə plagiat üsulu ilə dissertasiya yazdığı sübut olunsa da, sovet imperiyasının varlığı illərində bu cinayətlər üstündə ona adi xəbərdarlıq belə

edilmədi. Görünür, bu çirkin əməllər dolayı üsullarla elə imperiyanın özü tərəfindən sifariş olunan, sifariş olunmasa belə imperiyanın arzusuna, istəyinə cavab verən əməl olduğuna görə o bu əməlləri üçün nəinki tənbeh olundu, hətta ardıcıl olaraq irəli çəkildi, ona etimad edildi, onun çirkin əməllərini ifşa edənlər əksinə, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutundan uzaqlaşdırıldı. Yalnız Azərbaycanın müstəqilliyindən sonra H. Quliyev alimə yaraşmayan əməllərinə görə Azərbaycan Respublikası yanında Ali Attestasiya Komissiyası tərəfindən elmi rəhbərlik, hər-hansı elmi müəssisədə elmi şura üzvü olmaq hüququndan məhrum edildi.

H.Quliyevlə eyni ildə namizədlik dissertasiyası müdafiə etmiş M. Atakişiyevin müdafiə üçün çap etdirdiyi 3 məqalə ilə elmlə vidalaşdığından ondan bəhs etməyə lüzum görmürük. H. Quliyevdən sonra T.Bünyadov 1951-ci ildən SSRİ EA-nın Maddi Mədəniyyət Tarixi İnstitunun aspirantı olub. "Tunc dövründə Azərbaycanda əkinçilik və maldarlıq" mövzusunda namizədlik dissertasiyası müdafiə edib, tarix elmləri namizədi adı almışdır. 1968-ci ildə Azərbaycan SSR EA Tarix İnstitutunda "Azərbaycanda əkinçiliyin və maldarlığın inkişafı tarixindən" adlı mövzusunda dissertasiya müdafiə edib, tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. H.Quliyevdən fərqli olaraq onun "Tunc dövründə Azərbaycanda əkinçilik və maldarlıq" (rusca, B., 1957), doktorluq dissertasiyasının əsaslarını təşkil edən "Azərbaycanda əkinçiliyin tarixinə dair" (B., 1964) və "Azərbaycanda maldarlığın inkişafı tarixindən" (B., 1969) adlı kitabları nəşr olunmuşdur. Bu fakt T.Bünyadovun əsərlərinin H.Quliyevin əsərlərindən səviyyəli olduğunu deməyə əsas verir.

T.Bünyadovun adları çəkilən əsərlərində müəllifin müstəqil surətdə irəli sürdüyü adi bir mülahizə yoxdur. Müəllif

Azərbaycanda sistemli şəkildə heç bir arxeoloji qazıntı işi aparmamışdır. T.Bünyadovun "Tunc dövründə Azərbaycanda əkinçilik və maldarlıq" əsəri bütünlüklə başqa arxeoloqların tədqiqatlarına iqtibasdan ibarətdir. Bir çox hallarda iqtibaslar zamanı istifadə etdiyi mənbələri, tədqiqatları təhrif edir" (201). T.Bünyadovun haqqında bəhs olunan əsərində əkinçiliyin inkişafının əsasını təşkil edən etnososial prosesə dair nəinki hər hansı bir izah var, adi işarə belə yoxdur. Halbuki sinifli cəmiyyətin əsasını təşkil edən bütün sosial, iqtisadi, mənəvi, ideoloji münasibətlərin təməli bu dövrdə qoyulmuşdur. T.Bünyadov "Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair" əsərinin girişində yazır ki, neolit dövründən başlayaraq eramızdan əvvəlki I minilliyə qədərki dövrün əkinçilik tarixi onun "Tunc dövründə Azərbaycanda əkinçilik və maldarlıq" əsərində işlənmişdir. Odur ki, bu əsərdə o, e.ə. I minillikdən başlayaraq eramızın XII-XIII əsrlər dövründəki əkinçiliyini bu əsərində tədqiq etmişdir (202). Qeyd edim ki, müəllifin bu əsəri də sadəcə iqtibas yığınından başqa bir şey deyildir. Müəllif suvarma sisteminin adını çəksə də, onu izah edə bilmir. Ümumiyyətlə, əkinçilik sistemi anlayışına heç vaxt toxunmur. Əkinçilikdən tarix elmləri doktoru alimlik dərəcəsi alan, bu sahədə iki monoqrafiya nəşr etdirən müəllifin əkinçiliyin əlifbası olan əkinçilik sistemi anlayışına toxunmaması, daha doğrusu toxuna bilməməsi belə əsərlərin, onun müəllifinin elmdən uzaq olmasının göstəricisindən başqa bir şey deyil. Əsərində başqalarının,əsasən də arxeoloqların əsərlərinə istinad edir. Əsərdə istifadə olunan ədəbiyyatın 80%-i arxeolojidir.

Arxeoloji dövr və, ümumiyyətlə, arxeoloji material əsasında doktorluq dissertasiyası yazan T.Bünyadov tək bircə dəfə Ağdam rayonu Üzərliktəpə tunc dövrü abidəsinin qazıntısında şəxsən iştirak etdiyini bildirir (202, 41). O, tez-tez XX əsrə aid çöl materiallarını eyni ilə e.ə. I minillikdən era-

mızın XII-XIII əsrlərinə aid edir. Onun yazdıqlarından belə çıxır ki, Azərbaycanda sinifli cəmiyyətin formalaşması, ilkin feodalizmin təşəkkülü, feodalizmin çiçəklənməsi, Azərbaycandan başlanan Şərq intibahı, feodalizmin tənəzzülü və kapitalizmin inkişafı dövründə Azərbaycan əkinçiliyində, əkinçilik texnikasında, əmək məhsuldarlığının təkmilləşməsində hər hansı əsaslı dəyişikliklər baş verməmişdir (202).

Ümumiyyətlə, T.Bünyadov irəli sürdüyü müddəaya heç vaxt ciddi yanaşmır, eyni bir şeyə aid tez-tez özü-özünü təkzib edən tezislər irəli sürür. Misal üçün, "Azərbaycanda maldarlığın inkişafı tarixindən" əsərinin girişində tədqiqat dövrünün e.ə. I minillikdən eramızın XII – XIII əsrlərini əhatə etdiyini göstərdiyi halda (208, 4), "Azərbaycanda etnoqrafiya elminin inkişafı" adlı məqaləsində bu monoqrafiyasının təxminən dörd min illik bir dövrü əhatə edir" yazır (66, 13).

Maldarlığın formaları haqqında yazır ki, oturaq maldarlıq "neolit və bəlkə də mezolit dövründə" yaranıb (208, 7). Oturaq maldarlıq zəminində e.ə. III minillikdə köçmə maldarlıq forması yaranır (208, 9-20). D.İ.İsmayılzadəyə istinadən, "yarımköçəri maldarlığın XI–XIII əsrlərdə Azərbaycanda türk və monqolların gəlişi ilə təşəkkül tapdığını" yazır (208, 23). Sözünə davam edərək yazır ki, bu formanın inkişafında gəlmə köçərilərin böyük rolu olmuşdur. Lakin hələ XI əsrdən çox əvvəl, b. e. IV–V əsrlərində türkdilli tayfaların Azərbaycana hücumları olmuşdur. Ona görə də köçəri maldarlığın yaranması tarixini qədim dövrdə axtarmaq lazımdır. Təkcə qazmaların tarixi deyil, eyni zamanda köçəri maldarlığın dövrü və xarakterini öyrənməkdə arxeoloji axtarışlar zamanı Mil düzündə müəyyən edilmiş bəzi abidələrin də böyük əhəmiyyəti vardır. İ. Nərimanovun rəhbərliyi ilə 1957-ci və 1960-cı illərdə Ağcabədi rayonunun Salmanbəyli kəndi ərazisində aparılan qazıntılar nəticəsində təxmi-

nən 2 hektar sahəni əhatə edən yaşayış yerini nəzərdə tuturuq. Buradakı üçüncü qazıntı sahəsində aparılan arxeoloji qazıntılar nəticəsində təxminən e.ə. IX–VIII əsrlərə aid bir neçə qazma aşkar edilmişdi ki, bu da bütün Qafqaz üçün hələlik müstəsnalıq təşkil edir.

Qazmada müşahidə edilən nazik laylar onun ilin müəyyən vaxtlarında istifadə edildiyini göstərir ki, bu da tamamilə etnoqrafik materiallara uyğun gəlir. Həqiqətən də eyni hal Azərbaycanda heyvan saxlanan qazmalarda müşahidə olunur (208, 21-22).

Göründüyü kimi, T.Bünyadov neolit dövründə e.ə. IX–VIII əsrlərdə oturaq maldarlıq forması yarandığını göstərir (208, 7). Eyni zamanda köçəri maldarlıq forması yarandığını arxeoloji və etnoqrafik material əsasında "sübut" edir (208, 21-22, 23). "Maldarlığın formaları" adlanan fəslin sonunda və nəticədə tədqiq olunan dövrdə ancaq oturaq, köçmə və yarımköçəri maldarlıq təsərrüfat formaları olduğunu yazır, özünün bəhs etdiyi tədqiqata cəlb etdiyi, Azərbaycanda mövcud olduğunu iddia etdiyi köçəri maldarlıq formasından yan keçir, ondan bəhs etmir (208, 24, 168-171).

T.Bünyadov köçmə maldarlıqla yarımköçəri maldarlıq formasının fərqi haqqında yazır: "Toplanılan etnoqrafik materiallardan aydın olur ki, köçmə və yarımköçəri maldarlıq formaları arasında yaxınlığın olmasına baxmayaraq, əhalinin yaşayış tərzində xeyli fərq vardır. Köçmə maldarlıqda əhalinin müəyyən qismi, əksər hallarda isə çoxu daimi yaşayış məntəqəsində qalıb təsərrüfatın digər sahələri ilə məşğul olduqları halda, yarımköçərilikdə əksinə, bütün əhali öz sürüləri ilə köçməli olurdu... Yarımköçərilərin yeganə məşğuliyyəti heyvanları, xüsusilə xırdabuynuzlu heyvanları saxlamaqdan ibarət olmuşdur. Bu forma Azərbaycanda o qədər də geniş şəkil almayaraq Şirvan, Qarabağ, Mil-

Muğan düzlərində yaşamış bir qrup əhaliyə xas olmuşdur" (208, 23-24). Əvvəla, hörmətli akademik köçmə və yarımköçəri maldarların həyat tərzini düzgün izah etmir (ətraflı bax: 210; 211).

T.Bünyadov köçmə və yarımköçəri maldarların həyat tərzi arasında bu qədər fərq göstərdiyi halda "yarımköçəri maldarlıq formasını köçmə maldarlıq forması adlandırmaq daha düzgün olar" (208, 11) yazması, onun cəmiyyətin sosial strukturunu bilməməsindən doğur, əgər belə deyilsə, bu elmi məsuliyyətsizlikdən başqa bir şey deyildir. Oxucunun diqqətinə çatdırmağa lüzum görürük ki, sovet etnoqrafiyasında maldarlığın formaları, xüsusilə köçərilik məfhumu dəfələrlə müzakirə, polemika meydanına çevrilsə də, akademik T.Bünyadov bu diskussiyalarda bir dəfə də olsun iştirak etmədi. Halbuki bu diskussiyalarda iştirak etməyi Azərbaycan xalqının mənafeyi tələb edirdi. Bu sahənin mütəxəssisi hesab olunurdu, müvafiq elmi şöbəyə də o rəhbərlik etmişdi.

T.Bünyadov 1960-cı ildən Azərb. SSR EA Tarix İnstitutunun baş elmi işçisi, 1967-ci ildə həmin institutda etnoqrafiya şöbəsinin müdiri olmuşdur, az sonra institutda "Sovet dövrü etnoqrafiyası" şöbəsinin yaranması ilə onun rəhbərlik etdiyi şöbənin adı və tədqiqat dövrü dəyişdirilərək "Tarixi etnoqrafiya şöbəsi" adlandırıldı. Yeni şöbəyə H. Quliyev rəhbərlik etdi. Tarix İnstitutu daxilində Arxeologiya və Etnoqrafiyanın xüsusi elmi sektora çevrilməsi ilə etnoqrafiya elminin mövqeyini bir qədər də artırdı.

Azərbaycan sovet etnoqrafiyasının fəaliyyət problemləri, elmi istiqamətləri T.Bünyadov və H.Quliyev tərəfindən işlənib hazırlanırdı. Hər ikisi şöbə müdiri olduqları vaxtdan Tarix İnstitutunun elmi şurasının üzvü olmuş, beynəlxalq konfranslarda iştirak etmiş, dünyanın qabaqcıl, tanınmış tarixçiləri ilə elmi əməkdaşlıq etmişlər. Elm tarixində, xüsu-

sən humanitar elmlərin təhlili və mənimsənilməsində subyektivliyə yol vermək, hissə qapılmaq mümkün olduğundan, T.Bünyadovun elmi yaradıcılığını təhlildən yan keçib, özünün yazdığı kimi "dərin məzmunlu və əhatəli" (64, 6) "Azərbaycan etnoqrafiyası" nəşrinin I cildinə onun yazdığı müqəddimə və "coğrafi şərait və tarixi oçerk"dən orta məktəb dərsliklərində olan və orta məktəb şagirdlərinin bildiyi sualları hansı forma və məzmuna saldığını iqtibasla oxucunun, gələcək nəsillərin diqqətinə çatdırmaqla kifayətlənəcəm. O yazır: "Dünyada on dörd mövcud iqlim şəraitinin on birinin Azərbaycanda olması bu torpağın şöhrətini ucaldıb" (64, 5). O, sözünə davam edərək yazır: "Üst paleolitin sonlarından yeni daş dövrünə keçid başlanır. Keçid daş dövrü mezeolit adlanır. Yunan sözü olan, "mezos" – ara , "litos" – daş deməkdir. Bu dövrdə buzlaşmalar əsasən sona çatır. İqlimin dəyişməsilə nəbatat və heyvanat aləmi də dəyişərək təxminən müasir dövrə uyğun gəlir. Bu dövrdə ilk dəfə ox və kaman meydana çıxır. F.Engels bu münasibətlə yazır: "Barbarlıq üçün dəmir qılınc və sivilizasiya üçün odlu silah nə idisə, vəhşilik dövrü üçün də yay və ox eyni şey idi, yəni həlledici silah idi". Bu alətlərin vasitəsilə daha çox ov edilmiş, həm də tayfalararası mübarizədə onlar mühüm rol oynamışdır.

Daş dövrünün sonuncu mərhələsi Neolit – Yeni Daş dövrüdür. Neolit dövrü təxminən eramızdan əvvəlki X minillikdən başlayaraq eramızdan əvvəlki VII – VI minilliklərdə sona çatır. Azərbaycanda bu dövrdə ovçuluq və yığım işinin inkişafı əkinçilik və maldarlığın yaranmasına səbəb olur. Neolit dövründə dulusçuluq və toxuculuq kimi sənət sahələri yaranır, əzmək, parçalamaq və qazmaq üçün işlədilən daş alətlər həcm etibarilə nisbətən böyük ölçüdə olur. Oturaq həyat tərzi keçirən tayfalar düzəltdikləri süni evlərdə yaşamağa başlayırlar.

İbtidai icma quruluşu şəraitində Neolitdən sonrakı mərhələ Eneolit dövrü adlanır. Latınca "eneos" – mis, yunanca "litos" – daş deməkdir. Azərbaycanda Eneolit dövrü daş dövrünə nisbətən az davam etsə də, materialların zənginliyi və öyrənilmə dərəcəsinə görə xeyli üstünlük təşkil edir. Eramızdan əvvəlki VI – IV minillikləri əhatə edən Eneolit dövrü bir sıra xarakterik cəhətlərinə görə fərqlənir.

Bu dövrdə Azərbaycanda yaşayan tayfalar məişətdə mis alətlərdən istifadə etmişlər. Lakin onların əməli fəaliyyətlərində daş alətlər üstünlük təşkil etmişdir. Bu mülahizəni arxeoloji qazıntılardan aşkar edilən maddi-mədəniyyət qalıqları təsdiq edir. Tayfalar yerli inşaat materiallarına uyğun çiy kərpic, möhrə və bəzən də çaydaşlarından müxtəlif quruluşlu evlər tikmiş, yaşamış və əmək fəaliyyətlərini davam etdirmişdir. Əkinçilik və maldarlıq yerli əhalinin əsas təsərrüfat sahələri kimi xeyli inkişaf etmişdir. Bu dövrdə cüt əkinçiliyinin əsası qoyulmuş, az da olsa süni suvarma sistemləri yaranmışdır. Oturaq və qismən də köçmə maldarlıq forması əsasında mal-qara sürülərinin sayı xeyli artmışdır. İnkişafda olan təsərrüfat sahələrinə uyğun dulusçuluq, toxuculuq, daşyonma və ağacişlətmə peşə sahələri üstün mövqe tutmuşlar. Bu dövrdə yerli əhali ictimai həyatlarında yeni bir mərhələyə qədəm qoymuşlar. Bu dəyişiklik ilk ictimai əmək bölgüsünün yaranmasına, ana nəslinin ata nəsli ilə əvəz olunmasına gətirib çıxarmışdır... (64, 14-15).

Sözünə davam edərək yazır: "Tunc dövründə yaşayan yerli tayfaların yüksək təsərrüfat həyatına, zəngin maddi mədəniyyətə və dini görüşlərə malik olduqlarını abidələrdən tapılan materiallar təsdiq edir. Bu dövrdə tayfalararası mübarizələr daha geniş miqyas alır, sənətkarlıq və mübadilə genişlənir. Qədim Şərq ölkələrilə iqtisadi və mədəni əlaqələr xeyli artır. Mülki bərabərsizlik, güclü və gücsüzlər dünyasının yaranması ibtidai icma quruluşunun dağılmasına gətirib

çıxarır...

Dəmir dövründə təsərrüfat, sənətkarlıq və mübadilə ilə yanaşı, ictimai quruluşda da əsaslı dəyişikliklər baş vermişdir. İbtidai icma quruluşunun daxilində baş verən ziddiyyətlər tədricən onu sarsıtmış və dağılmasına səbəb olmuşdur. Nəticədə siniflər və dövlət yaranmağa başlamışdır. Qəbilə quruluşu öz dövrünü başa vurmuşdu. Onun əmək bölgüsü və bunun nəticəsində cəmiyyətin siniflərə parçalanması dağıldı. Onun yerini dövlət tutdu" (K.Marks, F.Engels. Seçilmiş əsərləri, 3 cilddə, III c., s. 374) (64, 17-18). Bu iqtibaslar T.Bünyadovun "Azərbaycan arxeologiyası oçerkləri" (B., 1960) əsərindən sonra elmdə təkamül, yüksəliş keçirdiyi 28 ildən sonra yazdığı əsərindən götürülmüşdür. Onun əsərindən seçmələrdən göründüyü kimi, T.Bünyadov kənd təsərrüfatının əsasları olan Azərbaycanın iqlimi, arxeoloji dövrləri, etnososial inkişafın mərhələləri haqqında yazdıqları onun hətta "Azərbaycan arxeologiyası oçerkləri" (B., 1960), yuxarıda əkinçiliyə və maldarlığa aid adını çəkdiyimiz əsərinin müəllifi olmasını belə şübhə altına alır. Əsərlərindən göründüyü kimi, o, tarixi prosesi, hadisəni düzgün təsəvvür edə, yaza, nə də orta məktəbin beşinci sinifində tarix dərsliyində işlədilən etnososial terminlərin məzmununu aydın təsəvvür edə, nə də ki, başqalarından əxz etdiyini düzgün köçürə bilir (ətraflı bax: 207).

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan Sovet tarixşünaslığı Azərbaycanın tarixi torpaqları İrəvanı, Zəngəzuru, Göyçəni, Borçalını, Dərbəndi və s. Ermənistan, Gürcüstan, RSFSR əraziləri kimi yeni nəsillərin yaddaşına aşılamaqla tarixi bir cinayət etdi. Akademik A. Sumbatzadənin fəxr etdiyi Moskvanın Azərbaycan üçün uydurduğu tarix konsepsiyası daxilində çox aydın şəkildə ermənilərin Azərbaycana ardıcıl torpaq iddiaları konsepsiyaları da yerləşdirilmişdi. Bu konsepsiya 3-cildlik "Azərbaycan tarixi"nin

(B., 1964) ikinci cildində belə ifadə olunmuşdur: "1828-ci il fevralın 10-da Türkmənçayda sülh müqaviləsi bağlandı. Naxçıvan xanlığı, Ordubad dairəsi, həmçinin Erivan xanlığının tərkibinə daxil olan Şərqi Ermanistan ərazisi Rusiyaya birləşdirildi" (212, 48). Elə həmin əsərdə, çoxsaylı mənbə, kitab və sənədlərdə yazılır ki, 21 mart 1828-ci ildə I Nikolayın fərmanı ilə Naxçıvan və İrəvan xanlığı ərazisi birləşdirilib "erməni əyaləti" adlandırıldı (213; 214). Maraqlıdır 1988-ci ildə İrəvan, Göyçə, Zəngəzur mahallarından - tarixi dədə-baba yurdlarından türk və müsəlmanlar qan içində boğulub, körpə uşaqlar dəmir borular içərisinə yığılıb öldürülüb, Azərbaycana göndəriləndə, hətta Qarabağın dağlıq hissəsindən Azərbaycan türklərinin qovulub, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda ermənilərin hərbi mübarizəsi başlayanda Azərbaycan torpaqlarının işğal ideologiyasını 1964-cü ildə Azərbaycan tarixinin ikinci cildinə daxil edilmiş işğal ideologiyasının ifadə edən cümləni 1988-ci ildə nəşr olunan Azərbaycan etnoqrafiyası, 1-ci cild, səhifə 27-yə daxil etməyə, təkrar dövriyyəyə gətirməyə akademik T.Bünyadovu kim və nə məcbur edirdi? Onu belə bir mövqe tutmağa vadar edən nə idi? Zaman göstərdi ki, Azərbaycan etnoqraflarının hamısı heç də T.Bünyadov mövqedə deyil. T.Bünyadovun göstərilən əsərinin nəşr olunmasından hələ bir il əvvəl S. Ağamalıyeva Azərbaycan Sovet tarixşünaslığında ilk dəfə 1987-ci ildə nəşr olunan "Azərbaycan dulusçuluğu" kitabında çap etdiyi xəritədə İrəvan vilayətini Azərbaycanın tarixi torpağı, ərazisi kimi göstərmişdi (215, 101). Xəritədə milli şüura təsir edəcək çoxsaylı ştrixlər də var. S. Ağamalıyeva bu milli ləyaqət nümunəsi olan işi ilə heç vaxt kiminsə gözünə girməyə təşəbbüs etmədi.

A.F.Losyev kommunistlərin Sovet imperiyasında tarixin əcaib şəkilə salınmasını kəskin tənqid edərək bildirirdi ki,

"bizim bilik dairəmiz yalnız keçmiş dövrləri öyrənməklə genişlənə bilər, tarixi bilmədən biz kor siçana bənzəyirik. Tarixi başa düşmək üçün onu yenidən yaratmaq və təcəssüm etdirmək lazımdır. Losyev belə bir nəticəyə gəlmişdi ki, həyat təcrübəsi tarixi qavrayışları toplayıb yenidən işləmək nəticəsində yaranır. İstər şəxsi, istərsə də ictimai həyat da belədir. Losyev təklif edirdi ki, cəmiyyətin "kor siçana" bənzəməməsi üçün xalqların obyektiv tarixi yazılmalı və gələcək nəsillərə çatdırılmalıdır (11, 442). Görkəmli rus filosofu N.A.Berdyayevin fikrincə, cəmiyyətin sosialistcəsinə yenidənqurma üsullarının bütün formaları öz təbiəti etibarilə insanın və şəxsiyyətin əleyhinə yönəldiyi üçün onlardan istifadə edib ölkədə qayda-qanun yaratmaq mümkün deyildir (11, 440). Zaman N.A.Berdiyayevin dediklərini təsdiq edirdi. 1961-ci ildə Sov. İKP XXII qurultayı partiyanın yeni - üçüncü proqramını – kommunizm quruculuğu proqramını qəbul etsə də, 1966-cı ildə keçirilən XXIII qurultayı kommunizm quruculuğu şüarından çəkinməyə başladı, tədricən "kommunizm quruculuğu" anlayışını "yetkin sosializm" anlayışı ilə əvəz etməyə başladı.

1967-ci ildə Sovet etnoqraflarından A.İ.Perşits və N.N.Çeboksarovun yaradıcılığında etnos, etnogenez, etnik tarix, etnik coğrafiya, etnososiologiya, mədəniyyət tarixi və s. məsələlər Sovet etnoqrafiyasının tədqiqat probleminə çevirildi. Y.V.Bromleyin 1973-cü ildə "Etnos və etnoqrafiya" kitabının nəşri ilə Sovet etnoqrafiyası yeni mərhələyə daxil oldu. Marksizm mövqeyindən olsa da etnos, milli məsələ etnoqrafların tədqiqat probleminə çevirildi. 1968-ci ildə SSRİ Ali və Orta Təhsil Nazirliyinin qərarı, S.A.Tokaryevin redaktəsi ilə nəşr olunan "Etnoqrafiyanın əsasları" adlı dərs vəsaitində aydın təsəvvür yaradılır, adət-ənənə, dil, etnik, ərazi, məişət və mədəniyyətin özünəməxsusluğu, etnik mənşə və etnik şüur etnosun əsas əlamətləri hesab olunur

(62, 8). 1982-ci ildə Y.V.Bromley və G.Y.Markovun redaktəsi ilə nəşr olunan "Etnoqrafiya" dərsliyində etnos haqqında deyilir ki, Sovet etnoqrafiya elmində olan mövqeyə görə, "etnos" (xalq) insanın iradəsi ilə deyil, təbii-tarixi təkamül prosesində formalaşmış xüsusi sosial qrupdur. Etnosun xarakter cəhətləri çox möhkəmdir, o onları bir çox yüzilliklər boyu qoruya bilir. Hər bir etnos daxili birlik qüvvəsinə malik olur, həmçinin özünəməxsus əlamətlərlə, bütün bu tip başqa birliklərdən fərqlənir. Bu əlamətlər içərisində insanların milli şüuru əsas rol oynayır, müstəqil etnos yaradır, onun özünəməxsusluğunu, başqalarından fərqini, "biz" və "onlar" tezis və anti tezislərini yaradır. Milli şüur həmçinin etnosun özünüadlandırmasını da yaradır (51, 5).

1968-1982-ci illərdə nəşr olunan dərsliklərdə etnosun yaranması və xarakter xüsusiyyətləri haqqında ali məktəb dərsliklərində yazılanları oxuyandan sonra "sovet imperiyası tariximizi – etnoqrafiyamızı yazmağa qoymayıb" deməyə çox da əsasımız yoxdur. Moskva etnoqrafiyası assimilyasiyanı necə maskalayırdısa elmi və milli vicdanı olan etnoqraflar da milliliyi, adət-ənənəni qorumağı eləcə maskalayaraq xalqına xidmət edirdi. Sovet etnoqrafiyası tarixşünaslığına nəzər saldıqda görürük ki, 70-ci illərin əvvəllərindən nəinki SSRİ-nin Avropa hissəsindəki xalqlar, hətta özbəklər, qırğızlar, qazaxlar, başqırdlar, tatarlar və başqa xalqların etnoqrafları xalqlarının etnogenezini, etnik tarixini, milli mentalitetini, xalq pedaqogikasını nəinki maskalanmış formalarda, bir çox hallarda açıq şəkildə yazmağa başladılar. Türkmən etnoqrafları isə xalqlarının milli xarakteri haqqında əsərlərin nəşrinə 1967-ci ildən başlamışdılar, özbəklərdə bu mövzuda doktorluq dissertasiyası 1971-ci ildə müdafiə edilmişdi. Odur ki, "Azərbaycan etnoqrafiyasında Azərbaycan xalqının sadəcə "iş adamı" kimi təsvir edilməsinin əsas səbəbini içərimizdə axtarmalıyıq. Russo demişkən, de-

məli, insan bəlanın kökünü "özündə axtarmalıdır" (165, 12). **Tariximizin, etnoqrafiyamızın, mədəniyyətşünaslığımızın bugünkü miskin vəziyyətinin birinci günahkarı özümüzük. Özümüzük deyəndə, yəni "əsl sovet tarixçilərimiz" "əsl sovet etnoqraflarımız"dır.**

Etnoloji tədqiqatlar sübut etmişdir ki, fərdə məxsus bütün hisslər və mənəvi dəyərlər onun formalaşması üçün lazım olan mənəvi qida, mənəvi-sosial mühit və mənəvi qidanın istehlakı (qəbulu) ilə bərabər təkrar istehsalı eyni ilə hər bir toplumun (etnosun) təşəkkülü, yaşaması və inkişafı prosesində olduğu kimi özünü göstərir. Fərdə məxsus sadə hisslər (emosiyalar), əhvallar, affektlər, ehtiraslar, stresslər, frustrasiyadan başlayaraq ali hisslər olan estetik və zehni hisslər, əxlaqi hisslər – məsuliyyət, xeyirxahlıq, dostluq, rəğbət, yoldaşlıq, borc, şərəf, ləyaqət, qürur, heysiyyət, sədaqət, səxavət, vətənpərvərlik, vətən yolunda fədakarlıq, qəhrəmanlıq, qorxmazlıq, cəsurluq və dini hisslər və s. bununla yanaşı mənfi məzmun daşıyan – eqoistlik, paxıllıq, peşimançılıq, utancaqlıq, xəcalət, lovğalıq, qorxu, ağrı və s. tənzimləyici hisslər, davranış qanunauyğunluqları, insanların bir-birini qavraması və anlaması, şüur və şüursuzluq (təhtəşüur), mənlik şüuru (mən obrazı), özünüqiymətləndirmə və iddia səviyyəsi, psixoloji müdafiə qabiliyyəti, inkişafın hərəkətverici mexanizmi, ünsiyyət və qarşılıqlı münasibətlər, idrakın formaları və səviyyələri, duyğular, qavrayış, onun əsas xassələri, məkan və zaman qavrayışı, hərəkət qavrayışı, diqqət və hafizəsi, yaddaşı, şüur və təfəkkürü, ağlın keyfiyyəti, təxəyyül və yaradıcılığı, idrak və fəaliyyətin daxili tənzimi, əməl və məqsədgüdmənin qanunauyğunuqları, fərdi – özünəməxsus xüsusiyyətlər, qabiliyyət və intellektual quruluşu, temperament və xarakteri olduğu kimi özünü toplumda göstərir (7; 8; 9, 467-638; 15; 23; 24; 30; 44; 81; 87; 103; 137; 157; 158; 159; 216; 217; 218).

Fərdə məxsus bütün hiss və dəyərlərin eyni ilə toplumda

özünü göstərməsi XX əsrin 60-cı illərini sonlarından sovet etnoqrafiyasının mənəvi mədəniyyətə aid əsərlərində deyilmişdir. Yuxarıda göstərdiyimiz kimi, sadəcə olaraq bir qədər çaşdırıcı, pərdəli formalarda deyilmişdir. Bu ədəbiyyatın siyahısını görmək üçün L.Qumilyovun, Y.Bromleyin əsərlərində istifadə olunmuş ədəbiyyat siyahısına diqqət yetirmək və sətirlərin müəllifinin ədəbiyyat siyahısına baxmaq kifayətdir. 80-ci illərdə Sovet etnoqrafiyasında, birinci növbədə Leninqrad və Moskva, Novosibirsski etnoqrafiya müəssisələrində mənəvi mədəniyyət haqqında yazılan əsərlərdə mənəvi mədəniyyətin cəmiyyətin inkişafında aparıcı mövqeyə malik olması mülahizəsinə demək olar, gəlib çatılmışdı, imperiyanın varlığı dövründə hökmün elanına vaxt çatmadı. Çünki alim postunu tutanların ən azı 90%-i proletar-muzdur təbiətli diplomuna görə alim olanlar idi.

"Sovet Azərbaycanının ictimai elmləri 1920-1980-ci illər (bibloqrafiya göstəricisi, Arxeologiya və etnoqrafiya seriyası". (B., 1983), biblioqrafiyasındakı etnoqrafik ədəbiyyat siyahısında, mənəvi mədəniyyətə aid bir neçə sönük "elmi" məqalə, əsasən qəzet məqalələrindən ibarət kiçik bir siyahının olmasının səbəbi heç də bütünlüklə Kommunist Rus imperiyası deyil, özümüz də milli şüurdan və elmi təfəkkürdən məhrum adamların etnoqrafiya elmində alimə layiq yerləri zəbt etməsidir. Təbii ki, bu da imperiyaya sərf edirdi. Imperiya heç bir xalqa ləyaqət və elm gətirməyib.

Bütün dövrlərdə imperiyaların öz əsarətində saxladığı xalqların məhv etmək istədiyi mənəviyyatını, ləyaqətini ziyalı qoruyub saxlayıb. AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor S. Xəlilov bu haqda yazır: "Bir millət üçün canlı tarix haradasa qırılanda, onun inkişafının daxili hərəkətverici qüvvələri məhdudlaşdırılanda, inkişaf kənar qüvvələrlə məqsədyönlü surətdə başqa səmtə istiqamətləndiriləndə milli genin heç olmasa başqa ampluada, fövqəl-

tarixi formalarda; fikirlərdə, xatirələrdə, ədəbiyyatda, incəsənətdə yaşadılması zərurəti yaranır. Xalq başqa imperiyaların işğalı altında qaldıqda, başqa əqidələrin rəsmi təsir dairəsinə düşdükdə həqiqi böyük ziyalılar estafeti öz əllərinə alır və milli ruhu öz şəxsi həyatı bahasına, diri-diri yandırılması, dərisini soyulması hesabına da olsa yaşadaraq və bir əmanət kimi yeni nəsillərə ötürürlər. Dövlət xadimləri, siyasətçilər, sərkərdələr öz tarixi ziyalılıq missiyasını yerinə yetirə bilməyəndə, milli ruh milli varlığın himayəsindən məhrum olanda, qılınc qələmlə vaxtında birləşməyəndə bütün ağırlıq qələmin, yaradıcı ziyalıların üzərinə düşür. Milli dövlətçilik kəsilməz bir proses kimi davam etsin deyə, dövlətlərarası dövrdə kəsilməzliyi milli mənəvi körpülər təmin etməli olur" (15, 365).

Faktlar göstərir ki, Azərbaycan Sovet etnoqrafiya "elmi"nin yerli "milli" rəhbərləri imperiyanın verdiyi imkanlardan mədəni-mənəvi varisliyin kəsilməzliyi deyil, kəsilməsi istiqamətində istifadə etmişlər. Əsas aparıcı şöbələr T.Bünyadovun rəhbərlik etdiyi "Tarixi etnoqrafiya şöbəsi" və H.Quliyevin rəhbərlik etdiyi "Sovet dövrü etfoqrafiyası şöbəsi" idi. 1920-ci il 27 aprel işğalına qədərki tarixi dövr üzrə bütün tədqiqat mövzularını "Tarixi etnoqrafiya şöbəsi" müəyyən edirdi. Etnogenez, etnik tarix, millət kimi formalaşma bu şöbənin tədqiqat predmetinə daxil idi.

Tarixi etnoqrafaya şöbəsinin müdiri T.Bünyadov "Azərbaycan etnoqrafiyası" 1-ci cild (B., 1988) kitabının "Coğrafi şərait və tarixi oçerk" fəsilinə saxta, elmi və tarixi əsası olmayan, zorla "Azərbaycan tarixi"nin II cildinə daxil edilmiş "Türkmənçay müqaviləsinə əsasən Naxçıvan xanlığı, Ordubad dairəsi və İrəvan xanlığının tərkibində olan Şərqi Ermənistan Rusiyaya ilhaq edildi" (212, 27) -əvəzinə, Rus imperiyasının akademikləri antropoloq, V. Alekseyin "Türk xalqlarının əcdadları" ("Azərbaycan məktəbi" jurnalı, 1971,

N8), "Qafqaz xalqlarının mənşəyi" (M., 1974), "Etnogenez" (M., 1986) (əsərində "etnogenez xalqın etnik simasını formalaşdırır, etnik proses etnik xarakteri dəyişir" (219, 7), Y.Y.Roginskinin "Azərbaycanın türkdilli əhalisində monqoloid əlamətlərinin olmaması türk dilinin Şərqi Qafqazda monqoloid irqinə məxsus işğalçıların hücumunun nəticəsində yaranması fikirinin tamamilə inkar edilməsinə gətirib çıxarır" (220, 340) elmi müddəalarına söykənərək, Azərbaycan xalqının etnogenezinin obyektiv yazılması istiqamətində müəyyən addım atmaq, milli xarakter problemini tədqiqat obyektinə çevirmək olardı. Azərbaycan etnoqrafının bunlardan heç birini etməyə elmi və mənəvi gücü çatmadığı təqdirdə "Azərbaycan tarixi"nin II cildindən göstərilən cümlə əvəzinə, ermənilərin Qarabağın işğal ideologiyasına rəvac verməmək üçün "Azərbaycanlıların millət halında təşəkkül tapması" paraqrafından 1-2 cümlə iqtibas edə bilərdi (212, 289). Göründüyü kimi, etnoqrafiyamızın "iş adamı"nın etnoqrafiyasına çevirilməsini bütünlüklə imperiyanın boynuna atmaq həqiqətə uyğun deyil.

Maraqlıdır ki, Azərbaycan sovet etnoqrafiyası ədəbiyyat, incəsənət, din, elm, fəlsəfə, əxlaq, musiqi, adət-ənənə və s. mənəvi mədəniyyət hesab etmişdir. "XX əsrin ikinci yarısında Azərbaycanda etnoqrafiya elminin inkişafı" mövzusunda namizədlik dissertasiyası yazmış B. Əliyev göstərir ki, bu dövrdə "Azərbaycan etnoqrafiya elmində nisbətən az tədqiq olunmuş sahə mənəvi mədəniyyətdir". O, məsələnin səbəbi haqqında yazır: "Mənəvi mədəniyyət problemlərinin öyrənilməsində siyasi konyunkturadan irəli gələn çətinliklərin, məhdudiyyətlərin elmi tədqiqatların geniş xarakter almasına ciddi mane olduğunu iddia etmək mümkündür" (75, 13). Yuxarıda göstərdiyimiz kimi, müəllifin bu fikiri XX əsrin 60-cı illərin birinci yarısına qədərki dövrə aid ola bilər. Artıq 60-cı illərin ikinci yarısı mənəvi mədəniyyətin bütün

sahələrində tədqiqata başlanmışdı. Təsadüfi deyil ki, bu illərdə, 1967-ci ildə Azərbaycanda ilk dəfə Novruz bayramı dövlət səviyyəsində qeyd edildi, mətbuat səhifələrində geniş yer aldı.

Azərbaycan Sovet etnoqrafiyasında mənəvi mədəniyyətə cüzi yer ayrılsa da, çox ziyanlı mövqe tutulmuşdu, onun ocağı söndürülməyə çalışılmış, yaradıcı ruhu gizlədilmişdi. Belə ki, Azərbaycan sovet etnoqrafiyasında, xüsusilə "Tarixi etnoqrafiya şöbəsi"ndə din və dini bayramlar, xalq bayramları və oyunları mənəvi mədəniyyət adı altında tədqiqata cəlb olunmuşdur. M.Dadaşzadə "Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti" (B., 1985) adlı monoqrafiyası nəşr olunmuş, bu mövzuda doktorluq dissertasiyası müdafiə etmişdir. Milli bayramlar milli mənəviyyatın, mədəniyyətin nüvəsidir. O, istər təqvim, məhsul, təsərrüfat, hərbi-siyasi, gül-çiçək bayramı olmasından asılı olmayaraq burada hər şey mənəvidir və simvollaşır, ruhlaşır, inam və etiqada hoparaq nəhayət sonda dinləşir. Milli bayramların yaradıcısı xalq özü olduğundan o, dünyəvi dinlərlə (xristian, islam və b.) dinlərlə müqayisədə milli mənəviyyatda, milli ruhda daha güclü olur. Hansı məzmunda və formada olmasından asılı olmayaraq milli bayramların mahiyyəti milli həmrəylik yaratmaq və milli təşkilatlanmadır. Təəssüflə qeyd etməliyik ki, M.Dadaşzadənin Novruz bayramı da daxil olmaqla tədqiqata cəlb etdiyi milli bayramların heç birinin mahiyyəti açılmayıb, onun monoqrafiyası bu bayramlar haqqında iqtibas yığımından ibarətdir, rus-sovet və fars tarixşünaslığının Azərbaycan türklərinin etnogenezinə kölgə salmaq, etnik konfliktlər hazırlamaq məqsədi ilə yaratdığı ədəbiyyatı Azərbaycanda milli-azadlıq hərəkatı ərəfəsində dövriyyəyə gətirmdir (223). Azərbaycan Sovet etnoqrafiyasında Novruz bayramı birmənalı təqvim, təsərrüfat bayramı kimi qiymətləndirmiş, onun ilkin, əsas mahiyyəti olan milli həm-

rəylik, xalqın mənəvi-ideoloji, iqtisadi-siyasi, hərbi cəhətdən təşkilatlanması, ayin, norma və qaydaları olmasına diqqət yetirilməmişdir (221; 223).

R.A.Tahirovun "Azərbaycanın şimal-qərb rayonlarında bəzi məişət oyunları haqqında" (222) və M. Dadaşzadənin "Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti" (B., 1985) adlı monoqrafiyalarındakı "Xalq oyunları və əyləncələri" adlı fəsildə xalq oyunlarının sinfi mahiyyəti, əsasən hakim sinifin mənafeyinə xidmət etməsi ağalıq-tabelik münasibəti yaratması, "bəyləri", "başçıları" olan oyunların sıravi üzvlərdə tabeçilik hissi yaratması haqqında "elmi mülahizələr" ümumən Sovet etnoqrafiyasının deyil, Azərbaycan Sovet etnoqrafiyasının yaradıcılıq məhsuludur. Buna bir mənalı əmin olmaq üçün R.S.Lipets «Образы Батыра и его коня в тюрко-монгольском эпосе» (Издательство «Наука», М., 1984), «Исследования по истории и культуре Монголии» (Новосибирск, «Наука» Сибирское отделение, 1989) adlı kitabları oxumaq və onların ədəbiyyat siyahısı ilə tanış olmaq yetərlidir.

Zərdüştçülük tarixən nəinki Azərbaycanın, Şərq fəlsəfəsinin, antik yunan, klassik Avropa, alman fəlsəfəsinin mənbəyi hesab olunmuş və olunmaqdadır (99; 100; 101; 157). Zərdüşt fəlsəfəsini fəlsəfəlikdən çıxarılıb hakim Sasani sülaləsinin və bu imperiyanın istismarçı siniflərin dininə çevirilməsi sovet etnoqrafiyasının təzyiqi altında yaranmamışdır, bu "tapıntı" M. Dadaşzadənin, onun mənsub olduğu Azərbaycan Sovet tarixşünaslığının kəşfidir (223, 18-61).

Bu mənada Azərbaycan xalqı Allaha dua etməlidir ki, onun mənəvi dünyası Azərbaycan sovet etnoqrafiyasının tədqiqat obyektinə çevirilməmişdir. K.Yaspers haqlı olaraq yazır ki, "elmə üç zəruri element daxildir: idrak metodları, doğruluq və ümumi önəmlilik" (157, 138). Göründüyü kimi, tək-tək tədqiqatçıların yaradıcılığı istisna olunmaqla, Azər-

baycan sovet etnoqrafiyasında bunların heç biri yoxdur.

Azərbaycan Sovet etnoqrafiyasını K.Marksın dini "tiryək" və Leninin isə "mənəvi araq" adlandıraraq tənqid etdiklərinə görə ittiham etmirik, arzu etsək də, edə bilmərik. Çünki marksizm dinləri qadağan etmədən, xalqı bu ideologiyadan ayırmadan hər hansı bir qələbəyə heç cür nail ola bilməzdi.

Rus imperiyasında Kommunist ideologiyası, onun təbliği, mərasimləri, xristian dinini əvəz etmişdi, K.Marks bu dinin peyğəmbəri, V.İ.Lenin, İ. Stalin imamları, son katiblər isə onun varisləri idi. Ziyalısı, aristokratiyası məhv edilmiş rus kütləsi (proletariat və kəndlilər) bütün dünyanı burjuaziya, zadəgan, ziyalı və aristokratiyanın zülmündən xilas edəcək ali irq idi. Bu ideologiyaya görə, bütün dünya proletariatı və kəndliləri dinlərindən, inam və etiqadlarından imtina edib kommunist ideoligiyasını qəbul etməli, onun dinini, adət-ənənəsini, mədəniyyətini qəbul edib kommunizmə doğru onun himayəsində irəliləməli idi.

Bütün zadəgan və ziyalı zümrəsi məhv edilmiş Azərbaycan xalqına proletariat və muzdur sülaləsindən yaradılmış "alimlər" tərəddüd etmədən İslam dinini xalq üçün "tiryək", "mənəvi araq" kimi izah edir, və cəfəngiyyatı yeni nəslin şüuruna aşılayırdılar. Hələ çoxdan elm sübut etmişdir ki, din bütün mənəvi dəyərlər içərisində insanlar arasında, toplum daxilində həmrəylik yaradan mənəvi qüvvədir. Xristian dini təəssübkeşi **Hegel İslam dinini bütün dinlərdən yüksək qiymətləndirib yazırdı: "İslamda Allah dünyanın rəngarəngliyi üzərində yüksələn tək ən ümumi sonsuz güc kimi anlaşılır. İslam bu səbəbdən sözün həqiqi mənasında ucalıq dinidir"** (100, 114).

Azərbaycan atalar sözündə deyildiyi kimi, "Ağıllı düşmən nadan dostdan yaxşıdır" (224, 36). Ateist olan, dini tənqid edən Z.Freyd dinin tarixi rolunu inkar etmirdi. O

inanırdı ki, dini tələbat – dini normalar və məhdudlaşdırmalar olmasaydı, bəşəriyyət də, mədəniyyət də yarana və inkişaf edə bilməzdi. Z.Freyd yazırdı: "Tamamilə aydındır ki, din mədəniyyətə böyük xidmət göstərmişdir: o, ilkin assosial istəklərin aradan qaldırılmasında çox böyük rol oynamışdır, lakin hər halda bunlar kifayət deyildir" (23, 193-194).

Z.Freydin sistemində din mədəni amillərin ən ümdəsi kimi çıxış edir. Dinin müstəsnalığı onunla izah olunur ki, o, heç bir kultur fenomeninin görə bilmədiyi işi – insanlar arasında müqəddəslik yaratmaq, insanı insan və ilahinin gözündə ucaltmaq məqsədi daşıyır. Bu mənada din insanın və insanlığın, mənəviyyat və əxlaqın ümumən təşəkkülü və inkişafında həlledici rol oynayır. Din, eyni zamanda güclü duyğu, ehtirasdır. Dini amillər, dini duyğu – müqəddəslik duyğusu, ayinlər, dini normalar, tabular sistemi və s. insanlığın təşəkkülü və inkişafında aparıcı rol oynamışdır" (23, 205). K. Yaspers isə dinin tarixi rolu haqqında yazırdı: "İnsan toplumunda dindarlıq olmayan dünyada fəlsəfə çətin ki, tab gətirə bilsin. Çünki fəlsəfi məzmun xalqın içində dini inam vasitəsilə yaşayır. Fəlsəfi təfəkkür məcburi qüvvəyə malik deyil, o yalnız insanda özü fəlsəfəyə doğru gələni izah edir. Cəmiyyət fəlsəfi inamda aydınlaşan şeylə yaşamalı idi, yoxsa fəlsəfə sayı get-gedə daha çox azalan adamlar arasında səpələnər və nəhayət ümumiyyətlə yox olardı. Fəlsəfə insana lazım olan erkən uşaqlıq dövründən qəbul edilən dini ənənədə olan və özü də fəlsəfə daşıyıcısı olan sosial cəhətdən təsirli ənənəni gerçəkləşdirə bilməz" (159, 662).

Artıq Azərbaycanda yetərincə dini ədəbiyyat nəşr olunduğundan, Kommunist Sovet imperiyasının ateist təbliğatının xalqların mənəviyyatına vurduğu pozucu təsirdən yetərincə danışıldığından bu haqda geniş bəhs etməyə ehtiyac duymuruq.

Azərbaycan sovet etnoqrafiyasının Azərbaycan xalqının

mənəviyyatına və etnoqrafiya (etnologiya) elminin inkişafına vurduğu ağır zərbənin mühüm məqamları üzərində xüsusi dayanmağa ehtiyac var.

Azərbaycan sovet etnoqrafiyası Azərbaycan xalqının mənəvi dünyasında, təfəkküründə mədəniyyətin "ikinci təbiət" kimi yaradıcı mahiyyətinin dərk edilməsinə imkan verməmişdi. Azərbaycan sovet etnoqrafiyasında mənəvi mədəniyyətdən yalnız din, Novruz bayramı və oyunlar tədqiqata cəlb olunmuşdu ki, bunlardan da heç birinin mahiyyəti açılmamış, mənəvi dəyərlər sistemində yeri və rolu müəyyən olunmamış, imperiyanın ağlına gəlməyəcək böhtanlar və nifrinlərə məruz edilmişdi.

VI fəsil.

MİLLİ İNKİŞAFIN HƏRƏKƏTVERİCİ QÜVVƏSİ HAQQINDA TARİXİ-ETNOLOJİ ELMİ MÜDDƏALAR

Mədəniyyət mahiyyətcə çox geniş anlayış olub sosial-mənəvi varlığın fəaliyyətinin bütün sferasını əhatə edir. **Mədəniyyət deyərkən etnos, cəmiyyət, insan, şəxsiyyət, həyat tərzi, psixi sima, ruh və onların təşəkkülü, inkişaf mexanizmi, inam və etiqad, adət-ənənə, folklor, oyunlar, milli və dini bayramlar, milli mərasimlər, əxlaq, etika, jestlər, davranış streotipi, estetik dünyagörüş, incəsənət, elm, ideologiya, sosial-siyasi təsisatlar, yeməklər və geyimlər, istehsal, əmək alət və vasitələri və s. nəzərdə tutulur** (23, 43-44; 29; 30; 32; 81). **Mədəniyyətin yaradıcı, humanist, sosial təcrübəni ötürmək (varislik), sosial yaddaş, idraki, normativ (requlyativ), semiotik (işarəvi), dəyər (aksioloji) və b. funksiyaları vardır. Hər bir etnos özünəməxsus milli mədəniyyət nümunəsidir, o, mədəniyyətin yaradıcısı və övladıdır (63; 30; 32). Z.Freyd yazırdı ki, maddi nemətlər "mədəniyyətin əsası və ya mahiyyəti ola bilməz"** (23, 264). Mədəniyyət mənəvidir, o, "ikinci təbiət"dir, ikinci ruhdur. İnsanın bütün fəaliyyətini, o cümlədən maddi istehsalı həmişə fərdin və ya toplumun mənəvi-intellektual səviyyəsindən asılıdır.

Mədəniyyətin mənşəyi haqqında K.Yaspersin şərhi də aydın və maraqlıdır. O, yazır: "İlkin entuziazmda bu günədək qorunub qalmış və Dessauerin fikrincə, **Tanrı kimi yaradılışın əbədi ideyalarını kəşf etmiş və onları ikinci təbiət şəklində gerçəkləşdirmiş insanın yaradıcılıq qabiliyyəti ilə re-**

allaşmış ətraf mühitin formalaşdırılması ideyasından ibarət bir məna var. Bu halda "texnikanın ruhu" insanın əzəli verilmiş, əsl və həqiqi mühitin artıq təkcə vasitəsi ilə yox, həm də tam əhatəli reallaşmasıdır. Hansısa özünəməxsus bir dünya boy atmaqdadır. Texnika artıq təkcə zahiri varlıq deyil, həm də daxili qərar səbəbilə yaranmış mənəvi həyat sahəsidir. Texniki istehsalatda əslində ikinci təbiətin artımı və qurulması baş verir" (157, 180- 181, 183).

Z.Freyd mədəniyyətin genologiyasını əsasən psixoloji amillərlə izah edirdi. Bildirirdi ki, mədəniyyət – həyat və fəaliyyəti heyvanların həyat və fəaliyyətindən fərqləndirən əlamətlərin məcmusundan ibarətdir. Ailə, cəmiyyət, dövlət, həmrəylik, dostluq və insanlar arasında məhəbbət yaratmaq mədəniyyətin missiyasına daxil olan vəzifədir (23, 230).

Mədəniyyətlə insan bir-birindən ayrılmazdır: insan mədəniyyəti yaratdığı qədər də, mədəniyyət insanı yaradır. Ona görə də mədəniyyətin genologiyasını Freyd insanın ontogenez və filogenezindən ayırmırdı. Mədəniyyət, insanı ona lazım olan maddi vasitələrlə təmin etmək və seksuallıq üzərində nəzarət qoymaq tələbindən doğan bir fenomendir. Varvar hiss edirdi ki, təbiət onu ona lazım olan vasitələrlə təmin etmək imkanına malik deyildir, yəni o, heç olmasa, özünün tarixi mövcudluğunu təmin etmək üçün maddi nemətlər istehsalı üçün sürü qrup halında birləşib cəmiyyət əmələ gətirməli idi. Bunsuz heç maddi nemətlər istehsalı da mümkün deyildi. Lakin cəmiyyət halında birləşmək üçün birgəyaşayış qaydaları – ilkin sosial normalar yaratmaq lazım idi. Bu normaların ən vacibi və ən ümdəsi seksual həyatın məhdudlaşdırılması ilə əlaqədar olan norma idi. Əslində mədəniyyətin genezisini də bu norma şərtləndirirdi, çünki onsuz qrup, nəsil, qəbilə, tayfa və s. ağlasığmazdır. Beləliklə, tabular – "ilk əxlaqi kodekslər, normalar yaranır. **Mədəniyyət instiktlər üzərində zəkanın, bişüur üzərində şüurun**

üstünlüyünü təmin etmək üçün yol açdı" (23, 231). Z.Freyd izah edirdi: "Məhəbbət mədəniyyətin əsaslarından biridir" (23, 234).

Z.Freyd sübut edirdi ki, mədəniyyətsiz cəmiyyət, toplum, xalq ağlasığmazdır. O, belə güman edirdi ki, mədəniyyəti xalq deyil, ayrı-ayrı fərdlər – dahilər, güclülər, rəhbərlər, elita yaradır; onlar bunu məhz çoxluq üçün yaradırlar, çünki çoxluq məhz seçmə elitanın intellektual keyfiyyətlərindən məhrum olur; çoxluq əslində Russonun "Təbiət adamı"nın məcmusundan başqa bir şey deyildir ki, onu da ancaq instiktlər və təbii təşşüqlər, emosiyalar idarə edir. Z.Freyd qəti əmin idi ki, şüur, intellekt, zəka anlayışı kütlənin parametrlərinə daxil deyildir. Bu nəzəriyyələr ancaq dahilərin, elitanın, idarəedicilərin işidir; onlarda şüur daha çox inkişaf etdiyindən öz istək və arzularını, təbiətdən gələn ilkin məhəbbət hisslərini boğa – özlərini məhdudlaşdıra bilirlər. Bu tip şəxsiyyətlər əslində "insanın insanı" kimi təbiət anlamına qarşı dururlar. Cəmiyyətin formalaşması – yüksək ideallar və ideyalar, yaratmaq və mədəniyyəti inkişaf etdirmək onların üzərinə düşdüyünə görə, məhz onlar çoxluğa məxsus təbii istəkləri boğmaq, cilovlamaq üçün normalar, tabular, qaydalar, qanunlar və s. sistemi düşünür və bununla da özünüidarənin limitlərini müəyyən edirlər ki, mədəniyyət də bu deməkdir. Z.Freyd yazırdı: "Bu normalarsız bəşəri münasibətlərin nizamlanması formasından danışmaq olmur" (23, 235-236).

Milli mədəniyyətlərin, sivilizasiyaların yaradılması haqqında Qustav le Bonun elmi mülahizələri Z.Freydin elmi müddəalarına uyğundur. O, yazır: **"İntellektual baxımdan hazırda hər hansı sivilizasiyalı xalqı bir növ pilləli ehrama bənzətmək olar; ehramın özülünü əhalinin əksəriyyətindən ibarət qara camaat, orta pilləsini ziyalılar, yüksək pilləsini, daha doğrusu, zirvəsini - əhalinin qalan hissəsi ilə müqayisədə**

olduqca kiçik bir qrup – lakin sivilizasiya cədvəlində ölkənin səviyyəsini müəyyən edən alimlərdən, ixtiraçılardan, artistlərdən, yazıçılardan ibarət seçmə adamlar təşkil edirlər. Ancaq sonuncular yox olsa, onlarla birgə xalqın böyüklüyünü təşkil edən nə varsa itirilmiş olardı,... onda millət ruhsuz bədənə bənzər və başsız qalardı" (24, 43-44).

Mədəniyyətin, mənəviyyatın inkişafında zümrələrin rolu haqqında Hegelin mülahizələri xüsusi maraq doğurur. O, yazır: "Vətəndaş toplumunun və onunla birlikdə dövlətin olduğu hər yerdə bir-birindən fərqlənən zümrələr də gücə sahib olur. Belə ki, ən ümumi substansiya yalnız üzvi surətdə bölündükdə canlı mövcudluq əldə edir; dövlət quruluşunun tarixi bu zümrələrin, fərdlərin onlara hüquqi münasibətlərinin və zümrələrin bir-birinə və mərkəzinə münasibətlərinin yaranması tarixidir.

Substansial, təbii zümrənin təbii və möhkəm maddi təməli onun sahib olduğu məhsullar torpaqdır, onun fəaliyyətinin yönümünü və məzmununu təbiət müəyyən edir və mənəviyyatı isə inam və etibara söykənir" (100, 387).

Böyük alman mütəfəkkiri K. Yaspers mədəniyyət haqqında yazır: "... mədəniyyətlər həyat qüvvələrini özündən alan, bir-birinə təsir göstərməyən orqanizmlərə oxşayırlar; ancaq təmasları zamanı onlar bir-birini ya dəyişdirir, ya da bir-birinə mane olurlar" (157, 343). Məhz elə bu səbəbdən də fransız mütəfəkkiri Qustav le Bon yazırdı: "Tarixin hərəkətverici qüvvəsi mənəvi qüvvələrdir (24, 163).

Azərbaycan sovet etnoqrafiyasının, Tarix İnstitutunun "Tarixi etnoqrafiya şöbəsinin" Azərbaycan xalqına ən böyük xəyanətindən biri, etnogenez probleminin tədqiqat obyektinə çevirməməsidir. Maraqlıdır ki, Azərbaycan sovet etnoqrafiyasının "ən monumental əsər"i hesab olunan, qədim daş dövründən (poleolitdən) başlayıb nəşr olunduğu 1988-ci ilə qədər olan etnik tarixi əhatə edən "Azərbaycan etnoqrafiya-

sı"nın I cildində "etnogenez" terminindən istifadə edilməmişdi. Etnosu məhz həmin etnos edən ən mühüm mənəvi dəyərlər, özünəməxsusluqlar məhz etnogenez prosesində yaranır və sonra xalqı yaşadır.

Etnogenez etnosun inkişafının elə bir mərhələsidir ki, bu mərhələdə o, özünəməxsus bütün əxlaqi-mənəvi dəyərlər sistemini, milli simasını və adını, onu başqalarından fərqləndirən mental xüsusiyyətləri yaradır. Etnogenez prosesində yaranan milli sima, mənəvi dəyərlər sistemi ilə başqalarından fərqlənən xüsusiyyətləri ilə milli adı altında varlığını davam etdirir. Hər bir xalq etnogenez mərhələsində qazanılmış milli simanın, mənəvi dəyərlər sisteminin pozulması ilə etnos yaşamaq qabiliyyətini, mənəvi gücünü itirir, parçalanıb başqa xalqlar arasında əriyib yox olur. Bütün imperialist dövlətlər əsarət altına aldıqları və əsarət altına almağı planlaşdırdıqları xalqların öz etnogenezi, etnik tarixi, ümumiyyətlə, etnik proseslərin obyektiv qanunauyğunluqları, onların iqtisadi, siyasi, dini, ideoloji, mədəni, psixoloji vasitələrlə məqsədyönlü istiqamətləndirilməsi üsullarını öyrənməyə, bilməyə imkan vermirlər (32; 33; 36;83).

Sovet etnoqrafiyasının predmetinə daxil olub və geniş tədqiq olunmuş, lakin Azərbaycan sovet etnoqrafiyasında bircə dəfə də olsun haqqında bəhs olunmamış milli yaradıcı mənəvi keyfiyyətlərdən, anlayışlardan biri milli mənlik şüurudur. Milli mənlik şüuru etnosun ideya, hiss, meyillərində öz əksini tapmış, milli münasibətlər sistemində öz millətinin yerini, mövqeyini müəyyənləşdirə bilmələri, özünün sosial-etnik mənsubiyyətini dərk etmələri ilə bağlıdır. Milli şüura, eyni zamanda emosiya, nifrət və rəğbət də aid edilir. Milli mənlik şüurunun məzmununda millətin şüurlu sürətdə öz varlığını, etnik mənsubiyyətini dərk etməsi əsas yer tutur. Milli mənlik millətin mühüm göstəricisidr. Real mövcud olan və normal fəaliyyət göstərən əsl millətdən yalnız o vaxt danışmaq olar

ki, həmin millətin obyektiv əlamətləri, onun dəqiq ifadə olunmuş milli mənlik şüuru ilə tamamlanmış olsun. Milli mənlik şüuru öz daxili məzmununa və strukturuna görə mürəkkəb hadisədir. Burada xalqın öz keçmişini bilməsi və ona hörmətlə yanaşması (buna bəzən tarixi yaddaş da deyilir); milli ənənələrin və dilin qorunmasına daim qayğı göstərilməsi; milli şərəf və milli ləyaqət hissinin yüksək tutulması və s. mühüm yer tutur (7, 24; 9, 441; 63; 32; 216, 274).

Milli şüurun tərkib hissəsi olan tarixi yaddaşın yaradıcı gücü haqqında K. Yaspers yazır: "Tarixi keçmişimizə müxtəlif cür yanaşmaq olar: bir halda biz onda ürəyimizə yatan əzəməti görürük. Biz olmuşdan, oluşmamızı təyin edəndən, bizimçün nümunə olandan güc alırıq. Böyük adamın nə vaxt yaşamış olmasının fərqi yoxdur. Hər şey sanki bir önəmli olanın zamandışı müstəvisində düzülür. Tarixi bilgiləri onda nəsə tarixi bir şey kimi yox, həyatımızda bilavasitə olan bir şey kimi qavrayırıqı" (157, 337).

Milli mənlik şüurunun yaradıcı gücü, funksiyası haqqında Hegel yazır: "Ruh özünü necə bilirsə o cür gerçək olduğundan və dövlət bir xalqın ruhu kimi həm də onun bütün münasibətlərinin daxil olduğu qanunlar, ənənələr və fərdlərin şüuru olduğundan müəyyən bir xalqın dövlət quruluşu, ümumiyyətlə, onun özünüdərkinin, mənlik şüurunun xarakterindən və inkişaf səviyyəsindən asılıdır, özünüdərk səviyyəsindən isə xalqın azadlığı və deməli, dövlət qururluşunun gerçəkliyi asılıdır... **Odur ki, hər bir xalq dövrünə görə özünə yaraşan dövlət quruluşuna malik olur. İnsanın məzmunu isə özünün mənlik şüurunda varlığını əldə edən azad ruhdadır"** (100, 421; 160, 300-301).

Sovet etnoqrafiyasında haqqında geniş bəhs olunmuş **milli hisslər Azərbaycan sovet etnoqrafiyasında bircə dəfə də anılmamışdır.** Milli hiss insanların, toplumun reallığa münasibəti, emosional reaksiyası ilə bağlıdır. O, özünü insani

hisslərdə - məhəbbət, şərəf, ləyaqət, nifrət və sairdə əks etdirməklə, mənsub olduğu xalqın həyat şəraitindən çox asılıdır. Milli hisslər daxilində şərəf və ləyaqət hissi daha güclü təsir gücünə malikdir (7, 80-88; 216, 74).

Sovet etnoqrafiyasında yetərincə bəhs olunmuş, **Azərbaycan sovet etnoqrafiyasında bircə dəfə də olsun haqqında bəhs olunmamış etnik stereotip etnos yaradıcı və tənzimləyici anlayışlardan biridir.** Etnik stereotip və yönümlər nəsildən-nəsilə verilərək həmin etnos üzvlərinin əxlaqi adət və baxışlarında, inam və əqidələrində, davranış və rəftar tərzində, başqalarına, eləcə də özünə münasibətdə təzahür edir.

Etnik stereotiplər iki yerə ayrılır: avtostereotiplər və heterostreotiplər. Avtosteretiplər dedikdə, buraya etnosun nümayəndələrinin öz etnosu haqqında olan fikir, mülahizə və qiymətlər sistemi nəzərdə tututulur. Bir qayda olaraq avtostereotiplər müsbət qiymətləndirmə kompleksini əks etdirir.

Heterostereotiplər dedikdə isə başqa etnoslar haqqında olan qiymətləndirmə və rəylər məcmusu nəzərdə tutulur. Etnik stereotiplərin hər birisi ictimai-tarixi şəraitdən asılı olaraq ayrı-ayrı etnoslarda özünəməxsus psixoloji məzmun kəsb edir (32; 63; 7, 54-61; 216, 74).

Sovet etnoqrafiyasının predmetində mühüm yer tutmuş milli mədəniyyətin yeni nəslə kompleks aşılanması və gələcəyə ötürülməsi üsulu olan etnopedaqogika Azərbaycan sovet etnoqrafiyasında hətta anılmamışdır (29, 110-111; 234; 235; 236).

Sovet etnoqrafiyasının ziddiyyətli şərh etdiyi, Azərbaycan sovet etnoqrafiyasının ömür boyu bir dəfə də dilinə gətirmədiyi anlayışlardan (kateqoriyalardan) biri (etnos yaradıcı və tənzimləyici) milli əxlaq və normalardır. Azərbaycan etnologiyasının banisi N.Tusi yazır ki, hələ ona qədər Şərq İslam dünyasında "əxlaq elmi" yaranmışdı. Bu haqda Səlcuqlar sarayı nümayəndəsi Mustofinin əsərində ətraflı bəhs

olunmuşdur ((103, 42, 245). O, sözünə davam edərək yazır: "Hər bir elmin bir obyekti (mövzusu) olar və o elmdə həmin obyekt (mövzu) haqqında danışırlar. Məsələn, insanın bədəni sağlamlıq və xəstəlik baxımından tibb elminin, ölçülər isə həndəsə elminin mövzusudur.

"Əsaslar" ona deyərlər ki, o aydın olmasa, bir elmdə daha yüksək pilləyə qalxmaq mümkün olmasın, hər elm üçün "əsasları" düzgün bilmək lazımdır... "Təbiətin ardı haqqında elm" ona deyirlər ki, bütün elmlərin sonu gəlib ona müncər olur, onda aydın olmayan "əsaslar" ola bilməz... **Bu növə daxil olan elmlərdən biri də haqqında danışacağımız "əxlaq elmi"dir. Bu elm insani-nəfsin elə xüsusiyyətlər qazana biləcəyindən danışır ki, onun iradəsi ilə edilən bütün davranış və rəftar gözəl və tərifəlayiq olsun"** (103, 42). O, sözünə davam edərək yazır: "Deməli bu elmin mövzusu insani-nəfsdir, o nəfsdir ki, insanın iradəsindən asılı olan yaxşı və tərifl ənən, qəbih və pislənən işlərin hamısı onunla əlaqədardır".

"İnsani-nəfs elə bir sadə cövhərə (substansiyaya) deyilir ki, özü də daxil olmaqla ağlın dərk etdiyi hər nə varsa, hamısı onun sayəsində olur; xalqın çoxunun "insan" adlandırdığı bu hissi bədəndə nə kimi dəyişiklik və fəaliyyət baş verərsə, hamısı onun qüvvə və təsiri nəticəsində əmələ gələr. O cövhər nə cisimdir, nə də cismani, o hiss orqanlarının heç biri ilə hiss edilə bilməz.

Bu söhbəti tamam etmək üçün burada bir neçə şey sübut və izah etməyə ehtiyac vardır:

Birinci – "nəfsin" varlığının sübutu;

İkinci – onun cövhərliliyinin sübutu;

Üçüncü – onun sadəliyinin sübutu;

Dördüncü – cisim və cismani olmadığının izahı;

Beşinci – özünün özü ilə dərk edilməsi və hər şeyə vasitə olmasının izahı;

Altıncı – bizim heç bir hiss orqanımız vasitəsilə hiss edilə bilməməyinin izahı (103, 42-43).

N.Tusi müəyyən etdiyi bu əsaslar üzrə toplumda əxlaqın yaradıcı və tənzimləyici funksiyasından bəhs edərək yazır: "Əməli qüvvət kamilliyi ona deyirlər ki, insan öz imkan və fəaliyyətini nizama salıb elə uyğulaşdırsın ki, onlar bir-birinə mane olmayıb, əksinə bir-birini tamamlasınlar; belə halda əxlaq münasib, xoşagələn şəkildə tərbiyələnir. Bundan sonra kamilliyin o biri dərəcələrinin... növbəsi çatır" (103, 57).

Əxlaqın mahiyyətindən bəhs edərkən Hegel yazır: "...Əxlaq özünün gerçək varlığında özünüdərkə malik ruh kimi, xalqın və fərdin özünüdərki kimi ilahi ruhdur... Əxlaq iradənin yalnız müəyyənliyi davranışıdır" (100, 416; 160, 159).

Əxlaqın milli yaradıcı və tənzimləyici funksiyasının əhatəli dərki üçün, həmçinin XIII əsr Azərbaycan ictimai fikrində əxlaq nəzəriyyəsi və mənəviyyat haqqında elmin inkişaf səviyyəsi ilə XIX əsr klassik Alman fəlsəfəsinin nümayəndəsi Hegelin bu haqda fikir əhatəsini müqayisə etmək üçün, əxlaqın təməli olan mənəvi sistem haqqında onların mülahizələrini oxuculara çatdırırıq.

N.Tusi yazır: "Başqa heyvanların maddi ehtiyacları (məsələn, aclığı dəf etmək üçün yeməyə; istidən, soyuqdan qorunmaq üçün tük və yuna; düşməndən müdafiə üçün təbii alətə və s. olan ehtiyacları kimi) təbiət tərəfindən ən əlverişli surətdə hazır şəkildə verilir və ehtiyac məqsədəuyğun tərzdə təmin edilir. Lakin insanın belə şeylərə ehtiyacı olduqda, o, bunları ağıl, bilik, əmək, sənət və peşəyə yiyələnmək sayəsində, özü də bacardığı ən yaxşı üsulla əldə etməlidir. Çünki onun yeməyi əkinsiz, əkinçisiz, unsuz, dəyirmançısız; geyimi sapsız, dərzisiz; ayaqqabısı gönsüz; silahı sənətsiz, sənətkarsız mümkün deyildir.

Mənəvi ehtiyaclar da belədir. Bitki və heyvanat aləminin

mənən bütün növlərinin mənəvi qüvvələri onun fitrətində necə yaradılıbsa, təbiətində də elə mərkəzləşmişdir.

İnsanın mənəvi ehtiyacları, mənəvi qüvvələri, kamalı, fəzilətinin şərafəti – fikir, əql, şüur və iradə vasitəsi ilə təmin və idarə edilir. Insanın xoşbəxtlik və bədbəxtlik açarı, kamillik və naqislik sükanı onun ağıl və iradəsinin ixtiyarına verilmişdir. Əgər düzgün, ardıcıl, məqsədəuyğun, müstəqim xətlə (ən qısa yol ilə) hərəkət etsə, tədricən elm, mədəniyyət, bilik və hikmətə yiyələnsə, təkamülə qədər olan fitri istedadı hədləri aşaraq onu bir mərtəbədən başqa bir mərtəbəyə, bir dərəcədən o biri dərəcəyə yüksəldər, düppədüz gətirib arzu elədiyi məqsədə, ilahi nurun şəfəq saldığı ali məqama çatdırar və Allahın yaxın adamları cərgəsinə daxil edər; lakin yaradıldığı fitri dərəcədə oturub qalsa, cilovu öz nəfsinin ixtiyarına versə, nəfsi onu aşağıya – heyvani mərtəbəyə sövq edər, şəhvani hissləri cuşa gətirər, qəbih, bəzi xəstələrə xas olan nalayiq hərəkətlərin artmasına səbəb olar, günbəgün, anbaan alçaldar, düşgünlük və naqisliyi artırar, yuxarıdan aşağıya yuvarladılan daş kimi az bir müddət ərzində onu rəzalət çirkabının ən dərin yerinə salar və bu onun ən dəhşətli sonu olar. Odur ki, deyiblər: "Nəfs elə bir şeydir ki, onu özbaşına buraxsan, alçaqlığa meyil göstərib bataqlığa batar; cilovlayıb istiqamət versən, fəzilət yüksəkliklərini fəth edib kamala çatar".

Insanın fitrətində bu iki istedad, iki xüsusiyyət olduğundan, peyğəmbərlər, filosoflar, imamlar, rəhbərlər, tərbiyəçilər, mürəbbilər və müəllimlərə də ehtiyac olur ki, bəziləri öz lütf və hikmətləri, bəziləri öz zülm və hakimiyyətləri sayəsində insanın diqqətini, çox da böyük zəhmət və hərəkət istəməyən, bəlkə əksinə, veyillənmək və avaraçılığın məhsulu olan qəbih işlərdən yayındırıb, onu qəti iradə, coşğun fəaliyyət, dərin bilik, böyük əmək tələb edən həqiqəti kəşf kimi əbədi bir səadətə yönəltsinlər; öyrətmə, mənimsəmə, möh-

kəmləndirmə, təlim və tərbiyə etməklə insanı mövcudatın ən yüksək dərəcəsinə yüksəltsinlər (103, 53-54).

Hegel isə bu haqda aşağıdakıları deyir: "Əgər heyvanlarda bədən onların instiktinə itaət edərsə, heyvan ideyasına uyğun zəruri tələbləri yerinə yetirirsə, insan, əksinə, öz fəaliyyəti vasitəsi ilə öz bədəininin ağası olmalıdır. İlk öncə insan ruhu öz bədəninə yalnız tamamilə qeyri-müəyyən ən ümumi üsulla nüfuz edir. Bu nüfuz- etmənin müəyyən olması üçün təhsil lazımdır" (100, 251). O, sözünə davam edərək yazır: "Təkcə təhsil gənci tam bitgin etmir; buna o yalnız özünün ən mühüm maraqları barəsində düşüncəli qayğı göstərməklə nail olur; buna oxşar olaraq, **xalqlar da yalnız o zaman yetkinliyə çatır ki, onların barəsində atalıq qayğısı deyilən qayğıda bulunan hökumətdən öz maddi və mənəvi maraqlarına qayğı göstərməyi onların özlərinə verilməsinə nail olsunlar"** (100, 140).

Insanın yaradıcı əxlaqi-mənəvi dəyərlər sistemində borc kateqoriyası haqqında Hegelin mülahizəsi çox qiymətlidir. O, yazır: "Deməli, ümumi və xüsusi iradənin bu eyniyyətində borc və hüquq üst-üstə düşür və insan mənəviyyat vasitəsi ilə hüquqlara malik olduğu üçün borcludur və borclu olduğu üçün də hüquqlara malik olur. Abstrakt hüquqda mən hüquqa malik oluram, başqa insan isə bu hüquqa münasibətdə borcludur; əxlaq sahəsində insanın xoşbəxt olmaq hüququ kimi öz baxışına malik olmaq və hökm etmək hüququ da ancaq borclar ilə birlikdə və obyektiv olmalıdır.

Kölənin borcları ola bilməz, yalnız azad insanın borcları olur. Əgər bir tərəfdə ancaq bütün hüquqlar, digər tərəfdə isə ancaq bütün borclar olsaydı, onda bütöv parçalanmış olardı, çünki bizim burada tutduğumuz əsas eyniyyətdən ibarətdir" (160, 206).

Böyük alman mütəfəkkiri Hegel azadlıq və kölelik kimi hadisələrin mənəviyyat-əxlaq hadisəsi olmasını həyatdan

götürülmüş misallar və elmi arqumentlərlə birmənalı əsaslandırır. O, yazır: "Deməli, yalan və həqiqi olmayan müstəqil mahiyyətin görüntüsüdür. **Əgər görüntü ancaq özündə görüntüdür və özü üçün deyilsə, başqa sözlə əgər yalan mənə hüquq kimi verilərsə, onda o, sadəlövh görüntüdür.** Burada görüntü mənim üçün yox, hüquq üçün görüntüdür. **Yalanın ikinci növü aldatmadır. Burada yalan özündə hüquq üçün görüntü deyildir, burada baş verən budur ki, mən başqasına görüntünü hüquq kimi təqdim edirəm.** Mən kimi isə aldatdıqda (aldanan mən özüm də ola bilərəm – tərcüməçi) **hüquq mənim üçün görüntü olur.** Birinci halda yalan hüquq üçün görüntü olur. İkinci halda yalanın təmsilçisi kimi mənim özüm üçün hüquq yalnız görüntüdür. **Yalanın üçüncü növü cinayətdir. Cinayət özündə və özü üçün yalandır.** Lakin cinayətdə mən yalan istəyirəm və görüntüyə qaçmıram. Cinayətin nəticələrinə məruz qoyulmuş şəxs isə özündə və özü üçün mövcud yalana hüquq kimi baxmır. **Cinayət və aldatma arasında fərq ondadır ki, aldatmada başa çatmış formasında hüququn qəbul edilməsi vardır, cinayətdə isə bu, yoxdur"** (160, 140).

Hegel göstərir: "Anatinomiyanın insan özündə və özü üçün azaddır qütbündə möhkəm durduqda köləlik mühakimə edilməlidir. Lakin bir adamın köləliyin onun öz iradəsinə bağlı olması eyni ilə xalqın əsarətdə olmasının, əgər o əsarətdədirsə, onun iradəsinə bağlı olması kimidir. Kölələk, yaxud əsarət təkcə kölə olanların və ya zülm edənlərin deyil, həm də kölələrin və zülm edənlərin düzgün olmayan əməlidir. Kölələk insanın təbii durumundan əsl mənəvilik halına keçməsi hadisəsidir: o yalanın hələ hüquq olduğu dünyanın hadisəsidir. Burada yalanın gücü vardır və özünə lazım olan yeri tapır" (160, 116).

O, sözünə davam edərək yazır: "Şəxsiyyətin özgələşməsinə kölələk, təhkimçilik, mülkiyyətə malikolma qabiliyyətsiz-

liyi, bu mülkiyyəti əldə etmək azadlığının olmaması və s. misal ola bilər; intellektin, əxlaqın, mənəviyyatın, dini şüurun özgələşməsi xurafatda mənə lazım olanın, hansı hərəkətləri etmək lazım gəldiyinin (oğurluq, qətl və başqa cinayət imkanlarının), vicdan borcunun, dini həqiqətin nədən ibarət olduğunun müəyyənləşdirilməsində avtoritetin, söz haqqının mənə deyil, başqasına məxsus olduğunun qəbul edilməsində baş verir" (160, 123).

Hegel əsaslandırır: "Obyektiv mənəviyyat üçün fərdin mövcud olub-olmamasının fərqi yoxdur və o, fərdlərin həyatını idarə edən gücdür. Odur ki, **mənəviyyatı xalqlar əbədi həqiqətlər kimi özündə və özü üçün mövcud allahlar kimi təsvir etmişlər. Mənəviyyat qanunları son dərəcə ucaldırlar"** (160, 200).

Mənəviyyatın, əxlaq kateqoriyasının mənşəyi haqqında Z.Freydin izahı xüsusi maraq doğurur. İnsan mənindən, onun dəyərlərindən bəhs edərkən Z.Freyd yazırdı ki, mən şüur kimi reallıq ilə işləyir və - bu, aydındır. Mən – ideal isə - vicdan normaları ilə fəaliyyət göstərir; vicdan şüura daxildir, çünki o xaricdədir, eyni zamanda o daxildədir, çünki ondan vicdani normalarla hərəkət etməyi ancaq onun özü tələb edir. Vicdan – özünümüəyyənləşdirmə və özünüməhdudlaşdırmadır; özünümüəyyənləşdirmə onu dərk etməkdir ki, insan cəmiyyətin – sosial strukturun elementidir və buna görə də özünü həmin struktura qarşı qoya, onun qanunlarından imtina edə bilməz. Digər tərəfdən də insan özünü müəyyənləşdirərkən qeyri-ixtiyari olaraq özünü məhdudlaşdırmış olur, başqa sözlə, o, könüllü surətdə özünün bəzi hüquqlarından imtina edir – azadlığını boğur. Mən ideal da budur; o, elə bir şüur formasıdır ki, insana nisbətən xaricdədir və onun idarəsində mühüm rol oynayır (23, 182).

Z.Freyd dərin tədqiqatları ilə müəyyən etdi ki, Mən ruhi aparatda xarici aləmin nümayəndəsidirsə, Mən – ideal –

"daxili aləm"in səlahiyyətlisidir. Onlar arasında konflikt mövcuddur, bu isə xarici və daxili, real və psixi olanlar arasındakı ziddiyyətlərin nəticəsidir. Mən ideal öz mənşəyi etibarilə fərdlərdəki ən arxaik irslə əlaqədar olsa da, insandakı ən ülvi başlanğıca müvafiq gəlir. Əslində bu o qədər də ülvi bir təəşşüqün nəticəsidir ki, demək olar o, özündə elə "bir toxum gəzdirirdi ki, bütün dinlər ondan əmələ gəlmişdir. Məhz bunun nəticəsidir ki, Mən idealın inkişafının sonunda "atanın rolu müəllimlərə və avtoritetlərə keçir", onların təlim və tərbiyəsi, nəsihətləri, tövsiyələri "əxlaqi senzuranın vicdanı halında" həyata keçirilir" (23, 184).

Z.Freyd hesab edirdi ki, mədəniyyət, əxlaq, mənəviyyat və s. eyni zamanda həm proqressiv, həm də reqressiv aktdır. İnsan sürü halında mədəniyyətə keçərkən həm insan olur, yəni o, sürü halında malik olduğu ideal azadlığı və sərbəstliyini məhdudlaşdırmalı olur. Z.Freyd yazırdı ki, **mədəniyyət insan üçün taledir, onu yaşamamaq olmur. İnsandakı heyvaniliyi sıxışdırıb sıfıra endirmək mədəniyyətin idealıdır** (23, 234). Mənəvi-psixoloji, fəlsəfi-etnoloji tədqiqatlar sübut etmişdir ki, əxlaq mənəvi dəyərlər içərisində xüsusi, əhəmiyyətli yaradıcı və tənzimləyici funksiyaya malikdir.

Sovet etnoqrafiyasında kifayət qədər bəhs olunsa da, Azərbaycan sovet etnoqrafiyasında heç vaxt anılmamış, etnos yaradıcı və yaşadıcı kateqorilardan biri milli psixologiyadır. Onu etnoloji, etnopsixoloji ədəbiyyatda milli xarakter, milli ruh və milli mentalitet də adlandırırlar.

Azərbaycan ictimai fikir tarixində ən yaxşı, daha doğrusu mükəmməl işlənmiş milli mənəvi dəyərlər sistemindən biri milli xarakter məsələsidir. Bu problemlərin yaxşı işlənməsi, ictimai fikirdə daima diqqət mərkəzində olmasının birinci, başlıca səbəbi Azərbaycan türklərinin xalq kimi ilkin təşəkkülünü əks etdirir. "Dədə Qorqud" oğuznamələrinin əsas mövzusu, təsviri milli xarakter, adət-ənənəsinin qo-

runması məsələsidir (237; 7; 87; 238). Zaman-zaman xalq içində aşıqlar tərəfindən oxunan "Dədə Qorqud" oğuznamələri, folklorda və yazılı ədəbiyyatda milli xarakterdən bəhs olunmasına təsir göstərib. Məsələn, Nizami Gəncəvi yaradıcılığında milli psixologiya sanki onun əsərlərinin süjetini təşkil edir (7) Lakin yalnız Azərbaycanın yox, bütün İslam Şərqinin ictimai fikir tarixində etnosun mənəvi dəyərlər sistemində milli psixologiya və onun yeri məsələsinə elmi səviyyədə aydınlıq gətirən N.Tusidir. O, topluma məxsus rəftar və davranış normalarının nəfslə (ruhla) bağlı olduğunu əsaslandırır, onları ruhun qazandığı xüsusiyyətlər hesab edir. Nəhayət, bu xüsusiyyətlər çoxsaylı təkrarlar nəticəsində xasiyyətə çevrilir. Fərdin və toplumun ona məxsus fərqləndirici xüsusiyyətləri olur. Fərdin və toplumun rəftar və davranışında, fəaliyyətlərində bu xarakter xüsusiyyətlərin özünü göstərməsi, onların aşılanması, inkişaf etdirilməsi və zəifləməsinin mənfi nəticələri N.Tusinin "Əxlaqi-Nasiri" əsərində incəliyinə qədər izah və şərh olunmuşdur.

XIX-XX əsr Azərbaycan ədəbiyyatı, etnologiyası və fəlsəfəsində milli xarakter məsələsi əsas müzakirə və mübahisə mövzusu olmuşdur. Azərbaycan ictimai fikir tarixi və ədəbi-bədii əsərlər olmasaydı, Azərbaycan sovet etnoqrafiyası bu anlayışı unutdura bilərdi. Azərbaycan sovet etnoqrafiyasında qonaqpərvərlik Azərbaycan xalqının yeganə fərqləndirici xarakter xüsusiyyəti kimi göstərilir. O da şərhsiz, bu xarakter keyfiyyətin etnosda yaranmasının səbəbi göstərilmədən.

Yuxarıda göstərdiyimiz kimi, dünya etnologiyasında, etnopsixologiya və fəlsəfi ədəbiyyatında milli psixologiya birincidərəcəli etnosyaradıcı və yaşadıcı funksiya kimi dəyərləndirilir. Avropa elmi bu sahədə böyük uğurlar qazanmışdır. Bu cəhətdən elmi müddəaları dünya ictimai fikirində qəbul olunan və yüksək qiymətləndirilən mütəfəkkirlərdən biri Qustav le Bondur. Milli psixologiya (ruh) haqqında

onun elmi mülahizələrini olduğu kimi burada xülasə etməyi vacib hesab edirik. O, yazırdı: "İrqləri (xalqları - X.X.) təsnif etmək üçün anatomiyanın, dillərin, mühitin, siyasi qrupların bizə vermədikləri imkanları psixologiya verir. Psixologiya sübut edir ki, hər bir xalqın təsisatlarından, incəsənətlərindən, etiqadlarından, siyasi dəyişikliklərindən öncə onun məlum mənəvi və intellektual xüsusiyyətləri durur, irqin (xalqın – X.X.) təkamülünə də məhz bu xüsusiyyətlər təkan verir. Elə həmin bu xüsusiyyətlər də cəm halında irqin (xalqın) ruhunu əmələ gətirir. Hər bir irq (xalq) özünün dəyişməz anatomik təsisat kimi dəyişməz ruhi təsisatına malikdir...

Cəm halında xalqın ruhunu ifadə edən mənəvi intellektual xüsusiyyətlər xalqın bütün keçmişinin, onun bütün əcdadlarının, irsinin və davranışının vadaredici səbəblərinin sintezindən ibarətdir. Anatomik əlamətlər kimi bu psixoloji xüsusiyyətlər də dəyişməz halda və daimi surətdə irsən keçir. Ümumi psixoloji xüsusiyyətlərin bu mexanizmini birmənalı şəkildə milli xarakter adlandırırlar" (24, 19). O, sözünə davam edərək yazır: "İrqlərin (xalqların) ruhi xüsusiyyətlərindən onların dünya və həyat haqqında anlayışı, beləliklə, əxlaqı və tarixi törəyir. Xarici mühitdən təəssüratlanıb ruhi xüsusiyyətlərə görə fərqlənən hər bir fərd başqalarından tamamilə fərqli duyur, düşünür, hərəkət edir. Buradan nəticə çıxır ki, müxtəlif növlər üzərində qurulmuş ruhi təsisatların tam qarışması mümkün deyil.

Əsrlər boyunca irqlərin (xalqlarn) toqquşmasının başlıca səbəbi xarakterlərin barışmazlığıdır" (24, 39-40). Qustav le Bon elmi əsaslarla sübut edir: "Tarixə öz əsas cizgilərində irqlərin (xalqların) psixoloji xüsusiyyətlərindən törənən nəticələrin sadə ifadəsi kimi baxıla bilər. O bu xüsusiyyətlərdən, balıqların sudakı həyatından onların qəlsəmələri yarandığı kimi, törəyir. Xalqın ruhi (və mənəvi) aləmi barədə

elementar bilgiləri olmayan hər kəs onun tarixini təsadüflər nəticəsində idarə edilən hadisələrin xaosu kimi qiymətləndirirlər. Əksinə, xalqın ruhu bizə məlumdursa, onda onun həyatına psixoloji xüsusiyyətlərinin düzgün və labüd nəticəsi kimi baxmaq lazımdır... Xüsusilə, siyasi təsisatlarda irqi ruh hakim mövqe tutur" (24, 57). O, milli psixologiyanın daha geniş çalarlarından bəhs edərək yazır: "Biz artıq bilirik ki, hər hansı bir sivilizasiyanın gedişatı başlıca olaraq həmin o sivilizasiyanın təzahür etdiyi xalqların xarakterindən, yəni onların irqi (milli) hisslərindən irəli gəlir. Biz həmçinin gördük ki, bu irqi (milli) hisslər çox dayanıqlıdır, lakin sonda onlar müxtəlif amillərin təsirindən dəyişə bilər. Bu sonuncuların arasında birinci sıraya ideyaların təsirini qoymaq lazımdır" (24, 114-115).

Qustav le Bon şərhini belə davam etdirir: **"Sivilizasiyanı əmələ gətirən müxtəlif elementlərə: dilə, təsisata, ideyaya, etiqada, incəsənətə, ədəbiyyata onları yaratmış insanların ruhunun təzahürü kimi baxmalıdır. Lakin dövrdən və irqlərdən asılı olaraq bu elementlərin hər hansı bir xalqın ruhunun ifadəsi kimi əhəmiyyəti çox müxtəlifdir... Xalqların taleyini idarə edən bu irqi (milli) ruh, həm də onların etiqadlarını, təsisatlarını və incəsənətlərini idarə edir; sivilizasiyanın hansı elementini öyrəniriksə öyrənək, biz onda həmişə bunu aşkar edirik. O, yeganə qüvvədir ki, ona heç bir başqa qüvvə üstün gələ bilməz. O, minlərlə nəslin çəkisini, fikirlərinin sintezini ifadə edir"** (24, 71, 112). Milli psixologiyanın sabitliyi, zəifləməsi və inkişafının təsiri və nəticələri haqqında Qustav le Bon yazır: "... Öz növbəsində beyin hüceyrələri fəaliyyətsiz qalanda daha işləmədiyi kimi, əmələ gəlməsinə əsrlər tələb olunan cəsurluq, təşəbbüskarlıq, işgüzarlıq, enerji və başqa bu cür psixi keyfiyyətlər tez-tez istifadə olunmayanda sürətlə silinə bilər. Hər hansı bir xalqa mədəniyyətin yüksək pilləsinə qalxmaq üçün çox vaxt lazım gəlməsi, cırlaşmaq üçün

də çox qısa müddət gərək olması faktı bununla izah edilir.

Tarixdə haqqında bəhs olunan müxtəlif xalqların tədricən məhvinə gətirib çıxaran səbəbləri araşdıranda, - istər farslar, romalılar, yaxud hər hansı bir başqa xalq olsun, - görürsən ki, onların süqutunun əsas amili həmişə xarakterin zəifləməsindən irəli gələn ruhi aləmdəki dəyişikliklər olub. Mən elə bir xalq tanımıram ki, o öz əqli keyfiyyətlərinin zəifləməsi ucbatından yox olsun" (24, 141). Şərhinə davam edən Qustav le Bon yazır: "...Roma yalnız özündə yaxın tənəzzülün əlamətlərini göstərəndə, yəni ilk imperatorlar dövründə orada başqa dövrlərdə olduğundan qat-qat çox rəssam, ədib və alim var idi. Romanın əzəmətinin rəmzi olan əsərlər onun tarixinin məhz bu dövrünə aiddir. Lakin o, heç bir əqli inkişafın əvəz edə bilmədiyi əsas elementi-xarakteri itirmişdi: "Adətlər korlanmış, ailə pozulmuş, xarakterlər incəlmişdi. Mütləq hakimiyyətin əli altında cırlaşmış adam getdikcə büzüşürdü. Çox dəhşətli təzyiqlər olurdu, lakin buna heç vaxt cüzi də olsa heç bir etiraz olunmurdu".

Qədim romalıların çox az tələbatı və çox güclü idealı vardı. Bu ideal bütün qəlblərə tam hakim olan Romanın əzəməti idi və hər bir vətəndaş onun üçün ailəsini, var-yoxunu və həyatını qurban verməyə hazırdı. Roma dünyanın mərkəzi, ən varlı şəhəri olandan sonra bura bütün ölkələrdən əvvəl-axır vətəndaşlıq hüququnun verildiyi əcnəbilər gəldi. Yalnız cah-cəlal içində yaşamaq istəyərək onlar öz şöhrətlərinin qayğısına çox az qalırdılar. Əzəmətli şəhər nəhəng karvansaraya çevirildi, lakin bu artıq Roma deyildi. Barbarlar onun qapısı ağzında peyda olanda o, hələ ki, qadir görünürdü, amma onun ruhu artıq çoxdan ölmüşdü... O olardı ki, təbiət rəhm nə olduğunu bilmir və bütün tərəqqi yalnız güclülərin xeyrinə zəiflərin əzilməsinə aparan amansız seçmə yolu ilə edilmişdir" (24, 142-143). Qustav le Bon dərin elmi axtarışları ilə əsaslandırır: "İrq (xalq) eyni ilə öz

anatomik əlamətləri kimi dayanıqlı psixoloji əlamətlərə malikdir. İrqin anatomik növü kimi psixoloji növü də yalnız çoxəsrlik yığımlardan sonra dəyişir.

İrqin (xalqın) ruhunu (psixologiyasını) yaradan sabit və irsi psixoloji əlamətlərin ahənginə, anatomik növlərdəki kimi, müxtəlif mühit dəyişikliklərinin yaratdığı əlavə elementlər də qatılır. Onlar daim təzələnərək irqə (xalqa) zahirən dəyişmək üçün geniş imkan verirlər.

İrqin (xalqın) ruhi quruluşu nəinki yalnız onu təşkil edən canlı məxluqların, xüsusilə də onun yaranmasına kömək edən bütün əcdadlarının sintezidir. Hər bir xalqın müasir həyatında üstün rolu nəinki yalnız sağ olanlar, həm də ölüb gedənlər oynayır. Onlar onun əxlaqının yaradıcısı və davranışının kor-koranə hərəkətvericisidir...

Hər hansı bir xalqın həyatı və sivilizasiyasının bütün təzahürləri sadəcə onun ruhunun əksidir, görünməyən, lakin çox real şeyin görünən nişanələridir. Zahiri hadisələr onları müəyyən edən gizli toxumanın yalnız görünən səthini təşkil edir" (24, 148-149).

O, sözünə davam edərək yazır: "...Bir xalq öz dilini, dövlət quruluşunu, dinini və incəsənətini birdən-birə yalnız üzdən dəyişə bilər. Həqiqətdə isə bu cür dəyişikliklərə nail olmaq üçün ilk öncə xalqın ruhunu dəyişmək lazımdır" (24, 41).

Müxtəlif xalqların təbii və ya zorakı qarışdırılmasının nəticələrindən bəhs edən Qustav le Bon göstərir: "Əks irslərin təsiri onların əxlaqını və xarakterini pozur. Məsələn, San-Dominqodakı kimi – metislər təsadüfən yüksək sivilizasiyanın varisi olduqda, bu sivilizasiya tezliklə acınacaqlı vəziyyətə düşür. Yalnız bir-birinə yaxın olan ali irqlər arasında birləşmə tərəqqi elementi ola bilər.

...İki xalqı birləşdirmək – onun fiziki və mənəvi xüsusiyyətlərini dərhal dəyişdirmək deməkdir. Bununla belə, bir-

ləşdirmə hər-hansı xalqın xarakterini əsaslı dəyişdirmək üçün malik olduğumuz yeganə düzgün vasitədir. **Belə ki, irsiyyətlə mübarizəyə girməyə elə yalnız təkcə irsiyyətin gücü çatar"** (24, 50-51). O, sözünə davam edərək yazır: "Müxtəlif irqlər (xalqlar) arasında baş verən birləşmələrin ilk işi ondan ibarətdir ki, onlar bu irqlərin (xalqların) ruhunu, daha doğrusu, xalqın gücünü təşkil edən, vətənin, millətin mövcudluğunun səbəbi olan ümumi ideyaların və hisslərin məcmusunu məhv edir" (24, 51).

Tarixdən gətirdiyi çox saylı misallara istinadən Qustav le Bon belə nəticə çıxarır: **"Xalq çox şey itirə bilər, bütün mümkün faciələrə məruz qala bilər və yenə ayaq üstə qalxmağı bacarar. Əgər o öz ruhunu itiribsə, demək olar, o hər şeyini itirib və bir də o, heç vaxt ayağa qalxa bilməz"** (24, 52).

Hegelin milli ruh (psixologiya) haqqında mülahizələri, çox güman ki, Qustav le Bonun yuxarıda haqqında bəhs etdiyimiz tədqiqatlarının elmi-nəzəri bazası olmuşdur. Hegel yazır: "Xalq ruhu təbii zərurətə malikdir və xarici mövcud varlıq sferasındadır; onun özünün özündə sonsuz əxlaqi substansiyası özü üçün xüsusiləşmiş və məhdud substansiyadır və onun subyektiv tərəfi təsadüflə geri çəkilmişdir, qeyri-şüuri ənənədir və eyni zamanda öz məzmunun konkret zaman içində və xarici təbiətə və dünyaya münasibətdə olan varlığının dərkidir. Amma məhz mənəviyyat sahəsində düşünən ruh öz dövlətində xalq ruhu kimi özünün keçici maraqları ilə, qanunlar və adətlər sistemi ilə qeyd olunan sonsuzluğu özündə birtərəfləşdirir, bununla da özünü öz təbiətinin mühüm əlamətləri ilə bilməyə çatdırır; lakin bu biliyin özü də özündə xalq ruhunun immanent məhdudluğunun möhürünü daşıyır. Ancaq eyni zamanda ümumdünya tarixinin düşünən ruhu bir halda ki, ayrıca xalqların ruhunun qeyd olunan məhdudluqlarını və özünün dünyəvi xarakterini öz üzərindən atır, özünün konkret ən ümumiliyini dərk

edir və mütləq ruhu dərk edən təfəkkürün özü üçün azad olduğu ədəbi gerçək həqiqət kimi bilmək səviyyəsinə yüksəlir, zərurət, təbiət, tarix isə onun yalnız açılmasına xidmət edir və yalnız onun şərəf damarları olur" (100, 414). O, sözünə davam edərək yazır: "Ruhun inkişafı gedişində (ruh isə o şeydir ki, nəinki tarixin üzərində su üzərindəki kimi dolaşır, həmçinin onda hərəkət edir və onun tək hərəkət verənidir) azadlıq, yəni ruh anlayışının özünün müəyyənləşdirdiyi inkişaf müəyyənedici başlanğıc olur və yalnız ruh haqqında anlayış onun üçün son məqsəd, başqa sözlə həqiqət olur, belə ki, ruh şüurdur, yaxud tarixdə təfəkkür vardır və bu əsaslı müddəa sayılmalıdır, digər tərəfdən isə bu fəlsəfi idrakdır" (100, 413).

Hegel milli ruhun yaradıcı gücü haqqında belə nəticəyə gəlir: "Dövlətdə xalqın ruhu – adətlər, qanunlar – hökmran başlanğıcdır... Dövlət quruluşuna yalnız daxilən xas olan ruh və tarix – tarix isə bu zaman yalnız ruhun tarixidir – o şeydir ki, onunla konstitusiyalar yaradılmış və yaradılmaqda davam edir" (100, 285, 399). Təsisatlarla milli ruhun qarşılıqlı təsir gücü haqqında Qustav le Bon yazır: "İnsanları daxilində olan ideyalar, hisslər, adətlər idarə edir. Təsisatlar və qanunlar yalnız ruhumuzun əksi, ehtiyaclarımızın ifadəsidir; onlar xalqların ruhunu dəyişə bilmirlər, çünki özləri ondan əmələ gəlirlər" (24, 154).

Biz burada Qustav le Bonun "Tarixdə haqqında bəhs olunan müxtəlif xalqların tədricən məhvinə gətirib çıxarmış səbəbləri araşdıranda... hər hansı bir xalq olsun, görürsən ki, onların süqutunun əsas amili həmişə xarakterin zəifləməsindən irəli gələn ruhi aləmdəki dəyişikliklər olub. Mən elə bir xalq tanımıram ki, o öz əqli keyfiyyətlərinin zəifləməsi ucbatından yox olsun" (24, 141) həqiqətini Ş, C. Əfqaninin "Elm bir nəfərin gücünü on nəfərə, min və on min nəfərə bərabər edir... İndi isə bütün dünyanı öz təsiri altında sax-

layan Avropanı, Əfqanıstanı tutan ingilisi, Tunisi işğal edən Fransanı götürün. Bunlar nə ingilisin hünəridir, nə də fransızların, bunlar yalnız onların elminin gücünədir. Gerilik və nadanlıq isə hər yerdə başını zəlillik torpağına qoymaqdan başqa bir çarə tapmamışdır" (115, 27-28). Həqiqətin AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor S.Xəlilovun "Hissin böyüklüyü bəzən onun hələ diferensiallaşmamış olmasının nəticəsidir. Hisslərin tərbiyə olunması, insanın öz hisslərini dərk etməyə çalışması və onları fərqləndirməsi, təsnif etməsi, səbəblərini anlaması mənəvi-intellektual inkişafın məqamlarıdır. Yənu məhəbbət ancaq hiss müstəvisində deyil, intellektual müstəvisində də nəzərdən keçirilməlidir. Güclü hissin idarə olunması üçün dərin düşüncə, sosial-mənəvi məsuliyyət və böyük iradə tələb olunur. Horatsi demişkən, əqllə idarə oluna bilməyən böyük qüvvə öz məxsusi ağırlığı altında əzilməyə məhkumdur. Mənəviyyatsız adamın ağıllı olması ziyan verdiyi kimi, ağılsız adamın da hissiyyatının güclü olması ziyanlıdır" (14, 183) həqiqətləri ilə ziddiyyət təşkil edir. Odur ki, məsələyə aydınlıq gətirmək üçün, kiçicik şərhə ehtiyac duyuruq.

Biz Qustav le Bonun tarixdə hər hansı bir xalqın tənəzzülü, hətta tarixdən silinməsi onun xarakterinin zəifləməsi üzündən ruhunun təməlinə yadlaşması ilə başlanması fikiri ilə tam razılaşırıq. **Lakin tarixi faktlar deməyə birmənalı əsas verir ki, intellektual səviyyə xaricində etnoslararası mübarizədə qələbə yoxdur. Sabit milli ruha malik olub mübarizə aparan iki etnosdan hansının intellektual səviyyəsi yüksəkdirsə, o, qalib gəlir.** Ərəb xilafəti yaranıb işğalçılıq müharibəsinə başlayanda xilafət rəhbərliyi ölkəsinin, ordusunun intellektual səviyyəsinin aşağı olduğunu başa düşdü. Dərhal ölkəsində intellektual səviyyənin, elmin, texnikanın yüksəldilməsi üçün bütün zəruri tədbirləri görüb, mənəvi-psixoloji, ideoloji üstünlüklə bərabər, elmi-intellektual

üstünlüyü də ələ almaqla qələbəsini təmin etdi; eləcə də İkinci Dünya müharibəsi başlayanda SSRİ-nin elmi-texniki səviyyəsi Almaniyadan qat-qat aşağı idi. Müharibənin gedişi prosesində SSRİ hərbi elmi-texniki üstünlüyə nail olmaqla Almaniya üzərində qələbə əldə etdi. Bu mənada xalqların elmi-intellektual inkişafı haqqında Ş.C.Əfqaninin müddəaları da bütünlüklə özünü doğruldur.

S.Xəlilovun xalqımızın mənəvi durumundan doğan narahatlığı da əsassız deyil. Hazırda respublikamızda yetərincə istedadlı adamlar var. Onlar respublikamızda elmin, təhsilin normal inkişafını, ziyalılıq missiyasını təmin edə bilərlər. Lakin hər şey əksinədir. Bu qrup özünü milli varlığa qarşı yönəlmiş rüşvətxor, saxtakar, eyş-işrət düşgünü, maddiyyat xəstəsi, milli mənəviyyata yadlaşmış bir zümrə kimi aparır. Ali məktəblərimizdəki, elmi müəssisələrimizdəki, məhkəmə-hüquq, dövlət orqanlarımızdakı rüşvətxorluğun, rəsmi tribunalarda, mətbuat orqanlarında yalanın baş alıb getməsi – **bütün bunların hamısının kökündə əxlaqın, adət-ənənənin pozulması, onların tənzimləyici funksiyasını yerinə yetirə bilməməsi üzündən milli ləyaqət, şərəf, qürur və s. hisslərin itirilməsi durur.** Təsadüfi deyil ki, hələ bir neçə il öncə fəlsəfə elmləri doktoru Ə.M.Tağıyev xəbərdarlıq edirdi ki, Azərbaycan xalqı passionarlıq (yaradıcılıq) göstərə bilmir (239, 53). Psixoloq Ə.S.Bayramov həyəcanla xəbərdarlıq edirdi ki, düşmənimiz ermənilərin milli hisslərində birləşdirici (konyuktiv), yaxınlaşdırıcı hisslər daha qüvvətlidir. Bizdə isə əksinə, parçalayan, ayıran (dizyunitiv) hisslər daha güclüdür. Bu cəhət əsasən hər bir xalqın yaşadığı sosial-psixoloji iqlimlə əlaqədardır" (7, 90).

Qustav le Bon milli ruhu milli varlıqda əsas yaradıcı və tənzimləyici qüvvə kimi dəyərləndirməkdə tam haqlıdır. Elm o halda etnosun yaradıcılıq gücünü, "bir nəfərin gücünü on nəfərə, min və on min nəfərə bərabər edir" ki, o, sağlam,

normal duruma, milli ruha, əxlaqa, adət-ənənəyə, tənzimləyici milli dəyərlərə malik olsun.

Böyük alman mütəfəkkiri Osvald Şpenqlerə görə də hər bir millət özünəməxsus bir mədəniyyətdir, ruhun yaradıcılığıdır; ruh fərdlərin, xalqların və dövlətlərin daxili imkanlarını maksimum şəkildə gerçəkləşdirən, onların malik olduğu enerjini yaradıcılıq işinə - mədəni forma, mif, simvol yaratma işinə sərf edir, mənəvi və maddi mədəniyyətin tərəqqisini təmin edir. Mədəniyyəti Şpenqler **"ali növlü canlı mövcudluq" kimi təfsir edirdi. Mədəniyyət onun üçün canlı orqanizmdir. Mədəniyyətlər – orqanizmlərdir. Mədəniyyətlərin tarixi onların bioqrafiyasıdır". Mədəniyyətin həyatı vardır, o da həyata, canlıya məxsus bütün simptomlara malikdir"** (10, 232).

O. Şpanqler mədəni yaradıcılığa mədəni formayaratma – prafenomen kimi baxırdı. Yazırdı ki, mədəni forma – prafenomen ümuminin təkcə halı kimi çıxış edir. O, özü ilə müəyyən normalar, tabular gətirir. Bu insanların fəaliyyətini, onların həyat tərzini, davranışını, hərəkət – rəftar modelini, dilini, təfəkkürünü və s. müəyyən nizama salır – "mədəniləşdirir". Əslində mədəniyyət normalar, tabular sisteminin yaradılması və tətbiqidir. Mədəniyyət və həyatın canlılığı həmin sistemin işlək olduğunu göstərir, onların sıradan çıxması isə onların tənəzzülü və ölümü deməkdir. Mədəniyyət və həyatın yüksələn xətt üzrə inkişaf mərhələsində həmin norma və tabular sistemi bütün dəmdəsgahı ilə işləyir. Bu normaların və tabuların pozulması prafenomenlərin unudulması, deməli, mədəniyyətin pozulma, tənəzzül mərhələsinin başlanmasıdır. **Mədəniyyət harmoniya, qaydamizan, nizampərvərlik, ümumiyə - qanuna və normaya tabeçilik tələb edir. Elə ki mədəniyyət pozuldu, harmoniya itir, qaydalar unudulur, nizampərvərlik xaosla, tabeçilik özbaşınalıqla əvəz olunur. Bu cür taleyin hökmü insanlarda ekspansionizmi inkişaf etdirir, rasionalizmi gücləndirir, mədəniyyəti bəhrəsiz-**

liyə, yaradıcılığı təqlidə çevirir, xalqı kütlə halına salır. O, elə bir vəziyyət yaradır ki, orada dahi ilə gəda arasında fərq silinir, fərdilik kütlə və texnika içərisində yoxa çıxır, xalq yaradıcıdan ölüm gəzdirən köçərilərə çevrilir, həyat mənasızlaşır, insanda insanlıq ölür, nihilizm hər tərəfi bürüyür, aşağılarla yuxarılar arasında fərq silinir, cəmiyyətdə hərc-mərclik meydana gəlir (10, 232-233).

Qustav le Bon isə milli ruhun, mədəniyyətin tənəzzülünü belə təsvir edir: "Gənclər lazımi anlayış, təsəvvür, enerji, şəxsi səy və iradə tələb edən peşədən daha çox imtina edir, ən kiçik məsuliyyət onları qorxudur. Məhdud funksiyalara görə dövlətdən alınan məvacib onları tam qane edir.

Dövlət adamlarında enerji və fəaliyyət nəticəsiz şəxsi höcətləşmələrə, kütlələrdə coşqunluqlar və günün ən maraqlı məsələləri ilə, elm adamlarında ağlağan, gücsüz və qeyri-müəyyən sentimentalizmlə və həyatın ağrı-acıları haqqında sönük mühakimələrlə əvəz edilməsidir. Hər yerdə eqoizm hədsiz artır. Əvvəl-axır hər kəs yalnız özü ilə məşğul olmağa başlayır. Vicdanın astarı üzə çıxır, ümumi əxlaq və mənəviyyat tənəzzül edib, nəhayət tam sönür" (24, 146).

Sovet etnoqrafiyasının kələf kimi dolaşdırdığı, **Azərbaycan Sovet etnoqrafiyasının toxunmadığı, əsas etnosyaradıcı və yaşadıcı kateqoriyalardan biri milli ideya – ideologiyadır.** Böyük alman mütəfəkkiri O Şpenqler elmi əsaslarla sübut edirdi: **"millətin əsasında ideya dayanır"** (10, 209-238; 167, 15). Torpaq, ərazi o zaman vətənə çevrilir ki, o, milli ideyanın daşıyıcısı olsun" (167, 86). Fransız mütəfəkkiri Qustav le Bon ideyaların xalqların tarixindəki rolundan bəhs edərək yazır: "Hər bir xalqın tarixində əhəmiyyətli yer tutan və onların taleyinə möhkəm təsir edən inqilablar, müharibələr deyil, - onların izləri tezliklə silinib gedir, - əsas ideyalarda olan dəyişikliklərdir. Onlar isə sivilizasiyanın bütün elementləri dəyişikliyə məruz qalmadığı təqdirdə baş

verə bilməzlər. Yalnız müəyyən bir xalqın təfəkküründə təsir edən əsl inqilablar onun mövcudluğu üçün təhlükəlidir.

Hər hansı bir xalqın yeni ideyaları qəbul etməsi onun üçün bir o qədər təhlükəli deyil. Xalqlara aramsız ideya sınağı təhlükəlidir ki, buna da o mütləq məhkumdur, çünki köhnəni əvəz etməli olan yeni sosial binanı möhkəmlətmək üçün o bu ideyanı tapmalıdır. Lakin ideya ona görə təhlükəli deyil ki, o, yanlışdır, ona görə ki, onları qəbul edən cəmiyyətlərin tələbatlarına yeni ideyaların uyğun olub-olmamasını öyrənmək üçün uzunmüddətli sınaqlar lazımdır. Bədbəxtlikdən onların nə qədər faydalı olması kütlə üçün yalnız təcrübə vasitəsilə aydın ola bilər...

Tarix bizə çox vaxt məlum dövr üçün əlçatmaz ideyaların sınaqlarının nə ilə nəticələndiyini göstərir, lakin insan öz ibrət dərsini tarixdən almır" (24, 125-126). O, sözünə davam edərək yazır: "İdeyaları iki cərgəyə ayırmaq olar. Birinci cərgəyə anın təsiri altında yaranmış müvəqqəti və tez ötüb keçən ideyaları, məsələn, hansısa fərdə, yaxud doktrinaya inamı; ikinci cərgəyə isə mühitin, irsiyyətin, ictimai rəyin çox böyük sabitlik verdiyi bütün əsas ideyaları aid edirik, keçmiş dini etiqadlar, indiki sosial və demokratik ideyalar bu qəbildəndir... Ani təsadüflərə uyğun surətdə kütlə ehtiyatında olan rəngarəng ideyalardan birinin təsiri altına düşür və buna görə də ən ziddiyyətli hərəkətlər törədə bilər; tənqidi qabiliyyətinin olmaması isə onun ziddiyyətləri görməsinə mane olur... Hərçənd bütün bu ziddiyyətlər gerçəklikdən daha çox görüntüdür, çünki yalnız irsi ideyalar ayrıca fərd üçün elə bir gücə malikdir ki, onun bütün əməllərini idarə edə bilir. Yalnız çarpazlaşma nəticəsində insan müxtəlif irsi impulsların təsiri altında qaldıqda onun əlamətləri, həqiqətən ziddiyyətli olur" (24, 195-197).

Qustav le Bon sivilizasiyalrın dəyişməsində ideyaların rolundan bəhs edərək yazır: **"Sivilizasiyaların yeniləşməsini**

meydana gətirən mühüm dəyişikliklər ideyalarda, anlayışlarda və etiqadlarda edilir. Böyük tarixi hadisələr insanların şüurunda görünməyən dəyişikliklərin yalnız görünən nəticələridir. Lakin bu dəyişikliklər çox az-az olur, çünki hər soyda ən möhkəmi – onun şüurunun irsi bünövrəsidir" (24, 156-157).

Qustav le Bon nəticə olaraq yazır: "Müasir dövlət adamları təsisatların əhəmiyyətinə həddindən artıq, ideyaların əhəmiyyətinə həddindən az inanırlar. Lakin elm sübut edir ki, birincilər həmişə ikincilərdən törəyir və onlara arxalanmadan mövcud ola bilməzlər. İdeyalar əşyaların görünməyən hərəkətverici qüvvələridir. Onlar yox olduqda təsisatların və sivilizasiyaların gözəgörünməz dayaqları da uçulur. Xalq üçün ən qorxulu vaxt onun köhnə ideyalarının ölü tanrıların gecələdiyi qaranlıq zirzəmilərə salındığı vaxtdır" (24, 144-145).

Böyük alman mütəfəkkiri K. Yaspersin də yaradıcılığında ideyalar haqqında dərin elmi mühakimələr mövcuddur. O yazır: **"Həyatın mənasını birgə axtarıb tapmaq istəyiriksə, tarixdə biz ideyalara müraciət edirik və etməliyik də... Ruh həyat ideyalarının həyatıdır"** (157, 315; 159, 592). O, sözünə davam edərək yazır: "...ruh ideyalarda yaşayır, ekzistensiya transsendesiya ilə əlaqədardır. Amma ətraf mühit, ideyalar, transsendensiya yalnız ümumiyyətlə şüurda sxemlər və simvollarda əşyalaşma vasitəsilə düşünülə bilən olurlar" (159, 600).

K.Yaspers ideyanın təsir gücü haqqında nəticə olaraq yazır: "Ruh olaraq mən, vasitələrilə mənə qarşı gələn ideyanı tutduğum ideyalarla doluyam. Dərrakədə parçalanmış olan, ruhi hərəkət əmələ gətirərək birləşir. İdeyalar yox olan yerdə dünya dağınıq əşyalar sonsuzluğuna çevrilir. Həyatın mənasını birgə axtarıb tapmaq istəyiriksə, tarixdə biz ideyalara müraciət edirik və etməliyik də" (157, 315; 159, 594).

Yuxarıda bəhs etdiyimiz kimi, **1988-ci ildə Azərbaycanın son parçasına yeni erməni təcavüzü başlayanda tarixi yaddaşdan, milli ideyalardan və ideologiyadan məhrum edilmiş Azərbaycan xalqı "kor siçan kimi" yuvasını tapmır, hara gəldi başını çırpırdı. Azərbaycan xalqı yeni erməni işğalını ancaq tarixi axtarış prosesində keçmişindən aldığı bilgilərlə təşkil edə bildi. Bu bilgilər, tarixi təcrübə içərisində 1918-1920-ci illər Azərbaycan xalqının yaratdığı mənəvi dəyərlər, milli, siyasi və hərbi ideyalar mühüm yer tuturdu.** Məhz Azərbaycan Cumhuriyyəti dövründə xalqımızın yaratdığı dəyərlərin mənimsənilməsi və etnogenezə doğru axtarış prosesində xalqımız milli mənlik şüuruna və məhrum edib, kütlə halına salındığı mənəvi sərvətləri mənimsəməklə yenidən millətləşməyə başladı. Tarix elmi ilə tarixinə qovuşma prosesində gedən millətləşmənin qarşısını almaq üçün gözəgörünməz qara qüvvələr xalqımızı milli inkişaf yolundan yayındırmaq üçün onu yeni ideyalara, ideologiyalara yoluxdurmaq üçün sürətlə yeddicildlik "Azərbaycan tarixi" adlandırılan yeni bir tarix uydurdular. Azərbaycanın milli elmi qüvvələri bu kitabın nəşrinin qarşısını ala bilməsə də, bu "tarixi" xalqa onun tarixi kimi sırımaq mümkün olmadı. Bu kitabları əhali alıb mənimsəmədi və buradakı milli ideologiyanı pozan yad, bədxah ideyaların şərhinə xeyli əsərlər həsr olundu. Xalqa həqiqəti anlatmaq mümkün oldu.

Yuxarıda geniş bəhs etdik ki, **sosial-mənəvi varlıq olan etnosu mənəvi qidalar yaradır və yaşadır. Etnosun özünəməxsusluqları onun hansı mənəvi qidadan, necə, nə qədər, hansı şəraitdə qidalanmasından asılıdır. Bioloji-fiziki varlıqlar üzvi və qeyri-üzvi qidalardan düzgün qidalanmayanda zəhərlənib məhv olduğu, şikəst olduğu kimi, sosial-mənəvi varlıq olan etnos mənəvi qidadan, yad qidadan, vaxtı keçmiş qidadan, ona uyğun gəlməyən mənəvi qidadan istifadə edəndə mənən zəhərlənir, mənəviyyatı pozulur, simasız vəziyyətə düşür, bu**

proses ardıcıl davam edəndə etnos bütünlüklə yad mənəvi qidalara aludə olanda bu qidaların daşıyıcısına çevrilib, təməlindən ayrılır, məhv olur. Hər bir etnos özünü fiziki-bioloji, iqtisadi, mənəvi cəhətdən yaşatmaq üçün fasiləsiz məhsul istehsal edir, onun yığımını, ehtiyatını yaradır. **Məsələn banklarda etnosun maliyyə ehtiyatı, böyük yeraltı zirzəmilərdə onun qida ehtiyatı toplandığı kimi, tarixdə, tarix elmində, birinci növbədə etnologiyada, onun mənəvi qida ehtiyatı, enerjisi toplanır. Tarix elminə (xəzinəsinə) millətə yad mənəvi qidaları (ideyaları, ideologiyaları) toplayıb, sonradan onu milli adı ilə etnosa yedirtmək (aşılamaq) etnosu mənən şikəst etmək, bəzən də bütünlüklə məhv etmək deməkdir.**

Məsələnin elmi şərhi K.Yaspersin "Dövrün mənəvi durumu" əsərində çox incəliklə əsaslandırılmışdır. O yazır: "Özlüyündə insanın dünyadakı həyatı onun keşmişi barədə xatirəsi və gələcəyi öncədən duyması ilə bağlıdır. O, təcrid olunmuş şəkildə yox, ailə üzvü kimi evdə, fərdlərin ünsiyyətində dost, hansısa tarixi bütövə məxsus yaddaş kimi yaşayır. Ona mənşəyinin qaranlıq dərinliklərinə baxmağa və özünün və yaxınlarının gələcəyi üçün məsuliyyət duyaraq, yaşamağa imkan verən ənənələr sayəsində özü olur; o doğrudan da, aldığı irsdən yaşadığı dünyada iştirak edir. Onun gündəlik yaşayışı hissən iştirak edən bütövün, nə qədər kasad olsa da belə, kiçik dünyanın ruhu ilə çulğanmışdır. Onun mülkiyyəti – onun insan tarixiliyinin ümumi məkanına mənsubluğunu təyin edən toxunulmaz dar məkandır" (158, 444-445).

Sözünə davam edən K.Yaspers yazır: "Yeni sahibliyə alınan şey başqa bir indi üçün yenidən doğulur. Yalnız anlama və təhsilliliyin yalançı tarixiliyi təkrarlanma əzmidir, həqiqi tarixiliksə - hər bir həyatı, deməli, həm də indiki həyatı qidalandıran qaynağı tapmağa hazır olmalıdır. Onda müəyyən bir plan və nəzəriyyəsiz əsl mənimsəmə ortaya çı-

xır; xatirədə hansı reallaşdırıcı qüvvənin yaşadığını öncədən görmək mümkün deyil. Tarix keçmişdən, varisi olduğu milli-mənəvi mədəniyyətdən qırılma yarandığı bugünkü vəziyyət şüurlu surətdə bu xatirənin imkanına müraciət etməyi tələb edir. Çünki onu məhv etməklə insan özünü də məhv edir" (158, 500-501). Göründüyü kimi, bu sözlər sanki Azərbaycan xalqı üçün deyilmişdir.

Tarixlə ayrılmazlığın zəruriliyi səbəblərini K.Yaspers belə izah edirdi: "Ümumdünya tarixi nöqteyi-nəzər dedikdə, biz nəyi başa düşürük? Biz tarixi hansısa bir tam kimi başa düşməklə özümüzü də başa düşməyə çalışırıq. **Tarix təkcə, haqqında bildiklərimiz şey yox, həm də elə bir şeydir ki, həyatımızın kökləri ondadır. Tarix, izsiz itmək yox, insan varlığına öz töhfəmizi verməyi istəyiriksə, artıq bir dəfə qoyulmuş, olanla əlaqə saxladığımız əsasdır"** (157, 337).

Etnosa məxsus hiss, emosiya, inam, etiqad, əxlaq, davranış normalarını və s. element və hissələr kimi birləşdirməklə vahid etnos üçün sabit təkrarlanan, tənzimləyici xarakter əlamət – adət-ənənə yaranır. Biz yuxarıda Azərbaycan etnologiyasının banisi N.Tusinin və XX əsr Azərbaycan sovet etnoqrafı, tarix elmləri doktoru, professor Həsən Quliyevin adətə verdikləri tərifləri və onun yaranma səbəbləri haqqında onların mülahizələrini oxucunun diqqətinə çatdırmışıq. Odur ki, məsələnin bu cəhəti üzərində çox dayanmayacağıq.

Qeyd edim ki, bizə Sovet etnoqrafiyasının varlığı illərində etnoqrafiyanın nəzəri problemləri haqqında Azərbaycan tədqiqatçıları tərəfindən, Azərbaycan dilində yazılmış beş kitab məlumdur. Bunlar etnoqraflar Ə.S.Məmmədov, H.A.Quliyev "Azərbaycan adət və ənənələri" (B., 1966), H.A.Quliyev "Məişətimizdə adət və ənənələr" (B., 1976), H.A.Quliyev "Azərbaycanda ailə məişətinin bəzi məsələləri" (B., 1986), fəlsəfə tədqiqatçıları A. Şükürov "İslam, adət və ənənə" (B., 1981) və F.Xəlilova "Adət və ənənələr" (B.,

1986) kitablarıdır. İslam dininə qarşı çox aqressivliyini nəzərə almasaq, kommunist ideologiyası zəminində yazılsa da, A. Şükürovun əsərində problemin şərhində milli mövqeyə xəyanət edilməmişdi. XIII əsr Azərbaycan milli etnologiyasında adət-ənənənin mahiyyətinin qiymətləndirilməsi ilə XX əsr Azərbaycan sovet etnoqrafiyasında adət-ənənənin dəyərləndirilməsindəki mahiyyət fərqini görmək üçün baniləri N.Tusi və H.Quliyevdən bir neçə iqtibası oxucunun diqqətinə çatdırmağı lüzum görürük.

N.Tusi rəhbər vəzifələrə seçilən adamların bir çox keyfiyyətləri arasında adət-ənənəni bilməsini birinci şərt hesab edərək yazırdı ki, "fəzilət və mərifət sahibləri böyük yaradanın lap ilk andan qoyduğu qayda-qanunun əleyhinə getməz, adət-ənənəni qoruyub saxlamaqda, öz imkanı daxilində onun hikmətinə riayət edər və ondan kömək istər" (103, 179).

N.Tusi yazırdı ki, rəhbər şəxsdə dörd keyfiyyət – hikmət, tam ağıllılıq, gözüaçıqlıq və təxəyyül, lazımi anda cihad etmək qabiliyyəti olmalıdır, lakin mümkündür ki, bu keyfiyyətləri bütünlükdə özündə birləşdirən adam tapılmasın, onda "keçmişdə yaxşı hökmdarlıq etmiş rəislərin iş üslublarına, onların adət-ənənələrinə, qayda-qanunlarına bələd olan, işgüzar, qaydaların hansının harada işlətmək lazım olduğunu bilən, keçmişdəki adət-ənənənin hansının köhnəldiyini, yaramadığını, hansının xeyirli və gərəkli olduğunu seçməyi bacaran, natiqlik, gözüaçıqlıq, müdafiə və müharibə istedadına malik bir adam rəislik etsə, bu rəyasətə "ənənəvi rəyasət" deyilir (103, 188-189). O, yazırdı ki, rəhbər şəxsə "bütün təbəqələrin adət-ənənələrinə gözəl bələd olmaq lazımdır ki, onların ziddinə olan şeylərə yol verməsin, eyni zamanda onları narahat edən, həyəcanlandıran şeyləri də yaxşı öyrənməlidir ki, bəzən qələbə bu şeylərin mahiyyətində gizlənmiş olur" (103, 235. Ətraflı bax: 103, 38, 70, 140-

141, 156-157, 159-160, 162-166, 170-179, 196, 199, 203, 206-207, 211, 235, 240).

Göründüyü kimi, N.Tusi adət-ənənəyə insanın mənəvi dünyasının bütöv sistemi kimi baxırdı, oradakı mühafizəkar, dəyişdirilməsi, yeniləşdirilməsi vacib xüsusiyyətlərə həssaslıqla yanaşmağı lazım bilirdi. H. Quliyev artıq dünyamızda olmadığı üçün onu təhlilə çəkməyə milli adətlərimiz icazə vermir. Lakin elmi həqiqəti dərk etmək, varisi olduğumuz milli dəyərlərə qovuşmaq, Azərbaycan sovet etnoqrafiyasının apardığı milli simasızlaşdırma siyasətini obyektiv qiymətləndirmək üçün ondan bir neçə iqtibası oxucunun diqqətinə çatdırıram. H. Quliyev Ə. Məmmədovla müştərək yazdığı "Azərbaycan adət və ənənələri" (B., 1966) və 1976-cı ildə nəşr olunan "Məişətimizdə adət və ənənələr" və "Azərbaycanda ailə məişətinin bəzi məsələləri" (B., 1986) kitabları hər üçü köçürmədir, plagiyatdır, müəlliflər etnoqrafiyanın terminlərini bilmirlər (Ətraflı bax: 205, 308-312, 314-117). Ə.Məmmədov və H.Quliyev adət-ənənənin mahiyyəti haqqında naqis, bir-birini inkar edən izahlardan (243,3-10; 242, 3-39) sonra yazırlar: "Köhnə nəsil ilə birlikdə gələn bu adət və ənənələr uşaqlıqdan yeni nəsilə verilir. Odur ki, buna biganə baxmaq olmaz.

V.İ.Lenin öyrədir ki, irsi saxlamaq heç də irslə kifayətlənmək demək deyildir. Bu, hər şeydən əvvəl o deməkdir ki, yeni cəmiyyət qurmaq üçün ən yaxşı irsi mənimsəməli, köhnəlmiş, irəliyə doğru inkişafımıza mane olan irsdən imtina etməliyik. Nə üçün? Ona görə ki, biz, adət və ənənələrə sinfi nöqteyi-nəzərindən yanaşırıq. Əvvəla, insanların şüurunda keçmişin zərərli qalıqlarının ifadəsi olan adət və ənənələri tamamilə ləğv etmək vəzifəsi inkişafımızın indiki mərhələsində ən vacib, bilavasitə əməli əhəmiyyətli vəzifə olmuşdur. Çünki bu adət və ənənələri təmsil edən adamlar, özlərinin istəyib-istəməmələrindən asılı olmayaraq, düşmən dəyirma-

nına su tökürlər. İkincisi, burjua ideyalarının kökü istismar cəmiyyətində əsrlər boyu yaranmış olan ənənələrə və adətlərə gedib çıxır. Odur ki, kommunistcəsinə yaşamağa və işləməyə mane olan bu adət və ənənələrə vurulan zərbə bilavasitə burjua ideologiyasına vurulmuş olur.

Bəs bu adət və ənənələr hansılardır? Hər şeydən əvvəl köhnə dünyadan miras qalmış dini adətləri – məhərrəmlik, orucluq, namaz qılmaq, fal açdırmaq, "müqəddəs" yerlərə ziyarətə getmək, qadına mülkədar-bəy münasibəti bəsləmək, toy və yas mərasiminə, nikaha dini don geydirmək kimi adət və ənənələri nəzərdə tuturuq. Məhv edilmiş sinifin mənafeyinə xidmət edən bu adətlər bizə yabançıdır, düşməndir. Biz onlardan imtina edirik.

Köhnə dünyanın xudbinlik, riyakarlıq, dost-yoldaşa xəyanətkarlıq, namərdlik, ikiüzlülük, yaltaqlıq kimi adətləri ümumi işimizə, tərbiyə işinə mane olur, adamlar arasında inamsızlıq törədir. İnsan ləyaqətini alçaldan bu sifətləri özündə əks etdirən adətlərin yaşamasına biz heç vəchlə razı ola bilmərik. Onlar yeni dünya quran insanlara yaddır, yabancıdır. Biz, onların hər hansı bir şəkildə olursa-olsun təzahür edə bilməsinə qarşı çıxırıq. Bu adətlər yarandığı dövrdə də xalqa, onun ruhuna yabançı olmuşdur (243, 10-11).

Onlar sözlərinə davam edərək yazırlar: "Kommunist partiyası ölkəmizdə yeni insanın yetişdirilməsinə xidmət edən bu işdə belə bir xətt götürərkən ona əsaslanır ki, SSRİ daxilində iqtisadi, siyasi və ideoloji birliyin yaranması sayəsində xalqlar arasında qarşılıqlı ünsiyyət genişlənmişdir. Bununla yanaşı, müttəfiq respublikalar arasında sərhədlərin öz əvvəlki əhəmiyyətini getdikcə itirməyə başlaması nəticəsində gediş-gəlişin artması, qarşılıqlı qardaşlıq yardımı və dostluğu yolu ilə millətlərin bir-birinə yaxınlaşması prosesi onların ictimai yekcinsliyinin güclənməsinə, mədəniyyətdə, əxlaqda və məişətdə ümumi kommunist xüsusiyyətlərinin inkişa-

fına şərait yaratmışdır. Odur ki, hər hansı bir milli xüsusiyyət daşımadan yaranan yeni adət və ənənələr bütün millətlər tərəfindən eyni dərəcədə məqbul sayılır, bəyənilir və hamının məişətinə, münasibətinə eyni bərabərdə daxil olur.

Marksizm-leninizm öyrədir ki, milli xarakter tarixi şəraitin məhsuludur. Tarixi şərait eyniləşdikdə onun törəməsi olan milli xarakterlər də eyniləşir. Deməli, adət və ənənələrdəki milli xarakter də əbədi ola bilməz, o öz əlahiddəliyini ümumiliyə, eyniliyə tərk etməlidir. Kommunizmə doğru irəlilədikcə bu eynilik daha da qüvvətlənəcək və şübhəsiz, tarixi inkişafın müəyyən mərhələsində tam bir vahid şəkil alacaqdır. Bunu indinin özündə də müşhidə edirik. Məsələn, adamlarımızın geyimində, istirahətinin təşkilində, bəzəyində, tarixi günlərin, bayramların qeyd edilməsində, hətta fərdi xüsusiyyəti daha çox saxlayan toy və yas mərasimlərinin keçirilməsində eynilik yaranmaqdadır. Yaxud mədəniyyətin bütün sahələri məzmunca vahid əsasa – sosialist əsasına keçmişdir, milli fərq yalnız formada qalmışdır" (243, 12-13).

İqtibaslarda heç bir fikrin təhlilinə ehtiyac yoxdur. Göründüyü kimi, milli varlığın əsası olan milli adətlər hamısı şüurda keçmişin məhv edilməli qalığı elan edilir. Bir məsələ üzərində durmağa ehtiyac duyuruq. Birinci rus işğalı - 1828-1918-ci illər də daxil olmaqla tarixin heç bir mərhələsində "xudbinlik, riyakarlıq, dost-yoldaşa xəyanətkarlıq, namərdlik, ikiüzlülük, yaltaqlıq" kimi xarakter əlamətlər Azərbaycan xalqına xas olmamışdır, bütün mənbələr Azərbaycan xalqı üçün bunların əksi olan keyfiyyətlərin xarakter əlaməti olduğunu göstərir (36). Ə.Məmmədov və H.Quliyevin Azərbaycan xalqının mənəviyyatında görünən "xudbinlik, riyakarlıq, dost-yoldaşa xəyanətkarlıq, namərdlik, ikiüzlülük, yaltaqlıq" Azərbaycan kommunistlərinin lideri N.Nərimanovun da etiraf etdiyi kimi, Kommunist Rus imperiyasının həyata keçirdiyi simasızlaşdırma, milli xarak-

terdən məhrumetmə siyasətinin nəticəsi idi.

Azərbaycan sovet etnoqraflarının keçmişdən gələn milli adət-ənənəni məhv etməklə bərabər, milli varlığın yaşadılmasını zəruri hesab edən N.Tusi və digər alimlərimizi inkar etmələri də vahid kommunist siyasətin nəticəsi idi. Keçmişdən gələn adət-ənənələrlə bərabər, onun qorunmasının zəruriliyi haqqında elmi müddəalar da, onların müəllifləri də unutdurulmalı idilər. Adətləri "İnsanların şüurunda keçmişin zərərli qalıqlarının ifadəsi" hesab edən müəlliflər, elə həmin əsərdə 21 sovet adət-ənənəsindən bəhs edirlər (243), Halbuki, Azərbaycan xalqının həyatında onların biri heç vaxt adını çəkdikləri adətlər olmamışdır. Sonra H.Quliyev bu adətləri "Məişətimizdə adət və ənənələr" (B., 1976) əsərində yenidən təkrar etsə də, Azərbaycan xalqının xatirəsində heç vaxt onun haqqında bəhs etdiyi adət iz qoymamışdır. Yəqin ki, o, bu adətləri uyduranda yaratmaq istədikləri "hər-hansı bir milli xüsusiyyəti daşımadan yaranan yeni adət və ənənələr bütün millətlər tərəfindən eyni dərəcədə məqbul sayılır, bəyənilir və hamının məişətinə, münasibətinə eyni dərəcədə daxil olur" (243, 13) "elmi" müddəalarını əsas götürmüşdür.

Sovet ictimai elmlərinin "məzmunca sosialist, formaca milli" siyasəti əslində xalqların simasızlaşdırma siyasəti idi. Moskva etnoqrafik ədəbiyyatında açıq şəkildə milli xarakterin, xüsusiyyətin silinməsi siyasəti yox dərəcəsində idi., bəlkə də unutmuşuq, bizə məlum deyil. Moskvanın milli məsələdəki hər bir eksperimentində Azərbaycanın birinci olması ənənəsi, ola bilsin ki, etnoqrafik ədəbiyyata gətirilmişdir. Sovet xalqının "milli xüsusiyyət daşımaması təşəbbüsünü Moskva deyil, beynəlmiləlçilik nümunəsi kimi Azərbaycan etnoqrafı irəli sürmüşdü

Adət-ənənələrdən kənarda etnos yoxdur. Adət-ənənələr xalqın mənəvi, bütövlük formasıdır, yaradıcı məzmunudur.

Təsadüfi deyil ki, böyük alman mütəfəkkiri Hegel adətin mahiyyəti haqqında yazırdı ki, "mənəvinin fərdlərin gerçəkliyi ilə sadə eyniyyətində mənəvi olanların ümumi fəlaiyyət tərzi – adət kimi çıxış edir; mənəviyə vərdiş birinci, xalis təbii iradə ilə birlikdə ikinci təbiət kimi çıxış edir və o iradənin mövcud varlığının qəlbə tam girən mənası və gerçəkliyi, canlı və mövcud bir aləmdir, substansiyası ruh kimi möbcud olan ruhdur.

Təbiətin öz qanunları olduğu kimi, heyvanlar, bitkilər, günəş öz qanunlarını yerinə yetirdiyi kimi, adətlər də azadlıq ruhunun qanunudur. Adətlər hüquq və əxlaq yox, məhz ruhdur" (160, 204).

Fransız mütəfəkkiri Qustav le Bon adətin-ənənənin mahiyyəti haqqında yazırdı: "Sevinmək lazımdır ki, iş başqa cür yox, məhz belədir, çünki ümumi ənənələrin, ideyaların, hisslərin, inamların, düşüncə tərzlərinin elə bu şəbəkəsi xalqın ruhunu təşkil edir. Biz gördük ki, şəbəkə nə qədər möhkəmdirsə, o qədər də xalqın ruhu möhkəmdir. Əslində, o və yalnız təkcə o, həmin millətləri saxlayır, çünki əgər o qırılsa, dərhal həmin millətlər dağıla bilər. O həm onların əsl qüvvəsi, əsl hökmdarıdır. Bəzən öz fantaziyalarından savayı heç nəyi rəhbər tutmayan Asiya hökmdarlarını zülmkarlar kimi təsvir edirlər. Əksinə, bu fantaziyalar çox dar hüdudlara salınıb. Xüsusən də, Şərqdə ənənələr şəbəkəsi çox möhkəmdir. Bizdə xeyli sarsıdılmış dini ənənələr onlarda özlərinin bütün gücünü qoruyub saxlamışdır və ən inad zülmkar belə heç vaxt bu iki hökmdarı - ənənəni və ictimai rəyi təhqir etməz, çünki o bilir ki, onlar ondan xeyli güclüdürlər" (24, 123-124).

O, nəticə olaraq yazırdı: "Ənənələrdə keçmiş irqin (xalqın) ideyaları, tələbatları və hissləri ifadə olunur; onlar irqin (xalqın) sintezini təcəssüm etdirərək bizi onun təzyiqi altında saxlayır...

Xalq keçmişin yaratdığı orqanizmdir və hər bir orqanizm kimi, o da yalnız davamlı irsi yığınlar yolu ilə dəyişdirilə bilər. İnsanlar, xüsusən kütlənin içərisində olduqda ənənələri rəhbər tuturlar, özü də yalnız adlar, zahiri formalar asanlıqla dəyişir.

Buna təəssüflənməyə dəyməz. Ənənələr olmadan nə milli ruh, nə də sivilizasiya ola bilər. Buna görə də insanın mövcud olduğundan bəri başlıca məşğuliyyətlərindən biri ənənələr şəbəkəsi yaradılması olmuşdur...

Beləliklə, hər bir xalqın idealı keçmişin təsisatlarının qorunub saxlanılmasından və onların yalnız tədricən cüzi dəyişməsindən ibarətdir" (24, 213-215).

Böyük alman mütəfəkkiri K. Yaspersin etnosun varlığını yaşatmasında adət-ənənələrin rolu haqqında yazır: "Biz insan, eyni zamanda təbiət və tarixik. **Təbiətimiz varislikdə, tariximiz ənənədə özünü göstərir...** Nail olduğumuzu unutsaq, yaxud da tarix boyu nail olduğumuz həyatımızdan yox olsa, tarixi proses kəsilə bilər. Hətta vərdiş və sözsüz qəbul edilən inam gücünə formalaşmış həyat tərzi və təfəkkürün az qala şüursuz stabilliyi, ictimai münasibətlərin bütün toplusu ilə hər gün formalaşan və kökü sanki mövcudluğumuzun ən dərin qatlarında olan stabillik ictimai şərait dəyişən kimi dərhal yerindən oynamağa başlayır. Gündəlik həyat ənənədən qopanda, tarixən formalaşmış etnos itirilir, adi həyat formaları dağılır və tam əminsizlik, güvənsizlik hökm-fərma olur" (157, 343-344).

K.Yaspers problemin digər aspektlərini belə izah edir: "Yalnız baş verənlərin axınında tarixilik nə isə özünəməxsus və təkrarolunmaz bir şey kimi çıxış edir. O, nüfuzunu saxlayan ənənə və bu ənənədə keçmişə münasibət barədə xatirələrin yaratdığı kontinumdur. Tarixilik hadisənin şüurlu aparılmış məna əlaqələrində dəyişdirilməsidir" (157, 340). O, xüsusi olaraq diqqətə çatdırır ki, "...Fərd üçün həyatının

dayağı kimi müəyyən fərdlərlə ənənəyə əsaslanan və sevgi ilə dolu tarixi əlaqə mövcuddursa, insanın insana münasibəti azaddır" (159, 686). Böyük mütəfəkkir son olaraq xəbərdarlıq edir: "Ənənələr öz kökünə, təhlükəsizliyinə hissetmə verir, özünə qarşı tələblər irəli sürməyə vadar edir" (157, 299). "Amma insan ənənədən məhrumdursa və yalnız özündən asılıdırsa, rüşeymlər ilk yaranışda məhv olurlar" (158, 516).

Maraqlıdır, Kommunist Sovet imperiyasının paytaxtı Moskva və Leninqradda (Sankt-Peterburq), digər respublikalarda, Azərbaycandakı kimi, "Tarixi etnoqrafiya şöbəsi" və "Sovet dövrü etnoqrafiyası" kimi tarixi dövrlər üzrə qurulmuş şöbələr yox idi. Etnoqrafiya şöbələri tədqiqat probleminə görə adlandırılırdı. "Azərbaycan etnoqrafiyası"nın I cildin girişində akademik T.Bünyadov yazır: "Üçcildlik "Azərbaycan etnoqrafiyası" ən qədimdən başlayaraq bu günə qədərki dövrü əhatə edir.

Həmin cildlərin ikisinin dövrü daha genişdir. Bu cildlərdə Azərbaycan etnoqrafiyasının problemləri ən qədim zamandan başlayaraq Böyük Oktyabr Sosialist inqilabına qədərki dövrü əhatə edir. Lakin cildlərdə əsas obyekt kimi XIX əsr və XX əsrin əvvəlləri daha geniş şərh edilir" (64, 6). Lakin əsərdən göründüyü kimi "Azərbaycan etnoqrafiyası"nın I cildində "ən qədim zamandan" tədqiqata cəlb edilmiş problem yoxdur. Əsərə daxil edilmiş bütün mövzuların dövrü XIX-XX əsrin əvvəllərini əhatə edir. Azərbaycan Sovet etnoqrafiyasında qədim dövrə aid cəmi iki tədqiqat mövzusu olub, bunlardan biri T.Bünyadova, digəri M.Dadaşzadəyə məxsusdur. Bu əsərlər haqqında yuxarıda münasibət bildirmişik.

Maraqlıdır, "Tarixi etnoqrafiya şöbəsində", M.Dadaşzadənin yuxarıda göstərilən əsəri istisna olmaqla mənəvi mədəniyyətə aid bir dənə də olsun tədqiqat aparılmadı, bütün tədqiqatlar təsərrüfat məişəti ilə bağlıdır. T.Bünyadovun

"Azərbaycan etnoqrafiyası"nın I cildinin "Coğrafi şərait və tarixi oçerki"nə daxil etdiyi aşağıdakı ustanovkaya diqqət yetirsək "Artıq XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycanda vəziyyət olduqca çətin və mürəkkəb idi. Natural təsərrüfatın hökmranlığı, iqtisadi və siyasi gerilik, ölkədəki feodal hərcmərcliyi, yadellilərin təkrar-təkrar basqınları Azərbaycanda mərkəzləşdirilmiş vahid dövlətin yaradılmasına mane olurdu. Yaranmış şəraitdə yalnız Rusiya kimi qüdrətli dövlətin köməyinə arxalanmaq yeganə çıxış yolu idi...

Türkmənçay müqaviləsindən sonra Azərbaycan xalqı rəsmi olaraq iki yerə bölündü. Vahid bir xalqın taleyi ikiləşdi. Cənubi və Şimali Azərbaycanın tarixi müxtəlif istiqamətdə getməyə başladı. Lakin Şimali Azərbaycanın Rusiya tərkibinə daxil olması gələcək siyasi, iqtisadi və mədəni həyatında müstəsna əhəmiyyət kəsb etdi. Azərbaycan xalqı geridə qalmış İran və Türkiyənin əsarətindən həmişəlik azad oldu. Şimali Azərbaycanda feodal pərakəndəliyi və özbaşınalığına bir dəfəlik son qoyuldu. Rusiya iqtisadiyyatının təsiri ilə Azərbaycanda tədricən kapitalist münasibətləri yaranır, fəhlə sinifi təşəkkül tapırdı. Azərbaycan xalqı qabaqcıl rus mədəniyyətinə qovuşurdu. Həm də bu birləşmə böyük beynəlxalq əhəmiyyətə malik idi. Bu birləşmənin ən əsas mütərəqqi nəticəsi bir də onda oldu ki, Rus inqilabı hərəkatının güclü təsiri ilə Azərbaycan gələcəkdə azadlıq hərəkatının inkişafında yeni mərhələyə qədəm qoydu. Rus xalqı başda olmaqla xalqımız çarizmə, mülkədarlara və burjuaziyaya qarşı birlikdə mübarizə apardı" (64, 27-28). Bu milli özünə güvənsizlik ideologiyası "Tarixi etnoqrafiya şöbəsi"ndə aparılmış bütün tədqiqatların əsas leytmotivinə çevrildi.

Maraqlıdır, üçcildlik "Azərbaycan tarixi"nin ikinci cildində və digər əsərlərdə XIX əsrin sonu XX əsrin əvvəllə-

rində Azərbaycan xalqının millət kimi təşəkkülündən yazılıb bəhs olunsa da, Azərbaycan sovet etnoqrafiyasında bu məsələdən bir cümlə də olsun bəhs olunmadı.

Mülki tarixşünaslıqda Azərbaycanda çarizmə qarşı aparılan milli-azadlıq hərəkatından, xalq intiqamçılarından, milli simanın qorunması uğrunda mübarizədən, onu formalarından, azadlıq ideologiyasından yetərincə bəhs olunsa da, (244) Azərbaycan sovet etnoqrafiyasında bu məsələyə toxunulmadı. Halbuki, dəyişən həyat tərzinə qarşı verilən cavab reaksiyası, yeni təşəkkül, inkişaf və ya dəyişmə, bu prosesdə qazanılan yeni xarakter keyfiyyətlərdən, milli mənlik şüuruna onların təsirindən bəhs etmək tarix elmlərində birinci növbədə etnoqrafiyanın vəzifəsidir.

Etnosun təşəkkül, inkişaf və dəyişmə prosesi, özünü mədəni təşkili, kollektiv davranış forması, milli xarakteri, mənlik şüuru, adət-ənənəsi, onun tənzimləyici funksiyası, ümumən mənəvi dəyərlər sistemindən bəhs etməyən etnoqrafiyanı elm hesab etmək olarmı?

Millətin mənşəyini ardıcıl saxtalaşdıran, keçmişinə nifrət aşılayan, onu simasız ünsür kimi təsvir edən, yüzillik istiqlal mübarizəsi sayəsində qurduğu müstəqil dövləti, nail olduğu istiqlalı danıb, dövlətçilik yaddaşına nifrət aşılayıb, ona olmamış süni inqilab uydurub, ən nəhayət işğalı, əsarəti xalqın nicatı kimi izah edən, işğal günlərini bayram kimi yaddaşlara daxil edən, xalqı həqiqi tarixi yaddaşdan, milli ideyalardan, mənlik şüurundan məhrum edən Azərbaycan sovet tarixşünaslığını elm, yoxsa müstəmləkəçinin sərrast silahı adlandırmaq düzgündür?

Bu vəziyyət Azərbaycan tarixi elminin inkişafına ciddi mane olur. Azərbaycan etnopsixoloqlarının, filosofların və digər mütəxəssislərin qənaətləri, həmçinin araşdırmalarımız deməyə əsas verir ki, Azərbaycan xalqının mənəvi bütövlüyü, adət-ənənəsi pozulduğundan ona qarşı olan

təzyiqlərə qarşı lazımi iradə nümayiş etdirə bilmir.

Azərbaycan xalqının mənəvi bütövlüyünün pozulması səbəbləri içərisində **iki başlıca səbəb var. Bunlardan birincisi Kommunist Rus imperiyasının ona qarşı fasiləsiz yeritdiyi, tətbiq etdiyi simasızlaşdırma, assimilyasiya, etnosid siyasətdir; ikincisi tarix və etnoqrafiya elmi vasitələrlə tarixi yaddaşdan, milli və siyasi şüurdan, etnosun təşəkkülü, inkişafı, tərəqqi və tənəzzülü haqqında elmi bilgidən məhrum edilməsidir.**

Biz yuxarıda alman mütəfəkkiri K.Yaspersin elm haqqında məqaləsini əsərimizə daxil etmişik. Tarix elminin və tarixçilərin funksiyası, səviyyəsi, keyfiyyəti haqqında dünya elmində məqbul hesab olunan elmi müddəalarla oxucuları tanış etməyə lüzum görürük.

Böyük alman mütəfəkkiri Hegel tarixi tədqiqatın həqiqi elmi mahiyyət kəsb etməsi üçün onu yazan tarixçidə xüsusi təfəkkür qabiliyyətinin olmasını zəruri hesab edirdi. O, yazırdı: "Ruhdan məhrum seyr yalnız predmetə münasibətdə dışarı qalan hissi şüurdur. Ruhlanmış, həqiqi seyr isə əksinə, predmetin substansiyasını bütöv tamlığı ilə tutur. Məsələn, **istedadlı tarixçinin canlı seyri qarşısında onun təsvir etməli olduğu durumlar və olaylardan ibarət bir bütöv durur; məsələn tarixi təsvir etmək qabiliyyəti olmayanlar xırdalıqlar üzərində dayanır və onların arxasındakı substansionalı diqqətdən qaçırır. Ona görə də elmin bütün sahələrində – eləcə də fəlsəfədə – predmetin seyrindən çıxış edərək danışmağın tələb edilməsi ədalətlidir. Bunun üçün tələb olunur ki, insan özünün predmetə olan münasibətini müəyyənləşdirsin, öz ruhundan, qəlbindən və hisslərindən, qısaca desək, özünün bütün varlığından çıxış edərək predmetin özünün mərkəzində durub ona özünü açmağa imkan versin. Yalnız predmetin substansiyasının seyri onun haqqındakı təfəkkürün təməlində - həqiqət zəminindən uzaqlaşmadan möhkəm durduqda bu substan-**

siyada olan xüsusinin gözdən keçirilməsinə doğru irəliləmək olur, ancaq həqiqi təməldən ayrıldıqda boş sözə keçərlər" (100, 319).

Digər alman mütəfəkkiri K.Yaspers keçmişə müxtəlif münasibətlər keçmişin müasirə və gələcəy münasibəti haqqında yazır: "Təhsilə düşmən münasibət lovğalıqla bütün keçmişi məhv edir, sanki dünya yenidən başlayır, mənəvi substansiya bu keyfiyyətin də sadəcə keçmişi barədə bilik deyil, indiyədək həyat qüvvəsi olan tarixi xatirə vasitəsi ilə bu çevrilmədə qorunub saxlanıla bilər. Onsuz insan biabır olardı...

Ona görə keçmişə düşmən münasibət tarixiliyin yeni məzmununun doğuş əzablarına aiddir. O, yalançı tarixilik kimi istorizmə qarşı dönür, çünki o təhsilin qəlp bədəli olmuşdur. Çünki sadəcə keçmişə dair bilik kimi xatirə yalnız sonsuz antikvar məlumatlar toplayır; anlayan seyr kimi xatirə, mənzərə və obrazları qeyri-məcburi qarşıdurma kimi canlandırır; yalnız mənimsəmə kimi xatirə indi də əvvəlcə ehtiramda, sonra onun şəxsi duyumu və fəaliyyəti çapında və nəhayət, əbədi varolmada iştirakda insan varlığının özvarlığının gerçəkliyini yaradır. Xatirənin xarakteri problemi indi hələ də mümkün olan təhsilin problemidir" (158, 498-499). Sözünə davam edən K.Yaspers yazır: "Tarixi relikviyalar unudulmadıqları hər yerdə qayğı və qulluqdan yararlanırlar. Nə vaxtsa əzəmətə malik olmuş şey həmin diyarın tarixi mumiyası kimi yaşamaqda davam edir və səyahətlərin məqsədi olur. Haçansa dünya əhəmiyyətinə malik olmuş və respublika müstəqilliyinin vüqarını əks etdirən yerlər indi turizmdən gələn vəsait hesabına yaşayırlar... **Tarix olan təkcə nəyisə bilmə kimi mənimsənilir, Mənimsəmə yalnız öz mənbələrinə əsaslanaraq, özümə çevirdiyim mənəvi sahəyə daxil olma vasitəsi ilə insan varlığının, keçmişi yeni şəklə salan dirçəldilmədən ibarətdir"** (158, 499-500). K. Yaspers şər-

hinə davam edərək yazır: "Yeni sahibliyə alınan şey (tarixi bilgi – X.X.) başqa bir indi üçün yenidən doğulur. Yalnız anlama və təhsililiyin yalançı tarixçiliyi təkrarlama əzmidir, həqiqi tarixçiliksə hər bir həyatı, deməli, həm də indiki həyatı qidalandıran qaynağı tapmağa hazır olmalıdır. Onda müəyyən bir plan və niyyətsiz əsl mənimsəmə ortaya çıxır; xatirədə hansı reallaşdırıcı qüvvənin yaşadığını öncədən görmək mümkün deyil. Tarixdə qırılma yarandığı bugünkü vəziyyət şüurlu sürətdə bu xatirənin imkanına müraciət etməyi tələb edir. Çünki onu məhv etməklə insan özünü də məhv edir" (158, 500-501).

"Keçmiş insana heç vaxt özünü necə aparmalı olduğunu deyə bilməz. Keçmişə dair xatirələr işığında oyadılmış olaraq, o özü qərar qəbul etməlidir. O, nəhayət, onlara mənəvi vəziyyətin nə olduğunu deyəcəkdir: varlığı hansı obrazda dərk edir, ona əmindir, nəyi şərtsiz istəyir, həmin vəziyyətdə kimə müraciət edir və qəlbinin dərinliyində kimə qulaq asır" ((158, 571-572).

Tarixi bilginin rolu, toplumun keçmişi necə təsəvvür, gələcəyi necə fəhm etməsi kimi elmi məsələlər yaradıcılığında mühüm yer tutan K.Yaspers yazır: "Tarixi necə təsəvvür etməyimizin artıq çox fərqi var. Həyatımızın mənası bütövün çərçivəsində öz yerimizi necə təyin etməyimiz, onda tarixin əsaslarını və məqsədini necə bulmağımızla təyin olunur... Tarixdə təkcə bir şey – gələcəyin amili kimi insanın xatırlama, bununla da olmuşları qoruyub saxlama qabiliyyəti önəmlidir. Belə ki, hər bir verilən dövrdə mədəniyyət hadisələrinin məlum məhdud ardıcıllığı olur. Bəzi nəsillər yarandıqları andan yox olduqları anadək üslub və ya təkamüllərinin və ideyalarının ardıcıllığına görə bir-biri ilə bağlıdırlar... Tarix ona baxanı özünə və özünün indidəki oluşuna müraciət etməyə məcbur edir" (157, 354, 366, 381, 384).

Böyük mütəfəkkir sözünə davam edərək yazır: "İnamsızlıq insanın başqalarının hansısa həyat şərtləri içində qalaraq, qüvvəsinin itirilməsinə, dərk oluna bilən zərurət və labüdlüyə tabe olmağa, aqibətin yaxınlaşmasının zəifləyən şüurun doğurduğu bədbinliyə gətirib çıxarır. İnsan saxta, keyfiyyətcə müəyyən bir varlıqda boğulur... Amma tarixi gerçəklik neytral deyil. Bizim tarixə əsl münasibətimiz onunla mübarizədir. Tarixin bilavasitə bizə dəxli var; onda bizə aidiyyatı olan hər şey özlüyündə insan üçün indinin problemini təşkil edir. Tarix nə qədər az estetik feyz predmetidirsə, o qədər çox bizimçün indinin probleminə çevrilir" (157, 385; 159, 635).

Tarixi bilginin mahiyyətini nəticə olaraq belə ifadə edir: **"...Ancaq tarixdən kənarda bilik sahəsində bizimçün Arximed nöqtəsi yoxdur"** (157, 388).

Elm adamının şəxsi keyfiyyətləri haqqında alman mütəfəkkirləri Hegel və K. Yaspersin mülahizələrini xüsusi əhəmiyyət kəsb etdiyindən və tədqiqat problemlərimizə daxil olduğundan, çıxardığımız nəticələrə yetərli təsir etdiyindən oxucunun diqqətinə çatdırmağa lüzum görürəm.

Hegel elm adamının şəxsi keyfiyyəti haqqında yazırdı: **"İdrak, elmlər, istedadlar və s., əlbəttə, azad ruha məxsusdur və xarici bir şey olmayıb azad ruhun daxili keyfiyyətidir"** (160, 105). K. Yaspersin bu problem haqqında mülahizələri belədir: "Elm gerçəklik olan andan insan mülahizələrinin, deyimlərinin doğruluğu onların elmliyi ilə şərtlənmişdir. Ona görə **elm insan ləyaqətinin ünsürüdür**.

Öz tədqiqat sahəsində öyrəndiyi predmetə elmi yanaşma kəşf etmiş şəxs həmişə əsl elmin nə olduğunu anlamağa qabildir. Düzdür, xüsusi vərdişlərin köməyi ilə bütövlükdə elmi yanaşma olmadan da məlum uğurlar əldə edə bilər. Amma bilavasitə elmə aidiyyatı olmayan şəxsin elmi mövqeyini etibarlı saymaq olmaz" (157, 145).

Biliyə "canatma, kor-koranə yox, hər şeyi görə-görə, əzab çəkib dözən və yaşayan, bilən şəxsin bu azadlığı əsla aqressivlik, hakimiyyət əzmi deyil, tam başqa bir şeydir. Bu ağalıq əzmi hakimiyyətə canatma yox, daxili zərurətdir. Məhz bu şüur azadlığı üzündən alim gerçəkliyi varlığın əsl şifri kimi tam dərk edə bilər" (157, 148).

K.Yaspers nəticə olaraq yazır: **"Elm çox az insana müyəssər olandır"** (157, 153).

Aşağıdakı sözləri K.Yaspers sanki Azərbaycan xalqının bu günü üçün ona tövsiyə və vəsiyyət olaraq yazmışdır: "Böhranın bu yaxınlığını hiss edərək, özünü və müasir vəziyyətimizi anlamağa bizə tarixi bilmək kömək etməlidir...Tarixi xatırlamamızın nə genişlik, nə də dərinlik həddi olmalıdır. Tam şəkildə tarixin önəmini biz, əlbəttə, onun sərhədlərinə çatmaqla daha yaxşı anlayarıq. Bu sərhədləri biz tarixi tarix olmayan şeylə, ondan əvvəl və ondan kənarda olan şeylə tutuşduraraq, onun daha dərindən, daha yaxşı və geniş başa düşmək üçün konkret tarixi olana nüfuz edərək dərk edirik" (157, 339).

Tədqiqatımızda istifadə etdiyimiz mənbə və elmi əsərlər, digər xarakterli məlumatlar vətənimiz Azərbaycanın bəşəri sivilizasiyanın ilkin ocaqlarından olmaqla bütövlükdə dünya mədəniyyətinin yaranmasında iştirak etdiyini göstərir. Bütövlükdə bəşəri passionarlıq yaratdığı dövrlər olmuşdur. Dünya mənəviyyatının – tarixinin yaddaşında onun kəşf etdiyi çoxsaylı elmi kəşflər, bəşəriyyəti tənzimləyən əxlaq normaları məlumdur. Azərbaycanda hazırlanan çoxsaylı mənəvi dəyərlər dəfələrlə bəşəriyyətin inkişafı üçün impuls vermişdir. Lakin tarixi inkişafın qanunauyğunluğuna uyğun olaraq, onun şanlı-şərəfli dövrləri əbədi fasiləsiz olmamış, burada dəfələrlə tərəqqi-tənəzzül bir-birini əvəz etmişdir. Tarixin müəyyən dövlərində dünyanın inkişafına impuls verən elm-alimlər vətəni kimi diqqəti çəkdiyi halda, müəyyən

dövrlərdə miskin bir kütlə ölkəsi kimi diqqəti cəlb etmişdir. Tarixin müəyyən hadisələrinin qıcıqları bu kütləni oyatmış, o, keçmişində yaradılmış elmi-əxlaqi dəyərlərdən qidalanmaqla Türk şüurunu, ləyaqətini, şərəfini bərpa etmiş, özünüdərkə nail olmuş, dünyaya milli iddialarını davam etdirmişdir. Milli varlığın qorunmasının iki başlıca qanununu Oğuz türkləri kəşf etmişdir. Milli varlığın ilkin əsaslarının adət-ənənələrdən ibarət olması və millətin yaşamaq üçün birinci növbədə adət-ənənəsini qoruması müddəasını e.ə. VII əsrdə Azərbaycan türklərinin mənəviyyatının təməl sənədi "Dədə-Qorqud" oğuznamələrində əsaslandırılmışdır. Artıq orta əsrlərdə elmin milli varlığın qorunmasının ikinci şərti olduğu özünü göstərmişdir ki, bunu da tarixdə ilk dəfə dahi şairimiz N. Gəncəvinin sezməsi haqqında yuxarıda bəhs etmişik. Milli varlığın qorunması, yaşadılması haqqında Azərbaycan türklərinin kəşf etdiyi bu mənəviyyat hadisəsi zaman-zaman dünyanı gəzmiş, tənəzzüldən çıxmaq istəyən xalqların alimləri tərəfindən bu ideyaların müxtəlif çalarları tədqiq olunmuş, daha da inkişaf etdirilərək, xalqları mənəvi cəhətdən qidalandırıb tənəzzüldən çıxartmış, tarixi şərəf və şöhrətini bərpa etmişdir.

Etnosun mənəviyyatı, tarix elminin mahiyyəti haqqında tədqiqatımız üçün elmi-nəzəri söykək hesab etdiyimiz K. Yaspersin Avropada iki alimdən biri hesab etdiyi Nitsşenin etnosun mənəviyyat, mənəvi varlıq nəzəriyyəsi Azərbaycanda yaranmış Zərdüşt fəlsəfəsinə söykənirdi. Hegel və K. Yaspersin fəlsəfəsində elm və mənəviyyatla bağlı elə bir nəzəri məsələ yoxdur ki, onun təməli N.Tusi yaradıcılığında olmasın. Yuxarıda bəhs etdiyimiz kimi, XV-XVII əsrlərdə İslam Şərqindən, o cümlədən Azərbaycandan elmi və fəlsəfəni, mənəviyyat qanunlarını mənimsəyən Avropada fəlsəfə, tarix və etnologiya elminin iki sahəsi paralel yarandı. Onlardan biri Avropa müstəmləkəçiliyinin əsası olan milli mə-

nəviyyatı, mədəniyyəti, yaddaşı dağıdan, məhv edən fəlsəfə, tarix və etnologiya, digəri isə bəşəriyyətin obyektiv inkişafını təmin edəcək obyektiv, mütərəqqi elmi fəlsəfə, tarix və etnologiya.

Yuxarıda gördüyümüz kimi, Rus imperiyası xalqımızı tənəzzül mərhələsində yaxalayaraq vətənimiz Şimali Azərbaycanı işğal etdi. Və ölkəmizdə dağıdıcı fəlsəfəni, tarixi və etnologiyanı tətbiq etdi. Lakin həm də Azərbaycanın yeni yaranan ziyalı-zadəgan nəsli rus imperiyasının həm siyasi-iqtisadi, həm də mənəvi ideoloji əsarətini dəf etdi, İslam Şərqində ilk demokratik dövlət qurmağa nail oldu.

Rusiyada sosialist ideologiyası ilə qidalandırılan, yaradıcılıq ruhundan məhrum kütlə hərbi-siyasi üsulla Rusiyada yenicə qurulan burjua-demokratik dövlətini devirdi, keçmiş imperiyanı bərpa etdi, bütün bəşəriyyət üçün təhlükə yaratdı.

Bəşəriyyət üçün heç bir elmi-yaradıcılıq nümunəsi qoymayan yeni Kommunist Rus imperiyası tarixə bir çox mürtəce yeniliklər gətirdi. Bunlardan biri millətin mənəvi dünyasını, yaradıcı irsi elitasını, zadəgan sülalələrini, milli adət-ənənələri fiziki və mənəvi cəhətdən məhvetmə üsuludur. Rus imperiyasının bütün siyasi-inzibati, iqtisadi-sosial, elmi-mədəni strukturu birinci növbədə tarix və etnoqrafiya elmləri, milli mədəniyyətləri, mənəvi dəyərləri unutdurmağa yönəlmişdi. Əsarət altına alınmış xalqlar üçün birinci çətinlik ondan ibarət idi ki, xalqın irsi-elmi elitası məhv edilmişdi. Yuxarıda diqqətə çatdırdığımız faktlardan göründüyü kimi, elmi təfəkkür anadangəlmə xüsusi qabiliyyətdir, əsrlərlə müəyyən nəsillərdə toplanmış, üzə çıxan, yaradıcılıq qabiliyyəti göstərən xüsusi irsi keyfiyyətdir. Azərbaycan xalqında bu təbəqə məhv edilmişdi. Xalqın məhvinə yönəlmiş milli kimi görünən tarix və etnoqrafiya müəssisələrinə cəlb edilmiş "alim" kimi hazırlanan adamların böyük əksə-

riyyəti elmi-tədqiqat işinə yaramayan, elmi-nəzəri təfəkkürdən məhrum adamlar idi. Sadəcə olaraq alim adı altında öz xalqlarına qarşı ölüm hökmünü, simasızlaşdırma siyasətini həyata keçirirdilər. Bunun müqabilində isə imperiya onlara layiq olmadıqları yüksək elmi rütbə və fəxri adlar verirdi. Azərbaycan sovet tarixşünaslığının az qala bütövlükdə milli məhvedici səviyyə almasının əsas səbəblərindən biri millətin irsi elmi-nəzəri bazasının, elmi-nəzəri təfəkkürlü nəsillərin genetik imkanının məhv edilməsidir.

Azərbaycan sovet ictimai elmlərinin tarixinə nəzər saldıqda, tarix müəssisəsinə toplanmış kütlə içərisinə düşən təktək elmi-nəzəri təfəkkür qabiliyyətinə malik adamlar, Sovet imperiyasının "tarix elmi" vasitəsilə xalqın milli yaddaşdan məhrum edilməsinə imkan vermədilər. Azərbaycan Sovet tarixçi kütləsi içərisində bu azsaylı şəxslər, onların şəxsiyyət nümunəsi, elmi yaradıcılığı Azərbaycan xalqının mənəviyyatının – mədəniyyətinin məhv olmasının qarşısını aldı. Azərbaycanın müstəqillik ideologiyasını yaşatdı. Azərbaycan sovet filosofu adlandırılan filosof H.Hüseynov, Asif Ata, dilçilərdən Ə.Dəmirçizadə, ədəbiyyatçılardan H.Araslı, toponomist R. Yüzbaşov, tarixçilərdən İ. Hüseynov (hətta Səfəvi dövləti haqqında nəşrə hazırlanmış əsərini yandırmaqla millətinə xəyanət etmədi, onu səhv düşüncələrə istiqamətləndirmədi), Q.Qeybullayev, S.Aşurbəyli, Z.Yampolski (yəhudi), Z.Bünyadov, M.İsmayılov, Ə.Elçibəy, Y.Yusifov, Ş.Tağıyeva, N.Vəlixanlı, V.Piriyev, Ə. Haqverdiyev, antropoloq R.Qasımova və b. Azərbaycan Sovet tarixşünaslığının milli yaddaşı unutdurma siyasətinə müqavimət göstərdilər, milli şüurun öldürülməsi siyasətini dəf etdilər.

Azərbaycan sovet etnoqrafiyasında tədqiqat obyekti – mövzu elə müəyyənləşdirilirdi ki, burada milli şüurdan bəhs etməyə, ona yaxınlaşmağa hər hansı sistem həlqə qalmırdı.

Yeganə tədqiqat sahəsi emprik səviyyədə olan istehsal idi. Azərbaycan sovet etnoqrafiyasında etnosun təşəkkülü və varlığını yaşatması qanunları haqqında bir cümlə də olsun bəhs olunmamışdır. Odur ki, Azərbaycan sovet etnoqarfiyasının elmi məzmunundan bəhs etmək mümkün deyil. Sovet etnoqrafiya müəssisələrinin verdiyi diploma görə Azərbaycanda yüzə yaxın "etnoqraf" yetişdirilmişdir. Lakin yaradıcılığına görə qiymətləndirsək, Q.Qaraqaşlı, Q.Qeybullayev, A.Mustafayev, Q.Cavadov, Q.Rəcəbli, M.Nəsirli, S.Ağamalıyeva, Ş.Quliyev, T.Babayev, T.Kərimovun tədqiqatlarında maddiləşmiş milli mədəniyyətlə bağlı dəyərlərin yeni nəslə ötürülməsi səviyyəsində fikir hasilatı yaradılmışdır. Etnoqrafiya elminin nəzəriyyəsindən az-çox bəhs edən E.Kərimovdur. Təəssüf ki, onun yaradıcılığında sistemlilik və ardıcıllıq yoxdur.

Tədqiqatçıların nəzəriyyəyə epizodik cəhdləri istisna olunarsa, mövzusundan, tədqiqat obyektindən asılı olmayaraq, Azərbaycan sovet etnoqrafiyası bütünlüklə emprik səviyyədə təsvirdən ibarətdir. Dünya etnologiyasında maddiləşmiş tarixi mədəniyyətin öyrənilməsi yüksək qiymətləndirilir və etnologiyanın əsas tədqiqat obyekti hesab olunur. Bu mənada biz Azərbaycan sovet etnoqrafiya sistemində maddiləşmiş mədəniyyətimizin toplanıb, təsvir olunub gələcək nəsillərə çatdırılmasını yüksək qiymətləndirməli, bunu həmişə minnətdarlıq hissi ilə anmalıyıq. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, sovet imperiyasının varlığı illərində yüzə yaxın adam alim adına layiq görülmüşdür, lakin yaradıcılığında tarixi mədəniyyət nümunələrinin toplanılıb gələcək nəsillərə ötürülməsi istiqamətində iş görmüşlərin sayı çox azdır. Göründüyü kimi, respublikada "alim"lərin savadsızlığı imperiya üçün arzu olunan idi. Yuxarıda dünya mütəfəkkirlərinin istinad etdiyimiz fikirləri deməyə əsas verir ki, alimlik təhsillə qazanılan, diplomla təsdiqlənən məsələ deyil, insa-

nın anadangəlmə irsi keyfiyyətidir ki, bu keyfiyyətlərə malik insanlar özləri daima təhsilə, elmə can atmaqla təbiət və cəmiyyətin sirlərini açır, qanunları kəşf edirlər. Təbiətin, cəmiyyətin, mədəniyyətin hər hansı sirrini açmamış, əksinə təhrif etmiş, imperiyanın işğalçı siyasətini maskalayaraq milli ideala çevirmiş insanların alim adlandırılması, yazılarının elm kimi xalqa sırınması xalqımızın gələcəyi üçün daha acı nəticələr verə bilər.

Sovet etnoqrafiyası etnosun mənəvi durumunu müəyyən etmək üçün onun mənəvi dünyasında, mədəniyyətində 30-dan artıq sahəni tədqiqat obyekti kimi müəyyən etmişdi (29, 182) və bu sahələr tədqiq olunmaqla onun etnik durumu haqqında fikir yürüdülürdü. Bunlardan da birincisi etnogenez, etnik tarix, milli təşəkkül prosesi, endoetnonim, ekzoetnonim, milli mənlik şüuru, milli sima, etnopedaqogika, milli xarakter, davranış stereotipi, milli ideal, milli inam, milli zövq, milli arzu, milli əxlaq, adət-ənənə, mənəvi dəyərlər sistemi, onun strukturu etnoqrafiyanın (etnologiyanın) əsas sahələri idi. **Azərbaycan sovet etnoqrafiyasında tədqiqata cəlb olunmuş sahələrin sayının 3-dən artıq olmadığını nəzərə alsaq, onun elm səviyyəsinə yüksəldiyini iddia etmək absurddur. Özü də bu üç aspektdə tədqiqatların heç biri etnosun özünəməxsusluqları, xarakteri, mənəvi tənzimləyici sistemlərinə toxunmur. Tədqiqatımızda Azərbaycan xalqının təfəkkür və elm tarixindən gətirdiyimiz faktlar deməyə əsas verir ki, Sovet imperiyasının varlığı illərində Azərbaycanda "etnoqrafiya" anlayışı altında yaradılan müəssisələr etnologiya elminin məhvinə xidmət etmişdir.** Yuxarıda müsbət mənada adını çəkdiyimiz etnoqrafların nailiyyətləri onların tabe olmaz irsi, analitik keyfiyyətlərinin məhsuludur ki, etnoqrafiya müəssisələri onları istehsala istiqamətləndirməklə kommunist ideologiyası üçün zərərsizləşdirmişdi.

Azərbaycanın milli-azadlıq hərəkatı, nail olduğu müstə-

qillik bütün xalqı hərəkətə gətirib, quruculuğa sövq etdiyi günlərdə bu ruh yüksəkliyinin keçici, hissi olmaması üçün az-çox elmi təfəkkürə malik psixoloq və pedaqoqlar əsarət illərində imperiyanın yeritdiyi şəxsiyyətsizləşdirmə siyasəti nəticəsində insanlarda əmələ gəlmiş mənəvi deformasiya nəticəsində itirilmiş şəxsi ləyaqət, şəxsi mövqe göstərmək, müstəqil düşünmək və fikir söyləmək kimi keyfiyyətləri bərpa etmək üsullarını tapmaq üçün 1992-ci ildə N.Tusi adına ADPU-da elmi konfrans keçirildi (245; 246, 102). Təsadüfi deyil ki, bu konfransda bir nəfər də olsun etnoqraf iştirak etmədi. Halbuki xalqın mənəvi-psixoloji deformasiya, xəstəlik və çatışmazlıqlarını, sapmalarını müalicə etmək etnoloqun ixtisası, peşəsi, vəzifəsi və borcudur.

Azərbaycan xalqının bu mənəvi problemi, etnologiya elmi vasitəsi ilə mənəvi müalicə edilməsi zəruri bir tələbat olaraq qalır. Mənəvi-psixoloji deformasiya tarixdə bir çox xalqın taleyində özünü göstərmişdir. Lakin müalicə üsulu yeganədir - "tarixlə müalicədir". "Çünki tarixi mənşəyimizin bütün fərqliliyində köklərimiz eyni zəminə gedib çıxır. Hadisələr zəminində həqiqətin aşkarlanmasına gedən yol olan hüdudsuz kommunikasiya tələbi buna əsaslanır" (10, 104-105, 223; 157, 327). Tarixi elm hesab etməyən milli filosofumuz bu milli zəifliyimizi aradan qaldırmaq üçün son çarə olaraq xalqımızın tarixə üz tutmasını tövsiyə edərək yazır: **"Tarixi vərəqləmək və onun dərslərini nəzərə almaq bu problemin həlli üçün mühüm şərtdir"** (15, 186).

İnsan həyatının bu cəhətini nəzərə alan K.Yaspers yazırdı: **"İnsan təbii varlıq kimi yox, mənəvi varlıq kimi tarixdir"** (157, 50). İnsanın hər hansı etnosa mənsub mənəvi varlıq kimi yaşaması üçün o, məhz həmin etnosa mənsub, onun tarixən istehsal etdiyi mənəvi qida ilə təmin olunmalıdır. İnsanın maddi varlığına uyğun olmayan, qeyri-normal qidalar onun fiziki varlığını zəhərlədiyi kimi insanın, toplu-

mun mənəvi varlığına uyğun olmayan yad mənəvi qida istifadəsi zamanı, onun mənəvi varlığı məhv olma səviyyəsinə qədər zəhərlənə bilir. Mənəvi müalicə də eyni ilə fiziki müalicədə olduğu kimidir. Toplumu və ya fərdi yad qidalardan təcrid edib, onu məhz milli-mənəvi qidalarla qidalandırmaq və ya milli-mənəvi qida normasını o həddə qədər yüksəltmək lazımdır ki, orqanizmdəki yad mənəvi qida orqanizmin özü vasitəsilə məhv edilsin.

Yuxarıda istinad etdiyimiz faktlar göstərir ki, xalqımızın varisi olduğu mənəvi sərvətlərlə əlaqəsi son dərəcə zəiflədilmiş, o, milli-mənəvi qida əvəzinə mənəviyyatını zəhərləyib pozan yad qidalarla qidalandırılaraq ölümcül vəziyyətə salınmışdır ki, onda hələ də dağılma, parçalanma prosesi davam edir. Yeganə müalicə üsulu varisi olduğu mənəvi sərvətlərlə qidalanmaqdır.

Tarixən toplumlar bir-birinin yaratdığı mənəvi sərvətlərdən istifadə etməyə məcbur olur. Mənəvi sərvətlər iki formada olur: milli-mənəvi formalarda, yəni, əxlaq, adət-ənənə, onların nəzarətində olan hiss və emosiyalar formasında. Burada həm istehsal, həm də mənimsəmə millidir. Etnoslardan biri digərinin hazırladığı bu sərvətdən ancaq norma çərçivəsində istifadə edə bilər. Əks təqdirdə, başqasının hazırladığı milli-mənəvi qidadan normadan artıq istifadə edən toplum, şəxs öz milli mənəvi sərhədlərini keçərək bir qədər sərgərdan gəzməli olur, sonda cazibə qüvvəsinin sərhəddini keçmiş meteroit kimi parçalanıb hara gəldi dağılır, bir varlıq forması kimi tarix səhnəsindən çıxır.

Millətin yaratdığı mənəvi sərvətin ikinci forması elmdir. Elmin qanunları dünyəvi olduğu üçün onun mənimsənilməsində heç bir milli norma yoxdur. Onu kim kəşf etməsindən, hazırlanmasından asılı olmayaraq, ondan hamı eyni dərəcədə istifadə edə bilər. Daha doğrusu kim mənimsəsə onundur. Onu mənimsəmənin norma çərçivəsi yoxdur. Kim,

hansı xalq onu nə qədər çox mənimsəsə, o qədər də inkişaf edə, çiçəklənə bilər, amma milli adət-ənənəyə malik olmaqla. Milli əxlaqın, adət-ənənənin nəzarətində olmayan yüksək elmilik dağıdıcı, məhvedici qüvvəyə çevrilir.

Yekun olaraq deyə bilərik ki, xalqımızın müasir durumundakı çatışmazlıqları aradan qaldırmaq, müalicə etmək üçün onun tarixi, olduğu kimi, yəni milli-tarixi faktlara əsasən elə yüksək elmi səviyyədə yazılmalıdır ki, müasir nəsil ondan qidalanmaqla mənəviyyatındakı boşluqları doldurub, müalicə olunub safa çıxaraq yaradıcılıq qabiliyyəti göstərsin, xalqlar arasında öz yerinə iddia etsin və onu Dünyadan alsın.

NƏTİCƏ

Tarix anlayışı müxtəlif məna çalarına malikdir.

Sosial-tarix elminin, birinci növbədə etnologiyanın (etnoqrafiyanın) vəzifəsi xalqın ayrı-ayrı tarixi dövrlərdə milli durumunu müəyyən etməkdir, canlandırmaqdır. Hər bir durumun adi, normal kimi görünən, tam normal səviyyədə olan, yüksək inkişaf durumunda olan, ciddi çatışmazlığı olan, tənəzzül durumunda olan, bütün durumlarda etnosun rəftar və davranış stereotipini, həyat tərzini, hiss və əhval-ruhiyyəsini, insanın təbii özünübərpa üsul və formalarını təsvir etməli və elmi əsaslarla şərh etməlidir. Təəssüf ki, belə bir tarix elmi Azərbaycan xalqınnın XX-XXI əsr nəsillərinə məlum deyil. Ona görə də yazılmış "tarixlər" Azərbaycan xalqına yaradıcılıq ruhu verə bilmir. **Tarix elmi, o cümlədən birinci növbədə etnologiya öyrəndiyi xalqda, ayrı-ayrı tarixi dövrlərdə etnosun durumunda empirik və elmi şüurun səviyyəsini aydın əks etdirməlidir. İctimai və elmi ideologiyanın səviyyəsini, nisbətini vermək tarixçinin, birinci növbədə etnoloqun vəzifəsidir.** Təəssüf ki, Sovet imperiyasının bütün varlığı dövründə, tək-tək tarixçilər istisna olmaqla, böyük çoxluq Azərbaycan tarixinin bütün dövrlərinə aid yazılmış əsərlərdə bu vəzifənin əksini etmişdir. **Elm və tarix anlayışı altında xalqın yüz faiz aldadıldığını, xalqı aldatmaq üçün yazılmış əsərlərin "elmi əsər" adlandırıldığını, elm sözü ilə manipulyasiya olduğunu görürük.**

Azərbaycan türkləri uydurma süni tarixi ideoloji təsiri altında əzilə-əzilə, əriyə-əriyə məhv olma istiqamətində həyat yolu getdiyi bütün zamanda milli varlığına doğru can atırdı. Tarixi əsərlərdə, folklorda, dil tarixində (bu məsələdə Azərbaycan türkləri birinci növbədə dilçilərə minnətdar olmalıdır) onu varisi olduğu irslə əlaqələndirə bilən adi bir cümlə

Azərbaycan sovet tarixşünaslığının cildlərlə əsərinin yaratdığı hissi və düşüncəni bircə anda məhv edirdi. Onun yönümünü varisi olduğu mədəniyyət-mənəviyyat istiqamətinə çevirirdi, baxmayaraq bu yol çox əzablı idi. Təmiz milli genə, milli mənlik şüuruna malik, millət övladı üçün bu əzablı yol imperiyanın ona verəcəyi tarix elmləri doktoru, akademik adı, vəzifə, pul, yüksək texnoloji səviyyədə tikilmiş mənzillə müqayisədə kimsənin əli çatmadığı həzz mənbəyi, cənnəti idi. Biz belə hadisələrin və şəxsiyyətlərin şahidi olduq. Lakin biz əhalinin ən azı 99, 99 faizinin yalançı 1920-ci il 27 aprel inqilabına, sosializmə, kommunizmə, onun bir çox ideyalarına inandığının da şahidi olduq. Hələ "bəlkə də qaytardılar" düşüncəsi ilə yaşayanların da olduğunun şahidiyik. Bu inamın mənbəyi nədir? Bütün dünya xalqlarında elmi-nəzəri təfəkkür sahibləri əhalinin 30 faizdən artığını təşkil etmir. O da öz növbəsində fərqli səviyyədə olur. Bu da hər bir şəxsin genetik imkanıdır. Az faiz təşkil edən bu nəsil və sülalələr mənsub olduqları xalqların şərəf tarixinin yaradılmasının, yazılmasının mayakları olmuşlar. Əhalinin qalan hissəsi bütün xalqlarda idarə olunan hissədir, onlara tarixi, həyatı istədiyin kimi izah etmək, şüuruna yeritmək, mənafeyinə müvafiq kimi göstərməklə onları istənilən istiqamətə aparmaq mümkündür və aparılır. Onların bu zəif tərəfinə baxmayaraq, milli tarixlərin, mədəniyyətlərin sütunudurlar. Tarixi şəxsiyyətlərin, böyük mütəfəkkirlərin, milli mədəniyyət haqqında bütün istək və nəzəriyyələri onlar vasitəsilə həyata keçirilr. Odur ki, bu təbəqənin- çoxluğun intellektual səviyyəsinin yüksəldilməsi, milli-mənəvi sisteminin bütövlüyünün qorunması, milli mədəniyyətin yaradıcılıq ideyalarını vermiş şəxsiyyətlərin, milli-demokratik dövlətlərin fəaliyyətinin əsasını təşkil edir. **Bütün tarixi dövrlərdə etnoslarda milli mədəniyyətin, mənəviyyatın memarı ziyalızadəgan, bənnası yerdə qalan digər təbəqələrdir.** 1920-ci il 27

aprel işğalı zamanı tarixin və yaradıcılığın qanunlarını, milli psixologiyanı yetərincə bilən **bolşeviklər millətin tarixi yaddaşını canlandıran, yaradıcılıq ruhunu verən, gələcəyini proqnozlaşdıran və ona rəhbərlik edən zadəgan və ziyalı zümrəsini məhv etdilər, əsarət altına alınmış xalqların dünya ilə əlaqəsini və informasiya mənbələrini kəsdilər.** Xalqların, əhalinin ancaq nəyi isə dinləyən, istədiyi kimi istiqamətləndirmək mümkün olan hissəsini, yəni proletariat və muzdurları, onlara yaxın insanlar qrupunu saxladılar. Onları da maddi nemətlərin sel kimi axacağı kommunizm qurucusunun yaradıcısı və yaxın günlərdə bəhrəsini görəcəyi təbliğatı ilə məst etdilər.

Əsarət altına alınmış xalqların bir memarı var idi – Böyük rus proletariatı. Bütün xalqlar ancaq onun layihəsini qurur və tikirdi. Ölkənin informasiya şəraiti elə idi ki, əgər əvvəllərdə 1920-ci il 27 aprel inqilabına tək-tək şübhə edənlər var idisə, 1937-1938-ci ildən sonra (təxminən 18-20 ildən sonra) belə nəsil, şahid qalmadı, Sovet hakimiyyəti illərində doğulan nəsil 1920-ci il 27 aprel inqilabının olduğuna inanırdı. 1920-ci il 27 aprel hadisəsinin şahidi olmuş fəhlə və kəndlilər nəsilinin şüuruna bu hadisə işğal deyil, inqilab kimi aşılanmışdı. Onlar bu hadisəni inqilab kimi də başa düşürdülər. İnamın digər mənbəyi adi və ictimai şüurda elmin həqiqəti ifadə edən fikir mənasından istifadə edərək, 1920-ci il 27 aprel işğalı haqqındakı uydurma informasiya elm anlayışı adı altında şüurlara yeridilirdi. Bu inqilab haqqında yazılmış əsər bir elmi müəssisədə yazılır və müzakirə olunur, digər elmi şurada əsərin elmi səviyyəsinə görə onu uyduranın elmi yeniliklərindən danışılır, ona elmi ad verilirdi. Nəhayət, əsər 1920-ci il 27 aprel inqilab kimi şüurlara yeridilirdi. **Elm anlayışı adı altında insanların şüuruna yeritmək üçün bir neçə hipnoz mərhələsi, səhnəsi həyata keçirilirdi.**

Azərbaycan sovet tarixşünaslığında qədim, orta əsr, yeni və ən yeni dövr tarixləri üzrə də elmi işlərin mövzu və məzmunu əvvəlcədən Moskvada, adi bir idarə işi üçün tərtib olunan anket kimi hazırlanır, xüsusən nəticə əvvəlcədən verilirdi. Tədqiqatçı materialları dövr haqqında əvvəlcədən məlum nəticəyə uyğunlaşdırırdı. Əsas məsələ tarixin necə yazılması deyil, Moskvada müəyyən olunmuş ideologiyaya zidd olmaması idi. **Proletar və muzdur təbəqədən seçilmiş tarixçinin burada həqiqət axtarmağa nə nəzəri təfəkkürü vardı, nə də marağı, deyiləni yerinə yetirib, yəni blankı doldurub olurdu tarix elmləri namizədi, tarix elmləri doktoru, bir qədər də imperiyanın mənafeyinə canfəşanlıqla xidmət edib olurdu akademik.** Məhz elə bu səbəbdən Azərbaycan tarixinin imperiya "blankı"nın doldurulması kimi yazılmasına müqavimət göstərən tarixçilərimiz son dərəcə az oldu. Bu azlığın imkan dərəcəsində ictimai fikrə verə bildiyi cüzi milli qida milli varisliyin tam qırılmasına imkan vermədi.

Kommunist Rus Sovet imperiyası kütlə şüuru və ideologiyası zəminində qurulan və yaşayan cəmiyyət idi. Fəhlə və kəndlilərin, kommunist ideoloqların sözləri ilə desək, "zəhmətkeşlərin" qarın ideologiyasına söykənirdi. Kommunizm mərhələsi kimi müəyyən edilmiş tarixi dövrdə talon sisteminə keçilməsi ilə "zəhmətkeşlər" bu ideologiyadan imtina etdi, qısa müddətdə sovet imperiyası, sosializm darmadağın oldu.

Sovet tarixşünaslığında tarix elminin qanun və kateqoriyalarının göstərilməməsinin əsas səbəbi də elə bu idi. Hakimiyyəti ələ keçirmiş kommunistlər elm adı altında xalqı aldadır, "tarix siniflərin sinifi mübarizəsi tarixidir" uydurması ilə kütlələri manipulyasiya edirdilər. Əgər o, konkret olaraq tarix elminin qanun və kateqoriyalarını göstərsəydi, çox qısa zamanda həqiqət aşkarlanar, kommunist ideoloqlar hakimiyyətini itirər, SSRİ dağılardı.

Yuxarıda gətirdiyimiz çoxsaylı misallardan aydın oldu

ki, "tarix" sözü müxtəlif mənalarda işlənir, elm olaraq isə onun çoxlu sahələri var. **Təfəkkür tarixi, ictimai fikir tarixi, geologiya tarixi, riyaziyyat, fizika elmi tarixi, tibb elmi tarixi və s. bu göstərdiyimiz sahə tarixlərinin hamısı bir qrup peşə adamlarının fəaliyyət sahəsi və maraq dairəsini əhatə edir.** Ölkənin, xalqın nümayəndələri tarixin bu bilgi sahələrindən fərdi halda, qrup halında, qismən də müəssisələr yaratmaqla ondan faydalanır və bütövlükdə xalqın bu sahəyə olan tələbatını ödəyirlər. Əhalinin böyük əksəriyyəti belə tarix sahəsinin olduğunu heç bilmirlər də. Misal üçün geologiya elmi tarixinin olmasını bəlkə də xalqın bir faizi də bilmir. **Lakin tarixin elə bir sahəsi var ki, adi əlifbanı bilməyən şəxslərdən, evdar qadınlardan tutmuş ən yüksək səviyyəli alimə, dövlət başçısına, siyasi xadimədək, demək olar, hamı onu bilməyə can atır. Tarixin bu sahəsi milli-etnososial tarix adlanır. Təsadüfi deyil ki, kosmonavtlara jurnalistlərin "Kosmosda olarkən Sizi ən çox düşündürən nə idi?" sualına cavab verərkən onların çoxu öz xalqının, dünya xalqlarının qədim tarixlərini bilmək arzusunun baş qaldırdığını söyləmişdi.**

Görünür, insanda keçmişinə maraq, onu bilmə, təsəvvür etmə, əxz etməyə can atma obyektiv təbii hissdir. Ekstremal vəziyyətə düşdükdə bu hiss, istək daha da güclənir. **Odur ki, milli-etnososial tarixin elmi məzmun və formada yazılması nəinki vacibdir, zəruridir. Çünki, bu əsərlərdən xalq milli ruh, hiss, mənəvi dəyərlər, təcrübə, bütövlükdə mənəvi enerji alır. Milli tarix xalqın mənəvi enerji bazası, mənbəyidir.**

Vahid varlığın tarixini bütöv bir tam kimi yazmaq ideyası çoxdan mövcud olsa da, hələlik belə bir tarix əsəri yazmaq kimsəyə müyəssər olmamışdır. Bəşəriyyət varlığın bütövlükdə təşəkkül, dəyişmə və inkişaf prosesini yaza biləcək zəka sahibi yetirməmişdir. Lakin varlığın təşəkkül, dəyişmə və inkişaf prosesinin ümumi qanunlarını aşkara çıxaran, dərk edən alimləri yetişdirmişdir. Alimlər uzun-

müddətli axtarış və elmi tədqiqatları nəticəsində müəyyən etdilər ki, varlıqdakı bütün təşəkkül, dəyişmə və inkişaf kəmiyyət dəyişməsinin keyfiyyət dəyişməsinə keçməsi, əksliklərin vəhdəti və mübarizəsi, inkarı inkar qanunları, səbəb və nəticə, məkan və zaman, forma və məzmun, mahiyyət və hadisə, tək, xüsusi və ümumi, imkan və gerçəklik kateqoriyaları hüdudunda baş verir. Beləliklə, göründüyü kimi, fəlsəfənin qanun və kateqoriyaları adlandırılan qanun və kateqoriyalar bütün varlığın onun bütün formalarının təşəkkül, dəyişmə və inkişaf tarixinin qanun və kateqoriyalarıdır.

Məlum olduğu kimi, vahid varlığın təşəkkül və inkişaf prosesindən yaranan varlıqlardan biri, digər törəmə varlıqlardan şüuru ilə fərqlənən insandır. Bioloji, fiziki quruluşu, orqanizmin tənzimlənməsi etibarilə təbiətin bir hissəsi olan, heyvandan fərqlənməyən insan, şüura yiyələnməklə yaradıcı bir keyfiyyət, xüsusiyyət qazandı. **İkinci təbiətin yaradıcısı olan xalqlar, toplumlar ruhlarında xasiyyətlərində sanki yarandıqları ölkələrin təbiətini canlandırır, sanki sosial-mənəvi formalarda yer kürəsinin rəngarəngliyini yaradırdılar. Sanki hər bir xalq mənəvi simasını, psixi durumunu çiçəkli çəmənlərdən, şır-şır bulaqlardan, dənizlərin, okeanların əzəmətli dalğalarından, fırtınalarından, dağ çaylarının möhtəşəm qayaları yaran şəlalələrdən, səhraların tufanlarından, zəngin düzən meşələrinin sakitliyindən almışdı, ona bənzəyirdi.** Daha doğrusu onun özü idi. Yaranan xalqlar doğulduqları ölkənin təbiətindən aldıqları cəsarətlə də varlığın yaradıcılıq sirlərini öyrənməyə başladılar.

Təbiəti zəngin, iqtisadi cəhətdən tam, normadan artıq təmin olunmuş ölkələrin xalqlarının tənbəl olması, yüksək yaradıcılıq qabiliyyəti göstərməməsi haqqında tarixdə yetərincə məlumat var. Müasirlərimiz isə dünyanın iqtisadi cəhətdən tam tələbatını ödəyən Rusiya və Azərbaycanın marksizmin iqtisad nəzəriyyəsinin hökmranlığı dövründə və so-

nrakı dövrlərdə hansı iqtisadi-sosial səviyyədə yaşadığını və dünyada iqtisadi resurslarla ən zəif təmin olunmuş yapon xalqının etnomənəvi, iqtisadi-sosial inkişaf səviyyəsinin şahididirlər. **İqtisadiyyat xalqların təminatının adi bir sahəsidir ki, burada olan çatışmazlığı xalq satınalma, digər üsullarla ödəyə bilir. Lakin mənəvi çatışmazlığı xalq ancaq öz mənəvi istehsalı ilə ödəyə bilər. Onu xaricdən almağın, əldə etməyin başqa üsulu yoxdur. Xalqların inkişafının əsasında mənəviyyat, mənəviyyat qanunları dayanır. Milli inkişaf mənəviyyata əsaslanır, onun nüvəsi milli qürur, şərəf və ləyaqətdir... Bunlar varsa, o, şərəflə qalib gələcək, yoxsa ikiüzlü, yaltaq, simasız, sümsük bir həyat tərzi ilə yaşayacaq.**

İnsan bitkilərin toxumunu bitirib inkişafı üçün ona süni üsulla mikroklimat yaratmaqla əkinçiliyi kəşf etdi. Heyvanları əhliləşdirib ətindən, südündən, iş qüvvəsindən də istifadə etdi. Yaşayış, təsərrüfat üçün binalar tikdi, ona yeni-yeni formalar verdi. Yeni-yeni əmək alətləri, qurğuları ixtira edir. Hətta təbiətdəki dəyişmələri – yağmurluluğu, quraqlığı əvvəlcədən fəhm etdi, insan və heyvan xəstəliklərini müalicə etməyə nail oldu. Təbiətin, varlığın bütövlükdə dərki uğrunda mübarizə apardı. Təbii ki, müxtəlif ölkələrdə ayrı-ayrı xalqların əcdadları bu prosesə eyni məna və məzmun versələr də, hər bir xalq öz dilinə, dünyagörüşünə məxsus söz və terminlərlə ifadə etmişdir. Belə ki, yunanlar insanın torpağa, bitkiyə fəhmini, əkinçiliyi "insanın yaratdığı" kultura (mədəniyyət) adlandırdılar. Məlum olduğu kimi, insanın yaradıcılığı ardıcıl olaraq yeni-yeni uğur qazanırdı. İnsan da təbiət kimi yaradıcılıq göstərirdi, əşyalar, evlər, geyimlər, bitkilər və s. yaradırdı. İnsanın bu gözəgörünməz yaradıcılıq qabiliyyətini antik yunan filosofu Demokrit "ikinci təbiət" adlandırdı.

Göründüyü kimi, varlığın təşəkkül, inkişaf və dəyişmə prosesində insanın yeni təşəkkül və inkişaf prosesində top-

lumlar, xalqlar yarandı. Sosial-mənəvi varlıq olan insan, özünün bioloji varlıq səviyyəsindən fərqli olaraq, yeni mərhələdə istər özləri arasında və istərsə də varlığın digər formaları ilə münasibətləri həm də mənəviləşdirdi. Mənəvi-sosial münasibətlər sistemi yaratdı. Elə bu dövrdən xalqların sosial-mənəvi inkişaf tarixi təşəkkülə, formalaşmağa və inkişafa başlayır.

Arxeologiya və ilahiyyat elminin hər ikisi insanların, bütün dünya xalqlarının bir əcdaddan əmələ gəlməsi və onun ilkin vətəninin Kiçik Asiya olması, buradan dünyaya yayılması, şüurlu mənəvi varlıq olaraq dünyada məskunlaşmasını deməyə əsas verir. Bu məsələ də böyük alman mütəfəkkiri K.Yaspersin xalqların tarixi inkişafının e.ə. 800 və 200-cü illərə qədər dövrünü tarix öncəsi və son inkişaf mərhələsini əhatə edən iki mərhələyə bölməsində həqiqət var. Bizə elə gəlir ki, bu bölgünün tarixinin bir qədər dəqiqləşdirilməsinə ehtiyac var. O, e.ə. 800 və 200-cü illərdən etnomənəvi inkişaf prosesində tarixçi və filosofların sosial adlandırdığı münasibətləri K.Yaspers mənəvi münasibətlər adlandırır. Bu təşəkkül, dəyişmə və inkişaf prosesində yaranan tarixi də mənəvi tarix hesab edir. Düzgün olaraq göstərir ki, xalqların yaradıcısı və övladı olan ikinci təbiət adlandırdığımız mədəniyyət mənəvi münasibətlərin, varlıqların sistemləşməsindən yaranan varlıqdır. Odur ki, insan, xalq mənəvi varlıqdır, onun tarixi də mənəvidir.

K.Yaspers bu mənəvi sistemin emosiya, hiss, əxlaq, inam, etiqad, din, elm, ideya, ideologiya, adət-ənənə və s. element, hissə və yarımsistemlərindən ətraflı bəhs edir. Bu sistemin normal inkişafı zamanı xalqların normal mənəvi durumda olduğunu, onun pozulması və zəifləməsi ilə xalqların zəifləyib, dağılıb, tarix səhnəsindən çıxdığını dəqiq elmi səviyyədə təsvir edir. **Xalqların mənəvi-mədəni qidasının ruhunu bu tarixdən aldığı üçün tarixin yazılmasına elmi və**

ciddi münasibət tələb edir. Elmi idraka malik olmayan şəxslərin tarixi yazmaları tarix elmini və millətləri zəiflətməsi, çaşdırmasının çoxsaylı mənfi nəticələrindən bəhs edir.

Etnososial-milli tarix adlandırdığımız (fəlsəfədə bunu ayrı-ayrılıqda varlıq forması kimi insan, mənəvi və sosial varlıq da adlandırırlar) etnosun emosiya, hiss, duyğu, şüur, təfəkkür, istək, arzu, sevgi, məhəbbət, vətən, inam, əqidə, etiqad, ideya, ideologiya, əxlaq, adət-ənənə, din, fəlsəfə, elm və s. mənəvi dəyərlərinin sintezindən, bütövləşməsindən yaranan milli-mənəvi sistemdən doğan yaradıcı ruhun – özü inkişaf edən etnososial-mənəvi sistemin fasiləsiz maddiləşməsi milli tarixləri yaradır. Dünyada etnososial tarixi varlığın ümumi qanunlarını ifadə etməklə bərabər, ayrı-ayrı regionlarda, hətta həmsərhəd ölkələrdə, hətta bəzən bir ölkədə yaranan etnos (mədəniyyət) ümumi dəyərlərlə bərabər tam fərqləndirici xüsusiyyətlərə, özünəməxsusluqlara malik xalqlar kimi dünyaya gəlir və inkişafını davam etdirir.

Maraqlıdır, yaranan hər bir etnosun birinci xassəsi, keyfiyyəti özünü başqaları ilə müqayisə etmək, başqalarından fərqli xüsusiyyətlərini və adət-ənənələrini öyrənmək və özünün düzgün olması iddiası ilə çıxış edib, iddiasını başqalarına qəbul etdirmək arzusu ilə dünya xalqlarının fəaliyyət və mübarizəsi prosesinə qoşulurlar. Başqaları ilə olan fərqliliyini qoruyub saxlamaq, özünün düzgün olduğunu bütün imkanları ilə başqalarına sübut etmək cəhdi etnosun əbədi idealıdır. Bütün dünya xalqlarının özünəməxsus tarixləri etnosun fərqlənmək, düzgün olduğunu sübut etmək idealı və ideyaları uğrunda mübarizəsi prosesində xalqların milli etnososial tarixləri yaranır. Odur ki, dünya xalqlarının tarixlərinin ümumi prinsipləri varlığın yuxarıda göstərdiyimiz qanun və kateqoriyaları ilə izah olunsa da, milli özünəməxsusluqları, yəni ayrı-ayrı milli tarixləri ümumi qanunlarla izah etmək, şərh etmək olmur. **Obyektiv varlığın ayrı-ayrı sistemlərinin,**

hissə və elementlərinin xüsusi xassələri, qanunları olduğu kimi, milli özünəməxsusluqları doğuran təbii, genetik, sosial-mənəvi qanunauyğunluqlar var. Bütün hallarda özünəməxsusluqları doğuran xüsusi qanun və qanunauyğunluqlar varlığın ümumi qanun və kateqoriyalarına tabedir, onun təsiri altında fəaliyyət göstərir, təşəkkül, proses və hadisələrə özünəməxsusluqlar verməklə, onu eyni tipli başqa hadisələrdən fərqləndirir.

Milli tarixlərin təbiətlə bağlı əbədi tərəfləri varlığın ümumi qanun və kateqoriyaları ilə izah olunduğu halda, onun müvəqqəti, qısa ömürlü sosial-mənəvi tərəfləri bütünlüklə bu qanunlarla izah oluna bilmir. Sosial qanunlar insanların fəaliyyət qanunları olub, cəmiyyətin konkret şəraitlərində işləyir və reallaşır. **Geniş mənada tarix elmi bütövlükdə varlıqda getmiş təşəkkül, dəyişmə və inkişaf prosesini əks etdirməkdir. Biz etnososial-milli inkişaf tarixindən, yəni mənəvi tarixindən danışanda tarix elminin dar mənada olan predmetindən bəhs etməli oluruq. Burada sosiologiya elmi ilə tarix elminin predmeti üst-üstə düşür.** Hər ikisi cəmiyyətdə mövcud olan, baş verən təşəkkül etmə, hadisə və prosesləri öyrənir. Lakin fərq burasındadır ki, sosisologiya fəaliyyətdə olan, davam edən sosial-mənəvi hadisə və prosesləri, tarix elmi isə artıq başa çatmış kimi görünən hadisə və prosesləri öyrənir.

Sosioloqla tarixçinin, sosisologiya ilə tarix elminin fərqi bundadır ki, sosioloq öyrənmək istədiyi hadisə və proses haqqında onun iştirakçısından istədiyi fikiri soruşa bilir, onunla söhbət edir, niyə belə etdiyini, nə istədiyini soruşa bilir. Tarixçi üçün bu imkanların heç biri yoxdur. Danışa biləcəyi, mimikaları ilə söhbət edə biləcəyi adi bir lal da yoxdur. Onun əlində ancaq bir-birinə zidd, tərəflərin mənafeyini ifadə edən natamam məlumatlar, bir də tarixin daşlaşmış, obyektiv qanunlarını ifadə edən sübut olunmuş nə-

ticələri var.

Fəaliyyətdə olan bütün sosial-mənəvi proseslərin nüvəsində keçmişin, tarixin ən dərin qatlarından gələn mənəvi əlaqələr, ruh, varislik dayanır. Sosioloqun öyrənməkdə olduğu hər hansı təşəkkülü kollektivdə, yaxud toplumda həyata keçirmək istədiyi siyasətin qəbul edilməsi üçün dayaq nöqtəsi kimi nəyi əsas götürdüyünü aydınlaşdırsaq, görərik ki, təşəkkülün bütün əsası tarixi yaddaşdadır. Etnos bir şeyi qəbul edəndə, hətta yad şeyi (könüllü və ya zorakı) mütləq onu yaddaşındakı anlayışlarla, məfhumlarla tutuşdurur və yaddaşındakı bir sistemə uyğunlaşdırır. Nəyin mənimsənilməsi, nəyinsə qəbuledilməzliyi qərarını tarixi yaddaş verir. Etnososial-mənəvi varlıqda başaçatma mənəvi varisliyin qırılması və ya tam tənəzzülü ilə etnosun varlığını sona çatdırmasından ibarətdir.

Sosioloqun öyrənməkdə olduğu fəaliyyətdə olan hadisələrin detallarını nəzərdən keçirsək, görərik ki, adi yemək və geyməkdən tutmuş, bir ailəni idarə etməkdən, bir müəssisəni, bir ordunu, bir milləti, nəhayət, BMT-yə qədər **hər kəs birinci növbədə tarixi yaddaşdan aldığı və digər bilgilərinin sintezindən yaranan dünyagörüşü ilə fəaliyyət göstərir. Kimisində bu yaddaş e.ə. tarixin ən dərin qatlarına, kimisində 500, kimisində 50 il qabağa gedir. Hansı xalqda tarixi yaddaş güclüdürsə, o, başqasının yox, öz iradəsini dünyaya diqtə edir.**

Etnosların varlığı onların keçmişi ilə qırılmaz vəhdətdə olan ideya, ideologiya, mənəvi varislikdədir. Ona görə də keçmişdə olmuş hadisələr, milli-mənəvi tarixdə başa çatmış proses, hadisə hesab oluna bilməz. **Milli etnososial hadisələrdə tarix xalqın ağacın torpaq altında görünməyib müxtəlif tərəflərə şaxələnmiş onu qidalandıran kök sistemi kimidir.**

Hər bir varlığın yaranması və mövcudluğunun qanun, qanunauyğunluq və kateqoriyaları var. Varlığın bütün formalarının təşəkkülünü, mövcudluğunu təşkil edən qanunlar onu tədqiq edən elmin qanunları kimi çıxış edir, istifadə

olunur. Eləcə də etnososial-mənəvi varlığın təşəkkül və inkişafını doğuran qanunlar sosial-mənəvi varlıqdan bəhs edən tarix elminin. Sosiologiya ilə tarix elmi eyni mahiyyətli hadisələri öyrənirlərsə, predmetləri eynidirsə, deməli, onların öyrəndikləri hadisələrin qanun və kateqoriyaları da eynidir. Fərq burasındadır ki, biri başa çatmış kimi görünən hadisələr, digəri hərəkətdə olan hadisələri öyrənir. Birində qanunların fəaliyyəti göz qabağındadır. **Sosioloq bu fəaliyyəti görünən qanunlar əsasında gələcəyi proqnozlaşdırmalıdır. Tarixçi isə nəticəsi göz qabağında olan, maddiləşmiş hadisəyə görə müəyyən tarixi dövrdə etnosun həyatında getmiş sosial-mənəvi münasibətlərin sistemini, strukturunu, qanun və qanunauyğunluqlarını açmalı, müəyyən etməlidir.** Məsələn, tarixçiyə, birinci növbədə etnoloqa müəyyən tarixi dövrdəki etnik durum məlumdursa, o, etnososial inkişaf qanun və qanunauyğunluğuna əsasən bu duruma uyğun milli xarakteri müəyyən etməyi bacarmalıdır. Əksinə, milli xarakterə görə etnosun milli durumunu müəyyən etmək tarixçi və etnoloqun elmi vəzifəsidir. Sosiologiyada olduğu kimi tarixi tədqiqatda da qanun və kateqoriyaların göstərilməsi sadəcə olaraq metod məsələsidir. Çünki etnososial-mənəvi inkişafın ümumi və xüsusi qanunları məlumdur.

Tədqiqatımız 1991-ci il Azərbaycan xalqının öz dövlət müstəqilliyini bərpa etdiyi dövrə qədər fəaliyyət göstərmiş respublika sovet tarixşünaslığı mərhələsini əhatə edir. Yuxarıda gətirdiyimiz çoxsaylı misallardan göründüyü kimi, Azərbaycan sovet tarixşünaslığı onun tərkib hissəsi etnoqrafiya etnososial-mənəvi inkişaf qanunlarını əsas götürmüş, kommunist ideologiyasına uyğun milli manipulyasiya siyasəti yeritmişdir. **Belə bir tarixşünaslığın "elm" adlandırılmasının özü də manipulyasiyadır.**

Təəssüflə də olsa, etiraf etməliyik ki, bütövlükdə Azərbaycan tarixşünaslığı müstəqillik illərində sosial-mənəvi var-

lığın qanun və kateqoriyalarına istinad etməklə elmi səviyyəyə yüksəlmək istiqamətində əsaslı bir iş görməmişdir. Tək-tək tarixçilərin əsərləri istisna olmaqla, Azərbaycan tarixşünaslığı, sovet tarixşünaslığının ideoloji sistemini və tədqiqat metodunu hələ də davam etdirərək, müstəqil dövlət quran xalqımızın varisi olduğu milli-mənəvi sərvətlərə elmi səviyyədə qovuşması istiqamətində yetərli tədbirlər həyata keçirə bilməmişdir, çünki sovet tarixçiləri nəslinin böyük çoxluğu yeni elmi və milli ideyaları beşiyindəcə boğmaqla öz varlıqlarını qoruyub saxlamaqda davam edir.

Milli inkişafda tarix elminin xüsusi, əvəzedilməz funksiyalara malik olduğunu nəzərə alaraq aşağıdakıları təklif edirəm:

a) tarixi saxtalaşdırmaya qarşı Cinayət Məcəlləsinə xüsusi maddə əlavə edilsin;

b) xalqımızın tarixini saxtalaşdırmaqla elmi rütbə almış və fəxri adlar verilmiş şəxslərin elmi rütbəsi və fəxri adları ləğv edilsin;

c) bilərəkdən tarixi saxtalaşdıranlar cinayət məsuliyyətinə cəlb edilsin;

ç) milli tariximizin tədqiqinin elmi səviyyəyə yüksəldilməsi üçün "İctimai-elmi nəzarət şurası" yaradılsın.

24 avqust 2009-cu il, saat 12^{00}

Ədəbiyyat siyahısı:

1. Ə. Rəcəbov. Dil, şüur, cəmiyyət, tarix. B., 1993.
2. Q. Kazımov. Azərbaycan dilinin tarixi. B., 2003.
3. H. Həsənov. Azərbaycan kitabının inkişaf mərhələləri. B., 1989.
4. Y. Yusifov. Qədim Şərq tarixi. B., 1993.
5. Ərəb və fars sözləri lüğəti. B., 1985.
6. A. Axundov. Azərbaycan dilinin izahlı lüğət. B., 2005.
7. Ə. Bayramov. Etnik psixologiya. B., 1996.
8. R. Əliyev. Psixologiya tarixi. B., 2006.
9. Z. Hacıyev. Fəlsəfə. B., 2001.
10. F. İsmayılov. XX əsr Qərb fəlsəfəsinin tarixi. B., 1999.
11. M. Zeynalov. Fəlsəfə tarixi. B., 2000.
12. Большая Советская Энциклопедия. Т. 19. М., 1953.
13. Azərbaycan Sovet Ensiklopediyası. C. 9 B., 1986.
14. S. Xəlilov. Fəlsəfə: tarix və müasirlik. B., 2006.
15. S. Xəlilov. Mənəviyyat fəlsəfəsi. B., 2007.
16. Б. Ж. Келле, М. Я. Ковальзон. Теория и история. М., 1981.
17. Marksizm-leninizm fəlsəfəsinin əsasları. B., 1980.
18. K. Marks, F. Engels. Kommunist Partiyasının manifesti. – K. Marks, F. Engels. Seçilmiş əsərləri, I cild. B., 1953.
19. V. İ. Lenin. Əsərələri. 29-cu cild.
20. V. İ. Lenin. Milli siyasət və proletar beynəlmiləlçiliyi məsələləri. B., 1972.
21. V. İ. Lenin. Əsərləri, 21-ci cild.
22. F. İsmayılov. Z. Freyd. B. 1994.
23. F. İsmayılov. Klassik psixoanalizin əsasları. B., 2003.
24. Qustav le Bon. Kütlə psixologiyası. B., 2006.
25. Y. V. Çəmənzəminli. Xarici siyasətimiz. B., 1993.
26. O. Osmanov. Məşhur səyyahlar və coğrafiyaşünaslar. B., 1970.
27. K. Məmmədov. Antropologiyanın əsasları. B., 2006.
28. N. Gəncəvi. Sirlər xəzinəsi. B., 1981.
29. Этнография схемные дисциплины этнографические субдисциплины школы и направления методы. М., 1988.
30. А. П. Садохин. Этнология. М., 2000.
31. A. Şükürov. Fəlsəfə. B., 1979.
32. L. Qumilyov. Etnogenez və Yerin biosferi. B., 2005.
33. Л. Н. Гумилев. География этноса в исторический период. Л.,

1990.
34. История СССР. Часть первая. М., 1979.
35. История СССР. Часть вторая. М., 1978.
36. З. И. Ямпольский. Древняя Албания III-I вв до н.э. Б., 1962.
37. K. Marks, F. Engels. Seçilmiş əsərləri. 1-ci cild, B., 1978.
38. A. A. Bakıxanov. Gülüstani-İrəm. B., 1951.
39. Qədim tarix. 1-ci hissə. V- VI sinif üçün. B., 1941.
40. Этнография имен. М., 1971.
41. M. Fərhadoğlu. Fəlsəfənin əsasları. B., 2002.
42. K. Marks, F. Engels. İki cildlik seçilmiş əsərləri, 2-ci cild. B., 1953.
43. K. Marks. Siyasi iqtisadın tənqidinə dair. B., 1955.
44. A. Şükürov. Kulturologiya. B., 1998.
45. H. Quliyev. Aləmdən, kainatdan zəlzələyə qədər. B., 2003.
46. Sovet İttifaqı Kommunist Partiyasının Proqramı. B., 1973.
47. Z. Novruzov. Vəhşilər arasında. B., 1998.
48. Ə. Abdullayev. Sovet xalqı insanların yeni tarixi birliyidir. B., 1972.
49. А. Балаев. Этноязыковые процессы в Азербайджане в XIX-XX вв. Б., 2005.
50. G. V. Vernandski. Çingiz xanın ulu yasasının quruluşu haqqında. B., 2001.
51. Etnoqrafiya. M., 1982.
52. N.Pavlenko. Birinci Pyotr. B., 1991.
53. M. Muratov. Lomonosov. B., 1961.
54. Ф. Ф. Итс. Введение в этнографию. Л., 1974.
55. H. A. Həvilov. Azərbaycan etnoqrafiyası. B., 1991.
56.Г.А.Гулиев. Этнография Азербайджана за 40 лет. – Советская этнография, 1961-N4.
57. R. Göyüşov. Azərbaycan arxeologiyası. B., 1983.
58. А. К. Алекперов. Исследования по археологии и этнографии Азербайджана. Б., 1960.
59. M. İsrafilov. Məntiq. B., 2005.
60. Этнография за рубежем. М., 1979.
61. Ю. В. Бромлей. Современные проблемы этнографии. М., 1981.
62. Основы этнографии. (Под ред. С.А.Токарева). М., 1968.
63. Ю. В. Бромлей. Очерки и теории этноса. М., 1983.

64. Azərbaycan etnoqrafiyası. 1-ci cild. 1988.

65. Ə. Hüseynzadə. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı. B., 1967.

66. T. Ə. Bünyadov. Azərbaycanda etnoqrafiya elminin inkişafı. – Azərbaycan etnoqrafik məcmuəsi. V buraxılış. B., 1985.

67. H. A. Həvilov. Dünya xalqlarının etnoqrafiyası. B., 1999.

68. E. Kərimov. Azərbaycanda etnik durum 1920-1930-cu illər. Tarix və onun problemləri jurnalı, 1997, N2.

69. E. Kərimov. Azərbaycanda müasir etnik durum 1940-1990-cı illər (II məqalə). Tarix və onun problemləri jurnalı, 1998, N1(3).

70. Q. Cavadov. XX əsrin 20-40-cı illərində Azərbaycanda azsaylı xalqlar problemi. Tarix və onun problemləri jurnalı, 1998, N1(3).

71. Джафарзаде И. М. Этнографическая работа в Азербайджанской ССР за 1940-1947 годы. Известия АН Азерб. ССР, 1948, N7.

72. Джафарзде И. М. Этнографическая работа в Азербайджанской ССР. - Советская этнография, 1946, N2.

73. Каракашлы К. Т. Основные итоги и перспективы этнографического изучение Азербайджана. Материалы сессии посвящени итогами археологических и этнографических исследовании, 1964 г. в Азерб. ССР, тезисы и докл. Б., 1965.

74. E. Керимов. Очерки истории этнографии Азербайджана и русско-Азербайджанских этнографических связей. Б., 1985.

75. B. Əliyev. XX əsrin ikinci yarısında Azərbaycanda etnoqrafiya elminin inkişafı. Tarix elmləri namizədi...dissertasiyasının Avtoreferatı. B., 2007.

76. А. Юнусов. История музейного строительства в Азербайджанской ССР (1920-1968). Автореферат к ис. Наук. Б., 1987.

77. Azərbaycan tarixi. 3-cü cild, 1-ci hissə. B., 1973.

78. N. Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair. (İ.V.Stalinə məktub). B., 1992.

79. Rəmzi Yüzbaşov. Rəmz. B., 2006.

80. Взгляды на этнографию или есть ли в Советской науке два учения об этносе. Известия всесоюзного географического общества, том 117, вып. 3. 1985.

81. Б. С. Ерасов. Социальная культурология. М., 1996.

82. Народы Кавказа. Том 2, М., 1962.

83. А. П. Алексеев. Этногенез. М., 1986.

84. В. М. Акперов. К вопросу о генезисе науки. İdrak nəzəriyyəsi

və elmin fəlsəfəsi problemləri (IV buraxılış). B., 2004.

85. Moisey Kalankatyuklu. Albaniya tarixi. B., 1993.

86. Q. Rəcəbli. "Dədə Qorqud" oğuzlarının ilkin vətəni haqqında. Материалы Научной Конференции посвященной 1300-летию эпоса «Деде Коркут». Б., 1999.

87. Ə. Bayramov. "Kitabi-Dədə Qorqud" dastanlarında etnik-psixoloji xüsusiyyətlərin inikası. B., 2000.

88. X. Xəlilli. "Dədə Qorqud" oğuznamələrinin yaranma tarixi və digər oğuznamələrlə paralellərinin dövrü və səbəbləri. B., 2007.

89. X. Xəlilli. "Dədə Qorqud" kitabında oğuzların etnososial təbəqələrinin təsviri. "Dədə Qorqud" jurnalı, 2007, N3.

90. X. Xəlilli Ümumtürk etnogenezinin formalaşması və regional məskunlaşmalarla xalq kimi təşəkkülü. Ortaq türk keçmişindən ortaq türk gələcəyinə. V Uluslararası Folklor Konfransının materialları. B., 2007.

91. X. Xəlilli "Dədə Qorqud kitabı"nda "ordı" termininin məzmunu və yozumları. "Dədə Qorqud" jurnalı, 2008/2.

92. M. M. Hüseynov. Azərbaycanda qədim paleolit (rus dilində). B., 1985.

93. Средняя Азия и эпохи камня и бронзы. М-Л; 1966.

94. Ə. Cəfərov. Azərbaycanın ilk sakinləri. B., 2004.

95. X. Xəlilli. Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi. B., 2007.

96. Дж. Мелларг. Древнейшяя цивилизация Ближного Востока. М., 1982.

97. Ə. Ş. Haqverdiyev. Azərbaycan tarixi. B., 1985.

98. Bilqamıs dastanı. B., 1985.

99. A. Şükürov, G. Abdullazadə. Azərbaycan fəlsəfəsi. B., 1983.

100. Hegel. Ruh fəlsəfəsi. B., 2003.

101. B. Şərifzadə. Zərdüşt, Avesta, Azərbaycan... B., 1996.

102. B. Şərifzadə. Azərbaycan ədəbiyyatı tarixi. B., 2003.

103. Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. B., 1980.

104. Azərbaycan tarixi. B., 1994.

105. Z. Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. B., 1989.

106. N. Rizvan. Azərbaycan diasporası tarixindən. B., 2002.

107. Ş. Qurbanov. Cəmaləddin Əfqani və türk dünyası. B., 1996.

108. Qurani-Kərim. B., 1991. Z. Bünyadov və V. Məmmədəliyevin tərcüməsində.

B., 1991.
109. Məhəmməd peyğəmbər. Kəlamlar. B., 1990.
110. Əbu-Osman B. Bəhr Əl-Cahiz əl-Bəsri. Türklərin fəzilətləri. B., 2001.
111. Elçibəy. Azərbaycandan başlayan tarix. B., 2003.
112. M. Qəmbərli. Ərəb ədəbi-bədii qaynaqlarında türk. B., 1998.
113. V. Voskobinnikov. Böyük loğman. B., 1984.
114. Z. Məmmədov. Bəhmənyarın fəlsəfəsi. B., 1983.
115. Cəmaləddin Əfqani. Seçilmiş əsərləri. B., 1998.
116. В. Д. Плахов. Традиции и общество. М., 1982.
117. H. A. Qumilyev. Məişətimizdə adət və ənənələr. B., 1976.
118. Xalq təbabəti xəzinəsindən. B., 1992.
119. Məhəmməd Yusif Şirvani. Tibbnamə. B., 1990.
120. F. Rəşidəddin. Oğuznamə. B., 1992.
121. Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. B., 1998.
122. Əbdürrəşid əl-Bakuvi. "Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri". B., 1992.
123. E. Q. Mehrəliyev. Əbdürrəşid Bakuvi. B., 1985.
124. N. K. Kərimov. Qüdsinin səyahətləri. B., 1983.
125. Azərbaycan tarixi. B., 1996.
126. Б. А. Будагов, Э. А. Керимов. Кавказский отдел императорского Русского географического общества и вопросы географии Азербайджана. Б., 2002.
127. V. Həbiboğlu. Abbasqulu Ağa Bakıxanov. B., 1992.
128. A. A. Bakıxanov. Bədii əsərləri. B., 1973.
129. A. A. Bakıxanov. Gülüstani-İrəm. B., 1951.
130. F. Qasımzadə. A. F. Axundovun həyat və yaradıcılığı. B., 1962.
131. M. F. Axundov. Əsərləri, 1-ci cild. B., 1949.
132. M. F. Axundov. Əsərləri, 2-ci cild. B., 1961.
133. M. F. Axundov. Əsərləri, 3-cü cild. B., 1962.
134. M. Ə. Rəsulzadə. Milli birlik. B., 2009.
135. М. Рафили. М.Ф.Ахундов. Б., 1957.
136. H. Məmmədzadə. Mirzə Fətəli Axundov və Şərq. B., 1971.
137. Nuru Cavadov. Hisslərin inkişaf xüsusiyyətləri. B., 1998.
138. Mirzə Bala Məmmədzadə. Milli Azərbaycan hərəkatı. B., 1992.
139. Mirzə Əbdürrəhim Talıbov. Kitab yüklü eşşək. B., 1979.
140. Zeynalabdin Marağı. İbrahim bəyin səyahətnaməsi. B., 1982.
141. Əli bəy Hüseynzadə. Qərbin iki dastanında türk. B., 1998.

142. Əli bəy Hüseynzadə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. B., 1996.
143. Ə. Ağaoğlu. Sərbəst insanlar ölkəsində. B., 2001.
144. V. Quliyev. Ağaoğlular. B., 1997.
145. M. Ə. Rəsulzadə. Əsərləri. Birinci cild. B., 1992.
146. M. Ə. Rəsulzadə. Əsərləri. İkinci cild. B., 2001.
147. M. Ə. Rəsulzadə. Azərbaycan Cumhuriyyəti. B., 1990.
148. M. Ə. Rəsulzadə. Çağdaş Azərbaycan tarixi. B., 1991.
149. H. Əhmədov. Azərbaycan xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti. B., 1997.
150. Nağı Şeyxzamanlı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. B., 1997.
151. N. Yaqublu. Müsavat partiyasının tarixi. B., 1997.
152. N. Yaqublu. Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. B., 2001.
153. N. Yaqublu. Məhəmməd Əmin Rəsulzadə. B., 1991.
154. M. Orucova. Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992). B., 2001.
155. A. M. Topçubaşov. Memorandum (rusca). B., 1993.
156. Hamlet Qoca. Fransızlar yurdum haqqında. Qafqazın Azərbaycan Respublikası. B., 1990, s. 114-155.
157. K. Yaspers. Tarixin mənbələri və məqsədi. - Tarixin mənası və təyinatı. B., 2008.
158. K. Yaspers. Dövrün mənəvi durumu. - Tarixin mənası və təyinatı. B., 2008.
159. K. Yaspers. Fəlsəfi inam. - Tarixin mənası və təyinatı. B., 2008.
160. Hegel. Hüquq fəlsəfəsi. B., 2007.
161. Ə. Qəşəmoğlu. Sosial idarəetmənin fəlsəfi, sosioloji problemləri. B., 2008.
162. Ə. Ağaoğlu. Üç mədəniyyət. B., 2006.
163. MDA. 970, s. 1, sax. Vah. 143, s. 36.
164. Məhəmmədhəsən Vəlili (Baharlı). Azərbaycan. B., 1993.
165. F. İsmayılov. Dilin metafizikası. B., 2002.
166. Azərbaycan Sovet Ensiklopediyası. IV cild, B., 1980.
167. S. Xəlilov. Şərq və Qərb. B., 2004.
168. Ömər Xəyyam. Rübailər. B., 1984.
169. Azərbaycan tarixi. 3-cü cild, 1-ci hissə. B., 1973.
170. N. Nəsibzadə. Azərbaycanın xarici siyasəti. B., 1996.

171. M. Süleymanov. Azərbaycan ordusu. B., 1998.

172. A. Балаев. Азербайджанское национальное движение в 1917-1918 г. г. Б., 1998.

173. Z. Bünyadov. İki əsrin hüdudunda Azərbaycanda tarix elmi: vəziyyət və perspektivlər. "Elm və həyat" jurnalı, 1988, N10.

174. Cəmil Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920).

B., 1993.

175. N. Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair. B., 1992.

176. X. İbrahimli. Azərbaycan siyasi mühacirəti. B., 1996.

177. Marksizm-leninizm fəlsəfəsinin əsasları. B., 1980.

178. M. Fərhadoğlu. Fəlsəfənin əsasları. B., 2002.

179. Ə. Abbasov. Müasir dövrün sosmədəni problemləri. B., 2006.

180. Б. С. Ерасов. Социальная культурология. М., 1996.

181. Ş. Nuruzadə. XX əsrin 20-30-cu illərində Azərbaycanda etnokonfessional şərait və onun xüsusiyyətləri (tarix e. n. dis. Avtoreferat.) B., 2007.

182. Материалная культура. М., 1988.

183. Sovet Azərbaycanının ictimai elmləri. Biblioqrafiya göstəricisi. Arxeologiya və etnoqrafiya seriyası. B., 1983.

184. Известия Кавказского историко-археологического института в Тифлисе. Том-III, Тифлис 1925.

185. K. X. Əsədli. Ə. Ələkbərovun əsərlərində arxeologiya və etnoqrafiya elminin problemləri (t. t. n. avtoref), B., 2008.

186. F. İbişov. Azərbaycan kəndində sosial siyasi proseslər (1920-1930). B., 1996.

187. Z. Bünyadov. Qırmızı terror. B., 1993.

188. А. Балаев. Этноязыковые процессы в Азербайджане в XIX-XX вв. Б., 2005.

189. Toxunulmaz müqəddəslər. B., 1985.

190. М. Г. Велиев. Население Азербайджана. Музей этнографических сокровищ. Азербайджанский настольный календарь 1924-1925 гг. Б., 387-430.

191. E. Kərimov. XXI əsr və Azərbaycan etnoqrafiyasının bəzi problemləri. "Respublika" qəzeti, 19 yanvar 2000.

192. E. Kərimov. Azərbaycan etnoqrafiyası XXI əsrin astanasında. "Azərbaycan" qəzeti, 17 aprel 1997.

193. E. Kərimov, S. Nuruzadə. Ə. K. Ələkbərovun eləmə az məlum

olan əsərləri və elmi-təşkilati fəaliyyəti haqqında. Tarix və onun problemləri. 2000 N2.

194. Q. Cavadov. XX əsrin 20-ci illərində Azərbaycanda azsaylı xalqlar problemi. "Tarix və onun problemləri" jurnalı, 1998, 1(3).

195. И. Ф. Петрушевский. О дохристианских верованиях Нагорного Карабаха. Б., 1930.

196. Z. Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. B., 1989.

197. X. Xəlilli. Qarabağ: etnomənəvi inkişaf tarixi. B., 2006.

198. XIX əsrdə Azərbaycanda etnik və etnoqrafik qrupların öyrənilməsi tarixindən (rusca). Azərbaycan etnoqrafik məcmuəsi, 3-cü buraxılış. B., 1977.

199. Ə. Tahirzadə. "Kitabi-Dədə Qorqud"un faciəsi. B., 2002.

200. M. Allahmanov. XIX əsr – XX əsrin əvvəllərində Azərbaycanın qərb bölgəsinin mənəvi mədəniyyəti (t. E. N. dis. Avtoref.) B., 1997.

201. Т. Буниятов. Земледелие и скотоводства в Азербайджане в эпоху бронзы. Б., 1951.

202. T. Bünyadov. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair. B., 1964.

203. Г. А. Гулиев. Социальная культура и быта колхозного крестьянинство Азербайджана: по материалы Кубинского района. Автореф. дис. на соиск. Степ. учении. канд. ис. наук. М., 1953.

204. Г. А. Гулиев. Земледельческая культура Азербайджана. Автореф. Дис. На соиск. учен. степ. док. ис. наук. Б., 1996.

205. Q. Cavadov. Yazdım ki, izim qalsın. B., 2005.

206. Q. C. Cavadov. İnqilaba qədərki Azərbaycanda əkinçilik sistemi haqqında. Azərbaycan etnoqrafik məcmuəsi. 4-cü buraxılış. B., 1981.

207. A. Mustafayev, Q. Cavadov. Elmin paklığını qorumaq hamının borcu olmalıdır. B., 2002.

208. T. Bünyadov. Azərbaycanda maldarlığın inkişafı tarixindən. B., 1969.

209. Т. А. Бунятов. История земледелия и скотоводства в Азербайджане. Автореф. дис. док-ра ист. наук. Б., 1968.

210. С. А. Плетнева. Кочевники средневековья. М., 1982.

211. М. А. Исмайлов. О характере так называемого кочевого скотоводства в Азербайджане в XIX начале XX вв. «История СССР», 1976, N6.

212. Azərbaycan tarixi. 2-ci cild. B., 1964.

213. S. İ. Qlinka. Ermənilərin Azərbaycana köçürülməsi. B., 1995.

214. X. Вердиева, Ф. Гусейнзаде. «Родословная» армян и их миграция на Кавказа с Балкан. Б., 2003.

215. S. Ağamalıyeva. Azərbaycan dulusçuluğu (rusca). B., 2007.

216. R. Əliyev. Etnopsixologiya: qloballaşma və millilik. B., 2007.

217. Ə. S. Bayramov, Ə. Ə. Əlizadə. Psixologiya. B., 2002.

218. Ə. S. Bayramov, Ə. Ə. Əlizadə. Sosial psixologiya. B., 2003.

219. В. П. Алексеев. Этногенез. М., 1986.

220. Я. Я. Рогинский, М. Т. Левин. Антропология. М., 1978.

221. Q. Cavadov. Azərbaycanda əkinçilik təqvimi və xalq meteorologiyası. B., 1984.

222. R. A. Tahirov. Azərbaycanın Şimali-qərb rayonlarında bəzi məişət oyunları haqqında. Azərbaycan Etnoqrafik məcmuəsi. 2-ci buraxılış. B., 1965.

223. M. Dadaşzadə. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. B., 1985.

224. Atalar sözü. B., 1981.

225. Azərbaycan tarixi. 1-ci cild. B., 1961.

226. История Азербайджана. (макет). Т. 1. Б., 1954. Azərb. MEA Tarix İnstitutunun arxivi.

227. Azərbaycan tarixi üzrə qaynaqlar. B., 1989.

228. S.Y.Qasımova. Cənubi Azərbaycan III-VII əsrlərdə (rus dilində). B., 1983.

229. Azərbaycan Sovet Ensiklopediyası. 1-ci cild. B., 1970.

230. Sov. İKP XXIV qurultayının qərarları ilə əlaqədar olaraq ideoloji işi daha da gücləndirmək sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında Azərbaycan KP MK-nın plenumunun materialları. 29-30 oktyabr 1971-ci il. B., 1972.

231. Q. Qeybullayev. Qarabağ (etnik və siyasi tarixinə dair). B., 1990.

230. X. Xəlilov. Tarixşünaslıq, yoxsa təxribatçılıq? "Azadlıq" qəzeti, 7 oktyabr 1992.

231. M.Orucova. Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1992). B., 2001.

232. Ş. Nəzirli. Tam artilleriya generalı Səməd bəy Mehmandarov. B., 1997.

233. T. Svyatoxovski. Rusiya Azərbaycanı 1905-1920-ci illər. "Azərbaycan" jurnalı, 1989, N11.

234. Ə. Ş. Həşimov. Xalq pedaqogikasında tərbiyənin üsul və vasitələri. B., 1980.

235. Ə. Ş. Həşimov, F. B. Sadıqov. Azərbaycan xalq pedaqogikası. B., 1993.

236. İ. Əliyev. Etnopedaqoji materialların tərbiyəvi əhəmiyyəti. B., 1995.

237. Kitabi-Dədə Qorqud. B., 1988.

238. X. Xəlilli. Dədə Qorqud oğuznamələrinin yaranma tarixi və digər oğuznamələrlə paralellərinin dövrü və səbəbləri. B., 2007.

239. Ə. Tağıyev. Fəlsəfədən siyasətə. B., 2001.

240. F. Xəlilov. Adət və ənənələr. B., 1986.

241. A. Şükürov. İslam, adət və ənənə. B., 1981.

242. H. A. Quliyev. Azərbaycanda ailə məişətinin bəzi məsələləri. B., 1986.

243. Ə.S.Məmmədov, H. A. Quliyev. Azərbaycan adət və ənənələri. B., 1966.

244. X.Xəlilov. Azərbaycan milli-azadlıq hərəkatının ideya mənbələrindən. "Tarix və onun problemləri" jurnalı. B., 2000, N1.

245. Etnopsixologiya və etnopedaqogika: mənbələr və müasir problemlər. Respublika elmi konfransının tezisləri. B., 1992.

246. Ə.S. Bayramov. Psixoloji düşüncələr. B., 1994.

247. H. Bamat. Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu. B., 1994.

248. H. Крамер. История начинается в Шумере. M., 1951.

249. В. И. Авдиев. История древнего Востока. M., 1570.

250. История древнего мира. M., 1989.

251. Дж. Коллингвуд. Идея истории автобиография. M., 1980.

252. M. Блок. Апология истории. M., 1986.

253. Sov.İKP MK Siyasi Bürosunun SSRİ və dünya kommunist partiyalarına dirrektivi. Moskva 2.6.1947. Tamamilə məxfidir. K.A.A./S.S. 113.xk əmri (003) 47. – Azərbaycan müəllimi, 21.X.1997.

XƏLİYƏDDİN XƏLİLLİ

SOVET TARİXŞÜNASLIĞI – MİLLİ ÖLÜM ELMİ

Naşir: Rafiq Xan-Sayadoğlu
Texniki redaktor: Ülvi Arif
Dizaynerlər: İradə Əhmədova, Ceyhun Əliyev

Yığılmağa verilmişdir: 14.04.2010
Çapa imzalanmışdır: 27.05.2010
Tiraj 250; ş.ç.v. 25
«MBM» MMC mətbəəsində
çap olunmuşdur